Altıncı çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

On ikinci sessiya
Yaz

51-ci cild

2 – 31 may 2023-cü il

Milli Məclisin nəşri
Bakı – 2023

Milli Məclis Aparatının
Redaksiya və nəşr işləri şöbəsində
hazırlanmışdır

**ALTINCI ÇAĞIRIŞ**
**AZƏRBAYCAN RESPUBLİKASI**
**MİLLİ MƏCLİSİNİN**
**XII SESSİYASI İCLASININ**

# PROTOKOLU № 128

*Milli Məclisin iclas salonu.*
*2 may 2023-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 105 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 105 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**İsmət Səttarov**, Azərbaycan Respublikası Audiovizual Şurasının sədri.

**Həsən Şahhüseyn oğlu Cəfərov**, İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının üzvlüyünə namizəd.

**Əzim Zahid oğlu Talıbov**, İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının üzvlüyünə namizəd.

**Teymur Həşim oğlu Kərimli**, İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının üzvlüyünə namizəd.

**Sərxan Abbas oğlu Xavəri**, İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının üzvlüyünə namizəd.

**Azər Hacıqulu oğlu Həsrət**, İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının üzvlüyünə namizəd.

**Aqil Ələsgər oğlu Fərəcov**, İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının üzvlüyünə namizəd.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının tərkibində dəyişiklik edilməsi haqqında.

2. Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

3. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

4. "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

5. Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, "Notariat haqqında", "Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında" və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

6. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Polis haqqında", "Baytarlıq haqqında" və "Atçılıq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

7. "Minatəmizləmə sahəsində xidmətlərə görə" Azər-

baycan Respublikasının medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

8. “İctimai iştirakçılıq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

9. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

10. Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, “Torpaq islahatı haqqında”, “Energetika haqqında”, “Torpaq icarəsi haqqında”, “Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında”, “Torpaq bazarı haqqında”, “Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında”, “Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamənin təsdiq edilməsi barədə” və “Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

11. “Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

12. Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

13. Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

14. “Sosial müavinətlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

15. “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

16. “Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

17. “Sosial xidmət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov, Mahir Abbaszadə, Zahid Oruc, Elşad Mirbəşir oğlu, Aqil Məmmədov, Rüfət Quliyev, Elman Nəsirov, Ceyhun Məmmədov, Azay Quliyev, Əli Məsimli, Sabir Rüstəmxanlı

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.05 dəq.) |
| Lehinə | 103 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**1. İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının tərkibində dəyişiklik edilməsi haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Qənirə Paşayeva, Siyavuş Novruzov, Razi Nurullayev, Zahid Oruc, Bəhruz Məhərrəmov, Etibar Əliyev, Sahib Alıyev, Ceyhun Məmmədov, Sabir Rüstəmxanlı, İsa Həbibbəyli

**Təklif:** Həsən Şahhüseyn oğlu Cəfərov İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının üzvü

| **Səsvermənin nəticələri** | (saat 12.26 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**Təklif:** Teymur Həşim oğlu Kərimli İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının üzvü seçilsin

| **Səsvermənin nəticələri** | (saat 12.27 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**Təklif:** Azər Hacıqulu oğlu Həsrət İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının üzvü seçilsin

| **Səsvermənin nəticələri** | (saat 12.27 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 5 |
| Bitərəf | 5 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**2. Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Hicran Hüseynova

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**3. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nurlan Həsənov

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 12.31 dəq.) |
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

**4. “Notariat haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nurlan Həsənov

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 12.32 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

**5. Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, “Notariat haqqında”, “Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında” və “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nurlan Həsənov, Siyavuş Novruzov, Tahir Mirkişili

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**6. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Polis haqqında", "Baytarlıq haqqında" və "Atçılıq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Tahir Rzayev

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**7. "Minatəmizləmə sahəsində xidmətlərə görə" Azərbaycan Respublikasının medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nizami Səfərov, Razi Nurullayev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.43 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |

Nəticə: Qəbul edildi

**8. "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azay Quliyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.46 dəq.) |
|---|---|
| Lehinə | 84 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 86 |

Nəticə: Qəbul edildi

**9. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Qüdrət Həsənquliyev, Erkin Qədirli

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.53 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**10. Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, "Torpaq islahatı haqqında", "Energetika haqqında", "Torpaq icarəsi haqqında", "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında", "Torpaq bazarı haqqında", "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında", "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamənin təsdiq edilməsi barədə" və "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Rzayev, Nurlan Həsənov, Tahir Mirkişili, Sadiq Qurbanov, Siyavuş Novruzov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.57 dəq.) |
|---|---|
| Lehinə | 98 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**11. "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov, Fəzail Ağamalı

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**12. Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Hicran Hüseynova

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.24 dəq.) |
|---|---|
| Lehinə | 97 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs verмədi | 2 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**13. Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nurlan Həsənov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.24 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**14. "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev, Siyavuş Novruzov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.24 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

**15. "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.25 dəq.) |
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

**16. "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.25 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

**17. "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.26 dəq.) |
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*2 may 2023-cü il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri*
***Sahibə Qafarova** sədrlik edir*

**Sədrlik edən.** Xoş gördük, hörmətli deputatlar, hörmətli media nümayəndələri, hörmətli qonaqlar. Hörmətli həmkarlar, xahiş edirəm, qeydiyyatdan keçək. Buyurun.

| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
|---|---|
| İştirak edir | 105 |
| Yetərsay | 83 |

Çox sağ olun, iclasa başlaya bilərik.

Hörmətli deputatlar! Bildiyiniz kimi, Milli Məclis sədrinin rəhbərliyi ilə nümayəndə heyəti aprelin 27 və 28-də Türkiyə Respublikasının paytaxtı Ankara şəhərində işgüzar səfərdə olmuşdur. Səfərdə məqsəd Türk Dövlətləri Parlament Assambleyasının 12-ci plenar iclasında iştirak etmək idi. Qeyd edim ki, iclasda "Daha ədalətli dünya üçün parlament diplomatiyası: enerji, miqrasiya, ərzaq" mövzusu ətrafında müzakirələr aparıldı.

Mən öz çıxışımda TÜRKPA-nın fəaliyyətinin ölkələrimiz arasında birlik və həmrəyliyin güclənməsinə parlament dəstəyini təmin etdiyini, eyni zamanda, türk dünyasının vahid mövqeyinin beynəlxalq parlament platformalarında eşidilməsinə imkan yaratdığını qeyd etdim. Regionumuzda və daha geniş məkanda təhlükəsizlik, sabitlik və rifahın təmin edilməsində, miqrasiya proseslərinin mənfi nəticələrinin idarə olunmasında, zəngin neft-qaz ehtiyatlarımızın beynəlxalq bazarlara nəql edilməsində dövlətlərimizin əməkdaşlığının, məsuliyyətli davranışlarının, irəli sürdüyü təşəbbüslərin əhəmiyyəti barədə fikirlərimi bölüşdüm. Azərbaycan torpaqları Ermənistanın işğalından azad edildikdən sonra həyata keçirilən genişmiqyaslı quruculuq işləri barədə də məlumat verdim.

Cənubi Qafqaz bölgəsində uzunmüddətli sülh və sabitliyin təmin edilməsi üçün Azərbaycanın göstərdiyi səylərə mane olan amilləri, o cümlədən Ermənistanın mina terrorunun davam etdiyini, onun yalan iddialar ilə beynəlxalq ictimaiyyəti aldatdığını, revanşist qüvvələrə meydan verdiyini, etnik zəmində nifrəti və irqi ədavəti təşviq etdiyini, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində hərbi təxribatlar törətdiyini tədbir iştirakçılarının nəzərinə çatdırdım. Bu təxribatların qarşısının alınması məqsədi ilə Azərbaycanın suveren hüququndan istifadə edərək beynəlxalq hüquq prinsipləri və normaları əsasında Laçın–Xankəndi yolunun başlanğıcında, Ermənistanla sərhəddə nəzarət-buraxılış məntəqəsi qurduğunu da bildirdim.

Hörmətli həmkarlar! İclasda bir sıra mühüm qərarlar da qəbul edildi. Xüsusən Qoşulmama Hərəkatının Parlament Şəbəkəsində TÜRKPA-nın müşahidəçi statusu alması ilə bağlı müraciət edilməsi məsələsi nəzərdən keçirildi və

dəstəkləndi. Bununla yanaşı, Türk Dövlətlərinin Parlament Assambleyasında Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin müşahidəçi statusu əldə etməsi ilə bağlı müraciətinə baxıldı və Parlament Şəbəkəsinə Assambleyada müşahidəçi statusu verildi. Eləcə də TÜRKPA-nın növbəti 13-cü plenar iclasının gələn ilin may-iyun aylarında Azərbaycanda keçirilməsi qərara alındı. Parlament Assambleyasının plenar iclası Ankara Bəyannaməsinin qəbul olunması ilə başa çatdı.

Hörmətli həmkarlar! Ankaraya işgüzar səfər çərçivəsində Türkiyə Böyük Millət Məclisinin sədri cənab Mustafa Şentopla görüşümüz oldu. Görüşdə qardaş dövlətlərimiz arasında münasibətlərin dərinləşməsində parlamentlərarası əməkdaşlığın rolu ilə bağlı müxtəlif məsələlər də nəzərdən keçirildi. Görüşün sonunda Azərbaycan Milli Məclisi ilə Türkiyə Böyük Millət Məclisi arasında Əməkdaşlıq haqqında Saziş də imzalandı. Bu günə qədər belə bir saziş yox idi, ona görə də biz onu imzaladıq.

Hörmətli həmkarlar! Mən hesab edirəm ki, nümayəndə heyətimizin Ankaraya işgüzar səfəri uğurla keçdi və bununla əlaqədar nümayəndə heyətinin hər bir üzvünə öz dərin minnətdarlığımı bildirirəm.

İndi isə, hörmətli həmkarlar, xahiş edirəm, gündəliyin qəbul olunmasına münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.05 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

Çox sağ olun, gündəlik qəbul edildi.

Hörmətli həmkarlar, həmişə olduğu kimi, bizim 30 dəqiqəmiz var. 10 nəfər çıxış edə biləcək. Xahiş edirəm, yazılın. Kim yazılmaq istəyirsə... Kamal Cəfərov. Buyurun. Hamıdan xahiş eləyəcəm, 3 dəqiqə reqlament yaddan çıxarılmasın. Buyurun.

**K.Cəfərov**. Çox sağ olun, hörmətli xanım sədr. Bu gün bir neçə məsələyə münasibət bildirmək istəyirəm. Birincisi, dünən cənab Prezident "Sabirabad şəhərində avtomobil yollarının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında" Sərəncam imzaladı. Bununla əlaqədar bütün sabirabadlılar adından cənab Prezidentə təşəkkür edərək minnətdarlığımı səsləndirmək istəyirəm.

İkincisi. Sumqayıt idman məktəbində məşqçinin 7 yaşlı Fəridə qarşı törətdiyi vəhşiliyi, amansızlığı, yəqin, hər biriniz izlədiniz. Görüntülərdən açıq-aşkar aydın olur ki, Mehman Xəlilov təkcə Fəridə qarşı deyil, məşqdə iştirak edən digər azyaşlı uşaqlara qarşı da xüsusi qəddar davranıb. Onları saçından, başından, qulağından tutaraq havaya qaldırır. Hesab edirəm ki, bu məsələyə xüsusi yanaşmanın göstərilməsi mühümdür. Gənclər və İdman Nazirliyi, Olimpiya Komitəsi və federasiyalar təcili müzakirələrə başlamalı, regionlarda fəaliyyət göstərən idman müəllimləri ilə profilaktik söhbətlər etməli, onlar üçün xüsusi davranış qaydaları hazırlayaraq təşviq etməlidirlər. Eyni zamanda, bütün idman zallarında kameraların quraşdırılması məcburi olmalıdır. Buradan uşaqlarımıza demək istəyirəm ki, əgər siz də məşq zamanı pis rəftarla üzləşsəniz, mütləq 102-yə zəng edin və polisə məlumat verin.

Üçüncüsü. Azərbaycan–Ermənistan sərhəddində Laçın sərhəd buraxılış məntəqəsinin qurulması təkcə milli təhlükəsizlik deyil, regional təhlükəsizlik məsələsi idi. Əs-

lində, məsələdən daha çox zərurət idi. Azərbaycan Prezidentinin bu qətiyyəti sülh danışıqları prosesində yeni reallıq yaratdı və Laçın sərhəd buraxılış məntəqəsini Zəngəzur dəhlizinin başlanğıcı etdi. Digər tərəfdən, müşahidə göstərir ki, Azərbaycan sərhədçisi Qarabağ bölgəsində yaşayan erməni əhalisi ilə dialoq qura bilir, ermənilər də bu reallığı başa düşür və Azərbaycan qanunlarına tabe olur və birgə yaşayış kontekstində bu, çox mühüm yenilikdir. Bəzi dövlətlərin və beynəlxalq təşkilatların bu təşəbbüsü dəstəkləmək, erməniləri Azərbaycan qanunlarına tabe olmağa həvəsləndirmək əvəzinə, verdikləri destruktiv bəyanatlar qəbuledilməzdir. Heç bir bəyanat bizi haqq yolundan döndərə bilməyəcək.

Yekunda isə qeyd etmək istəyirəm ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin seçkiqabağı İstanbulda keçirilən TEKNOFEST festivalında iştirak etməsi, Türkiyə Cümhuriyyətinin Prezidenti cənab Rəcəb Təyyib Ərdoğanla birgə dayanaraq türk dünyasına mesaj verməsi şərəfli bir tarix idi. “Bir millət, iki dövlət” anlayışını, sözün əsl mənasında, sübut edən, Türkiyə və Azərbaycan arasındakı münasibətləri bir yumruq səviyyəsinə çatdırmağı bacaran Azərbaycan Prezidenti İlham Əliyev həm də Qafqaz kişisinə xas xarakteri ilə, mərdliyi ilə, etibarlı qardaş olması ilə türk dünyasına, qafqaz xalqlarına, postsovet məkanına bir daha nümunə göstərdi. Əsl qardaş, tərəfdaş, lider necə olmalıdır, bütün dünyaya göstərdi. Cənab Prezident, biz Sizinlə fəxr edirik. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, sonuncu çıxış edən Əli Məsimli olacaq. Çünki bir nəfər çıxış elədi, 9 nəfər qalıb. Xahiş edirəm, Əli müəllimdən sonra kim yazılıbsa, özünüz çıxın. Mahir Abbaszadə. Buyurun.

**M.Abbaszadə**. Çox sağ olun, xanım sədr. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri! Azərbaycan 44 günlük Vətən müharibəsində qələbə əldə etdikdən sonra əgər qarşımızda duran əsas məqsədlərdən biri torpaqları işğaldan azad etdikdən sonra bərpa-quruculuq proseslərini həyata keçirmək idisə, eyni zamanda, əsas məsələlərdən biri sərhədlərimizdə təhlükəsizliyin təmin edilməsi idi. Çünki biz Vətən müharibəsindən sonra Ermənistanla 30 il müddətində pozulmuş təxminən 400 kilometrlik sərhədlərimizi bərpa etmişdik və bu nöqteyi-nəzərdən təhlükəsizlik məsələlərinin təmin edilməsi vacib məqamlardan biri idi. Məhz bu yaxınlarda Laçın rayonunun Xankəndi–Laçın yolunun başlanğıcında Azərbaycan tərəfdən sərhəd mühafizə məntəqəsinin qoyulması təhlükəsizliyin və sülhün davamlı olması nöqteyi-nəzərindən vacib məqamlardan biridir. Nəzərə alsaq ki, ermənilər məhz bu yoldan humanitar məqsədlər üçün deyil, Qarabağa silah-sursatın, hərbi texnikanın, minaların daşınması kimi hərəkətlər edirdilər və bu da Qarabağda hərbi təhlükələri artırmaqda davam edirdi, Qarabağın özündə də təhlükəsizliyin təmin olunması nöqteyi-nəzərindən qoyulmuş mühafizə postu vacib məqamlardan biridir.

Möhtərəm cənab Prezidentin verdiyi anonslardan da görürük ki, yaxın zamanlarda Böyük Qayıdışın əlamətlərindən biri olan Laçın şəhər mərkəzinə, Zabux və Sus kəndlərinə bu ərazilərdən məcburi köçkün düşmüş insanların geri qayıtması təmin ediləcəkdir. Məhz köçürülmüş insanlar üçün cənab Prezidentin rəhbərliyi ilə evlərin tikilməsi, infrastrukturun salınması, sosial obyektlərin qurulması, vergi güzəştlərinin tətbiq edilməsi ilə bərabər, təhlükəsizliyin də təmin olunması çox vacib məqamlardan idi. Məhz qoyulmuş mühafizə postu bir daha göstərir ki,

Azərbaycan dövləti köçürüləcək insanların mühafizəsini yüksək səviyyədə həyata keçirəcək, Azərbaycan Silahlı Qüvvələri tərəfindən təhlükəsizlik təmin ediləcəkdir. Bu mühafizə postunun qoyulması heç də o anlama gəlməli deyil ki, biz Qarabağda yaşayan ermənilərin Ermənistana gediş-gəlişinin qarşısını almaq məqsədi ilə postu qurmuşuq. Humanitar məqsədlər üçün bu yol yenə açıqdır, Azərbaycanın qanunlarına tabe olmaq nöqteyi-nəzərindən bu yoldan istifadə etmək hüquqlarını özlərində saxlayırlar. Bir sözlə, qoyulmuş post bir daha Azərbaycanın 30 il müddətində pozulmuş sərhədlərinin bərpa olunmasına və buraya köçürüləcək insanların təhlükəsizliyi baxımından çox vacib bir məqamdır. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Sağ olun. Zahid Oruc. Buyurun.

**Z.Oruc.** Hörmətli sədr, beynəlxalq təhlükəsizlik sisteminin hazırkı böhran şəraitində Türkiyədə keçirilən prezident seçkiləri müstəsna əhəmiyyət daşıyır. Mühüm beyin mərkəzləri, eləcə də "The Washington Post", "Bloomberg News" kimi nüfuzlu dərgilər seçki nəticələrini Vaşinqton və Moskva ilə birlikdə Avropa, Yaxın Şərq, Mərkəzi Asiya və Afrika ölkələrində geosiyasi və iqtisadi hesabları yenidən dəyişəcək hadisə kimi qiymətləndirir. Göründüyü kimi, son 20 ildə sürətli dəyişikliklərlə mənəvi və siyasi coğrafiyasını genişləndirən Türkiyə bölgə dövləti statusundan çıxıb və seçkilər təkcə ölkəiçi hadisə deyil. Çin seçimlərdə kimə üstünlük verdiyini açıq bildirir. Rusiya Prezidenti "Akkuyu" Atom Elektrik Stansiyası ilə nüvə klubuna qoşulan Ərdoğanı dünyada lider böhranı şəraitində əvəzolunmaz adlandırır.

Azərbaycan xalqının Türkiyəyə xüsusi rəğbətinin kökündə başlıca olaraq Ulu Öndərin "Bir millət, iki dövlət" ideyasının gerçəkləşməsi və Vətən müharibəsində qələ-

bəmizə göstərilən mənəvi-siyasi yardım dayanır. Halbuki müstəqilliyimizi 1991-ci ildə ilk tanıyan dövlətlə strateji müttəfiqliyə yalnız 2010-cu ildə nail olundu. Əgər 1990-cı illərdə Türkiyə Azərbaycana iki vertolyot verməkdə risk görürdüsə, 2020-ci ildə F16 təyyarələrinin ölkəmizdə varlığı xarici təhlükələrə qarşı birgə savaşın simvoluna çevrildi. Nəticədə işğala məruz qalan ölkə statusu dünyada tək qalib dövlət səviyyəsinə yüksəldi. Çanaqqala və Şuşa zəfəri eyni qurtuluş hərəkatı adlandı. Ona görə də Sosial Tədqiqatlar Mərkəzi Türkiyədə keçiriləcək seçkilərə cəmiyyətimizin münasibətini öyrənməyə çalışdı. Bəlli oldu ki, Azərbaycan vətəndaşlarının əksəriyyəti, yəni 83,8 faizi Türkiyənin seçkilərlə bağlı siyasi gündəmini izləyir, 73,3 faizi isə nəticələri ölkəmiz üçün çox əhəmiyyətli sayır. Vətəndaşlarımızın 90,4 faizi seçkilərdə Rəcəb Təyyib Ərdoğanın qalib gəlməsini dəstəkləyir. Yalnız 5,1 faizi Kamal Kılıcdaroğlunun qalib görməyini arzulayır. Rəcəb Təyyib Ərdoğana rəğbətin səbəbləri Vətən müharibəsində qələbəyə göstərilən prinsipial mənəvi-siyasi dəstəyə, azad olunan torpaqlara səfərlərə və zəfərimizin simvolu olan Şuşada imzalanan hərbi-siyasi müttəfiqlik bəyannaməsinə, İranın ölkəmizə artan təzyiqlərinə qarşı göstərilən qətiyyətli mövqeyə, Ermənistanla aparılan sülh danışıqlarında birgə hərəkətə, Rusiya–Ukrayna müharibəsində Türkiyəni lider eləyən müstəqil siyasətə görə olduğu üzə çıxır.

Rəyi soruşulanların 68,7 faizi seçkilərdə yalnız Rəcəb Tayyib Ərdoğan qalib gələrsə, Türkiyənin bütün imkanları ilə Azərbaycanın yanında olacağını bildirir. 26 faizi isə hansı namizədin qalib gəlməsindən asılı olmayaraq, Türkiyə–Azərbaycan müttəfiqliyinin inkişaf edəcəyinə inamını ifadə eləyir. Nəticələr bir daha sübut edir ki, Azərbaycan cəmiyyəti Türkiyənin gələcək siyasətinin dəyiş-

məməsini gözlənilən sülh müqaviləsi, Zəngəzur yolunun açılması, türk və islam dünyasının sabahı üçün görür. Amma bütün hallarda əsas söz sahibi türk xalqıdır və min illərin dövlətini qurmuş bu millət gələcək həyatını bir daha da öz səsi ilə müəyyənləşdirəcəkdir. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Zahid müəllim, bu rəsmi rəqəmlərdir? Sizin təşkilatınızın apardığı sorğunun nəticələri?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Elşad Mirbəşir oğlu. Buyurun.

**E.Mirbəşir oğlu**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli deputatlar, Ermənistan ölkəmizə qarşı mina terrorunu sistemli şəkildə davam etdirməkdədir. Ötən əsrin 1990-cı illərindən bu günə qədər 3300-dən artıq Azərbaycan vətəndaşı Ermənistanın mina terrorunun qurbanı olub. Təkcə son bir həftə ərzində 4 vətəndaşımız Ermənistanın mina terroru nəticəsində həyatını itiribdir. Bütün bunlar aydın nümayiş etdirir ki, Ermənistan həm beynəlxalq hüquq normalarını, həm də, bütövlükdə, regionda Azərbaycanın iradəsi ilə formalaşan sülh imkanlarına olduqca laqeyd münasibət bəsləməkdədir. Təbii ki, bu, regional sülhü və təhlükəsizliyi çox ciddi təhdidlər qarşısında qoyur.

Aprel ayının 28-də Ermənistanın növbəti mina terroru üç Azərbaycan vətəndaşının həyatına son qoydu. Diqqətçəkən bir məqam da ondan ibarətdir ki, Azərbaycanda fəaliyyət göstərən, müxtəlif ölkələrin səfirlikləri öz kədərlərini, təəssüf hislərini, narahatlıqlarını bildirdilər. Lakin heç bir halda bu mina terrorunun kimin tərəfindən həyata keçirildiyini səsləndirmədilər.

Yaxşı xatırlayırıq ki, 30 il müddətində də Ermənistanın işğalçılıq siyasətinin üstündən sükutla keçirilirdi. Məsələn,

1993-cü ildə BMT Təhlükəsizlik Şurası tərəfindən 4 qətnamə qəbul edildi. Azərbaycan ərazilərinin boşaldılması tələb edilirdi. Amma kimin tərəfindən boşaldılmalı olduğu göstərilmirdi. Təbii ki, bütün bunlar da Ermənistana özünü tam cəzasızlıq şəraitində hiss etməsi üçün münbit şərait yaradırdı. Bu gün də biz analoji yanaşmanı görməkdəyik. Ona görə də, hesab edirəm, buradan bir çağırış etməkdə fayda vardır ki, Ermənistanın mina terroru nəticəsində Azərbaycan vətəndaşları həyatını itirdiyi halda, bu terrorun kimin tərəfindən həyata keçirildiyi aydın ifadə olunsun. Bu, çox vacibdir, Azərbaycanın öz haqlı mövqelərini dünyada qəbul etdirməsi baxımından vacibdir. Ona görə də bir daha buradan Azərbaycanda fəaliyyət göstərən səfirliklərin, diplomatik korpusların nümayəndələrinə çağırış etməkdə, hesab edirəm, əhəmiyyət vardır ki, onlar Ermənistanın mina terroruna xüsusi diqqət çəksinlər. Çünki bu, bütövlükdə, BMT tərəfindən, ayrı-ayrı müvafiq institutlar tərəfindən beynəlxalq mina təhlükəsizliyinin təmin olunması istiqamətində fəaliyyətə çox ciddi əngəl yaratmaqdadır. Hesab edirəm, həqiqətən də, beynəlxalq mina terroruna qarşı, mina təhlükəsizliyi istiqamətində fəaliyyət göstərmək istəyi varsa, mütləq şəkildə Ermənistana xüsusi...

**Sədrlik edən.** Sağ olun. Aqil Məmmədov. Buyurun, Aqil müəllim.

**A.Məmmədov**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar, hörmətli media nümayəndələri. Mən seçicilərimizin iki müraciətini sizlərin və aidiyyəti qurumların diqqətinə çatdırmaq istəyirəm. Hər birimizə məlumdur ki, torpaqlarımız işğaldan azad edildikdən sonra möhtərəm cənab Prezidentin rəhbərliyi ilə həmin ərazilərdə genişmiqyaslı tikinti-quruculuq işləri bərpa edilib və

bu gün də sürətlə həyata keçirilib. Bu səbəbdən də həmin ərazilərdə çoxlu sayda vətəndaşımız işlə təmin olunub fəaliyyətlərinə davam edirlər.

Eyni zamanda, Kəlbəcər rayonuna məxsus idarə və müəssisələr bu gün Kəlbəcərdə qismən də olsa, fəaliyyətlərini bərpa edir.

Əlavə olaraq, yaz və yay mövsümündə təsərrüfatla məşğul olan fermerlərimizin, vətəndaşlarımızın mal-qaralarının, arı ailələrinin həmin yaylaqlarda yerləşdirilməsi üçün lazımi şərait yaradılmışdır. Bu, ildən-ilə getdikcə artmaqdadır. Əlbəttə, bunlar hamısı təqdirəlayiq hallardır.

Son aldığımız məlumata görə, xüsusən də yay aylarında on minə yaxın, bəzən də on mindən artıq insan orada fəaliyyət göstərir. Bilirsiniz, xəstələnmə halları da qaçılmazdır. Məhz buna görə də vətəndaşlarımız bunların nəzərə alınması, ilkin tibbi yardım göstərilməsi ilə əlaqədar lazımi tədbirlərin həyata keçirilməsini xahiş etmişlər. Mən də bunu nəzərə alıb, Səhiyyə Nazirliyindən, eyni zamanda, TƏBİB-in rəhbərliyindən xahiş edərdim ki, bu məsələlərlə bağlı lazımi tədbirlər həyata keçirsinlər.

Sakinlərimizin ikinci müraciəti ondan ibarətdir ki, azad edilmiş ata-baba yurdlarını, əzizlərinin qəbirlərini ziyarət etmək üçün şəraitin yaradılmasını xahiş edirlər. Hazırda Kəlbəcər rayonuna, digər işğaldan azad olmuş bölgələrimizə gediş-gəlişlə əlaqədar müəyyən məhdudiyyətlər var. Bu da vətəndaşlarımızın təhlükəsizliyinin təmin edilməsi ilə əlaqədar olaraq atılan addımdır, başadüşüləndir. Amma qeyd etmək lazımdır ki, Kəlbəcər rayonuna payız və qış aylarında gediş-gəliş olduqca çətindir. Məhz buna görə də yay aylarında vətəndaşlarımızın, – xüsusən də şəhid ailələri, qazilər, yaşlı insanlar nəzərə alınmaqla, təbii ki, təhlükəsizliyi gözlənmək şərti ilə, planlı şəkildə, – heç

olmasa, həftədə bir dəfə bu cür səfərlərinin təşkil edilməsini aidiyyəti qurumlardan xahiş edərdim. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Rüfət Quliyev. Buyurun.

**R.Quliyev.** Təşəkkür edirəm, xanım sədr. Hörmətli millət vəkilləri, hörmətli qonaqlar, hörmətli media nümayəndələri. Mən iki məsələ ilə əlaqədar danışmaq istəyirəm. Biz bu gün çox fəxr edirik ki, Azərbaycanda böyük işlər görülür. O cümlədən bu gün Azərbaycanın avtoyolları bəlkə də dünyada birincilərdən biridir. Burada da bir problem yaranıbdır. Mən konkret deyəcəyəm. Lənkəranda Sütəmurdov kəndindəki yolda, – o kəndə girəndə Stalinqrad döyüşünə oxşayır, – hər gün olmasa da, ayda çoxlu hadisə olur. Mən dəfələrlə müraciət etmişəm ki, orada radarlar qoyulsun. Düzdür, işıqfor, müəyyən işarələr qoydular. Amma yenə də orada maşınlar yüksək sürətlə sürülür və insanlar həlak olur. Təxminən bir həftə bundan öncə iki balaca uşaq maşınla vurulub, ikisi də xəstəxanada reanimasiyadadır. Mən Lənkəran Rayon Polis şöbəsinin rəisindən xahiş edəndə hər dəfə köməklik edir, maşınla radarlar qoyur. Amma orada daimi radar qoyulması üçün mən 8 aya yaxındır müraciət edirəm. Radar olmasa, insanların qəzaya düşmə və ölüm halları yenə də baş verəcək. Mən bəlkə bu gün daxili işlər nazirinə bir məktub yazacam və cənab nazirdən xahiş edəcəyəm ki, tezliklə ora bir radar qoyulsun, insanların canı bundan qurtarsın.

İkinci məsələ. Biz, həqiqətən, fəxr edirik ki, Azərbaycanda tikintilər gedir, tikinti işləri ilə məşğul olan bir çox şirkət var, milyon kvadratmetrlə yeni mənzillər verilir. Amma əfsuslar olsun ki, bu günə qədər də fırıldaqçılıqla məşğul olan şirkətlər var. İnsanlardan pul alırlar, insanları yubadırlar, aldadırlar. Mən bu şirkətlərin birinin adını

çəkmək istəyirəm. Son 4 aydır ki, bununla məşğul oluram. Bakı İnşaat MMC. Deməli, məndə rəsmi məktub, müraciət var. İnsanların pullarını alıblar, 4-5 aydır, yubadırlar. Mənim köməkçim dəfələrlə onların rəhbəri Zahir Əsgərova müraciət etmək istəyib, amma telefonu qaldırmır, söhbətdən qaçır. İşçiləri cavab verir. Ona görə mən belə fikirləşirəm ki, belə şirkətlərə qarşı...

**Sədrlik edən.** Sağ olun. Elman Nəsirov. Buyurun.

**E.Nəsirov**. Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli media nümayəndələri! Xanım sədr, ilk növbədə mən Sizi növbəti uğurlu səfəriniz münasibəti ilə təbrik edirəm. Bugünkü çıxışımda Azərbaycan–Türkiyə münasibətləri ilə bağlı son duruma bir daha toxunmaq istəyirəm. Heç kəsə sirr deyil ki, bu gün dünyada dövlətlər arasında bir etimadsızlıq mühiti formalaşmaqdadır. Bu reallıq fonunda, əslində, "Dövlətlərin arasındakı münasibətlər necə olmalıdır?" sualına cavab axtarsaq, mənə elə gəlir ki, çox da dərin xəyallara getməyə, çox dərin təhlilə ehtiyac yoxdur. Azərbaycan–Türkiyə münasibətləri bir nümunədir, bir örnəkdir. Xüsusilə də Azərbaycan Prezidenti cənab İlham Əliyevin aprel ayının 29-da İstanbulda keçirilən TEKNOFEST festivalında iştirakı və qardaşı dövlətin Prezidenti ilə birlikdə keçirdiyi görüşlər və səsləndirdiyi fikirlər bir daha onu təsdiqləyir ki, Azərbaycan–Türkiyə münasibətləri öz tarixinin ən yüksək nöqtəsdindədir. Biz ənənəvi strateji müttəfiqlik münasibətlərimizi artıq rəsmən bu səviyyəyə qaldırmışıq. Bizim münasibətlərimiz əvvəllər də yüksək olub, amma indiki səviyyəyə heç zaman çatmayıb. Dövlətlərimiz, xalqlarımız, prezidentlərimiz dost, qardaşdır. Ulu öndər Heydər Əliyevin türk dünyasında çox böyük cəzbetmə qüvvəsinə malik olan "Bir millət, iki dövlət" ifadəsinə ölkə Prezidenti cənab İlham Əliyev

növbəti əlavəsini etdi və söylədi ki, “Bir millət, iki dövlət və bir yumruq”. Həqiqətən də, bu sonuncu fikir bizi sevən, bizə dost olan ölkələrə bir çağırışdır ki, gəlin, bir yumruq ətrafında birləşək.

Eyni zamanda, bizə xəbis gözlərlə baxan, Azərbaycan və Türkiyənin bu qardaşlığından yuxusuna haram qatılan qüvvələrə də çox ciddi mesajdır ki, biz bir yerdəyik və bir yumruğuq. Xüsusi ilə də Kahramanmaraş şəhərinin tikintisi, yenidən qurulması prosesində Azərbaycanın yaxından iştirakı, min evin tikintisi ilə bağlı Azərbaycan Prezidentinin səsləndirdiyi fikirlər türk dünyasında çox yüksək qarşılanıb. Bu, bir həqiqətdir. İnanın, əgər Azərbaycan xalqının da belə bir hüquqi əsası olsa idi ki, Türkiyədə keçirilən prezident seçkilərində iştirak etsin, yəni belə bir hüququmuz olsa idi, Azərbaycan xalqının mütləq əksəriyyəti məhz Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana səs verərdi. Eyni məntiqlə də hesab edirəm, 2025-ci ildə Azərbaycanda keçiriləcək Prezident seçkilərində türk xalqının da iştirakının hüquqi əsaları olsa idi, türk xalqı da birmənalı şəkildə Azərbaycan Prezidenti...

**Sədrlik edən.** Sağ olun. Ceyhun Məmmədov.

**C.Məmmədov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Məlum olduğu kimi, Prezident İlham Əliyevin rəhbərliyi ilə son günlər İranla gərginliyin azaldılması, ölkələrimiz arasında münasibətlərin normallaşdırılması istiqamətində mühüm addımlar atılır. Son dövrlər İranın da siyasətində bu dəyişiklik açıq hissi olunur, əvvəlki dövrlərdəki sərt bəyanat və ittihamlar artıq yoxdur. Bu addımların atılması çox önəmlidir. İnsanlarımız da bilməlidir ki, nə İran, nə də Azərbaycan bu bölgədən gedəndir. Biz mütləq normal qonşuluq münasibətlərini qurmalıyıq.

Bir məqam üzərində durmaq istəyirəm. Bir neçə gündür, mediada davamlı olaraq ölkəmizə qarşı çağırışlar edən, "Kərimə dövlətinin" qurulması ilə bağlı fikirlər səsləndirən və bizim gənclərimizi təşkilatlanmağa çağıran, təxribatlara təhrik edən iki şəxsin həbsi ilə bağlı məlumatlar geniş yayılmaqdadır. Məlum məsələdir ki, təkcə bu iki şəxs deyil, çoxlu sayda şəxs orada oturaraq, xüsusi ilə bizim münasibətlərimizin gərginləşdiyi vaxtda Azərbaycana qarşı müəyyən iddialar və ittihamlar səsləndirir. Bu da nəticədə münasibətlərin gərginləşməsinə səbəb olur. Hesab edirəm, İran tərəfi Azərbaycan tərəfinin də yanaşmasını nəzərə alaraq, hər iki şəxsin Azərbaycana təhvil verilməsinə çalışmalıdır. Onların azad olunduğu təqdirdə yenidən münasibətlərin gərginləşməsi, "Kərimə dövləti"nin qurulması ilə bağlı çağırışlar edəcəyi şübhəsizdir. Eyni zamanda, düşünürəm ki, biz bir müddətdir, başlatdığımız radikal təriqətlərə qarşı mübarizəni də eyni qaydada davam etdirməliyik. Son günlər hüquq mühafizə orqanları bu istiqamətdə çox ciddi addımlar atırlar. Amma bu da reallıqdır ki, bu cür insanların sayı ölkəmizdə on minlərcədir.

Biz dini fəaliyyət sahəsində də islahatları sürətləndirməliyik. Bu gün Azərbaycanın suverenliyi, müstəqilliyi üçün ən ciddi təhdidlərdən biri siyasiləşmiş və radikal islamdır. Ona görə də bunun qarşısının alınması üçün bu cür adamların həbsi istiqamətində addımlar atılmalıdır, bu düşüncədə, bu təfəkkürdə olan insanlar da bizim məscidlərimizdən, vəzifələrindən uzaqlaşdırılmalıdır. Onu da qeyd etmək lazımdır ki, biz bunu bir kompleks tədbirlər şəklində həyata keçirməliyik. Əgər bu tədbirlər bu istiqamətdə davamlı olaraq həyata keçirilməsə, biz zaman-zaman yenidən eyni problemlərlə üzləşəcəyik. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Azay Quliyev. Buyurun.

**A.Quliyev.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli xanım sədr, Siz də, bizim digər həmkarlarımız da çıxışınızda Ermənistanın Azərbaycana qarşı davamlı olaraq törətdiyi mina terroruna toxundunuz. Həqiqətən, bu o qədər aktual məsələdir ki, mən də buna toxunmaq istərdim. Bilirsiniz ki, aprelin 28-də baş vermiş son hadisədən, yəni 3 mülki vətəndaşımızın mina partlaması nəticəsində həlak olmasından sonra vətəndaş cəmiyyəti institutları, qeyri-hökumət təşkilatları, hüquq müdafiə təşkilatları bir araya gəldilər və beynəlxalq ictimaiyyətə müraciət ünvanladılar. Müraciətdə əsas məqsəd o idi ki, beynəlxalq ictimaiyyətdən bir daha tələb etsinlər ki, nəhayət, bu haqsızlığa, Ermənistanın törətdiyi bu cinayətə, müharibə cinayətinə laqeyd qalmasınlar, konkret mövqe bildirsinlər. Bilirsiniz, burada növbətçi bəyanatlar verməklə, yaxud da hər hansı bir məsələyə ümumi şəkildə münasibət bildirməklə onlar məsuliyyətlərini məhdudlaşdırmamalıdırlar.

Bu gün ortada konkret faktlar var. Bu gün ortada fakt var ki, Ermənistan beynəlxalq konvensiyalara, götürdüyü bütün öhdəliklərə zidd olaraq Azərbaycan ərazisinə, hətta üçtərəfli saziş, yaxud da bəyanat imzalanandan sonra minalar basdırıbdır. 2021-ci ildə istehsal olunan minalar basdırıbdır. Bu gün vətəndaş cəmiyyəti institutları beynəlxalq ictimaiyyətdən, konkret olaraq ATƏT-dən, Avropa Şurasından, BMT-dən, Avropa İttifaqından və digər bu kimi qurumlardan tələb edirlər ki, buna açıq şəkildə öz münasibətini bildirib pisləsinlər. Bu gün mina terroru açıq şəkildə mülki vətəndaşlara qarşı, onların öldürülməsinə, daha çox zərər görməsinə yönəldilibdir. Hamımız bilirik ki, Ermənistan çalışır, bu cinayəti törətməklə Qarabağ-

dakı, Şərqi Zəngəzurdakı həyata keçirilən quruculuq işlərinə maneçilik törətsin. Bir milyona yaxın bizim vətəndaşımız, keçmiş məcburi köçkünlər hələ də öz yurd-yuvalarına qayıtmaq hüquqlarını təmin edə bilmirlər. Bu hüquqları pozmaqda davam etsinlər. Ona görə də bu gün Azərbaycan çox haqlı olaraq bu istiqamətdə çox qətiyyətli addım atır.

Laçında bizim quraşdırdığımız sərhəd nəzarət-buraxılış məntəqəsi ilə bağlı heç kimin Azərbaycana irad bildirməyə haqqı yoxdur. Bunu etmək Azərbaycanın suveren hüququdur və etdi. Biz bunun nəticəsini görürük. Son günlər paylaşılan videogörüntülərdə görürük ki, erməni sakinlər sakit şəkildə gəlib gedirlər. Heç bir problem yoxdur, heç kimi süni şəkildə ajiotaj yaratmasın. Azərbaycan o buraxılış məntəqəsini qurmaqla həm yolun təhlükəsizliyinə zəmanət verir, həm də bu cür qanunsuz sursatların və partlayıcı maddələrin Azərbaycan ərazisinə gətirilib yerləşdirilməsinin qarşısını alır. Ona görə də, hörmətli xanım sədr, mənə belə gəlir ki, bu məsələ bizim gündəmimizdə daim olmalıdır və Ermənistan məsuliyyətə cəlb edilənə qədər bu fikrimizi beynəlxalq ictimaiyyətə çatdırmalıyıq. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Sonuncu çıxış Əli Məsimli. Buyurun.

**Ə.Məsimli**. Çox sağ olun, hörmətli sədr. Keçən həftənin mühüm hadisələri içərisində aprelin 25-də Sofiyada Bolqarıstan, Rumıniya, Macarıstan, Slovakiya və Azərbaycanın Dövlət Neft Şirkəti arasında memorandumun imzalanması, hesab edirəm, çox böyük hadisədir. Nəinki çox böyük hadisədir, bu anlaşma memorandumu iqtisadi, siyasi, geosiyasi, geoiqtisadi, regional, qlobal və sair cəhətlərdən çox vacib əhəmiyyət kəsb edir. Həmin anlaşma

memorandumu Xəzər dənizinin təbii qazının Mərkəzi və Şərqi Avropaya çatdırılması üçün alternativ marşrutun təmin edilməsi üzrə sözügedən regiona ən sərfəli variantda əlavə qazın təchizi baxımından vacib əhəmiyyət kəsb edir, sadaladığım istiqamətlərdə Azərbaycanın rolunu və mövqeyini xeyli artırır.

Fikrimi əsaslandırmaq üçün iki Avropa mənbəli məqamı çatdırmağı vacib hesab edirəm. İmzalama mərasimində Avropa İttifaqının energetika məsələləri üzrə komissarının dediyi fikrə əsaslanaraq demək olar ki, Azərbaycan Avropa İttifaqının etibarlı tərəfdaşı olduğunu sübuta yetirdi. İkinci məqam. Bu qış enerji təchizatının təhlükəsizliyini təmin etmək üçün Azərbaycan tərəfindən enerji təchizatı həlledici rol oynadı. Bolqarıstan Prezidentinin dediyini xatırlatmaq istəyirəm ki, Azərbaycan təkcə Bolqarıstanın deyil, həm də Avropa İttifaqının tərəfdaşıdır. Azərbaycan Prezidentinin bildirdiyi kimi, Azərbaycan Avropada ən azı 10 ölkəyə mavi qaz ixrac edəcək və bunun əsasında Azərbaycan Avropanın enerji təhlükəsizliyində rolunu xeyli artıracaq. Digər tərəfdən, bu, Azərbaycanın geosiyasi mövqeyinin daha da möhkəmləndirilməsinə yeni imkanlar yaradacaq. Azərbaycanın Mərkəzi və Şərqi Avropa ölkələri ilə strateji əməkdaşlığını daha da genişləndirəcək.

Bütün bunlar bizə belə bir fikrə gəlməyə əsas verir ki, Azərbaycan "Əsrin müqaviləsi" və digər neft-qaz meqa layihələri ilə başlanan fəal enerji diplomatiyasını yeni strateji layihələrinin reallaşdırılması ilə davam etdirir və Avropa bazarına neft-qaz ixracının genişləndirilməsi ilə yanaşı, yaşıl enerjinin əsas ixrac istiqamətini də Avropaya yönəltməklə XXI əsrin energetika siyasətini korrektə etməkdə davam edir. Doğrudan da, bu, Avrasiyanın enerji

xəritəsini yenidən cızır. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, bizim vaxtımız bitdi. Ancaq mən görürəm ki, Sabir müəllimin sualı var. Sabir müəllim, buyurun, 1 dəqiqə vaxtınız var.

**S.Rüstəmxanlı**. Hörmətli Məclis, mən bir məsələyə toxunmaq istəyirəm. Bu gün 14 may seçkiləri ilə bağlı bütün dünyanın diqqəti Türkiyədədir. Xüsusən Azərbaycan bu seçkilərin nəticələrində maraqlıdır. Biz hörmətli Ərdoğanın seçilməsini ürəkdən istəyirik. Amma bununla belə, ayın 9-da, bilirsiniz, xaricdə yaşayan Türkiyə vətəndaşlarının seçkiləri bitəcək. Avropada, dünyanın müxtəlif yerlərində türk vətəndaşları artıq seçkiyə qatılıblar. Azərbaycanda yaşayan türk vətəndaşları da seçkiyə qatılıblar. Mən keçən seçkini xatırlayıram. Burada əhalinin – Türkiyə vətəndaşlarının təxminən üçdə biri, hər halda 25 faizdən çoxu HDP-yə səs vermişdi. HDP-nin terror təşkilatı ilə bağı olduğunu nəzərə alsaq, bu faktın bizim üçün nə qədər ciddi təhlükə olduğunu bilməliyik. Ona görə mən istərdim, Azərbaycanın hüquq mühafizə orqanları buradakı HDP-çiləri nəzarətdə saxlasınlar ki, bunlar kimə...

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, bizim hər dəfə olduğu kimi, 30 dəqiqəlik müzakirələrimiz və məsələlərimiz bitdi. Mən hamıya təşəkkür edirəm. Biz gündəliyin məsələlərinə keçirik. Qeyd edim ki, bu gün biz 17 məsələni müzakirə edəcəyik.

Gündəliyin 1-ci məsələsi İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının tərkibində dəyişiklik edilməsi ilə bağlıdır. Məsələyə dair məlumat vermək üçün mən Mədəniyyət komitəsinin sədri hörmətli Qənirə xanım Paşayevaya söz verirəm. Qənirə xanım, buyurun.

**Q.Paşayeva,** *Milli Məclisin Mədəniyyət komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar, mətbuat və media nümayəndələri! Xanım sədr, mən də ilk öncə Sizi və rəhbərlik etdiyiniz nümayəndə heyətini qardaş Türkiyəyə uğurlu səfəriniz və qardaş Türkiyə parlamenti ilə imzalanmış əməkdaşlıq memorandumu münasibəti ilə təbrik etmək istəyirəm. Düşünürük ki, bu, iki qardaş ölkə parlamenti arasında əməkdaşlığın inkişafında yeni bir mərhələnin də başlanğıcı olacaq.

Müzakirə etdiyimiz məsələ ilə bağlı bildirmək istəyirəm ki, "İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayımı haqqında" Qanunun 17.4-cü maddəsinə uyğun olaraq, İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasına Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Mətbuat Şurası tərəfindən irəli sürülmüş namizədlərin 6 illik səlahiyyət müddəti başa çatdığına görə yeni namizədlərin irəli sürülməsi ilə bağlı Azərbaycan Respublikası Audiovizual Şurası tərəfindən "Media haqqında" 2021-ci il 30 dekabr tarixli Qanunun 47.1.7-ci maddəsinə və "İctimai televiziya və radio yayımı haqqında" Qanunun tətbiq edilməsi barədə cənab Prezidentin fərmanına uyğun olaraq, təşkilati tədbirlər görülüb. Bu barədə, xanım sədr, Sizə, Milli Məclisə Audiovizual Şuranın sədri hörmətli İsmət Səttarov tərəfindən müraciət edilmişdir. İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasına Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası, Milli Elmlər Akademiyası və Azərbaycan Mətbuat Şurası tərəfindən irəli sürülmüş namizədlər arasından hər təşkilatdan bir nəfər olmaqla 6 il müddətinə təsdiq edilməsi üçün "İctimai Televiziya və Radio Yayımı haqqında" Qanunun 17.2-ci

maddəsinə uyğun müvafiq tədbirlərin görülməsi xahiş edilmişdir.

İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasına təqdim olunan namizədlər haqqında ətraflı bilgilər parlament üzvlərinə təqdim olunub. Biz Mədəniyyət komitəsində bununla bağlı müvafiq geniş müzakirələr aparmışıq. Təqdim olunan namizədlərin hər biri layiqli namizəddir. Ümidvarıq ki, namizədlər arasından seçiləcək üzvlər etimadı doğruldacaqlar. Onların adlarını təqdim edirəm. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası tərəfindən birinci namizəd Həsən Şahhüseyn oğlu Cəfərov 2006-cı ildən hazıradək Həmkarlar İttifaqı Konfederasiyasının katibi, Aparat rəhbəri vəzifəsində çalışır. Onun haqqında bütün məlumatlar həmkarlarımıza təqdim olunub. Bu qurum tərəfindən seçilmiş ikinci namizəd Əzim Zahid oğlu Talıbov 2014-cü ildən hazıradək Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyasında mütəxəssis vəzifəsində işləyir. Bu namizəd haqqında da məlumatlar, əziz həmkarlarım, sizlərə təqdim olunub.

Sıralama üzrə ikinci qurumdan – Azərbaycan Elmlər Akademiyası tərəfindən də 2 namizəd irəli sürülüb. Birinci namizəd Teymur Həşim oğlu Kərimli 2014-cü ildən Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru, 2021-ci ildən isə baş direktoru vəzifəsində çalışıb. İkinci namizəd Sərxan Abbas oğlu Xavərin 2006-cı ildən bu günədək Azərbaycan Milli Elmlər Akademiyasının rəyasət heyətində elmi katib vəzifəsində çalışır. Hər iki namizədlə bağlı bütün məlumatlar həmkarlarımızda var.

Üçüncü qurumdan – Azərbaycan Mətbuat Şurası tərəfindən birinci namizəd Azər Hacıqulu oğlu Həsrət "Bayraktar.info" adlı media resursunun qurucusu və baş

redaktorudur. Mətbuat Şurası tərəfindən irəli sürülən ikinci namizəd “Yeniçağ.az” internet portalının rəhbəri Aqil Ələsgər oğlu Fərəcovdur. Hər iki namizəd haqqında da bütün məlumatlar həmkarlarımıza təqdim olunub.

Hər bir namizədə uğurlar arzulamaqla yanaşı, ilk növbədə komitəmizin və həmkarlarımızın düşüncələrini səsləndirərək söyləmək istərdim ki, İctimai Televiziya və Radio Yayımları Şirkətinin parlamentdə müzakirə olunan mühüm məsələləri, qəbul olunan qanun layihələrini mütəmadi olaraq daha da geniş işıqlandırılması hamımızın gözləntimizdir. Eyni zamanda, biz bu gün Mədəniyyət komitəsi adından həmkarlarımızın qaldırdığı bəzi məsələlərə də toxunaraq inanıram ki, seçiləcək namizədlər bu məsələlərə xüsusi diqqət yetirəcək.

Əlbəttə, İctimai Televiziya və Radio Yayımları Şirkəti son illər bir sıra yeniliklərlə çıxış edir və öz fəaliyyəti ilə təqdir qazanır. Hesab edirik ki, Mədəniyyət komitəsində aparılan müzakirələr zamanı səsləndirilən bir sıra təkliflər də nəzərə alınsa, bu, ümumi işin xeyrinə olardı. Belə mövzuların başında Azərbaycanın mədəniyyət coğrafiyasının əhatə olunması gəlir. Bizim mədəniyyət coğrafiyamız respublikamızın rəsmi hüdudlarından dəfələrlə genişdir və dünya azərbaycanlılarının göz bəbəyi olan Azərbaycan Respublikasının televiziyaları, radioları bu mühüm məqamı öz fərdi proqram siyasətlərində daha çox əks etdirməlidirlər. Məsələn, Azərbaycandan kənarda yaşayan soydaşlarımızın bir çoxu latın qrafikalı əlifbanı oxuya bilmir. Çünki onlar yaşadığı ərazilərdən asılı olaraq fərqli amillər səbəbindən bu əlifbanı öyrənməkdə çətinlik çəkib və bu çətinliklər davam edir. Ancaq evlərində, ailələrində danışıq dili Azərbaycan dili olduğundan məhz veriliş və proqramları izləyə bilirlər. Daha çox bilgilərin məhz televiziya

və radiolardan alındığını nəzərə alaraq, bu istiqamətdə proqramları artırmaq lazımdır. Soydaşlarımız Azərbaycan dilini öyrədən verilişlərin olmasını istəyirlər ki, dünya azərbaycanlıları ana dilini məişət səviyyəsində deyil, daha yüksək tələblərə cavab verən şəkildə öyrənə, ən vacibi isə yaza və tətbiq edə bilsinlər. Bu, yalnız İctimai Televiziya ilə bağlı məsələ deyil. Əlbəttə, biz ümumi dəyərləndirmə apardıq və televiziyalarımızın İranda yaşayan Güney Azərbaycanla, doğma dilimiz, adət-ənənələrimizlə bağlı güneylilərə, dünya azərbaycanlılarına ünvanlanmış proqramlarla daha çox çıxış etməsini tövsiyə edirik.

Bəli, İranda Güney Azərbaycandan olan aydınlarımızın ən çox vurğuladığı məsələ odur ki, onların folkloru, mədəni gerçəklikləri verilişlərə mövzu olsun, dillə, etnoqrafik gözəlliklərlə bağlı proqramlar olsun. Bundan daha irəli başqa mühüm problem onların ümumi Azərbaycan mədəniyyəti ilə bağlı sistemli bilgilərə, maarifləndirilməyə ehtiyacı var. Onların çox böyük yaradıcılığı var. Bu yöndə layihələr, proqramlar, verilişlər hazırlanmalıdır. Çünki bu insanlar, bütövlükdə, Azərbaycan ədəbiyyatına xidmət edirlər. Yaxud Borçalı, Dağıstan, Dərbənd, Qərbi Azərbaycan olsun, fərqi yoxdur. Orada yaranan mədəniyyətimiz, ədəbiyyatımız Azərbaycan mədəniyyətinə, ədəbiyyatına xidmət deməkdir. İstər tarixdə, istərsə də günümüzdə, fərqi yoxdur, özünə diqqət tələb edir. O şəxslərin, o ədəbiyyatın respublikamızın rəsmi hüdudlarından kənarda mədəni-mənəvi coğrafiyamızda yaranmış mədəni irsin efirlərdə təbliğatı vacibdir.

Qərbi Azərbaycan mövzusuna təkrar qayıdaraq vurğulamaq istəyirəm ki, Qərbi Azərbaycanda formalaşmış, yaradılmış mədəni irsimizlə bağlı verilişlərin artmasına çox ehtiyac var. Qərbi Azərbaycan icmasının rəhbəri

millət vəkili həmkarımız Əziz Ələkbərli komitəmizin üzvüdür, onun maraqlı və konkret təklifləri də var. Hesab edirik ki, icma rəhbəri kimi, alim kimi Əziz müəllimin, ümumən, Qərbi Azərbaycan mövzusunu davamlı işləmiş aydınlarımızın fikirləri İctimai Televiziya da daxil olmaqla televiziyalarımızda daha çox nəzərə alınmalı, peşəkar münasibətlər öyrənilməli və hazırlanan proqramların sayı daha da artmalıdır. Cənab Prezidentin Qərbi Azərbaycan, dünya azərbaycanlıları, türk dünyası ilə bağlı fikirləri, siyasi iradəsi bizlərə yol göstərici və rəhbər sənəd dəyərindədir. Ümid edirik ki, seçilən namizədlərin bu istiqamətdə məsələlərə də bütün cəmiyyətin, o cümlədən parlamentin İctimai Televiziya və radiodan gözləntilərinə də daha böyük diqqət yetirəcəkdir.

Təbii ki, biz əldə edilən hər bir uğuru, İctimai Televiziya və Radio Yayımları Şirkətində həyata keçirilən yeni layihələri, görülən işləri təqdir etməklə bərabər, bu istiqamətlərə xüsusi diqqət yetirilməsinə çağırırıq. Çünki bu çağırışda bizim haqlı əsaslarımız və səbəblərimiz var. Yeni seçiləcək üzvləri də daim bu mövzuda diqqətli olmağa çağırırıq. Diqqətiniz üçün təşəkkür edirik.

**Sədrlik edən.** Sağ olun. Təklif var ki, çıxışlar 5 dəqiqə olsun.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** 3 dəqiqə edə bilmərəm, Sabir müəllim. İstəyərdim, ancaq edə bilmərəm. 5 dəqiqə. Siyavuş Novruzov. Buyurun, Siyavuş müəllim.

**S.Novruzov.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Xanım sədr, mən də Sizi və həmkarlarımızı uğurlu səfər münasibəti ilə təbrik edirəm. Bu gün Türkiyədə vacib hadisələr, proseslər baş verir. Hesab edirəm ki, hər bir Azərbaycan vətəndaşının qəlbi bu gün Türkiyə saatı ilə

döyünür. Bu məsələlərdə də Sizin göstərdiyiniz dəstək təqdirəlayiqdir.

Hörmətli deputatlar, təqdim olunan namizədlərlə bağlı qeyd etmək istərdim. Kifayət qədər təcrübəli və hamımızın tanıdığı namizədlərdir. Xüsusi ilə Milli Elmlər Akademiyasından Teymur müəllimi mən uzun müddətdir tanıyıram. Gözəl ziyalı alimdir, Milli Elmlər Akademiyasının üzvüdür, çox sayda kitabları var, Azərbaycan elminə uzun müddətdir ki, xidmət edir. Hesab edirəm ki, bu cür insanların orada olması elmimizin inkişafına, elmimizin təbliğinə də xidmət göstərə bilər.

Həsən müəllimi də tanıyıram. Həmkarlar təşkilatından aktiv fəaliyyət göstərir. Daim deputatlarla ünsiyyətdədir. Tanınmış insanlardır.

Azər Həsrətlə gənclik dövrümüz bir yerdə keçib. O da gənclər təşkilatının sədri idi. O vaxtlar gənclər hərəkatı ilə məşğul idi. İndi mətbuatla məşğuldur. İlk müstəqillik dövründən bu günədək daim vətən uğrunda çalışan vətənpərvər insanlardan biridir.

Digər namizədlərə də hörmətlə yanaşıram. Yəni o qədər geniş məlumatım olmadığına görə deyə bilmirəm. Qeyd edilən şəxslərin də səs verib qəbul olunmasının tərəfdarıyam, səs verəcəyəm. Həmkarlarımdan da səs vermələrini xahiş edirəm.

Eyni zamanda, qeyd etmək istəyirəm ki, İctimai Televiziya fəaliyyəti dövründə, doğrudan da, çoxsaylı, rəngarəng verilişlər göstərir, digər kanallardan fərqli olmağa çalışır. Göstərdiyi verilişlərdə, proqramlarda, həm gənclər, həm də yaşlı nəsil nəzərdə tutulur, mədəniyyətə, ictimai-siyasi fəaliyyətə yer ayrılır, o cümlədən 44 günlük Vətən müharibəsi dövründə, ondan sonra Azərbaycana qarşı olan təhdidlər dövründə də Azərbaycan Prezidentinin apardığı

daxili və xarici siyasətin müdafiə olunması ilə əlaqədar ayrı-ayrı ekspertlərin, insanların çıxışları, fikirləri, fikir müxtəlifliyini biz müşahidə edirik. Hesab edirik ki, gələcəkdə bu cür tərkibdə ora daxil olduqdan sonra daha geniş şəkildə bunun şahidi ola biləcəyik. Mən hesab edirəm ki, bir neçə proqramlarda da dəyişiklik olunsa, xüsusi ilə "Xəbərlər" proqramı, Azərbaycanda, demək olar, bütün xəbər proqramları bir-birinə oxşardır. Burada da dəyişikliyə ehtiyac var. Ümumiyyətlə, İctimai Televiziyanın fəaliyyəti təqdirəlayiqdir və hesab edirəm ki, bu fəaliyyət gələcəkdə də daha da geniş şəkildə davam edəcəkdir.

Hörmətli xanım sədr, burada Milli Məclisin üzvləri, ölkəmizin ziyalıları, ağsaqqalları əyləşibdir. Düzdür, hər kəs azaddır, biz demokratik ölkədə yaşayırıq, hər kəsin öz fikri, sözü, rəyi, proqramı var. Bəzi kanallar başqa-başqa ölkələrdən götürdüyü verilişləri Azərbaycanda tətbiq edir, Azərbaycanın milli adət-ənənələrinə, böyük-kiçikliyinə, ağsaqqallığına uyğun gəlməyən verilişlər verilir. Bununla bağlı xahiş edirəm, – İsa müəllim də burada iştirak edir, Elmlər Akademiyasının alimləri də müraciət edirlər, – 70 yaşında adamı evlənməyə dəvət edirlər. Televiziyada ailə qururlar. Bizim adətimiz, milli-mənəvi dəyərimiz var. İndi Rusiyada bu proqram var, Rusiyanın öz milli-mənəvi dəyərləri var. Azərbaycanın da öz milli-mənəvi dəyərləri var. Axı, televiziyada kim evlənir, kim boşanır, kim televiziyada ailə-məişət münasibətlərini həll edir? Ziyalılarımız bu məsələlərə bir münasibət bildirsin, ictimaiyyətə bir çağırış etsin ki, sənə övladım, nəvəm, nəticəm baxır, o, nə tərbiyə götürəcək? Axı, bizim bu cür dövlətimiz olmayıb. Bizim dövlətimiz əxlaqa arxalanan, əxlaq, mənəviyyat üzərində qurulan bir dövlət olubdur. Bunu

hara aparırsınız? 5 manat pul qazanırsınız, Allah qəbul eləsin. Amma daha millətin tərbiyəsini pozmayın. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Siyavuş müəllim. Razi Nurullayev. Buyurun.

**R.Nurullayev.** Hörmətli sədr, hörmətli deputatlar. İctimai Televiziyanın Yayım Şurasına seçiləcək dostlarımızı təbrik edirəm. Arzu edirəm ki, onlar İctimai Televiziyanı daha baxımlı etsinlər. Ədalət naminə demək lazımdır ki, İctimai Televiziya yüksək səviyyəli efir məkanına çevrilib. Məncə, onu regionumuzun, bütün MDB məkanının ən maraqlı və gözoxşayan efir məkanlarından biri hesab etmək olar. Televiziyanın studiyaları da göz oxşayır. Rəng seçimləri şəxsən məni efirə kilidləyir. Rəhbərliyini, bütün əməkdaşlarını və əməyi keçən hər kəsi təbrik etmək istəyirəm. Gözəl, baxımlı, maraqlı efir məkanı yarada biliblər, verilişlərin hamısı unikal və maraqlıdır. Onun üçün də ayrı-ayrı verilişləri hallandırmaq istəmirəm ki, haqsızlıq etməyim.

“3D” verilişiniz haqqında isə danışacağam. İstərdim ki, o, ilk zamanlardakı formatına geri dönsün. O verilişin ruhu ciddi ictimai-siyasi deyildi, ciddi fəlsəfi fikirlər məkanı deyildi, o, siyasətçilər, ictimai xadimlər üçün şok terapiyası idi və təbii ki, insanların şəxsiyyətinə və mənliyinə toxunmadan belə də qalmalı idi. Siz siyasi, ictimai, elmi və digər sahələrdə çəkili insanları dəvət edin. Əgər onlar gəlmirsə, narahat da olmağa dəyməz. Yerində başqa bir “3D” oturub, suallar verib cavablar da ala bilər. Maraqlı olsun, suallar kəskin olsun, digər verilişlərinizdə müzakirə olunan məsələlərdən tam kənar olsun, onun təkrarı olmasın.

Bütün televiziyalara arzum budur ki, bizim efir məkan-

larında sağlam tənqid səsləndirən verilişlərin sayı çoxalsın. Yalançı, boğazdan yuxarı təriflər, yaltaqlıq təbliğ edən verilişlər, yerli-yersiz təriflər ölkənin inkişafına deyil, geriləməsinə səbəb olur. Düşük, bayağı, çığırtı-bağırtı olan verilişlər cəmiyyətimizin mədəni və intellektual səviyyəsinin aşağı düşməsinə səbəb olur. Onun üçün də biz gərək düşünək, televiziyalara hansı köməklik etmək olar ki, onlar bu cür verilişlər üzərində reytinq qurub pul qazanmaq fikrindən əl çəksinlər. Razıyam, onlara başqa mümkün mənbələrdən pul qazanmağa imkan yaratmaq olar ki, onlar maliyyə arxasınca düşüb, cəmiyyətə lazımsız məlumatlar ötürən verilişləri efirlərə buraxmasınlar. Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Çox sağ olun, Razi müəllim. Zahid Oruc. Buyurun.

**Z.Oruc.** Hörmətli sədr, dəyərli millət vəkilləri. İctimai Televiziyanın Yayım Şurasının üzvlüyünə irəli sürülən namizədlərin böyük əksəriyyətini tanıyırıq. Hər biri öz sahələrində uzun müddət çalışan dəyərli insanlardır. Səsverməmizdə öz mövqeyimizi ifadə edəcəyik. Amma yaranmış imkanları dəyərləndirərək bir neçə vacib tezisləri səsləndirmək istəyirik.

Azərbaycanda ilk televiziyanın yaranmasından 67 il keçir. Hazırda ölkəmizdə 4 dövlət, 7 özəl, 11 regional olmaqla 22 televiziya kanalı fəaliyyət göstərir. Son 5 ildə, 2019-cu ildən başlayaraq dövlət media  sahəsində köklü islahatlara başlayıb. Struktur islahatları xüsusi olaraq həyata keçirilib. Sahəyə məsul bütün qurumlar, vəzifəli şəxslər yenilənib, eləcə də yeni media qanunu qəbul olunub. Azərbaycan xalqı misilsiz Zəfər qazanıb. 2020-ci il dekabrın 31-dən etibarən radio-televiziya yayımı Qarabağda, Şuşa, Xankəndi şəhərlərində, Xocalı, Ağdam,

Bərdə və ətraf rayonlarda bərpa olunub. Şuşa radio-televiziya yayım stansiyası ən müasir avadanlıqla təchiz edilib.

2013-cü ildə Qafqazda yeganə peyk operatoru olan "Azerkosmos", "Azerspace-1" və "Azerspace-2" telekommunikasiya peykləri işə başlayıb. Doğrudur, televiziya milli təhlükəsizlik məsələsidir, cəmiyyətin güzgüsü adlanan televiziyalar bütün dünyada ictimai rəyin, milli birliyin və milli kimliyin formalaşmasına təsir edir. Bu gün istənilən cəmiyyəti məqsədli yönəltmənin və idarə etməyin siyasi texnologiyaları, informasiya və digər ideoloji manipulyasiya prosesləri bu sistemdə daha da asanlaşıb. Ona görə də manipulyasiya obyekti təkcə ayrıca insanlar və fərdlər deyil, bütövlükdə, qruplar və millətdir.

Araşdırmalara görə, yerli televiziyalarımıza baxanların ayı 5-6 illə müqayisədə bir neçə dəfə azalıb. Səbəblər dərin və çoxşaxəlidir. Bunlardan biri dünya televiziya təcrübəsinə uyğun ən uğurlu proqram formatlarını yarada bilməməyimiz, yayım ənənəsi, milli xüsusiyyətləri, janrı, kontenti, hədəf auditoriyanı, aparıcı peşəkarlığını, təqdimat tərzini istədiyimiz kimi edə bilməməyimizlə bağlıdır. Əlbəttə, kanallar üzrə danışmaq fikrində deyilik.

İctimai Televiziyanın məzmun, keyfiyyət və rəngarəngliyi baxımından çalışmaları burada qeyd olundu və o mövqeni burada bölüşürük. Xüsusi ilə də digər kanallarda epidemiya kimi yayılan sosial tok-şoularla müqayisədə İctimai Televiziyada dünyada qəbul olunan meyarlara cavab verən gündəlik yayımlanan "Sabaha saxlamayaq", "Diqqət mərkəzi. Yekun", "Ötən günlər", "Pressinq" və digər elmi-təhsil, maarifçi proqramların çəkisi artır, keyfiyyət meyarlarına cavab verir.

Azərbaycanın media landşaftı 2020-ci il sosioloji tədqiqat nəşrlərinə görə, Azərbaycan telekanallarında respon-

dentlərimizin təxminən yarısı, yəni 44,9 faizi hərbi vətənpərvərlik məzmunlu verilişləri, 40,4 faizi informasiya, təhsil, maariflənmə, elmi məzmunlu verilişləri daha çox önəmsəyirlər. Hər üç respondentdən biri milli-mənəvi və dini dəyərlərə ehtiramla bağlı verilişlərin üstünlük qazanmasını istəyir. Artıq onillərlə davam edən bayağı məzmunlu, heç bir sosial funksiya daşımayan şou proqramlarının televiziyaların əsas simasına çevrildiyini görürük. Onlar tədricən sanki qarşılarına qoyduqları məqsədlərə nail olublar. Belə ki, üst-üstə 5-6 milyon ölkə əhalisinin yarısından çoxunu, yəni "İnstagram" izləyicisinin olması sübut edir ki, ekranda "xalq" hesab edilən 3-4 aparıcının arxasında kifayət qədər zövqsüz və bir sıra hallarda savadı yüksək olmayan kütlə dayanır.

Bütövlükdə, üçüncü onillikdir ki, Azərbaycan tamaşaçısının sosial portreti, onun maraq və istəkləri tamamilə təhrif olunub, dünyagörüşü və mədəniyyət dəyərləri ciddi deformasiyaya uğrayıb. Bayağı şou proqramların ekranlarda getdikcə çoxalması təsadüfi deyil, düşünülmüş və sistemli xarakter daşıyır. Yalnız kommersiya və biznes maraqları, milli-mənəvi dəyərlərin inkarı ictimai rəydə ziyalı, alim, intellektual obrazlarının, Vətən müharibəsində parlaq simaların deyil, şou əhlinin, müğənni, rəqqasə, tamada və sair kimi simaların cəmiyyətdə əsas dəyər, ideal dəyər kimi təqdim olunması Zəfərimizə də, böyük ideallarımıza da uyğun deyil.

Ona görə də biz ümidvarıq ki, bu gün yaranmış bu şəraitdə parlament üzvlərinin, bizim görmək istədiyimiz ekran, görmək istədiyimiz proqramlar yönündə təklifləri yeni namizədliyini verən şəxslər tərəfindən dəyərləndiriləcək. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Bəhruz Məhərrəmov. Buyurun.

**B.Məhərrəmov.** Çox sağ olun, hörmətli Sahibə xanım. Hörmətli həmkarlar, əziz qonaqlar. İctimai Televiziyanın Yayım Şurasının tərkibində dəyişikliklər edilməsi ilə bağlı qərarı, təbii ki, dəstəkləyəcəyəm. Çünki hazırkı namizədlərlə bağlı hər hansı irad üçün əsas görmürəm, əksinə, onların şurada səmərəli fəaliyyət göstərməməsi üçün heç bir səbəb yoxdur. Oturuşmuş bir sistem mövcuddur və mexanizm artıq işləyir.

Bilirsiniz ki, "İctimai televiziya və radio yayımı haqqında" Qanunun 20-ci maddəsinə müvafiq olaraq, Yayım Şurası ictimai yayımın konsepsiyasını hazırlayır. Hesab edirəm ki, bu gün istər İctimai Televiziya, istərsə də digər televiziyalarımızın bu konsepsiyasına bir daha baxılmalıdır. Bu o demək deyil ki, bizim televiziyalar hansısa proseslərdən geri qalır. Sadəcə, münasibətlər sürətlə yenilənir, tələblər sürətlə dəyişir. Bu gün əsas vəzifə o olmalıdır ki, kütlənin zövqü televiziyaların yayım konsepsiyalarına diktə etməməlidir. Televiziyalar özləri bu zövqü diktə etməlidirlər. Əks halda milli-mənəvi dəyərləri, dövlətçilik məfkurəsini ikinci plana keçirirlər, efir məkanını nihilist, kosmopolit müstəviyə çevirirlər.

İndi özəl televiziyalar haradasa anlaşılandır. Çünki onlar reklama möhtacdırlar. Bu mənada orta yol tapmağa çalışırlar. Amma dövlət büdcəsindən maliyyələşən telekanallar üçün zövq və məfkurə diktə etmək daha asan olmalıdır. Söhbət maliyyələşməkdən düşmüşkən, bütövlükdə, bu proses birmənalı şəkildə şəffaf olmalıdır. Bilirsiniz ki, bu gün ölkədə çoxsaylı internet telekanalları var. Onların arasında xeyli sayda vicdanla fəaliyyət göstərən, dövlətçilik prinsiplərini rəhbər tutan resurslar var və bu ali tribunadan mən həmin kollektivlərə təşəkkür etmək istəyirəm. Amma

açıq demək lazımdır, bu gün elə internet kanalları da var ki, reklamı olmaya-olmaya çox ciddi resurslara malikdirlər. Təbii ki, maliyyə mənbələri də ciddi şübhə doğurur. Təsəvvür edin, dövlətdən, dövlətin məmurundan şəffaflıq tələb edən bu kanalların özlərinin maliyyə mənbələri ciddi suallar doğurur. Təbii ki, onların haradan qidalandığı, haradan tapşırıq aldıqları, kimin tapşırığı ilə dövləti hədəfə aldıqları aşağı-yuxarı bizə bəllidir. Bunlar muzdlulardır və nə insan haqları, nə media azadlığı onların düşünə biləcəyi məfhumlar deyil. Bunların qarşısına Sorosun 30 il ermənilərin əli ilə edə bilmədiyi, Fransanın BMT-nin Təhlükəsizlik Şurasında bacarmadığını etmək, bu dövləti daxildən dağıtmaq vəzifəsi qoyulub və müxtəlif layihələr adı altında da pullar verilir və onlar da sifarişləri icra edirlər.

Eyni zamanda, ictimai rəydə də riyakarlığın daşıyıcısı məhz bu kimi media qruplarıdır. Bilirsiniz ki, bu günlərdə özünü ölkənin müxalifət liderlərindən biri hesab edən şəxsin oğlu açıq formada erməni soyqırımını tanımaqla haylardan daha artıq daşnak olduğunu göstərdi. Əlbəttə, Azərbaycan hüquqi dövlətdir, valideyn yetkinlik yaşına çatmış övladına görə hüquqi məsuliyyət daşımır. Amma mənəvi məsuliyyəti heç kim istisna edə bilməz və erməni yetişdirən biri, ümid edirəm ki, bundan sonra cəmiyyətə hansısa bir formada ağıl verməyə cəhd etməz.

Mən başqa kontekstə də diqqət çəkmək istəyirəm. Bir anlıq təsəvvür edin ki, həmin şəxs hansısa nazirin, deputatın, yaxud hakim partiyanın hansısa funksionerinin övladı idi. Kimsə deyəcəkdirmi ki, ata oğluna görə məsuliyyət daşımır? Açın, ötən dövrlərin mediasına baxın. Görün, övladının hansısa avtoqəzaya, yaxud məişət zəminində hər hansı insidentə görə vəzifədə olan şəxs həmin media orqanlarında necə linç edilir. Bəs o zaman sizin

hüquqi məsuliyyət anlayışınız harada idi? Təbii ki, bunun bir adı var, o da riyakarlıqdır. Qərəzsizlikdən, tərəfsizlikdən danışırlar.

Bu gün Qərb təsisatları üçün yalnız və yalnız özündə Qərb dəyərlərini ehtiva edən, daha dəqiq desək, Soros ideologiyasını bütləşdirən media müstəqil media hesab edilir. Belə bir cəfəngiyyat formalaşdırıblar ki, media hökumətə açıq düşmənçilik fəaliyyəti göstərmirsə, deməli, müstəqil deyil. Yəni hakimiyyətə qarşı radikal mövqe tutan media qurumları bir qayda olaraq azad, mövcud idarəçiliyə neytral, yaxud pozitiv yanaşan media strukturları isə asılı kimi damğalanır. Belə çıxır ki, medianın müstəqilliyi üçün həmin media mütləq Soros ideyalarını təbliğ etməlidir, radikal müxalif təfəkkürə malik olmalıdır, adət-ənənələr, ailə dəyərləri, milli varlıq arxa plana keçməlidir. Təbii ki, bu, yolverilməzdir, bu kimi ünsürlərin qarşısında birmənalı formada dayanmaq lazımdır. Unutmamalıyıq ki, biz Konstitusiyanı qəbul edərkən indiki və gələcək nəsillər qarşısında öz məsuliyyətimizi anlayaraq niyyətlər ifadə etmişik. İctimai Televiziyada həm kadr potensialı, həm də maliyyə imkanları baxımından bu vəzifənin öhdəsindən gələ biləcək bir fiqur görürük və inanırıq ki, Yayım Şurasının yeni üzvləri də bu istiqamətdə öz töhfələrini verəcəklər. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Etibar Əliyev. Buyurun.

**E.Əliyev.** Təşəkkür edirəm, hörmətli Sahibə xanım. Hörmətli deputatlar, İctimai Televiziyanın yayım fəlsəfəsinə və idarəçiliyinə uyğun olaraq, fəaliyyət göstərən Yayım Şurası cəmiyyətin mikromodelidir. Yəni bu şurada cəmiyyətin əsas sosial qatları təmsil olunmalıdır ki, verilişlərdə məzmun və yanaşma çalarları tam əlvanlığı ilə görülsün. Çünki İctimai Televiziya üçün cəmiyyətin ekranda

tam palitrası ilə göstərilməsi əsas proqram tələblərindən biridir. Ona görə də "İctimai televiziya və radio yayımı haqqında" Qanunda İctimai Şuraya namizədlərin ən müxtəlif sahələrdən seçilməsi nəzərdə tutulub. Dünyanın bütün ictimai televiziyalarında cəmiyyəti güzgü kimi əks etdirən yayım şurası kimi qurumlar vardır, onlar telekanalın yayım konsepsiyasının müəyyən edilməsində və idarə olunmasında həlledici rol oynayır. Bu şuralarda təmsil olunan şərtlərin cəmiyyətdə tanınması və öz sahələrində nüfuz sahibi olmaları vacib şərtdir. Məsələn, klassik ictimai televiziya modeli olan "BBC"-də Yayım Şurası Britaniya cəmiyyətinin maraqlarını televiziyada çox parlaq əks etdirir. Cəmiyyət bu şura üzvlərini yaxşı tanıyır və televiziya ilə bağlı şikayətlərini çox vaxt onlara göndərirlər. Yaxud Almaniyanın "ZDF" ictimai kanalında yayım standartlarının qorunması üçün iki şura fəaliyyət göstərir: Yayım Şurası və İnzibati Şura. Yayım Şurasını landların, yəni bölgələrin müəyyən etdiyi siyasi partiya və ictimai təşkilatlar formalaşdırır. Yalnız texniki standartlara baxan İnzibati Şuranı isə böyük səlahiyyətləri olan Yayım Şurası seçir.

Son dövrlər İctimai Televiziyada yayımlanan verilişlər cəmiyyətin etimadını doğrultmaq istiqamətində xeyli təkmilləşib. Bu televiziya idarəçiliyində demokratiya və üfüqi idarəetmənin güclənməsi ilə bağlıdır. Haqlı tənqidlərin də nəzərə alınması artıq görünür. Biz də istəyirik ki, Yayım Şurasının fəaliyyəti daha da praqmatik olsun. Bizdə İctimai Televiziya Yayım Şurası cəmiyyəti daha çox maraqlandıran mövzular barədə sorğuların və monitorinqlərin keçirilməsini təşkil etməlidir. Cəmiyyətin televiziyası sayılan İctimai Televiziya elm və təhsil sahəsində maraqlı verilişlərin sayını artırmalıdır.

Namizədlərə gəldikdə, mənim onların heç birinə iradım yoxdur. Lakin namizədliyin verilməsi ilə bağlı sənədlər Milli Məclisə hörmət əlaməti olaraq düzgün tərtib olunmalıdır. Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyası İcraiyyə komitəsinin iki nəfərin namizədliyinin irəli sürülməsi barədə qərarını hörmətli Səttar Möhbalıyev imzalayıb. Mətbuat Şurasının sədri hörmətli Rəşad Məcidin imzası ilə iki namizəd təqdim edilib. Normaldır. Lakin Azərbaycan Milli Elmlər Akademiyasının təqdim etdiyi namizədlərin prosedur qaydası yanlışdır. Namizədlər Azərbaycan Milli Elmlər Akademiyasının Humanitar elmlər bölməsinin Elmi şurasının qərarı ilə verilib. Bu bölmənin sədri AMEA prezidenti hörmətli İsa Həbibbəylidir. Lakin namizədlərin irəli sürüldüyü sənədi akademik Teymur Kərimli imzalayıb. Teymur Kərimli özünün Yayım Şurasına namizədliyinin irəli sürülməsi haqqında sənədi özü imzalayıb. Soruşmaq istəyirəm ki, İsa müəllim Humanitar elmlər bölməsinin Elmi şurasının sədri kimi nə üçün bu sənədi imzalamayıb? Texniki yanlışlıqdırsa, xahiş edirəm, bunu aradan qaldırın. Təşəkkür edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Sahib Alıyev. Buyurun.

**S.Alıyev.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, dəyərli həmkarlar, bu postmodern dövründə, doğrudan da, hər bir ölkə üçün özünün televiziya məkanını qlobal təhdidlərdən və informasiya təxribatlarından qorumaq elə də asan məsələ deyil. Bu baxımdan baxımlı televiziya, zövqlü televiziya və geniş auditoriyaya ünvanlanan televiziya, əlbəttə ki, çox ağır zəhmət və açığını deməliyik ki, eyni zamanda da, böyük vəsait hesabına əldə edilə bilər. İctimai Televiziya dövlətdən maliyyələşir və adətən biz bunu büdcə müzakirələrində təsdiqləyirik. Mənə elə

gəlir, növbəti büdcə müzakirələrində biz diqqət yetirməliyik ki, dövlətin maliyyələşdirdiyi iki kanal var. Onlardan hansı daha çox üzərinə qoyulan missiyanı doğruldur və bunun müxtəlif barometrləri var. Bu, sorğular vasitəsi ilə də, adi gözlə də müəyyən oluna bilər. Ən azından "YouTube" kanalında biz həmin televiziyaların verilişlərinin izləyicilərinə baxdıqda da görə bilirik.

Mənim fikrimcə, İctimai Televiziyanın ən böyük uğurlarından biri odur ki, biz onun efirində cənab Prezidentin bu salonda dediyi kimi, ölkədə yeni siyasi mədəniyyətin formalaşdığını görürük. Ən müxtəlif siyasi spektrə mənsub insanlar dəvət olunurlar, öz fikirlərini bölüşürlər. Bu, bir tərəfdən, verilişin maraqlı olmağına xidmət edirsə, təbii ki, ictimai yayım funksiyasının tələblərinə cavab verən addımlardır. O baxımdan bu, konsepsiyanın müəyyənləşməsində mühüm rol oynayacaq. Mən seçəcəyimiz namizədlərə öncədən təşəkkürümü bildirirəm. Açığı, demək istəyirəm ki, mən Mətbuat Şurasından iki təmsilçini görürəm və çox təəssüf edirəm ki, onların hər ikisini seçmək şansımız yoxdur. Hər ikisi peşəkardırlar. Amma yəqin ki, sonda mən şəxsən təcrübəyə üstünlük verəcəyəm. Bununla yanaşı, fikirləşirəm ki, digər namizədlər eyni dərəcədə həssaslıqla seçilirlər və ictimai yayım konsepsiyasının nə olduğunu, nə üçün lazım olduğunu dərk edənlərdilər.

Burada bir məsələyə də toxunmağı vacib sayıram. Doğrudan da, İctimai Televiziyanın auditoriya siyasətində dəyişiklik edilməlidir. Ümumiyyətlə, bizim televiziyalar artıq dərk etməlidirlər ki, onlar, sadəcə, Azərbaycan dövlətinin məkanı üçün çalışmalı deyillər. 50 milyonluq Azərbaycan xalqı və İkinci Qarabağ savaşından sonra, deyə bilərik ki, Azərbaycan milləti var. Öz yayım siyasət-

lərində bunu nəzərə almalıdırlar. Mən fikirləşirəm ki, bizim Qarabağda yaşayan haydilli soydaşlarımız var. Onların həyatına, onların üzləşdiyi problemlərə, onların o separatçı rejimindən əziyyət çəkən adi insanların, oradakı hərbi kontingentin bəzi özbaşınalığından əziyyət çəkən insanların nə ilə yaşadıqlarına, nə ilə nəfəs aldıqlarına diqqət yetirmək son dərəcə önəmlidir.

Burada informasiya təxribatlarından danışıldı. Mən bir məsələyə də diqqət yetirmək istəyirəm. Zamanında bir ölkənin diktəsi ilə bizdə aşağızövqlülər üçün nəzərdə tutulmuş bir verilişin necə təbliğ edildiyini sonra həmin verilişdə pardaqlananların mərsiyəxanlıqla İranın ideologiyasının yayılmasında, məshətçiliyin təbliğində necə rol aldıqlarını görürük. Bu, doğrudan da, böyük təhlükədir və biz hərtərəfli şəkildə çalışıb onun qarşısını almalıyıq. Bunun qarşısını almağın ən əsas yollarından biri də daha peşəkar televiziya ilə meydana çıxmaqdır. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Ceyhun Məmmədov. Buyurun.

**C.Məmmədov**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Çıxışımın əvvəlində mən də Yayım Şurasına üzv seçiləcək burada iştirak edən hər bir şəxsi öncədən təbrik edirəm. Hesab edirəm, İctimai televiziya öz fəaliyyəti ilə bir çox kanallarımızdan seçilir, Azərbaycan həqiqətlərinin təbliğində, ölkə rəhbərliyinin apardığı xarici və daxili siyasətlə bağlı işlərin görülməsində, eyni zamanda, qeyd etdiyim kimi, daha çox maarifləndirmə proqramlarına yer verir. Ancaq düşünürəm ki, biz media siyasətinə, bir sıra televiziyaların fəaliyyətinə yenidən baxmalıyıq. Televiziyaların funksiyası yalnız insanları əyləndirmək deyil, eyni zamanda, maarifləndirməkdir. İnsanlarımızın da  bizdən gözləntisi budur. Bu gün bizə də

ən çox müraciətlər bununla bağlıdır. İnsanlarımız televiziyalarımızın maarifləndirmə sahəsində daha fəal olmasını gözləyirlər.

Bir sıra hallarda biz bu fikirləri səsləndirəndə onlar bunu daha çox maliyyə məsələsi ilə əlaqələndirirlər. Mən anlayıram, hər bir televiziya çalışır ki, öz xərclərini ödəsin. Ancaq bu o demək deyil ki, verilişlərdə milli-mənəvi dəyərlərimizin aşınmasına və ya ailə dəyərlərimizin sarsıdılmasına yol verilsin. Yəni bəzən biz bunu bir sıra verilişlərdə açıq-aydın görürük. Bu gün dövlətimizin müəyyən maliyyə vəsaiti ayırmağa kifayət qədər imkanları var. Eyni zamanda, biz çalışmalıyıq ki, mənəviyyatımızı zədələyən, ailə sütununu zəiflədən verilişlərdən imtina edək, əsas üstünlüyü, bir daha qeyd edirəm, maarifləndirici verilişlərə verək.

Bu gün hamımıza məlum olduğu kimi, dünyamızda çox ciddi informasiya müharibəsi gedir. Azərbaycan da bu prosesdə fəal olmağa çalışır. Ancaq mən yenə də düşünürəm ki, biz rus, ingilis, ərəb-fars və digər dillərdə verilişlərin yayınlanmasına xüsusi önəm verməliyik. Azərbaycanla bağlı, Azərbaycan dili ilə bağlı xeyli işlər gedir. Ancaq bu gün, xüsusi ilə də qeyd etdiyim dillər istiqamətində geniş məlumatların verilməsinə ehtiyac var. Bu gün bunu bir sıra dövlətlər edir. Qardaş Türkiyə edir. "TRT" kanalının bir çox dillərdə verilişlər yaymaq imkanları var və bu istiqamətdə onlar fəal iş aparırlar. Bizim də kanallarımız fəal olmalıdırlar.

Bu gün mən bir məsələnin də üzərində durmaq istəyirəm. Reallıq ondan ibarətdir ki, bu gün ənənəvi media sosial şəbəkə ilə müqayisədə uduzur. İnsanların daha çox sosial şəbəkələrə baxdığını görürük. Xüsusi ilə axşam bu özünü açıq şəkildə göstərir. O baxımdan mən düşünürəm

ki, biz sosial media siyasətinə də yenidən baxmalıyıq. Biz informasiyaları elə verməliyik ki, insanlar ona baxsınlar. Bəzən bir televiziya verilişinə min adam baxırsa, sosial mediada milyonlarca insanın bu verilişlərə baxdığını görürük. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Sabir Rüstəmxanlı. Buyurun.

**S.Rüstəmxanlı**. Təşəkkür edirəm, hörmətli sədr. Yayım Şurasına təqdim olunan namizədlərin hamısı layiqli adamlardır. Onların hamısını yaxından tanıyırıq və sevinirik ki, İctimai Televiziyanın Yayım Şurasını möhkəmləndirmək, işinin daha yaxşı qurulmasına kömək eləmək üçün belə adamlar seçilir. Hər təşkilat iki namizəd verib. Təəssüflənirəm ki, biz onlardan birini seçməliyik. İkisi də namizəddir və mənə elə gəlir ki, Milli Məclis bu adamların hamısını kifayət qədər tanıya bilməz. Yəni peşəkarlıq baxımından onları təqdim eləyən müəssisə daha yaxşı tanıyır, nəinki Milli Məclis. Milli Məclisi belə bir seçim qarşısında qoymaq, məncə, doğru deyil. Gələcəkdə bunu düşünmək lazımdır. Kimi təqdim eləyirlərsə, konkret adını versinlər, biz də onu burada təsdiq eləyək. Kimin adı birincidir, adətən ona səs verirlər, ikinci adam kənarda qalır. Amma heç kim bilmir, bəlkə o ikinci adam bu işi birincidən daha yaxşı görə bilər. Bu, məncə, sualdır və bunu düşünmək lazımdır.

İctimai Televiziya bizim teleməkanda seçilən kanallardan biridir və doğrudan da, o, adını doğruldur, doğrultmaq istiqamətində də fəaliyyətini davam etdirir. Vaxtı ilə bu televiziyaya şübhə ilə yanaşanlar var idi. Amma indi görünür ki, doğrudan da, bu televiziyanın yaranması bizim ciddi mədəniyyət hadisəsidir.

Bir şey var ki, bu televiziya məsələsi Azərbaycanda bir problemdir. XIX əsrdə mətbuat yeni inkişaf eləyəndə,

qəzetlər çıxanda deyirdilər ki, milləti millət edən mətbuatdır. Çünki bir qəzet yayılır, bir fikri, bir ziyalı cümləsinin fikrini bütün millətə yayır və millət də onunla təşkilatlanır. İndi təəssüf ki, bizim televiziyalarımız milləti millət olmaqdan çıxaran verilişləri artırır. Baxırsan ki, cəmiyyəti pozan, cəmiyyəti dəyişən, fikri dəyişən, yüz yerə istiqamətləndirən verilişlər var. Bir vaxt Latın Amerikasının filmləri burada dəb düşmüşdü. Onların geyim tərzi o isti ölkələrə uyğun idi. Bu da o seriallarda göstərilirdi. Bir də gördük, Azərbaycanda gənclərin bir hissəsi onlar kimi geyinir. Televiziyanın belə bir təsir gücü var. Ona görə də televiziyada geyimdən, danışıqdan tutmuş hər şey millətin ümumi mədəniyyətinə uyğun olmalıdır və gələcəyə yönəlməlidir, xalqın, dövlətin, gələcəyini düşünməlidir. Təbii ki, heç bir insan çirkli paltarla küçəyə çıxmaz. Amma necə olur ki, televiziyalara çirkli paltarla, çirkli dillə çıxırlar. Sənət adamları, aktyorlar, filan. Çıxırlar, yarı Azərbaycan dilində, yarı kənar sözlər... Kim sənə haqq verir ki, millətə o dillə müraciət eləyəsən? O adamlar ora necə çıxmalıdır?

Burada Qənirə xanım çox ciddi bir məsələyə toxundu. Üzr istəyirəm, özümdən bir misal deyim. Bir vaxt bir şer yazmışdım: “Bu vətən torpağı çox qəribədir, hələ sərhədini tapa bilmirəm”. Biz hələ torpağımızın sərhədlərini dəqiq müəyyənləşdirməmişik. Mənəvi sərhədlər çox genişdir. Ona görə televiziyalar bunu nəzərə almalıdır. Azərbaycan televiziyasında mədəniyyət kanalı var. Mən düşünürəm ki, İctimai Televiziyaya da dünya azərbaycanlıları adlı veriliş əlavə olunmalıdır. Vaxtı ilə mən burada təklif eləmişdim ki, biz dünya azərbaycanlıları üçün ayrıca bir telekanal yaradaq. Amma bu, mümkün deyilsə, İctimai Televiziyada, heç olmasa, günün yarısına əlavə bir

proqram, yaxud studiya qoşmalıyıq ki, orada dünya azərbaycanlılarına Azərbaycan dilini, Azərbaycan tarixini, ədəbiyyatını öyrədən proqramlar olsun.

Biz Türkiyəyə getmişdik. Sevindik ki, orada, yəni İstanbulda 4 Azərbaycan məktəbi açılıb. Bunu müxtəlif adamlar açıblar. Azərbaycan Prezidenti də bir məktəbin təməlini qoydu. Çox gözəl bir işdir. Amma biz bu məktəblərin sayını bütün dünya boyu artıra bilmərik. Bir məktəb, bir televiziya məktəbi bütün bunun hamısını əvəz eləyə bilər. Ona görə də, hesab edirəm ki, bu, vacib bir şeydir. Vaxt gəlib çatıb. Qonşularımız bizim əleyhimizə müxtəlif telekanallarla verilişlər verirlər. Onlara irad tutanda deyirlər ki, bu, dövlət kanalı deyil, özəl kanaldır. Məncə, biz də İctimai Televiziyada bu təcrübədən istifadə edib düşmənlərimizə cavab verə bilərik.

Yeni seçiləcək namizədlərə uğurlar arzulayıram. Çox arzu eləyərdim, İctimai Televiziya Azərbaycan daxilində də coğrafiyasını bir az genişləndirsin, Azərbaycanın ucqarlarına daha diqqətlə yanaşsın. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Sabir müəllim. İsa Həbibbəyli. Buyurun.

**İ.Həbibbəyli.** Hörmətli xanım sədr, mən də Sizin Türkiyə səfərinizi yüksək qiymətləndirirəm. Milli Məclis baxımından böyük əhəmiyyətə malik olan bu səfərdə müzakirə olunan məsələlər, apardığınız danışıqlar qardaş Türkiyə Cümhuriyyətinin indi daxil olduğu çox həssas dönəm üçün də çox əhəmiyyətlidir. İnanıram ki, özünün müsbət təsirini göstərəcəkdir.

İctimai Televiziya haqqında onu deyə bilərəm ki, onun Azərbaycan televiziya ailəsinə son vaxtlarda daxil olmağına, son dövrlərin nümayəndəsi olmasına baxmayaraq, Azərbaycan televiziya məkanında öz mütləq bir yerini

tutub, cəmiyyətdə müsbət imic qazanıb, özünəməxsus tamaşaçı auditoriyasına malikdir. Mən, xüsusən ictimai televiziyanın azərbaycançılıq və maarifçilik istiqamətində apardığı verilişləri, izlədiyi siyasəti yüksək qiymətləndirirəm. Həmçinin müşahidə edirəm ki, İctimai Televiziya bütün bunları yüksək professionallıq və peşəkarlıq səviyyəsində icra edir.

Namizədlər haqqında deyə bilərəm ki, Azərbaycan Həmkarlar İttifaqının təşviq etdiyi, təklif etdiyi namizədləri yaxından tanıyıram, onlar bu məsuliyyətli işi daşımağa layiqdirlər. Azərbaycan Mətbuat Şurasının namizədləri haqqında mən də həmkarlarım kimi yüksək fikirdəyəm. Azərbaycan Milli Elmlər Akademiyasının namizədi olan akademik Teymur Kərimli bizim klassik ədəbiyyatımızın, o cümlədən müasir ədəbiyyatımızın ölkəmizdəki görkəmli tədqiqatçılarından biri olmaqla bərabər, həm də televiziyaya yaxın adamdır. Uzun illər televiziyada "Məclisi-Üns" kimi çox məsuliyyətli bir ədəbiyyat proqramının əsas aparıcılarından biri olmuşdur. İndi də fəaliyyətində televiziya ilə bağlı məqamları mən aydın şəkildə müşahidə edirəm. İnanıram ki, o, İctimai Televiziya Yayım Şurasının üzvü kimi üzərinə düşən vəzifəsini məsuliyyətlə yerinə yetirəcək, bu televiziya kollektivinə yaxından kömək edə biləcəkdir.

Eyni zamanda, Sərxan Xavəri folklorşünasdır və bu sahədə tədqiqatlara malikdir. İctimai Televiziya isə folklor istiqamətində çoxlu tədbirlər, verilişlər təşkil edir. Bu istiqamətdə də o, seçilərsə, öz köməyini, təsirini göstər biləcək.

Mən deputat həmkarım Etibar Əliyevin sorğusuna cavab vermək istəyirəm. Mən Akademiyanın prezidenti seçiləndən sonra Akademiyanın Humanitar Elmlər Bölməsinə rəhbərik etmək vəzifəsindən çıxmışam, o vəzifəni daşımı-

ram. Hazırda Humanitar Elmlər Bölməsinin Elmi şurasının sədrinin müavini olan Teymur Kərimli Elmi şuranın sədri vəzifələrini müvəqqəti icra edir. İctimai Televiziya Yayım Şurasına namizədlərin verilməsi humanitaryönlü məsələ olduğu üçün bu, Humanitar Elmlər Bölməsində müzakirə olunur. Humanitar Elmlər Bölməsi isə təkcə Teymur Kərimlidən ibarət deyil. Nəzərinizə çatdırım ki, Humanitar Elmlər Bölməsinin Elmi şurasının tərkibinə Akademiyanın 15 nəfər həqiqi üzvü və müxbir üzv daxildir. Onların 4 nəfəri müxbir üzvü, qalanları akademiklərdir. Yəni Teymur Kərimlinin İctimai Televiziya Yayım Şurasının üzvlüyünə namizədliyi 15 nəfər akademik tərəfindən müzakirə olunub, səsə qoyulub, qərar qəbul olunub. Teymur Kərimli, sadəcə, səsvermənin nəticəsinə aid sənədi imzalayıb və bura göndərib.

İkincisi. Qaydaya uyğun olaraq, Humanitar Elmlər Bölməsinin həmin iclasında ikinci namizədin – Sərxan Xavərinin də məsələsi müzakirə edilib, səsə qoyub və səsvermənin nəticəsi olaraq qəbul olunmuş qərar haqqında birgə sənədi Teymur Kərimli imzalayıb. Teymur Kərimli haqqında sənədə Akademiyanın başqa bir rəhbərinin, ikinci namizədə isə Elmi şura sədrinin vəzifələrini icra edənin imza atması məqsədəuyğun olmazdı. Ona görə, hesab edirəm ki, Teymur Kərimlinin bu sənədə imza atması özü haqqında namizədliyin irəli sürülməsi kimi başa düşülməməlidir. Teymur Kərimli Humanitar Elmlər Bölməsinin Elmi şurasının iclasında 15 nəfər Akademiyanın həqiqi və müxbir üzvü tərəfindən seçilib, təsdiq olunub və digər həmkarı ilə bir yerdə namizədliyi Milli Məclisə göndərilib. Onun bu sənədə imza atması hüquqi cəhətdən, mənim fikrimcə, tamamilə doğrudur.

Bir təklif də demək istəyirəm. Ümumiyyətlə, ölkəmizin

teleməkanında elmə aid ayrıca kanal yoxdur. Bu cəhətdən ən münasib televiziyalardan biri İctimai Televiziyadır. Mən çox istəyərdim ki, İctimai Televiziyada elm haqqında ayda ən azı iki dəfə, yaxşı olar ki, həftədə bir dəfə ayrıca veriliş ayrılsın. Biz Milli Elmlər Akademiyası olaraq onun yüksək səviyyədə təşkil olunmasına tam təminat verə bilərik. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, məsələ kifayət qədər müzakirə olundu və biz səsverməyə keçəcəyik. Bildiyiniz kimi, Yayım Şurasının tərkibinə 3 təşkilatın hərəsindən 2 nəfər olmaqla 6 nəfərin namizədliyi göstərilmişdir və biz onlardan 3 nəfəri seçməliyik. Mən namizədləri onların təqdim edilyi sıraya uyğun səsə qoyacağam. Əgər təşkilatın göstərdiyi birinci namizəd səs çoxluğu qazanıb seçilsə, digər namizədi səsə qoymağa ehtiyac qalmayacaq. Hörmətli həmkarlar, xahiş edirəm, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasından irəli sürülmüş Həsən Cəfərovun namizədliyinə münasibət bildirək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.26 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

İndi isə Azərbaycan Milli Elmlər Akademiyasından irəli sürülmüş Teymur Kərimlinin namizədliyini səs qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.27 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə xahiş edirəm, Azərbaycan Mətbuat Şurasından irəli sürülmüş Azər Həsrətin namizədliyinə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.27 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 5 |
| Bitərəf | 5 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

Biz Yayım Şurasının yeni üzvlərini təbrik edir və onlara uğurlar arzulayırıq. Ancaq mən Milli Məclisin sədri kimi yeni üzvlərə tövsiyə edərdim ki, mənim çox hörmətli həmkarlarımın, deputatların burada səsləndirdikləri bir sıra təkliflər və mülahizələr də yadınızda qalsın və buna da diqqət yetirin. Sağ olun, siz gedə bilərsiniz.

Hörmətli həmkarlar, biz işimizə davam edirik. Qeyd edim ki, gündəliyin növbəti 5 məsələsi üçüncü oxunuşda olan qanun layihələridir. Biz indi gündəliyin 2-ci məsələsinə keçirik. Bu məsələ Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Məsələyə dair mə-

lumat vermək üçün mən sözü Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri hörmətli Hicran xanım Hüseynovaya verirəm. Hicran xanım, buyurun.

**H.Hüseynova,** *Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri.*

Hörmətli xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri! İcazə verərdiniz, Sahibə xanım, mən də təbriklərə qoşulum. Sizin rəhbərliyiniz altında beynəlxalq səhnədə çıxışlarınız, yüksək səviyyədə keçirilən görüşləriniz, doğrudan da, bizim parlament diplomatiyasının bariz nümunəsidir. Bu məsələ ilə bağlı hamınızı təbrik edirəm. Xüsusi ilə də Sizə can sağlığı və güc arzulayıram ki, bu işi davam etdirəsiniz.

Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının qanun layihəsi ilə bağlı üçüncü oxunuşda əlavə rəy və təklif daxil olmayıb. Cari ilin 17 aprel tarixində komitə iclasında üçüncü oxunuşda baxılması üçün Milli Məclisin müzakirəsinə tövsiyə edilmişdir.

Hörmətli xanım sədr, cari il aprelin 11-də Milli Məclisin plenar iclasında Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanunu layihəsinin ikinci oxunuş üzrə müzakirəsi zamanı millət vəkilləri hörmətli Fəzail Ağamalı, Müşfiq Məmmədli, Ceyhun Məmmədov bir sıra suallar səsləndirdilər. Biz həmin millət vəkillərinə yazılı şəkildə arayış təqdim etmişik və ötən dövr ərzində onlar əlavə heç bir rəy və təklif bildirməyiblər. Düşünürəm ki, təqdim etdiyimiz arayışla razıdırlar və məlumatı nəzərə almağınızı xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Hicran xanım. Hörmətli həmkarlar, sualı, sözü olan yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

İndi isə biz 3-cü məsələyə keçirik. Bu, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Məsələyə dair məlumat vermək üçün mən Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü hörmətli Nurlan Həsənova söz verirəm. Nurlan müəllim, buyurun.

**N.Həsənov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm, hörmətli Sahibə xanım. Layihə ilə bağlı geniş məlumat verilmişdir. Olduğu kimi səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Nurlan müəllim. Hörmətli həmkarlar, sualı, sözü olan yoxdur. Qanun layihəsini səsə qoyuram. Buyurun, üçüncü oxunuşda qəbul edilməsinə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.31 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti 4-cü məsələ “Notariat haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Nurlan müəllim, mən yenə də Sizdən xahiş edirəm, Siz məlumat verməlisiniz. Buyurun.

**N.Həsənov**. Hörmətli Sahibə xanım, bu layihə ilə bağlı hər hansı bir rəy və təklif yoxdur, olduğu kimi səsə qoyulmasını xahiş edirik.

**Sədrlik edən**. Çox sağ olun, Nurlan müəllim. Qanun layihəsi ilə bağlı heç kimin sözü yoxdur. Qanun layihəsini üçüncü oxunuşda səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.32 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi üçüncü oxunuşda qəbul edildi, çox sağ olun.

5-ci məsələyə keçirik. Bu, Mülki Məcəllədə, Mülki Prosessual Məcəllədə, “Notariat haqqında”, “Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında” və “Dövlət rüsumu haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Nurlan müəllim, yenə də söz Sizindir. Buyurun, sizin komitənizdə baxılıb.

**N.Həsənov**. Hörmətli Sahibə xanım, hər iki oxunuş zamanı geniş məlumat verilmişdir, rəy və təklif yoxdur. Olduğu kimi səsə qoyulmasını təklif edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, bilirsiniz ki, keçən dəfə, yəni ikinci oxunuşda da biz bu məsələ ilə bağlı Siyavuş müəllimə söz vermişdik. Siyavuş müəllim, sizin komitənizdə baxılıb. Xahiş edirəm, üçüncü oxunuş ilə bağlı rəyinizi bildirin.

**S.Novruzov,** *Milli Məclisin Regional məsələlər komitəsinin sədri.*

Təşəkkür edirəm, hörmətli xanım sədr. Komitənin rəyi müsbətdir, qəbul olunmasını xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində də baxılıb. Tahir müəllim, buyurun.

**T.Mirkişili,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Hörmətli xanım sədr, bizim komitənin də rəyi müsbətdir. Həmkarlarımdan bir daha dəstəkləməyi xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Sözü, sualı olan yoxdur, qanun layihəsini üçüncü oxunuşda səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələyə keçirik. 6-cı məsələ İnzibati Xətalar

Məcəlləsində, "Polis haqqında", "Baytarlıq haqqında" və "Atçılıq haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Məsələyə dair məlumat vermək üçün mən Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri hörmətli Əli Hüseynliyə söz verirəm. Əli müəllim, buyurun.

**Ə.Hüseynli,** *Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Bu layihələrlə bağlı təkliflər daxil olmamışdır. Olduğu kimi səsə qoyulmasını xahiş edirik. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Aqrar siyasət komitəsində də baxılıb. Tahir Rzayev. Tahir müəllim, buyurun, rəy bildirin.

**T.Rzayev,** *Milli Məclisin Aqrar siyasət komitəsinin sədri.*

Hörmətli sədr, komitənin rəyi müsbətdir, səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, mən qanun layihəsini üçüncü oxunuşda səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim 11 məsələmiz qalır və bu məsələlərin hamısı birinci oxunuşda olan qanun layihələridir. Mən həmişə birinci oxunuş olanda xahiş edirəm ki, çıxışlarda birinci oxunuşun tələblərini nəzərə alın.

Gündəliyin 7-ci məsələsinə keçirik. Bu məsələ "Minatəmizləmə sahəsində xidmətlərə görə" Azərbaycan Respublikasının medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Məsələyə dair məlumat vermək üçün mən Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü hörmətli Nizami Səfərova söz verirəm. Nizami müəllim, buyurun, Siz.

**N.Səfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Hörmətli xanım sədr, hörmətli Milli Məclisin deputatları. Azərbaycan Respublikasının Prezidenti qanunvericilik təşəbbüsü qaydasında "Minatəmizləmə sahəsində xidmətlərə görə" Azərbaycan Respublikasının medalının təsis edilməsi ilə bağlı "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini Milli Məclisin müzakirəsinə təqdim etmişdir. Dövlət başçısının bu cür əhəmiyyətli təşəbbüslə çıxış etməsi xüsusi rəmzi məna daşıyır. Müasir şəraitdə minalar və müharibənin partlayıcı qalıqları dünyanın bir çox regionlarında ilk növbədə mülki əhalinin həyat və sağlamlığına, inkişafı tərəqqiyə ən ciddi təhdiddir. Ümumiyyətlə, Azərbaycan dünyada minalarla çirkləndirilmiş ölkələr sırasında birinci yerlərdən birini tutur. 1991-ci ildən 2023-cü il may ayının 2-nə olan tarixədək Ermənistanın törətdiyi beynəlxalq cinayətlərin bariz nümunəsi olan minalanma fəaliyyəti nəticəsində

3377 nəfər vətəndaşımız zərər çəkmişdir. Onlardan 358 nəfər uşaq, 38 nəfər qadınlar, 2020-ci ilin noyabrın 10-dan, yəni Üçtərəfli bəyanat imzalandığı tarixdən bu günədək 140 mülki şəxs və 161 nəfər hərbi qulluqçu, ümumilikdə, 301 nəfər mina partlayışları nəticəsində həlak olmuş və ya müxtəlif dərəcəli bədən xəsarətləri almışdır.

Göründüyü kimi, mənfur qonşumuz hələ də mina müharibəsini davam etdirir. 2022-ci ilin avqust ayından başlayaraq Azərbaycan tərəfi Kəlbəcər və Laçın istiqamətində 3000-ə yaxın mina aşkarlamışdır ki, bunların işarələnməsi birmənalı olaraq həmin sursatların 2021-ci ildə Ermənistanda istehsal olunmasını sübut edir. Ümumilikdə, 44 günlük Vətən müharibəsi başa çatdırdıqdan sonra 77890 hektar ərazi minalardan təmizlənib. 87 min mina və partlamamış hərbi sursat aşkarlanıb.

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi bu istiqamətdə öz fəaliyyətini davam etdirir. Həmçinin dövlətimiz minatəmizləmə sahəsində bir sıra ölkələr və beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq edir. Minatəmizləmə Agentliyi Türkiyə Respublikası, Böyük Britaniya mütəxəssisləri, Amerika Birləşmiş Ştatlarının Beynəlxalq Aerokosmik Mühəndislik Korporasiyası, Cenevrə Beynəlxalq Humanitar Minatəmizləmə Mərkəzi və digər dövlətlərin müvafiq qurumları ilə əməkdaşlıq edir. Həmçinin Avropa İttifaqı, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı və Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi Azərbaycanda məcburi köçkünlərin təhlükəsiz qayıdışının dəstəklənməsi məqsədi ilə yeni layihəni icra etməyə başlayıb. Göründüyü kimi, minatəmizləmə mühüm fəaliyyət növüdür və bu sahədə fəal iştirak edən, səmərəli əməkdaşlığa əhəmiyyətli töhfə

verən dövlətimiz beynəlxalq əlaqələrin inkişaf etdirilməsinə və möhkəmləndirilməsinə görə Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər adıçəkilən medalla təltif oluna bilərlər. Qeyd etdiyim müddəalar medalın Əsasnamə layihəsinin 1-ci maddəsində əksini tapıb. Digər iki maddə isə təltif edən orqan və medalın taxılması qaydasında nəzərdə tutulur.

Hörmətli deputatlar, qanun layihəsinin birinci oxunuşda qəbul edilməsinə səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Nizami müəllim. Çox ətraflı məlumat verdiniz. Hörmətli həmkarlar, 3 nəfər yazılıb, Nizami müəllim məsələ ilə bağlı çox ətraflı məlumat verdi. Əgər bu yazılan deputatlar orden və medalla bağlı nə isə danışacaqlarsa, buyursunlar. Nizami müəllimin dediklərini təkrar etməyə ehtiyac varmı?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bir-bir soruşacağam. Razi müəllim, nə isə medalla, ordenlə bağlı deyəcəksiniz, yoxsa elə bu məsələlərə aid ayrı bir interpretasiya olacaq?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun.

**R.Nurullayev.** Təşəkkür edirəm, xanım sədr. Təklifim ondan ibarətdir ki, bu faciəvi ölüm ən ağır və ən təhlükəli iş ilə məşğul olan ANAMA və əməkdaşları ilə bağlı sosial qayğının, əmək haqqının, sığorta və onların ölümündən sonra özlərinə və ailə üzvlərinə hansı münasibətin sərgilənməsi məsələsini sosial mediada və hər yerdə gündəmə gətirib. Burada bir neçə yanaşma ola bilər. Mənim ANAMA əməkdaşları ilə  yaxın münasibətim var. Orada işləyən tanış və dostlarım var. Onlar narahatdır və fikirlərini bölüşüblər. ANAMA əməkdaşlarının əmək haqqına gərək yenidən baxılsın. Bir də onlara ölümündən sonra

şəhidlik statusunun verilməsi məsələsini gündəmə gətirir–lər. Bir ailə öz ailə başçısını itirirsə və bu, işğaldan azad olunan Qarabağda vəzifə borcunu yerinə yetirən zaman baş verirsə, o zaman elə bu, şəhidliyə bərabər tutulmalı məsələ kimi nəzərdən keçirilə bilər. Xanım sədr, təklif edirəm ki, ANAMA işçilərinin əmək haqqının artırılması, onlara və ailə üzvlərinə güzəştlərin nəzərdə tutulması, həlak olan əməkdaşların statusunun şəhid statusuna bə–rabər tutulması məsələsi müzakirə obyektinə çevrilsin.

Digər bir məsələ. Bütöv sosial mediada müxtəlif şəxslər tərəfindən hallandırılır ki, minalı sahələrə insanları burax-mırlar və bu, qəsdən edilir. Deyirlər ki, hökumət bunu qəsdən edir. Lap gülməli çıxır. Niyə? Çünki niyə bunu qəsdən etsin ki? Məntiq nədir? Belə də haqsız danışmaq olarmı? Görəsən, o təklifi və tələbi səsləndirənləri avto-busa mindirib həmin minalı sahələrə aparsalar və desələr ki, gedin, yaxşı, öz ata-babalarınızın yurdunu könüllü olaraq görün. Görək, onlar addımlayıb qabağa gedəcəklər? Nəyə görə onlar başqa insanları o minalı sahələrə göndərmək istəyir və buna da belə ad qoyurlar ki, bunu hökumət etmək istəmir? Mənə belə gəlir ki, burada məq-səd başqadır. Bu, can yanmaq məsələsi də deyil. Məqsəd ölkədə narazılıq, çaxnaşma yaratmaqdır. Ona görə də ermənilərin bizə etdiklərindən daha çox daxilimizdə ölkə-mizə qarşı bu şəkildə hərəkət edənlər təhlükəlidir və gərək onların qarşısı alınsın. Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Razi müəllim, birinci, Sizin təklifiniz bu məsələnin predmeti deyil, ayrı bir məsələ, tamamilə ayrı bir sahədir. Sosial məsələ ilə bağlı, lazım gəlsə, Musa müəllim sonra Sizə işçi qaydada bəzi şeyləri açıqlaya bilər. İkinci məsələ. Deyirsiniz, sosial şəbəkədə yazırlar. Siz də sosial şəbəkədə və ətrafınızda olanlara başa salın ki, onlar elə

sosial şəbəkədə cavablarını versinlər. Çox sağ olun.

İndi isə, hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyacağam. Buyurun, birinci oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.43 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

8-ci məsələyə keçirik. "İctimai iştirakçılıq haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qanun layihəsinə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin üzvü hörmətli Azay Quliyevə söz vermək istəyirəm. Azay müəllim, buyurun.

**A.Quliyev,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli həmkarlar, müzakirənizə təqdim olunan qanun layihəsinin əsas məqsədi "İctimai iştirakçılıq haqqında" Qanunda istifadə edilən termin və anlayışların "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələblərinə uyğun olaraq, daha aydın və daha açıq, birmənalı şəkildə ifadə olunmasını təmin etməkdən ibarətdir. Bildiyiniz kimi, dəyişikliklər 4 maddəni əhatə edir. Əsas anlayışlar haqqında 1-ci maddədə həm ictimai müzakirə, həm də yazılı məsləhətləşmənin əhatə etdiyi mövzuların dairəsi genişlənir və

bura mərkəzi yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının müzakirə etdiyi yerli və ictimai məsələlər də daxil edilir.

Hörmətli həmkarlar, bilirsiniz ki, mövcud mətndə ictimai müzakirələrin mövzusu, sadəcə, müvafiq məsələlər kimi ümumi ifadə ilə, yazılı məsləhətləşmə isə yalnız hüquqi aktların layihələri ilə məhdudlaşır. Ona görə də düşünürəm ki, təqdim olunan redaksiya daha ətraflıdır və daha konkretdir.

İkinci. İctimai şuraların hüquq və vəzifələri haqqında 7-ci maddə də ictimai şuraların hüquqları artırılır. Onlar təkcə ictimai əhəmiyyətli deyil, eyni zamanda, yerli əhəmiyyətli məsələlər barədə də vətəndaş cəmiyyəti institutlarının rəy və təkliflərini toplayaraq, ümumiləşdirərək onu müvafiq qaydada mərkəzi və yerli icra hakimiyyəti orqanlarına təqdim etmək hüququ verilir.

Üçüncü istiqamətdə təklif olunan dəyişikliklər yazılı məsləhətləşmənin təşkili haqqında 16-cı maddəyə təklif olunur. Həmin dəyişikliyə əsasən mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının üzərinə əlavə vəzifə qoyulur ki, həmin orqanlar təkcə hazırladıqları hüquqi aktların layihələri barədə deyil, eyni zamanda, müzakirə olunan yerli və ictimai əhəmiyyətli məsələlər barədə də yazılı məsləhətləşmələrin başlanması haqqında məlumatı öz internet səhifələrində və mediada yerləşdirsinlər. Eyni müddəa yazılı məsləhətləşmələrin müddəti haqqında 17-ci maddəyə də təklif olunur.

Hörmətli həmkarlar, ümid edirik ki, bu təkliflərin dəstəklənməsi ölkədə qərar qəbulu prosesində vətəndaşların iştirakının daha da genişlənməsinə, ictimai nəzarət mexanizminin təkmilləşdirilməsinə, o cümlədən ictimai iştirakçılığın təmin olunmasına məsul olan dövlət orqanlarının cavabdehliyinin

artırılmasına xidmət edəcəkdir. Xahiş edirəm, təklif olunan dəyişikliyə müsbət rəy verəsiniz. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Azay müəllim. Hörmətli həmkarlar, burada cəmi 2 anlayışın genişlənməsindən söhbət gedir. 8 adam yazılıb. Etiraz etmirsinizsə, biz bunu səsə qoyaq.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun, qanun layihəsinə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.46 dəq.) |
|---|---|
| Lehinə | 84 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 86 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Gündəliyin 9-cu məsələsinə keçirik. Bu məsələ "Dövlət qulluğu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Məsələyə dair məlumat vermək üçün, Əli müəllim, mən Sizdən xahiş edəcəyəm. Buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli deputat həmkarlar, bilirsiniz ki, cənab Prezident Naxçıvan Muxtar Respublikasında həm də artıq səlahiyyətli nümayəndəlik institutu təsis etmişdir və fəaliyyət göstərir. Səlahiyyətli nümayəndələr, həmçinin Prezident Administrasiyasının əməkdaşlarıdır, səlahiyyətli nümayəndə institutu həm də Prezident Administrasiyasının struktur bölməsidir. Yəni, əslində, onlar həm də dövlət

qulluqçularıdır və təsnifatda yer tutmalıdırlar. Ona görə də cənab Prezidentin təklif etdiyi bu qanun layihəsi ilə həm səlahiyyətli nümayəndə, həm onun müavini, həm inzibati və həm də vəzifə tutan digər şəxslərin təsnifatı "Dövlət qulluğu haqqında" Qanunda yer tutacaq. Təbii ki, bu onların sosial maddi təminatları üçün də faydalı olacaqdır. Bu baxımdan qanun layihəsinin səsə qoyulmasını xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Qüdrət müəllim yazılıb. Qüdrət müəllim, buyurun. Mən düşünürəm ki, əlbəttə, fikrinizi komitədə də səsləndirmisiniz, indi bizim üçün də səsləndirin. Buyurun.

**Q.Həsənquliyev.** Çox sağ olun. Hörmətli sədarət, hörmətli həmkarlar və media nümayəndələri. Qorxuram, indi səsləndirəcəyim fikrə görə yenə də məni həmkarlarımdan kimsə ittiham etsin ki, Konstitusiyanı yalnız sən oxumusan? Əvvəla, əminəm, həmkarlarımın hamısı bilir ki, Konstitusiyanı insanlar bilmədiklərindən pozmurlar. Bəzi hallarda kooperativ maraqlar və digər məqsədlər naminə bunu edirlər. Elə bu gün bizim hörmətli, tanınmış vəkillərdən Anar Qasımlının bir açıqlamasını oxudum ki, 2003-cü ildə kasasiya şikayəti ilə bağlı məhdudiyyətin tətbiq olunmasına dair normanı Konstitusiya Məhkəməsi qanuna, Konstitusiyaya zidd hesab edib. Amma 2021-ci ildə biz məhkəmə-hüquq islahatları çərçivəsində həmin normanı yenidən Mülki Prosessual Məcəlləyə təqdim etmişik.

Bu gün mən nəyi diqqətinizə çatdırmaq istəyirəm? Bizim Konstitusiyanın 124-cü maddəsində qeyd olunur ki, yerlərdə icra hakimiyyətini yerli icra hakimiyyətinin başçıları həyata keçirirlər. Hazırda cənab Prezident tərəfindən səlahiyyətli nümayəndələr təyin olunur və həmin səlahiyyətli nümayəndələr faktiki surətdə bir çox hallarda icra

başçılarının səlahiyyətlərinə aid olan funksiyaları yerinə yetirirlər. Ona görə də Konstitusiya ilə, dediyim kimi, yerlərdə icra hakimiyyəti funksiyası yerli icra hakimiyyəti başçılarına aid olur. Bu məsələyə ona görə aydınlıq gəlməlidir. Burada icra orqanı olduğuna görə həm bir subordinasiya, həm də iyerarxiya olmalıdır. Məsələn, mənim üçün aydın deyil ki, yerlərdə Prezidentin səlahiyyətli nümayəndələri hansı səlahiyyətlərə malikdirlər və onlar icra başçılarına göstəriş verə bilərlərmi, yaxud əksinə, icra başçıları onlara göstəriş verə bilər, yaxud səlahiyyətli nümayəndələr icra başçılarına tabedirlər.

2012-ci ildə cənab Prezident tərəfindən "Yerli icra hakimiyyəti orqanları haqqında" Əsasnamə təsdiq olunub. Bu gün, dediyim kimi, o səlahiyyətli nümayəndələrin vəzifəsinə aid edilmiş bir çox məsələlər həmin əsasnamə ilə də yerli icra hakimiyyəti başçılarına şamil olunub. Bizim Konstitusiyada qeyd olunub ki, Azərbaycanda dövlət hakimiyyəti hakimiyyətlərin bölgü prinsipi əsasında həyata keçirilir. Qanunvericilik hakimiyyətini Milli Məclis, Konstitusiyanın 125-ci maddəsində qeyd olunub ki, məhkəmə hakimiyyətini məhkəmələr və icra hakimiyyətini də yerlərdə yenə də Konstitusiyanın 124-cü maddəsinə görə, yerli icra hakimiyyətinin başçıları həyata keçirirlər. Hörmətli həmkarlar, bu məsələni diqqətinizə çatdırmaq istədim ki, biz müvafiq icra hakimiyyəti orqanı ilə bu məsələdə də müzakirələr aparmalıyıq. Lazımdırsa, müvafiq qanunvericilik aktları ilə bu məsələni tənzimləməliyik. Mən bunları diqqətinizə çatdırmağı özümə borc bildim. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Qüdrət müəllim. Əli müəllim, buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun, hörmətli xanım sədr. Biz bu

gün Naxçıvan Muxtar Respublikasının səlahiyyətli nümayəndələri institutundan danışırıq və "Dövlət qulluğu haqqında" Qanunda bunu nəzərdə tuturuq. Bilirsiniz ki,

Şuşada yaradılanda artıq bu məsələni bir dəfə müzakirə etmişik. Hətta mən dəqiq xatırlayıram, səlahiyyət bölgüsü ilə bağlı verilən sualları, səhv etmirəmsə, Sabir müəllim Rüstəmxanlı vermişdi. Üst-üstə düşməyəcək ki? Fərq nədədir? Bu sualı cavablandırmışdıq.

Birinci, cənab Prezident Konstitusiyaya görə, belə səlahiyyətli nümayəndələr yarada bilər, yəni müvafiq icra hakimiyyəti orqanları, onların səlahiyyəti Konstitusiyada var. Əgər cənab Prezidentin Konstitusiyaya əsasən yaratdığı bu institutu gələcəkdə Konstitusiyada qeyd etmək lazımdırsa, sonradan onu referendumla edə bilərik. Amma bu gün cənab Prezidentin yaratdığı bu təsisat da elə Konstitusiyaya uyğundur.

Səlahiyyətlər fərqi nədən ibarətdir? Hər ikisinin əsasnaməsində o var. Daha dəqiq bir cümlə ilə deyə bilərəm: İcra hakimiyyəti orqanları əhali ilə, səlahiyyətli nümayəndələr ərazi ilə məşğul olur. Bölgü də çox dəqiqdir, heç kim heç kimin işinə qarışmır. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Erkin Qədirli çıxış etmək istəyir. Buyurun.

**E.Qədirli.** Təşəkkür edirəm, xanım sədr. Çox qısa, necə deyərlər, Əli müəllimin sözünə qüvvət. Onun daha sadə izahı var. İcra hakimiyyəti Konstitusiyaya görə, Prezidentə həvalə olunub. İstər Nazirlər Kabinetinin, istərsə də yerli icra hakimiyyəti orqanlarının özünə aid heç bir səlahiyyəti yoxdur. Bunlar syugeneris orqanları deyil. İcra hakimiyyətləri hamısı Prezidentə tabedir və Prezident onları bölüşdürə bilər. Odur ki, burada belə bir problem yoxdur.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, mən qanun layihəsini birinci oxunuşda səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.53 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi birinci oxunuşda qəbul edildi, çox sağ olun.

Hörmətli həmkarlar, gündəliyin 10-cu məsələsinə keçirik. Torpaq Məcəlləsində, Şəhərsalma və Tikinti Məcəlləsində, "Torpaq islahatı haqqında" Qanunda və digər 7 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qanun layihəsinə Aqrar siyasət komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün mən, Tahir müəllim, Sizdən xahiş edəcəyəm. Buyurun, məlumat verin.

**T.Rzayev.** Hörmətli sədr, hörmətli deputat həmkarlar! Adları göstərilən qanunlara edilmiş dəyişikliklər uyğunlaşma, dəqiqləşmə xarakter daşımaqla bərabər, bərpa olunan enerji mənbələrindən elektrik enerjisi məqsədləri üçün torpaq sahələrinin əldə edilməsi xüsusiyyətlərini, müqavilələrin bağlanma şərtlərini və müvafiq icra orqanlarının səlahiyyətlərini nəzərdə tutur. Qanunlarda edilmiş dəyişikliklərə əsasən bələdiyyə torpaqları bu məqsədlər üçün dövlət mülkiyyətinə və ya icarəsinə, elektrik enerjisi istehsal etmək istəyən fiziki və hüquqi şəxslərin icarəsinə birbaşa, yəni müsabiqə və hərrac keçirmədən veriləcəkdir.

Həm də enerji mənbələrinin ərazisi kimi müəyyən edilmiş torpaq sahəsində inşa ediləcək elektrik stansiyalarının tikintiyə icazə icraatı üçün tikinti layihəsi şəhərsalma sənədlərinə uyğun hesab ediləcək və aidiyyəti üzrə dövlət orqanlarının rəyinə ehtiyac olmayacaqdır. Səs verməyinizi xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Hörmətli həmkarlar, qanun layihəsinə daha 4 komitədə baxılıb. Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin rəyini bildirmək üçün, Nurlan müəllim, bu gün məsələ ilə bağlı komitənin rəyini Siz verirsiniz. Buyurun, rəyinizi bildirin.

**N.Həsənov.** Hörmətli Sahibə xanım, komitənin rəyi müsbətdir. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Tahir müəllim Mirkişili, sizin komitənizdə də baxılıb. Xahiş edirəm, komitənin rəyini bildirin.

**T.Mirkişili.** Çox sağ olun, xanım sədr. Hörmətli həmkarlar, hörmətli Tahir müəllim kifayət qədər geniş məlumat verdi. Mən bir məsələni əlavə etmək istərdim ki, bu gün bərpa olunan yaşıl enerjinin inkişaf elətdirilməsi Azərbaycanın dövlət siyasətidir. Xüsusi ilə də iqtisadi siyasətin və bizim qonşularla münasibətimizin çox mühüm bir istiqamətidir. Yalnız bu ilin birinci rübündə biz elektrik ixracından 220 milyon dollardan çox gəlir əldə etmişik. Bütün bunları nəzərə alaraq, təbii ki, bu istiqamətdə torpaqların ayrılmasını, enerjinin ixracı, yaşıl enerji, hidrogen ixracı ilə bağlı Azərbaycan dövləti siyasətini bu qanunda edilən dəyişikliklərlə dəstəkləməyinizi sizdən xahiş edirəm. Bizim komitənin rəyi müsbətdir. Çox sağ olun.

**Sədrlik edən.** Tahir müəllim, çox sağ olun. Məsələyə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində də

baxılıb. Mən hörmətli Sadiq müəllimdən xahiş edəcəyəm, komitənin rəyini bildirin. Buyurun.

**S.Qurbanov,** *Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri.*

Çox sağ olun, dəyərli Sahibə xanım. Bizim komitənin rəyi müsbətdir. Çox mühüm bir qanun layihəsidir. Bütün deputat yoldaşlarımı dəstəkləməyə dəvət edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Sadiq müəllim. Siyavuş müəllim, sizin komitənizdə də baxılıb. Buyurun, Siz də komitənin rəyini bildirin.

**S.Novruzov.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli deputatlar, Tahir müəllim ətraflı məlumat verdi. Bizim də komitədə "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun 9.1-ci, 10-cu, 10.1-ci maddələrində müvafiq dəyişikliklər öz əksini tapıbdır. Komitənin rəyi müsbətdir. Qəbul etməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Siyavuş müəllim. Hörmətli həmkarlar, müzakirəyə yazılanlar yoxdur. Ona görə də qanun layihəsini birinci oxunuşda səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.57 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi. Hörmətli həmkarlar, etiraz etmirsinizsə, biz fasiləsiz

işləyək.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Çox sağ olun. Biz gündəliyin 11-ci məsələsinə keçirik. Bu məsələ də "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Məsələyə dair məlumat vermək üçün mən Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü hörmətli Kamal Cəfərova söz verirəm. Kamal müəllim, buyurun.

**K.Cəfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Çox sağ olun, hörmətli xanım sədr. Müzakirəmizə təqdim edilən qanun layihəsinin məqsədi yetkinlik yaşına çatmayan şəxslərin hüquqlarının daha səmərəli qorunmasını təmin etməkdir.

"Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Qanunun 18.2-ci maddəsində məhkəmə qərarına əsasən yetkinlik yaşına çatmayanların müvəqqəti təcridetmə mərkəzinə yerləşdirilməsi halları göstərilir. Dəyişikliyə əsasən bu cür məhkəmə qərarları çıxarılarkən bütün hallarda prokurorun iştirakının təmin edilməsi təklif edilir. Məqsəd insan hüquqlarının bu halda yetkinlik yaşına çatmayanların hüquqlarının müdafiəsini daha da gücləndirməkdir. Eyni zamanda, Cinayət Prosessual Məcəlləsinin 435-1-ci maddəsində yetkinlik yaşına çatmayanların qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələrinə göndərilməsinin prosessual əsaslarının daha geniş və detallı müəyyən edildiyindən qanunun 22-ci maddəsinin Cinayət Prosessual Məcəlləsinin 435-1-ci maddəsinə uyğunlaşdırılması təklif edilir. Qeyd edilənləri nəzərə alaraq, qanun layihəsinin lehinə səs

verməyə çağırıram.

**Sədrlik edən.** Çox sağ olun, Kamal müəllim. 1 nəfər yazılıb. Fəzail Ağamalı. Fəzail müəllim, buyurun.

**F.Ağamalı.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. İstər 11-ci, istərsə də 12-ci məsələlər olduqca aktualdır və qanun layihələrində ciddi məqamlar öz əksini tapır. Düşünürəm ki, bunu qəbul etməklə qanunvericilikdəki bir sıra boşluqlar aradan qalxacaqdır.

Hörmətli xanım sədr, mən birinci oxunuşun tələblərinə uyğun olaraq, konseptual baxımdan bunu dəstəkləyirəm və hər ikisinə səs verməyi zəruri hesab edirəm.

1-ci və 2-ci məsələnin mahiyyəti ilə bağlı olan daha bir məsələnin aktuallığını nəzərə alıb, fikrimi diqqətinizə çatdırmaq istəyirəm. Düşünürəm ki, bu, olduqca ciddi sosial məsələdir. Yetkinlik yaşına çatmayan, valideyn himayəsindən məhrum olan uşaqlara dövlət bu gün kifayət qədər himayə göstərir. Bu qanuna etdiyimiz dəyişikliklər, düşünürəm ki, bunun səviyyəsini bir az da qaldıracaq. Lakin mənə elə gəlir ki, burada bir sistemə ehtiyac var və müvafiq qurumlar bu haqda düşünməlidirlər. Söhbət həmin uşaqların ilk olaraq sığınacaqlara daşınmasından gedir. Yaxşı haldır ki, bu, həm də prokurorluq vasitəsi ilə himayə olunur, rəsmiləşdirilib. Onları sığınacaqlardan sonra yerləşdirdiyimiz sahələrdə yüksək səviyyəli yanaşmada müəyyən problemlər var. Onun üçün yeni yanaşmalara ehtiyac var və mən əminəm ki, bu, edilən dəyişikliklərin qəbul edilməsi ilə öz həllini tapacaqdır.

Qaldırmaq istədiyim ən mühüm məsələ yetkinlik yaşına çatdıqdan sonra həmin gənclərin, həm qızların, həm də oğlanların həyatda rastlaşdıqları çox ciddi problemlərlə bağlıdır. Bir neçə ay bundan qabaq sosial şəbəkələrdə "Qızılburun" deyilən bir yer var idi, biz orada çox

xoşagəlməz hadisələrin şahidi olduq, geniş müzakirə olundu və sair. Böyük həyəcan təbili vurdu. Ona görə yaxşı olmazmı ki, yetkinlik yaşına çatdıqdan sonra bu və ya digər dərəcədə valideyn himayəsinə, diqqətinə ehtiyacı olan həmin gənclərimiz ayrı-ayrı dövlət qurumlarının diqqətində olsun? Yəni Elm və Təhsil Nazirliyi onların dövlət ali məktəblərində pulsuz oxumasını təmin etsin və ya özəl sektorda oxuyanların təhsil haqqını ödəsin. Yaxud da ki, texniki peşə məktəbi ilə bağlı, onların fərqli peşələrə yiyələnməsi üçün konkret planlar tutulsun və bu, xüsusi olaraq diqqətdə saxlanılsın. Onlar taleyin ümidinə buraxılmasın. Hüquq mühafizə orqanları, xüsusi ilə bizim təhlükəsizlik qurumlarımız, Müdafiə Nazirliyimiz, Daxili İşlər Nazirliyi onların içərisində fiziki cəhətdən, zehni cəhətdən sağlam olan həmin gəncləri yenə də himayə edərək istiqamətlərini həmin yönə yönəltsinlər. Mənə elə gəlir ki, bu cür sistemli iş ancaq cəmiyyətimizə çox əhəmiyyətli və ciddi töhfələr verə bilərdi. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Fəzail müəllim. Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin son 6 məsələsi möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub, mahiyyətcə də bir-birinə bağlıdır. Beləliklə, 12-ci məsələ Ailə Məcəlləsində, 13-cü məsələ Mülki Məcəllədə, 14-cü məsələ "Sosial müavinətlər haqqında" Qanunda, 15-ci məsələ "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum qalmış uşaqların sosial müdafiəsi haqqında" Qanunda, 16-cı məsələ "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Qanunda və 17-ci məsələ "Sosial xidmət haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihələridir. Qeyd edim ki, qanun layihələrinə 3 komitədə baxılmışdır. Birinci komitə Hicran xanım, sizin komitənizdir. Mən Sizdən xahiş edəcəyəm, 12-ci və 15-ci məsələlərə dair məlumat verin, eyni zamanda, 13-cü, 14-cü, 16-cı, 17-ci məsələlər barəsində komitənizin rəyini bildirin. Buyurun.

**H.Hüseynova.** Çox sağ olun, xanım sədr. Hörmətli media nümayəndələri, hörmətli həmkarlar. Azərbaycan Respublikasının Prezidenti "Uşaqların valideyn himayəsindən məhrum olmasının qarşısının alınması və hüquqlarının müdafiəsinin gücləndirilməsi ilə bağlı bəzi məsələlər haqqında" 2022-ci il fevralın 15-də Fərman imzalanmışdır. Fərmanda himayədar ailə institutunun inkişaf etdirilməsi və təşviqi, habelə bu sahə ilə bağlı müvafiq normativ hüquqi bazanın təkmilləşdirilməsi tapşırığı qoyulmuşdur. Bu tapşırıqlardan irəli gələrək Ailə Məcəlləsində təklif olunan dəyişikliklər himayədar ailə institutunun tətbiqi, həmçinin valideyn himayəsindən məhrum olmuş uşaqları müəssisəyə yerləşdirmə prosesinin təkmilləşdirilməsi, onların müəssisələrə düşməsinin qarşısının alınması, bioloji ailələrinə qaytarılması məsələlərinin hüquqi tənzimlənməsini özündə ehtiva edir.

Hörmətli xanım sədr, hazırda qüvvədə olan Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 142-145-ci maddələrində himayədar ailə ilə bağlı hüquqi əsaslar müəyyən edilsə də, bu institut praktikada tətbiq olunmamış, bu sahədə konkret idarəetmə mexanizmləri müəyyən edilməmişdir. Bu baxımdan təqdim olunan qanun layihəsində beynəlxalq işlək normativ hüquqi aktlardan, habelə övladlığagötürmə sahəsində qanunvericilik və institusional baxımdan əldə edilmiş təcrübədən istifadə edilmişdir. Qanunda himayədar ailə olmaq istəyən şəxslərin və himayədar ailə qayğısında olan uşaqların vahid elektron uçotu, himayədar ailələrin yaranması, himayədar valideyn–namizədlərlə müsahibələrin və təlimlərin keçirilməsi, uyğunlaşdırma mərhələsi, himayədar valideynlərlə müqavilə bağlanması, habelə himayədar valideyn olmaq istəyən şəxslərə dair tələblər, himayədar valideynlərin hüquq və vəzifələri və himayədar ailəyə verildikdən sonra uşağın monitorinqi və digər məsələlər öz əksini tapmışdır.

Qeyd etmək lazımdır ki, təklif olunan yeni qanun layihəsində bir sıra mühüm məsələlər nəzərə alınıb. Belə ki, layihədə valideyn himayəsindən məhrum olan uşaqların yerləşdirilməsi ilə bağlı çevik bir mexanizm təsbit olunur. Daha bir mühüm məqam ondan ibarətdir ki, uşaq aşkar olunan zaman onun sağlamlığı və ya həyatı üçün birbaşa təhlükə olduqda və təcili yerləşdirilməsi zərurəti yarandıqda, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan bu məcəllənin 116.1-ci maddəsinə uyğun olaraq, ilkin qiymətləndirməni aparmadan uşağın təcili yerləşdirilməsi ilə bağlı qərar qəbul edir. Eyni zamanda, təklif olunan yeni əlavə və dəyişikliyə əsasən uşağın öz ailəsinə və ya qohumlarına qaytarılmasının, yaxud ailəsində qalmasının mümkünlüyünü müəyyən etdikdə 14 iş

günü müddətində əlavə qiymətləndirmənin aparılması və ailə inkişaf planı tərtib edilir.

Burada bir vacib məqam da nəzərə alınıb. Belə ki, 7 yaşı tamam olmuş uşağın himayədar ailəyə verilməsi zamanı onun fikri pedaqoji işçinin və ya psixoloqun iştirakı ilə öyrənilir və nəzərə alınır. Lakin 10 yaşı tamam olmuş uşaq himayədar ailəyə verildikdə onun razılıq verməsi zəruridir.

Eyni zamanda, qanun layihəsinə əsasən valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün fərdi inkişaf planı tərtib edilir. Belə ki, 1 il ərzində rübdə azı bir dəfə olmaqla ailədə monitorinq aparılır. Ümumiyyətlə, məcəllədə 22 maddə üzrə əlavə və dəyişiklik nəzərdə tutulur.

Qeyd etmək istərdim ki, himayədar ailə institutu uşaqlara qayğı sisteminin dünyada geniş yayılmış nümunələrindən biridir. Məsələn, Türkiyədə 8 mindən çox himayədar ailə var. Avropa ölkələrində, eləcə də Amerikada bu, geniş yayılmışdır. Burada əsas məqsəd valideyn himayəsindən məhrum olan uşaqların sosial xidmət müəssisələrində deyil, ailələrdə böyüməsini təmin etməkdir. "Himayədar ailə" modeli deinstitutsionallaşma prosesində yeni bir mərhələdir.

Himayədar ailədə uşaqların saxlanması üçün xərclər və stimullaşdırıcı məbləğdə uşaqların mövsümi geyimlərlə təmin olunması üçün müavinət və birdəfəlik ödəmələrin verilməsi də nəzərdə tutulur. Himayədar ailə övladlığagötürmə ilə mahiyyət baxımından oxşarlıq təşkil etsə də, hüquqi baxımdan fərqlənirlər. Belə ki, himayədar ailə vərəsəlik, pensiya öhdəliyinin davam etməsi kimi hüquqi nəticələr doğurmur.

Beləliklə, təklif olunan dəyişikliklərin qəbulu hima-

yədar ailə institutunun uğurlu tətbiqinə, valideyn himayəsindən məhrum olmuş uşaqların müəssisələşməsinin qarşısının alınmasına, bununla da həmin uşaqların ailə mühitində tərbiyə alma imkanlarının genişləndirilməsinə xidmət edəcəkdir.

Xanım sədr, daha ətraflı olaraq qanun layihəsi və onun arayışı deputat həmkarlarıma paylanılmışdır və onunla tanışdırlar. 27 aprel tarixində bizim komitəmizin iclasında bu məsələyə baxılıb və tövsiyə olunub ki, Milli Məclisə, birinci oxunuşa təqdim olunsun.

Mən o biri məsələlərə öz fikrimi bildirim. Ailə Məcəlləsində və Mülki Məcəllədə dəyişikliklər. Burada Azərbaycan Respublikasının qanun layihəsinin qəbul edilməsi ilə əlaqədar uyğunlaşdırma çərçivəsində hazırlanmışdır. Mülki Məcəllənin 35-ci maddəsinə “Qəyyumluğa və himayəçiliyə ehtiyacı olan valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara qəyyum və himayəçi təyin edilənədək qəyyumluq və himayəçilik orqanının funksiyalarını müvafiq icra hakimiyyəti orqanı həyata keçirir” cümləsi əlavə edilir.

Cari il aprelin 27-də yenə də bizim komitəmizdə bu məsələyə baxılıb və tövsiyə olunub ki, Milli Məclisin plenar iclasında səslənsin.

14-cü məsələ “Sosial müavinətlər haqqında”dır. Ailə Məcəlləsində təklif olunan dəyişikliklərdən irəli gələrək himayədar ailəyə verilmiş uşağın, o cümlədən 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağın tərbiyə edilməsinə görə aylıq himayədar ailəyə verilmiş uşaqlara mövsümi geyim alınması üçün birdəfəlik müavinətlər, habelə onların təyin olunma şərtləri, müddəti, qaydaları, həmçinin dayandırılması əsas olan hallar müəyyən edilmişdir. Bizim komitəmizdə bu məsələyə baxılıb. Təklif olunub ki,

birinci oxunuşda qəbul olunsun.

15-ci məsələ. “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi. Bu qanun layihəsi Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının qanun layihəsinin qəbul edilməsi ilə əlaqədar uyğunlaşdırma xarakter daşıyır. Qanun layihəsinə Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının qanun layihəsində edilmiş dəyişiklikdən irəli gələrək “himayədar valideyn”, “himayədar ailə” anlayışları, habelə himayədar ailəyə verilmiş uşaqların sosial müdafiəsi ilə əlaqədar müddəalar əlavə edilmişdir. Təklif olunan dəyişikliklər “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununun 12.2-ci maddəsinə əsasən normativ hüquqi aktların koliziyasına, yəni eyni ictimai münasibətləri tənzimləyən qüvvədə olan normativ hüquqi aktların ziddiyyətinə yol verilməməsi məqsədi ilə hazırlanmışdır. Komitəmizdə baxılıb və müsbət rəy verilib.

16-cı məsələ. Mən bunların hamısını təkrar deməyəcəyəm. Eyni qaydaya “Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında” Azərbaycan Respublikasının Qanununda himayədar valideynə, himayədar ailəyə verilmiş valideyn himayəsindən məhrum olmuş uşaqların həmin himayədar valideynin yaşayış yeri üzrə qeydiyyatların aparılması təklif olunur. Yenə də komitəmizdə baxılıb və müsbət rəy verilib.

Nəhayət, 17-ci məsələ. Ailə Məcəlləsinin 116-cı maddəsində təklif olunan dəyişiklikdən irəli gələrək “Sosial xidmət haqqında” Azərbaycan Respublikası Qanununun

17.1-ci maddəsində “himayədar ailə” sözlərinin çıxarılması nəzərdə tutulmuşdur. Bizim komitəmizin iclasında baxılıb və müsbət rəy verilib. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Hicran xanım. Hörmətli həmkarlar, 13-cü və 16-cı məsələlərə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün mən, Nurlan müəllim, Sizdən xahiş edirəm. Buyurun.

**N.Həsənov.** Təşəkkür edirəm, hörmətli Sahibə xanım. Əslində, Hicran xanım bu layihələrlə bağlı geniş məlumat verdi. Bizim komitənin rəyi müsbətdir. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Mən Əmək və sosial siyasət komitəsinin sədri hörmətli Musa müəllimə söz vermək istəyirəm. Musa müəllim, 14-cü və 17-ci məsələlərə sizin komitənizdə baxılıb. Xahiş edirəm, bununla bağlı məlumat verin.

**M.Quliyev,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Hicran xanım bütün məsələlər barədə konseptual məlumat verdi. Amma komitənin profilinə uyğun olaraq, “Sosial müavinət haqqında” Qanunda edilən dəyişikliklərə görə bir qədər detallı sizin diqqətinizə çatdırmaq istəyirəm.

“Sosial müavinətlər haqqında” Qanunun 5 maddəsində 11 dəyişiklik təklif olunur. Dəyişikliklər də mahiyyət etibarı ilə Ailə Məcəlləsində edilən dəyişikliklərə uyğunlaşma xarakteri daşıyır və iki yeni müavinət növünün təsis edilməsinə hüquqi əsaslar yaradılmasını özündə ehtiva edir.

Qanunun 4-cü maddəsində təklif olunan dəyişikliyə əsasən himayədar ailəyə verilmiş uşağın, o cümlədən 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağın tərbiyə edil-

məsinə görə aylıq müavinət və himayədar ailəyə verilmiş uşaqlara mövsümi geyim alınması üçün birdəfəlik müavinət növü təsis edilir. Aylıq müavinət himayədar ailəyə verilmiş uşaq 18 yaşına çatanadək hər ay olmaqla birdəfəlik müavinətin isə ildə 4 dəfə – mart, iyun, sentyabr və dekabr aylarında veriləcəkdir. Müavinətin verilməsi və dayandırılması himayədar ailə ilə müvafiq icra hakimiyyəti orqanı arasında bağlanmış müqavilə əsasında tənzimlənəcəkdir. Aylıq və birdəfəlik müavinət müqavilə əsasında himayədar valideynlərdən birinə təyin edilir.

Müavinətlərin məbləğinə gəldikdə, bu məsələ cənab Prezidentin sərəncamı ilə qanun qüvvəyə minəndən sonra müvafiq icra hakimiyyəti orqanı tərəfindən dəqiqləşdiriləcəkdir. Amma ümumi şəkildə demək istəyirəm ki, verilən müavinətin məbləği uşağın övladlığa götürülməsinə görə verilən məbləğdən az olmayacaqdır, çox olacaqdır.

Eyni zamanda, "Sosial müavinətlər haqqında" Qanunda təklif olunan dəyişikliklər Ailə Məcəlləsində təklif edilən dəyişikliklərlə həmahəng olduğundan və eyni xarakteri daşıdığından hər iki layihənin paralel olaraq müzakirə edilməsini, qəbul olunmasını və eyni vaxtda qüvvəyə minməsi məqsədəuyğundur.

"Sosial xidmətlər haqqında" Qanunda edilən dəyişikliklər texniki xarakter daşıyır. Çünki Ailə Məcəlləsində edilən yeni dəyişikliyə görə, himayədar ailə institutunun hüquqi əsasları formalaşdığından sosial xidmət müəssisələri siyahısından "himayədar ailə" sözləri çıxarılacaqdır. Diqqətinizə görə təşəkkür edirəm. Qanunları dəstəkləməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Musa müəllim. Hörmətli həmkarlar, Siyavuş müəllim yazılıb. Siyavuş müəllim, buyurun.

**S.Novruzov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar, təqdim olunan qanun layihələri, doğrudan da, möhtərəm cənab Prezident tərəfindən sosial sahəyə olan xüsusi diqqətdir. Biz nəzərə alsaq, görərik ki, burada həm ailələrin, həm də yetkinlik yaşına çatmayan uşaqların, o cümlədən valideynini itirmiş uşaqların sosial müdafiəsi, onların himayəyə verilməsi qanunvericiliklə tam şəkildə təmin olunur və onlara əlavə sosial təminatın çatdırılması qanunun müvafiq maddələrində öz əksini tapır.

Mən, xüsusi ilə "Sosial müavinətlər haqqında" olan hissəyə bir neçə kəlmə öz fikrimi bildirmək istəyirəm. Birincisi, yəqin, bu gün artıq bir çox komitə sədrlərinə təqdim olunub. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən aparılan işlərin nəticəsi olaraq rüblük hesabatlar mütəmadi təqdim olunur və bizə də təqdim olunub. Araşdırdıqda gördük ki, rüb ərzində sosial sahədə xeyli işlər görülübdür. Müəyyən dərəcədə qənaətlər var ki, bunlar da istifadə məsələləri ilə əlaqədardır.

İkincisi, xatırlayırsınızsa, cənab Prezident qeyd etdi ki, may ayında dövlət büdcəsinə yenidən baxılmalıdır. İndi may ayıdır. Növbəti iclaslarımızda toplanana qədər Əmək və sosial siyasət komitəsindən xahiş edək, bu məsələni aidiyyəti orqanların diqqətinə çatdırsın ki, büdcəyə əlavələr olunubdur. Həm vergi sistemində, həm də gömrük sistemində aparılan islahatlar nəticəsində büdcəyə vəsaitlər daxil olub. Bu vəsaitlər də işğaldan azad olmuş ərazilər, sosial təminat, müdafiə sahələrinin güclənməsi ilə əlaqədardır. Bu günün iki detalı da bilavasitə xidmət göstərir ki, bizim Birinci və İkinci Qarabağ müharibəsi dövründə 80 mindən artıq müharibə veteranımız var. Bu müharibə veteranlarının aldığı müavinətlər 80 manat

civarındadır. Biz bunu dəfələrlə qaldırmışıq. Əgər artım varsa, may ayında bu artım olacaqsa...

Mən hesab edirəm, Musa müəllim də bu məsələlərlə bağlı aidiyyəti qurumlarla danışsın ki, heç olmasa, hər birinin müavinətinə 50-70 manat civarında əlavələr olunsun, yəni 130-150 manat olsun. Hansı məqsədəuyğundur, olsun. Çünki nəzərdə tutulub ki, müharibə veteranlarına ayrılan müavinətləri onlar qaza, işığa, nəqliyyata sərf edəcəklər və təyin olunan 80 manatdan sonra qazın da, işığın da, suyun da qiymətlərində müvafiq dəyişikliklər olub. Bugünkü 80 manat müavinət həmin şeyləri müharibə veteranı üçün təmin etmir. Söhbət o müavinətdən gedir, hər hansı pensiyadan getmir. Hər hansı başqa məsələlərdən getmir. İştirakı təsdiq olunmuş hər bir müharibə veteranı hesab olunursa, dövlət başçısı tərəfindən onların müəyyən problemlərinin həll olunmasına 80 manat müavinət ayrılır ki, bu da nəqliyyat vasitələri və kommunal xidmətlər üçün nəzərdə tutulub. Ona görə də məsələ barədə, əgər büdcədə artım varsa, büdcə müzakirə olunacaqsa, bunun 130 manata çatdırılması ilə əlaqədar xahiş edərdim ki, aidiyyəti qurumların diqqətinə çatdırılsın. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Siyavuş müəllim. Hörmətli həmkarlar, çıxış etmək istəyən yoxdur. Mən qanun layihələrini bir-bir səsə qoyacağam. İndi isə xahiş edirəm, 12-ci məsələyə münasibət bildirək. Bu, Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.24 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Mən 13-cü məsələni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.24 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi birinci oxunuşda qəbul edildi.

14-cü məsələni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.24 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

15-ci məsələdə olan qanun layihəsinə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.25 dəq.) |
|---|---|
| Lehinə | 98 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

16-cı məsələni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.25 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Nəhayət, 17-ci məsələ. Bu, "Sosial xidmət haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Münasibət bildirin, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.26 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu qanun layihəsi də birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bununla da iclasımız başa çatdı. Mən hamıya təşəkkür edirəm. Növbəti iclasımız ayın 12-də

olacaq. Sağ olun.

## ALTINCI ÇAĞIRIŞ
## AZƏRBAYCAN RESPUBLİKASI
## MİLLİ MƏCLİSİNİN
## XII SESSİYASI İCLASININ

## PROTOKOLU № 129

*Milli Məclisin iclas salonu.*
*12 may 2023-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 92 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 91 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Seyfulla Əzimov**, Azərbaycan Respublikası daxili işlər nazirinin birinci müavini.

**Fazil Quliyev**, Azərbaycan Respublikası daxili işlər nazirinin müavini.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatı.
2. "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında Azərbaycan–Özbəkistan

İnvestisiya Fondunun yaradılması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

3. "Azərbaycan Respublikası Hökuməti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Hökuməti arasında beynəlxalq avtomobil daşımaları haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

4. "Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında diplomatik və xüsusi/xidməti pasportlara malik şəxslərin giriş vizasından azad edilməsi haqqında" Anlaşma Memorandumunda dəyişiklik edilməsi ilə əlaqədar notalar mübadiləsinin təsdiq edilməsi və "Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında diplomatik pasportlara malik olan şəxslərin giriş vizasından azad edilməsi haqqında" Anlaşma Memorandumunun təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.

5. "Minatəmizləmə sahəsində xidmətlərə görə" Azərbaycan Respublikasının medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

6. "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

7. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

8. Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, "Torpaq islahatı haqqında", "Energetika haqqında", "Torpaq icarəsi haqqında", "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında", "Torpaq bazarı haqqında", "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında", "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamənin təsdiq edilməsi barədə" və "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

9. "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

10. Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

11. Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

12. "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

13. "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

14. “Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

15. “Sosial xidmət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

16. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

17. “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

18. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

19. “Elm haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

20. “Peşə təhsili haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

21. Azərbaycan Respublikasının Əmək Məcəlləsində, “Məktəbəqədər təhsil haqqında” və “Ümumi təhsil haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

22. “Sanitariya-epidemioloji salamatlıq haqqında”, “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında”, “Yanğın təhlükəsizliyi haqqında”,

“Milli arxiv fondu haqqında”, “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” və “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Elnur Allahverdiyev, Elşad Mirbəşir oğlu, Qüdrət Həsənquliyev, Bəhruz Məhərrəmov, Siyavuş Novruzov, Etibar Əliyev, Ceyhun Məmmədov, Naqif Həmzəyev, Sahib Alıyev, Zahid Oruc

**Təklif:** Gündəlik qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.03 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**1. İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatı.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Seyfulla Əzimov, Zahid Oruc, Əli Hüseynli, Razi Nurullayev, Etibar Əliyev

**Təklif:** Qərar qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.11 dəq.) |
|---|---|
| Lehinə | 80 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 80 |

Nəticə: Qəbul edildi

**Təklif:** Qərar qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.12 dəq.) |
|---|---|
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 85 |

Nəticə: Qəbul edildi

**2. "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında Azərbaycan–Özbəkistan İnvestisiya Fondunun yaradılması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Məşhur Məmmədov, Sevinc Fətəliyeva, Fəzail Ağamalı, Aydın Mirzəzadə

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.23 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |

Nəticə: Qəbul edildi

**3. "Azərbaycan Respublikası Hökuməti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Hökuməti arasında beynəlxalq avtomobil daşımaları haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Məşhur Məmmədov, Sevinc Fətəliyeva

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 12.27 dəq.) |
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

**4. "Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında diplomatik və xüsusi/xidməti pasportlara malik şəxslərin giriş vizasından azad edilməsi haqqında" Anlaşma Memorandumunda dəyişiklik edilməsi ilə əlaqədar notalar mübadiləsinin təsdiq edilməsi və "Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında diplomatik pasportlara malik olan şəxslərin giriş vizasından azad edilməsi haqqında" Anlaşma Memorandumunun təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Sevinc Fətəliyeva

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |

Nəticə: Qəbul edildi

**5. “Minatəmizləmə sahəsində xidmətlərə görə” Azərbaycan Respublikasının medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nizami Səfərov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.32 dəq.) |
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 89 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.32 dəq.) |
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 2-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.32 dəq.) |
| Lehinə | 86 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 3-cü maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

**6. "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Qüdrət Həsənquliyev, Etibar Əliyev, Kamran Bayramov, Nigar Arpadarai

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.34 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci və 2-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.47 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |

Nəticə: Qəbul edildi

**Təklif:** 3-cü və 4-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.48 dəq.) |
|---|---|
| Lehinə | 86 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 86 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.48 dəq.) |
|---|---|
| Lehinə | 91 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**7. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.49 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.49 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.50 dəq.) |
|---|---|
| Lehinə | 87 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 88 |

Nəticə: Qəbul edildi

**8. Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, “Torpaq islahatı haqqında”, “Energetika haqqında”, “Torpaq icarəsi haqqında”, “Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında”, “Torpaq bazarı haqqında”, “Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında”, “Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamənin təsdiq edilməsi barədə” və “Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Rzayev, Əli Hüseynli, Əli Məsimli, Sadiq Qurbanov, Siyavuş Novruzov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.52 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–5-ci maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.52 dəq.) |
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**Təklif:** 6–10-cu maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.53 dəq.) |
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.53 dəq.) |
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |

Nəticə: Qəbul edildi

**9. "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.54 dəq.) |
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.55 dəq.) |
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 86 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.55 dəq.) |
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 85 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.55 dəq.) |
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 86 |

Nəticə: Qəbul edildi

**10. Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tamam Cəfərova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.01 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–5-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.04 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |

Nəticə: Qəbul edildi

**Təklif:** 6–10-cu maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.04 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 86 |

Nəticə: Qəbul edildi

**Təklif:** 11–15-ci maddələr qəbul edilsin

**Səsvermənin nəticələri** (saat 13.04 dəq.)

| | |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |

Nəticə: Qəbul edildi

**Təklif:** 16–19-cu maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.05 dəq.) |
|---|---|
| Lehinə | 86 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 86 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.05 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |

Nəticə: Qəbul edildi

## 11. Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.01 dəq.) |
|---|---|
| Lehinə | 83 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 83 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.06 dəq.) |
|---|---|
| Lehinə | 86 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 86 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.06 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |

Nəticə: Qəbul edildi

**12. "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.02 dəq.) |
|---|---|
| Lehinə | 83 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 84 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–3-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.06 dəq.) |
|---|---|
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |

Nəticə: Qəbul edildi

**Təklif:** 4–6-cı maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.07 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.07 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |

Nəticə: Qəbul edildi

**13. “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik**

**edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.02 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.08 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.08 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |

Nəticə: Qəbul edildi

**Təklif:** 3-cü maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.08 dəq.) |
|---|---|
| Lehinə | 86 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 86 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.09 dəq.) |
|---|---|
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |

Nəticə: Qəbul edildi

**14. "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.02 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.09 dəq.) |
|---|---|
| Lehinə | 85 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.09 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |

Nəticə: Qəbul edildi

**15. "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.10 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.10 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

**16. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bəhruz Məhərrəmov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.14 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

**17. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Məsimli, Vahid Əhmədov, Elnur Allahverdiyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.25 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |

Nəticə: Qəbul edildi

**18. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bəxtiyar Əliyev, Fəzail Ağamalı, Məlahət İbrahimqızı, Səbinə Xasayeva, İltizam Yusifov, Fəzail İbrahimli

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.58 dəq.) |
|---|---|
| Lehinə | 86 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 86 |

Nəticə: Qəbul edildi

**19. "Elm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.58 dəq.) |
| Lehinə | 83 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 84 |

Nəticə: Qəbul edildi

**20. “Peşə təhsili haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.59 dəq.) |
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 85 |

Nəticə: Qəbul edildi

**21. Azərbaycan Respublikasının Əmək Məcəlləsində, “Məktəbəqədər təhsil haqqında” və “Ümumi təhsil haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev, Bəxtiyar Əliyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.59 dəq.) |
| Lehinə | 84 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |

Nəticə: Qəbul edildi

**22. "Sanitariya-epidemioloji salamatlıq haqqında", "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Yanğın təhlükəsizliyi haqqında", "Milli arxiv fondu haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Rəşad Mahmudov, Musa Quliyev, Nizami Səfərov, Əziz Ələkbərov, Tamam Cəfərova

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.59 dəq.) |
|---|---|
| Lehinə | 83 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 84 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*12 may 2023-cü il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri*
***Sahibə Qafarova** sədrlik edir.*

**Sədrlik edən.** Xoş gördük, hörmətli deputatlar, hörmətli media nümayəndələri, hörmətli qonaqlar. Hörmətli həmkarlar, xahiş edirəm, qeydiyyatdan keçək.

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 91 |
| Yetərsay | 83 |

Çox sağ olun, iclasa başlaya bilərik.

Hörmətli həmkarlar, bildiyiniz kimi, mayın 10-da axşam saatlarından başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Zod istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun mövqelərini atəşə tutaraq qəsdən təxribat törətmişlər. Qarşı tərəfin hədəfli atəşi nəticəsində, bilirsiniz ki, bizim hərbi qulluqçumuz şəhid olmuş, digəri  isə ağır yaralanmışdır. Təxribatın qarşısını almaq üçün Azərbaycan Ordusunun bölmə-

ləri tərəfindən qəti cavab tədbirləri görülmüşdür. Biz şəhid olmuş hərbi qulluqçumuza Allahdan rəhmət diləyir, yaralı hərbiçimizin tezliklə sağalmasını arzulayırıq.

Hörmətli həmkarlar, qeyd edilməlidir ki, törədilən təxribata görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür. Aydındır ki, Ermənistanın bu təxribatda əsas məqsədi hazırda aparılan sülh danışıqlarının pozulmasıdır.

İndi isə, hörmətli həmkarlar, mən xahiş edirəm, gündəliyin qəbul olunmasına münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.03 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, gündəlik qəbul edildi.

Hörmətli həmkarlar, həmişə olduğu kimi 30 dəqiqəmiz var. 10 nəfər çıxış edə bilər. Gündəlikdə və ya gündəmdə olan məsələlərlə bağlı, buyurun, yazılın. Çıxış eləmək istəyən çoxdur. Ancaq 10 nəfər çıxış eləyəcək. Ona görə sonuncu çıxış, Zahid müəllim, Sizindir. Xahiş edirəm, digər yazılanlar, siyahıdan çıxın. Elnur Allahverdiyev. Buyurun, Elnur müəllim.

**E.Allahverdiyev**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Dəyərli millət vəkilləri, diqqətinizi qısaca olaraq bir məqama yönəltmək istəyirəm. Bildiyiniz kimi, mayın 14-də qardaş Türkiyədə keçiriləcək seçkilər vətəndaşlarımız tərəfindən diqqətlə izlənməkdədir. Bu seçimlərin hansı

nəticələrlə başa çatmasından asılı olmayaraq Türkiyə və Azərbaycan strateji tərəfdaş, qardaş, bir millət və iki dövlətdir. Ancaq təəssüf ki, aramızda olan bu səmimi münasibətləri öz məqsədləri, hazırda isə seçki hədəfləri üçün yanlış istifadə etməyə çalışan qüvvələr də var.

Bu günlərdə Türkiyədə müxalifətin namizədi bəyan edib ki, Azərbaycanda Türkiyədən gələn yük maşınlarından yüksək rüsum alınır. Eyni zamanda, bu rüsum digər heç bir dövlətin maşınlarından tələb olunmur. Təbii ki, bu, yanlış fikirdir və müxalifətin lideri məsələ barəsində yetərincə məlumatlı deyil. Ən az ona görə ki, müvafiq rüsumlar ya əsas etibarı ilə ləğv olunub, ya da azaldılıb. Yəni bu sahədə Azərbaycan hökuməti ciddi liberallaşma tədbirləri həyata keçirib. Azərbaycanın postsovet məkanının dövlətləri ilə hələ ötən əsrin 1990-cı illərindən hökumətlərarası sazişlər mövcuddur. Məhz buna görə onların avtomobillərindən tutulan rüsumlar fərqli idi. Ancaq yenə qeyd etməliyəm ki, bu rüsumların çoxu artıq ləğv edilib və bu barədə yanvarın sonlarından etibarən ictimaiyyətin məlumatı var.

Müxalifətin liderinin daha öncə təklif etdiyi "İpək yolu" layihəsi türk dövlətlərini necə birləşdirə bilər ki, bu layihədə Azərbaycan və Qazaxıstan kənarda qalırlar? Yolun əsas hissəsi düşmənimiz Ermənistana açıq-aşkar kömək edən İran ərazisindən keçir. Qardaş ölkədə təqribən 180-200 min yük avtomobili sürücüsü var. Güman ki, müxalifətin liderinin bu bəyanatı onların səslərinə hesablanıbdır və 100 minə yaxın erməni əhalisi var. Çox güman ki, onlara da dəstək verməyə çalışır. Ancaq məlumat yanlışdır. Yanlış olmaqla bərabər isə, təəssüf, həm də bir kinayə, sarkazmla müşayiət olunur ki, bu da bizim ortaq keçmişimizə, bu günümüzə və sabahımıza yaraşmır.

Bizim Çanaqqala savaşımız olub, bizim Vətən müharibəmiz olub, bizim Şuşa Bəyannaməmiz var. Bizim aramıza heç bir yad, əcnəbi kökənli ünsürlər girə bilməz. Odur ki, xalqlarımız və ölkələrimiz arasındakı münasibətləri xarakterizə edən "bir millət, iki dövlət" deyimini sarkazm mövzusu etmək Türkiyə kimi şanlı tarixi olan dövlətin prezidentliyinə iddia edən siyasətçiyə yaraşmır. Ümid edirik ki, müxalifətin lideri komandasının ona verdiyi...

**Sədrlik edən.** Sağ olun. Elşad Mirbəşir oğlu. Buyurun.

**E.Mirbəşir oğlu**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Yaxşı xatırlayırıq ki, bir müddət öncə Fransa xarici işlər naziri olmayan Dağlıq Qarabağ ərazisini anklav adlandırmışdır. Bildiyimiz kimi, bu anlayış bir ölkənin ərazisinin tamamilə başqa bir dövlətin əraziləri ilə əhatə olunması mənasını verir. Yəni bununla Fransa xarici işlər naziri çəkinmədən, aşkar şəkildə, riyakarcasına Azərbaycan ərazilərini Ermənistanın ərazisi kimi təqdim edir. İndiki şərtlər daxilində, yəni Azərbaycanın iradəsi ilə sülh gündəliyinin aktual olduğu bir dövrdə proseslərin içərisində yer almaq üçün bütün vasitələrdən istifadə edən Fransanın belə bir mövqedən çıxış etməsi, təbii ki, gələcəkdə təkcə Azərbaycana qarşı deyil, bütövlükdə, Cənubi Qafqaz regionunun təhlükəsizliyi və sülh prosesi üçün ciddi təhdid yaradır.

Ayrıca olaraq vurğulamaq lazımdır ki, son dövrlərdə Fransa Ermənistandakı səfirliyinə yeni hərbi attaşe təyin etmək niyyətini sərgiləməkdədir. Artıq məsələnin rəsmi tərəfi qalıb və yeni hərbi attaşenin əsas fəaliyyət istiqaməti ondan ibarət olacaqdır ki, Ermənistana Fransanın müasir silahları verilsin. Belə olan halda sual meydana çıxır ki, Fransanın məqsədi nədən ibarətdir? Əgər sülh prosesinə

töhfə vermək istəyirsə, onda, ümumilikdə, Avropanın sərgilədiyi mövqeyə tam zidd olan mövqe sərgiləmək, təbii ki, bir daha riyakarlığın aşkar göstəricisidir. Çünki Avropa İttifaqının yanaşması ondan ibarətdir ki, istər keçmiş, istərsə də hazırkı münaqişə bölgələrinə silahların verilməsinə məhdudiyyətlər tətbiq edilsin. Amma Fransa aşkar şəkildə Ermənistanı silahlandırmaqda marağını nümayiş etdirir. Digər tərəfdən də, Azərbaycanın ərazi bütövlüyünü aşkar şəkildə şübhə altına qoyur.

Hörmətli xanım sədr, Siz də Fransanın səfiri ilə görüşən zaman məsələ ilə bağlı mövqeyimizi bir daha açıq mətnlə ifadə etdiniz, amma bütün bunlara baxmayaraq, Fransa öz mövqeyindən çəkinmək fikrində deyil. Bu baxımdan, hesab edirəm ki, Fransanın yanaşması, bütövlükdə, Avropanın maraqlarına, enerji təhlükəsizliyi istiqamətindəki prioritetlərinə ciddi ziddiyyət təşkil edir. Bu baxımdan biz Avropa ölkələrinə də ayrıca çağırış etməliyik ki, onlar özünü Avropanın lokomotivi hesab edən Fransaya yerini göstərsinlər. Hesab edirəm ki, bu cür siyasi yanaşma olmadan sanki Azərbaycan tərəfi hansısa məsələlərlə bağlı öz mövqeyini göstərmiş kimi görünə bilər. Amma hesab edirəm ki, Azərbaycanın məsələlərlə bağlı mövqeyi qətiyyətlidir...

**Sədrlik edən.** Bəli, çox sağ olun. Çox düzgün qaldırılan məsələlərdir. Dediyiniz kimi, mən dünən Fransanın Azərbaycandakı səlahiyyətli səfiri ilə görüşdüm və bu məsələləri parlament adından da səsləndirdim. Eyni zamanda, mən düşünürəm ki, bizim beynəlxalq təşkilatlarda iştirak eləyən nümayəndə heyətlərinin üzvü olan deputatlarımız bu məsələlərə mütləq diqqət yetirsinlər və bu məsələləri mütləq qaldırsınlar. Qüdrət Həsənquliyev. Qüdrət müəllim, buyurun.

**Q.Həsənquliyev**. Hörmətli sədr, hörmətli həmkarlar və media nümayəndələri. Dünən baş vermiş təxribat nəticəsində bizim yenə də bir əsgərimiz dünyasını dəyişib. Allah ona rəhmət eləsin! Yaxınlarına dərin hüznlə baş sağlığı verirəm. Ermənistan, çox təəssüf ki, 44 günlük savaşdan nəticə çıxarmayıb. Onlar yenə də münaqişəni uzatmaqda, hansısa möcüzələrin baş verəcəyini gözləməkdədirlər. İndi də düşünürlər ki, bölgədə yenə geosiyasi dəyişikliklər baş verəcək və bundan sonra onlar istədiklərinə nail olacaqlar. Çox təəssüf ki, bizim daxilimizdə də məhz ermənilərin güvəndiyi dairələrlə bağlı müəyyən insanlar bu cür düşünürlər. Amma cənab Prezident Şuşada bəyan elədi ki, geosiyasi dəyişikliklər Azərbaycanı daha da gücləndirəcəkdir və gücləndirir. Ona görə də onlar nahaq bu cür ümidlərə qapılıb, pozuculuq fəaliyyəti ilə məşğuldurlar. 30 il danışıqları yubatdılar, bəlkə də onlar konstruktiv mövqe tutsaydılar, beynəlxalq hüquqa sayğı göstərsəydilər, heç 44 günlük savaş da olmazdı, minlərcə erməni və azərbaycanlı əsgəri öz həyatını itirməzdi. Amma yenə də söyləyirəm ki, bu millət xəstələnib, "Böyük Ermənistan" xəstəliyinə düçar olub. Onlar qonşularının ərazi bütövlüyünü tanımırlar, bizim daxili işlərimizə qarışmaqdan imtina etmirlər.

Çox təəssüf ki, onlara bu işdə Fransa kimi dövlətlər də dəstək verir. Hətta bizim qardaş ölkədə müxalifət funksiyasını yerinə yetirən bəzi partiyalar da, çox təəssüf ki, bu və ya digər formada onları dəstəkləmiş olurlar. Mən deputat həmkarım Elnur Allahverdiyevin çıxışını tam dəstəkləyirəm və Azərbaycana münasibətdə Türkiyədə səsləndirilən fikirlərdən dərin təəssüf hissi keçirdiyimi bildirirəm. Cənab Ərdoğanla İlham Əliyev Türkiyə–Azərbaycan münasibətlərini o səviyyə qaldırıblar ki, orada hər

hansı bir hakimiyyət dəyişikliyi də bu münasibətlərə ciddi ziyan vurmaz və belə bir cəhdi olan şəxsləri də Türkiyə xalqı əfv etməz. Buna görə də  mən növbəti dəfə Ermənistanın bu təxribatçı fəaliyyətini qınayıram, Azərbaycan Respublikası Prezidentinin Fransanın iştirakı ilə hər hansı bir danışıqda iştirak etməyəcəyinə dair mövqeyini növbəti dəfə dəstəkləyirəm və alqışlayıram. Hesab edirəm ki, Fransa Ermənistanın böyük bacısı kimi özünün tərəfsizliyini nümayiş etdirə bilməyib, ona görə də bu proseslərdə iştirak etməməlidir və Azərbaycan da buna imkan verməməlidir.

**Sədrlik edən.** Sağ olun. Bəhruz Məhərrəmov. Buyurun.

**B.Məhərrəmov.** Təşəkkür edirəm, hörmətli Sahibə xanım. Hörmətli sədr, əziz həmkarlar. Həftənin əsas hadisəsi, heç şübhəsiz ki, Ulu Öndərin 100 illik yubileyi və möhtərəm cənab Prezidentin bu münasibətlə Şuşadan xalqa müraciəti oldu. Əlbəttə, dahi Heydər Əliyevin Azərbaycan tarixində rolu barədə, hətta danışmasaq belə, onun əsərləri, tarixin ən güclü dönəmini yaşayan bu dövlət, bu müstəqillik, bu sabitlik, bu təhlükəsizlik milyonlarla kəlməni, cild-cild kitabları əvəz edir. Heydər Əliyev qurucu lider idi. O, hazır oturuşmuş sistemin rəhbərliyinə gəlməyib, dağıdılmış, talanmış dövləti özü sıfırdan qurub. Yoxsa Britaniyada Çörçil, Amerikada Ruzvelt olmağa nə var ki? Hazır dövlət idi, onlar da bacarıqlı lider kimi inkişafın davamlılığını təmin etdilər.

Bilirsiniz ki, 1933-cü il Montevideo Konvesiyası ilə dövlətin əlamətləri müəyyən edilib. Ərazi, əhali, hakimiyyət və digər dövlətlərlə qarşılıqlı suveren əlaqələr. 1993-cü ilin iyununda Azərbaycan Respublikası həmin əlamətlərin, atributların hamısından məhrum olmuşdur, yaxud olmaq üzrə idi. Xəyanətkar AXC–Müsavat rejimi nəinki bu

tendensiyanın qarşısını almaq güc və iqtidarında deyildi, üstəlik, özləri bu milli xəyanətin aparıcı qüvvəsi kimi çıxış edirdilər, yaxud da faktiki olaraq onlar özləri dövlətçiliyin sonunu gətirməklə məşğul idilər. Heydər Əliyev belə bir şəraitdə xalqın imdadına yetişdi. Bəzən biz belə ifadə işlədirik ki, nə qədər Azərbaycan var, Heydər Əliyev də olacaq. Əslində, reallıq ondan ibarətdir ki, nə qədər Heydər Əliyev var, nə qədər onun yolu davam edir, Azərbaycan da olacaq. Dünyanı görürsünüz, 30 il işğala göz yumdular, yerlə yeksan olunmuş şəhərlərimizi görməzdən gəldilər. Amma biz öz torpağımızı azad edəndə dedilər ki, erməni mədəni nümunələrinin monitorinqini keçirmək istəyirik. Bax, budur, beynəlxalq sistemin ədaləti. Başa düşməliyik ki, bizi müstəqil və güclü görmək istəyənlər heç vaxt çox olmayıb. Əgər bu gün güclüyüksə, tam müstəqiliksə, bu, Heydər Əliyev yolu sayəsindədir. Bu yol Azərbaycan dövlətçiliyinin qarantıdır. Ona görə mən bir daha deyirəm, nə qədər Heydər Əliyev var, nə qədər onun yolu davam edir, Azərbaycan da olacaq.

Möhtərəm cənab Prezident Şuşada maraqlı bir ifadə işlətdi ki, Ulu Öndərin yubiley tədbirlərindən gələcəyə baxışı daha dəqiqləşdirmək üçün istifadə etməliyik. Bəli, bizim dəqiqləşdirməli olduğumuz xeyli məqam var. Amma bir məsələdə gələcəyə baxışımız çox aydındır: Heydər Əliyevlə başlanan bu yolun davamı. Bu ali tribunadan deputat məsuliyyətini dərk edərək bir daha deyirəm: Heydər Əliyevlə başlanan yol, bu iradə, bu siyasi kurs nəyin bahasına olursa-olsun, davam edəcək. Möhtərəm cənab Prezident, əmin ola bilərsiniz ki, yüz minlik ordunuz kimi, siyasi səhnədə hər bir əmrinizə hazır olan, Heydər Əliyev yolunda can verməyə hazır yüzminlər də var. Bu xalq bir daha özfəaliyyət dərnəklərinin ümidinə

qalmamalıdır. Bu iradə davam etməlidir və edəcək də. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Siyavuş Novruzov. Buyurun.

**S.Novruzov**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli deputatlar. Möhtərəm cənab Prezidentimiz Ümummilli Liderimizin 100 illiyi ilə əlaqədar müstəqillik dövrünün ən böyük sərəncamı olan əfv sərəncamını imzaladı və bu da 800-dən artıq Azərbaycan vətəndaşına, Azərbaycan ailəsinə şamil olundu. Bununla əlaqədar Prezidentimizə Heydər Əliyevin humanist siyasətinin davamı üçün, öz təşəkkürümüzü, minnətdarlığımızı bildiririk. Heydər Əliyev irsi, Heydər Əliyev yolu həmişə humanizmin tərəfdarı olubdur. Əfsuslar olsun ki, bəziləri, bəzi partiyalar, bəzi təşkilatlar, yaxud da ki, xaricdə oturan bəzi bloqerlər bu əfvin üzərinə hansısa kölgə salmağa can atırlar. Təsəvvür eləyin, 800 nəfər Azərbaycan müəllimi, həkimi, mühəndisi, mühasibi, fermeri, sahibkarı və digərləri ehtiyatsızlıq üzündən və ya törətdiyi cinayətdən peşmandır və onun, ailəsinin müraciəti, tabeçiliyində olan uşaqların müraciəti əsasında, İnsan hüquqları üzrə müvəkkilin, ombudsmanın müraciətləri əsasında bu insanların cəzasının çəkilməyən hissəsi ləğv olunubdur. AXCP–Müsavat, yaxud da Milli Şuranı 3-4 toyuq oğrusunun azadlığa düşməməsi narahat edir. Azərbaycan xalqını təmsil eləyən bu qədər insan bir tərəfdə qalıb, özlərinin bir neçə nəfərinə görə "əfv sərəncamı düzgün deyil" şüarı altında ictimaiyyətə yalan məlumatlar verməyə çalışırlar.

Azərbaycanda 30 ildən artıq fəaliyyət göstərən, 10 illərlə bu işlə məşğul olan insanlar, hüquq müdafiə təşkilatları bunu alqışlayırlar. Bir neçə nəfər hüquq mühafizə orqanında işləyib, rüşvət üstündə tutulub və çıxıb özünü hüquq müdafiəçisi elan eləyənlər, bu rüşvətxorlar, oğrular

bu əfv sərəncamına hansısa formada kölgə salmağa can atırlar. Mən hesab eləyirəm ki, bütün bunlara baxmayaraq, cənab Prezidentin, Birinci vitse-prezidentimizin humanist siyasəti həmişə davam edir. Bu, Ulu Öndərə söykənir və bundan sonra da davam edəcəkdir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Etibar Əliyev. Buyurun, Etibar müəllim.

**E.Əliyev**. Təşəkkür edirəm, hörmətli xanım sədr. "Dövlət-özəl tərəfdaşlığı haqqında" Azərbaycan Respublikasının Qanunu Milli Məclisdə geniş müzakirələr əsasında qəbul olundu, dövlət başçısı cənab İlham Əliyevin 2022-ci il 9 dekabr tarixli Fərmanı ilə qanun qüvvəyə mindi. Biz informasiya cəmiyyətində yaşayırıq. İnformasiya cəmiyyətinin drayveri internetdir. Regionlarda onlayn Azərbaycan layihəsi reallaşır. Lakin ölkə üzrə bütün yaşayış məntəqələrinə fiberoptik internet xəttinin çəkilməsini nəzərdə tutur. Dövlət-özəl tərəfdaşlığı çərçivəsində Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən reallaşan bu layihə 2024-cü ildə başa çatmalıdır. Ötən il bu istiqamətdə xeyli işlər görülüb. Regionlarda və Bakı ətrafında ötən 1 il ərzində əvvəlki illərdən bir neçə dəfə çox geniş zolaqlı internet bağlantısı imkanları yaradılıb. Hazırda bir çox rayonlarda bu istiqamətlərdə işlər davam edir.

Bilirik ki, Baktelecom Bakı şəhərində müəyyən bina və ərazilərdə güpon texnologiyası ilə internet əlavə olaraq stasionar telefon xidmətini təmin edir. Bəzi rayonlarda artıq güpon infrastrukturu tam şəkildə qurulub. Amma elə yerlər var ki, işlər çox ləng gedir. İnfrastrukturun çoxdan qurulmasına baxmayaraq, internetə qoşulmalar ləng aparılır.

Bəzi yerlərdə isə özəl provayderlərə nəinki köməklik göstərilmir, əksinə, maneçiliklərin olduğu bildirilir. Mə-

sələn, tanınmış ekspertlər bildirirlər ki, Gəncə şəhərinin ətraf qəsəbələrində özəl provayderlərin güpon infrastrukturla bağlı quraşdırdığı dirəklərin sökülməsi faktları mövcuddur. Özəl provayderlər bunun Gəncə telekommunikasiya qovşağının işçiləri tərəfindən edildiyini bildirirlər.

Düşünürəm ki, yuxarıda adıçəkilən layihə yetərincə əhəmiyyət kəsb edən bir dövlət layihəsidir və buna diqqət yetirilməlidir. Ölkə üzrə internet probleminin həllini yalnız dövlət provayderləri həll edə bilməz. Məhz buna görə də Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən dövlət-özəl tərəfdaşlıq prinsipi əsas götürülməlidir. Odur ki, yerli telekommunikasiya qovşaqları dövlət və özəl olmasından asılı olmayaraq, hər bir operator və provayder üçün şərait yaratmağa borcludur. Ümid edirəm ki, yeni fəaliyyətə başlayan İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyi bu işlərə diqqəti və nəzarəti gücləndirəcək. Düşünürəm ki, bu layihənin başa çatmasına bir ildən az vaxt qalıb və bu layihənin icrası regionların internet təminatına şərait yaradacaqdır. Təşəkkür edirəm, sağ olun.

**Sədrlik edən.** Sağ olun. Ceyhun Məmmədov. Buyurun.

**C.Məmmədov**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar, məlum olduğu kimi, mayın 4-də Prezident İlham Əliyev Qarabağa və Şərqi Zəngəzura səfər etdi. Səfər çərçivəsində Prezident İlham Əliyev bir çox şəhər və rayonda, o cümlədən Cəbrayıl və Qubadlıda yeni kənd, məktəb, xəstəxana və istehsal müəssisələrinin təməlini qoydu. Artıq bir neçə dəfədir, Prezident İlham Əliyev Qarabağa və Şərqi Zəngəzura səfər edərək burada görülən işlərlə yaxından tanış olur, gərgin iş qrafikinə baxmayaraq, hər iki regionda aparılan işlərə özü birbaşa nəzarət edir. Bu, eyni zamanda, Prezident İlham Əliyevin həm Qarabağda, həm də Şərqi Zəngəzurda görülən işlərə

nə dərəcədə əhəmiyyət verdiyini və həssas yanaşdığını göstərir. Bu gün irimiqyaslı layihələr nəticəsində Qarabağ və Şərqi Zəngəzur böyük bir tikinti meydanına bənzəyir.

Onu da qeyd edək ki, Prezident İlham Əliyev bölgədə infrastrukturla yanaşı, yeni iş yerlərinin yaradılması məsələsinə də xüsusi önəm verir. Bu baxımdan Araz Vadisi İqtisadi Zonasında görülən işlər xüsusi diqqət çəkir. Burada bir çox yeni müəssisələrin, zavodların yaradılması bölgədə insanların işlə təmin olunmasına böyük töhfə verəcəkdir.

Prezident İlham Əliyev səfər zamanı Şuşada oldu. Burada da bir sıra müəssisələrin, mədəniyyət abidələrinin açılışında iştirak etdi. Eyni zamanda, Yuxarı Gövhər ağa və Saatlı məscidlərinin təmirdən sonra açılışında iştirak etdi. Bu isə yenə Prezident İlham Əliyevin bizim milli-mənəvi dəyərlərimizə nə qədər bağlı olduğunu göstərir. Onu da qeyd etmək lazımdır ki, bütün bu işlər Azərbaycan dövlətinin hesabına, xaricdən heç bir dəstək olmadan həyata keçirilir. Eyni zamanda, bütün bu işlər heç bir sosial layihə təxirə salınmadan həyata keçirilir. Burada bir məsələni də qeyd etmək lazımdır, bütün bu proseslər göstərir ki, Azərbaycan qısa müddətdə öz məqsədlərinə nail olacaq. Tezliklə Qarabağ və Şərqi Zəngəzur dünyanın ən abad və gözəl bölgələrindən birinə çevriləcək. Prezident İlham Əliyevin səfərindən sonra məlum olduğu kimi, biz Ermənistanın sərhəddə təxribatlar törətdiyini gördük və bu təxribatların qarşısı qətiyyətlə alındı. Ermənistan bilməlidir ki, bu cür təxribatlar Azərbaycanın Qarabağ və Şərqi Zəngəzurda həyata keçirdiyi layihələrin qarşısını ala bilməz. Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün məqsədlərinə ən qısa vaxtda nail olacaq. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Naqif Həmzəyev. Buyurun.

**N.Həmzəyev**. Çox sağ olun, Sahibə xanım. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, media nümayəndələri, hörmətli qonaqlar, hər birinizi salamlayıram. Mən həmkarlarımızın səsləndirdikləri bir çox məsələlərə qoşuluram, təkrarçılığa yol vermək istəmirəm. Bu baxımdan da seçiciləri narahat edən bir neçə məsələni diqqətinizə çatdırmaq istəyirəm. Bildiyiniz kimi, Azərbaycanda universitetlər və kolleclər fəaliyyət göstərir. Universitet tələbələrinə hərbi xidmətə çağırışla bağlı möhlət hüququ tanınır, ancaq təəssüflər olsun ki, kollec tələbələrinə bu hüquq tanınmır və bu səbəbdən bizim bir çox gəncimiz təhsilini yarımçıq buraxaraq hərbi xidmətə gedir. Daha sonradan isə bir çoxu təhsilini ya davam etdirə bilmir, ya da təhsilini davam etdirdikdə həmin müsbət nəticə alınmır. Bu baxımdan da xahiş edirəm, mümkündürsə, seçicilərin də istəyi ondan ibarətdir ki, kollecdə təhsil alan gənclərimizə də hərbi xidmətə çağırışla bağlı müəyyən güzəştlərin verilməsi tətbiq edilsin, onlara da bu təhsil hüququ tanınsın. Mən düşünürəm ki, buna bu il, yaxud gələn il baxılsa, yaxşı olar. Mən düşünürəm ki, bu, çox sayda gəncimizin doğru-düzgün və uğurlu karyera qurmasında müsbət rol oynaya bilər.

Bizə edilən ən çox müraciətlər məhz quru sərhədlərin bağlı olması ilə əlaqədardır. Biz dəfələrlə bunun müəyyən səbəblərini izah etməyə çalışırıq. Ancaq təəssüflər olsun ki, ÜST tərəfindən verilmiş sonuncu məlumatdan sonra bizim izahatlarımızın da bir nəticəsi olmur. Mən düşünürəm ki, mümkündürsə, ən azından Azərbaycan vətəndaşları üçün Gürcüstanla sərhədi açmaq olar. Digər sərhədlərdə, bilirik, müəyyən problemlər var. Ən azından Azərbaycan vətəndaşlarına bu hüququ tanıya bilərik ki, onlar

rahatlıqla Gürcüstan sərhədindən istifadə etsinlər. Bu da bizə ünvanlanan sualların qarşısını müəyyən dərəcədə alar və cəmiyyətə bir rahatlıq gətirər. Xüsusi ilə də yay aylarını nəzərə alsaq, mən düşünürəm ki, bu, çox yaxşı olar.

Üçüncü toxunmaq istədiyim məsələ. Sahibə xanım, hazırda vətəndaşlara sms-lə çoxlu müraciətlər olur. Bunların, bu elanların böyük əksəriyyəti məhz yay aylarında istirahətlə bağlıdır. Açığı deyim, elə fantastik qiymətlərlə təkliflər göndərilir ki, vətəndaşlar qıcıqlanırlar. Məncə, bu məsələlərə bizim turizm şirkətləri müəyyən dərəcədə bir nəzər yetirməlidirlər, hər kəsin imkanı yoxdur ki, 400-500 manata otellərdə bir gün gecələyə bilsin. Daxili turizmin inkişafı yaxşıdır, biz bunu dəstəkləyirik. Ancaq mən düşünürəm ki, aidiyyəti qurumlar bu qiymət məsələsinə də müəyyən dərəcə nəzarət etsələr, yaxşı olar. Sadə vətəndaşların da istirahət etməsi üçün şərait yaradılsa, çox əla olardı. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Sahib Alıyev. Buyurun.

**S.Alıyev**. Hörmətli xanım sədr, dəyərli həmkarlar. Kəlbəcər–Göyçə şərti sərhədində, həm də, sözün hər anlamında, şərti sərhədində baş verən təxribata toxunuldu. Ancaq çox təəssüf ki, Amerika Birləşmiş Ştatlarının regionda sülh yaratmaq təşəbbüsünün heçə endirilməsinə yönələn bu təxribata Vaşinqtonun özünün də reaksiyası prinsipial olmadı. Halbuki Arlinqton danşıqları bitən gün Ermənistan Baş nazirinin Rusiyanın sülhdən çox vəziyyətin dondurulmasına yönələn variantını öyməsi, Avropa Birliyi missiyasına bəslənən ümidlərin özünü doğrultmadığını, yerlərinə başqalarının gətirilə biləcəyinə eyham vurması, Moskvadakı paraddan dönər-dönməz isə güc strukturları ilə qapalı toplantıdan da bəllidir ki, təxribatı kim, nə məqsədlə və hansı gücdən güc, bəlkə də tapşırıq

alaraq törədib. Ancaq kimin necə davranmasından asılı olmayaraq, dövlət başçımızın Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı möhtəşəm çıxışında da vurğuladığı kimi, "heç kəs bizi yolumuzdan döndərə bilməz". Çünki ilk növbədə güclü ordumuz var və bu ordu öz gücünü, Prezidentimizin təbirincə desək, "paradda yox, döyüş meydanında göstərib". Yaxşı olar ki, təkcə haylar deyil, güvəndikləri də müzəffər Ali Baş Komandanımızın bu sözlərindən düzgün nəticə çıxarsınlar.

Əslində, həmin nitqin səsləndirildiyi Şuşadakı bəzi küçə adları artıq özlüyündə hər şeyi deyir. Pənahəli xan, 8 Noyabr, Dəmir yumruq, Zəfər, Atatürk və Heydər Əliyev küçələrini nəzərdə tuturam. Bu adlar göstərir ki, biz Pənahəli xanın saldırdığı Şuşanı 8 noyabrda "Dəmir yumruğa" çevrilərək dünya hərb tarixinə qızıl hərflərlə yazılan Zəfərlə azad etmişik. Bu qələbənin təməlində Ulu Öndər Heydər Əliyevin siyasəti, müzəffər Ali Baş Komandana verdiyi tapşırıq, "Azərbaycanın kədəri kədərimiz, sevinci sevincimizdir" deyən Atatürk Türkiyəsinin qardaşlıq dəstəyi durur. Ona görə də necə ki Şuşa bizdədir, orada Heydər Əliyev və Atatürk küçələri yan-yana duracaq, nə qədər ki Atatürk küçəsi Şuşadadır, bu müqəddəs şəhərdə imzalanan müttəfiqlik bəyannaməsi də qüvvədə qalacaq. Şuşa isə əbədi bizdədir.

Çox təəssüf ki, türk dünyasının birləşməsini istəməyən güclərin diqtəsi ilə, yaxud da onlara xoş getsin deyə Türkiyənin özündə də bəziləri bu əbədi müttəfiqliyə kölgə salan açıqlamalar verir, hörmətli Elnur müəllimin də qeyd etdiyi kimi, ölkəmizi qaralayır, Azərbaycandan yan keçən "türk yolu"ndan dəm vururlar. Amma onlar anlamırlar ki, o yol çoxdan var və cənab İlham Əliyevin də Şuşada qeyd etdiyi kimi, hələ Ulu Öndərin zamanında himi qoyulub.

Biz bu gün əminliklə deyə bilərik ki, o yol Zəngəzurdan, Qarabağdan, Şuşadan, Şuşadakı Atatürk və Heydər Əliyev küçələrindən keçir. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Zahid Oruc. Buyurun.

**Z.Oruc.** Hörmətli sədr, Nikol Paşinyanın son illər bütün xarici səfərlərində, o cümlədən son dəfə Çexiyada ölkəmizi anti-demokratiklikdə suçlaması, Qərbin demokratiya sammitlərində Ermənistana tribuna verilməsi ölkəmiz əleyhinə yeni planlardan xəbər verir. Halbuki "Azərbaycanın hərbi təhdidi Ermənistan demokratiyası üçün təhlükədir" ritorikasını işə salanlar unudur ki, işğalçı və seperatizmə dəstək verən dövlət demokratik sayıla bilməz. Ötən il 12-14 sentyabr toqquşması zamanı Paşinyan "Müharibədə məğlub olsaq da, ədalətli seçki keçirdik" bəyanatı ilə Avropa dövlətlərini Azərbaycana açıq təsir göstərməyə çağırıb. Halbuki 3 ildir ki, uzanan sülh müqaviləsinin bu il də imzalanmaması, sərhədlərin açılmaması Paşinyanı Sarkisyana, Köçəryana çevirəcək. Ermənistanı demokratiya mayakı kimi tərif edənlərə, Azərbaycan vətəndaşı olmaq istəyən şəxsə qaldırılan cinayət işini xatırlatmaq istəyirik. Xankəndi erməniləri ilə birgə yaşayışdan danışan kimi bizi hüquq və azadlıqları pozmaqda suçlayırlar.

"Human Rights Watch" son 30 ildə Qarabağın demokratiya və azadlıq indeksini ölkəmizdən irəliyə qoyub. Əslində, belə hesabatlar və demokratiya zirvələri işğalçılığın, separatizmin qorunmasına xidmət edir. Misirə, Liviyaya, Yaxın Şərqə inqilab ixrac edənlər yüz minlərcə insanı demokratiyaya görə qətlə yetirdirlər. İndi Gürcüstanın həbsxanasında can savaşı verən Mixail Saakaşvilini ölüm ayağında tərk edənlər, onu diktaturaya qarşı simvol adlandıranlar Paşinyandan ikinci Saakaşvili düzəldirlər.

“WikiLeaks” sənədləri göstərir ki, İlham Əliyev on illərlə Amerika və Qərb liderlərini ölkəmizin təhlükəsizliyinə təminat vermədən, işğala son qoymadan diktə altında hakimiyyət qurmağın xaosa səbəb olacağına inandırmağa çalışıb. Əfqanıstanda 20 il ərzində 800 milyard dollar xərcləyəndən sonra qurulan ordu və hökumətin cəmi bir həftə ömrü oldu. Dini modifikasiya olunan meyvələr kimi demokratiya idxal olunanda süni, qanlı və davamsız olur. Silahlı və məxməri çevrilişlərlə hakimiyyətə gələnləri demokratiya zirvəsinə çağıranlar, dünyanı siyasi qütblərə ayıranlar bir də onda ayıldılar ki, Rusiya da onlar kimi Ukraynada özünə təhlükə törətməyən hakimiyyət qurur. Yüz minlərcə insanın ölümünə səbəb olan müharibəyə xərclədikləri 150 milyard dollarlıq hərbi yardımı dağılmamış Ukraynaya versəydilər, demokratiya ixracına heç ehtiyac qalmazdı.

Əlbəttə, ölkəmizdə seçkilər, insan haqları və demokratik azadlıqlar sahəsində görüləsi işlərimiz hələ çoxdur. Lakin 1990-cı illərdə beynəlxalq hesabatlarda bizi ön yerə çıxaranlar torpaqlarımız işğala uğrayanda onlara dəstək verirdilər. Bizə işğal və qeyri-sabitlik doğuran demokratiya əvəzinə, azadlıq və torpaq bütövlüyü gətirən təhlükəsizlik gərəkdir. Əslində, 44 günlük müharibə həm də Ali Baş Komandan İlham Əliyevə ümumxalq səsverməsi idi və bunun milli iradəni göstərən ən böyük seçim olduğunu hamı bilməlidir. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Mən hamıya təşəkkür edirəm.

Hörmətli həmkarlar, gündəliyin məsələlərinə keçirik. Qeyd edim ki, bu gün biz 22 məsələni müzakirə edəcəyik. Gündəliyin 1-ci məsələsi İnsan alverinə qarşı mübarizə üzrə milli koordinatorun illik məlumatıdır. Məsələ ilə əlaqədar Azərbaycan Respublikası daxili işlər nazirinin

birinci müavini hörmətli Seyfulla Əzimov və daxili işlər nazirinin müavini hörmətli Fazil Quliyev iclasımızda iştirak edirlər. Mən qonaqlarımızı salamlayıram. İndi isə illik məlumatı parlamentə təqdim etmək üçün daxili işlər nazirinin birinci müavini hörmətli Seyfulla müəllimə söz verirəm. Seyfulla müəllim, buyurun.

**S.Əzimov,** *Azərbaycan Respublikası daxili işlər nazirinin birinci müavini.*

Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Birləşmiş Millətlər Təşkilatının cari ilin yanvar ayında açıqladığı VII qlobal hesabatından görünür ki, insan alverinə 2022-ci ildə, demək olar, bütün dövlətlərdə və regionlarda rast gəlinmişdir. Son 20 ildə ilk dəfə olaraq cinayət təqibi hallarının, qurbanların müvafiq cinayətlərə görə məhkum olunanların sayında azalma müşahidə edilmişdir. Bu proseslər Azərbaycanda diqqətlə izlənilərək insan alverinin qarşısının alınması, şəxsiyyətin və cəmiyyətin qanuni mənafelərinin həmin hüquqazidd əməllərdən müdafiəsi ilə bağlı tədbirlər milli fəaliyyət planı əsasında məqsədyönlü şəkildə davam etdirilmişdir.

"İnsan alverinə qarşı mübarizə haqqında" Avropa Şurası Konvensiyasının implementasiyası ilə əlaqədar öhdəliklərin yerinə yetirilməsi üçün Cinayət Məcəlləsində və "İnsan alverinə qarşı mübarizə haqqında" Qanunda İnsan alveri qurbanı xidmətindən istifadə etməni və insan alveri məqsədi ilə sənədlərlə qanunsuz hərəkətləri kriminallaşdıran maddələrin əlavə edilməsi haqqında fərman və qanun layihələri hazırlanıb Nazirlər Kabinetinə təqdim olunmuşdur.

Bununla yanaşı, müvafiq qanunvericilik aktlarına edilmiş dəyişikliklərlə Milli Koordinator yanında işçi qrupun hüquqi statusu "İnsan alverinə qarşı mübarizə haqqında"

Qanunda əksini tapmış, insan alveri qurbanları ilə bağlı milli istiqamətləndirmə mexanizmi qaydalarına idarələrarası komissiyanın üzvləri olan dövlət qurumlarının rəhbər müavinlərinin və qeyri-hökumət təşkilatlarının müsabiqə yolu ilə seçilməsi, beynəlxalq qurumların Azərbaycan nümayəndəliklərinin komissiyanın işinə cəlb edilməsi, komissiyanın fəaliyyətinin illik iş planı əsasında həyata keçirilməsi və digər məsələlər əlavə olunmuşdur. Həmçinin Milli Fəaliyyət Planının və "İnsan alverinə şərait yaradan sosial problemlərin aradan qaldırılması üzrə Proqram"ın icrasına məsul olan qurumların siyahısı, "İnsan alverinə qarşı mübarizə haqqında" Qanun və "İnsan alveri qurbanlarının repatriasiya Qaydaları" aidiyyəti normativ hüquqi aktlara uyğunlaşdırılmışdır.

Ötən il Milli Fəaliyyət Planında təsbit edilmiş tədbirlərin icrası sahəsində Daxili İşlər, Ədliyyə, Xarici İşlər, Mədəniyyət, Əmək və Əhalinin Sosial Müdafiəsi, Elm və Təhsil nazirlikləri, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Dövlət Miqrasiya, Dövlət Sərhəd xidmətləri, Ombudsman aparatı, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Dövlət Turizm və Dövlət Məşğulluq agentlikləri tərəfindən böyük bir iş həcmi yerinə yetirilmişdir. Belə ki, adları çəkilən qurumlar maarifləndirmə, ölkəyə turist kimi gələn şəxslərin qanuni mənafelərinin qorunması, medianın monitorinqi, erkən nikahların qarşısının alınması, baxımsız qalan, təhsildən yayınan, övladlığa götürülmüş, qəyyumluğa, yaxud himayəyə verilmiş uşaqların ailələrinə nəzarət, dövlət uşaq müəssisələrinin məzunlarına sosial-hüquqi və sosial-psixoloji xidmətlərin göstərilməsi, təlimlərin keçirilməsi və sair işlərin icrasını təmin etmişlər. Konkret olaraq xarici dövlətlərə əmək fəaliyyəti ilə məşğul olmaq üçün

gedən şəxslərin, ölkə ərazisindən tranzit istifadə edən və ölkəyə gələn əcnəbilərin insan alveri təhlükəsi barədə məlumatlandırılması məqsədi ilə 14 min maarifləndirici vəsait hazırlanıb aidiyyəti dövlət orqanlarına göndərilmişdir.

İnsan alveri və məcburi əmək cinayətlərinin törədilməsinə şərait yaradan hallarla bağlı şəhər və rayonlarda fəaliyyət göstərən 36 orta ixtisas təhsil müəssisəsində seminarlar keçirilmişdir. Həmin tədbirlərə 29 rayonun hüquq mühafizə orqanlarının əməkdaşları, gənclər, media və vətəndaş cəmiyyətinin nümayəndələri, qeyri-hökumət təşkilatları, yerli icra hakimiyyətlərinin, nəqliyyat, təhsil, səhiyyə, sosial-müdafiə, məşğulluq mərkəzlərinin işçiləri və sahibkarlar cəlb olunmuşdur.

İnsan alverinə qarşı mübarizə turizmin inkişafı fonunda müvafiq cinayətlərin artan risklərinin qarşısının alınması və bu sahədə tərəfdaşlığın gücləndirilməsinə dair mövzularda Bakı, Gəncə, Şəki, Bərdə “ASAN” və “DOST” regional xidmət mərkəzlərində, universitetlərdə və orta məktəblərdə görüşlər, 45-dən çox şəhər və rayonda tədbirlər təşkil edilmiş, mediada videoçarxlar yayımlanmışdır.

İnsan alverinə qarşı mübarizədə fəaliyyət göstərən məsul şəxslər üçün ixtisaslaşmış peşə hazırlığı təlimləri də keçirilmiş və bu qəbildən tədbirlərdə 50 şəhər, rayon polis orqanının 656 rəhbər vəzifəli əməkdaşı, hakimlər, prokurorlar və vəkillər iştirak etmişlər. Eləcə də hakimliyə, prokurorluq orqanlarında qulluğa, Vəkillər Kollegiyasının üzvlüyünə və Penitensiar Xidmətə qəbul edilmiş namizədlərin tədris kursları proqramına insan alverinə qarşı mübarizəyə dair mövzular daxil edilmişdir.

Təlimlərə diplomatik nümayəndəlik və konsulluqların əməkdaşları, ali təhsil müəssisələrinin tələbələri, hərbi qulluqçular, bələdiyyələrin və turizm sənayesinin nümayəndə-

ləri, media mənsubları, “ASAN” könüllüləri də cəlb olunmuşdur.

Milli Fəaliyyət Planına uyğun olaraq, ölkənin bütün inzibati ərazi vahidlərinin icra nümayəndəlikləri tərəfindən doğum barədə məlumatların “Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri” informasiya sisteminə ötürülməsi üçün müvafiq texniki imkanların yaradılması və bu sistemə 1389 nümayəndəliyin qoşulması təmin edilmiş, nəticədə 2022-ci ildə 5381 uşaq səyyar qaydada dövlət qeydiyyatına alınmışdır. Eyni zamanda, qeydiyyat şöbələrinin və onların bu işə cəlb etdikləri icra nümayəndəliklərinin birgə fəaliyyəti ilə şəxsiyyəti təsdiq edən sənədləri olmayan 926 uşağın doğum faktı müəyyənləşdirilmişdir.

Qarşıda duran vəzifələrdən biri də insan alverinə qarşı mübarizədə görülmüş işlərin ictimaiyyətə çatdırılması olmuşdur. Bu baxımdan sözügedən cinayətlərin profilaktikasının nəticələri, informativ, təşkilati və hüquqi əsasları, keçirilən görüşlər, qurbanlar üçün sığınacaq, “Qaynar xətt”, İnsan alverinə qarşı kömək Fondu və sair məsələlər barədə məlumatlar İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsinin internet səhifəsində yerləşdirilmiş və mediada işıqlandırılmışdır.

Təbliğat işində, o cümlədən insan alverinin potensial qurbanlarının maarifləndirilməsində, sosial reabilitasiyasında, onlara hüquqi yardımın göstərilməsində, qurbanlar üçün xüsusi müəssisələrin fəaliyyətinin təşkilində təşəbbüskarlığı ilə seçilən 17 qeyri-hökumət təşkilatı Daxili İşlər Nazirliyi tərəfindən pul və diplomlarla mükafatlandırılmış, təqdim etdikləri ümumi dəyəri 72 min 500 manat olan 8 layihə qeyri-hökumət təşkilatlarına Dövlət Dəstəyi Agentliyi tərəfindən maliyyələşdirilmişdir. İnsan

alveri cinayətlərinin qurbanı olmuş şəxslərin sosial reabilitasiyasına, sığınacaqda saxlanılmasına və onlara birdəfəlik müavinətlərin verilməsinə isə 106 min manat vəsait ayrılmışdır.

Əməkdaşlığın inkişaf etdirilməsi də diqqətdə saxlanılaraq ixtisaslaşmış beynəlxalq qurumların və bir sıra ölkələrin Azərbaycandakı səfirliklərinin nümayəndələri ilə informasiya və təcrübə mübadiləsi aparılmış, Amerika Birləşmiş Ştatlarının dövlət, ədliyyə və əmək departamentlərinin, Avropa Şurasının insan alverinə qarşı mübarizə üzrə ekspertlər qrupunun və digərlərinin tövsiyələri, sorğuları cavablandırılmışdır.

İnsan alveri probleminin həllində əldə edilən tərəqqi və əməkdaşlıq perspektivləri Beynəlxalq Miqrasiya Təşkilatının, Böyük Britaniyanın Milli Cinayət Agentliyinin, Roma Kriminal Təhqiqat və Kibercinayətkarlıq İdarəsinin, Avropa Şurasının İnsan alverinə qarşı mübarizə üzrə Ekspertlər Qrupunun, Beynəlxalq Əmək Təşkilatının və Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfirliyinin təmsilçiləri ilə görüşlərdə müzakirə edilmişdir.

Xüsusi polis qurumunun əməkdaşları müxtəlif xarici təşkilatlar tərəfindən həyata keçirilən layihələr çərçivəsində Amerika Birləşmiş Ştatlarına, Avstriya, Rumıniya, Macarıstan və Özbəkistan respublikalarına ezam olunaraq təcrübə mübadiləsi aparmışlar.

Məcburi əməyin qarşısının alınması, qurbanlarının və potensial qurbanlarının müəyyən edilməsi, bu növ cinayətlərə şərait yaradan halların aradan qaldırılması ilə bağlı vəzifələr də ardıcıllıqla yerinə yetirilmişdir.

Sosial baxımdan həssas əhali qrupuna aid edilənlərdən 2357 nəfərin işlə təmin olunması, onlar üçün 1066 yeni iş yerinin açılması, işsiz kimi qeydiyyata alınmış 502 şəxsə

sığorta ödənişinin təyin edilməsi, 4019 nəfərin əmək bazarının tələblərinə cavab verən peşə və ixtisaslar üzrə hazırlıq kurslarına, 36 nəfərin sosial iş yerlərinə, 327 nəfərin haqqı ödənilən ictimai işlərə cəlb edilməsi, şəxslərin məcburi əməyin qurbanına çevrilmək riskinin azalmasında əhəmiyyətli olmuşdur.

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Əmək Münasibətlərinin Monitorinqi Mərkəzi tərəfindən keçirilmiş yoxlamalarla isə 55 tikinti obyektində 75 nəfərin əmək və ya xidməti müqavilə olmadan işlədiyi aşkarlanmışdır. Nəticədə bir işəgötürən fiziki şəxs barəsində toplanmış materiallar Baş prokurorluğa göndərilmiş, daha 14-ü haqqında, ümumilikdə, 186 min 500 manat məbləğdə inzibati cərimə tətbiq edilmişdir.

Bundan əlavə, ixtisaslaşmış xüsusi polis qurumunun həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri ilə 3 məcburi əmək faktı müəyyən edilərək cinayət işləri başlanılmış və aparılmış prosessual araşdırmalarla cinayətlərdən zərər çəkmiş şəxslərin ölkə daxilində kənd təsərrüfatı sektorunda istismar edildiyi məlum olmuşdur.

Dövlət Əmək Müfəttişliyi Xidmətinin vətəndaş müraciətləri əsasında apardığı yoxlamalar zamanı da nöqsanlar aşkarlanmışdır. Nəticədə 369 şəxsin əmək müqaviləsi olmadan işləməsi və işəgötürənlər tərəfindən üç halda işçini əmək funksiyasına aid olmayan işi yerinə yetirməyə məcbur etmə faktı müəyyən edilərək aidiyyəti vəzifəli şəxslər barəsində, bütövlükdə, 1 milyon 800 min manata yaxın inzibati cərimə tətbiq edilmişdir.

Dövlət Miqrasiya Xidməti 4674 nəfərə iş icazəsi vermiş, 2875 nəfərin müvafiq icazələrinin müddətini uzatmış, habelə əcnəbiləri qanunsuz əmək fəaliyyətinə cəlb

etmiş 200 işəgötürəni inzibati qaydada cərimələmişdir.

İnsan alveri və məcburi əmək qurbanlarının müəyyənləşdirilməsi istiqamətində keçirilmiş tədbirlərlə isə Azərbaycan, Türkiyə və İran ərazilərindən istifadə etməklə Avropa və Amerika ölkələrinə getmək istəyənlərə qanunsuz miqrasiya kanalı təşkil edən 39 əcnəbi saxlanılmışdır. Aparılmış araşdırmalarla həmin şəxslərin əməllərində insan alveri cinayətinin əlamətləri aşkar edilmədiyindən onlar haqqında ölkə ərazisindən inzibati qaydada çıxarılma tətbiq olunmuşdur.

Hesabat ilində uşaq əməyinin istismarının qarşısının alınması üzrə həyata keçirilən reydlər zamanı ailə mühitindən, pedaqoji və ictimai təsir vasitələrindən kənarda qalan, küçələrdə işləyən və dilənçilik edən 685 uşaq, eləcə də buna şərait yaradan 232 valideyn aşkarlanmışdır. Həmin faktlar üzrə yerli icra hakimiyyətləri yanında komissiyalara, qəyyumluq və himayə orqanlarına 619 material göndərilmiş, 48 valideyn inzibati məsuliyyətə cəlb edilməklə polis nəzarətinə götürülmüşdür. Aparılmış araşdırmalarla uşaqların kənar şəxslər tərəfindən dilənçiliyə cəlb edilməsi faktı müəyyən edilməmişdir.

Ümumən, yetkinlik yaşına çatmayanlar arasında avaralıq və dilənçilik hallarının qarşısının alınması məqsədi ilə regionlarda açıq və qapalı tipli təlim-tərbiyə müəssisələrinin, sosial sığınacaqların və reabilitasiya mərkəzlərinin yaradılması barədə Nazirlər Kabineti qarşısında vəsatət qaldırılmışdır. Eyni zamanda, Azərbaycan vətəndaşları tərəfindən övladlığa götürülmüş uşaqların həyat tərzi şəraiti ilə bağlı 1215, əcnəbilərin övladlığa götürdüyü azərbaycanlı uşaqların həyat şəraitinin öyrənilməsi üçün 21 monitorinq aparılmış və həmin ailələrdə hər hansı neqativ hal aşkarlanmamışdır. Görülmüş tədbirlərlə dövlət

uşaq müəsissələrinin məzunları olan 21 gənc mənzillə təmin edilmiş, internat məktəblərini bitirənlər üçün biznesin başlanğıcı, müstəqil yaşamaq bacarıqlarının aşılanması mövzuları üzrə təlimlər keçirilmiş, sağlamlıq imkanları məhdud uşaqlar peşə kurslarına cəlb edilmişlər.

Hörmətli millət vəkilləri, 2022-ci ildə həyata keçirilən əməliyyat-axtarış tədbirləri ilə 204, o cümlədən 157 insan alveri, 3 məcburi əmək, habelə insan alveri məqsədi ilə sənədlərlə qanunsuz hərəkətlərlə əlaqədar 44 cinayət qeydə alınmışdır. Həmin hüquqazidd əməllərlə bağlı başlanmış 14 cinayət işi üzrə 15 şəxs təqsirləndirilən qismində cəlb olunmuşdur.

Məhkəmələr tərəfindən ittiham hökmü çıxarılmış 12 nəfərdən 9-u 7 ildən 10 ilədək, 1 nəfər 3 il müddətinə azadlıqdan məhrum edilmiş və 1 nəfər azadlığın məhdudlaşdırılması cəzasına məhkum olunmuş, daha 5 şəxsin cəzası himayəsində olan uşağı 14 yaşa çatanadək təxirə salınmışdır. Axtarışda olan 23 təqsirləndirilən şəxsdən 9-u tutulmuş, 14 nəfərin axtarışı isə davam etdirilir.

Müəyyən edilmiş 94 insan alveri qurbanından 93-ü Azərbaycan Respublikasının vətəndaşı, biri əcnəbi olmuşdur. Onlardan 82-si cinsi istismar məqsədi ilə Türkiyə Respublikasına, biri İran İslam Respublikasına aparılmış, 9-u ölkə daxilində cinsi istismara, 2-si isə məcburi əməyə məruz qalmışdır. Qurbanlardan 6-sı uşaq, 16-sı 18-25 və 41-i 25-35 yaş arası, 31-i 35-dən yuxarı yaş həddində olmuşdur.

Zərərçəkmişlərin reabilitasiyası və reinteqrasiyası üçün zəruri tədbirlər də görülərək hər birinə 700 manat birdəfəlik müavinət ödənilmişdir. Qurbanlardan 73 nəfəri və ehtimal olunan 1 qurban Daxili İşlər Nazirliyinin sığınacağına yerləşdirilmiş, hamısı tibbi, sosial, psixoloji, hü-

quqi yardımlarla və zəruri geyimlə təmin olunmuşlar. Daha 25 qurbanı peşə kurslarına yönəldilmiş, 9-nun işlə təmin edilməsində, 2 əcnəbi qurbana müvəqqəti qeydiyyata alınmada və müvəqqəti yaşama icazəsinin verilməsində, 5 qurbana nikahın pozulması haqqında şəhadətnamə almaqda, 5 yetkinlik yaşına çatmayanın şəxsiyyət vəsiqəsi ilə təmin edilməsində və inteqrasiya təlimli internat tipli gimnaziyaya qəbul olunmasında, 3 qurbanın cərrahiyyə əməliyyatına olan ehtiyacının ödənilməsində, 6 qurbanın xəstəxanada stasionar müalicə və 3 qurbanın ünvanlı sosial yardım almasında, azyaşlı uşaqları olan 1 qurbanın daimi yaşayış yeri ilə təmin edilməsi üçün ona torpaq sahəsinin ayrılmasında, 38 qurbanın ailəyə qayıtmasında köməklik edilmişdir.

Qeyri-hökumət təşkilatları tərəfindən 81 insan alveri qurbanı lazımi sosial xidmətlərlə əhatə olunmuş, yardım mərkəzinə yönəldilmiş, 32 potensial qurbana tibbi, psixoloji, hüquqi yardımlar edilmiş və işlə təmin olunmuşdur.

Qurbanların uşaqları da diqqətdə saxlanılaraq 31 nəfərə tədris ləvazimatları verilmiş, 16 uşaq məktəbəqədər təhsil proqramına cəlb olunmuşdur. Daha 11-nə doğum haqqında şəhadətnamə alınmasında, 12 uşağın atalığının müəyyən edilməsində, 2 uşağın stasionar tibbi müalicə keçməsində köməklik edilmişdir.

Vəkillər Kollegiyasının üzvü olan müdafiəçilər tərəfindən 60 qurbanın istintaq prosesində və 39 qurbanının məhkəmə baxışında hüquqları qorunmuş, müasir psixologiya mərkəzinin mütəxəssisləri tərəfindən onların hər birinə ixtisaslı yardımlar göstərilmişdir.

Daxili İşlər Nazirliyinin müvafiq kömək fondundan 100 qurbana və ehtimal olunan qurbanlara xərclərin ödənilməsi və sosial reabilitasiya məqsədi ilə vəsait ayrılmış, 1

əcnəbi qurbanın öz ölkəsinə qayıtması təmin edilmişdir.

Qurbanlar ilə işin təkmilləşdirilməsi, onlara göstərilən xidmətlərin keyfiyyətinin daha da yaxşılaşdırılması üçün sığınacağa qəbul proseduru sadələşdirilmiş, psixoloji yardımların göstərilməsinə ştatdankənar psixoloq cəlb edilmişdir. Müvafiq xidmətlərin nəticələrinin qeydə alınması zəruriliyi baxımından isə konfidensial elektron məlumat bazasının yaradılmasına başlanılmışdır.

İnsan alveri qurbanlarına kömək Fondunun məhkəmələrdə iddiaçı və cavabdeh kimi çıxış etməsinin, fondun adından tələb və iddialar irəli sürülməsinin vacibliyi də nəzərə alınaraq, Vəkillər Kollegiyasının üzvü olan vəkillə müqavilə bağlanmışdır.

Bütün bunlarla yanaşı, ictimai mənəviyyat əleyhinə olan hüquqazidd əməllərlə bağlı 96 fakt aşkarlanaraq aidiyyəti şəxslər cinayət məsuliyyətinə cəlb edilmiş, daha 966 nəfər haqqında inzibati tənbeh tədbirləri görülmüşdür. Onu da qeyd edim ki, 152 qaynar xəttinə xarici ölkələrdə əmək fəaliyyəti, təhsil, əcnəbilərlə nikah, məişət zorakılığı, miqrantların müvəqqəti qeydiyyatı, övladlığagötürmə və digər məsələlərlə əlaqədar daxil olmuş 9823 müraciət cavablandırılmışdır.

Ümumən, Milli Fəaliyyət Planı əsasında 30-dan çox dövlət orqanı, 45 ictimai birliyi birləşdirən qeyri-hökumət təşkilatları koalisiyası, yerli icra hakimiyyətləri və ali təhsil müəssisələrinin nümayəndələri tərəfindən həyata keçirilən tədbirlər insan alverinin profilaktikasını və cinayət təqibinin səmərəli təşkil edilməsini, cəmiyyətin insan alverinin istənilən formalarından etibarlı müdafiəsini şərtləndirir.

Əldə edilmiş müsbət nəticələr nəzərə alınaraq, ABŞ Dövlət Departamentinin 2022-ci ildə yayımladığı illik

hesabatda Azərbaycan ikinci qrup ölkələr sırasına yüksəlmişdir.

Görülən işlərin və əlaqəli fəaliyyətin səmərəliliyi beynəlxalq təşkilatların aidiyyəti sənədlərində də vurğulanmış və Azərbaycanın birinci qrup ölkələr sırasında yer almaq imkanı yaranmışdır. Bununla belə, əldə olunmuş müsbət nəticələrin inkişaf etdirilməsi üçün qarşıda daha məsul və əhəmiyyətli vəzifələr durur.

Öncə qeyd olunmalıdır ki, insan alveri əməllərinin internet üzərindən həyata keçirilməsi halları ötən il ölkəmizdə müşahidə edilmiş və həmin üsulla törədilən 4 insan alveri və ictimai mənəviyyat əleyhinə olan 5 cinayət aşkarlanmışdır. Hazırda qeyd edilən istiqamətdə, eləcə də insan alveri və məcburi əmək cinayətlərinin qabaqlanması məqsədi ilə yeni mexanizmlərin işlənib hazırlanması, əməkdaşların professionallığının artırılması, müasir texnologiyaların daha geniş tətbiqi ilə bağlı davamlı iş aparılır. Bu növ cinayətləri proaktiv müəyyənetmə səylərinin artırılması, əməkdaşların mütəmadi təlimlərə və mütərəqqi beynəlxalq təcrübənin öyrənilməsinə cəlb olunması və qanunvericiliyin təkmilləşdirilməsi sahəsində lazımi təşkilati və əməli tədbirlər görülür.

Həmçinin uşaqların insan alverinə məruz qalma riskləri və digər zəruri istiqamətlər üzrə elmi və sosial tədqiqatların aparılması, bu fəaliyyətə dövlət dəstəyinin təmin olunması, müvafiq cinayətlərdən əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasının qarşısının alınması, regionlarda insan alveri qurbanlarına xidmət göstərən yeni sığınacaq və yardım mərkəzlərinin yaradılması, insan alveri probleminin sosial-psixoloji aspektlərinin öyrənilməsi və aradan qaldırılmasının səmərəli üsullarının işlənib hazırlanması, ixtisaslaşmış qeyri-hökumət

təşkilatlarının maliyyə təminatının artırılması qarşıda duran vacib vəzifələrdəndir.

Hörmətli xanım sədr, hörmətli millət vəkilləri! Məruzənin sonunda bu mühüm sahədə dövlət siyasətinin həyata keçirilməsində yaxından dəstəyinizə görə sizə, həmçinin səmərəli əməkdaşlıq edən dövlət orqanlarına, vətəndaş cəmiyyəti institutlarının nümayəndələrinə və media işçilərinə dərin minnətdarlığımı bildirirəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Seyfulla müəllim. Hörmətli həmkarlar, Milli Koordinatorun illik məlumatı parlamentin İnsan hüquqları komitəsi ilə Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin birgə iclasında geniş müzakirə edilmişdir. İndi isə rəy bildirmək üçün İnsan hüquqları komitəsinin sədri hörmətli Zahid Oruca söz verirəm. Zahid müəllim, buyurun.

**Z.Oruc,** *Milli Məclisin İnsan hüquqları komitəsinin sədri.*

Təşəkkür edirəm, hörmətli sədr, söz verdiyiniz üçün çox sağ olun.  İlk növbədə qeyd edim ki, daxili işlər nazirinin birinci müavini, Milli Koordinator hörmətli Seyfulla müəllim məlumatı təqdim edərək, geniş dəyərləndirmədə bulundu. Ona görə də həmin sənədin ayrı-ayrı məqamları üzərində dayanmayacağam. Hörmətli sədr, parlament Ulu Öndərin yubileyi münasibəti ilə mühüm beynəlxalq tədbir həyata keçirəcəkdir, yəni Milli Məclisin gündəliyi kifayət qədər sıxdır. Çalışacağam ki, bu mənada komitələrin birgə rəyini müəyyən qədər yığcamlaşdırıb sürətli rejimdə sizə təqdim edək.

Müzakirəsinə toplaşdığımız İnsan alverinə qarşı mübarizəyə dair illik məlumat  müstəqillik illərində ardıcıl inkişaf edən daxili işlər orqanların, qanunvericilik və icra

siyasətinin parlament səviyyəsində qiymətləndirilməsi deməkdir. 1992-ci ildə BMT tərəfindən 14 transmilli cinayət növünün – terrorizm, qanunsuz silah alveri, quldurluq və sairlə yanaşı, onların sırasına insan alveri və insan orqanları ilə alver də daxil olundu. BMT-nin İnsan hüquqları komissiyası özünün 80-ci sessiyasında bununla bağlı xüsusi məruzəçi təyin etdi və həmin dövrdən sonra hər bir milli dövlət bununla bağlı müvafiq mexanizmləri həyata keçirdi. Azərbaycanda məhz daxili işlər orqanları yanında xüsusi idarə bu məqsədlə yaradılıb. Biz ötən ilki məlumatların müzakirəsi zamanı bu məqamı vurğulamışdıq ki, MDB məkanında yalnız Azərbaycanda bu cür təsisat fəaliyyət göstərir.

Bu anlamda bir neçə gün öncə 10-dan artıq QHT təmsilçisinin iştirakı ilə iki komitənin birgə müzakirəsi aparıldı. Bu müzakirələrdən əvvəl İnsan haqları komitəsinin bir neçə üzvünün müvafiq sığınacaqda olması bu məsələlərlə bağlı görülən işləri dəyərləndirməyə imkan verir. Mən ayrıca xatırlatmaq istəyirəm ki, bu istismarın, əslində, bir neçə növü var – cinsi istismar, məcburi əmək, məişət köləliyi, orqan alveri, məcburi cinayət və dilənçilik.

Mən istərdim, qısa olaraq beynəlxalq reytinqlərlə, indekslərlə əlaqədar fikirlərə toxunum. Bu məsələ ətrafında və ya istənilən mövzuda hesabatlar ətrafında diskussiyalar olur. Bəzən bunu anti-hakimiyyət, anti-iqtidar qüvvələri daha çox qabardırlar. Qlobal köləlik indeksi mövcuddur. 189 ölkəni özündə əhatə edir. Orada 49,6 milyon insanın müasir köləlik şəraitində yaşadığı qeyd olunur. Bunlar üstüstə Niderland və Polşanın birlikdə əhalisinə bərabərdir. Mən vurğulamaq istəyirəm ki, burada Azərbaycanla bağlı əksər indekslərdə dəyərləndirmələr müsbətdir. Məsələn, qlobal mütəşəkkil cinayətkarlıqla bağlı beynəlxalq indeks-

də MDB ölkələrinin böyük əksəriyyəti arzuolunmaz sıralarda dayanıbdır. Azərbaycanın adı orada yoxdur. O cümlədən uşaq alveri ilə bağlı “Child trafficking by Country” global indeks, yəni belə bir formul var. Orada da Azərbaycanın mövqeyi yetərincə müsbətdir. Ermənistanla bağlı bir sıra hesabatlar təqdim eləmədiyinə görə onların qarşısında yerlər boş saxlanıbdır. Azərbaycan bütün bu məlumatları təqdim etdiyi üçün, hörmətli Seyfulla müəllim qeyd elədi, ilk dəfədir ki, departamentdə “Tierz” qrupunda Azərbaycanın mövqelərini yaxşılaşdırıbdır.

Deməli, sənədlə bağlı vurğulamaq istədiyimiz məqam ondan ibarətdir ki, burada əsaslı təhlil verilibdir. O cümlədən infoqrafiklər var ki, əvvəlki illərdə parlament üzvləri həmişə bu məqamları vurğulayırdılar. Belə ki, keçilən yolu dəyərləndirmək, tendensiyalara qiymət vermək baxımından bunlar çox önəmlidir. Mən, əlbəttə, xüsusi vurğulamaq istəyirəm ki, biz idarələrarası komissiyanın yaradılması ilə bağlı parlamentdə müvafiq addımlar atdıq, lakin, doğrudur, bu proses hələ müəyyən bir zaman alacaqdır. Əsas ağırlıq yenə də Daxili İşlər Nazirliyinin üzərinə düşür. Nazir hörmətli Vilayət Eyvazovun on illər ərzində Milli Koordinator kimi həm daxili, həm də beynəlxalq təcrübəni yaxşı bilməsi bütün hakimiyyət orqanları, o cümlədən parlamentlə, vətəndaş cəmiyyəti institutları ilə yüksək səviyyəli əməkdaşlıq həyata keçirməsinə imkan verir.

Burada ayrıca qeyd olunubdur. GRETA təmsilçilərinin ölkəmizə səfərləri zamanı... Avropa Şurasında bu milli qiymətləndirmələrin, daha doğrusu, qitə səviyyəsində qiymətləndirmənin bir hissəsi BMT-dən sonra GRETA vasitəsi ilə aparılır. Orada da göstəricilər Azərbaycanın xeyrinədir.

Burada bir neçə tövsiyə və təklif vardır. Bu sənədlərin içərisində qrafiklər də mövcuddur. Bu məlumatı mediada dərc edərkən bu, geniş şəkildə əksini tapacaqdır. Mən əminəm ki, parlament üzvləri obyektiv dəyərləndirmədən sonra bu məlumatı müsbət qiymətləndirəcəklər. Diqqətinizə görə təşəkkür edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. İndi isə, hörmətli həmkarlar, mən Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri hörmətli Əli Hüseynliyə söz verirəm. Əli müəllim, buyurun, komitənin rəyini bildirin.

**Ə.Hüseynli**, *Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli deputat həmkarlar, Hüquq siyasəti və dövlət quruculuğu komitəsi də Milli Koordinatorun illik məlumatını çox yüksək dəyərləndirmişdir. Eyni zamanda, Milli Koordinatorun parlament, media, vətəndaş cəmiyyəti ilə qarşılıqlı surətdə səmərəli əməkdaşlığı da xüsusən təqdir edilmişdir. Hörmətli Sahibə xanım, komitəmizin rəyi müsbətdir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Yazılanlar var. 5 dəqiqəyə etiraz etmirsinizsə...

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** 5 dəqiqəyə keçək. Razi Nurullayev. Buyurun, Razi müəllim.

**R.Nurullayev**. Hörmətli xanım sədr, hörmətli deputatlar və hörmətli qonaqlar. İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun məruzəsini qiymətləndirirəm. Bu sahədə aparılan fəaliyyəti nəinki regionumuzda, həm də dünyada ən öncül təcrübə və fəaliyyətlərdən biri kimi qiymətləndirirəm. Yeri gəlmişkən, idarənin nəzdində olan

sığınacağın da fəaliyyəti yaxşıdır və parlamentin İnsan hüquqları komitəsinin üzvləri kimi bu sığınacaqda olduq və orada qurbanlar üçün yaradılan şəraitdən razı qaldıq. Bəzən kənardan qiymətləndirmək olmur. Amma öz gözlərinlə görəndən sonra fikirlər dəyişir. Bizim də fikirlərimiz müsbətə doğru elə dəyişdi ki, xeyli maraqlı zarafatlar da etməli olduq, hətta "ora sanatoriya kimi gəlmək də olar" dedik.

Gördüklərimdən təsirlənib söz də vermişdim ki, tribunadan xoş sözlər deyəcəm və deyirəm də. Bu, digər qurumlar üçün də bir məlumatdır. Gördüyünüz işlərlə, fəaliyyətinizlə bağlı deputatları tanış edin ki, onlar da bəzən bilməyərəkdən haqsızlığa yol verməsinlər. Ümumiyyətlə, Daxili İşlər Nazirliyinin fəaliyyətini qiymətləndirirəm, ölkəmizdə stabilliyin, ictimai asayişin və təhlükəsizliyin təmin edilməsində onların rolu danılmaz və əvəzsizdir. Həm də qeyd etmək istəyirəm ki, Daxili İşlər Nazirliyi ilə parlament arasında çox sıx və faydalı iş birliyi var. Bu da sevindiricidir. Çünki qarşılıqlı iş birliyi əsasında bir çox məsələləri anında və konkret epizodlar üzrə həll etmək mümkün olur. Buna görə də hörmətli nazir Vilayət müəllim Eyvazova, hörmətli Seyfulla müəllim, Sizə, o cümlədən bütün rəhbərlik və kollektivinizə dərin təşəkkürümü bildirirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Etibar Əliyev. Etibar müəllim, buyurun.

**E.Əliyev**. Hörmətli xanım sədr, hörmətli deputatlar, hörmətli Seyfulla müəllim. İlk öncə qeyd edim ki, İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatında struktur baxımından yaxşılaşma var. Mən məlumatla tanış olmuşam. Geniş məlumatlarla zəngindir, ən mühüm istiqamət kimi qarşıda duran vəzifələr daha

aydın müəyyənləşdirilmişdir. Əvvəlki məruzədə bunlar yox idi. Pozitiv istiqamətlərdən biri qanunvericilik istiqamətində olan təkliflərdir. Qanunverici orqan olaraq biz bu dəyişikliklərin qəbul olunmasını sürətləndirməliyik. Eyni zamanda, məlumatda dünyada insan alverinə qarşı mübarizənin tendensiyaları göstərilib. Yaxşı olardı ki, ölkəmizdə bu tendensiyaların mövcudluğundan bəhs edilərdi. Ən mühüm məlumatlardan biri ondan ibarətdir ki, ABŞ Dövlət Departamentinin məruzələrində ikinci qrupda yer almışıq, bu, çox mühüm nailiyyətdir, insan alverinə qarşı mübarizənin səmərəliliyini göstərir. Eyni zamanda, GRETA-da, – bu, Avropada insan alverinə qarşı mübarizədə ekspert qrupudur, – insan alverinə qarşı mübarizədə tərəqqinin olması göstərilmişdir. Bu məqamların məruzədə daha detallı verilməsi məqsədəuyğun olardı. Ona görə ki, bu da öz növbəsində beynəlxalq hesabatlara müsbət təsirini göstərərdi. Çünki ayrı-ayrı beynəlxalq təşkilatlar Azərbaycanla bağlı məlumatları öyrənəndə bunların üstündən keçə bilmirlər.

Bütün bunlarla yanaşı, bəzi qeydlərimi diqqətə çatdırmaq istəyirəm. Çoxsaylı məlumatların əks olunmasına baxmayaraq, istinadlar göstərilməyib. Məlumatda “Azərbaycan Respublikasında insan alverinə qarşı 2020–2024-cü illər üçün Milli Fəaliyyət Planı”nda nəzərdə tutulmuş tədbirlərin icrası haqqında məlumatlar göstərilir. Lakin yaxşı olardı ki, bir fəsil də bu illərdə fəaliyyət planının icrasının vəziyyətinə həsr olunardı. Bu bizə alnaşıqlı bir mənzərə verə bilərdi. Milli Fəaliyyət Planının məqsədi ilə bağlı aşağıdakı davamlı tədbirlər nəzərdə tutulur:

İnsan alverinin səbəbləri və insan alverinə şərait yaradan halların müəyyən edilməsi və aradan qaldırılması tədbirləri. Ancaq biz məlumatda insan alverinin səbəblərinə

şərait yaradan halların müəyyən edilməsinə sistemli yanaşmanı görmürük. Fraqmental olaraq bəzi məlumatları görürük. Yaxşı olardı ki, məruzədə insan alverinə qarşı mübarizə ilə bağlı müxtəlif hallar üzrə nümunələr təqdim olunardı. Onda bu bizdə insan alverinin səbəbləri və ona qarşı mübarizənin aparılması barədə dəqiq təsəvvürlər yaratmış olardı. İnsan alveri qurbanları ilə bağlı milli istiqamətləndirmə mexanizmi qaydalarına idarələrarası komissiyanın üzvləri olan dövlət qurumlarının rəhbərlərinin müavinləri və komissiyanın tərkibinə daxil ediləcək qeyri-hökumət təşkilatlarının müsahibə yolu ilə seçilməsi təklifinin daxil edilməsi pozitiv qiymətləndirməyə yol açmış olardı. Bununla yanaşı, hesab edirik ki, bu komissiyanın işə başlaması zəruridir. Çünki fəaliyyət planının bitməsinə çox az vaxt, bir il qalıb.

Uzun illərdir ki, insan alveri qurbanları üçün yeni sığınacaqların yaradılması ilə bağlı və regionları da əhatə etməsini söyləməyimizə baxmayaraq, bu istiqamətdə yetərli irəliləyişlərin olmaması, insan alveri qurbanlarının həyatını təhlükə altına qoyur. İnsan alverinə qarşı maarifləndirmə işlərini qiymətləndirərək insan alveri qurbanlarının reabilitasiya işinin ürəkaçan olmadığını da qeyd etməliyik. Bu istiqamətdə beynəlxalq təcrübənin öyrənilməsi və ölkəmizə implementasiyası çox yaxşı olardı. Biz bəzi hallarda KİV-lərdə və xüsusi ilə televiziyalarda insan alveri qurbanları olan uşaqların təsvirlərini görürük və bu, yolverilməzdir, onların həyatında təhlükə riski yaradır. Baxmayaraq ki, tədbirlər planında sığınacaqların vəziyyətinin öyrənilməsinin standartlarına yenidən baxılması təklifinin hazırlanması göstərilir, lakin bu istiqamətdə də müvafiq qurumların fəaliyyətinin nəticələrini görə bilmirik. Bu isə bəzi sığınacaqlarda yerləşdirilən və insan

alverinə məruz qalan uşaq və qadınların yersiz reklam edilməsinə səbəb olur.

İnsan alverindən biri olan məcburi əməyə cəlb etmənin aqrar sektorda olması göstərilir. Halbuki müxtəlif sektorlarda, xidmət sahələrində, məsələn, marketlərdə, avtomobil yuma və təmiri yerlərində uşaq əməyinin, eləcə də müqaviləsiz işləyən çoxsaylı insanların şahidi oluruq. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müvafiq strukturları bu istiqamətdə fəaliyyətini gücləndirməlidir. Fərdi sahibkarların obyektlərində bu cür halları görəndə sərt münasibət sərgilənir. Lakin oliqarxlara məxsus obyektlərdə görməməzliklə rastlaşırıq. Bu sahədə hökumətin əsas tərəfdaşlarından biri olan qeyri-hökumət təşkilatlarıdır, lakin bu istiqamətdə layihələrin maliyyələşdirilməsi yetərli deyil. Bütün bunlara baxmayaraq, məlumatın lehinə səs verəcəyəm. Təşəkkür edirəm. Sağ olun.

**Sədrlik edən.** Çıxışa görə sağ olun. Mən çıxış eləyənlərin hamısına minnətdarlığımı bildirirəm. Belə fikir var ki, səsə qoyaq. Etiraz etmirsinizsə...

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Biz hörmətli Seyfulla müəllimin hesabatı ilə əlaqədar çıxışları dinlədik. Ona görə də, hörmətli həmkarlar, sizin razılığınızla məsələni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.11 dəq.) |
|---|---:|
| Lehinə | 80 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 80 |
| Nəticə: Qəbul edildi | |

Hörmətli həmkarlar, yetərsay yoxdur. Xahiş edirəm, diqqətli olun. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.12 dəq.) |
|---|---|
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qərar qəbul edildi.

Seyfulla müəllim, Sizə təşəkkür edirik və fəaliyyətinizdə uğurlar arzulayırıq. Çox sağ olun.

Hörmətli həmkarlar, biz işimizə davam edirik. Qeyd edim ki, gündəliyin növbəti üç məsələsi beynəlxalq sənədlərin təsdiq edilməsi ilə bağlıdır. Bildiyiniz kimi, "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbinə əsasən bu qanun layihələri bir oxunuşda baxılıb qəbul ediləcək. Biz gündəliyin 2-ci məsələsinə keçirik. Bu məsələ "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında Azərbaycan–Özbəkistan İnvestisiya Fondunun yaradılması haqqında" Sazişin təsdiq edilməsi barədə qanun layihəsidir. Qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin üzvü hörmətli Məşhur Məmmədova söz verirəm. Məşhur müəllim, buyurun.

**M.Məmmədov**, *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü.*

Hörmətli xanım sədr, hörmətli həmkarlar. 2023-cü il fevralın 24-də Daşkənddə "Azərbaycan Respublikası Hö-

kuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında Azərbaycan–Özbəkistan İnvestisiya Fondunun yaradılması haqqında" Saziş imzalanmışdır. Sözügedən saziş tərəflər arasında Azərbaycan–Özbəkistan İnvestisiya Fondunun yaradılmasına dair müvafiq razılaşmaların müəyyən edilməsi və təşkilati işlərin sürətləndirilməsi istiqamətində töhfə verəcəkdir.

Sazişə əsasən fondun baş ofisi Daşkənd şəhərində, nümayəndəliyi isə Bakı şəhərində yerləşəcək. Tərəflərin nizamnamə kapitalında pay bölgüsü Azərbaycan tərəfi 75 faiz, Özbəkistan tərəfi isə 25 faiz kimi müəyyənləşdirilmişdir. Fond gələcək layihələrdə tərəfdaş qismində iştirak edəcək. Fondun nizamnamə kapitalının yuxarı həddi 500 min ABŞ dolları müəyyən edilmişdir və layihələrə investisiya qoyulduqca fonda əlavə vəsaitin köçürülməsi məsələsi təmin olunacaq. Fondun təsisçiləri sazişin qüvvəyə minməsindən sonra 60 gün ərzində müəyyən ediləcək və onlar barədə məlumat diplomatik kanallar vasitəsi ilə mübadilə olunacaq. Fondun nizamnaməsi və investisiya qaydalarının hazırlanması üçün məsləhətçi şirkət cəlb olunacaqdır. Sənədə əsasən fond tərəfindən Azərbaycan və Özbəkistan ərazisində, eləcə də üçüncü ölkələrdə investisiya qoyuluşu nəzərdə tutulur. Layihəyə səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, qanun layihəsinə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində də baxılıb. Komitənin rəyini bildirmək üçün mən komitənin sədr müavini hörmətli Sevinc Fətəliyevaya söz verirəm. Sevinc xanım, buyurun.

**S.Fətəliyeva,** Milli *Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi sədrinin müavini.*

Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, komi-

təmizin rəyi müsbətdir. Səs verməyə çağırırıq.

**Sədrlik edən.** Çox sağ olun, Sevinc xanım. İki nəfər yazılıb. Fəzail Ağamalı. Fəzail müəllim, buyurun.

**F.Ağamalı**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli həmkarlar, Azərbaycan–Özbəkistan İnvestisiya Fondunun yaradılması haqqında Saziş ölkələrimiz arasında strateji tərəfdaşlığın dərinləşməsinə və əməkdaşlığın daha da güclənməsinə, heç şübhəsiz ki, ciddi xidmət edəcəkdir. Fondun yaradılması həm Azərbaycan, həm Özbəkistanda, həm də üçüncü ölkələrdə investisiya qoyuluşu və ciddi fayda verəcək müəssisələrin yaradılmasına əhəmiyyətli imkanlar açacaqdır. Eyni zamanda, məncə, saziş həm də türk dövlətlərinin iqtisadi əməkdaşlığının genişlənməsinə özünün əhəmiyyətli töhfəsini verəcəkdir. Ona görə də bu saziş son dərəcə ciddi əhəmiyyət daşıyır və biz ona səs verib ratifikasiya etməliyik.

Əlbəttə, ölkə Prezidenti cənab İlham Əliyevin xüsusi səyi və təşəbbüsü ilə bu gün türk dövlətləri arasında ciddi əməkdaşlıq formalaşmışdır. Bu əməkdaşlıq həm hökumətlərarası, həm də parlamentlərarası səviyyədə öz əhəmiyyətli addımlarını atmaqdadır. Təbii olaraq türk dövlətlərinin və xalqlarının tarixi varlığı dil, din bağlılığı bu cəmiyyətləri hər zaman bir-birinə yaxın etmiş və bunlar bir-birini tamamlamışlar. Bir daha təkrar edirəm, ölkə Prezidentinin təşəbbüsü ilə Naxçıvandan başlayaraq bu gün yüksək səviyyədə özünü ifadə etməkdə olan Türk Dövlətləri Təşkilatı özünün ciddi bir mərhələsini yaşamaqdadır. Belə bir ittifaqın yaradılmasında, heç şübhəsiz ki, qardaş Türkiyə dövlətinin və onun Prezidenti çox dəyərli Rəcəb Tayyib Ərdoğanın da böyük töhfələri olmuşdur, xidmətləri hər birimizin gözünün önündədir. Bu iş faktiki olaraq cənab Prezident və hörmətli Rəcəb Tayyib

Ərdoğan tərəfindən başlanıb və bu iş davam etməlidir. Bu, təkcə türk dövlətlərində yaşayan türk xalqlarının deyil, həm də bu ölkələrdə yaşayan bütün xalqların və ətrafdakı, regiondakı digər ölkələrin və xalqların mənafeyinə və maraqlarına tamamilə uyğundur. Çünki bu, sülh, əməkdaşlıq, firavanlıq gətirə biləcək ciddi layihədir.

Təəssüf edirəm ki, belə ciddi xarakter daşıyan layihəni istəməyən qüvvələr də var. Onlar, təbii ki, türk dövlətlərini istəməyən, ona düşmən kəsilən ayrı-ayrı dövlətlərdir, qüvvələrdir, güc mərkəzləridir və sair. Onların içərisində təbii olaraq, Fransa xüsusi yer tutur, Ermənistan, ermənilər xüsusi fəallığı ilə fərqlənirlər. Fars şovinizmi də belə bir birliyin yaradılmasına ən müxtəlif şəkildə maneçiliklər törətməyə çalışır. Əlbəttə, bunların mövqeyini haradasa bu və ya digər şəkildə bəlkə də başa düşmək olar. Çünki onlar istəmirlər ki, türk dövlətlərinin mövqeyi güclənsin. Lakin Türkiyə daxilində, eyni zamanda, Azərbaycan daxilində də həmin anti-türk qüvvələri belə bir layihənin reallaşmasına və daha da güclənməsinə ən müxtəlif üsullarla mane olmağa çalışırlar. Burada hörmətli həmkarlarımız tərəfindən deyildi. Bu gün yeni "İpək yolu" layihəsinin Qazaxıstandan və Azərbaycandan yan keçərək inşa edilməsi haqqında, – mən açıq deyirəm, hörmətli Sahibə xanım, bu sözümə görə məni tənbeh etməyin, – bu gün sərsəm fikirlər söyləyən, özünü Türkiyənin baş müxalifəti adlandıranın anti-türk mövqeyi birbaşa ortadadır. Onun mövqeyi mahiyyət etibarı ilə ermənilərin, Fransanın, PKK-nın, FETO-nun və digər anti-türk qüvvələrinin maraqlarına birbaşa xidmət edir. Əlbəttə, biz Ərdoğanın və Türkiyənin 44 günlük müharibədə Azərbaycan xalqı, dövləti qarşısındakı xidmətlərini heç zaman unudan deyilik. Buna görə də həm türk dövlətinə, həm

türk xalqına, həm də Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğana və onun komandasına hər zaman hörmət və rəğbətimizi bildirəcəyik, bu bizim yaddaşlarımızda əbədi olaraq yaşayacaqdır. Ona görə də mən düşünürəm ki, bu gün çox müdrik türk xalqı...

**Sədrlik edən.** Mikrofon verin. Xahiş edirəm.

**F.Ağamalı**. Türkiyənin bugünkü inkişafında möhtəşəm xidmətlər göstərən bütün türk xalqları, Türkiyədə yaşayan xalqlar Türkiyənin gələcəyinin daha da güclənməsi, türk dövlətlərinin gələcəkdə daha da möhkəmlənməsi üçün öz müdrikliyini göstərəcək və bir neçə gündən sonra bir daha Rəcəb Tayyib Ərdoğana səs verəcək, bu, bütün türk dövlətlərinə, eyni zamanda, Türkiyə xalqına böyük töhfə olacaq. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Aydın Mirzəzadə. Buyurun.

**A.Mirzəzadə.** Təşəkkür edirəm, xanım sədr. Müzakirəmizə verilən saziş layihəsi sıradan bir sənəd deyil, bu, iki türk dövləti arasında ilk dəfə olaraq yaradılan xüsusi bir təsisatdır. İlk dəfədir ki, Azərbaycanla türk dövləti arasında investisiya fondunun yaradılması barəsində qərar qəbul edilir. Bu, Azərbaycan–Özbəkistan əlaqələrinin artıq daha yeni bir yüksək səviyyəyə qalxması deməkdir. Özbəkistanın böyük iqtisadi potensialı var. İnkişaf edir, dünya iqtisadi birlikləri onun inkişafına yüksək qiymət verirlər. Özbəkistan və Azərbaycan arasında çox sıx siyasi əlaqələr var. Azərbaycan Prezidenti ilə Özbəkistan Prezidenti arasında şəxsi münasibətlər də yüksək səviyyədədir. Özbəkistan həmişə Azərbaycanın milli maraqlarına hörmətlə yanaşıb, Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən ölkələrdən olubdur. Çox təqdirəlayiqdir və diqqətçəkəndir ki, Özbəkistan işğaldan azad olunan ərazilərimizdə məktəb tikilməsini öhdəliyinə götürmüşdür.

Əlbəttə, bu, sonuncu təşəbbüs deyil.

Belə bir fondun yaradılması qarşılıqlı surətdə ölkələrdə birgə layihələrin həyata keçirilməsinə, hətta üçüncü ölkələrdə iqtisadi layihələrin həyata keçirilməsinə, Azərbaycan və Özbəkistanın birliyi vasitəsi ilə dünyada yeni bir iqtisadi modelin ortaya çıxmasına səbəb olacaq. Mənim şübhəm yoxdur ki, gələcəkdə bu fonda yatırımlar daha çox olacaq. Tamamilə mümkündür ki, gələcəkdə Azərbaycanla digər türk dövlətləri arasında, digər ölkələr arasında, eyni zamanda, türk dövlətlərinin ümumi bir investisiya fondu yaradılsın. İki ölkə arasında investisiya fondunun yaradılması çox müsbət bir addımdır və bu, iki dövlətin daha yaxın olması, birgə fəaliyyət göstərməsinə öz səylərini göstərməkdir. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.23 dəq.) |
| --- | --- |
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi qəbul edildi.

Növbəti məsələyə keçirik. Bu, 3-cü məsələdir. “Azərbaycan Respublikası Hökuməti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Hökuməti arasında beynəlxalq avtomobil daşımaları haqqında” Sazişin təsdiq edilməsi barədə qanun layihəsi müzakirəyə təqdim edilir. Məsələyə dair məlumat vermək üçün, Məşhur müəllim,

mən yenə də Sizə söz verəcəyəm, öz komitənizin rəyini bildirin. Buyurun.

**M.Məmmədov.** Hörmətli xanım sədr, hörmətli həmkarlar. Azərbaycan Respublikasının xarici ölkələrlə iqtisadi və ticarət əlaqələrinin genişləndirilməsi və avtomobil nəqliyyatı ilə beynəlxalq daşımaların inkişaf etdirilməsi məqsədi ilə bu sahədə 26 ölkə ilə hökumətlərarası saziş imzalanmışdır. Bu sazişlər Azərbaycan Respublikası ilə digər dövlətlər arasında avtomobil nəqliyyatı ilə beynəlxalq daşımaların əsas şərtlərini və daşımaların həyata keçirilməsi ilə bağlı sənədləşdirmələri özündə əks etdirməklə həmin ölkələrlə beynəlxalq avtomobil daşımaları üçün hüquqi baza yaradır.

Hazırda Azərbaycan və Birləşmiş Krallıq arasında belə saziş mövcud olmadığından, beynəlxalq avtomobil daşımaları ilə bağlı kvota müəyyən etmək mümkün deyil. Daşımalar Beynəlxalq Nəqliyyat Forumunun qıt hesab edilən çoxtərəfli icazələri əsasında həyata keçirilir. Bununla yanaşı, Azərbaycana həyata keçirilən daşımalar Birləşmiş Krallıqla beynəlxalq avtomobil daşımaları sahəsində sazişi olan üçüncü ölkələrin daşıyıcıları tərəfindən həyata keçirilir. Nəzərə almaq lazımdır ki, Birləşmiş Krallıq Azərbaycan Respublikasının neft sənayesinin inkişafı sahəsində ən böyük tərəfdaşlarından biridir və iki ölkə arasında neft avadanlıqlarının ticarəti ilə əlaqədar böyük həcmdə yük dövriyyəsi mövcuddur.

Saziş layihəsində Azərbaycan Respublikası ilə Birləşmiş Krallıq arasında, eləcə də iki dövlətin ərazilərindən tranzit keçməklə, habelə üçüncü ölkələrə və ya ölkələrdən həyata keçirilən beynəlxalq avtomobil daşımalarının tənzimlənməsi, həmçinin daşıma əməliyyatlarının sadələşdirilməsi üçün müvafiq işlərin həyata keçirilməsi nəzərdə tutulur.

Sənəd layihəsinin imzalanması Azərbaycan Respublikası ilə Birləşmiş Krallıq arasında qarşılıqlı kvotanın müəyyən edilməsinə şərait yaradacaq. Bu da öz növbəsində ticarətin artımı üçün yüklərin rəvan daşınmasına və Azərbaycan daşıyıcılarının qeyd olunan istiqamət üzrə bazar payı almasına imkan verəcəkdir. Layihəni dəstəkləməyi sizdən xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun. Qanun layihəsinə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində baxılıb. Sevinc xanım, xahiş edirəm, komitənin rəyini bildirin.

**S.Fətəliyeva.** Hörmətli Sahibə xanım, Məşhur müəllim ətraflı məlumat verdi. Qanun layihəsi haqqında bizim rəyimiz müsbətdir.  Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Çıxış etmək istəyən yoxdur. Xahiş edirəm, qanun layihəsinə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.27 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi qəbul edildi.

Növbəti məsələ 4-cü məsələdir. Bu məsələ "Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında diplomatik və xüsusi/xidməti pasportlara malik şəxslərin giriş vizasından azad edilməsi haqqında" Anlaşma Memorandumunda dəyişiklik edilməsi ilə əlaqədar notalar mübadiləsinin təsdiq edilməsi və "Azər-

baycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında diplomatik pasportlara malik şəxslərin giriş vizasından azad edilməsi haqqında" Anlaşma Memorandumunun təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Qanun layihəsinə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində baxılmışdır. Məsələyə dair, Sevinc xanım, xahiş edirəm, Siz məlumat verin. Buyurun.

**S.Fətəliyeva.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. "Azərbaycan Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında diplomatik pasportlara malik şəxslərin giriş vizasından azad edilməsi haqqında" Anlaşma Memorandumu iki ölkə arasında ikitərəfli münasibətlərin və əməkdaşlığın inkişafı məqsədi ilə 2010-cu ildə imzalanmışdır. 2012-ci ildə isə Anlaşma Memorandumunda hər iki ölkənin diplomatik xüsusi/xidməti pasport sahiblərinə vizasız gediş-gəliş rejimini tətbiq edən müvafiq dəyişikliklər olub. Diqqətinizə təqdim olunan dəyişikliklərə əsasən həmin memorandumda "diplomatik və xüsusi/xidməti pasportlar" ifadəsi "ümumvətəndaş, diplomatik və xüsusi/xidməti pasportlar" ifadəsi ilə əvəz olunması təklif olunur. Dəyişikliklər hər iki ölkənin ümumvətəndaş diplomatik və xüsusi/xidməti pasportlara malik olan vətəndaşlarına bir-birinin dövlət ərazisinə daxil olmaq üçün ilkin giriş vizasından azad edəcəklərini, hər iki ölkədə vizasız 3 aya qala bilmələrini nəzərdə tutur.

Bu qərar iki ölkə arasında münasibətlərin yüksək səviyyədə olmasının göstəricisidir. Azərbaycan–Birləşmiş Ərəb Əmirlikləri münasibətləri təkcə siyasi və diplomatik baxımdan deyil, eyni zamanda, iqtisadi baxımdan çox böyük önəm kəsb edir. Təqdim olunan dəyişikliklər kiçik,

orta və iri biznes əlaqələrinin genişlənməsinə, eyni zamanda, turizmin inkişafına töhfə verəcək. Bunları nəzərə alaraq, "Azərbaycan Hökuməti Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında diplomatik pasportlara malik şəxslərin giriş vizasından azad edilməsi haqqında" Anlaşma Memorandumunun təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsinə komitəmizdə baxılıb. Həmkarlarıma müsbət səs vermələri tövsiyə olunur. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Sevinc xanım. Hörmətli həmkarlar, mən məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin növbəti 11 məsələsi ikinci oxunuşda olan qanun layihələridir. Biz indi gündəliyin 5-ci məsələsinə keçirik. Bu məsələ "Minatəmizləmə sahəsində xidmətlərə görə" Azərbaycan Respublikasının medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qanun layihəsinə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin üzvü hörmətli Nizami

Səfərova söz verirəm. Nizami müəllim, buyurun.

**N.Səfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Hörmətli xanım sədr, hörmətli Milli Məclisin deputatları! “Minatəmizləmə sahəsində xidmətlərə görə” Azərbaycan Respublikasının medalının təsis edilməsi ilə bağlı “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Qanunda dəyişikliklər edilməsi barədə qanun layihəsinin birinci oxunuşu zamanı ətraflı məlumat verilmişdir, sual doğuran məsələ olmamışdır  və hər hansı bir təklif irəli sürülməmişdir. Xahiş edirəm, ikinci oxunuşda qəbul edilməsinə səs verəsiniz.

**Sədrlik edən.** Sağ olun, Nizami müəllim. Hörmətli həmkarlar, bildiyiniz kimi, biz qanun layihəsini ikinci oxunuşda əsas kimi qəbul etməliyik. Ona görə də, xahiş edirəm, qanun layihəsini əsas kimi qəbul etmək üçün səs verin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.32 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi  qəbul edildi.

Qanun layihəsi barədə heç kim çıxış etmək istəmir. Biz indi səsverməyə keçəcəyik. Hörmətli həmkarlar, biz qanun layihəsinin maddələr üzrə səsverməsinə keçəcəyik. 3 maddədən ibarətdir. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.32 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, 1-ci maddə qəbul edildi.
2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.32 dəq.) |
|---|---|
| Lehinə | 86 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.
3-cü maddəni səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi.
İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, 6-cı məsələyə keçirik. “İctimai iştirakçılıq haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qanun layihəsinə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün, Əli müəllim, mən Sizdən xahiş edəcəyəm, məlumat verin. Buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli deputat həmkarlar, bildiyiniz kimi, bu layihə komitəmizin üzvü Azay müəllim tərəfindən birinci oxunuşda təqdim olunmuşdur. Bir daha vurğulamaq istəyirəm ki, layihənin məqsədi “İctimai iştirakçılıq haqqında” Qanundakı ifadələrin, terminlərin “Normativ hüquqi aktlar haqqında” Konstitusiya Qanununun tələblərinə uyğunlaşdırılmasıdır, həmin bu terminlərin dəqiqləşdirilməsi, birmənalı ifadə olunmasıdır. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Hörmətli həmkarlar, əsas kimi qəbul etməliyik. Buyurun, qanun layihəsinə əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.34 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs verməди | 0 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi. Yazılanlar var. Qüdrət Həsənquliyev. Buyurun.

**Q.Həsənquliyev.** Təşəkkür edirəm, hörmətli sədr. Hörmətli həmkarlar, biz "İctimai iştirakçılıq haqqında" Qanun qəbul etmişik və onun formalarını da həmin qanunla müəyyənləşdirmişik. Söhbət ondan gedir ki, bunlar ictimai şuralar, ictimai müzakirə, ictimai dinləmə, ictimai rəyin öyrənilməsi, hüquqi aktların layihələrinin ictimai müzakirəsi və yazılı məsləhətləşmələrdir. Yəni ictimai iştirakçılığın bir forması da ictimai müzakirədir. Biz indi ictimai müzakirənin anlayışını geniş veririk. Yəni arayışda qeyd olunub ki, bu, "Normativ hüquqi aktlar haqqında" Qanuna uyğun olaraq edilir. Hansı normaya istinad olunduğu qeyd olunmayıb, amma söhbət 25-ci maddədən gedir. Yəni normanın məzmunu "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələblərinə uyğun olaraq, aydın və birmənalı ifadə edilməlidir.

Burada ictimai iştirakçılığın anlayışı verilib, yəni söhbət ondan gedir ki, ictimai iştirakçılıq dövlət və cəmiyyət həyatının müxtəlif sahələrində dövlət siyasətinin hazırlanmasında və həyata keçirilməsində, ümumdövlət və yerli səviyyədə qərarların qəbulunda ictimaiyyətin iştirakıdır. İctimai müzakirənin anlayışı verilir. Burada belə çıxır ki, ictimai müzakirə və əlavə edirik: "habelə mərkəzi, yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının müzakirə etdiyi ictimai və yerli əhəmiyyətli məsələlərlə bağlı". Hörmətli sədr, burada belə çıxır ki, yəni müzakirə ilə əlaqədar müzakirə aparırıq. Halbuki biz qanunların və

qərarların qəbulu ilə əlaqədar olaraq bu müzakirələri aparmalıyıq.

Ümumiyyətlə, mən bu qanunda edilən dəyişikliyi konseptual baxımdan dəstəkləyirəm. İctimai rəyin, doğrudan da, öyrənilməsi və onun nəzərə alınması cəmiyyətdə ictimai məmnunluq yaradır. Vaxtı ilə teoloqlar da deyirdilər ki, xalqın səsi Tanrının səsidir və onu eşitmək lazımdır. Ona görə də bir çox böyük ictimai əhəmiyyət kəsb edən məsələlərlə bağlı, doğrudan da, ictimai rəyin öyrənilməsinə və ictimai müzakirələrə çox geniş ehtiyac var.

Bizim başqa qanunlarımızda da ictimai rəyin öyrənilməsi var. Məsələn, "Bələdiyyələrin statusu haqqında" Qanunun 26-cı maddəsində qeyd olunur ki, yerli əhəmiyyətli məsələlərə dair sorğu keçirilməlidir. Sonra bizim "Yerli icra hakimiyyətləri haqqında" Əsasnamənin 3.2.1-ci maddəsində qeyd olunur ki, icra hakimiyyəti orqanları əhalinin sosial əhəmiyyətli sifarişlərinin öyrənilməsini təşkil etməlidir. Yəni bunu necə öyrənmək olar? İnsanlarla oturub söhbət aparmaq, müzakirə etmək, dinləmə keçirmək lazımdır.

Yeri gəlmişkən, qeyd edim ki, Bakı şəhərində 7 ildir ki, Formula-1 yarışı keçirilir. Bunun müddəti 3 il də artırıldı. Amma insanların geniş müzakirəsinə səbəb olmuş bu cür məsələlərlə bağlı qərarın qəbulunda ictimai rəy öyrənilmir. Mən hesab edirəm ki, bax, yanlışlıq buradadır.

Bizim bu etdiyimiz dəyişiklikdə qeyd olunur ki, mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarə orqanlarının qəbul etmək istədiyi, burada yazılmalıdır ki, "qanun və qərarlarla bağlı ictimai müzakirələrin keçirilməsinə ehtiyac olmalıdır".

Hörmətli sədr, ümumiyyətlə, köhnə qanunda, normada "ictimai əhəmiyyətli qərarların qəbulu" var idi. Ümumiy-

yətlə, ictimai əhəmiyyəti olmayan qərar yoxdur. Onun üçün biz bunu belə yazaq: “böyük ictimai əhəmiyyətli qərarların qəbulu ilə bağlı bu müzakirələr keçirilməlidir”.

Həmçinin burada qeyd olunur ki, “ictimai və yerli əhəmiyyətli məsələlərlə bağlı”. Bunlar bir-birindən ayrılır. Sanki ictimai məsələ ayrıdır, yerli əhəmiyyətli məsələ isə ayrıdır. Ümumiyyətlə, istənilən yerli əhəmiyyətli məsələ, əgər orada insanlar yaşayırsa, ictimai əhəmiyyət kəsb edir. Ona görə də mən aşağıdakı formada təklif edirəm. Belə yazılmalıdır: “İctimai müzakirə böyük ictimai əhəmiyyət kəsb edən qanun və qərarların (normativ hüquqi aktlarla yanaşı) yerli icra hakimiyyəti və özünüidarə orqanları aktlarının qəbulundan öncə əhalinin müxtəlif təbəqələrinin təkliflərinin öyrənilməsi üçün aidiyyəti dövlət və yerli özünüidarə orqanlarının səlahiyyətli nümayəndələrinin hüquqi şəxslər və vətəndaş cəmiyyəti institutlarının nümayəndələrinin, ayrı-ayrı vətəndaşların, mütəxəssis və ekspertlərin...

**Sədrlik edən.** Sağ olun. Xahiş edirəm, təklifinizi çatdırarsınız. Etibar Əliyev. Buyurun.

**E.Əliyev.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Bu layihənin arayış hissəsində “İctimai iştirakçılıq haqqında” Qanunda istifadə edilən termin və anlayışların “Normativ hüquqi aktlar haqqında” Konstitusiya Qanununun tələblərinə uyğun olaraq, aydın və birmənalı ifadə edilməsini təmin etmək üçün müvafiq dəyişikliklərin edilməsi qeyd olunur. “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikası Konstitusiya Qanununun 25.4-cü maddəsində yazılır: “Normativ hüquqi aktın normaları yığcam şəkildə, əsasən, təsdiq formasında və indiki zamanda ifadə edilməlidir”. Biz qanunların çoxunu keçmiş zamandan indiki zamana gətirməyə çalışırıq. Lakin vaxt itkisi öz sözünü deyir.

Bu vacib dəyişikliklər mərkəzi yerli icra hakimiyyəti orqanlarının və yerli özünüidarəetmə orqanlarının üzərinə böyük məsuliyyət qoyur. "İctimai iştirakçılıq haqqında" Qanun tətbiq sferasını genişləndirir. İndiyə qədər bu norma ümumi xarakter daşıyırdı. Subyektlər dəqiq müəyyənləşdirilməmişdir və onların üzərinə düşən öhdəliklər konkret ifadə olunmamışdır. Buraya publik hüquqi şəxslərin də daxil edilməsi vacibdir. Publik hüquqi şəxslər ictimai və dövlət xarakterli fəaliyyətləri həyata keçirirlər. Məsələn, TƏBİB və Dövlət İmtahan Mərkəzi. Xeyli sayda publik hüquqi şəxslər yaradılıb və proses davam etməkdədir. Bu təsisatlar vətəndaşların hüquq və mənafeləri ilə bağlı məcburi qərarlar qəbul edirlər. Birdən, xüsusən hüquqşünaslar tərəfindən deyilə bilər ki, qanunda hüquqi şəxslər anlayışı yer alıb. Diqqətə çatdırmaq istəyirəm ki, publik hüquqi şəxslər hüquqi şəxslərin tamam başqa növüdür. Belə ki, onlar hüquqi təbiətinə görə dövlət və ictimai funksiyaları həyata keçirirlər, hüquqi və fiziki şəxslərin hüquq və mənafelərinin müəyyənləşdirilməsi ilə bağlı qərarlar qəbul edirlər.

Başqa bir təklif. Mərkəzi yerli icra hakimiyyəti orqanları və yerli özünüidarəetmə orqanları ilə yanaşı, bura nəzarət zərfi dövlətə məxsus olan idarələr, şirkətlər və korporasiyaları da daxil etmək məqsədəuyğun olardı. Məsələn, SOCAR və AZAL.

Bir vacib məsələni də qeyd edim. Bir çox nazirlik ictimai şuraları özlərinə tabe qurum vəziyyətinə salıb. Bu, şuraların xarakterinə zidd hərəkətlərdir. Məsələn, Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin saytına diqqət edin. Şura naziri tərifləyir, nazir şuranı. Bu cür ictimai iştirakçılıq olmaz. "İctimai iştirakçılıq haqqında" Qanunu parlament qəbul edir. Təklif edirəm ki, ictimai şuraların

fəaliyyəti ilə bağlı və “İctimai iştirakçılıq haqqında” Qanunla bağlı Milli Məclisdə bir dinləmə təşkil olunsun. Təşəkkür edirəm, sağ olun.

**Sədrlik edən.** Sağ olun. Kamran Bayramov. Buyurun.

**K.Bayramov.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Müzakirəmizə çıxarılmış “İctimai iştirakçılıq haqqında” Qanunda edilməsi təklif olunan dəyişiklikləri müsbət dəyərləndirirəm və onlara səs verəcəyəm. Heç bir şübhə yoxdur ki, təklif olunan dəyişikliklər ictimai müzakirələr gündəliyini genişləndirəcək, dövlət və yerli əhəmiyyətli məsələlərin müzakirəsində əhalinin iştirakını artıracaq, müvafiq qərarların qəbulu zamanı vətəndaşlarımızın maraq və mənafelərinin nəzərə alınmasını təmin edəcək.

İkinci oxunuşun tələblərinə uyğun olaraq, layihəyə dair bir təklifim var, o da texniki xarakter daşıyır. 1.0.4-cü və 1.0.8-ci maddələrdə edilən dəyişikliklərdə və ümumiyyətlə, qanunun bütöv mətnində “yerli özünüidarəetmə” termini işlədilir. Qeyd etməliyəm ki, ölkə qanunvericiliyində “yerli özünüidarəetmə” termini yalnız bu qanunda istifadə edilir. Bütün digər qanunlarda isə, o cümlədən Konstitusiyanın müvafiq müddəalarında, “Normativ hüquqi aktlar haqqında” Konstitusiya Qanununda, ölkəmizin qoşulmuş olduğu “Yerli özünüidarə haqqında” Avropa Xartiyasının Azərbaycan dilinə tərcüməsinin adında və mətnində “yerli özünüidarə” terminindən istifadə edilir. Bununla əlaqədar həm müzakirə etdiyimiz dəyişikliklərdə, həm də qanunun özündə müvafiq uyğunlaşdırmanın aparılmasını təklif edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Nigar Arpadarai. Nigar xanım, buyurun.

**N.Arpadarai.** Çox sağ olun, hörmətli xanım sədr. Azərbaycanda ictimai iştirakçılıq modeli hələ çox istifadə olunan bir model deyil. Bizdə bu, ənənə halını almayıbdır. Elə ölkələr var ki, orada bu formatlardan daha çox istifadə olunur. Düşünürəm ki, bizdə hələ keçid dövrüdür. O baxımdan hələ də çox istifadə olunmur.

Biz icra qurumlarının fəaliyyətinə baxsaq, görərik ki, onlarda çox ictimai dinləmə keçirilmir və ya bu formatlardan istifadə olunmur. Məsələn, parlamentdə ictimai dinləmələr mütəmadi olaraq keçirilir və bu hər kəs tərəfindən çox alqışlanır. Lakin icra qurumlarında bunun o qədər də çox olduğunu görmürük. Hazırkı qanunda ictimai iştirakçılığın formaları ətraflı təsvir olunubdur. Amma strukturuna və məntiqinə görə, bu qanunda icra orqanlarına bu məsələlərlə bağlı birbaşa öhdəliklər nəzərdə tutulmayıbdır. Bu da anlaşılandır. Təbii ki, burada balans qorunmalıdır. İcra qurumları öz əsas funksiyalarını həyata keçirməlidir. Bu baxımdan bu, anlaşılandır.

Digər tərəfdən düşünürəm ki, biz icra qurumlarının bu məsələyə və bu qanuna diqqətini bir qədər artırmalıyıq. Bunun üçün mexanizmlər düşünə bilərik. Məsələn, monitorinq mexanizmi ola bilər ki, ümumiyyətlə, icra qurumları bu qanunu necə icra edirlər? İctimai dinləmələr keçirilirmi? İctimai şura yaradılırmı? Bəzən olur ki, məsələn, yaradılıbdır, amma səmərəli fəaliyyət göstərmir. Yəni bu baxımdan düşünürəm ki, onların bu məsələyə diqqətini, məsuliyyətini bir qədər artırmaq üçün monitorinq mexanizminin tətbiq olunması yaxşı bir alət olardı.

İkinci bir məsələ. Bu qanun elə yazılıb ki, burada ictimai iştirakçılıq təşəbbüsü olarsa, tətbiq olunmağa başlayır. Yəni adətən bu təşəbbüs irəli sürülməlidir ki, sonradan qüvvəyə minsin. Amma elə hallar olur ki, bunun mütləq

keçirilmə zərurəti ola bilər. Düşünürəm ki, biz pilot layihə olaraq və ya hansısa bir müəyyən müddət üçün bunu tətbiq edə bilərik. Məsələn, yaşayış məntəqələrinin yanında hansısa böyük infrastruktur tikintisi, tikinti işləri olarsa, o zaman icra qurumu mütləq olaraq  ictimai dinləmə keçirə bilər. Biz bunu elə bir formada düşünə bilərik ki, insanlarda bu ənənə artıq yaransın və təşəbbüslər daha çox gəlsin. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Əli müəllim, mən Sizdən xahiş edəcəyəm, burada səslənən təkliflərin hamısını, – lazım olsa, onları səsləndirən hörmətli həmkarlarımızı dəvət edin, – işçi qaydada müzakirə edin.

Hörmətli həmkarlar, daha çıxış edən yoxdur. Mən qanun layihəsini maddələr üzrə səsə qoyacağam. Layihə 4 maddədən ibarətdir. Mən onları iki-iki səsə qoyacağam. Xahiş edirəm, 1-ci və 2-ci maddələrə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.47 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İndi isə xahiş edirəm, 3-cü və 4-cü maddələrə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.48 dəq.) |
|---|---|
| Lehinə | 86 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 86 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

Qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.48 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

7-ci məsələyə keçirik. "Dövlət qulluğu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Məsələyə dair məlumat vermək üçün, Əli müəllim, mən yenə də Sizdən xahiş edirəm, buyurun, məlumat verin.

**Ə.Hüseynli.** Çox sağ olun, xanım sədr. Bu məsələ ilə bağlı birinci oxunuşda məlumat vermişəm. Bildiyiniz kimi, cənab Prezident Naxçıvanda səlahiyyət nümayəndə institutunu təsis etmişdir. Bu qanunun məqsədi vəzifədə olan həmin şəxslərin təsnifatının "Dövlət qulluğu haqqında" Qanuna uyğun olaraq müəyyən edilməsidir. İkinci oxunuşda səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Hörmətli həmkarlar, mən qanun layihəsinin əsas kimi qəbul edilməsinə münasibət bildirməyinizi xahiş edəcəyəm. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.49 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun,  əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən yoxdur və mən qanun layihəsini maddələr üzrə səsə qoyacağam. Qanun layihəsi 1 maddədən ibarətdir. Xahiş edirəm, bu maddəyə səs verin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.49 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.50 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələyə keçirik. Torpaq Məcəlləsində, Şəhərsalma və Tikinti Məcəlləsində, “Torpaq islahatı haqqında” Qanunda və digər 7 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qanun layihəsinə Aqrar siyasət komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Tahir Rzayevə söz verirəm. Tahir müəllim, buyurun.

**T.Rzayev,** *Milli Məclisin Aqrar siyasət komitəsinin sədri.*

Hörmətli sədr, qanunlara edilmiş dəyişikliklər barədə deputat həmkarlarım birinci oxunuşda heç bir təklif irəli sürmədilər. Ona görə də ikinci oxunuşda səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Tahir müəllim, çox sağ olun. Qanun layihəsinə daha 4 komitədə baxılmışdır. Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin rəyini bildirmək üçün, Əli müəllim, xahiş edirəm, Siz məlumat verin.

**Ə.Hüseynli.** Hörmətli sədr, komitə lehinədir.

**Sədrlik edən.** Çox sağ olun. Qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Hörmətli Əli Məsimlidən xahiş edəcəyəm. Əli müəllim, buyurun, münasibətinizi bildirin.

**Ə.Məsimli,** *Milli Məclisin İqtisadi siyasət və sahibkarlıq komitəsinin sədri.*

Hörmətli sədr, qanun layihəsinə dair komitəmizin rəyi müsbətdir. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində baxılıb. Komitənin sədri hörmətli Sadiq Qurbanovdan xahiş edəcəyəm. Sadiq müəllim, buyurun.

**S.Qurbanov,** *Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri.*

Sağ olun, dəyərli Sahibə xanım. Komitə lehinədir. Olduğu kimi səsə qoyulmasını təklif edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Nəhayət, Regional məsələlər komitəsinin sədri hörmətli Siyavuş Novruzova söz verirəm. Siyavuş müəllim, buyurun, komitənin rəyini bildirin.

**S.Novruzov,** *Milli Məclisin Regional məsələlər komitəsinin sədri.*

Təşəkkür edirəm, hörmətli sədr. Komitənin rəyi müsbətdir, səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Siyavuş müəllim. Hörmətli həmkarlar, mən qanun layihəsini əvvəlcə əsas kimi səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.52 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qanun layihəsi qəbul edildi.

Çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini maddələr üzrə səsə qoyacağam. Qanun layihəsi 10 maddədən ibarətdir. Mən onları beş-beş səsə qoyacağam. Xahiş edirəm, birinci 5 maddəyə səs verin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.52 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddələr qəbul edildi.

İndi isə son 5 maddəni, yəni 5-ci, 6-cı, 7-ci, 8-ci, 9-cu, 10-cu maddələri səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.53 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun,  bu maddələr də qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.53 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, 9-cu məsələyə keçirik. Bu məsələ "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq

pozuntularının profilaktikası haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Əli müəllim, bu məsələyə sizin komitədə baxılıb. Xahiş edirəm, məlumat verin.

**Ə.Hüseynli.** Çox sağ olun, xanım sədr. Bu layihə ilə bağlı birinci oxunuşda məlumat verilmişdir. Layihənin məqsədi yetkinlik yaşına çatmayanların hüquqlarının daha səmərəli qorunmasıdır. Hörmətli sədr, birinci oxunuşda heç bir təklif daxil olmamışdır. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Əli müəllim, çox sağ olun. Xahiş edirəm, qanun layihəsinin əsas kimi qəbul edilməsinə münasibət bildirək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.54 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən yoxdur. Mən maddələr üzrə səsə qoyacağam. Qanun layihəsi 2 maddədən ibarətdir. Bir-bir səsə qoyacağam. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.55 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 86 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.
2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.55 dəq.) |
|---|---|
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.
İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.55 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 86 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.
Hörmətli həmkarlar, gündəliyin növbəti 6 məsələsi möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub, mahiyyətcə də bir-birinə bağlıdır. 10-cu məsələ Ailə Məcəlləsində, 11-ci məsələ Mülki Məcəllədə, 12-ci məsələ "Sosial müavinətlər haqqında" Qanunda, 13-cü məsələ "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Qanunda, 14-cü məsələ "Yaşayış yeri və olduğu yer üzrə

qeydiyyat haqqında" Qanunda və 15-ci məsələ isə "Sosial xidmət haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihələridir. Qeyd edim ki, bu qanun layihələrinə üç komitədə baxılmışdır. Birinci komitə Ailə, qadın və uşaq məsələləri komitəsidir. Mən komitənin üzvü Tamam xanım Cəfərovadan xahiş edəcəyəm. Tamam xanım, Siz 10-cu və 13-cü məsələlərə dair məlumat verin, 11-ci, 12-ci, 14-cü və 15-ci məsələlər barəsində komitənin rəyini bildirin. Xahiş edirəm, buyurun.

**T.Cəfərova,** *Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin üzvü.*

Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli media nümayəndələri. Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi himayədar ailə institutunun inkişaf etdirilməsi və təşviqi, habelə valideyn himayəsindən məhrum olmuş uşaqların müəssisələrə yerləşdirilməsi, uşaqların müəssisələrdən ailələrə qaytarılması, müəssisələrdə olan uşaqların fərdi inkişaf planlarının hazırlanması məsələləri ilə bağlı normativ hüquqi bazanın təkmilləşdirilməsi məqsədi ilə hazırlanmışdır. Təklif olunan dəyişikliklər himayədar ailə institutunun uğurlu tətbiqinə, valideyn himayəsindən məhrum olmuş uşaqların müəssisələrə düşməsinin qarşısının alınmasına, bununla da həmin uşaqların ailə mühitində tərbiyə almaq imkanlarının genişləndirilməsinə xidmət edəcəkdir.

Hörmətli xanım sədr, cari il mayın 5-də komitə iclasında qanun layihəsi bir daha müzakirə edilmiş, bəzi kiçik texniki düzəlişlər təklif olunmuşdur. Diqqətinizə çatdırmaq istərdim ki, irəli sürülən təkliflər layihənin təşəbbüskarı olan qanunverici subyektlə razılaşdırılmışdır. Beləliklə, qanun layihəsi təklif olunan yeni texniki dü-

zəlişləri nəzərə almaqla, ikinci oxunuşda baxılması üçün Milli Məclisin müzakirəsinə tövsiyə edilmişdir. Məlumatı nəzərə almağınızı xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Siz 11-ci, 12-ci, 13-cü, 14-cü məsələlərlə də bağlı rəyinizi bildirdiniz?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, 11-ci və 14-cü məsələlərə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində də baxılıb. Əli müəllim, yenə də Sizdən xahiş edirəm, bununla bağlı məlumat verin.

**Ə.Hüseynli.** Çox sağ olun, hörmətli sədr. Bizim komitə həm Mülki Məcəllədə, həm də "Yaşayış yeri haqqında" Qanunda edilən dəyişikliklərlə bağlı rəy verib. Rəy müsbətdir. Çünki faktiki olaraq təqdim olunmuş Ailə Məcəlləsinə uyğunlaşdırma xarakteri daşıyır. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Musa müəllim, mən indi Sizə söz vermək istəyirəm. 12-ci və 15-ci məsələlərə sizin komitədə baxılıb. Buyurun.

**M.Quliyev,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli millət vəkilləri, 12-ci məsələ "Sosial müavinətlər haqqında" Qanunda dəyişiklik edilməsi ilə bağlıdır. Qeyd olunduğu kimi, bu dəyişikliklər də himayədar ailə institutunun yaradılması ilə əlaqədar olaraq Ailə Məcəlləsində edilən dəyişikliklərin məntiqi davamıdır. Dəyişikliyə görə, himayədar ailəyə verilmiş uşaqların tərbiyəsi və onlara mövsümi geyimlərin alınması məqsədi ilə iki yeni müavinət sosial müavinət növü təsis edilir. Bunlardan biri aylıq müavinətdir, uşağın tərbiyəsi ilə bağlı xidmətlərin qar-

şılanması üçündür, digəri isə uşaqlara mövsümi paltar alınması üçün birdəfəlik müavinətdir ki, bu da adından göründüyü kimi, hər mövsümdə bir dəfə olmaqla ildə 4 dəfə veriləcəkdir.

Eyni zamanda, qanunun digər maddələrindəki dəyişikliklər məhz bu müavinət növlərinin verilməsi qaydaları, onların şərtləri, müddətləri və dayandırılması üçün olan münasibətlərin hüquqi əsaslarını yaradır.

Digər bir məsələ isə "Sosial xidmət haqqında" Qanunda dəyişiklikdir. Bu da himayədar ailənin yaradılması ilə əlaqədar olaraq sosial xidmət müəssisələr siyahısından "himayədar ailə" anlayışı çıxarılır.

Birinci oxunuşdan sonra qanun layihələrinin hər ikisi barəsində əlavə və dəyişikliklər, təkliflər bildirilməmişdir. Xahiş edirəm, ikinci oxunuşda dəstək verəsiniz. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Musa müəllim. Hörmətli həmkarlar, saat 1-dir. Təklif var ki, fasiləsiz. Razısınız?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, qanun layihələrini əvvəlcə əsas kimi qəbul etməliyik. Xahiş edirəm, 10-cu məsələnin əsas kimi qəbul edilməsinə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.01 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

11-ci məsələni əsas kimi səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.01 dəq.) |
|---|---|
| Lehinə | 83 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 83 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qəbul edildi.

12-ci məsələdə olan qanun layihəsini əsas kimi səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.02 dəq.) |
|---|---|
| Lehinə | 83 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 84 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

13-cü məsələni əsas kimi səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.02 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İndi isə 14-cü məsələdə olan qanun layihəsinə əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.02 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Nəhayət, mən 15-ci məsələni əsas kimi səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu məsələ də əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən yoxdur, ona görə də mən qanun layihələrini maddələr üzrə, sonra isə bütövlükdə səsə qoyacağam. 10-cu məsələdə olan qanun layihəsi 19 maddədən ibarətdir. Mən onları 5-5 səsə qoyacağam. Xahiş edirəm, 1-ci, 2-ci, 3-cü, 4-cü və 5-ci maddələrə münasibət bildirək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.04 dəq.) |
|---|---|
| Lehinə | 89 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr qəbul edildi. Çox sağ olun.
İndi isə növbəti 5 maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.04 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 86 |
| Nəticə: Qəbul edildi | |

Bunlar da qəbul edildi.
İndi isə xahiş edirəm, 11-ci, 12-ci, 13-cü, 14-cü və 15-ci maddələrə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.04 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.
Hörmətli həmkarlar, bu qanun layihəsində son 4 maddə qalır. Mən onları da səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.05 dəq.) |
|---|---|
| Lehinə | 86 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 86 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu son maddələr də qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.05 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, 11-ci məsələdə olan qanun layihəsində 1 maddə var. Xahiş edirəm, bu maddəyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.06 dəq.) |
|---|---|
| Lehinə | 86 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 86 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi qanun layihəsini mən bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.06 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

12-ci məsələdə olan qanun layihəsində 6 maddə var. Mən onları 3-3 səsə qoyacağam. İndi isə xahiş edirəm, 1-ci, 2-ci və 3-cü maddələrə münasibət bildirək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.06 dəq.) |
|---|---|
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

4-cü, 5-ci və 6-cı maddələri səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.07 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr də qəbul edildi.
İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 13.07 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.
Hörmətli həmkarlar, 13-cü məsələnin səsverməsinə keçirik. Bu məsələdə olan qanun layihəsində 3 maddə var. 1-ci maddəyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.08 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə qəbul edildi.
2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.08 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

3-cü maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.08 dəq.) |
|---|---|
| Lehinə | 86 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 86 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

Hörmətli həmkarlar, mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.09 dəq.) |
|---|---|
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti qanun layihəsində 1 maddə var. Xahiş edirəm, maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.09 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, maddə qəbul edildi.

İndi isə qanun layihəsini bütövlükdə səsə qoyuram, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.09 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Hörmətli həmkarlar, 15-ci məsələnin səsverməsinə keçirik. Bu qanun layihəsində 1 maddə var. Xahiş edirəm, bu maddəyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.10 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun, münasibət bildirin.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.10 dəq.) |
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim 7 məsələmiz qalır. Bu məsələlər hamısı birinci oxunuşda olan qanun layihələridir. Odur ki, mən xahiş edirəm, müzakirələr zamanı çıxışlarda birinci oxunuşun tələblərini nəzərə alasınız.

Gündəliyin 16-cı məsələsinə keçirik. Bu məsələ Mülki Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Qanun layihəsinə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən hörmətli Bəhruz Məhərrəmova söz verirəm. Bəhruz müəllim, buyurun.

**B.Məhərrəmov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Çox sağ olun, hörmətli sədr. Əziz həmkarlar, Ümummilli Liderin rəhbərliyi altında Konstitusiya qəbul edilərkən 61-ci maddədə qanunla nəzərdə tutulmuş hallarda hüquqi yardımın ödənişsiz və dövlət hesabına göstərilməsi imkanı təsbit olunub. Azərbaycan dövləti bu konstitusion normaya ədalət mühakiməsinin səmərəli fəaliyyəti və məhkəmə-hüquq islahatlarının dərinləşməsinin vacib istiqaməti kimi yanaşır.

Bilirsiniz ki, hazırkı qanunvericiliyə görə, inzibati qaydada tutulanların, habelə cinayət prosesi üzrə şübhəli və

təqsirləndirilən şəxslərin vəkilin xidmətlərini ödəmək üçün kifayət qədər vəsaitləri olmadıqda onlara hüquqi yardım dövlət hesabına həyata keçirilir. Mülki prosesdə isə hüquqi yardımın dövlət hesabına təmin edilməsi yalnız vəkilin prosesdə məcburi iştirakı tələb olunduğu hallarda, yəni kassasiya və əlavə kassasiya şikayətləri üzrə, həmçinin məhkəmə aktında yeni açılmış hallar üzrə yenidən baxılması zamanı şəxsin yazılı müraciəti əsasında mümkündür. Hazırda təqdim etdiyimiz layihə isə digər hallarda da dövlət hesabına peşəkar hüquqi yardımın göstərilməsini ehtiva edir. Daha dəqiq desək, işsiz kimi qeydiyyatda olan şəxslər, ünvanlı dövlət sosial yardım alan ailələrin üzvləri, maddi vəziyyəti və orta aylıq gəliri yaşayış minimumundan əhəmiyyətli dərəcədə aşağı olan şəxslər, valideynini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqlar və 67-1-ci maddədə əks olunan digər şəxslər dövlət hesabına peşəkar hüquqi yardım ala biləcəklər. Bu prosesi isə qanunla konkret formada müəyyənləşdirilmiş məhkəmələr həyata keçirəcək.

Məsələnin texniki tərəfinə gəldikdə əminliklə demək olar ki, mövcud potensialla bu işin öhdəsindən gəlmək olar. Xüsusən nəzərə almalıyıq ki, Vəkillər Kollegiyasında son illər həyata keçirilən məqsədyönlü fəaliyyət nəticəsində bu gün Azərbaycan vəkili öz tarixinin ən güclü dönəmini yaşayır və bu proses yüksələn xətt üzrə davam etməkdədir. Əlbəttə, kollegiyanın rəhbərliyinin bu istiqamətdə fəaliyyətini yüksək qiymətləndiririk. Lakin bu uğurların nüvəsində ilk növbədə dövlət başçısının iradəsi dayanır. Möhtərəm cənab Prezidentin mövqeyi ondan ibarətdir ki, vətəndaşların yüksək keyfiyyətli hüquqi yardım almaq hüququnun həyata keçirilməsi, hüquq və azadlıqların etibarlı müdafiəsi və ədalət mühakiməsinin

səmərəli fəaliyyəti üçün güclü və nüfuzlu vəkillik təsisatının böyük əhəmiyyəti var. Məhz bu məqsədlərə nail olunması üçün məhkəmə-hüquq sisteminin təkmilləşdirilməsi və müasirləşdirilməsi sahəsində görülən işlər çərçivəsində vəkilliyin inkişafına dəstək vermək məqsədi ilə çoxsaylı tədbirlər həyata keçirilib.

Müzakirəmizdəki layihə aztəminatlı sosial müdafiəyə ehtiyacı olan insanların hüquq və azadlıqlarının daha səmərəli təminatına yönələn sosial ağırlıqlı akt olsa da, eyni zamanda, vəkillik təsisatının nüfuzuna bilavasitə təsir edən ciddi hüquq hadisəsidir. Əziz həmkarlar, hər birinizi möhtərəm cənab Prezidentin bu nəcib təşəbbüsünə dəstək verməyə çağırıram. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Çıxış etmək istəyən yoxdur. Ona görə də qanun layihəsini səsə qoyacağam. Xahiş edirəm, qanun layihəsinin birinci oxunuşda qəbul olunmasına səs verin.

| **Səsvermənin nəticələri** | (saat 13.14 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin 17-ci məsələsinə keçirik. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihə-

sidir. Qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün, Əli müəllim, mən Sizdən xahiş edirəm. Buyurun, məlumat verin.

**Ə.Məsimli**. Çox sağ olun, hörmətli sədr. Hörmətli sədr, hörmətli deputat həmkarlarım, Azərbaycan Prezidenti tərəfindən sahibkarlığın hərtərəfli dəstəklənməsi üzrə müəyyənləşdirilmiş strateji xəttə uyğun olaraq, verilən fərman və sərəncamlarda bu sahədə yoxlamaların optimallaşdırılması, həmçinin beynəlxalq təcrübəni də nəzərə almaqla, sahibkarların maraqlarının müdafiəsinin gücləndirilməsi məqsədi ilə sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsinə yönəlik bir sıra tapşırıqlar öz əksini tapmışdır.

Bütün bunları nəzərə almaqla, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barəsində Azərbaycan Respublikasının qanun layihəsi işlənib hazırlanmışdır. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Qanunda dəyişiklik edilməsi barəsində layihə may ayının 4-də İqtisadi siyasət komitəsində çox geniş şəkildə müzakirə olunmuşdur. Layihə müzakirə olunan zaman onun ətrafında çıxış edən komitə üzvləri bu layihəni müsbət qiymətləndirməklə yanaşı, sahibkarların hüquqlarının müdafiəsinin gücləndirilməsi baxımından bunun əhəmiyyətini qeyd etmiş, risklərin idarə olunması, şəffaflığın təmin edilməsi, məsuliyyətin, hesabatlılığın artırılması, eyni zamanda, layihədə nəzərdə tutulan bir sıra məqamları müsbət qiymətləndirmişlər. Həmçinin qeyd edilmişdir ki, bu, sahibkarlara dövlətin xoş məramını

müsbət yöndə inkişaf etdirir, həm gəlirlərini artırır, həm də bilavasitə büdcəyə əlavə vəsaitin cəlb edilməsində mühüm rol oynayır. Amma bəzi sahibkarlar bundan sui-istifadə edir, məhsulların qiymətinin aşağı salınmasında və sair istiqamətlərdə sui-istifadə halları və sair olur.

Qaldırılan məsələlərə dair bütün incə məqamların hamısı İqtisadiyyat Nazirliyinin nümayəndəsi tərəfindən qeyd edilmiş, həmin məsələlərin bir hissəsinə elə oradaca cavab verilmiş, bir hissəsinə isə, hörmətli Sahibə xanım, yazılı surətdə cavab veriləcək. Biz bunu müsbət qiymətləndiririk. Arzu edirik ki, digər nazirliklərdə də bu praktika genişlənsin, mümkün olanlar yerində cavablandırılsın, qalanları isə bilavasitə yazılı surətdə Milli Məclisə təqdim edilsin.

Hörmətli sədr, mən bu layihədə qaldırılan bütün məqamları vacib hesab edirəm, amma birinci oxunuş olduğuna görə yalnız konseptual xarakterli məqamları Sizin diqqətinizə çatdırmağa üstünlük verərdim. Müzakirəyə təqdim olunan sənədin əsas məqsədi sahibkarların maraqlarının gücləndirilməsi ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsidir. Bu, təklif olunan dəyişikliklərdə özünü aydın formada göstərib. Bu dəyişikliklər mahiyyət etibarı ilə yoxlayıcı orqanlar üçün əlavə tədbirlər müəyyən edir ki, bu da sahibkarlıq subyektlərinin yoxlamalarla bağlı qanunla qorunan hüquqlarını daha da möhkəmləndirir. Mən hesab edirəm ki, bu, indiki dövrdə çox vacibdir.

Təklif olunan dəyişikliklərin hər biri barəsində geniş danışmaq olar. Amma birinci oxunuş nöqteyi-nəzərindən məsələyə yanaşanda bir neçə məqamı xüsusi qeyd etmək istəyəcəyəm. Qanun layihəsində yoxlamaların obyekti anlayışı, onun əhatə dairəsi müəyyən olunur. Bu yanaşma imkan verəcək ki, yoxlama obyektlərinin hər hansı birində

yoxlamalar aparılan zaman orada sui-istifadə halları, əlavə problemlər olmasın və sahibkarların fəaliyyəti dayanmasın. Çünki yoxlamalar zamanı ən böyük çətinliklər bilavasitə yoxlamaların təzyiqi altında o sahibkarlıq subyektlərinin fəaliyyətinin dayanmasıdır ki, bu dəyişikliklər məhz sahibkarlıq subyektlərinin fəaliyyətinin yoxlama zamanı da davam etdirilməsinə əsas yaradacaq. Bu cür yanaşmalar, eyni zamanda, risklərin idarə olunmasına aydınlıq, ardıcıllıq və şəffaflıq da gətirəcək. Özünüz bilirsiniz ki, şəffaflıq olmayan yerdə yüksək nəticələrdən danışmaq olmaz. Hesab edirik ki, bu da vacibdir.

Hörmətli sədr, narazılıqların xeyli hissəsi etik davranış qaydaları və maraqların toqquşması ilə bağlıdır. Hesab edirəm ki, dəyişikliklərin bir hissəsi bu problemlərin də aradan qaldırılmasında mühüm rol oynayacaq. Eyni zamanda, bu qanun layihəsində vacib hesab olunan məsələlərdən biri ondan ibarətdir ki, təkcə sahibkar deyil, yoxlamalar zamanı sahibkarın səlahiyyətli nümayəndəsi proseslərdə iştirak edəcək. Belə bir şəraitdə yoxlama müddətində artıq sahibkar özü sərbəst surətdə öz təsərrüfat fəaliyyətinin davam etdirilməsində əvvəlki gücü, əvvəlki səyi ilə fəaliyyət göstərə bilər.

Qanun layihəsində nümunələrin dəyərinin ödənilməsi məsələsi həmişə maraqların toqquşma obyekti olub və bu məsələyə də, hesab edirəm ki, xeyli dərəcədə aydınlıq gətirilir ki, həmin nümunələr üzrə yaranan xərclər yoxlayıcı orqan hesabına ödəniləcək. Bu, həm vəsaitlərə qənaət nöqteyi-nəzərdən, həm də orada yoxlamalar zamanı bu sahələrdəki israfçılığın da aradan qaldırılmasına kömək edəcək. Layihədə nəzərdə tutulan dəyişikliklərin reallaşdırılması sahibkarların yoxlamalar zamanı qarşılaşdığı problemlərin aradan qaldırılmasına, sahibkarların fəaliyyətinə

edilən lüzumsuz müdaxilələrin və onların inzibati yükü-nün artmasının qarşısının alınmasına, ümumilikdə isə, sahibkarlığın inkişafına, biznes mühitinin yaxşılaşmasına kömək edəcək.

Hörmətli sədr, sadaladığım bu üstünlüklər belə bir fikir söyləməyə əsas verir ki, bu, çox yaxşı bir layihədir və deputat həmkarlarımı bu layihəyə dəstək verməyə çağırıram. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Çıxış etmək istəyənlər var. Vahid Əhmədov. Buyurun.

**V.Əhmədov**. Çox sağ olun, hörmətli Sahibə xanım. Hörmətli millət vəkilləri! Əli müəllim qanun layihəsi ilə əlaqədar geniş məlumat verdi. Bu, çox ciddi bir qanun layihəsidir. Çünki dövlət başçısı cənab İlham Əliyev mütəmadi olaraq Azərbaycan hökumətinin iclaslarında faktiki olaraq yoxlamalarla, onların daha şəffaf aparılması ilə əlaqədar göstərişlər vermişdir və bir sıra fərman və sərəncamlar imzalamışdır. Biz burada yoxlamaların normal aparılmamasını nəzərə alaraq, hətta bir neçə illər yoxlamaların müvəqqəti dayandırılması haqqında qanun layihəsi qəbul etmişik. Amma buna baxmayaraq, bəzi nazirliklərdə aparılan yoxlamalar kifayət qədər şəffaf olmadığı üçün, aşkarlığın müəyyən edilməsi üçün qanun layihəsində belə bir dəyişikliklərin edilməsinə böyük ehtiyac var. Düzdür, bu qanun layihəsini İqtisadiyyat Nazirliyi təklif edib. İqtisadiyyat Nazirliyinin tərkibində olan Dövlət Vergi Xidmətində keçən müddət ərzində bu yoxlamalarla əlaqədar çox ciddi işlər aparılmış və faktiki olaraq bu xidmətdə aparılan yoxlamaların nəticəsi barədə məlumatlar verilmişdir. Bundan digər nazirliklər də bir nümunə kimi istifadə edə bilər.

Əli müəllim də qeyd etdi, qanun layihəsində əsas

məsələ yoxlama obyekti anlayışının bura daxil edilməsidir. Bu, çox mühüm məsələdir, çünki yoxlamaya gələn yoxlayıcı orqan hər hansı isə bir müəssisəni yoxlayırsa, bütün müəssisənin fəaliyyətinin dayandırılmasına məcbur edilir. Amma onun gətirdiyi yoxlama kağızında yalınız müəyyən bir hissənin fəaliyyəti dayandırılmalıdır. Bu da çox böyük ziyana gətirib çıxarır. Ona görə də indi bu qanunda yoxlama obyekti anlayışında həmin yoxlayıcı yalnız yoxlayacağı sahənin işini dayandıra bilər. Digər sahəyə toxunmağa onun hüququ yoxdur. Bu, çox ciddi məsələdir.

İkincisi. Burada Əli müəllim qeyd etdi ki, risklərin idarə olunması çox vacibdir. Yoxlamaya gələn yoxlayıcı əvvəlcə riskləri müəyyən etməlidir ki, bu yoxlama ilə əlaqədar hansı risklər var. O risklərin əhatə dairəsini müəyyən etməlidir ki, yoxlama uzun müddət çəkməsin.

Burada etik davranış qaydaları qeyd olundu. Əlbəttə, yoxlayıcılar sahibkarı, müəssisəni yoxlamağa gələndə özlərinin etik davranış qaydalarında çox vaxt çox ciddi problemə yol verirlər. Yəni etik davranış qaydaları məhz yoxlayıcılar tərəfindən pozulur. Maraqların toqquşmaması üçün qanun layihəsində bu da nəzərə alınıb. Bu da çox əhəmiyyətli məsələlərdən biridir. Ən ciddi məsələ isə, əlbəttə, görülən nümunələrin götürülməsi ilə əlaqədardır. Bəzən elə olur ki, nümunələr hətta böyük bir sexi, böyük bir sahəni əhatə edir. Bu nümunələrin sonradan xarabolma ehtimalı var, sonra onların qiyməti yüksələ bilir və çox vaxt bu məsələlər sahibkarın üzərində qalır. Amma hazırda bu qanun layihəsində bunlar hamısı yoxlayıcı orqanın üzərinə qoyulur. Mən deyərdim ki, bu, bir çox sahibkara kömək edən əsas məsələlərdən biridir.

Burada məsələlər çoxdur. Məhkəməyə müraciət etmək

və sair. Biz komitədə geniş müzakirə aparmışıq və orada ən ciddi məsələlərdən biri olan yoxlamada şəffaflığın təmin edilməsini qeyd etmişik. Biz iclasda təklif etdik ki, şəffaflığın təmin edilməsi, yoxlamanın şəffaf aparılması üçün, ümumiyyətlə, ayrıca bir maddə əlavə edilsin. Ümumiyyətlə, qanun layihəsi müsbətdir, mən ona səs verəcəyəm və həmkarlarımı səs verməyə çağırıram. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Elnur Allahverdiyev. Buyurun.

**E.Allahverdiyev**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Mən komitədə müzakirə olunan zaman xidməti ezamiyyətdə idim. Həmkarım Vahid müəllim o məqamlara toxundu. Onun üçün də təşəkkür edirəm. Bu layihəyə səs verməyə çağırıram, səs verəcəyəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.25 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin son 5 məsələsi möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub, mahiyyətcə də bir-birinə bağlıdır. 18-ci məsələ "Təhsil haqqında" Qanunda, 19-cu məsələ "Elm haqqında" Qanunda, 20-ci məsələ "Peşə təhsili haqqında" Qanunda, 21-ci məsələ Əmək Məcəlləsində, "Məktəbəqədər

təhsil haqqında" və "Ümumi təhsil haqqında" qanunlarda, 22-ci məsələ isə "Sanitariya-epidemioloji salamatlıq haqqında" və digər 5 qanunda dəyişiklik edilməsi barədə qanun layihələridir. Həmişə olduğu kimi, qanun layihələrinin təqdimatları ayrılıqda edilsə də, müzakirəsi birgə aparılsın. Səsverməni isə, bildiyiniz kimi, ayrılıqda keçirəcəyik. 18-ci, 19-cu, 20-ci məsələlərə Elm və təhsil komitəsi baxmışdır. Bəxtiyar müəllim buradadır, Əliyev Bəxtiyardan söhbət gedir. Bəxtiyar müəllim, xahiş edirəm, buyurun, Siz məlumat verin.

**B.Əliyev,** *Milli Məclisin Elm və təhsil komitəsinin sədri.*

Hörmətli xanım sədr, hörmətli deputatlar! Hörmətli xanım sədrin qeyd etdiyi kimi, bu qanunlar bir-biri ilə əlaqədardır. Çünki bu gün bütün sahələrdə olduğu kimi, təhsil və elm sahəsində də ardıcıl islahatlar həyata keçirilir. Keyfiyyətli təhsil və keyfiyyətli elmi araşdırmaların aparılması üçün qanunvericilik bazasının möhkəmləndirilməsi də tələb olunur. Bu baxımdan da konseptual olaraq bu 3 qanun layihəsi haqqında fikirlərimizi bildirəcəyik. Bu məsələlər komitədə geniş müzakirə olunub. Komitə bu dəyişiklikləri, əlavələri tam dəstəkləyir. Komitənin rəyi müsbətdir. Bir neçə məqamı vurğulamaq istəyirəm. "Təhsil haqqında" Qanunda edilən dəyişikliyin əsas mahiyyəti ondan ibarətdir ki, təhsilin keyfiyyətini artırmaq üçün təhsilverənlərin peşə hazırlığının və eyni zamanda, peşə yararlılığının yoxlanılması proseduru tam şəffafalaşdırılıb. Bu prosedurun ikinci bir tərəfi ondan ibarətdir ki, peşə təhsili verənlərin peşəkarlıq səviyyəsi və peşə yararlılığı yoxlanılan zaman müəyyən edilən səviyyələrə uyğun olaraq, onların əlavə təhsili də təşkil edilir. Bu da, eyni zamanda, onların peşəkarlıq səviyyəsinin ar-

tırılmasına imkanlar yaradır.

Burada əsas məqsədlərdən biri də təhsilverənlərin sosial müdafiəsini gücləndirmək və onların əmək haqlarının artırılmasıdır. Bu baxımdan sertifikatlaşdırma tətbiq edilir. Qanunda təklif edilən dəyişiklik ondan ibarətdir ki, bütün dövlət təhsil müəssisələrində məktəbəqədər təhsil və ümumi təhsil müəssisələrində təhsilverənlər sertifikatlaşdırmadan keçirilir. Bu sertifaklaşdırmadan keçən müəllimlərin əmək haqlarına əlavələr edilir. Bu günə qədər məktəbəqədər təhsil müəssisələrində çalışan təhsilverənlər sertifikatlaşdırmadan və attestasiyadan keçirilib. İndi qanunda edilən dəyişikliklərlə məktəbəqədər təhsil müəssisələrində çalışan təhsilverənlər də sertifikatlaşdırmadan keçəcəklər. Həmin sertifikatlaşdırmadan keçmənin qaydaları müəyyənləşdirilir. Ümumi təhsil müəssisələrində müəyyən edilmiş qaydalar eyni ilə məktəbəqədər təhsil müəssisələrinə də gətirilir. Çünki biz artıq “Təhsil haqqında” Qanuna bu anlayışı gətirməklə avtomatik olaraq digər qanunlarda da bu dəyişikliyi etməliyik.

Digər məsələ. Təhsil sahəsində dövlətin vəzifələri müəyyənləşdirilir və bura yeni maddələrin daxil edilməsi təklif edilir. Bunların da əhəmiyyəti ondan ibarətdir ki, təhsilin idarə edilməsini, çevikliyi, eyni zamanda, keyfiyyətli təhsilverməni təmin etmək üçün bu tədbirlərin görülməsi zəruridir. Eyni zamanda, “Təhsil haqqında” Qanunda peşə təhsili ilə bağlı dəyişikliklər edilir. Vaxtı ilə biz “Təhsil haqqında” Qanuna bakalavriat və magistratura səviyyələrində təhsilalanların təhsil müəssisəsini, ixtisasını dəyişdirməsi, onların təhsilinin müvəqqəti dayandırılması, yəni akademik məzuniyyət götürməsi ilə maddələr qəbul etmişdik. İlk növbədə biz “Təhsil haqqında” Qanunda da bu müddəanı gətirib peşə təhsilində təh-

silalanlarının bu hüquqlarını təmin edirik və avtomatik olaraq "Peşə təhsili haqqında" Qanunda da bu dəyişiklik nəzərə alınmalıdır.

Digər dəyişikliklər "Elm haqqında" və "Təhsil haqqında" qanunlarla bilavasitə bağlıdır. Bu sahədə islahatlar aparılır və 2022-ci il iyulun 28-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Fərman imzalamışdır. Həmin fərmanın ikinci bəndinə uyğun olaraq, elm sahəsinə dövlət siyasətinin və tənzimləmənin həyata keçirilməsi, elmi müəssisə və təşkilatlarının elmi fəaliyyətinin əlaqələndirilməsi və istiqamətləndirilməsi ilə bağlı səlahiyyətlər Elm və Təhsil Nazirliyinə həvalə edilmişdir. Ona görə də biz "Elm haqqında" Qanunda və "Təhsil haqqında" Qanunda bununla bağlı dəyişikliklər edirik. Həmin fərmanla Azərbaycan Milli Elmlər Akademiyasının bəzi müəssisə və təşkilatları Elm və Təhsil Nazirliyinin və Mədəniyyət Nazirliyinin tərkibinə verilmişdir. Ona görə də bundan sonra artıq qanunda dəyişiklik edilir ki, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi elmi təşkilatlar anlayışı gətirilir. Bu da həmin nazirliklərdən mərkəzi icra hakimiyyəti orqanlarının tərkibində fəaliyyət göstərən elmi müəssisə və təşkilatlara da şamil ediləcəkdir.

Sonda bir məsələni də qeyd etmək istərdim ki, bu dəyişikliklər hamısı mütərəqqidir, çox müsbətdir. Xanım sədr, Sizin təklifinizlə sertifikatlaşdırma ilə bağlı Elm və Təhsil Nazirliyi ilə Milli Məclisin Elm və təhsil komitəsinin birgə dinləmələri keçirildi. Hörmətli deputatlarımız, Milli Məclisdə təmsil olunan bütün siyasi partiyaların nümayəndələri, rəhbərləri orada çıxış etdilər. Orada serti-

fikatlaşdırma ilə bağlı təkliflər, səsləndirilən fikirlər də nəzərə alınmışdır.

Bu gün qanunda etdiyimiz dəyişikliklərdən biri ondan ibarətdir ki, sertifikatlaşdırmada üç dəfədən artıq iştirak edənlər sertifikatlaşdırmadan azad olunur, 60 yaşa çatmış təhsilverənlərin sertifikatlaşdırmada iştirak etməsi tam könüllüdür. Əgər maaşlarının artırılmasını istəyirlərsə, onlar bu imkanlardan istifadə edə bilərlər, əgər istəmirlərsə, bundan yararlanmaq onların öz öhdəsinə buraxılır.

İkinci bir məsələ bundan ibarət idi ki, ilk dəfə işə qəbul olunan təhsilverənlər qanun ilə 5 ildən sonra sertifikasiyadan keçməli idilər. Burada isə onların hüquqları bir qədər məhdudlaşdırılır. Əgər onlar maaşlarının artırılması imkanlarından bir qədər məhrum edilirdilərsə, indi 5 il müddət 3 il müddətə endirilir. İlk dəfə işə qəbul olunan müəllimlər də 3 ildən sonra sertifikatlaşdırmada iştirak edə bilərlər. Ötən ilki təcrübə göstərir ki, onların hamısı ən yüksək göstəricilər nümayiş etdirdilər və beləliklə, onlar da sertifikatlaşdırmada iştirak etməklə əmək haqlarının artırılmasına nail ola bildilər. Bütün bunlar çox müsbət dəyişikliklərdir. Komitənin rəyi müsbətdir. Deputat həmkarlarımdan bu dəyişiklikləri dəstəkləməyi xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Bəxtiyar müəllim. Bütün məsələlərlə bağlı çox ətraflı məlumat verdiniz. Hörmətli həmkarlar, biz 18-ci, 19-cu və 20-ci məsələlərlə bağlı məlumatı dinlədik. İndi isə 20-ci məsələ. Musa müəllim, sizin komitənizdə baxılıb. Xahiş edirəm, məlumat verin.

**M.Quliyev**. Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli millət vəkilləri, komitə sədri həmkarım Bəxtiyar müəllim ətraflı məlumat verdi, bizim deyəcəyimiz sözləri də dedi. Bəxtiyar müəllimə təşəkkür edirəm ki, konseptual

baxımdan qanun layihələrinin hamısının ətraflı şərhini verdi. Əmək Məcəlləsində, “Məktəbəqədər təhsil haqqında” və “Ümumi təhsil haqqında” qanunlarda təklif olunan dəyişikliklərə bizim komitəmizdə də baxılıbdır. Fikirləri təkrar edib vaxt almaq istəmirəm. Bizim də fikrimiz müsbətdir və bir daha söyləmək istəyirəm ki, bu dəyişikliklərin əsas məqsədi cənab Prezidentin rəhbərliyi altında təhsil sahəsində, xüsusi ilə təhsilin ilkin pillələri sahəsində islahatların dərinləşdirilməsi təhsilverənlərin sertifikatlaşdırmasının hüquqi əsaslarının genişləndirilməsinə, onların sosial müdafiəsinin təmin olunmasının daha da yaxşılaşdırılmasına xidmət edir. Xahiş edirik, komitənin müsbət rəyini nəzərə alaraq, birinci oxunuşda konseptual baxımdan qeyd olunan qanunları dəstəkləyəsiniz. Təşəkkür edirik.

**Sədrlik edən.** Çox sağ olun, Musa müəllim. Bəxtiyar müəllim, 21-ci məsələyə sizin komitənizdə baxılıb. Xahiş edirəm, bununla bağlı rəyinizi bildirin.

**B.Əliyev**. Musa müəllim ətraflı məlumat verdi. Əvvəlki qanunları təqdim edəndə bu barədə də qısaca məlumat verdim. Komitənin rəyi müsbətdir. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. 22-ci məsələyə dair məlumat vermək üçün mən Səhiyyə komitəsinin sədr müavini hörmətli Rəşad Mahmudova söz verirəm. Rəşad müəllim, buyurun.

**R.Mahmudov**, *Milli Məclisin Səhiyyə komitəsi sədrinin müavini.*

Çox hörmətli xanım sədr, dəyərli millət vəkilləri. Bəxtiyar müəllim və Musa müəllim daha əvvəlki qanunlarda da bildirdikləri kimi, sırf bu qanun layihəsində də dəyişikliyin səbəbi uyğunlaşdırma xarakteri daşımasındadır.

Qeyd olunanlara əsasən “Sanitariya-epidemioloji salamatlıq haqqında”, “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında”, “Yanğın təhlükəsizliyi haqqında”, “Milli arxiv fondu haqqında”, “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” və “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi zərurəti yaranmışdır. Bununla əlaqədar qanun layihəsindəki uyğunlaşdırma xarakterli dəyişiklikliyi millət vəkillərini də dəstəkləməsini xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Rəşad müəllim. Hörmətli həmkarlar, bu qanun layihəsinə Milli Məclisin daha 4 komitəsində baxılmışdı. İndi bir-bir komitə sədrlərinə və ya komitəni təmsil edən bizim hörmətli həmkarlarımıza söz verəcəyəm. Birinci, Musa müəllim, sizin komitənizdə baxılıb. Xahiş edirəm, məsələ ilə bağlı komitənin rəyini bildirin.

**M.Quliyev**. Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli millət vəkilləri, qeyd olunan məsələyə bizim komitəmizdə də baxılıbdır. Komitəmizin rəyi müsbətdir. Xahiş edirəm, nəzərə alasınız və dəstəkləyəsiniz. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Musa müəllim. Nizami müəllim, xahiş edirəm, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin rəyini bildirin, buyurun.

**N.Səfərov**, *Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü.*

Komitənin rəyi müsbətdir, səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Mədəniyyət komitəsinin rəyini bildirmək üçün mən hörmətli Əziz Ələkbərova söz verirəm. Buyurun, Əziz müəllim.

**Ə.Ələkbərov,** *Milli Məclisin Mədəniyyət komitəsinin üzvü.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, qanun layihəsinə Mədəniyyət komitəsində də baxılıb və yekdilliklə dəstəklənib. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əziz müəllim. Tamam xanım, xahiş edirəm, Ailə, qadın və uşaq məsələləri komitəsinin rəyini bildirin. Buyurun.

**T.Cəfərova.** Hörmətli həmkarlar, bu məsələ Ailə, qadın və uşaq məsələləri komitəsində də müzakirə olunub. Rəy müsbətdir, səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Tamam xanım. Müzakirələrə keçirik. 8 nəfər yazılıb. Hörmətli həmkarlar, xahiş edirəm, burada təhsil, ümumi təhsil haqqında hansı isə diskussiya açmayaq. Birinci oxunuşdur, hamıdan xahiş edirəm, sırf qanunda olan məsələlərlə bağlı. Fəzail Ağamalı. Buyurun, Fəzail müəllim.

**F.Ağamalı**. Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörməti həmkarlar, təqdim edilmiş qanun layihələri olduqca aktualdır və konseptual baxımdan hər birini böyük məmnuniyyətlə qəbul etməliyik. Ümidvaram və əminəm ki, qəbul edəcəyimiz qanun, bütövlükdə, həm təhsil sistemində, həm də elm sahəsində fəaliyyətin gücləndirilməsi üçün əhəmiyyətli və ciddi qanunvericilik bazasını formalaşdıracaqdır.

Hörmətli xanım sədr, təbii ki, Sizin sözünüzə çox böyük hörmət və sayğı göstərirəm, çalışacağam ki, dediyinizdən çıxmayım. Lakin düşünürəm ki, qanun layihəsinin özündə də qoyulan məsələlərlə bərabər, “Təhsil haqqında” Qanunda, eyni zamanda, “Elm haqqında” Qanunda ciddi dəyişikliklərin edilməsinə ehtiyac var. Yəni bu dəyişikliklər kifayət deyil, əlavə dəyişikliklərin aparılmasına

da ehtiyac var. Boşluqların aradan qaldırılmasına ehtiyac duyulur ki, bizim bu gün, doğrudan da, hər birimizi düşündürən və kifayət qədər problemləri olan təhsil və elm sahəsində vəziyyət daha da yaxşılaşsın, mövcud problemlər aradan qaldırılsın. Hansı şəkildə, hansı formada bu məsələ tənzimlənir ki, bu gün ölkənin orta məktəblərinin altıda birində məktəb direktoru yoxdur. Yəni bu rəsmi statistikanı mətbuatdan oxumuşuq. Mənim deputat seçildiyim Salyanda 20 məktəbdə məktəb direktoru yoxdur və orada 5 rayonu özündə birləşdirən Regional Təhsil şöbəsinin rəhbəri təhsillə əlaqəsi olmayan, anlayışı olmayan, iqtisadiyyat sahəsində çalışan və təcrübəsi olmayan bir insandır və sair. Bu cür hallar çoxdur. Bunların aradan qaldırılması üçün biz qanunvericilik bazasında daha optimal yollar tapmalıyıq ki, belə hallara yol verilməsin.

Hörmətli Sahibə xanım, Siz uzun illər təhsil sistemində, ali məktəbdə çalışmısınız. Bu gün repetitorlar bizə ciddi problemlər yaradır. Bu məsələnin müzakirəsinə, qanunda əks olunmasına ehtiyac var.

Digər tərəfdən, ikipilləli ali təhsilə qəbul var. Bu ikipilləli ali təhsil dünyanın heç bir yerində yoxdur. Bu məsələyə qanunvericilik bazasında aydınlıq gətirib məsələni konkret həll etmək lazımdır ki, bu, aradan qalxsın.

Bu gün Azərbaycanda təxminən 10 min gəncimiz orta məktəbi qurtarır. Onların yarısı ali məktəblərə daxil olur, yarısı, demək olar ki, təhsildən kənar qalır. Onları texniki-peşə məktəbinə cəlb etmək üçün, texniki-peşə məktəbinin maddi-texniki bazasının yaradılmasını gücləndirmək üçün qanunvericilik bazasının möhkəmlənməsinə ciddi ehtiyac duyulur.

Hörmətli xanım sədr, bunların hamısını həyata keçir-

mək üçün, mənə belə gəlir ki, – payızda, indi çatdırmaq çətin olar, Milli Məclisin payız sessiyasında tapşırıq verəsiniz, – təhsillə bağlı geniş xarakter daşıyan dinləmələr keçirilsin. Dinləmələrdən çıxarılan konkret nəticələr qanunvericilik bazasının yaradılmasında istifadə olunsun. Bunları demək istəyirdim.

Sonda hamını düşündürən bir məsələni demək istəyirəm. Bu sualın cavabını mən tapa bilmirəm. "Elm haqqında" Qanunda 11-ci maddə var: "dövlət ali elm təşkilatı". Dövlətin ali elm qurumu olar, icra strukturu olar, təşkilatı ola bilməz, axı. Bu "təşkilat" kifayət qədər doğru anlayış deyil. Eyni zamanda, bu, 11.3-cü maddədə özünü çox qabarıq şəkildə göstərir. Ona görə də qanunvericilik subyektindən xahiş edirəm, gələcəkdə qanunda əlavə və dəyişikliklər edəndə bu cür anlayışlara da ciddi fikir versinlər. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Fəzail müəllim. Bəxtiyar müəllim, mən düşünürəm ki, bu haqda fikirləşmək lazımdır. Əslində, Fəzail müəllim, bizim dinləmələrlə bağlı yaxşı təcrübəmiz var. Çünki bu 3 il ərzində biz müxtəlif komitələrin qaldırdığı məsələlərlə bağlı kifayət qədər dinləmə keçirmişik. Bəxtiyar müəllim, bu məsələlər hamısı qaldırılır. Mən düşünürəm ki, gələn sessiyada bəlkə bunları qruplaşdırıb baxmaq olar. Təhsil naziri Emin müəllim Əmrullayev müzakirələrə çox açıq insandır. Dəvət etmək olar, yenə də baxmaq olar. Xahiş edirəm, Siz bu məsələ ilə məşğul olun.

Məlahət xanım İbrahimqızı. Məlahət xanım, sualınız var, ya təklifiniz var? Buyurun.

**M.İbrahimqızı.** Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli Sahibə xanım, əziz həmkarlar. Sözsüz ki, ölkəmiz inkişaf etdikcə bütün sahələrdə ciddi inkişaf,

nailiyyətlər əldə edirik, eyni zamanda, parlamentdə qanunlarımızda da hər il təkmilləşdirmələr gedir. Bu, çox təqdirəlayiqdir. Mənim sualım nədən ibarətdir? Bəxtiyar müəllim, bütün həmkarlarım bilir, bu gün ictimaiyyətdə ən aktual məsələlərdən biri də son vaxtlarda məktəblərdə idman zallarında baş verən hadisələrdir. Biz bu yaxınlarda ən ağırının şahidi olduq. Eyni zamanda, məktəb yeməkxanalarında baş verən zəhərlənmələr. Sözsüz ki, bu, təhsildə yardımçı xidmətə aid sayılır. Amma bunun qanunvericilikdə hansısa formada tənzimlənməsi mümkündürmü? Çünki hadisələr olanda jurnalistlər millət vəkillərini axtarır. Biz də məktəblərə zəng edirik ki, bu hadisə ilə bağlı məlumat alaq. Hamı bir-birinin üstünə atır. Hamısı da deyir, qanunda bu var, yoxdur... Ona görə mənim Sizə sualım odur ki, gələcəkdə qanunun təkmilləşdirilməsi istiqamətində iş görərkən bu yardımçı xidmət də nəzərdə tutulurmu?

Burada hörmətli Fəzail müəllim repetitorluqla bağlı da məsələ qaldırdı. Bu da məktəblərdə ciddi problemdir, ciddi sualdır. Ona görə xahiş edərdim ki, bununla bağlı bir aydınlıq da gətirəsiniz. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Səbinə Xasayeva. Buyurun.

**S.Xasayeva.** Hörmətli xanım sədr, dəyərli həmkarlar. Bu gün ölkəmizdə hər sahədə olduğu kimi, gənclərimizə hərtərəfli bilik və bacarıqların verilməsi, təhsil imkanlarının genişləndirilməsi məqsədi ilə təhsil sisteminin institusional əsasları, infrastrukturu və insan resurslarının daha da inkişaf etdirilməsi istiqamətində islahatlar müntəzəm olaraq davam etdirilir. Təhsilin cəmiyyətin və dövlətin maraqlarını əks etdirən strateji əhəmiyyətli prioritet fəaliyyət sahəsi olması dövrün tələblərinə uyğun bu islahatları zəruri edir. Cənab Prezidentin 2022-ci il 28 iyul

tarixli müvafiq Fərmanına əsasən Azərbaycan Respublikasının Təhsil Nazirliyi Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi adlandırılmasından sonra elm sahəsində dövlət siyasətinin həyata keçirilməsi ilə bağlı səlahiyyətlərin də bu nazirliyə həvalə edilməsi onun fəaliyyət istiqamətlərini genişləndirmişdir. Bu da öz növbəsində "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi zərurəti yaratmışdır.

Hər birimizə məlum olduğu kimi, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən dövlət ümumtəhsil müəssisələrində işləyən təhsilverənlər 5 ildə bir dəfə müvafiq sertifikatlaşdırmadan keçirlər. Müsbət hal ondan ibarətdir ki, dövlət ümumtəhsil müəssisələrində səriştə və nəticəəsaslı differensiallaşdırılmış və əmək bazarında rəqabət qabiliyyətli əmək sisteminin yaradılması məqsədi ilə təhsilverənlərin vəzifə maaşlarına sertifikatlaşdırmanın nəticəsinə görə aylıq əlavələr edilir. Lakin qanunla müəyyən olunmuş formada ilk dəfə işə qəbul olunan şəxslərin 5 il müddətində bu sertifikatlaşdırmada iştirak edə bilməməsi onların bu əlavələrdən yararlana bilməməsinə gətirib çıxarır ki, bu da bir sıra hallarda onların haqlı narazılıqları ilə nəticələnə bilir. Ona görə, hesab edirəm ki, müzakirəmizə təqdim olunan qanun layihəsində ilk dəfə işə qəbul olunan təhsilverənlərin 5 il müddətinə deyil, 3 il müddətinə sertifikatlaşdırmadan keçməsi tələbinin qoyulması yeni işə qəbul olunan gənc müəllimlər üçün stimul olacaqdır.

Əlavə olaraq, qanun layihəsində yaşı 60 və daha çox olan şəxslərin sertifikatlaşdırmaya könüllü əsaslarla cəlb edilməsi təklif edilir ki, hesab edirəm, bu da ədalətlilik prinsipini əks etdirən müsbət dəyişiklikdir.

Bu gün ölkəmizdə təhsil sahəsində həyata keçirilən is-

lahatlar milli-mənəvi və ümumbəşəri dəyərlərin prioritetliyi əsasında dünya təhsil sisteminə inteqrasiyanı nəzərdə tutur. Buna uyğun olaraq, hesab edirəm ki, gələcəkdə müəllim kimi işləmək arzusunda olan gənclərin, eyni zamanda, yaşı 60-dan və hətta 65-dən yuxarı olan və peşə fəaliyyətlərini davam etdirmək arzusunda olan çox savadlı və təcrübəli müəllimlərimizin işlə təminatı məsələsini daha rahat həyata keçirmək məqsədi ilə ali məktəblərə qəbul zamanı müəllimlik ixtisasına ayrılmış plan yerlərinin müəyyən hissəsini müasir dövrün tələblərinə uyğun digər ixtisaslarla əvəzləmək olar. Belə olan təqdirdə müqəddəs peşələrdən olan və cəmiyyətin gələcəyini müəyyən edən müəllimlik ixtisasını, sadəcə, bu peşəni arzulayan şəxslər seçmiş olacaq və eyni zamanda, həm gənclərin dinamikliyi və enerjisindən, həm də təqaüd yaşına çatmış, lakin şəxsi arzu və istəkləri ilə öz peşəsini davam etdirmək istəyən dəyərli müəllimlərimizin savad və təcrübəsindən kifayət qədər yararlana bilərik.

Eyni zamanda, qəbul planına müasir dövrə uyğun daha yeni və qeyri-ənənəvi ixtisasların daxil edilməsi dünyada gedən proseslərə gənclərimizin daha çevik inteqrasiyasını təmin etmiş olacaq ki, bu da hər vəziyyətdə cəmiyyətimiz və ölkəmizin gələcəyi üçün, sadəcə, fayda vermiş olacaq.

Bütövlükdə, mən də qanun layihəsini müsbət qiymətləndirirəm və onun birinci oxunuşda qəbul edilməsinə səs verəcəyəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, təklif var ki, səsə qoyaq. Mən görürəm, təkid edən var. İltizam müəllim, təhsillə bağlı danışacaqsınız?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun.

**İ.Yusifov.** Təşəkkür edirəm. Hörmətli Sahibə xanım,

hörmətli deputat həmkarlarım, media təmsilçiləri. Müzakirəyə təqdim olunan "Təhsil haqqında", "Elm haqqında", "Peşə təhsili haqqında" qanunlarda dəyişiklik edilməsi barəsində qanun layihələrində dövlətin vəzifələri maddələrinə də müvafiq əlavələr olunur. Mən bütün dəyişiklikləri, təklifləri məqbul hesab edirəm. Əvvəlcədən deyim ki, qanun layihələrinin lehinə səs verəcəyəm. Lakin ali, orta, və peşə təhsili müəssisələrində tələbələrin ixtisas üzrə təcrübə keçməsi ilə bağlı məsələlərin üzərində dayanmaq istəyirəm. Belə ki, "Təhsil haqqında" Qanunda da dövlətin vəzifəsi kimi, yeni 29.0.37.3-cü maddə, yəni "ali, orta, və peşə təhsili müəssisələrində tələbələrin ixtisas üzrə təcrübə keçməsi qaydalarını təsdiq etmək" müddəası da əlavə olunur. Bu, çox vacib və aktual bir məsələdir. Lakin bu gün mövcud qanunvericilikdə yenə də sözügedən məsələ müəyyən məsələlər doğurur, reallıqla uzlaşmır, nəticədə tələbələrimiz bu gün istehsalat təcrübəsi keçməkdə müəyyən çətinliklərlə üzləşirlər. Belə ki, Nazirlər Kabinetinin təsdiq etdiyi "Ali (orta ixtisas) təhsili müəssisələri tələbələrin ixtisas üzrə təcrübəsinin keçirilməsi haqqında Əsasnamə"də istehsalat, o cümlədən də diplomqabağı təcrübə, bir qayda olaraq, idarə və istehsalat müəssisələrində təhsil müəssisələri ilə istehsalat müəssisələri arasında bağlanmış ikitərəfli müqavilə əsasında həyata keçirilir. Təcrübə müddətində tələbələrə mülkiyyət və təşkilati, hüquqi formasından asılı olmayaraq qanunvericilikdə nəzərdə tutulmuş qaydada əmək haqqı da ödənilməlidir. O cümlədən "Peşə təhsili haqqında" Qanunda da göstərilir ki, işəgötürənlər istehsalat təcrübəsinə cəlb olunan təhsilalanlara minimum aylıq əmək haqqından az olmamaq şərti ilə əmək haqqı ödəyirlər.

Bundan əlavə, qanuna görə, istehsalat təcrübəsi keçən

tələbə və şagirdlər sığorta olunanlar kateqoriyasına aiddirlər. Yəni onlara görə, həm də sığorta haqqı ödənilməlidir. Belə çıxır ki, işəgötürənlər tələbələri həm öyrətməli, həm də onlara əlavə olaraq əmək haqqı ödəməlidirlər. Bütün bunlar indiki şəraitdə işəgötürənlərin üzərinə əlavə, əsasən də, maliyyə yükü qoyur. Biz bu gün liberal, azad iqtisadiyyatı dəstəkləyirik. İstehsalat müəssisələri, əsasən, özəl, xarici investisiyalar və yaxud da ki, səhmdar cəmiyyət formasında müstəqil fəaliyyət göstərirlər. Yəni onların bu sahədə hansısa bir öhdəlikləri yoxdur. Lakin işəgötürənlər, hətta istehsalat təcrübəsinə şərait yaratdığı təqdirdə belə, onların əlavə vəsait xərcləməsi qanunla tələb olunur. Ona görə də işəgötürənlər haqlı olaraq bu məsələdə maraqlı olmurlar. Nəticədə, tələbələrimiz istehsalat təcrübəsi keçə bilmirlər. Tədris və istehsalat təcrübəsi təhsil prosesinin vahid bir komponenti olduğuna görə bəzən lazımi texniki bazaya malik olmayan təhsil müəssisələri məcbur qalıb öz ərazilərində təcrübə keçirlər. Nəticədə, təhsil müəssisələrini yoxlama zamanı Hesablama Palatası haqlı olaraq onlara iradlar tutur, əsas səbəb kimi lazımi texniki bazaya malik olmamaları göstərilir və sonda cəzalandırılırlar.

Nəzəri bilikləri istehsalat təcrübəsi ilə heç bir təcrübəsi olmayan ali, orta ixtisas və peşə təhsili müəssisələrini bitirən tələbələrin sonrakı taleyi isə artıq əvvəlcədən məlumdur. Mən hesab edirəm ki, müasir texnologiyalar dövründə bizim tələbələrin daha çox təcrübəsi olmalıdır. Bu, əsasən də, texniki sahələrə aiddir. Mən hesab edirəm, istehsalat, o cümlədən diplomqabağı təcrübə keçən tələbələrin əməkhaqqı və sığorta məsələsi hansısa bir tərəfin öhdəliyi kimi deyil, təhsil müəssisəsi ilə işəgötürən arasında bağlanmış müqavilə ilə, yəni tərəflərin qarşılıqlı

razılığı ilə həll olunmalıdır. Ola bilsin, daha yaxşı variantlar da mümkündür. Ona görə mən Elm və təhsil komitəsindən, hörmətli Bəxtiyar müəllimdən, o cümlədən aidiyyəti qurumlardan xahiş edirəm ki, bu məsələnin tezliklə həllinə nail olsunlar. Təşəkkür edirəm. Qanun layihəsinin lehinə səs verəcəyəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Fəzail müəllim söz istəyir. Hörmətli Fəzail İbrahimli. Buyurun, Fəzail müəllim.

**F.İbrahimli.** Çox sağ olun, Sahibə xanım. Hörmətli həmkarlar, mən sizi yormadan bir təkliflə çıxış etmək istəyirəm. Dəyişikliklər təhsilin səviyyəsinə və keyfiyyətinə kifayət qədər kömək edə biləcək dəyişikliklərdir. Çox qısa və ardıcıllıqla aydın şəkildə təqdim olundu. Hər birimiz başa düşdük ki, söhbət nədən gedir. Bu dəyişikliklərin fonunda belə bir məqamı, Bəxtiyar müəllim, gündəmə gətirmək olarmı? Siz də daxil olmaqla bu parlamentdə təhsilini qırmızı diplomla bitirən məzunlar olub. O, çox böyük stimul idi. Birinci, o vaxt təyinatla 3 il işləməsəydin, sənin diplomun qəbul olunmurdu. Qırmızı diplomla qurtaranlara icazə verirdilər ki, ali məktəbi qurtaran kimi birbaşa aspiranturaya imtahan versinlər.

İkinci. Bal yığımında sonda qırmızı diplomla bitirənlərə həmişə birinci yer verilirdi. Bu gün bu qırmızı diplomun mənası itib. Tamam lazım deyil. Dahilərdən biri deyir ki, "dünyada ən böyük cəza zəhməti ödənilməyən əməkdir". Biz ali məktəbləri qırmızı diplomla bitirənlərin zəhmətinə laqeyidik. Mütləq onlara hansısa bir üstünlük verilməlidir. Məsələn, nə üstünlük verilə bilər? Mürəkkəbi qurumayıb və universiteti qurtarıb, dərin təhsil alıb, hər şeyi yerindədir. O, mürəkkəbi qurumamış diplomu əlində təzədən harasa işə düzəlmək üçün imtahan verməlidir. Bax, bu məsələ nəzərə alınmalıdır. Qanunlar buradan başlayır, bu

bizim əlimizdədir. Ona görə təklif edirəm, bu dəyişikliklər siyahısında qırmızı diplomla bitirən məzunların səlahiyyətini, hüququnu genişləndirən bir imkan yaradaq. Bu, bir tarixdir. Bu gün əlimizdən çıxmış tarixi biz yenidən bərpa edirik. Sonda  sual olunur: Bu tələbə nə üçün cəhd edib qırmızı diplom almalıdır. Mənası nədir? Tamam, heç bir. Qızlar üçün cehizə, oğlanlar üçün də arxivə çevrilir. Ona görə də, Bəxtiyar müəllim, bu məsələni mütləq ciddi şəkildə nəzərə alıb, zəhmət çəkənlərin zəhmətinə münasibətimizi yenidən qurmalıyıq. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, təklif var ki, məsələni səsə qoyaq. Mən qanun layihələrini bir-bir səsə qoyacağam. Xahiş edirəm, 18-ci məsələyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.58 dəq.) |
|---|---|
| Lehinə | 86 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 86 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Mən 19-cu məsələdə olan qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.58 dəq.) |
|---|---|
| Lehinə | 83 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |

| | |
|---|---|
| İştirak edir | 84 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

20-ci məsələdə olan qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.59 dəq.) |
|---|---|
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

21-ci məsələni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.59 dəq.) |
|---|---|
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Nəhayət, 22-ci məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.59 dəq.) |
| --- | --- |
| Lehinə | 83 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 84 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bununla da bizim iclasımız başa çatdı. Mən hamıya təşəkkür edirəm.

Hörmətli həmkarlar, mayın 16-da Milli Məclisin xüsusi iclası keçiriləcək və iclas xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əziz xatirəsinə həsr ediləcək. Sağ olun.

## ALTINCI ÇAĞIRIŞ AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN XII SESSİYASININ XÜSUSİ İCLASININ

## PROTOKOLU № 130

*Milli Məclisin iclas salonu.*
*16 may 2023-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 109 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 107 |
| Yetərsay | 83 |

**İclasın gündəliyinə aşağıdakı məsələ daxil idi:**

Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin 100 illik yubileyi.

**Aşağıdakı məsələ müzakirə edilmişdir:**

Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin 100 illik yubileyi.

**Çıxış etmişlər:** Sahibə Qafarova, Duarte Paçeko, Hənəfi Qəbali, Şalva Papuaşvili, Əhməd Əs-Safadi, Yerlan

Koşanov, Nurlanbek Şakiyev, Raşid Talbi əl-Alami, Vladimir Orliç, Nosivive Mapisa-Nqakula, Mahmadtoir Zokirzoda, Tənzilə Narbayeva, Səlim Şennofi, Valeri Belski, Valeri Mitskeviç, Davorko Vidoviç, Şandor Lejak, Madalitso Kazombo, Mixail Popşo, Zahid Akram Durrani, Vasile-Daniel Suçiu, Andrey Yatski, Aleksey Qordeyev, Hamad Əl Rahumi, Olena Kondratyuk, Marko Skurria, Tuan Aminolhuda bin Hassan, Bayram Özçelik, Beqmurat Muhamedov, Pedro Karreno, Adel bin Abdul Rahman Əl Asumi, Mehmet Süreyya Er, Asəf Hacıyev, Medetxan Şerimkulov

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

## Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin 100 illik yubileyi münasibəti ilə

# MİLLİ MƏCLİSİN XÜSUSİ İCLASI

*16 may 2023-cü il*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri Sahibə Qafarova sədrlik edir*

**Sədrlik edən.** Xoş gördük, hörmətli deputatlar, hörmətli qonaqlar, hörmətli media nümayəndələri!

Hörmətli həmkarlar, xahiş edirəm, qeydiyyatdan keçək.

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 107 |
| Yetərsay | 83 |

Yetərsay var və biz iclasa başlayırıq.

**Hörmətli həmkarlar!**

**Hörmətli xanımlar və cənablar!**

Böyük məmnunluqla bildirirəm ki, Milli Məclisin xüsusi iclası xalqımızın Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuşdur. (*Alqışlar.*)

**Hörmətli həmkarlar!**

Bu gün burada bizimlə bərabər olan parlament sədrlərini və sədr müavinlərini, millət vəkillərini, beynəlxalq təşkilatların təmsilçilərini, diplomatları, bütün qonaqlarımızı hamımızın adından səmimi qəlbdən salamlayıram.

Qeyd edim ki, xarici ölkələrin 12 parlament sədri, 15 sədr müavini, 57 parlament üzvü, 4 beynəlxalq parlament təşkilatının, eləcə də xarici dövlətlərin diplomatik korpusunun təmsilçiləri iclasımızda iştirak edirlər. Ümumiyyətlə, xarici ölkələrin 228 nəfər nümayəndəsi Bakıya təşrif buyurmuşdur. Qonaqlarımızın təmsil etdikləri ölkələrin coğrafiyası dörd qitəni əhatə edir. Bu gün biz hörmətli qonaqlarımızın ürək sözlərini dinləyəcəyik.

İndi isə mən böyük şəxsiyyət və müdrik rəhbər haqqında düşüncələrimi sizinlə bölüşmək istəyirəm. Sizin izninizlə mən kürsüyə keçmək istərdim. (*Alqışlar.*)

**Hörmətli xanımlar və cənablar!**

Həqiqi milli liderlər həm sağlığında, həm də dünyasını dəyişəndən sonra onların əməllərinin və ideyalarının sönməz nuru mənsub olduqları xalqın həyatına və tale yoluna işıq salır. Azərbaycanın öz tarixi ərzində yetişdirdiyi ən böyük siyasi və dövlət xadimlərindən biri olan Heydər Əliyevin keçdiyi ömür yolu doğma torpağa və xalqa məhəbbət və sədaqət meyarına çevrilmiş, fəaliyyəti dünya siyasət sənəti xəzinəsinə daxil olmuşdur.

Onun sayəsində xalqımız əvvəlcə siyasi və dövlət müstəqilliyinin möhkəm təməlini yaratmış, daha sonra isə müstəqil dövlətini qurmaq, qorumaq və yaşatmaq üçün tarixin verdiyi imkanı reallaşdıra bilmişdir.

1969–1982-ci illərdə Azərbaycana ilk rəhbərliyi dövründə Heydər Əliyevin dahiyanə idarəçilik qabiliyyəti, strateji təfəkkürü və irəlini görmək məharəti sayəsində ölkəmiz

heyrətamiz inkişaf yolu keçdi. Sovet İttifaqının ən geridə qalmış respublikalarından biri olan Azərbaycan qısa müddət ərzində tənəzzüldən çıxaraq yüksəliş yoluna qədəm qoydu.

Heydər Əliyev böyük uzaqgörənliklə bütün dövlət hakimiyyəti orqanlarının işini xalqın iqtisadi, sosial-mədəni tərəqqisi və milli oyanışı siyasətinin reallaşmasına yönəltdi. Ölkə həyatının bütün sahələrində quruculuq işləri geniş vüsət aldı. Minlərcə sənaye müəssisəsi inşa edildi, kənd təsərrüfatı istehsalı dəfələrlə artırıldı. Azərbaycan aqrar ölkədən aqrar-sənaye ölkəsinə çevrildi.

Azərbaycanın gələcəkdə müstəqil dövlət kimi yaşaya bilməsinə imkan verən zəngin iqtisadi potensial yaradıldı. Bunu belə bir faktla da sübut etmək olar ki, keçmiş SSRİ məkanında ittifaq büdcəsindən dotasiya almayan iki respublikadan biri Azərbaycan idi.

Bu illər tariximizə mədəni intibah dövrü kimi daxil oldu. Azərbaycan incəsənətinin bütün sahələrində yüksəliş dövrü yaşandı. Ədəbiyyat, musiqi, teatr, balet və digər yaradıcılıq sahələri sürətlə inkişaf etdi. Xalqın milli mənlik şüurunun güclənməsinə təkan verən, tarixi ənənələrinin qorunmasına yönələn tədbirlər görüldü. Mövcud imkanlar daxilində xalqın mənəvi sərvətlərinin, xüsusən dilinin qorunub saxlanması və inkişaf etdirilməsi üçün hüquqi əsaslar genişləndirildi.

Təhsilin inkişafına, respublikadan kənarda kadr hazırlığına diqqət artırıldı. Hərbi sahədə milli kadr potensialının yaradılması istiqamətində zəruri tədbirlər görüldü.

**Hörmətli xanımlar və cənablar!**

1982–1987-ci illərdə Heydər Əliyev Sov.İKP Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsində çalışmışdır. Bu vəzifədə o, SSRİ-nin 12 nazirliyinin və 20-yə yaxın komitəsinin fəaliyyətinə nəzarət edirdi. Heydər Əliyevin rəh-

bərlik etdiyi Operativ Məsələlər Komissiyası Sovet İttifaqının təsərrüfat idarəçiliyinin bir çox aktual məsələləri ilə məşğul olurdu. Onun rəhbərliyi ilə sosial sahədə, təhsildə və səhiyyədə islahatlar aparılırdı.

Bundan əlavə, Ulu Öndər xarici iqtisadi əlaqələr sistemini idarə edən əsas rəhbərlərdən biri idi, SSRİ-nin Asiya və Yaxın Şərqdə beynəlxalq əlaqələri ilə bağlı qərarların qəbul edilməsində mühüm rol oynayırdı. O, bir sıra digər sahələrə aid layihələrdə də yaxından iştirak edirdi.

Xüsusi vurğulanmalıdır ki, Moskvada çalışanda da Heydər Əliyev Azərbaycanın hərtərəfli inkişafı üçün qüvvə və bacarığını əsirgəmirdi. O vaxt Azərbaycan Heydər Əliyevin xüsusi diqqət və qayğı göstərdiyi respublika şöhrətini qazanmışdı.

Ulu Öndərin Moskvada hakimiyyətin ən yüksək zirvəsində olması Azərbaycana qarşı düşmənçilik niyyəti bəsləyən qüvvələrin qarşısında ən böyük sipər idi. 1987-ci ilin oktyabr ayında Heydər Əliyev Sovetlər Birliyinin rəhbərliyində yüksək vəzifələrdən uzaqlaşdırıldıqdan sonra bu qüvvələr fəal hərəkətə keçmək üçün fürsət qazandılar. Məhz həmin istefa Azərbaycana qarşı məkrli planların reallaşdırılması yolunda ilk addım oldu.

**Hörmətli xanımlar və cənablar!**

Bu məsələdən danışarkən biz hər dəfə bir məqama diqqəti cəlb edirik. Heydər Əliyevin Azərbaycana ilk dəfə rəhbərlik etdiyi, Sovet İttifaqının rəhbərlərindən biri olduğu dövrlərin təhlili göstərir ki, etibarlı və səriştəli siyasi rəhbərlik amili cəmiyyətin və dövlətin inkişafında həlledici rol oynayır.

Bu həqiqəti xalqımız 1988–1993-cü illərin faciəli hadisələri zamanı bir daha yəqin etdi. Respublika rəhbərliyində bir-birini əvəz edən şəxslərin səriştəsizliyi, bəzən də xəyanət yoluna düşməsi, müxtəlif qüvvələrin hakimiyyət uğrunda mübarizəsi, hərc-mərclik, xaos Azərbaycanı

fəlakət həddinə gətirib çıxarmışdı. Ermənistandan azərbaycanlıların kütləvi şəkildə qovulması, Sumqayıt fitnəsi, Qanlı Yanvar qırğını, xalqımızın maddi və mənəvi sərvətlərinin talan edilməsi, Xocalı soyqırımı, digər faciələr, Şuşanın, Laçının, başqa torpaqlarımızın işğal edilməsi, insanlarımızın öz vətənində didərgin salınması – bütün bunlar Azərbaycana qarşı yönələn məkrli planın mərhələ-mərhələ həyata keçirilməsinin nəticələri idi.

O vaxt çoxları inanmırdı ki, Azərbaycan bu qədər böyük təhlükələrdən qurtula biləcək və 1991-ci ildə əldə etdiyi müstəqilliyini qoruyub saxlayacaqdır. Amma dillərdə dastan olan vətəndaş hünəri, siyasətçi qəhrəmanlığı tarixin gedişini dəyişdi, Azərbaycan üçün yazılmış ssenariləri alt-üst etdi.

1993-cü ilin iyun ayında Heydər Əliyevin dövlət rəhbərliyinə qayıdışı sayəsində Azərbaycan uçurumun bir addımlığından geri döndü, itirmək üzrə olduğu siyasi və dövlət müstəqilliyini qoruyub saxlaya bildi, xalqımızın mənliyi və ləyaqəti müdafiə olundu. Əgər o vaxt ölkədə cərəyan edən proseslərə Heydər Əliyevin şəxsi müdaxiləsi olmasaydı, bu gün müstəqil Azərbaycan dövləti haqqında danışmaq çox çətin olardı.

Ulu Öndərin o dövrdəki fəaliyyətinin əhəmiyyəti onun belə bir kəlamında çox dəqiq ifadə olunmuşdur. O demişdir: “Tarix dəfələrlə sübut etmişdir ki, xalqın əvəzsiz milli sərvəti olan müstəqilliyin qorunması onun əldə edilməsindən qat-qat ağır və mürəkkəb vəzifədir”.

**Hörmətli xanımlar və cənablar!**

Azərbaycan dövlətini tarixin burulğanlarından çıxarıb xilas etmək, sabit və ardıcıl inkişaf yoluna çıxarmaq üçün böyük siyasi iradə və qətiyyət, çevik və dərin ağıl, zəngin təcrübə, başlıcası isə xalqa tükənməz məhəbbət tələb olunurdu.

Əminliklə demək olar ki, Ümummilli Liderimizin dünyanın böyük güclərinin iradəsinə qarşı çıxması onun öz xalqı və vətəni qarşısında fədakarlığı idi. Tamamilə təbiidir ki, sonralar ölkənin qanunvericilik orqanı xalqın arzu və istəklərini nəzərə alaraq, Heydər Əliyevin hakimiyyətə qayıtdığı 15 iyun gününü Milli Qurtuluş Günü kimi dəyərləndirmişdir.

**Hörmətli xanımlar və cənablar!**

Heydər Əliyevin siyasi və dövlətçilik fəaliyyəti xalqa sədaqətlə xidmət etmək, onun yolunda hər cür fədakarlığa hazır olmaq timsalına çevrilmişdir. 1993-cü ildən 2003-cü ilədək olan on il ərzində onun həyata keçirdiyi nəhəng işlər öz miqyasına görə insanı heyrətə gətirir.

Ulu Öndərin xilaskarlıq missiyasında ilk addımı ölkəni dağılmaq və parçalanmaq həddinə gətirib çıxarmış dövlət və hakimiyyət böhranını aradan qaldırmaq, vətəndaş müharibəsi təhlükəsinin, terror və dövlət çevrilişi cəhdlərinin qarşısını  almaq oldu.

Ulu Öndər torpaqlarımızı müdafiə etməyi bacaran milli ordunun formalaşdırılmasını ən vacib vəzifələrdən biri kimi irəli sürdü. Bu istiqamətdə qəti tədbirlərin həyata keçirilməsi döyüş əməliyyatları zonasında dönüş yaratdı. 1994-cü ilin may ayında cəbhə xəttində atəşkəs elan olundu.

Ölkədə möhkəm ictimai-siyasi sabitliyin təmin edilməsi Azərbaycan dövlətinin yeni neft strategiyasının həyata keçirilməsinə imkan yaratdı. Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının işlənilməsinə dair xarici neft şirkətləri ilə onlarca saziş imzalandı. Azərbaycan iqtisadiyyatına milyardlarla dollar məbləğində investisiya cəlb edildi.

Neftdən götürülən gəlirdən xalqın mənafeyi üçün daha səmərəli istifadə edilməsi məqsədi ilə Dövlət Neft Fondu yaradıldı. Azərbaycanın karbohidrogen ehtiyatlarının dünya bazarlarına çıxarılması üçün Bakı–Tbilisi–Ceyhan neft,

Bakı–Tbilisi–Ərzurum qaz kəmərlərinin çəkilişinə başlandı.

Neft sənayesinin dirçəlməsi iqtisadiyyatın qeyri-neft sektorunun inkişafına da şərait yaratdı. Bazar iqtisadiyyatı prinsipləri tətbiq olundu, iqtisadi islahatlar, o cümlədən torpaq islahatı, özəlləşdirmə aparıldı. Ölkəmiz ardıcıl və dinamik inkişaf yoluna çıxdı.

Azərbaycan Respublikasının elmi əsaslar üzərində qurulan xarici siyasət konsepsiyası hazırlandı və həyata keçirilməyə başlandı. Azərbaycanı dünyaya birləşdirən siyasi bağlar möhkəmləndirildi. Xarici dövlətlərlə yaxın münasibətlər quruldu, ölkəmiz nüfuzlu beynəlxalq təşkilatların bərabərhüquqlu üzvü oldu.

Azərbaycanda hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğuna, hakimiyyət bölgüsünə və demokratik təsisatların yaranmasına, qanunun aliliyinə təminat verən yeni Konstitusiya hazırlandı və qəbul olundu, demokratik seçki mexanizmi bərqərar edildi.

Şərq və müsəlman aləmində ilk dəfə olaraq ölüm cəzasının ləğv edilməsi və bir sıra digər tədbirlər dövlətimizin beynəlxalq aləmdə nüfuzunu xeyli artırdı.

Ölkədə onlarca yeni siyasi partiya yaradıldı və sərbəst fəaliyyətə başladı. Heydər Əliyevin banisi olduğu Yeni Azərbaycan Partiyası hakim partiya və cəmiyyətin aparıcı siyasi qüvvəsi oldu.

Milli-mənəvi dəyərlərimizin qorunması, mədəniyyətin, ədəbiyyatın və incəsənətin inkişafı üçün lazımi tədbirlər görüldü. Milli dövlətçilik ideologiyası və idarəçilik fəlsəfəsi formalaşdırıldı.

Azərbaycançılıq, müstəqillik və dövlətçilik amalları naminə milli həmrəyliyin yaradılması istiqamətində əməli addımlar atıldı. Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızla əlaqələrin inkişaf etdirilməsi, diaspor təş-

kilatlarının yaranmasına kömək göstərilməsi dövlət siyasətinin tərkib hissəsinə çevrildi.

**Hörmətli xanımlar və cənablar!**

Tale Heydər Əliyevi xüsusi bir missiya üçün seçmişdi. O özü də bunu hiss edirdi. Bu hiss, bu duyğu ona güc verir, başqalarını aciz edən maneələri aradan qaldırmaqda, xalqımız üçün hazırlanmış buxovları qırmaqda ona kömək edirdi.

Heydər Əliyevin dərin zəkası və siyasi duyumu ilə mərdliyi, cəsarəti və əzmkarlığı üzvi vəhdət təşkil edirdi. Onun bütün varlığı vətənə məhəbbətlə yoğurulmuşdu, gücünü xalqdan alırdı. Xalq da Heydər Əliyevə sonsuz sevgisi və ehtiramı ilə cavab verirdi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Ulu Öndərin fəaliyyəti haqqında belə demişdir:

"Azərbaycan xalqı Heydər Əliyevin simasında güclü Lideri seçərək, öz taleyini ona etibar etdi və yanılmadı. Azərbaycan xalqı müdrik xalqdır, dəfələrlə ən çətin anlarda, ən çətin dövrlərdə yeganə düzgün müdrik qərar qəbul etmişdir.

Heydər Əliyevin müstəqil Azərbaycanın Prezidenti kimi misilsiz xidmətləri vardır. Məhz onun qoyduğu yolla bu gün Azərbaycan uğurla gedir".

**Hörmətli xanımlar və cənablar!**

Heydər Əliyevin başladığı işləri eyni əzm və iradə ilə, daim dəyişən tarixi şəraitin tələblərinə uyğun şəkildə davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uzaqgörən siyasəti sabit və ardıcıl yüksəlişi və yeniləşməni gündəlik həyatımızın reallığına çevirmişdir. Cəmiyyət və dövlət həyatının bütün sahələrində əldə edilən uğurlar dünyanın diqqətini Azərbaycana cəlb etmişdir.

Yaradılmış böyük siyasi, iqtisadi, hərbi potensial Ümummilli Liderimizin ən mühüm vəsiyyətini şərəflə yerinə yetirməyə imkan vermişdir – dövlətimizin taleyüklü problemi

həll edilmiş, torpaqlarımızın 30 illik işğalına son qoyulmuş, ərazi bütövlüyümüz və tarixi ədalət bərpa olunmuşdur.

Azərbaycan Respublikası gələcəyə inamla baxan, dünyanın geniş bir bölgəsində söz sahibi olan qüdrətli dövlətdir. İnamla söyləmək olar ki, həyata keçirilən uzaqgörən siyasət Azərbaycan dövlətinə və xalqına indiyə qədər olduğu kimi, qarşıdakı illərdə də yeni-yeni uğurlar gətirəcəkdir.

**Hörmətli xanımlar və cənablar!**

Əminəm ki, Heydər Əliyev dühasının və zəhmətinin bəhrəsi olan müstəqil Azərbaycan dövləti daim var olacaq, Ulu Öndərin dediyi kimi, "əbədiyyətə qədər yaşayacaqdır".

Diqqətinizə görə sağ olun. (*Alqışlar.*)

**Hörmətli həmkarlar!**

**Hörmətli xanımlar və cənablar!**

İndi biz qonaqlarımızın çıxışlarını dinləyəcəyik.

İlk çıxış üçün söz Parlamentlərarası İttifaqın sədri cənab Duarte Paçekoya verilir. Buyurun, cənab sədr. (*Alqışlar.*)

## Parlamentlərarası İttifaqın sədri cənab Duarte Paçekonun çıxışı

**Zati-aliləri!**

**Hörmətli sədrlər!**

**Hörmətli parlament üzvləri, diplomatik korpusların nümayəndələri!**

**Xanımlar və cənablar!**

Mən öz çıxışımı əvvəlcədən hazırlamışdım. Amma indi həmin çıxışı oxumayacağam. İcazənizlə, öz ürək sözlərimi çatdırmaq istərdim.

Xanım sədr, mən Sizə üçqat təşəkkür edirəm. İlk öncə ölkəniz üçün xüsusi əhəmiyyət kəsb edən bu mötəbər tədbirə dəvət olunmağıma görə təşəkkür edirəm.

Azərbaycanın görkəmli sabiq Prezidenti Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibəti ilə keçirilən xüsusi iclasda iştirak etmək mənim üçün böyük şərəfdir.

Biz, adətən, ailə üzvlərimizi və dostlarımızı yaxşı xatırlayırıq. Ancaq bir də xüsusi şəxsiyyətlər var ki, bütün dünya onları öz yaddaşında saxlayır. Mən bu gün belə görkəmli şəxsiyyətlərdən biri haqqında danışmaq istəyirəm.

Xüsusi insanlar, böyük şəxsiyyətlərlə bağlı yaddaş əbədidir. Onların mənsub olduqları xalqın, öz ölkələrinin taleyində uzaqgörənliklə oynadıqları rol, göstərdikləri səylər əvəzsizdir. Bu gün söhbət Azərbaycandan getdiyi üçün bu dahi şəxsiyyətin Azərbaycan qarşısındakı xidmətlərindən, öz xalqı yolundakı əzmkarlığından danışırıq. Bunlar, həqiqətən, diqqətəlayiqdir. Buna görə siz, əlbəttə, qürur hissi keçirə bilərsiniz və keçirirsiniz. Mən də bu dahi insanla bağlı öz minnətdarlığımı çatdırıram. Sizlər iqtisadiyyatınızın gücünə, təsisatlarınızın möhkəmliyinə və bütün sahələrdə uğurlara görə ona minnətdar olmalısınız.

O, təhsil sahəsinə xüsusi önəm verir, təhsil sistemini necə inkişaf etdirmək lazım olduğunu yaxşı bilirdi. Ölkənin mədəniyyətini, xalqın dilini qorumaq, digər sahələri inkişaf etdirmək üçün təhsilə investisiya qoyulmasını dəstəkləyirdi. Bu dahi şəxsiyyət ölkənin həqiqi müstəqilliyinə nail olmağın nələrdən asılı olduğunu yaxşı bilirdi və bu işləri yüksək bacarıqla, səriştə ilə həyata keçirirdi. Bir sözlə, bütün vəzifələrin öhdəsindən məharətlə gəlir, ümummilli məqsədləri uğurla reallaşdırırdı.

Bəzən siz lider olaraq elə addımlar ata bilərsiniz ki, ilk baxışda xalq buna inanmadığı üçün lazımi dəstək verməz. Ancaq siz qətiyyətiniz və əzminizlə uzaqgörən ideyalarınızı gerçəkləşdirə, xalqın böyük etimadını qazana bilərsiniz. Heydər Əliyev öz xalqı üçün məhz bunu etdi. Xalqı

inandığı, əmin olduğu yolla inamla apardı və öz ölkəsini hərtərəfli inkişaf etdirdi, dünyada tanıtdı. Ona görə xalqı ona böyük etimad göstərirdi və daim dəstək olurdu. O, xalqının inandığı lider idi və bu gün artıq dünyada da böyük hörmət və nüfuz sahibi kimi tanınır.

Onun səyləri nəticəsində Azərbaycan hazırda beynəlxalq miqyasda sülh, multikulturalizm, əməkdaşlıq dəyərlərinə sadiq, etibarlı tərəfdaş kimi qəbul edilir. Bu gün siz dialoq kimi mühüm dəyərə töhfə verirsiniz. Bunlar çox vacib amillərdir. Bu böyük şəxsiyyət bizim ümumi arzumuza – planetimizdə sülh, əmin-amanlıq şəraitində yaşamaq istəyimizə dəyərli töhfələr verib. O, uzun illər, həm müstəqillikdən əvvəlki dövrdə, həm də Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra bu missiyanı həyata keçirdi. Ona görə, çox sağ olun ki, ölkəniz üçün tarixi bir gündə Ümummilli Lideriniz Heydər Əliyev haqqında fikirlərimi çatdırmağa mənə şərait yaratdınız. Öz xalqının atası kimi əbədiyyətə qovuşmuşdur.

Xanım sədr, ikinci təşəkkürüm onunla bağlıdır ki, Siz Ümummilli Liderinizin uzaqgörənliyini, müdrikliyini Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi çərçivəsində öz səmərəli fəaliyyətinizlə davam etdirirsiniz. Sizi Parlament Şəbəkəsinin yaradılmasında oynadığınız mühüm rola və ona məharətlə sədrlik etməyinizə görə təbrik etmək istəyirəm. Mən fəxr edirəm ki, Parlament Şəbəkəsi 2021-ci ilin noyabrında Madriddə Parlamentlərarası İttifaqın Assambleyasının toplantısı çərçivəsində fəaliyyətə başlayıb. Dünyanın müxtəlif ölkələrini təmsil edən parlament üzvləri bu şəbəkədə eyni məqsədlə, dayanıqlı inkişafı dəstəkləmək, münaqişələrin sülh yolu ilə həllini təşviq etmək üçün cəmləşmişdir. Parlamentlərarası İttifaq ənənəvi diplomatiyaya əlavə olaraq müxtəlif ölkələrin parlament üzvlərini parlament diploma-

tiyası ilə məşğul olmaq üçün bir araya gətirməyə yönələn bütün səyləri dəstəkləyir. Böyük dövlətlər qrupunun formalaşdırdığı Qoşulmama Hərəkatı çoxtərəfli sistemimizdə xüsusən dünyada mövcud, həm də yeni istiqamətlər üzrə qütbləşmənin gücləndiyi bir vaxtda mühüm rol oynayır. Xanım sədr, bu fəaliyyətə görə Sizə təşəkkür edirəm.

Xanım Qafarova, Sizə son təşəkkür sözlərim Parlamentlərarası İttifaq sahəsində verdiyiniz dəstəyə görədir. Bu, 80-dən çox ölkənin nümayəndələrini birləşdirən, dünyanın ən böyük parlament üzvləri ittifaqıdır. Bildiyiniz kimi, bu ittifaq hələ XIX əsrdə təsis olunmuşdu. Biz yaxın günlərdə onun 134 illiyini qeyd edəcəyik. Parlamentlərarası İttifaq, eyni zamanda, "Nobel Sülh Mükafatı"nı da almışdır. Mən Cenevrəyə qayıtdıqda, bilirsiniz, nə hiss edirdim? Bu təşkilatın üzvü olmaq necə gözəldir. Azərbaycana gəldikdə, Azərbaycan parlamenti son illər Parlamentlərarası İttifaqın işinə dəyərli töhfələr verib, xüsusi ilə 2018-ci ilin dekabrında Gənc Parlament Üzvlərinin Beşinci Qlobal Konfransına ev sahibliyi edib. Sizin bu sahədəki fəaliyyətiniz, liderliyiniz Parlamentlərarası İttifaqın məqsədləri ilə eynidir. Sizin həm ümumi iştirakçılıq, həm gənclərin siyasətdə iştirakının dəstəklənməsi, həm dayanıqlı inkişafın bərqərar olması, həm də münaqişələrin sülh yolu ilə həllinin təşviq edilməsi sahəsində səyləriniz danılmazdır. Siz çox faydalı işlər görmüsünüz və Ümummilli Liderinizin gözəl şagirdi, davamçısısınız.

Xanım sədr, istərdim, bütün bunlara görə 1 dəfə, 2 dəfə deyil, Sizə 3 dəfə təşəkkürümü bildirim. Təşəkkür edirəm. (*Alqışlar.*)

**Sədrlik edən.** Çox sağ olun, cənab sədr.

İndi çıxış etmək üçün söz Misir Nümayəndələr Palatasının sədri cənab Hənəfi Qəbaliyə verilir. Buyurun, cənab sədr. (*Alqışlar.*)

## Misir Nümayəndələr Palatasının spikeri Dr. Hənəfi Qəbalinin çıxışı

**Dost Azərbaycan Respublikasının Milli Məclisinin sədri zati-aliləri Sahibə xanım Qafarova!**

**Xanımlar və cənablar!**

Mən bu yubileylə bağlı öncə onu qeyd etmək istərdim ki, 1 rəqəminin yanında iki sıfırı ifadə edən o işarə əbədiyyətin rəmzidir. Əbədiyyət ünvanlı bu işarə, həqiqətən, mənim üçün çox təsirli oldu.

Çıxışımın əvvəlində bildirmək istəyirəm ki, Misirlə çox dərin və tarixi əlaqələri olan dost ölkənin parlamenti qarşısında çıxış etməkdən qürur duyuram. İcazə verin, zatialinizin diqqətinə bu təntənəli gün münasibəti ilə Misir xalqı adından dost Azərbaycan xalqına səmimi salamlarımı və ehtiramımı çatdırım. Həmçinin Misir–Azərbaycan münasibətlərinin hazırda şahidlik etdiyimiz müsbət dinamikası fonunda lütfkarlıqla mənə ünvanlanmış dəvətə görə əziz dostum hörmətli Sahibə xanım Qafarovaya səmimi təşəkkürümü bildirmək istəyirəm.

**Xanımlar və cənablar!**

Xalqların tarixində elə şərəfli insanlar olub ki, Allah ölkəyə sabitlik, əmin-amanlıq və firavanlıq gətirmək üçün onları öz ölkələrinin tale yoluna çıxarıb. Xoşbəxtlikdən, dost ölkənizə səfərimiz o böyük insanlardan birinin, yəni dəyərli ölkəniz üçün bütün səviyyələrdə nəzərəçarpacaq tərəqqi əldə edərək qazandığı nailiyyətlərə görə heyran olduğumuz və Misirdə çox yüksək qiymətləndirilən mərhum lider Heydər Əliyevin 100 illik yubileyinə təsadüf edir. Bu dahi insan, görkəmli lider, böyük siyasətçi və müasir dövlət xadimi ilhamverici xidmətləri, əbədiyaşar əməlləri və Azərbaycana bütün sahələrdə qazandırdığı

nailiyyətlərlə öz xalqının tarixində parlaq izlər buraxmış, onun yaddaşında ölməzlik qazanmışdır.

Hamımıza tamamilə aydındır ki, Ümummilli Lider Heydər Əliyevin irsi Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevin müdrik rəhbərliyi ilə dost ölkənizdə əldə edilmiş nailiyyətlər və böyük inkişaf sayəsində layiqincə davam etdirilir və qorunur. Bizə dost ölkənizin yeni uğurlarının və inkişafının şahidi oluruq. Azərbaycanda misli görünməmiş inkişaf templəri, həyata keçirilən demokratik və iqtisadi islahatlar ilkin olaraq, şübhəsiz, mərhum dahi lider tərəfindən əsası qoyulmuş nadir Azərbaycan təcrübəsinin əhəmiyyətini və dayanıqlılığını sübut edir.

**Hörmətli həmkarlar və iştirakçılar!**

Misir dost ölkələrlə tarixi və köklü əlaqələrini gücləndirmək üçün səylərini heç vaxt əsirgəmir. Bu səylər yaxın vaxtlarda Misirin ilk Prezidenti Misir Ərəb Respublikasının Prezidenti Zati-aliləri Əbdülfəttah Əs-Sisinin dost ölkənizə səfəri ilə kulminasiya nöqtəsinə çatmışdır. Bu səfər dost ölkələrimizin maraqları naminə ikitərəfli əməkdaşlığın dərinləşməsinə və keyfiyyətcə yeni səviyyəyə qalxmasına təkan vermişdir. Misir hazırda bütün sahələrdə, xüsusən də şirkətlərinin infrastruktur və tikinti sahələrində qazandıqları təcrübə əsasında hərtərəfli inkişaf bumu yaşayır. Qeyd edim ki, iki ölkə arasında turizm və mədəniyyət sahələrində əməkdaşlıq yüksək səviyyədə inkişaf edib. Bakı ilə Şarm əl-Şeyx kurortu arasında uçuşların bərpa edilməsi bunun bariz nümunəsidir. Həmçinin xalqlarımızın tərəqqi və rifahına nail olmağa yönələn və böyük səylə dəstəklənən ikitərəfli əlaqələrin möhkəmlənməsinin digər sahələrdə əməkdaşlıq üçün də körpü rolunu oynayacağına ümidvarıq.

**Xanımlar və cənablar!**

Dost ölkənizin bu möhtəşəm milli bayramında biz xalqlarımız üçün sabitlik və firavanlığa nail olmağa yönələn səylərimizdə mərhum lider Heydər Əliyevin qətiyyətlilik, əzmkarlıq və mübarizlik ruhunu rəhbər tuturuq. Dost ölkənizin bu mötəbər parlament forumunda biz tarixin formalaşdırdığı və bizi əhatə edən qlobal şərtlərin müəyyən etdiyi ümumi maraqların işığında Misirin ölkələrimiz arasında əməkdaşlığı gücləndirmək əzmində olduğunu bir daha təsdiqləyirik ki, bu da Misir və Azərbaycan arasında təcrübə mübadiləsinin və əməkdaşlığın möhkəmləndirilməsinin dayanıqlı təməlini qoymağımızı vacib edir.

Diqqətinizə görə hər birinizə təşəkkür edirəm.

Qoy əmin-amanlıq, Allahın mərhəməti və xeyir-duası sizinlə olsun. (*Alqışlar.*)

**Sədrlik edən.** Çox sağ olun, cənab sədr.

Çıxış edir Gürcüstan Parlamentinin sədri cənab Şalva Papuaşvili. Buyurun, cənab sədr. (*Alqışlar.*)

## Gürcüstan Parlamentinin sədri cənab Şalva Papuaşvilinin çıxışı

**Hörmətli xanım spiker!**
**Hörmətli həmkarlar!**

Bu gün burada olmaq və Azərbaycanın dahi dövlət xadimi və tarixi şəxsiyyəti, müasir Azərbaycanın atası Heydər Əliyevin 100 illik yubileyində onun xatirəsini və irsini yad etmək mənim üçün xüsusi şərəfdir.

İnsana əməllərinə görə qiymət verilir. Prezident Heydər Əliyev müasir Azərbaycanın formalaşmasında mühüm rol oynamış Ümummilli Lider idi. Azərbaycanın müstəqilliyinin ilk çətin illərindən sonra cənab Əliyev Azərbaycan xalqının milli ruhunu yüksəltdi və gücləndirdi, milli

oyanışı təbliğ etdi, milli dövlətçiliyin möhkəm təməlini qoydu. O, düşünülmüş, uzaqgörən siyasəti ilə ölkəsini yenidən formalaşdırdı, güclü, sabit və firavan dövlətə çevirdi. Nəticədə Prezident Heydər Əliyev dünyada ən mühüm dəyəri qazandı – xalqının ürəyini fəth etdi.

Prezident Əliyev Qafqaz regionunda sülhün və sabitliyin sadiq tərəfdarı idi. Onun Gürcüstan və Azərbaycan arasında əlaqələrin möhkəmləndirilməsində mühüm rolu ölkələrimiz arasındakı tarixi dostluğu hökumətimizin xüsusi ilə əziz tutduğu möhkəm strateji tərəfdaşlığa çevirdi. Prezident Əliyevin müstəsna rəhbərliyi altında Azərbaycan–Gürcüstan–Türkiyənin birgə səyləri ilə yaradılmış enerji tranzit marşrutları böyük strateji baxışın və liderliyin ecazkar nümunələrindən biri olmuşdur.

Prezident Əliyev və onun müasiri olmuş Gürcüstan və Türkiyə liderləri qeyri-mümkün olanları mümkün etdilər. Köhnə ticarət yollarını tədricən canlandıran və indi Avropanı Asiya ilə birləşdirən, mühüm əlaqələndirici rol oynayan belə uzaqgörən layihələrin əhəmiyyətini çox az adam dərk edə bilərdi. Beləliklə, qarşıda duran əsaslı layihələrlə bağlı bugünkü müzakirələr Prezident Heydər Əliyevin müdrikliyi sayəsində mümkün olmuşdur.

**Xanımlar və cənablar!**

Tarixi dövlət xadimi və tanınmış siyasətçi Heydər Əliyev beynəlxalq aləmdə görkəmli, uzaqgörən və hörmət bəslənilən lider adını qazanmışdır. O, zamanın sınağından çıxmış və gələcək nəsillər boyu yaşayacaq bir irs qoymuşdur. Bu zəngin irsə əsaslanaraq, Azərbaycanın, dinc və sabit Qafqazın inkişafını bundan sonra da dəstəkləmək vacibdir.

Bu əlamətdar və tarixi gündə Azərbaycan xalqına əmin-amanlıq, uğurlar və firavanlıq arzulayıram. Biz parlamentlərimiz, ölkələrimiz və xalqlarımız arasında ikitərəfli əla-

qələri daha da möhkəmləndirməyə hazırıq.

Təşəkkür edirəm. (*Alqışlar.*)

**Sədrlik edən**. Çox sağ olun, cənab sədr.

İndi isə söz İordaniya Nümayəndələr Palatasının sədri cənab Əhməd Əs-Səfadiyə verilir. Buyurun, cənab sədr. (*Alqışlar.*)

## İordaniya Haşimilər Krallığı parlamentinin Nümayəndələr Palatasının sədri cənab Əhməd Əs-Səfadinin çıxışı

Bismillahir-rəhmanir-rəhim!

**Hörmətli xanım spiker!**

**Milli Məclisin hörmətli üzvləri!**

**Hörmətli həmkarlar!**

Bu günlərdə Azərbaycanın dirçəliş rəmzi, müasir dövlətinin qurucusu, onun müstəqilliyi və intibahı yolunda böyük səylər və fədakarlıqlar göstərmiş Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyini qeyd edirik.

Bu böyük tədbir münasibəti ilə sizə İordaniya xalqının salamlarını və ən səmimi məhəbbətini çatdırmaq istəyirəm. İordaniya xalqı sizinlə birlikdə ölkəsi üçün hərtərəfli strateji plan işləyib hazırlayan və onu uğurla həyata keçirməklə ölkəsini inkişaf və tərəqqi yoluna çıxarmış Heydər Əliyevin xatirəsini ehtiramla yad edir. Müstəsna qabiliyyətli lider kimi o, ölkənin bütün təbii sərvətlərinə xalqın sahib çıxmasına nail olmuş, bu isə Azərbaycanın siyasi, sosial, iqtisadi və mədəni sahələrdə uğurlar əldə etməsinə güclü təkan vermişdir.

Mərhum Ulu Öndər öz parlaq düşüncəsi və geniş dünyagörüşü ilə Azərbaycanı dünya xəritəsində önəmli bir yerə çıxarmışdır. O, bu gün elmin, mədəniyyətin, tərəqqinin və çiçəklənmənin bariz nümunəsinə çevrilmiş

müasir, demokratik, beynəlxalq aləmdə fəal və müstəqil mövqeyə malik dövlət qurmuşdur.

Biz İordaniyada mərhum Ulu Öndərin mərhum Əlahəzrət Kral Hüseyn bin Talalın yaxın dostu olduğunu da bilirik. Onların dövründə iki ölkə arasında əlaqələr birgə əməkdaşlıq və koordinasiyanın ən yaxşı nümunəsinə çevrilmişdir. Bu münasibətlər bu gün Əlahəzrət Kral II Abdullahın və Prezident İlham Əliyevin dövründə də fəxr etdiyimiz və əziz tutduğumuz qardaşlıq münasibətləri timsalında nümunəvi şəkildə davam edir.

**Xanımlar və cənablar!**

Mən ölkəmin paytaxtı Ammanda gəzərkən mərhum Ulu Öndər Heydər Əliyevin adını daşıyan küçəni görəndə bu dahi insanın fəzilətlərini, onun ölkənizin intibahına necə töhfə verdiyini xatırlayıram. O, həqiqətən də, əzəmətli həyat yolu və bir çox nailiyyətləri ilə bütün regionun nəsillərinin yaddaşında əbədi qalmağa layiq olan liderdir.

Mərhum Ulu Öndərin ölkəsinin İslam dünyasına mənsub olmasına böyük inamı və onun İslam Əməkdaşlıq Təşkilatında inkişaf və tərəqqinin qarşısını alan maneələrin aradan qaldırılması ilə İƏT-dəki ölkələrlə əlaqələrin möhkəmləndirilməsində, həmçinin xalqların mənafeyi üçün birgə əməkdaşlıq yollarının gücləndirilməsində göstərdiyi səylər bizi qarşılıqlı əlaqələrdə onun düzgün yanaşmasına yönəlməyə sövq edir. Bu yanaşma xalqlarımızın mənafeyi və rifahına böyük töhfə verir. Ona görə də biz bura Azərbaycan parlamentindəki qardaş və bacılarımızla bu əlaqələri daha da gücləndirmək üçün gəlmişik.

**Hörmətli xanımlar və cənablar!**

Bir neçə il əvvəl Əlahəzrət Kralı və Prezident İlham Əliyevi bir araya gətirən zirvə toplantısı keçirildi. Bu gün biz iki ölkə arasında iqtisadi, investisiya, turizm, kənd tə-

sərrüfatı, müdafiə sənayesi sahələrində əməkdaşlığın üfüqlərini genişləndirməklə və ticarət mübadiləsini artırmaqla həmin sammitin nəticələrini həyata keçirməyə çalışırıq. Hər iki ölkənin perspektiv imkanları və güclü potensialı var. Həmçinin İordaniya və Azərbaycan regional və beynəlxalq arenada mühüm və fəal rol oynayırlar.

**Azərbaycan parlamentindəki əziz bacı və qardaşlarım!**

Qoy, mərhum Ulu Öndər Heydər Əliyevin xatirəsi hər zaman nailiyyətlərin, uğurların və quruculuğun xatirəsi olsun. O, hər zaman ölkəsinin intibahına inanır və bunun üçün çalışırdı. Onun xatirəsi həm Azərbaycan xalqının, həm də regionda və dünyada onu tanıyan bütün insanların yaddaşında ölkəsinin dünyada prestijli yerə sahib olması üçün onu dirçəliş yolunda uğurla aparan, bir çox çətinliklərdən xilas edib böyük xalqını birləşdirən müdrik rəhbər kimi əbədi qalacaqdır. Uca Yaradan Azərbaycanı, onun rəhbərliyini və xalqını qorusun.

Diqqətiniz üçün təşəkkür edirəm. (*Alqışlar.*)

**Sədrlik edən**. Çox sağ olun, cənab sədr.

Çıxış edir Qazaxıstan Parlamenti Məclisinin sədri cənab Yerlan Koşanov. Buyurun, cənab sədr. (*Alqışlar.*)

## Qazaxıstan Parlamenti Məclisinin sədri cənab Yerlan Koşanovun çıxışı

**Hörmətli Sahibə Əli qızı!**
**Hörmətli həmkarlar!**
**Xanımlar və cənablar!**

İlk öncə icazə verin, qardaş Azərbaycan xalqını və bütün türk dünyasını əlamətdar hadisə – Azərbaycan xalqının Ümummilli Lideri, dahi tarixi şəxsiyyət Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibəti ilə

Qazaxıstan Respublikasının Prezidenti adından ürəkdən təbrik edim.

Fürsətdən istifadə edərək, qardaş Azərbaycan xalqına, xüsusi iclasın qonaqlarına və iştirakçılarına sülh və firavanlıq arzulayıram!

**Hörmətli həmkarlar!**

Heydər Əlirza oğlu Əliyev qeyri-adi tarixi şəxsiyyət, dövrünün görkəmli lideri, müasir Azərbaycan dövlətinin qurucusudur. Bu dahi şəxsiyyətin, müdrik siyasətçinin və rəhbərin bütün həyatı Azərbaycan xalqına və dövlətinə xidmətdə keçmişdir.

Heydər Əliyev, doğrudan da, Azərbaycanın banisi və xilaskarı, dünya azərbaycanlılarının Ümummilli Lideri olmuşdur.

Müasirləri Heydər Əliyevi çox yüksək insani keyfiyyətləri, onun nəcibliyi, prinsipiallığı, dürüstlüyü və ədalətliliyi yüksək qiymətləndirilirdi.

Heydər Əliyevin zəngin siyasi irsi bu gün təkcə Azərbaycan xalqı üçün deyil, bütün türk dünyası üçün tükənməz mənəvi bələdçi və çıraqdır.

Müasir Qazaxıstan–Azərbaycan əlaqələrinin inkişafında Heydər Əliyevin böyük rolunu xüsusi ilə qeyd etmək istərdim. Qazaxıstanda Heydər Əliyev ölkəmizə və qazax xalqına səmimi qardaşlıq münasibəti ilə tanınır. O, dostluğumuzun möhkəm və əbədi olması üçün çox səy göstərmişdir. 1997-ci ildə mənə Heydər Əlirza oğlunun çıxışını şəxsən eşitmək nəsib olmuşdur. Bu onun Qazaxıstana ilk rəsmi səfəri çərçivəsində, Almatıda ölkəmizin parlamentində baş vermişdi.

O vaxt o demişdi: "Mən həmişə qazax xalqına və Qazaxıstana böyük hörmət, böyük sevgi hiss etmişəm və indi də hiss edirəm.

Bizim ortaq köklərimiz, adət-ənənələrimiz, ortaq mədəniyyətimiz, ortaq taleyimiz, ortaq tariximiz bizi həmişə yaxınlaşdırıb, birləşdirib".

Heydər Əlirza oğlunun çıxışı o vaxt məndə – gənc deputatda unudulmaz təəssürat yaratdı. Onun hər bir sözünə xüsusi dərin hikmət və səmimiyyət hopmuşdu. Bu, baş verənlərə öz xüsusi baxışı olan əsl dünya səviyyəli siyasətçinin çıxışı idi.

Heydər Əlirza oğlunun çıxışı ölkəsinin gələcəyi və Azərbaycan xalqının taleyi üçün səmimi duyğularla dolu idi. O, Azərbaycanın müstəqilliyinin formalaşmasının ən çətin şərtlərindən, aparılan islahatlardan, ilk neft müqavilələrindən danışdı. Arzularını və böyük planlarını bölüşdü.

Məhz o zaman, 1997-ci ildə Azərbaycan və Qazaxıstan, iki ölkə arasında ən geniş məsələlər üzrə əməkdaşlıq üçün möhkəm zəmin yaradan mühüm sənədlər imzalandı. Bu gün, 26 ildən sonra böyük məmnunluq hissi ilə qeyd etmək istərdim ki, Heydər Əlirza oğlunun vaxtı ilə dediyi, arzuladığı hər şey həyata keçdi. Bu gün biz inkişaf etmiş və çiçəklənən Azərbaycan görürük.

**Əziz dostlar!**

2023-cü il "Heydər Əliyev İli" elan edilib. Bu əlamətdar tarix Azərbaycanda və dünyanın müxtəlif ölkələrində geniş qeyd olunur.

Qazaxıstan da bu yubileyi qeyd edir. Belə ki, bu ilin aprelində Astanada Heydər Əliyevin adını daşıyan yeni küçənin təntənəli açılış mərasimi olub. Tədbirdə Qazaxıstan və Azərbaycan liderləri Kasım-Jomart Tokayev və İlham Əliyev iştirak ediblər.

Küçənin açılış mərasimində Qazaxıstan Prezidenti vurğuladı ki: "Bizim vəzifəmiz Heydər Əliyev kimi dünya miqyaslı şəxsiyyətlərin xatirəsini əbədiləşdirmək və qoru-

maqdır. Bu, Azərbaycan xalqının dahi oğluna bizim isti münasibətimizin və səmimi ehtiramımızın əlamətidir!”

Bu küçədə türk köklərinin ortaqlığını, mədəniyyətlərin qohumluğunu və Azərbaycan xalqına səmimi ehtiramımızı əks etdirən memarlıq abidəsi ucaldılıb.

Azərbaycan Prezidentinin aprel səfəri Qazaxıstanda Heydər Əliyevin 100 illiyinə həsr olunmuş bir sıra mühüm tədbirlərə start verdi. Milli televiziyada onun həyat yolundan bəhs edən “Layiqli ömür” sənədli filminin premyerası oldu.

Bütün bunlar Qazaxıstan–Azərbaycan münasibətlərinin inkişafına tarixi töhfə vermiş böyük dövlət xadiminə ehtiramın təzahürüdür. Bu addımlarla xalqlarımızın dostluğu möhkəmlənir.

**Hörmətli dostlar!**

Azərbaycan bu gün müasir türk dünyasının mərkəzlərindən biridir. Heydər Əliyevin türk dünyasının birləşməsində, türk xalqlarının yaxınlaşmasında çox böyük rolu olmuşdur. O, bu gün türk dövlətlərinin inteqrasiyasına xidmət edən əməkdaşlıq təşkilatlarının yaradılmasında olduqca böyük səylər göstərmişdir. Çox rəmzidir ki, Türk Dövlətləri Təşkilatı və Türk Akademiyası kimi təşkilatların yaradılması ideyası qədim Naxçıvan torpağında, Heydər Əliyevin vətənində yaranıb. Bu faktın özündə dərin məna və rəmzilik var.

**Hörmətli həmkarlar!**

Qardaş ölkələrimizin hərtərəfli əməkdaşlığının möhkəmlənməsində parlamentlərarası əməkdaşlıq mühüm yer tutur. Azərbaycan Milli Məclisinin bugünkü tədbiri də müasir münasibətlərdə parlament diplomatiyasının xüsusi rolunu bir daha nümayiş etdirdi. Bu töhfəyə görə, hörmətli Sahibə xanım Əli qızı, icazə verin, Sizə xüsusi minnətdarlığımı bildirim!

**Hörmətli iclas iştirakçıları!**

Bu gün Azərbaycan dinamik inkişaf edir və biz qardaş xalqın uğurlarına ürəkdən sevinirik. Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə və Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq, ərazi bütövlüyünü bərpa edən qardaş Azərbaycan öz inkişafının yeni dövrünə qədəm qoyub. Prezident İlham Əliyevin siyasi kursu Azərbaycan üçün yeni parlaq perspektivlər açır. Əminliklə deyə bilərik ki, Azərbaycan yeni zirvələr fəth edəcək, öz adını dünya tarixinə əbədi yazacaqdır.

Çıxışımı Heydər Əliyevin sözləri ilə bitirmək istərdim: "Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram!" *Alqışlar.*)

**Sədrlik edən**. Çox sağ olun, cənab sədr.

Qırğızıstan Jokorku Keneşinin sədri cənab Nurlanbek Şakiyevə söz verilir. Buyurun, cənab sədr. (*Alqışlar.*)

## Qırğızıstan Jokorku Keneşinin sədri cənab Nurlanbek Şakiyevin çıxışı

**Hörmətli Sahibə Əli qızı!**

**Hörmətli tədbir iştirakçıları!**

İlk növbədə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əlirza oğlu Əliyevin 100 illik yubileyinə həsr olunmuş bu görüşə dünyanın bir çox yerindən gəlmiş, bu salonda əyləşmiş qonaqlarla görüşdüyümə və onları hərarətlə salamladığıma görə çox şadam.

Hörmətli Sahibə Əli qızı, bu tədbirin qardaş Azərbaycan xalqı tərəfindən yüksək səviyyədə təşkilini xüsusi qeyd edərək, icazə verin, xüsusi iclasa dəvətə görə Qırğız Respublikasının parlamenti adından və şəxsən öz adımdan Sizə dərin minnətdarlığımı bildirim. Azərbaycan xalqının bütün dünyada tanınan dahi şəxsiyyəti Heydər Əliyevin

yubileyinə həsr olunmuş toplantıda çıxış etmək mənim üçün böyük şərəfdir.

Əbəs yerə demirlər: "Ağac barı ilə, insan əməlləri ilə qiymətlidir". Heydər Əliyev, doğrudan da, xalqının böyük oğlu olmuş, ölkəsi üçün çox işlər görmüşdür. O, bir çox çətinliklərə, problemlərə sinə gərərək, öz yorulmaz əməyi ilə Azərbaycanın iqtisadi müstəqilliyinin əsasını qoymuş və bu işdə böyük uğurlar qazanmışdır, desəm, yanılmaram.

Hamıya məlumdur ki, Azərbaycan iqtisadiyyatının güclənməsi və çiçəklənməsi Heydər Əliyevin adı ilə qırılmaz surətdə bağlıdır. Siyasi idarəçilikdə liderlik düşüncəsinə, yüksək peşəkarlıq keyfiyyətlərinə malik olan dövlət başçısı Heydər Əliyevin ölkəsinin dinamik inkişafına gətirib çıxarmış sosial-iqtisadi strategiyasının nəticələrini hamımız çoxdan eşidirik və görürük.

Əlbəttə, Heydər Əliyev Azərbaycan dövlətinin formalaşmasında və inkişafında çox böyük əmək sərf etmiş və çox böyük rol oynamışdır. Deyə bilərəm ki, üstündən xeyli vaxt keçsə də, bu insan, həqiqətən, hörmət və ehtirama layiqdir və böyük şəxsiyyət kimi xalqının yaddaşında, tarixində əbədi olaraq qalacaqdır.

Azərbaycan xalqı güclü iradəsi, yüksək məramı və zəngin təcrübəsi ilə görkəmli oğlu Heydər Əliyevi yetişdirdi və o, istər müstəqillik əldə edilərkən dövlətin əsasının qoyulmasında, istərsə də regionda dinclik və sabitliyin qorunub saxlanması üçün bir çox məsələlərin həllində öz cəsarətini, müdrikliyini, əzmkarlığını nümayiş etdirdi. İndi sadə insanlar və dünyanın bir çox ölkələrinin liderləri bu məsələlərdən danışırlar.

Doğru deyirlər ki: "Xalqın şöhrətini qəhrəman, qəhrəmanın şöhrətini xalqı ucaldar". Bu hikməti dünya arenasında Azərbaycan Respublikasının hazırda tutduğu yüksək yer sübut edir.

Heydər Əliyev təkcə Azərbaycanın deyil, həm də keçmiş Sovet İttifaqının, bütün türk dünyasının müasir tarixində iz qoymuş, dünya miqyasında görkəmli dövlət xadimi və siyasi xadim idi. Dünya ictimaiyyətinin bir çox tanınmış şəxsiyyətləri Heydər Əliyev haqqında həmişə belə demişlər: “dahi insan, müdrik şəxs, Azərbaycan xalqının fenomeni və dünya lideri”.

Nümunə üçün mən qırğız xalqının tanınmış və böyük yazıçısı Çingiz Aytmatovun vaxtı ilə Heydər Əliyev haqqında qürurla dediyi sözləri misal çəkmək istəyirəm.

Çingiz Aytmatov demişdir: “Heydər Əliyev, həqiqətən, tarixi, hətta əfsanəvi şəxsiyyətdir. Heydər Əliyev həmişə xalqın xidmətində olub. O, müasirləri olan və hətta özündən cavan olan bir çox siyasi xadimlərə xas olmayan bir keyfiyyəti – müasir dövrün ən aktual çağırışlarına hazır olmağı nümayiş etdirə bildi. Məhz Heydər Əliyevin zəngin siyasi təcrübəsi, dünyagörüşünün genişliyi sayəsində bu gün Azərbaycanda sabitlik, tolerantlıq, mədəniyyət və maarifçilik hökm sürür. Bütün bunlar Azərbaycan dövlətinin müasir inkişafını və tərəqqisini təmin edən əsas amillərdir. Heydər Əlirza oğlu XX əsrin ən böyük liderlərindən biridir. O, müasir demokratik Azərbaycanın yeni tarixinin yaradıcılarından biridir”.

**Hörmətli iclas iştirakçıları!**

Bilirəm ki, bu gün biz qardaş Azərbaycan xalqının lideri, parlaq şəxsiyyət Heydər Əliyev haqqında çoxlu fikirlərə, xatirələrə qulaq asacağıq. Qırğız xalqının yaxşı bir deyimi var: “Yağış yağacaqsa, torpaq faydalanacaq, qəhrəman doğulacaqsa, xalq faydalanacaq”. Buna əsaslanaraq əminliklə deyə bilərəm ki, Azərbaycan xalqı Azərbaycan tarixində bütün dünyada şöhrət və hörmət qazanmış Heydər Əliyev kimi böyük şəxsiyyətin olmasına

sevinərək indi onu fəxrlə "Xalq qəhrəmanı" adlandırır.

"Heydər" adı əbəs yerə "başçılıq edən, öncül, öndə gedən" mənasını daşımır. Düşünürəm ki, öz adını doğrultmuş, daim xalqın qayğısına qalmış, onun əsl qürur yeri olmuş, ömrünü ləyaqətlə yaşamış Azərbaycan xalqının görkəmli oğlu Heydər Əliyev xalqına və torpağına həsr etdiyi yorulmaz fəaliyyətinə, fədakar əməyinə görə hər bir azərbaycanlının qəlbində, bütün Azərbaycan xalqının yaddaşında əbədi olaraq qalacaqdır.

**Hörmətli Sahibə Əli qızı!**

**Bugünkü tədbirin möhtərəm iştirakçıları!**

Bir şeyi də demək lazımdır. Bu il aprelin 20-də Qırğız Respublikası parlamentinin binasında Heydər Əliyevin 100 illiyinə həsr olunmuş konfrans keçirilmişdir. Həmin tədbirdə Qırğız Respublikası parlamentinin deputatları, ölkəmizin ictimai xadimləri, digər ölkələrin Qırğızıstandakı səfirləri, Azərbaycan Milli Məclisinin deputatları və Azərbaycanın Qırğız Respublikasındakı səfiri iştirak etmiş, Heydər Əliyev haqqında çoxlu xoş sözlər söylənilmiş və xatirələr danışılmış, onun tərcümeyi-halından bəhs edən sənədli film nümayiş etdirilmişdir.

Xüsusi olaraq qeyd etmək istəyirəm ki, bu tədbir qardaş xalqlarımız – qırğızlarla azərbaycanlılar arasında dostluğun və əməkdaşlığın möhkəmlənməsinə yaxşı təsir göstərmişdir.

**Hörmətli qonaqlar!**

Qırğız xalqının müdrik bir kəlamı var: "Yaxşı qazılmış suvarma kanalından su yaxşı axar". Bu deyim "yaxşı ənənələrin müsbət davamı olur" mənasını daşıyır və o ailələrə münasibətdə işlədilir ki, atanın xeyirxah əməlini oğul davam etdirir. Bundan çıxış edərək, Azərbaycanın indiki Prezidenti İlham Heydər oğlu Əliyevin "Atasının

oğlu” titulunu uca tutduğunu, müasir Azərbaycan dövlətinin qurucusu tərəfindən başlanmış işləri uğurla davam etdirdiyini və formalaşdırdığı dövlətin inkişafı ideyasını inamla həyata keçirdiyini desəm, yanılmaram.

Fürsətdən istifadə edərək, İlham Əliyevin jurnalistlərlə görüşündə dediyi sözləri yada salmaq istəyirəm: “Mən dövlət başçısı kimi Heydər Əliyevin işini davam etdirməliyəm. Seçkiqabağı çıxışlarımda da ona bənzəmək istədiyimi gizlətmirdim. Mənə inanan Azərbaycan vətəndaşlarını məyus etməmək üçün mən seçicilərin ümidlərini doğrultmalı, Heydər Əliyevin başladığı işi layiqincə davam etdirməliyəm. Mən onun oğluyam, soyadını daşıyıram və ona görə də ona layiq olmaya bilmərəm”.

**Hörmətli toplantı iştirakçıları!**

Qırğızıstanla Azərbaycan arasındakı münasibətlər, ikitərəfli əməkdaşlığımız haqqında bir neçə kəlmə söyləyəcəyəm.

Ölkələrimizi birləşdirən ümumi tarixi kökləri, mədəni ənənələri, mənəvi-əxlaqi dəyərləri böyük həvəslə qeyd etmək istərdim.

Ölkələrimiz arasında ikitərəfli əməkdaşlıqdan danışsaq, qeyd etməliyəm ki, Qırğızıstan Azərbaycanla dostluq və etimada əsaslanan münasibətlərin inkişafına xüsusi önəm verir və bu cür qarşılıqlı əlaqələrin genişləndirilməsində həmişə maraqlıdır. Əlbəttə, Qırğızıstanla Azərbaycan arasında ən yüksək səviyyədə siyasi dialoqda prezidentlərimiz Sadır Nurqojoyeviç Japarov və İlham Heydər oğlu Əliyevin xüsusi rolu var. Ötən ilin oktyabrında Azərbaycan Prezidenti İlham Heydər oğlu Əliyevin Qırğızıstana dövlət səfəri baş tutub. Hesab edirəm ki, bu səfər Qırğızıstanla Azərbaycan arasında dövlətlərarası münasibətlərin inkişafında və dərinləşməsində mühüm təkan olmuşdur.

Məlumat vermək istəyirəm ki, bu gün Qırğızıstanda Heydər Əliyev adına məktəb-gimnaziya və "Azərbaycan–Qırğızıstan" dostluq parkı fəaliyyət göstərir. Həmçinin biz Qırğız Respublikasının parlamenti ilə Azərbaycan Respublikasının Milli Məclisi arasında parlamentlərarası əlaqələrin daha da inkişaf etdirilməsində və möhkəmlənməsində maraqlıyıq. İnanıram ki, parlamentlərimiz arasında sıx əlaqələr ölkələrimiz arasında ümumi ikitərəfli münasibətlərin inkişafına müsbət təsir göstərəcək.

Məsələyə bu yöndən baxaraq, iki qardaş ölkə arasında əlaqələrin inkişafına böyük töhfə vermiş, buna görə qırğız xalqının dərin hörmət bəslədiyi möhtərəm Heydər Əliyevin əməyini xüsusi qeyd etmək istəyirəm.

Heydər Əliyev Qırğızıstanın böyük dostudur desəm, yanılmaram. 1995-ci ildə Heydər Əliyev "Manas" dastanının 1000 illik yubileyi mərasimində iştirak etmək üçün Qırğızıstanda səfərdə olarkən Böyük Manasımızın kumbozunu (məqbərəsini) ziyarət etmişdir. Qırğız xalqı Heydər Əliyevin "Böyük Manas təkcə qırğızların deyil, bütün türklərin atasıdır" sözlərini bu gün də xatırlayır.

**Hörmətli bugünkü tədbirin iştirakçıları!**

**Hörmətli xanımlar və cənablar!**

**Möhtərəm həmkarlar!**

Mən bu toplantıda əyləşən, dünyanın hər yerindən gəlmiş qonaqlara müraciət edirəm. Ölkəmizin xarici siyasətinin əsas istiqamətləri Qırğız Respublikasının Xarici Siyasət Konsepsiyasında aydın şəkildə öz əksini tapmışdır. Orada bütün yaxın və uzaq xarici ölkələrlə ikitərəfli münasibətlərin və çoxformatlı qarşılıqlı faydalı əməkdaşlığın inkişafı və möhkəmləndirilməsi üçün səylər göstərilməsinin zəruriliyi qeyd olunur.

Qırğız Respublikası bütün dünya ölkələri ilə qarşılıqlı

hörmət və etimada əsaslanan dostluq münasibətlərini yüksək qiymətləndirir. İnanıram ki, bir çox məsələlərin həlli üçün birgə çalışsaq, dövlətlərimizin və xalqlarımızın mənafeyinə cavab verən sabit inkişaf istiqamətində yaxşı nəticələr əldə edər, onların inkişafına, firavanlığına nail olarıq.

Xüsusi qeyd etmək istəyirəm ki, bu gün qardaş Azərbaycan tərəfinin təşkil etdiyi toplantı kimi tədbirlər ölkələrimizi bir-birinə daha da yaxınlaşdıracaq, xalqlarımız arasında qarşılıqlı anlaşmanın və dostluğun möhkəmlənməsinə yaxşı zəmin yaradacaq.

Çıxışımı yekunlaşdıraraq, bu görüşdə iştirak edənlərin hamısına uğurlu və səmərəli iş, yeni və maraqlı gələcək görüşlər arzulayıram.

Diqqətinizə görə çox sağ olun. (*Alqışlar.*)

**Sədrlik edən**. Çox sağ olun, cənab sədr.

Çıxış edir Mərakeş Nümayəndələr Palatasının sədri cənab Raşid Talbi əl-Alami. Buyurun, cənab sədr. (*Alqışlar.*)

## Mərakeş Krallığı Parlamentinin Nümayəndələr Palatasının sədri cənab Raşid Talbi əl-Alaminin çıxışı

**Zati-aliləri və hörmətli həmkarım Azərbaycan Respublikası Milli Məclisinin sədri xanım Sahibə Əli qızı Qafarova!**

**Hörmətli spikerlər!**

**Xanımlar və cənablar!**

Hörmətli həmkarım, Azərbaycan Respublikası Milli Məclisinin sədri möhtərəm Sahibə Əli qızı Qafarovaya bu tarixi gündə iştirak etməyə dəvət olunduğum üçün təşəkkürümü bildirir, özümü çox xoşbəxt hesab edirəm. Qardaş Azərbaycanın Milli Məclisinin keçirdiyi xüsusi iclasın

iştirakçısı kimi, çağdaş Azərbaycanın qurucusu, mərhum Prezident Heydər Əliyevin yubileyini sizlərlə birgə qeyd etməkdən və xatirəsini ehtiramla anmaqdan böyük şərəf duyur, ona rəhmət diləyirəm.

Ölkənizin parlamentinin böyük millətinizin çağdaş tarixinin ayrılmaz hissəsi olan ümummilli şəxsiyyətə Azərbaycan xalqının sədaqətini, ehtiramını və minnətdarlığını ifadə etmək, onun xatirəsini əbədiləşdirmək üçün belə bir iclas keçirməsi təqdirəlayiq ənənədir. Belə ki, müstəqilliyin bərqərar edilməsi və Azərbaycanın çoxsahəli və çoxşaxəli intibaha nail olması prosesi onun adı ilə bağlıdır. Elə bir intibah ki, sorağı Azərbaycanın milli sərhədlərinin və geosiyasi miqyasının hüdudlarını aşaraq bütün dünya regionlarına və ölkələrinə qədər gedib çıxmışdır.

Müxtəlif hallarda ölkələrin tarixi xalqın pərəstiş etdiyi və xatırladığı konkret adlarla bağlıdırsa, Azərbaycanın dirçəlişi, şübhəsiz ki, Prezident Heydər Əliyevin adı ilə bağlıdır. Diqqətli izləyici kimi təsdiq edə bilərəm ki, mürəkkəb regional və beynəlxalq şəraitə baxmayaraq, ölkəniz öz rəhbərliyi ətrafındakı birliyi və öz elitasının səyləri, bacarıqları, sayıqlığı və müdrikliyi sayəsində bu gün yüksəlişini yaşayan intibah dövrünün parlaq nümunələrindən biridir. Bu baxımdan siz ölkənizin aktivlərini böyük əlavə dəyər yaradan sərvətə çevirə bilmisiniz. Siz həm də əhəmiyyətli cazibəyə və yumşaq gücə nail olmaq üçün ölkənizin nəfis və fərqli gözəlliklərini kapitala necə çevirməyin lazım olduğunu bilmisiniz. Siz həm də orijinal, köklü və zəngin tarixi və sosial mədəniyyətinizi modernizm ilə birləşdirə bilmisiniz ki, bu da paytaxtınızın cəlbedici xüsusiyyətlərində öz əksini tapmışdır.

Sadəliyi və rahatlığı özündə birləşdirən səliqə-sahmanlı şəhərləriniz və gələcəyə doğru irəliləyən Azərbaycanın

müasir siması. Məhz 30 ildən az müddətdə əldə edilmiş yumşaq güc yerləşdiyi coğrafi mövqe ilə birlikdə Azərbaycanı elə az sayda ölkələrdən birinə çevirir ki, o, Şərqin füsunkarlığını, mənəviyyatını və sadəliyini, Qafqazın gözəlliyini və saflığını özündə birləşdirir, müxtəlif sivilizasiyaları və mədəniyyətləri bir araya gətirən məkan kimi rəqabət qabiliyyəti baxımından öz mövqeyini səmərəli şəkildə əks etdirərək müasir tələblərə cavab verir.

Azərbaycan öz nailiyyətləri, mədəni müxtəlifliyi, əhalisinin məlumatlılıq dərəcəsi, sərvətlərin istehsalında və bölüşdürülməsində yeniliklər etmək bacarığı ilə, beləliklə, müasirliyin daşıyıcısı olan geniş orta təbəqənin yaranmasına imkan verməklə, eləcə də digər amillər sayəsində regional sabitlik mərkəzidir və müasirlik və demokratiyanın mötədil, tolerant İslamla ziddiyyət təşkil etmədiyini təsdiqləyən ölkələrdən biridir.

**Hörmətli spiker!**

Biz Mərakeş Krallığında müasirliyin və müasir rasionalizmin yaranmasına böyük töhfə verən plüralizmə, qədim tarixə və sivilizasiyaya söykənən köklü mədəni müxtəlifliyimizə əsaslanan eyni yanaşmanı qardaş ölkənizlə bölüşürük. Aramızda olan digər qardaş və dost ölkələr kimi sizin ölkənizlə də təfriqəçiliyə qarşı mübarizədə, ərazi bütövlüyünün qorunmasında, milli suverenliyin əzmlə və yorulmadan müdafiə edilməsində eyni milli, tarixi, siyasi və etik məsuliyyəti paylaşırıq. İdentikliyimizin və mahiyyətimizin bir hissəsi olan qanunun aliliyi, institutlara əsaslanan dövlət və real plüralizm əsasında iqtisadi yüksəlişə və sosial birliyə nail olmaq istiqamətində eyni qətiyyəti bölüşürük.

Mərakeşin timsalında bizim uğur hekayəmiz üç şanlı kralla bağlıdır: milli azadlıq hərəkatının qəhrəmanı və

millətin atası mərhum Kral V Məhəmməd, müasir Mərakeşin və onun vahid millətinin qurucusu mərhum Kral II Həsən və müasir Mərakeşin lideri Əlahəzrət Kral VI Məhəmməd. Bütün bunlar onu göstərir ki, bizim çoxlu ümumi cəhətlərimiz var və Mərakeş Krallığı ilə Azərbaycan Respublikası bir çox perspektivləri bölüşür.

**Hörmətli xanım Qafarova!**

**Hörmətli həmkarlar, xanımlar və cənablar!**

Azərbaycan həm Odlar Yurdu, həm də Nurlar Yurdudur. Azərbaycanın uğur hekayəsindən çıxarıla bilən dərslərdən biri də budur ki, bir tərəfdən, İslam və adət-ənənələr, digər tərəfdən, tərəqqi, əslində, yan-yana mövcud ola bilər. Bu dərsi Avrasiya, Fars körfəzi və Yaxın Şərq, eləcə də Mərakeş modelindəki digər uğur hekayələri də təsdiqləyir.

Azərbaycanın uğur hekayəsi sübut edir ki, müxtəliflik və fərqlilik, hər bir ölkənin xüsusiyyətlərinə, kontekstinə və siyasi ənənələrinə hörmətlə yanaşılmaqla, tərəqqi və təkamül üçün əsl sərvətdir. Halbuki əvvəllər mövcud olmuş mədəni və siyasi modelləri təkrarlamaq və onları dünyaya tətbiq etmək adətən çıxılmaz vəziyyətə və mədəni şizofreniyaya gətirib çıxarır.

Yekun olaraq, icazə verin, deyim ki, Azərbaycan Milli Məclisinin bu ölkənin çoxillik tarixi ilə qırılmaz surətdə bağlı olan bir şəxsiyyətin adını şərəflə xatırladığı və yad etdiyi bu milli bayramda iştirak etməkdən məmnunam.

Mən sizi nailiyyətləriniz münasibəti ilə təbrik edir və səmimi qəbula görə təşəkkür edirəm. (*Alqışlar.*)

**Sədrlik edən.** Çox sağ olun, cənab sədr.

İndi isə söz Serbiya Milli Assambleyasının sədri cənab Vladimir Orliçə verilir. Buyurun, cənab sədr. (*Alqışlar.*)

## Serbiya Milli Assambleyasının sədri cənab Vladimir Orliçin çıxışı

**Dəyərli xanım sədr Qafarova!**
**Hörmətli parlament sədrləri!**
**Hörmətli parlament üzvləri!**
**Xanımlar və cənablar!**

Dostlarımızla birlikdə görkəmli siyasi və dövlət xadiminin şərəfinə "Heydər Əliyev İli"nin qeyd edilməsində iştirak etmək, Azərbaycan xalqı üçün tarixi bir günün bir hissəsi olmaq, Heydər Əliyevin ölkəsini mürəkkəb siyasi şəraitdən və çoxsaylı sınaqlardan keçirərək onun inkişafı, firavanlığı və gələcəyi naminə gördüyü hər bir işə hörmət və ehtiram nümayiş etdirmək mənim üçün böyük şərəfdir. Mən sizə Serbiya Respublikasının Prezidenti cənab Aleksandr Vuçiçin salamlarını və təbriklərini çatdırmaq istəyirəm. Bütövlükdə, Serbiya xalqı adından bu salamları və təbrikləri çatdırıram.

Heydər Əliyev öz xalqına, ümummilli məqsədlərə xidmət etməklə Azərbaycanı bir sıra çətinliklərdən çıxardı, ölkənin hərtərəfli inkişafı, bütün cəmiyyətin tərəqqisi üçün möhkəm təməllər qoydu və onların üzərində xalqının rifahı və qürurlu olması naminə hər şeyi edən sabit, güclü bir dövlət qurdu.

Milli və iqtisadi dirçəliş, müstəqilliyin əldə edilməsi, konsolidasiya və sabitlik dahi Heydər Əliyevin – müdrik, qətiyyətli və tədbirli şəxsiyyətin xidmətləri kimi yaddaşlarda həmişəlik qalacaq. Onun söylədiyi "əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə, ən böyük məmləkət qədər güclü olar" kəlamını biz bu gün bir daha təsdiqləyərək ölkələrimizin ərazi bütövlüyünü və suverenliyini qətiyyətlə qoruyur,

beynəlxalq arenada bu məsələdə vahid mövqedən çıxış edir, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə riayət edir, məhz BMT-nin nizamına əsaslanan beynəlxalq ümumi hüquqa və beynəlxalq prinsiplərə hörmət edirik.

Həmçinin parlamentarizm tarixi Heydər Əliyevin adı ilə qırılmaz surətdə bağlıdır. Onun məhz bu tribunada Milli Məclisin seçilmiş sədri kimi etdiyi çıxışın təkcə Azərbaycanın müasir tarixində deyil, həm də müasir Azərbaycan parlamentinin yaradılmasında dönüş nöqtəsi olduğunu haqlı olaraq söyləyə bilərik. O, çox qısa bir zaman kəsiyində bu qanunvericilik institutuna yeni siyasi mədəniyyət ruhunu gətirməyə nail oldu və bunu sonrakı illərdə də respublika Prezidenti vəzifəsində davam etdirdi. Ona görə də onun Milli Məclisi özü üçün "çox əziz və doğma bir yer, doğma evi" adlandırması təəccüblü deyil və mən əminəm ki, o, Milli Məclisin bütün nailiyyətləri ilə, xüsusən də beynəlxalq səviyyədəki uğurları ilə fəxr edərdi. Bugünkü mərasimə dünyanın hər yerindən nümayəndə heyətlərinin qatılması da bu uğurlara dəlalət edir.

**Əziz dostlar!**

Azərbaycan öz zəngin tarixinin şanlı səhifələrini iyirmi il əvvəl – qətiyyətli, uzaqgörən, Serbiya Respublikasının böyük və səmimi dostu olan Prezident İlham Əliyev ölkəyə rəhbərlik etməyə başladıqdan sonra da yazmağı dayandırmayıb. Sürətli və dinamik, lakin hər şeydən əvvəl məqsədyönlü və ardıcıl inkişafın yeni mərhələsi başlamış və Azərbaycan bugünkü möhtəşəm yubileyi müstəsna nəticələrlə, eləcə də gələcək tərəqqi üçün daha böyük perspektivlərlə qarşılayır.

Azərbaycanın uğurlarının Serbiya Respublikasında da şahidi oluruq və biz onları özümüzünkü kimi səbirsizliklə gözləyirik, çünki bu bizim ənənəvi dostlarımızın və

strateji tərəfdaşlarımızın uğurlarıdır. Ölkələrimiz arasında bu cür münasibətlərə güclü təkan ilk növbədə liderlərimiz, Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən verilmiş və bu, keçən ilin dekabrında Prezident Əliyevin Serbiyaya etdiyi sonuncu səfərlə də əlavə olaraq təsdiq edilmiş və möhkəmlənmişdir.

**Hörmətli xanım sədr Qafarova!**

İcazə verin, Sizi bu gözəl toplantının təşkili münasibəti ilə təbrik edim və Serbiyanı bu bayram anını sizinlə bölüşməyə və abidəsi Milli Assambleyamızın yanında, Belqraddakı ən gözəl parklardan birində fəxrlə ucaldılmış dahi Heydər Əliyevin xatirəsini yad etməyə dəvət etdiyinizə görə Sizə təşəkkür edim. Həmin abidə bizə qırılmaz əlaqələrimizi və onları qoruyub saxlamaq və daim yaxşılaşdırmaq öhdəliyimizi xatırladır.

Hörmətli spiker, bununla əlaqədar olaraq Belqrada nəzərdə tutulan səfərinizlə bağlı şəxsi məmnunluğumu bildirmək istərdim. Əminəm ki, bu səfər həm də maraq doğuran bütün sahələrdə əməkdaşlığa, milli parlamentlərimiz arasında gələcək əməkdaşlıq imkanlarını araşdırmağa və xalqımızın daha yaxşı həyatına birlikdə töhfə verməyə hazır olduğumuzu təsdiq edəcək. Sizin Azərbaycanın Müstəqillik Günü ərəfəsində Serbiyaya gələcəyinizdən xüsusi ilə məmnunam. Belə ki, bu bizim möhkəm dostluğumuzu bir daha birmənalı və aydın şəkildə təsdiq edir. Bilin ki, Siz hər zaman bizim tərəfimizdən eyni dostluğa, dəstəyə və kömək əlinə arxalana bilərsiniz.

Sonda fürsətdən istifadə edərək, Serbiya Respublikasının Milli Assambleyası, xalqımız adından və şəxsən öz adımdan Azərbaycan Respublikasının daha da çiçəklənməsi, parlaq gələcəyi və xalqının rifahı naminə ən səmimi

arzularımı çatdırmaq istərdim.

Diqqətinizə görə təşəkkür edirəm. (*Alqışlar.*)

**Sədrlik edən**. Çox sağ olun, cənab sədr.

Çıxış edir Cənubi Afrika Respublikası Milli Assambleyasının sədri xanım Nosivive Mapisa-Nqakula. Buyurun, xanım sədr. (*Alqışlar.*)

## Cənubi Afrika Respublikası Milli Assambleyasının sədri xanım Nosivive Mapisa-Nqakulanın çıxışı

**Zati-aliləri Milli Məclisin hörmətli xanım sədri Sahibə Qafarova!**

**Hörmətli parlament üzvləri!**

**Hörmətli iclas iştirakçıları!**

Lideriniz və azad Azərbaycanın qurucu atası Zati-aliləri Heydər Əliyevin əlamətdar irsini qeyd etmək üçün bizi Milli Məclisin bugünkü xüsusi iclasına dəvət etdiyinizə görə Sizə, eləcə də bütün Azərbaycan xalqına təşəkkür edirik. Həmçinin bu ilin əvvəlində Xalqa müraciət və parlamentin builki sessiyasının rəsmi açılışı münasibəti ilə ölkəmizə səfər etdiyinizə görə Sizə təşəkkür edirik.

Ölkəmizdə Nelson Mandelanın nümunəsində olduğu kimi, Azərbaycan xalqının da tarixi və zəfər salnaməsi Heydər Əliyevin və onun müasiri olan həmvətənlərinin oynadığı böyük rol etiraf edilmədən yazıla və ya tam hesab edilə bilməz. Bizim sevimli Madiba kimi, o da xalqını ölkəsinin azadlığına və müstəqilliyinə nail olmaq uğrunda mürəkkəb tarixi və siyasi yolla irəliyə aparmış lider kimi dünya miqyasında şöhrət qazanmışdır.

**Xanım sədr!**

Bu gün biz onu təkcə bu ölkənin sabiq Prezidenti kimi

deyil, həm də müstəqil Azərbaycan dövlətinin qurucusu kimi yad edirik. Bu gün Heydər Əliyevin qoyub getdiyi irs, davamlı iqtisadi inkişafa malik müasir sabit demokratiya irsi indi də müxtəlif əməkdaşlıq təşəbbüsləri vasitəsi ilə dünyanın digər xalqlarının xeyrinə istifadə oluna bilər. Dünya iğtişaşlar və müharibələr dövrünü yaşayır ki, nəticədə bir çox xalqlar ərzaq təhlükəsizliyindən, dolanışıq xərclərinin artmasından və xroniki enerji çatışmazlığından əziyyət çəkirlər.

Cənubi Afrikada biz hesab edirik ki, Heydər Əliyevin Azərbaycanın iqtisadi transformasiyasının bir hissəsi kimi neft və qaz ehtiyatları strategiyalarını birləşdirən xüsusi uzaqgörənliyi indi tarixdə ən böyük enerji böhranı və iqtisadiyyata qarşı təhdidlə üzləşdiyimiz bir vaxtda bizə böyük fayda verə bilər.

Azərbaycanın Cənubi Afrika da daxil olmaqla bir sıra Afrika ölkələri ilə enerji əməkdaşlığını və texnologiya transferini təşviq etmək üçün artıq tərəfdaşlıq əlaqələri qurduğunu etiraf etmək lazımdır. Amma biz hesab edirik ki, Cənubi Afrikadakı vəziyyət infrastrukturun inkişafı baxımından olduqca təcili tədbirlər tələb edir. Biz hər iki hökuməti Cənubi Afrikanın qısa və ortamüddətli perspektivdə istehsal potensialını artırmaq üçün konkret hədəfləri olan təcili xilasetmə planını həyata keçirmək üçün cari əməkdaşlıq təşəbbüslərindən istifadə etməyə çağırırıq.

Hesab edirik ki, enerji resurslarının təmin edilməsində, davamlı enerji inkişafının dəstəklənməsində və enerji əməkdaşlığının təşviqində Azərbaycanın Afrika dövlətlərinə dəstək göstərmək səyləri qitədə və xüsusi ilə Cənubi Afrikada əlverişli və etibarlı enerjiyə çıxış imkanını yaxşılaşdıracaq.

İki ölkənin parlamentləri olaraq bizim əməkdaşlıq səylərimiz bu məsələnin iki ölkənin gündəliyinə daxil edilməsinə yardımçı ola bilər.

Eyni zamanda, icazə verin, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin yaradılması istiqamətində gördüyünüz işlərə görə Sizə və ölkənizə öz təşəkkürümüzü bildirim. Sizin ölkəniz həm 2019-cu ildə Qoşulmama Hərəkatının Dövlət Başçılarının Zirvə Toplantısına ev sahibliyi etdiyiniz dövrdə və Parlament Şəbəkəsinin yaradılması haqqında qərar qəbul olunmasında mühüm rol oynamış, həm də indi şəbəkəmizin ilk sədri kimi Sizin fəaliyyətiniz vasitəsi ilə rol oynamaqdadır.

Dünyanın, həqiqətən, ədalətli, dinc və təhlükəsiz olması uğrunda səy göstərdiyimizə görə hələ qarşıda keçilməli olan mühüm bir yolumuz var.

Ölkənizdəki bu mühüm tədbirlərə bizi dəvət etdiyinizə və qonaqpərvərliyə görə Sizə bir daha təşəkkür edirik. Bütün Cənubi afrikalılar adından biz həm də 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsini sizinlə və xalqınızla birlikdə qeyd edirik. Müvafiq olaraq onun anadan olmasının 100 illiyini də sizinlə birlikdə qeyd edirik. Təşəkkür edirəm. (*Alqışlar.*)

**Sədrlik edən**. Çox sağ olun, xanım sədr.

İndi isə söz Tacikistan Ali Məclisi Nümayəndələr Palatasının sədri cənab Mahmadtoir Zokirzodaya verilir. Buyurun, cənab sədr. (*Alqışlar.*)

## Tacikistan Ali Məclisi Nümayəndələr Palatasının sədri cənab Mahmadtoir Zokirzodanın çıxışı

**Hörmətli Sahibə Əli qızı Qafarova!**
**Hörmətli həmkarlar!**
**Əziz dostlar!**

İlk növbədə bugünkü tədbirdə iştirak etmək üçün dəvə-

tə, ənənəvi mehribanlığa və səmimi qonaqpərvərliyə görə Azərbaycan tərəfinə və şəxsən hörmətli Sahibə Əli qızı Qafarovaya minnətdarlığımı bildirmək istəyirəm.

Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi münasibəti ilə Tacikistan Respublikasının Prezidenti hörmətli Emoməli Rəhmonun salamlarını parlament üzvlərinə və bütün qardaş Azərbaycan xalqına çatdırmaq mənim üçün böyük şərəfdir.

İcazə verin, hörmətli Emoməli Rəhmonun təbrik müraciətini oxuyum.

"Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illiyi münasibəti ilə.

Azərbaycan Respublikası Milli Məclisinin hörmətli üzvləri, xüsusi iclasın iştirakçıları!

Mənim üçün böyük şərəfdir ki, Ümummilli Lider hörmətli Heydər Əliyevin 100 illiyinə həsr olunmuş iclasda sizə və sizin şəxsinizdə bütün qardaş Azərbaycan xalqına məmnuniyyətlə müraciət edirəm.

Heydər Əliyev Azərbaycan xalqının dahi oğludur. Heydər Əliyev, doğrudan da, Ümummilli Liderdir. O, bütün həyatını öz xalqına və ölkəsinə xidmətə, dünya miqyasında Azərbaycanın nüfuzunun güclənməsinə həsr etmişdir. Onun yorulmaz səylərinin bəhrəsini müasir Azərbaycanın simasında, onun xalqının firavanlığında görürük.

Heydər Əliyevin unudulmaz xatirəsinə dərin hörmətimi ifadə etmək istəyirəm. Həmişə onunla çox yaxın münasibətlərimi, müdrik və qardaşlıq məsləhətlərini xatırlayıram. Tacikistanda Heydər Əliyev şəxsiyyətinə çox böyük ehtiramla yanaşırlar və onun Tacikistan və Azərbaycan arasında dostluq və əməkdaşlıq münasibətlərinin qurulmasında böyük zəhmətini çox yüksək qiymətləndirirlər.

Bu fürsətdən istifadə edərək, Tacikistan və Azərbaycan

arasında çoxtərəfli münasibətlərin dərinləşməsini qeyd etmək istərdim. Əlamətdardır ki, bu il Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyevin Tacikistana dövlət səfəri baş tutmuşdur. Bu səfərin nəticələri bir daha sübut etdi ki, tacik və Azərbaycan xalqları ortaq tarixə, dostluğa, qardaşlığa, qarşılıqlı hörmətə və xoş münasibətə sadiqdirlər. Bu səfər zamanı əldə edilmiş razılıqlar iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığın əsasını qoyacaq. Əminəm ki, Tacikistan–Azərbaycan münasibətləri bu ardıcıl, müştərək addımlar və səylər nəticəsində artan xətlə inkişaf edəcək və bu da qardaş xalqlarımızın xeyrinə olacaqdır.

***Hörmətlə, Emoməli Rəhmon,***
***Tacikistan Respublikasının Prezidenti***".

**Əziz dostlar!**

Şəxsən öz adımdan əlavə etmək istərdim ki, Azərbaycanın dövlət başçısı kimi fədakar əməyi və uzunmüddətli səmərəli fəaliyyəti, həqiqətən də, Heydər Əlirza oğluna ölkədə və onun hüdudlarından kənarda ümumbəşəri hörmət və layiqli nüfuz qazandırmışdır.

Əminliklə demək olar ki, Heydər Əlirza oğlunun lider kimi çoxşaxəli fenomeni, ilk növbədə, onun müstəsna idarəçilik keyfiyyətlərində, yüksək əqli gücündə və tükənməz iş qabiliyyətində, xalqının və dövlətinin rifahına nail olmaq istiqamətində yorulmaz səylərində, insanlara qarşı daim həssas münasibətində idi.

Bu mənada Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi zəkanın təntənəsini, Azərbaycan xalqının birliyini və həmrəyliyini təcəssüm etdirən əlamətdar tarix və işıqlı bir bayramdır. O xalqın ki, öz liderinin başçılığı altında bu qədim xalq öz dövlət-

çiliyinə layiq olduğunu, onun əsaslarının formalaşmasında və möhkəmlənməsində böyük uğurlar qazandığını bütün dünyaya sübut etmişdir.

Heydər Əlirza oğlunun liderlik fenomeni həm də müstəqil Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun ardıcıl olaraq möhkəmlənməsində özünü hərtərəfli büruzə vermişdir.

Azərbaycan xalqının bu görkəmli oğlu ilə Tacikistan Respublikasının Prezidenti möhtərəm Emoməli Rəhmonun Tacikistan–Azərbaycan əlaqələrinin möhkəmləndirilməsi və genişləndirilməsi sahəsində şəxsi qardaşlıq və dostluğunu və uzun illər birgə yaradıcı fəaliyyətini qeyd etməyə bilmərəm. Bu gün həmin əlaqələr ənənəvi qarşılıqlı anlaşma, qarşılıqlı hörmət və tərəfdaşlıq ruhunda inkişaf edir.

Tacikistanda Azərbaycanla etimada və qarşılıqlı anlaşmaya əsaslanan, tarixi kökləri olan dostluq və əməkdaşlıq münasibətlərini yüksək qiymətləndirirlər.

Əlamətdar haldır ki, bu il Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Heydər oğlu Əliyevin Tacikistana dövlət səfəri baş tutmuş və onun nəticələri ölkələrimiz arasında münasibətlərin müasir salnaməsində yeni səhifə açmışdır.

Bu səfər zamanı möhtərəm İlham Heydər oğlu xüsusi olaraq demişdir: “Mən Emoməli Şərifoviç Rəhmonla birlikdə ölkələrimiz arasında dövlətlərarası münasibətlərin formalaşmasının başlanğıcında dayanan atam Heydər Əliyevin xatirəsinə göstərdiyi səmimi münasibətə görə Tacikistan Prezidentinə minnətdarlığımı bildirmək istərdim. O, Emoməli Şərifoviç Rəhmon ilə birlikdə ölkələrimiz arasında dövlətlərarası münasibətlərin formalaşmasının təşəbbüskarı olub və mahiyyət etibarı ilə onlar bu münasibətlərin əsasını qoymuşlar.

Bu gün ölkələrimiz arasında qardaşlıq münasibətlərinin

uğurlu inkişafı məhz 1990-cı illərin əvvəllərində həm Tacikistanın, həm də Azərbaycanın böyük çətinliklər yaşadığı, ölkələrimizdə – həm Tacikistanda, həm də Azərbaycanda ictimai-siyasi sabitliyin pozulduğu dövrdə həmin fəaliyyətin nəticəsidir, təəssüf ki, o vaxt vətəndaş müharibəsi gedirdi. Ən dəhşətli müharibə qardaş qırğınıdır.

Həm Prezident Rəhmon, həm də Prezident Əliyev hər biri öz ölkəsində qanlı səhifəni çevirmək, ölkələrimizi inkişaf yoluna çıxarmaq üçün nə mümkündürsə etdilər və buna müvəffəq oldular".

Ötən illər ərzində Azərbaycan xalqı Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin şəxsiyyətinin müstəsna xarakterini daha çox dərk etmişdir. Hər bir azərbaycanlı bütün həyatını vətənə xidmətə həsr etmiş rəhbərinə münasibətdə qürur və dərin hörmət hissi keçirir.

Azərbaycanla Tacikistanı, artıq qeyd etdiyim kimi, tarixən formalaşmış dostluq əlaqələri birləşdirir. Əminəm ki, zamanın sınağından çıxmış bu möhkəm və xoş ənənələrə əsaslanan dövlətlərarası münasibətlərimiz bundan sonra da qardaş xalqlarımızın rifahı naminə məhsuldar şəkildə inkişaf edəcək və möhkəmlənəcəkdir.

Sonda Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi münasibəti ilə hamınıza və bütün Azərbaycan xalqına bir daha ən xoş arzularımı çatdırmaq istəyirəm.

Hamınıza uğurlar arzulayıram. Diqqətinizə görə təşəkkür edirəm. (*Alqışlar.*)

**Sədrlik edən**. Çox sağ olun, cənab sədr.

Çıxış edir Özbəkistan Ali Məclisi Senatının sədri xanım Tənzilə Narbayeva. Buyurun, xanım sədr. (*Alqışlar.*)

## Özbəkistan Ali Məclisi Senatının sədri xanım Tənzilə Narbayevanın çıxışı

"Vətənpərvərlik insanın daxilindəki duyğudur. Əgər bu yoxdursa, o insan mənəviyyatsızdır".

**Hörmətli Sahibə Əli qızı!**

**Hörmətli nümayəndə heyətlərinin rəhbərləri!**

**Əziz həmkarlar, xanımlar və cənablar!**

Bu sözləri yaxın keçmişdə haqlı olaraq müasir Azərbaycan dövlətçiliyinin banisi sayılan görkəmli siyasətçi və dövlət xadimi söyləmişdir. Təbii ki, söhbət Ümummilli Lider, Azərbaycan xalqının dahi oğlu Heydər Əliyevdən gedir. Bu gün hamımız onun 100 illik yubileyinin qeyd olunması şərəfinə Milli Məclisin xüsusi iclasında iştirak edirik. Buna görə mən Sahibə Xanım Qafarovaya xüsusi minnətdarlığımı bildirirəm.

Hörmətli həmkarlar, doğrudan da, Heydər Əliyev öz xalqını sevən böyük vətənpərvər idi. O, daim deyirdi: "Mən həmişə fəxr etmişəm ki, mən azərbaycanlıyam!" O, azərbaycanlı olması ilə həmişə fəxr edən böyük şəxsiyyət idi. Məndən əvvəl çıxış edənlər onun Azərbaycan tarixində necə böyük rol oynadığını artıq qeyd etdilər.

Məhz Heydər Əliyev bir lider kimi ölkənin ən çətin vaxtında Azərbaycanın taleyi üçün böyük məsuliyyəti cəsarətlə öz üzərinə götürərək xalqın birliyinə nail olmuş, ölkənin müstəqilliyinin möhkəmləndirilməsi və inkişafında müstəsna rol oynamışdır. Onun qətiyyəti, güclü siyasi iradəsi və müstəsna liderlik keyfiyyətləri sayəsində qardaş ölkə çətin sınaqlardan ləyaqətlə çıxmışdır.

Azərbaycanın iqtisadi və mədəni inkişafı, ölkədə ictimai sistemin və ictimai münasibətlərin köklü transformasiyası Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan öz

Ümummilli Liderinin rəhbərliyi ilə iqtisadi inkişaf, demokratiya və zəngin mədəni irsinin artırılması yoluna inamla qədəm qoymuş, ən qısa zamanda beynəlxalq aləmdə böyük nüfuz qazanmışdır.

Məhz onun fəaliyyəti dövründə Azərbaycan xalqının bu gün də fəxr etdiyi elə mütərəqqi sosial-iqtisadi islahatlar həyata keçirilmişdir ki, xarici dövlətlər bu təcrübəni diqqətlə öyrənərək tətbiq etməyə çalışırlar. Mübaliğəsiz qeyd etmək olar ki, Heydər Əliyev şəxsiyyəti və onun müstəqil Azərbaycanın memarı kimi böyük irsi dünyanın görkəmli siyasətçiləri və ictimai xadimləri tərəfindən yüksək qiymətləndirilir.

Sevindirici haldır ki, möhtərəm Prezident İlham Əliyev atasının başlatdığı işləri layiqincə davam etdirir. Məhz onun inamlı rəhbərliyi altında ölkə daha da inkişaf etmiş, xalqın rifahı yüksəlmiş, beynəlxalq nüfuzu getdikcə artan Azərbaycan dünya miqyasında söz sahibinə çevrilmişdir.

**Hörmətli iclas iştirakçıları!**

Onu da xüsusi olaraq qeyd etmək istərdim ki, Özbəkistanda Heydər Əliyevin xatirəsi böyük ehtiramla yad edilir. Özbək xalqı bu dahi şəxsiyyəti unutmur, onun Özbəkistan və Azərbaycan arasında qardaşlıq əlaqələrinin inkişafına və möhkəmlənməsinə verdiyi töhfəni həmişə minnətdarlıq hissi ilə xatırlayır.

Onun xatirəsi ölkəmizdə əbədiləşdirilib. Bu gün Daşkəndin mərkəzi küçələrindən biri Heydər Əliyevin adını daşıyır. Prezident İlham Əliyevin 2022-ci ilin iyununda Özbəkistana rəsmi səfəri çərçivəsində onun şərəfinə həmin küçənin açılış mərasimi olmuş, xatirə barelyefi qoyulmuşdur.

Azərbaycanda olduğu kimi, Özbəkistanda da Heydər Əliyevin 100 illik yubileyi geniş şəkildə qeyd olunur. Xüsusi ilə bu əlamətdar tarix münasibəti ilə Heydər Əliyevin

həyatına, fəaliyyətinə və irsinə həsr olunmuş elmi konfranslar, dəyirmi masalar, yaradıcılıq gecələri, konsertlər və digər tədbirlərin keçirilməsi davam etdirilir.

Bu, Azərbaycan xalqının Ümummilli Liderinə özbək xalqının böyük ehtiramının parlaq ifadəsidir.

**Əziz dostlar!**

Heydər Əliyevin xatirəsi və onun keçdiyi tarixi yol təkcə azərbaycanlı bacı-qardaşlarımızın deyil, özbək xalqının da qəlbində əbədi yaşayacaq. Özbəkistan parlamentinin nümayəndə heyəti və bütün parlament üzvləri adından mən bir daha azərbaycanlı dostlarımızı əlamətdar tarix – Heydər Əliyevin 100 illik yubileyi münasibəti ilə səmimi qəlbdən təbrik edirəm.

Hər kəsə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına sülh və firavanlıq, daimi tərəqqi və çiçəklənmə arzulayıram.

Diqqətinizə görə təşəkkür edirəm. (*Alqışlar.*)

**Sədrlik edən**. Çox sağ olun, xanım sədr.

İndi isə Əlcəzair Xalq Palatası sədrinin müavini cənab Səlim Şennofiyə söz verilir. Buyurun, cənab sədr müavini. (*Alqışlar.*)

## Əlcəzair Xalq Palatası sədrinin müavini cənab Səlim Şennofinin çıxışı

**Azərbaycan Respublikası Milli Məclisinin sədri hörmətli Sahibə xanım Qafarova!**

**Hörmətli Azərbaycan Respublikası Milli Məclisinin deputatları!**

**Hörmətli iştirakçılar!**

**Xanımlar və cənablar!**

Sizi salamlayıram. Allahın rəhməti üzərinizdə olsun!

İlk öncə öz adımdan və Əlcəzairin Millət Şurasının üzvləri adından dost Azərbaycan Respublikasının qurucusunun 100 illik yubileyi münasibəti ilə bizi dəvət etdiyi üçün Milli Məclisin sədri çox hörmətli Sahibə xanım Qafarovaya təşəkkürümüzü çatdırmaq istəyirəm. Millət vəkili dostlarımla birgə adı vətənpərvərlik, quruculuq, islahat, xalqa, millətə mənsubiyyətlə bağlı olan görkəmli siyasi şəxsiyyət və müdrik rəhbər Heydər Əliyevin xatirəsini yad etmək və bu gözəl günü qeyd etmək mənim üçün şərəfdir. O öz cəsarəti, müdrikliyi, dərin dünyagörüşü ilə Azərbaycan xalqının fəxr etdiyi şöhrəti qazanmış, gələcək nəsillər üçün zəngin miras qoymuşdur.

Bu münasibətlə Azərbaycan Respublikası Milli Məclisinin spikerinə və millət vəkillərinə Əlcəzair Millət Şurasının sədri Saleh Qucelin təbriklərini çatdırmaq istərdim. Cənab sədr Azərbaycan Respublikasının rəhbərliyinə və xalqına daha çox inkişaf, tərəqqi, sabitlik və əmin-amanlıq arzu edir.

Heydər Əliyev görkəmli siyasi xadim və müdrik bir liderdir. Onun adı millətin inkişafı ilə sıx bağlıdır. Onun əldə etdiyi böyük nailiyyətlər Azərbaycan xalqının yaddaşında əbədi qalıb və Azərbaycan xalqı öz Ümummilli Lideri ilə fəxr edir. Gələcək nəsillər də bu böyük nailiyyətlərin bəhrəsini görəcəklər. Bu nailiyyətlər, Azərbaycanın beynəlxalq və regional səviyyələrdə əldə etdiyi uğurlar onun bəsirəti və uzaqgörənliyi sayəsində mümkün olmuşdur. Biz bu gün bütün bu uğurların nəticəsi olaraq müasir Azərbaycanı görürük. Azərbaycan regionda mühüm ölkəyə çevrilmişdir.

Azərbaycan Respublikasının regional və beynəlxalq aləmdə qazandığı yüksək status onun rəhbəri və qurucusunun böyüklüyünü, cəsarətini, xalqına və bu gün

qarşımızda təcəssüm edən parlaq gələcəyinə inamı əks etdirir. Ölkəm Əlcəzair bu mühüm ölkə ilə arasında güclü əlaqələrinin olmasına görə fəxr edir. Bu əlaqələr iki ölkənin liderləri cənab Abdul Məcid Tebboune və cənab İlham Əliyevin rəhbərliyi altında siyasi, iqtisadi və mədəni sahələrdə yüksək səviyyədə koordinasiya olunur və əməkdaşlıq getdikcə güclənir. Biz İslam aləmində eyni dini dəyərləri paylaşırıq. Biz Azərbaycanın rəhbərlik etdiyi Qoşulmama Hərəkatının bayrağı altında bütün hallarda qoşulmama prinsipinin səmərəliliyinə inanırıq. Biz ədalətə, azadlığa, suverenliyə, dinc birgəyaşayışa, insan hüquqlarına hörmət etməyə çağıran eyni prinsipləri bölüşür və iki ölkənin azadlıq və müstəqillik mübarizəsindəki təcrübələrinə əsaslanaraq, dünyada ədalətli işlərə və antimüstəmləkəçiliyə dəstəyi ifadə edirik. Əlcəzair Azərbaycan Respublikasının müstəqilliyini tanıyan ilk ölkələrdən biri olmaqdan və onunla əməkdaşlıq, qarşılıqlı hörmət və ümumi maraq doğuran bir çox məsələlərdə mövqe və baxışların harmoniyasının hökm sürdüyü möhkəm əlaqələr qurmaqdan qürur duyur.

Parlament diplomatiyası sahəsində biz regional və beynəlxalq parlament forumlarında ümumi mövqe səbəbi ilə bir araya gəlmişik. Azərbaycan Qoşulmama Hərəkatında xalqlar üçün qlobal sağlamlıq böhranı zamanı dəyərli təşəbbüsləri, balanslaşdırılmış, sülhsevər qlobal yanaşması ilə səciyyələnən rəhbərliyi ilə hər zaman keşikçi rolunu oynamışdır. Bu gün hamımızın şahidi olduğumuz beynəlxalq qütbləşmənin artdığı, dövlətlərin sabitliyini və xalqların təhlükəsizliyini təhdid edən, həmçinin inkişaf layihələrinə maneə yaradan amillərin mövcud olduğu bir vaxtda dünyanın bu rola əvvəlkindən daha çox ehtiyacı var. Bu, hərəkatın prinsipləri ilə bağlı olan nizamnamənin

yenilənməsini, rolunun aktivləşdirilməsini və soyuq müharibə şəraitindən uzaqlaşaraq mövcud beynəlxalq vəziyyətə uyğun konsepsiyalarının yenilənməsini tələb edir.

Mən bu tarixi səyin təcəssümündə, xalqların rolunun genişləndirilməsində, həmçinin beynəlxalq sülh və təhlükəsizlik naminə münaqişədən və nüfuzu yaymaq uğrunda şiddətli rəqabətdən uzaq, balanslaşdırılmış beynəlxalq münasibətlərin qurulmasında parlament fəaliyyətinin əhəmiyyətini nəzərə alaraq, ilk təsis konfransı paytaxt Bakıda keçirilmiş Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin yaradılmasını yüksək qiymətləndirirəm.

Biz bu çoxtərəfli parlamentlərarası əməkdaşlıqla bərabər, mahiyyəti əcdadlarımızın özünəməxsusluğuna və etibarlılığına sadiqlik olan, dərin insani və mədəni bağların birləşdirdiyi iki dost xalqın nümayəndələri olaraq, bütün mövcud diplomatik mexanizmlərdən istifadə etməklə və iki ölkə arasında parlamentlərarası dostluğu gücləndirməklə Əlcəzair–Azərbaycan əməkdaşlığını daha da genişləndirməyə hər zaman həvəs göstəririk.

Azərbaycan Respublikasının qurucusunun anadan olmasının 100 illik yubileyi münasibəti ilə bir daha sizə səmimi təbriklərimi çatdırıram. Sizlərə daha çox tərəqqi, daha çox nailiyyətlər arzu edirəm. Allah Ulu Öndər Heydər Əliyevə rəhmət eləsin, onun varisi cənab Prezident İlham Əliyevə ali vətənpərvərlik missiyasını yerinə yetirməkdə uğurlar nəsib etsin.

Diqqətiniz üçün təşəkkür edirəm. (*Alqışlar.*)

**Sədrlik edən.** Çox sağ olun, hörmətli həmkar.

İndi isə çıxış edir Belarus Parlamentinin Respublika Şurası sədrinin müavini cənab Valeri Belski. Buyurun, cənab sədr müavini. (*Alqışlar.*)

## Belarus Parlamentinin Respublika Şurası sədrinin müavini
## cənab Valeri Belskinin çıxışı

**Zati-aliləri hörmətli xanım sədr Sahibə Əli qızı!**

**Hörmətli həmkarlar!**

Hər şeydən əvvəl, icazə verin, Belarus Respublikası Parlamentinin yuxarı palatasının rəhbərinin – Respublika Şurasının sədri xanım Natalya İvanovna Koçanovanın səmimi təbrikini sizə təqdim edim.

“**Hörmətli Sahibə Əli qızı!**

Belarus Respublikası Milli Məclisinin Respublika Şurası adından və şəxsən öz adımdan əlamətdar tarix – Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 100 illiyi münasibəti ilə ən səmimi təbriklərimizi qəbul edin.

O, dünya miqyaslı dövlət xadimi idi. Heydər Əliyevin əsasını qoyduğu strategiyalar, onun uzaqgörən siyasəti və kompleks qərarları Azərbaycan Respublikasının suveren, uğurlu dövlət kimi inkişafında mühüm rol oynamışdır.

Belarus və Azərbaycan xalqlarının tarixi talelərinin ümumiliyi və çoxillik dostluğu Belarus–Azərbaycan münasibətlərinin indiki xüsusi etimad xarakterini müəyyən etmişdir.

Biz aramızda yaranmış güclü parlamentlərarası əlaqələri yüksək qiymətləndiririk və öz tərəfimizdən Belarus və Azərbaycan arasında səmərəli, qarşılıqlı faydalı əməkdaşlığın davam etdirilməsinə töhfə verməklə onları genişləndirməyə, yeni məzmunla zənginləşdirməyə və möhkəmləndirməyə hazırıq.

Fürsətdən istifadə edərək, hörmətli Sahibə Əli qızı, Sizə çox yüksək ehtiramımı, həmçinin Azərbaycan xalqına

sülh, xoşbəxtlik və firavanlıq arzularımı çatdırıram.

***Dərin hörmətlə, Natalya İvanovna Koçanova,***
***Belarus Respublikası Respublika Şurasının sədri****”.*

Belarusda Heydər Əliyevin şəxsiyyətinə böyük hörmətlə yanaşırlar. Onun böyük nailiyyətlərini və zəngin irsini mən bir az qeyri-adi şəkildə sübut etmək istədim. Mənim əlimdə “Belarus kommunisti” qəzetidir. Bu qəzetin bu nömrəsi bir çox insanlar üçün kədərli bir tarix ərəfəsində çapdan çıxmışdır. Digərlərinə isə yeni imkanlar yaratmışdır. SSRİ-nin süqutunun 30 illiyinə həsr olunmuş bir məqalədə Kommunist Partiyasının rəhbəri SSRİ-nin süqutunun səbəbləri və onun mümkün alternativ inkişaf yolları haqqında düşünür. Biz hamımız bilirik ki, Heydər Əliyev kommunist hərəkatının rəhbərlərindən biri olmuşdur. Hesab edirəm ki, yerinə düşən bu sözlər onun siyasi miqyasının sübutu ola bilər. O bu rolu oynaya bilərdi, amma oynamamışdır – yazılır. Təəssüf ki, Sovet İttifaqının sonuncu liderinin işgüzar keyfiyyətləri öz üzərinə götürdüyü missiyanı yerinə yetirməyə imkan verməmişdir. Kommunist Partiyası həm də dövlət orqanları üzərində hakim idi. Baxmayaraq ki, partiyada dahi şəxsiyyətlər var idi. Onlar öz təşkilati bacarıqlarını rəhbəri olduqları müstəqil dövlətlərin üzərinə düşən vəzifələrin icrasında göstərdilər. Hesab edirəm ki, bunlar Nursultan Nazarbayev, Siyasi Büronun üzvü, iki dəfə Sosialist Əməyi Qəhrəmanı Heydər Əlirza oğlu Əliyev idi. O, Azərbaycan SSR KP MK-nın birinci katibi və SSRİ Nazirlər Kabineti sədrinin birinci müavini vəzifələrində çalışmışdır. Bu sözlər Heydər Əliyevin böyük potensialının sübutudur. Həmin böyük potensial isə Azərbaycan xalqının rifahı üçün realizə olunmuşdur. Amma daha geniş miqyasda da realizə oluna bilərdi.

Dəvətinizə görə çox sağ olun. Sizə sülh və əmin-amanlıq arzu edirəm. (*Alqışlar.*)

**Sədrlik edən**. Çox sağ olun, cənab Belski.

Belarus Parlamentinin Nümayəndələr Palatası sədrinin müavini cənab Valeri Mitskeviçə söz verilir. Buyurun, cənab Mitskeviç. (*Alqışlar.*)

## Belarus Parlamentinin Nümayəndələr Palatası sədrinin müavini cənab Valeri Mitskeviçin çıxışı

**Hörmətli xanım sədr!**
**Hörmətli həmkarlar!**
**Xanımlar və cənablar!**

Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş xüsusi iclasda iştirak etmək və Azərbaycan Respublikası Milli Məclisinin yüksək tribunasından Belarus Respublikası Milli Məclisinin Nümayəndələr Palatasının deputatları adından çıxış etmək mənim üçün böyük şərəfdir.

Bütöv bir dövr Heydər Əliyevin adı ilə bağlıdır. Sovet İttifaqı dövründə o, böyük bir ölkənin rəhbərliyində ən təcrübəli və prinsipial dövlət xadimlərindən biri idi. Heydər Əliyev iki dəfə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüş, beş dəfə “Lenin” ordeni, “Qırmızı ulduz” ordeni ilə təltif edilmişdir.

Azərbaycan xalqının Ümummilli Lideri çətin bir zamanda, həqiqətən, tarixi rol oynayaraq müstəqil və yeni bir ölkə qurdu. Onun müdrikliyi, uzaqgörənliyi və qətiyyəti elə bir möhkəm təməl qoymağa imkan verdi ki, ona əsaslanan Azərbaycan indi çiçəklənir, beynəlxalq nüfuzu möhkəmlənir.

Azərbaycan xalqının dahi oğlunun xatirəsinə Azərbay-

can Respublikasının ali mükafatı olan "Heydər Əliyev" ordeni təsis edilmiş, Belarus Respublikasının Prezidenti A.Q. Lukaşenko bu ordenlə təltif edilmişdir.

Qeyd etməyə bilmərəm ki, 2000-ci illərdə Belarus Respublikası Milli Məclisinin Nümayəndələr Palatasının hazırkı deputatı aparıcı milli telekanalda sizin ecazkar ölkəniz, onun çətin taleyi barəsində və Azərbaycan millətinin dirçəlişində həlledici rol oynamış Heydər Əliyev haqqında filmlər təqdim etmişdir.

Bizim ölkəmizdə Belarus–Azərbaycan münasibətlərinin qurulmasında Heydər Əliyevin şəxsi töhfəsi yüksək qiymətləndirilir. Heydər Əliyev 1993-cü ildə Belarusla diplomatik münasibətlər quran ilk rəhbərlərdən olmuşdur. Bu il iyunun 11-də biz bu münasibətlərin 30 illiyini qeyd edəcəyik.

Bu müddət ərzində strateji tərəfdaşlığın dərinləşdirilməsi kursunu davam etdirərək Minsk və Bakı siyasi dialoqun, iqtisadi, ticari və mədəni əlaqələrin inkişafı istiqamətində mühüm addımlar atmışlar. Belarus və Azərbaycan liderləri arasında əlaqələrin xüsusi dostluq xarakteri ölkələrimiz və xalqlarımız arasında uzunmüddətli və möhkəm dostluğun əsasını təşkil edir.

Azərbaycanın hazırkı Prezidenti İlham Əliyev atasının layiqli varisi kimi ölkənin inkişafı və Belarus–Azərbaycan münasibətlərinin hərtərəfli möhkəmləndirilməsi istiqamətində kursu uğurla davam etdirir. Bizim müstəqil Belarusun taleyüklü dövrlərində o, müdrik siyasətçi və əsl dost olduğunu nümayiş etdirmişdir. Bakının xeyirxah jesti Minskdə həmişə xatırlanacaq.

Dinamik əməkdaşlıq parlamentlərarası dialoqda da öz əksini tapır. Parlamentlərarası əlaqələrin inkişafının bütün tarixi ərzində bizim aramızda heç vaxt fikir ayrılığı olma-

yıb. Milli nümayəndə heyətlərimizin daim bir-birini dəstəklədiyi beynəlxalq platformalarda bizim işimiz sıx qarşılıqlı əlaqədə və konstruktiv məcrada qurulur. Qarşılıqlı yardım səmərəli əməkdaşlığımızın uğurunun sarsılmaz prinsipi və təminatıdır. Əsas odur ki, bizim siyasi iradəmiz və liderlərimiz var və onların arasında möhkəm dostluq münasibətləri Belarus və Azərbaycan hakimiyyətlərinin bütün qolları üçün bir örnək, etalondur.

Əminəm ki, Heydər Əliyevin xatirəsi əsrlər boyu yaşayacaq, qədirbilən xalq onun zəngin irsini qoruyaraq gələcək nəsillərə çatdıracaqdır. Onun həyat yolu hamımız üçün örnəkdir.

İcazə verin, hamınızı Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibəti ilə bir daha təbrik edim, Azərbaycana və dünyanın gözəl ölkəsi olan ölkənizin qonaqpərvər xalqına sülh, rifah və firavanlıq arzulayım.

Diqqətinizə görə təşəkkür edirəm. (*Alqışlar.*)

**Sədrlik edən**. Çox sağ olun, cənab Mitskeviç.

İndi isə çıxış edir Xorvatiya Parlamenti sədrinin müavini cənab Davorko Vidoviç. Buyurun, cənab Vidoviç. (*Alqışlar.*)

## Xorvatiya Parlamenti sədrinin müavini cənab Davorko Vidoviçin çıxışı

**Hörmətli xanım spiker Sahibə Qafarova!**
**Möhtərəm zati-aliləri!**
**Hörmətli həmkarlar və dostlar!**

İcazə verin, ilk növbədə ölkəniz üçün belə mühüm bir tarixi gündə sizinlə birlikdə olmaq imkanı yaratdığınıza, dəvətə görə təşəkkürümü bildirim.

Bu gün Xorvatiya nümayəndə heyətinin burada olması bizim dostluğumuzun, əməkdaşlığımızın canlı sübutudur

və əlaqələrimiz nə qədər güclü olsa da, onu dərinləşdirmək istəyimizin təzahürüdür. Coğrafi baxımdan yaxın olmasaq da, bizi bir-birimizə bağlayan çox şey var.

Hər iki ölkə çoxmillətli böyük dövlətdən ayrılaraq müstəqillik əldə etmişdir. Hər iki ölkə planlı iqtisadiyyatdan azad iqtisadiyyata doğru keçid etmiş, azadlıq əldə etmək, beynəlxalq birlikdə öz yerini təmin etmək və dövlət qurmaq yolunda əzmkarlıq və qətiyyətlilik göstərməli olmuşdur. Belə dövrlər uzaqgörənlik, liderlik, qətiyyət və kifayət qədər cəsarət tələb edir.

Mərhum Prezident Heydər Əliyev bu çətinliklərdən çəkinmədi və bir çoxları tərəddüd etdiyi zaman məsuliyyəti öz üzərinə götürdü. Bununla da o, Azərbaycan tarixində öz layiqli yerini təmin etmişdir.

Biz münasibətlərimizi, dostluğumuzu və qarşılıqlı hörmətimizi məhz azadlığımızın, dövlətçiliyimizin və demokratiyamızın təməlləri üzərində qurmuşuq.

Son illər planetimiz, ölkələrimiz və siyasi liderlərimiz bir çox çağırışlarla qarşılaşıb. Bununla belə, bizim qəti inamımız var ki, bütün bu çağırışlara qarşılıqlı hörmət, beynəlxalq hüququn dəstəklənməsi və sülhün qorunması ilə uğurlu cavab verilə bilər. Övladlarımıza daha yaxşı, təhlükəsiz və dinc bir dünya qoyub getmək bizim borcumuzdur. Bu işdə Xorvatiya həmişə Azərbaycanın dostu və tərəfdaşı olacaqdır.

Nəhayət, xanım sədr, icazə verin, bütün vətəndaşlarınız üçün firavanlıq və əmin-amanlığın təmin edilməsində Sizə və ölkənizə bol-bol uğurlar arzu edim! (*Alqışlar.*)

**Sədrlik edən**. Təşəkkür edirəm, hörmətli həmkar.

Macarıstan Milli Assambleyası sədrinin müavini cənab Şandor Lejaka söz verilir. Buyurun, cənab Lejak. (*Alqışlar.*)

## Macarıstan Milli Assambleyası sədrinin müavini cənab Şandor Lejakın çıxışı

**Hörmətli xanım spiker!**
**Hörmətli parlament üzvləri!**
**Əziz dostlar!**

Çox sağ olun. Biz bu gün burada Heydər Əliyevin 100 illik yubileyində iştirak etmək, onun xatirəsini ehtiramla anmaq üçün toplaşmışıq. Bu yubiley münasibəti ilə Macarıstan Milli Assambleyası adından sizi təbrik edir, ehtiramla və dostcasına salamlayıram.

Heydər Əliyev XX əsrin məşhur şəxsiyyəti, Azərbaycanı dünyada tanıdan lider olmuşdur. Müasir Azərbaycan dövlətinin qurucusu olan Heydər Əliyev Azərbaycanın milli maraqlarını hər zaman qorumuşdur. Hələ sovetlər dövründə Bakıda partiya rəhbəri kimi öz ölkəsinin maraqlarını müdafiə etmişdir. O, sadə Azərbaycan xalqına çox yaxın idi. Xüsusən ölkənin rayonlarına, yayda Naxçıvana səfərləri zamanı onun sadə insanlarla təmasları daha sıx olmuşdur.

1993-cü ildə müharibə şəraitində və vətəndaş müharibəsi astanasında olan Azərbaycanı məhz Heydər Əliyev qurtarmış, öz ölkəsini tənəzzüldən inkişaf yoluna çıxarmağı bacarmışdır. O, Yeni Azərbaycan Partiyasını yaratmış, dövlət başçısı seçilməzdən əvvəl bu parlamentin üzvü, sonra isə spikeri olmuşdur. Sovet İttifaqının tərkibindən çıxmış suveren və müstəqil Azərbaycan onun rəhbərliyi ilə tezliklə sabit və perspektivli dövlətə çevrilmişdir.

Heydər Əliyevin vəzifəsi nə az, nə çox – dövləti qurmaq və bunun üçün xalqı səfərbər etmək idi. O, böyük məsuliyyətlə yanaşdığı bu çətin işi bacardı. Heydər Əliyevin hakimiyyətdə olduğu on il müstəqil Azərbay-

canın tarixində əlamətdar onillik oldu. Onun səyləri nəticəsində 2003-cü ildə artıq Azərbaycan dinamik inkişaf mərhələsinə qədəm qoymuşdu. O, ölkənin zəngin karbohidrogen ehtiyatlarının hasilatı, dünya bazarlarına çıxarılması üçün beynəlxalq neft-qaz ixrac kəmərlərinin çəkilməsinə nail olmuşdur. Məhz onun yaratdığı bu zəmin üzərində Azərbaycanın enerji daşıyıcılarının ixracındakı rolunu yeni mərhələyə çıxarmaq mümkün oldu. Artan neft və qaz ixracatı büdcəni həyat səviyyəsinin yüksəldilməsi, infrastrukturun inkişafı, ordunun yenidən qurulması və XXI əsrdə Azərbaycanın güclü dövlət quruculuğu prosesini davam etdirmək üçün resurslarla təmin etdi.

**Hörmətli xanım spiker!**

**Hörmətli parlament üzvləri!**

Bu 100 illik yubiley iclasında bir macarıstanlı kimi çıxış etmək mənim üçün şərəfdir. Sevindirici haldır ki, Azərbaycan və macar xalqları bir-birini qardaş xalqlar kimi görür, bizi ortaq türk irsimiz birləşdirir. Bu problemli dünyada qohumluq köklərinə əsaslanan sağlam münasibət çox vacibdir. Bunun xüsusi əhəmiyyəti və dəyəri var və bu, dollar və ya avrodan daha dəyərli, nəcib "valyuta"dır.

Bir çox cəhətdən biz dünyaya eyni cür baxırıq. Hər iki ölkə inanır ki, regionunuzda və dünyada ən çox ehtiyac duyulan şey sülhdür. Hesab edirik ki, bu, Şərqlə Qərb arasında əməkdaşlıq olmadan mümkün deyil. Hazırda siyasi təzyiqlərin, siyasi problemlərin mövcud olduğu bir vaxtda hələ də elə yerlər var ki, orada dostlarımızla qarşılaşırıq. Bunu bilmək xoşdur ki, ölkəmizin sülhpərvər mövqeyinə görə bizi dost kimi görən, üstəlik, nümunə kimi qəbul edən ölkələr var. Bunun üçün sizə təşəkkür edirəm.

Bu gün Azərbaycan və Macarıstan hər şəraitdə bir-birinə arxalana bilən iki ölkədir. Mən sizi əmin edə bilərəm

ki, Macarıstan Avropanın ortasında elə bir qayadır ki, Azərbaycan hər zaman ona arxalana bilər. Çünki biz həmişə sizə dost olaraq qalacağıq. Eyni zamanda, qeyd etmək lazımdır ki, ölkələrimiz bir-birinin strateji tərəfdaşlarıdır. Bu isə münasibətlərimizin daha da genişləndirilməsi üçün bir zəmin rolunu oynayır.

Bizim iqtisadi və enerji sahəsində əməkdaşlığımız yüksək səviyyədədir və bu istiqamətdə tərəfdaşlığımız getdikcə möhkəmlənir. Azərbaycanın bizim ölkəmizin enerji təhlükəsizliyi sahəsində rolu olduqca böyükdür. Bu rol geniş mənada regionumuzun və bütövlükdə, Avropanın enerji təhlükəsizliyində çox böyükdür və yaxın gələcəkdə o, daha da artacaqdır.

**Hörmətli xanım spiker!**

**Hörmətli parlament üzvləri!**

**Əziz dostlar!**

Qeyd olunmalıdır ki, bu gün Azərbaycanın əldə etdiyi sabitlik, inkişaf və beynəlxalq səviyyədə tanınması Heydər Əliyev tərəfindən qoyulmuş möhkəm təməllərə və onun irsinin Prezident İlham Əliyev tərəfindən sədaqətlə və layiqincə davam etdirilməsinə əsaslanır.

Macarıstanda dahi mütəfəkkir şair Nizami Gəncəvinin irsinə də böyük ehtiram göstərilir. Macarıstanda təhsil alan azərbaycanlı gənclər var və düşünürəm ki, onlar üçün dahi şairin yaradıcılığı ilə bağlı Lakitelek Xalq Kollecində təşkil olunan seminarlar və Nizami Gəncəvinin tezliklə ucaldılacaq abidəsi buna yaxşı və layiqli bir töhfə olacaqdır. Mən, eyni zamanda, Şandor Petefinin 200 illik yubileyində TÜRKSOY-la birgə təşkil edilən bədii tərcümə müsabiqəsinə əsərlərini göndərən Azərbaycan şairlərinə də xüsusi təşəkkürümü bildirirəm. Onlardan iki nəfəri müsabiqənin mükafatına layiq görülmüşdür.

Ümid edirik ki, Azərbaycan Respublikası Milli Məclisi və Macarıstan parlamenti arasında olan yüksək əməkdaşlıq gələcəkdə də davam etdiriləcəkdir. Bunun daha da uğurlu olmasını, Heydər Əliyev irsinin gələcəkdə ümumən sizin ölkəniz, onun sosial-iqtisadi inkişafı üçün mayak olmasını arzulayıram. Çünki hər bir ölkənin sosial-iqtisadi inkişafı çox böyük əhəmiyyət kəsb edir.

Diqqətinizə görə təşəkkür edirəm. (*Alqışlar.*)

**Sədrlik edən**. Çox sağ olun, hörmətli həmkar.

Çıxış edir Malavi Parlamenti sədrinin müavini cənab Madalitso Kazombo. Buyurun, cənab Kazombo. (*Alqışlar.*)

## Malavi Parlamenti sədrinin müavini cənab Madalitso Kazombonun çıxışı

**Zati-aliləri Azərbaycan Respublikası Milli Məclisinin sədri xanım Sahibə Qafarova!**

**Hörmətli sədrlər və sədr müavinləri zati-aliləri!**

**Hörmətli nümayəndələr!**

Sabahınız xeyir. Mən sizə "Afrikanın hərarətli qəlbi" adlandırdığımız ölkənin – Malavinin böyük insanlarının və xüsusən Malavi Parlamentinin spikeri hörmətli Ketrin Qotani Haranın salamlarını çatdırıram.

Bu gün bu möhtəşəm tədbirdə – Milli Məclisin böyük Azərbaycan xalqının Ümummilli Lideri, görkəmli siyasətçi və dövlət xadimi, Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş xüsusi iclasında sizin qarşınızda dayanmaqdan şərəf duyuram.

Əvvəlcə icazə verin, bu gün qeyd etdiyimiz əlamətdar günlə bağlı maraqlı bir təsadüfü sizinlə bölüşüm.

Bu gün burada qeyd etdiyimiz əlamətdar gün, deyərdim ki, cəmi iki gün əvvəl, 2023-cü il mayın 14-də Malavidə

qeyd etdiyimiz əlamətdar günlə üst-üstə düşür. Bu tarixdən cəmi iki gün əvvəl Malavidə biz ölkəmizin mərhum ilk prezidentinin, Malavi xalqının atası və qurucusunun – 1959-cu ildə müstəqilliyimiz uğrunda Britaniya müstəmləkəçilərinə qarşı mübarizə aparmış mərhum Nqvazi Kamuzu Bandanın doğum gününü qeyd edirdik. Kamuzu Banda həm də mənim ulu babamdır.

Burada əlamətdar günün qeyd edilməsi bizim ümumi əqidəni paylaşmağımızın həqiqi ifadəsidir. Biz dövlətlərimizi formalaşdıran böyük insanlara hörmət göstərməyin vacibliyini dərk edirik.

**Xanım spiker və zati-aliləri!**

Bəli, bu əzəmətli ölkənin tarixinə nəzər saldıqda haqlı olaraq belə nəticəyə gələ bilərik, biz bura təkcə ona görə yığışmamışıq ki, böyük Heydər Əliyevə şəxsiyyət kimi ehtiramımızı bildirək. Biz bura həm də ona görə toplaşmışıq ki, bu böyük liderin bu torpaqda – böyük Azərbaycan ölkəsində gördüyü böyük işləri hörmətlə anaq. Bəli, bizim buraya toplaşmağımız ölkənin gələcəyi ilə bağlı onun baxışına ehtiramımızın əlamətidir.

Bəli, əgər kimsə böyük Heydər Əliyevin fəaliyyətini anlayırsa, onda haqlı olaraq bu qənaətə gələ bilər ki, biz bura təkcə ona görə yığışmamışıq, onun gördüyü işlərə ehtiramımızı ifadə edək, həm də ona görə toplaşmışıq ki, onun hədəflədiyi böyük işləri davam etdirək.

İcazənizlə, hamınızı bu böyük lideri alqışlamağa dəvət edirəm. (*Alqışlar.*)

**Xanım spiker və zati-aliləri!**

Məni düşündürən sual budur ki, biz bu böyük liderin hədəflərinin həyata keçirilməsini necə davam etdirə bilərik? Bu sualın cavabını qarşılıqlı fəaliyyətlərimizdə tapacağıq. Söhbət insanlara xidmət etməklə xalqlarımız üçün qarşılıqlı

faydalı fəaliyyətləri təşviq və müdafiə etməkdən gedir.

Bu əlamətdar gündə icazə verin, xalq və Malavi Parlamenti olaraq nələri görmək istədiyimizi sizinlə bölüşüm. Biz bu toplantı iştirakçılarının təmsil etdiyi xalqlarımız arasında daha çox əməkdaşlıq görmək istəyirik. Malavi xalqlarımızın qarşılıqlı faydası naminə bu böyük əlaqələrə töhfə vermək istəyir.

**Xanım spiker və zati-aliləri!**

Malavidə sizi də maraqlandıra biləcək çoxlu imkanlar var. Malavi yaxşı hava şəraiti ilə tanınır ki, bu üzdən, sadəcə olaraq, bəzi investorların gəlməsi və kənd təsərrüfatına sərmayə qoyması tələb olunur. Bizim əsas gəlir gətirən məhsulumuz tütündür. Malavidə şəkər, kauçuk plantasiyaları və pambıq sahələri var və bunlar sadalana biləcək sahələrdən yalnız bəziləridir.

Malavi Afrikada üçüncü ən böyük gölə malikdir. Malavidə şirinsulu göl var ki, hörmətli həmkarlar, sadəcə olaraq, oraya gəlmək və turizm sahəsinə sərmayə qoymaq tələb olunur. Malavidə fillər, aslanlar, bəbirlər, pələnglər və begemotlar kimi böyük beşliyin yaşadığı, vəhşi təbiəti olan meşələr var.

Malavidə gübrə bazarı var ki, sadəcə olaraq, münasib bazar qiymətləri ilə investorların gəlişini gözləyir.

Malavidə zəhmətkeş və mehriban insanlar var və onlar, sadəcə olaraq, investisiyaların gəlməsini gözləyirlər.

**Xanım spiker və zati-aliləri!**

İcazə verin, çıxışımı bu sözlərlə bitirim ki, bugünkü əlamətdar tədbir xalqımıza xidmət etdiyimiz üçün yeni şeylər öyrənməyimiz, artıq bildiklərimizi yenidən təkrarlamağımız və lüzumsuz şeyləri öyrənməməyimiz üçün platforma təşkil edir.

Bu öyrənmə, yenidən öyrənmə və lüzumsuz şeyləri öy-

rənməmə prosesi xüsusən də 21-ci əsrdə olduqca önəmlidir. Sitat gətirəcəyim Elvin Tofflerin dediyi kimi: “21-ci əsrin savadsızları oxumağı və yazmağı bilməyənlər deyil, öyrənməyi, yenidən öyrənməyi və lüzumsuz şeyləri öyrənməməyi bacarmayanlar olacaq”.

Bəs siz savadsızlığın anlayışını necə verərdiniz? Şəxsən mən bu əsrdə savadsızlığı oxuyub-yazmağı bilməməkdən daha çox, indi xidmət etdiyimiz insanlar və gələcək nəsillər üçün nəyin yaxşı olduğunu qiymətləndirməmək kimi müəyyən edirəm.

Diqqətinizə görə təşəkkür edirəm. (*Alqışlar.*)

**Sədrlik edən**. Çox sağ olun, cənab Kazombo.

İndi isə Moldova Parlamenti sədrinin müavini cənab Mixail Popşoya söz verilir. Buyurun, cənab sədr müavini. (*Alqışlar.*)

## Moldova Parlamenti sədrinin müavini cənab Mixail Popşoyun çıxışı

**Hörmətli xanım spiker Sahibə Qafarova!**

**Ötən il Moldovada salamlamaq şərəfinə nail olduğumuz hörmətli sədrin birinci müavini Əli Məhəmməd oğlu Hüseynli!**

**Hörmətli millət vəkilləri!**

**Xanımlar və cənablar!**

Müasir Azərbaycanın qurucusu olan Heydər Əliyevin həyat və irsini bu gün burada sizinlə birlikdə yad etmək mənim üçün böyük şərəfdir. Anadan olmasının 100 illiyini qeyd edərkən, deməliyəm ki, Heydər Əliyev nəinki Azərbaycanda, bütövlükdə, dünyada məşhur bir şəxs, bir rəhbər kimi tanınır və onun gələcək nəsillərə təsiri əsrlər boyu hiss olunacaqdır.

Heydər Əliyev ömrünü xalqına, vətəninə xidmətə həsr etmiş uzaqgörən lider idi. Onun Azərbaycan üçün çətin dövrlərdə xalqa rəhbərlik etməkdən tutmuş iqtisadi artım və inkişafa qədər böyük töhfələri olmuşdur. Onun rəhbərliyi altında Azərbaycan inkişaf edən iqtisadiyyata və zəngin mədəni irsə malik güclü və müstəqil dövlətə çevrilmişdir.

Lakin Heydər Əliyevin irsi Azərbaycanın hüdudlarından çox-çox kənara çıxır. O, sülh və əməkdaşlığın sadiq müdafiəçisi idi və Moldova da daxil olmaqla, digər ölkələrlə güclü ikitərəfli münasibətləri inkişaf etdirmək üçün yorulmadan çalışırdı. Moldova parlamentinin və Moldova xalqının nümayəndəsi kimi xalqlarımız arasında əlaqələrin möhkəmlənməsinə kömək etmiş bir insanın həyatına həsr olunmuş bu anım tədbirinin bir hissəsi olmaqdan şərəf duyuruq.

Sirr deyil ki, Azərbaycan və Moldova arasında qarşılıqlı hörmət və anlaşma əsasında qurulmuş xüsusi münasibətlər mövcuddur. Bu illər ərzində ölkələrimiz ticarət və enerjidən tutmuş mədəniyyət və təhsilə qədər bir sıra mühüm məsələlərdə əməkdaşlıq ediblər. Biz Azərbaycan xalqının və onun rəhbərliyinin dəstəyinə və dostluğuna görə minnətdarıq və gələcək illərdə də bu tərəfdaşlığın davam edəcəyinə ümid bəsləyirik. Həmçinin inanılmaz dərəcədə fəal səfir və yaxşı dost Qüdsi Dursun oğlu Osmanovun dəstəyi ilə Moldova cəmiyyətinə dəyərli töhfə verən Moldovadakı fəal Azərbaycan diasporuna təşəkkür edirəm.

Heydər Əliyevin tarixi irsinə nəzər saldığımız zaman, doğrudan da, onun Azərbaycanda və bütün dünyada qoyduğu izi aydın şəklidə görürük. Onun tarixi irsi liderlik gücünün, əzmkarlığın, öz xalqına və ölkəsinə bağlılığın sübutudur. Bütün bunlar Heydər Əliyevi xalqının əvəzsiz və həqiqi öndərinə çevirmişdir. Onun həyata keçirdikləri bizim xalqlarımızın, regionumuzun və bütövlükdə, dün-

yanın gələcəkdə sabit, rifah və sülh içində olan bir məkana çevrilməsinə xidmət etmişdir. Gəlin, Heydər Əliyevin işini davam etdirməyi və xalqlarımız, regionumuz və dünyamız üçün daha parlaq gələcək qurmağı öhdəmizə götürək.

Onun dünyaya verdiyi töhfələr heç vaxt unudulmayacaq və xatirəsi hamımızı ruhlandırmağa davam edəcək. Onun adının əbədi yaşamasını arzu edirik! Təşəkkür edirəm. (*Alqışlar.*)

**Sədrlik edən**. Çox sağ olun, hörmətli həmkar.

İndi isə çıxış edir Pakistan Milli Assambleyası sədrinin müavini cənab Zahid Akram Durrani. Buyurun, cənab Durrani. (*Alqışlar.*)

## Pakistan Milli Assambleyası sədrinin müavini cənab Zahid Akram Durraninin çıxışı

**Azərbaycan Respublikası Milli Məclisinin sədri hörmətli xanım Sahibə Qafarova!**

**Dəyərli parlament üzvləri!**

**Hörmətli dostlar!**

**Xanımlar və cənablar!**

Bismillahir-rəhmanir-rəhim!

Bu gün Bakıda Pakistan Milli Assambleyasını təmsil etmək mənim üçün böyük şərəfdir. Fürsətdən istifadə edərək, mənə və nümayəndə heyətimə göstərilən səmimi qəbula və qonaqpərvərliyə görə bu tədbir təşkilatçılarına ürəkdən minnətdarlığımı bildirirəm.

**Xanımlar və cənablar!**

Bakı şəhəri, ümumiyyətlə, Azərbaycan zəngin tarixə və parlaq mədəniyyətə malikdir və belə dinamik və gələcəyə baxan auditoriya arasında olmaq çox xoşdur. Pakistan xalqının nümayəndəsi kimi mən xalqımızın hərarətli salamlarını və xoş arzularını gətirmişəm. Belə ki, biz istərdik, ölkələri-

miz arasında olan dostluq münasibətləri daha da möhkəmlənsin, qarşılıqlı əlaqələrimiz genişlənsin və güclənsin.

Biz bu gün burada öz ölkəsinin tərəqqi və inkişafındakı xidmətləri hamımız üçün ilham mənbəyi olan Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyini qeyd edirik. Onun dünyagörüşü, liderliyi və xalqına bağlılığı Azərbaycanın tarixində və identikliyində silinməz iz qoyub və onun irsi ölkənin gələcəyini formalaşdırmaqda davam edir.

**Hörmətli qonaqlar!**

Heydər Əliyev Azərbaycan tarixində görkəmli bir şəxsiyyət olmuşdur. O, ölkənin böyük problemlərlə üzləşdiyi bir dövrdə özünü uzaqgörən lider kimi göstərmişdir. Onun rəhbərliyi altında Azərbaycan siyasi və iqtisadi təlatümlər dövründən çıxdı, tərəqqi və rifah yoluna yönəldi.

Heydər Əliyevin siyasi karyerası altı onilliyi əhatə etmiş və bu dövrdə o, Azərbaycanın xarici siyasətinin formalaşdırılmasında, iqtisadiyyatının möhkəmləndirilməsində və səmərəli dövlət idarəçiliyinin qurulmasında mühüm rol oynamışdır. Onun ölkəsinə və xalqına sarsılmaz bağlılığı Azərbaycanı müasir, çiçəklənən və dinamik bir dövlətə çevirmişdir. Onun Azərbaycanın müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün təmin edilməsi istiqamətində göstərdiyi səylər həmişə minnətdarlıqla xatırlanacaqdır. O, həyatını xalqına xidmətə həsr edib və onun irsi nəsilləri ruhlandırmaqda davam edir.

**Xanımlar və cənablar!**

Heydər Əliyevin hakimiyyətə gəldiyi 1969-cu ilin Azərbaycan tarixində dönüş ili hesab edilməsi təəccüblü deyil. Onun uzaqgörənliyi və rəhbərliyi Azərbaycana çoxsaylı çağırışların, o cümlədən ölkənin sabitliyini və təhlükəsizliyini təhdid edən Dağlıq Qarabağ münaqişəsinin

öhdəsindən gəlməkdə kömək etdi.

Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycanın qurucusu Heydər Əliyev bütün xalqın həyatında misilsiz iz qoymuşdur. Heydər Əliyevin milli inkişafın bütün müxtəlif sahələrini əhatə edən əbədiyaşar irsi gələcək yüksəlişə təkan verdi və bu gün gördüyümüz güclü milli kimliyə malik olan, həm də dünya arenasında tanınan Azərbaycanın bünövrəsini təşkil etdi.

Pakistan xalqının nümayəndəsi kimi Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanın əldə etdiyi uğurlar məndə dərin təəssürat yaradır. Daha əvvəl qeyd etdiyim kimi, Azərbaycan güclü iqtisadiyyata, parlaq mədəniyyətə və milli qürur hissinə malik çiçəklənən və dinamik bir ölkəyə çevrilib.

Pakistan da böyük potensiala malik ölkədir və biz tərəqqi və inkişafa doğru yolumuzda oxşar uğurlara nail olmaq əzmindəyik.

**Hörmətli qonaqlar!**

Biz inanırıq ki, Pakistan və Azərbaycan qarşılıqlı tərəqqi naminə əməkdaşlıq istiqamətində birgə çalışa bilərlər. Ortaq mədəni irsimiz, ortaq dəyərlərimiz və strateji mövqeyimiz bizi müxtəlif sahələrdə, o cümlədən ticarət və investisiya, enerji, turizm, təhsil və insani mübadilə sahələrində əməkdaşlıq üçün təbii tərəfdaşlara çevirir.

**Xanımlar və cənablar!**

Biz həmçinin regional sülhün və sabitliyin vacibliyini, dövrümüzün problemlərinin həllində və fürsətlərinin istifadəsində daha çox əməkdaşlığa və işbirliyinə ehtiyac olduğunu dərk edirik. Biz inanırıq ki, birlikdə işləməklə öz xalqlarımız və bütövlükdə, region üçün daha dinc, firavan və təhlükəsiz gələcəyin təşviqinə kömək edə bilərik.

Sonda deməliyəm ki, Heydər Əliyevin həyatı və irsi regionun digər ölkələrini də tərəqqi və inkişaf yoluna qədəm

qoymağa ilhamlandırmışdı. Gəlin, onun uzaqgörənliyini, liderliyini, tərəqqi və inkişafa sadiqliyini biz də uğurlu bir nümunə kimi qəbul edək. Gəlin, əməkdaşlıq və tərəfdaşlıq ruhunda birlikdə çalışaq, ölkələrimiz və xalqlarımız üçün daha işıqlı gələcək quraq.

**Xanımlar və cənablar!**

Beləliklə, səmimi qəbula görə sizə bir daha təşəkkür edir, hamınıza səmərəli və məhsuldar gün arzulayıram. (*Alqışlar.*)

**Sədrlik edən**. Təşəkkür edirəm, hörmətli həmkar.

Çıxış edir Rumıniya Parlamentinin Deputatlar Palatası sədrinin müavini cənab Vasile-Daniel Suçiu. Buyurun, cənab Suçiu. (*Alqışlar.*)

## Rumıniya Parlamentinin Deputatlar Palatası sədrinin müavini cənab Vasile-Daniel Suçiunun çıxışı

**Milli Məclisin hörmətli xanım sədri!**
**Hörmətli parlament nümayəndələri!**
**Xanımlar və cənablar!**

Çox sağ olun. İcazə verin, Azərbaycan Respublikası Milli Məclisinin Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin yüz illik yubileyinə həsr olunmuş bu xüsusi iclasında iştirak etmək üçün dəvətə görə səmimi təşəkkürümü bildirim.

Həqiqətən də, Azərbaycanın müasir tarixi Prezident Heydər Əliyevin adı ilə sıx bağlıdır. Siz fəxr edə bilərsiniz ki, ölkəniz regionun təhlükəsizliyi və sabitliyi üçün lövbərdir, tolerantlıq, müasirlik, mədəniyyətlərarası dialoq və harmoniya modelidir. Bu, əlbəttə, Prezident Heydər Əliyevin irsidir!

Rumıniya və Azərbaycan ümumi prinsiplərə və dəyər-

lərə, eləcə də strateji maraqlara əsaslanan uzunmüddətli və möhkəm dostluq münasibətlərinə malikdir. Rumıniya 1991-ci ilin dekabrında Türkiyədən sonra Azərbaycanın müstəqilliyini tanıyan ikinci dövlət oldu və keçən il biz ikitərəfli diplomatik münasibətlərin 30 illiyini qeyd etdik.

Xatırlayırıq ki, Prezident Heydər Əliyev Rumıniyaya ilk rəsmi səfərini 1995-ci ildə etmişdi. Bizim hazırkı intensiv və dinamik münasibətlərimizin əsası o vaxt, 1990-cı illərdə qoyulmuşdur. Daha sonra ölkələrimiz arasında müxtəlif sahələrdə güclü əməkdaşlıq qurulmuş və bu, 2009-cu ilin sentyabrında ölkələrimiz arasında strateji tərəfdaşlığın qurulması haqqında bəyannamənin imzalanmasına zəmin yaratmışdır. Bu fakt tarixdə qalacaqdır ki, Rumıniya Azərbaycana strateji tərəfdaşlıq təklif edən və bu barədə sənəd imzalayan ilk Avropa İttifaqına üzv dövlət olmuşdur.

Rumıniya–Azərbaycan əlaqələri son illər intensivləşib və genişlənib və ikitərəfli siyasi dialoqumuz çox dinamikdir. Beləliklə, yeni layihələri həyata keçirməyimiz üçün yaxşı şərait var.

**Xanımlar və cənablar!**

Son dərəcə narahatedici və qeyri-sabit təhlükəsizlik şəraitində Azərbaycan regionda sabitliyin təmin edilməsində və Avropanın, o cümlədən Rumıniyanın enerji təhlükəsizliyinin möhkəmləndirilməsində etibarlı tərəfdaş olduğunu nümayiş etdirmişdir. Biz Azərbaycanın Rumıniyaya qaz tədarükünü prioritet hesab etməsini yüksək qiymətləndirir və son aylarda enerji şirkətlərimiz arasında əldə edilmiş mühüm irəliləyişi alqışlayırıq. Biz bir çox sektorlarda bu dərin əməkdaşlığı davam etdirmək və ümumi maraq doğuran yeni təşəbbüsləri irəli sürmək əzmindəyik.

Biz həmçinin parlamentlərarası qarşılıqlı əlaqələrimizin yüksələn xətt üzrə inkişaf etməsindən məmnunuq. Bu

yolda mühüm məqam Rumıniya Parlamentinin Deputatlar Palatasının sədri cənab İon-Marçel Çolakonun bu yaxınlarda Bakıya səfəri oldu. Biz tam əminik ki, qanunverici orqanlarımız arasında dialoq həm əlaqələrimizin xeyrinə, həm də demokratiyanın, sülhün və regional sabitliyin təşviqi naminə inkişaf edəcək.

**Əziz dostlar!**

Bütün xalqların müdrik, hikmətli sözləri var. Bizim xalqın da bu cür kəlamları var. Biz belə deyirik: "Dostlar sizin həyat boyunca seçdiyiniz ailədir".

Hörmətli azərbaycanlı dostlar, icazə verin, sonda Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibəti ilə sizin hamınızı təbrik edim və Azərbaycan xalqına ən xoş arzularımı çatdıraraq tərəqqi, firavanlıq və əmin-amanlıq diləyim!

Təşəkkür edirəm. (*Alqışlar.*)

**Sədrlik edən.** Təşəkkür edirəm, hörmətli həmkar.

Rusiya Federal Məclisinin Federasiya Şurası sədrinin birinci müavini cənab Andrey Yatskinə söz verilir. Buyurun, cənab birinci müavin. (*Alqışlar.*)

## Rusiya Federal Məclisinin Federasiya Şurası sədrinin birinci müavini cənab Andrey Yatskinin çıxışı

**Zati-aliləri hörmətli xanım sədr Sahibə Əli qızı Qafarova!**

Bu gün burada Heydər Əliyevin 100 illiyinə həsr olunmuş bu təntənəli iclasda çıxış etmək və Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri xanım Valentina Matviyenkonun təbrikini oxumaq mənim üçün böyük şərəfdir.

“Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurası adından sizi bütün Azərbaycan Respublikası üçün əlamətdar gün – Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibəti ilə təbrik edirəm.

Kişi xarakterinin həqiqi cizgiləri – sarsılmaz iradə, möhkəm əqidə və qətiyyət onun qəbul edilmiş qərarlara görə məsuliyyətdən qorxmayan əsl lider olmasına imkan yaratmışdır. Axı, siyasi yetkinliyin yüksək təzahürü məhz şəxsin öz sözlərinə və əməllərinə görə cavabdehlik daşımağa qadir olmasındadır.

Müasir dünyada münaqişələrin və fikir ayrılıqlarının əsas səbəbləri qarşılıqlı anlaşmanın, fərqli nöqteyi-nəzəri eşitmək və bərabərhüquqlu dialoqu dəstəkləmək istəyinin olmamasıdır. Əgər desəm ki, indi dünyada, sözün əsl mənasında, xüsusi ilə Heydər Əliyev kimi müdrik və bəsirətli peşəkarlar çatışmır, mübaliğəyə yol vermiş olmaram. *(Alqışlar.)*

Onun iş qabiliyyəti və enerjisi Sovet İttifaqında yüksək qiymətləndirilmiş, sonralar isə müstəqil Azərbaycan dövlətçiliyinin qurulmasının əsasını təşkil etmişdir.

Onun geniş əmək bioqrafiyasında parlament fəaliyyəti xüsusi yer tutur: 1993-cü il 15 iyun – Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildiyi həmin gün dövlətin tarixində yeni dövrün başlanğıcı olmuşdur. Sədr kimi həmkarları qarşısında çıxış edərkən onun Rusiya–Azərbaycan münasibətlərinin möhkəmləndirilməsinin əhəmiyyətini xüsusi vurğulaması kifayət qədər rəmzi məna daşıyırdı.

Bu gün hər iki ölkənin parlament üzvləri gündəlikdə duran ən geniş məsələlər üzrə qarşılıqlı əməkdaşlıq edir, parlamentlərarası komissiya uğurla fəaliyyət göstərir, Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin

Parlamentlərarası Assambleyası və Parlamentlərarası İttifaq da daxil olmaqla, bir çox nüfuzlu çoxtərəfli arenalarda səylərin koordinasiyasının yüksək səviyyəsi saxlanılır.

Təmaslarımızın ayrıca bir istiqaməti regional səviyyədə əlaqə saxlanılmasıdır. Heydər Əliyevin mənim üçün doğma olan Sankt-Peterburqa bəslədiyi səmimi münasibətini xüsusi qeyd etmək istəyirəm. Şəhərin 300 illiyi münasibəti ilə o, dahi filosof və şair Nizami Gəncəvinin heykəlini şəhərə bəxş etmişdir.

Klassikdən sitat gətirərək söyləyirəm: "Dostsuz gün keçirmək bədbəxtliklərdən ən acısıdır, dostu olmayan kəs zavallıdır".

Əminəm ki, Rusiya və Azərbaycan xalqları Heydər Əliyevin bütün həyatı boyu inkişaf etdirdiyi dostluq və mehriban qonşuluq ənənələrini bundan sonra da möhkəmləndirəcəklər.

Azərbaycanlı həmkarlarıma yeni uğurlar və nailiyyətlər arzulayıram.

***Hörmətlə, Valentina Matviyenko,***
***Rusiya Federasiyası Federal Məclisi***
***Federasiya Şurasının sədri***".

**Hörmətli xanım sədr!**

Mən Sizi əmin edirəm ki, Azərbaycan xalqının dahi oğlu Heydər Əliyevə Rusiyada həmişə ehtiramla yanaşmışlar, indi də ehtiramla yanaşırlar, gələcəkdə də ehtiramla yanaşacaqlar. *(Alqışlar.)*

**Sədrlik edən.** Çox təşəkkür edirəm, hörmətli həmkar.

İndi isə çıxış edir Rusiya Federal Məclisi Dövlət Duması sədrinin müavini cənab Aleksey Qordeyev. Buyurun, cənab sədr müavini.

## Rusiya Federal Məclisi Dövlət Duması sədrinin müavini cənab Aleksey Qordeyevin çıxışı

**Hörmətli xanımlar və cənablar!**

İcazə verin, hər şeydən əvvəl, Heydər Əliyevin 100 illiyinə həsr olunmuş Azərbaycan Respublikası Milli Məclisinin xüsusi iclasının iştirakçılarına Dövlət Dumasının sədrinin rəsmi müraciətini oxuyum.

**"Hörmətli Sahibə Əli qızı!**

**Hörmətli həmkarlar!**

Ümumi tariximizdə, müasir Azərbaycanın təşəkkül tapmasında və Rusiya–Azərbaycan münasibətlərinin inkişafında mühüm rol oynamış görkəmli siyasətçi Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibəti ilə sizi təbrik edirəm.

Heydər Əlirza oğlu həmişə vətənin taleyinə görə şəxsi məsuliyyət hiss etmişdir – onun rəhbərliyi altında Azərbaycan Sovet İttifaqının ən inkişaf etmiş respublikalarından birinə çevrilmişdir. O, SSRİ Nazirlər Sovetində Sibir və Uzaq Şərq ərazilərinin istifadəsi üzrə irimiqyaslı layihə olan Baykal–Amur magistralının tikintisinə cavabdehlik daşımışdır. 1993-cü ildə Azərbaycana başçılıq etdikdən sonra cəmiyyəti səfərbər etmiş, iqtisadi islahatlar aparmış, xalqın həyatı səviyyəsini yüksəltmişdir.

Prezidentlər Vladimir Vladimiroviç Putinin və Heydər Əlirza oğlu Əliyevin sayəsində ölkələrimiz etimad və hörmət prinsiplərinə əsaslanan, konstruktiv tərəfdaşlığın möhkəmləndirilməsini hədəfləyən qarşılıqlı münasibətlər modeli hazırlamışlar. O da önəmlidir ki, bu gün bu kursu Azərbaycan Prezidenti İlham Heydər oğlu Əliyev davam etdirir.

Sizə və bütün Azərbaycan xalqına sülh, əmin-amanlıq və ən yaxşı nailiyyətlər arzulayıram.

***Hörmətlə, Vyaçeslav Volodin, Rusiya Federal Məclisi Dövlət Dumasının sədri*”.**

İndi isə icazə verin, bir neçə şəxsi fikrimi sizinlə bölüşüm. Bizim üçün Heydər Əliyev Sovet İttifaqının və müstəqil Azərbaycanın dahi siyasətçisidir. Onun karyerası öz xalqına, öz millətinə xidmətin təcəssümüdür. Rusiyada biz onun xatirəsini yüksək tuturuq. Heydər Əliyev çalışdığı yüksək vəzifələrdə həmişə peşəkarlıq, işinə sadiqlik və ən yüksək zəhmətkeşlik nümunəsi göstərmişdir. Xüsusi ilə qeyd etmək istəyirəm ki, o, statusundan asılı olmayaraq həmişə bütün insanlara qarşı qayğıkeş və diqqətli olmuşdur. Sadə insanlar Heydər Əliyevi daim xatırlayır və ona çox böyük ehtiramla yanaşırlar. O, doğrudan da, xalqın rəhbəri idi. O, Rusiyanın böyük və daimi dostu idi. Onun Rusiya–Azərbaycan arasında hərtərəfli tərəfdaşlıq və müttəfiqlik münasibətlərinə verdiyi böyük töhfəni çox yüksək qiymətləndiririk. Biz ötən il, 2022-ci ildə ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd etdik. Çox simvolikdir ki, həmin tarixdə prezidentlər Vladimir Putin və İlham Əliyev Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında “Müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə” imzalamışdılar. Bu, doğrudan da, strateji bir sənəddir və bütün sahələrdə gələcək üçün perspektivləri özündə əks etdirir. Eyni zamanda, bu bəyannamə Rusiya – Azərbaycan münasibətlərinin açıqlıq, qonaqpərvərlik, yaxşı qonşuluq, qarşılıqlı hörmət və bir-birinin maraqlarının, mənafelərinin nəzərə alınması kimi çox önəmli dəyərlərə söykənir. Biz siyasətçilər Heydər Əliyevin xatirəsini daim qəlbimiz-

də saxlayacaq və Rusiya–Azərbaycan münasibətlərinin əsasını təşkil edən xalqlarımız arasında əməkdaşlıq ənənələrini davam etdirəcəyik. *(Alqışlar.)*

**Sədrlik edən.** Çox sağ olun, hörmətli həmkar.

İndi isə Birləşmiş Ərəb Əmirlikləri Federal Milli Şurası sədrinin birinci müavini cənab Hamad Əl Rahumiyə söz verilir. Buyurun, cənab Hamad Əl Rahumi. (*Alqışlar.*)

## Birləşmiş Ərəb Əmirlikləri Federal Milli Şurası sədrinin birinci müavini cənab Hamad Əl Rahuminin çıxışı

Bismillahir-rəhmanir-rəhim!

**Azərbaycan Respublikası Milli Məclisinin sədri zati-aliləri Sahibə Qafarova!**

**Zati-aliləri!**

**Hörmətli tədbir iştirakçıları!**

Ömrünü xalqına və ölkəsinə xidmətə həsr edən, irsi bundan sonra da Azərbaycanın işıqlı gələcəyinə ilham verməkdə davam edəcək müdrik öndər, Azərbaycanın lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibəti ilə sizə ən səmimi təbriklərimizi və xoş arzularımızı çatdırırıq.

Liderin adı təkcə Azərbaycan xalqının yaddaşında deyil, bütün dünyada sülh və sabitlik tərəfdarlarının yaddaşında qalacaqdır. Onun işi və nailiyyətləri bundan sonra da diqqətəlayiq nümunə rolunu oynayacaq, inkişafa və tərəqqiyə nail olmaq istəyən ölkələr tərəfindən istifadə olunacaqdır.

Yəqin ki, dost ölkənizin bütün sosial, iqtisadi, elmi-texniki və mədəni sahələrdə tərəqqipərvər intibahı lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş müdrik siyasət

və sağlam baxışlar ilə hazırkı milli rəhbərliyinizin müasir siyasəti və baxışları arasında təbii bağlılığı və davamlı əlaqəni əks etdirir. Azərbaycanın müasir tərəqqisi və intibahı həmişə Ümummilli Lider Heydər Əliyevin böyük nailiyyətləri ilə bağlı olacaqdır.

**Əziz bacılar və qardaşlar!**

Biz, Birləşmiş Ərəb Əmirliklərinin xalqı və onun xalqının Federal Milli Şuradakı nümayəndələri bu əlamətdar günü sizinlə birgə qeyd etməkdən məmnunuq. Çünki ölkələrimiz arasında regional və beynəlxalq məsələlərin müxtəlif sahələrində dostluq, əməkdaşlıq və anlaşma münasibətləri dərindir. BƏƏ 1992-ci ildə tarixən dost Azərbaycanın müstəqilliyini tanıyan müsəlman ölkələrinin ön sıralarında olub. O vaxtdan bəri dostluq əlaqələri möhkəmlənib və ümumi maraq doğuran müxtəlif sahələrdə əməkdaşlıq çərçivələri genişlənir.

Bu ilin əvvəlində Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri İlham Əliyevin BƏƏ-yə səfəri buna nümunədir. Bu səfər əməkdaşlıq münasibətlərini möhkəmləndirmiş və inkişaf etdirmişdir. BƏƏ artıq dost ölkənizin Fars körfəzi regionunda əsas ticarət tərəfdaşına çevrilmişdir. Onu da vurğulamaq istərdim ki, bizim davamlı əməkdaşlığımız və Qoşulmama Hərəkatı, Birləşmiş Millətlər Təşkilatında “77-lər Qrupu” və İslam Əməkdaşlıq Təşkilatı kimi regional və beynəlxalq təşkilatlarda ölkələrimizin ümumi baxış və mövqelərinin yaxınlaşması inkişafa, sabitliyə, sülhə və təhlükəsizliyə qarşı regional və beynəlxalq təhdidlərin öhdəsindən gəlmək üçün əsas sütunlardan biri olmuşdur və bundan sonra da olacaqdır.

**Əziz bacılar və qardaşlar!**

Biz Federal Milli Şurada sizin möhtərəm Məclis ilə parlament əlaqələrini ölkələrimizin liderləri – BƏƏ Prezi-

denti Əlahəzrət Şeyx Məhəmməd bin Zayed Al Nəhyan və Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri İlham Əliyev arasında yüksək əlaqələri əks etdirəcək şəkildə inkişaf etdirməkdə maraqlıyıq. Ümid edirik ki, dost xalqlarımızın arzularına çatmaları üçün parlamentlərimiz arasında əməkdaşlığın çərçivələri genişlənəcəkdir. Xüsusi ilə beynəlxalq və regional forumlarda parlamentlərimizin ümumi mövqeyi dünya dövlətləri və xalqları arasında münasibətlərin əsaslarının formalaşdırılmasında hüquq və ədalət anlayışlarının qəbuluna səmərəli töhfə verə biləcək ümumi anlaşmamızı və faydalı rəyimizi ifadə edir.

Bir daha Ümummilli Lider Heydər Əliyevin nailiyyətlərini yüksək qiymətləndirdiyimizi bildirir və ümid edirik ki, dost ölkəniz arzuladığı inkişaf, firavanlıq, sülh və sabitlik məqsədlərinə nail olacaqdır.

Diqqətinizə görə təşəkkür edirəm. (*Alqışlar.*)

**Sədrlik edən.** Çox təşəkkür edirəm, hörmətli həmkar.

İndi isə çıxış edir Ukrayna Ali Radası sədrinin müavini xanım Olena Kondratyuk. Buyurun, xanım Olena Kondratyuk. (*Alqışlar.*)

## Ukrayna Ali Radası sədrinin müavini xanım Olena Kondratyukun çıxışı

**Azərbaycan Respublikası Milli Məclisinin hörmətli xanım sədri!**

**Xanımlar və cənablar!**

Elə insanlar var ki, xalqları birləşdirirlər. Onlar doğulur və tarix yazırlar.

Azərbaycan üçün belə bir şəxsiyyət Heydər Əliyev olmuşdur. O, Sovet İttifaqının süqut etdiyi həlledici məqamda ölkəyə rəhbərlik etmiş və faktiki olaraq yeni,

müstəqil, çiçəklənən Azərbaycanı qurmuş, qürurlu, müstəqil milləti dirçəltmişdir.

Yeni dövlətlərin yarandığı dövrdə Ukrayna ilə Azərbaycan xüsusi ilə yaxın idilər. Heydər Əliyevin təltif edildiyi "Knyaz Yaroslav Mudrı" ordeni buna sübutdur.

O, Ukraynadan bu ali dövlət mükafatını almış ilk xarici ölkə rəhbərləri sırasında olmuşdur.

Həmçinin elə hadisələr də var ki, xalqları birləşdirir. Bunlar müstəqilliyi bərqərar edən qələbələrdir. Bunlar müstəqilliyi müdafiə edən döyüşlərdir.

Ukrayna indi belə hadisələri yaşayır. Ukrayna müharibədə, Rusiya Federasiyasının genişmiqyaslı təcavüzü şəraitində aparılan rəzil, qəddar bir müharibədə öz xalqını, dilini, torpağını müdafiə edir.

2013-cü ilin aprelində Azərbaycan dövlətinin memarına ehtiram əlaməti olaraq Kiyevin mərkəzi rayonunda, Azərbaycan səfirliyi binasının yaxınlığında Heydər Əliyev parkı açılmışdır. Düz 9 il sonra, 2022-ci ilin iyununda bu parkın yanındakı evə Rusiya raketi düşmüşdür. Bədəni ilə 7 yaşlı qızı Yevgeniyanı örtmüş mülki şəxs – vəkil Aleksey Nikitin həlak olmuşdur. Bir ay əvvəl eyni binada daha bir rus raketi ukraynalı jurnalist Vira Hiriçi öldürmüşdür.

Buçada rus ordusunun dinc Ukrayna vətəndaşlarına qarşı vəhşilikləri ilə bağlı dəhşətli xəbərlərdə adını hamınızın eşitdiyiniz Ukraynanın İrpin şəhərində Heydər Əliyevin həyat yoldaşı, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın adını daşıyan küçə və meydan var. İrpindəki 12 nömrəli məktəb də onun adını daşıyır. Zərifə Əliyeva adına həmin məktəb ruslar tərəfindən atəşə tutulub.

Ümumilikdə, müharibə zamanı Ukraynada 3000-dən çox təhsil müəssisəsi və 1200-dən çox səhiyyə müəssisəsi bombardmanlardan və artilleriya mərmilərindən zərər çəkib.

Azərbaycan da Ukrayna kimi öz torpağını və ərazi bütövlüyünü ləyaqətlə müdafiə edir.

Mən burada Heydər Əliyevi xatırlayarkən təkcə Ukrayna torpaqlarının Rusiya tərəfindən işğalına deyil, həm də rusların övladlarımızı oğurlayaraq ukraynalılara qarşı örtbasdır edilməyən soyqırımı törətmək kimi birbaşa və azğın niyyətinə diqqət çəkmək istərdim. Demək olar ki, 20 min ukraynalı uşaq (bu yalnız rəsmi rəqəmdir) zorla Rusiyaya deportasiya edilib. Bu cinayət sənədləşdirilib və Beynəlxalq Cinayət Məhkəməsi artıq cinayətkarların həbsinə order verib.

Ona görə də mən Azərbaycana müraciət edirəm ki, bütün ukraynalı uşaqları evlərinə qaytarmaqda bizə kömək etsin. Başqalarının övladları deyilən bir şey yoxdur və mən inanıram ki, beynəlxalq təzyiq və iradənin gücü bu qeyri-insani cinayəti dayandıra və sonuncu soyqırımı ideoloqlarını cəzalandıra bilər.

**Xanımlar və cənablar!**

Heydər Əliyev vaxtı ilə demişdir: "Ukrayna dövlətinin fəaliyyətində biz onun öz gücünə möhkəm inamına, seçdiyi müstəqillik yoluna qətiyyətli inamına, hər hansı digər dövlətlərdən asılılığa əbədi son qoyacağına möhkəm inamına xüsusi ilə heyranıq.

Azərbaycan da qətiyyətlə eyni mövqedə dayanır. Ona görə də bu amil bizi çox birləşdirir və hərtərəfli əməkdaşlığa şərait yaradır".

Biz davam edən bu əməkdaşlığa görə Azərbaycana minnətdarıq. Bakı Ukraynaya təcili ehtiyac duyulan humanitar yardımlar edir. Bu yardım enerji infrastrukturunun atəşə tutulması nəticəsində enerjinin olmadığı vaxtlarda xüsusi ilə nəzərə çarpırdı. Bunun üçün sizə təşəkkür edirik!

Mən həmçinin Ukraynanın suverenliyini və ərazi bütövlüyünü ardıcıl dəstəklədiyinə görə Azərbaycan rəhbərliyinə təşəkkür etmək istəyirəm.

Mən öz tərəfimizdən əmin etmək istəyirəm ki, Ukrayna beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində Azərbaycan Respublikasının ərazi bütövlüyünü qeyd-şərtsiz dəstəkləyəcək.

Mən Ukrayna Silahlı Qüvvələrinin sıralarında azadlığımız uğrunda döyüşən və canlarından keçən etnik azərbaycanlılara xüsusi təşəkkür və ehtiramımı bildirmək istəyirəm. Biz, ukraynalılar onların təcavüzkar Rusiya üzərində birgə qələbəmizə töhfələrini heç vaxt unutmayacağıq!

**Xanımlar və cənablar!**

Hazırda beynəlxalq hüququn norma və standartlarına hörmət edilməsi şərti ilə Ermənistanla ədalətli sülhə açıq olan Azərbaycanı təbrik edərək bildirirəm ki, biz Ukraynanın qələbəsinə qəti şəkildə inanırıq, onun ətrafında həqiqəti müdafiə edən ölkələrin beynəlxalq koalisiyası yaranmış, vicdanlı dünyanın dəyərləri birləşmişdir.

Biz müharibəyə son qoya biləcək on addımdan ibarət aydın sülh planı təqdim etmişik. Bu, Ukrayna Prezidenti Vladimir Zelenskinin "Sülh formulu" təşəbbüsüdür. O, on bənddən ibarətdir və nüvə təhlükəsizliyindən tutmuş dövlətimizin ərazi bütövlüyünün bərpasına qədər, enerji təhlükəsizliyindən tutmuş Rusiya ərazisində saxlanılan bütün hərbi əsirlərin və deportasiya edilmiş şəxslərin geri qaytarılmasına qədər məsələləri əhatə edir.

Mən ölkələrinizi bu təşəbbüsün bəndlərinin həyata keçirilməsinə qoşulmağa çağırıram.

Azərbaycan Bayrağı Azərbaycana məxsus olan bütün ərazilərdə dalğalanmalı olduğu kimi, biz Ukrayna Bayrağını da Ukraynanın bütün şəhər və kəndlərinə qaytarmalıyıq!

Kiyevdəki Heydər Əliyev parkı yerindədir. Heç bir atəş nəticəsində zədələnməyib. Heydər Əliyev həmişə Ukraynaya inanıb və Azərbaycana qardaş olan Ukrayna xalqına hörmət edib.

Bu gün onun xatirəsini ehtiramla yad edərək demək istəyirəm: Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevə eşq olsun! Azərbaycana eşq olsun! Ukraynaya eşq olsun! (*Alqışlar.*)

**Sədrlik edən.** Sağ olun, hörmətli həmkar.

İtaliya Senatının Azərbaycan parlamenti ilə dostluq qrupunun rəhbəri cənab Marko Skurriaya söz verilir. Buyurun, cənab Skurria. (*Alqışlar.*)

## İtaliya Senatının Azərbaycan parlamenti ilə dostluq qrupunun rəhbəri cənab Marko Skurrianın çıxışı

**Hörmətli xanım sədr Qafarova!**
**Hörmətli həmkarlar!**
**Xanımlar və cənablar!**

İtaliya–Azərbaycan dostluq qrupunun İtaliya tərəfdən sədri kimi Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyini qeyd etmək üçün burada, Bakıda olmağım mənim üçün böyük şərəfdir.

O, Sovet İttifaqının süqutunun ilk illərindən müasir dövrədək ölkəyə rəhbərlik etmiş, fövqəladə fəaliyyəti ilə Azərbaycanı müstəqil dövlətə çevirmiş tarixi şəxsiyyətdir. O, Azərbaycanı iqtisadi, sosial və mədəni inkişafın inanılmaz səviyyəsinə çatdıraraq ölkənizi faciəli postsovet ssenarisindən çıxarmağa nail olmuşdur.

İtaliya ilə Azərbaycan arasında ikitərəfli münasibətlər artıq 30 ildən çoxdur ki, davam edir və hələ də möhkəm

olaraq qalır. İtaliya ilə Azərbaycan arasında 2014-cü ildə Prezident İlham Əliyevin İtaliyaya rəsmi səfəri zamanı qəbul edilmiş Birgə Bəyannamədə və Prezident İlham Əliyevin İtaliyaya dövlət səfəri zamanı imzalanmış 2020-ci il tarixli Birgə Bəyannamədə təsbit olunmuş strateji tərəfdaşlıq mövcuddur. 2003-cü il İtaliya–Azərbaycan əməkdaşlığının ən mühüm illərindən biri olmuşdur. Azərbaycanın Romada səfirliyinin açılması üçün işlərə start verilməsi ilə başlayan həmin il İtaliya–Azərbaycan parlament dostluq qrupunun yaradılması ilə davam etdi və Azərbaycanın İtaliyadakı səfirliyinin "Əbədi şəhər"də açılışı ilə başa çatdı.

Enerji sahəsində əməkdaşlıq və şaxələndirmə ilk növbədə Avropanın enerji gələcəyi naminə ölkələrimiz arasında strateji əlaqəni özündə birləşdirən münasibətlərimizin əsasını təşkil edir.

Bununla belə, İtaliya ilə Azərbaycan arasındakı dostluq təkcə enerji təchizatı ilə məhdudlaşmır, əslində, Bakı son illər Prezident İlham Əliyevin həyata keçirdiyi ölkənin infrastrukturunun sürətlə modernləşdirilməsində rol oynamağı qarşısına məqsəd qoyan italyan şirkətləri üçün çox mühüm fürsətlər yaradır.

Xatırlatmaq vacibdir ki, ötən il İtaliya ilə Azərbaycan arasında ticarət dövriyyəsi 17 milyard avronu keçmiş və İtaliyanın "Saipem", "Maire Tecnimont Group", "Agusta Westland" və "Leonardo-Finmeccanica" kimi əsas şirkətləri Qafqaz ölkəsində mühüm rollar əldə etmişlər.

2020-ci ildən etibarən bir çox Avrozona ölkələri üçün Rusiya qazına alternativ olan, İtaliyanı real enerji mərkəzinə çevirəcək TAP boru kəməri ilə qaz Azərbaycandan İtaliyaya, konkret olaraq Apuliyaya nəql edilir. Faktiki olaraq, İtaliyanın ehtiyaclarının 15 faizi Azərbaycandan

gəlir və bu faiz göstəricisi bu ilin əvvəlində artacaq. Bundan başqa, Azərbaycan həm də "Bel Paese"nin ilk neft tədarükçüsüdür. Bu, İtaliyanın sizin ölkənizə böyük etimadını bir daha təsdiqləyir.

Keçən il sentyabrın 1-də Azərbaycan Respublikasının İtaliyanın Roma şəhərindəki səfirliyinin yeni binasında ölkələrimizin öz aralarında işbirliyinə və sıx əməkdaşlığa hazır olduqlarını təsdiq edən saziş imzalanmışdır. İtaliya–Azərbaycan Universiteti ilə bağlı artıq imzalanmış akademik əməkdaşlığa dair sazişlərin mübadiləsi mərasimi Bakıda ADA Universitetinin kampusunda keçiriləcək. İtaliya–Azərbaycan Universitetinin məqsədi "Made in Italy" nou-hausunu tətbiq etməklə Azərbaycanın inkişaf və innovasiya səylərinə töhfə verməkdir. İtaliya–Azərbaycan Universitetinin yaradılması üçün həlledici və çox mühüm razılaşma sayəsində İtaliya bu universitetlə mədəniyyət və təhsil sektorunda təmsil olunacaq.

Azərbaycan öz Konstitusiyasında nəzərdə tutulduğu kimi, bütün dinlərin dinc yanaşı mövcud olduğu dünyəvi ölkədir. Azərbaycan İtaliya Konstitusiyasının əsasını təşkil edən multikulturalizm, tolerantlıq və inklüzivliyə böyük əhəmiyyət verir. Azərbaycan mədəni müxtəlifliyə malik olması ilə fəxr edir və dinlərarası dialoqun təşviqinə qəti şəkildə sadiqdir. Dialoq öz xüsusiyyətlərindən və spesifik cəhətlərindən imtina etməyən, əksinə, fərqli xüsusiyyətlərə malik olanlarla münasibətlərdə yetkinləşən və yeni özünüdərk imkanı əldə edən müxtəlif subyektlər arasında görüş və müqayisə üçün platformadır. Multikultural və multietnik cəmiyyətlərdə dialoq dünyanın hər bir ölkəsinin qəbul etməli olduğu seçim – siyasi və vətəndaş sülhü naminə aparılır.

İtaliya və Azərbaycan nəzərlərini getdikcə daha çox

Avropa şirkətləri və Avropamıza yönəldən xalqlar üçün tərəfdaşlığın nümunəsi, modeli ola bilər.

Roma ilə Bakı arasında keçirilən parlamentlərimizin bu ikinci görüşü ticari və mədəni əlaqələrin inkişafı və dərinləşməsi üçün vacibdir. Biz İtaliya parlamentini burada, Bakıda təmsil etməklə böyük məsuliyyət daşıyır və böyük şərəf duyuruq. Bu baxımdan əlaqələrimizi möhkəmləndirmək istəyi İtaliya və Azərbaycan xalqlarını xüsusən də Avropa və dünya tarixinin bu çətin anında birləşdirmək məramını özündə əks etdirir. (*Alqışlar.*)

**Sədrlik edən.** Çox sağ olun, hörmətli həmkar.

Çıxış edir Malayziya Nümayəndələr Palatasının Azərbaycan parlamenti ilə dostluq qrupunun rəhbəri cənab Tuan Aminolhuda bin Hassan. Buyurun, hörmətli həmkar. (*Alqışlar.*)

## Malayziya Nümayəndələr Palatasının Azərbaycan parlamenti ilə dostluq qrupunun rəhbəri cənab Tuan Aminolhuda bin Hassanın çıxışı

Əssalamu əleyküm və rahmətullahi və bərakətu!

**Hörmətli xanım sədr Qafarova!**

**Hörmətli Azərbaycan Respublikası Milli Məclisinin sədr müavinləri!**

**Hörmətli parlament üzvləri!**

**Xanımlar və cənablar!**

Mən Malayziya parlamentinin nümayəndə heyəti adından Azərbaycan Respublikası Milli Məclisinin Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş xüsusi iclasında iştirak etmək üçün bizə dəvət göndərdiyinə görə Azərbaycan Respublikasının Milli Məclisinə dərin minnətdarlığımı bildirmək istəyirəm.

Azərbaycan Respublikası Milli Məclisinin Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş bu xüsusi iclasının təşkilinə görə katibliyə də minnətdarlığımı bildirmək istərdim.

Nəinki bütün xalqın həyatında misilsiz iz buraxmış, həm də əlamətdar irs qoymuş bu böyük dövlət xadiminin xatirəsini yad etmək mənim üçün və nümayəndə heyətimizin digər üzvləri üçün, həqiqətən də, böyük zövq və şərəfdir.

**Xanımlar və cənablar!**

Hesab edirəm ki, millətin uğuru və nailiyyətləri böyük insanların təsiri ilə izah olunur: bunlar elə yüksək nüfuza malik və bənzərsiz şəxsiyyətlərdir ki, yüksək intellekt, qəhrəmancasına cəsarət, fövqəladə liderlik qabiliyyəti və ya ilahi ilham qaynağı kimi təbii xüsusiyyətlərinə görə həlledici təsirə malik olurlar. Malayziyadan bəhs ediriksə, biz müstəqilliyimizin atası, həm də Malayziyanın ilk Baş naziri olmuş mərhum Tunku Əbdül Rəhman Putra əl-Hac ibn Əlmarhum Sultan Əbdül Həmid Şaha borcluyuq. Onun irsi indi 10-cu Baş nazir möhtərəm Dato Seri Ənvər bin İbrahimin rəhbərliyi altında Milli Birlik hökuməti tərəfindən həyata keçirilir.

Azərbaycan Respublikasına gəlincə, mərhum Heydər Əliyev Azərbaycan tarixinin yenidən formalaşmasında mühüm rol oynamış, öz uzaqgörənliyi, müdrikliyi, qətiyyəti, dəmir iradəsi və zəngin dövlətçilik təcrübəsi ilə Azərbaycanın dünyada layiq olduğu səviyyəyə yüksəlməsinə şərait yaratmışdır. Onun yorulmaz səyləri sayəsində müxtəlif sahələrdə, o cümlədən iqtisadiyyat, sənaye, kənd təsərrüfatı, təhsil və mədəniyyət sahələrində mühüm nailiyyətlər əldə edilmişdir. Hazırda Heydər Əliyev irsi Prezident İlham Əliyevin davamlı səyləri sayəsində daha da

çiçəklənməkdədir.

Şübhəsiz ki, Heydər Əliyev xalqın ruhunun daşıyıcısı olmuş liderdir. O, bütün həyatını xalqına həsr etmiş, böyük dövlət xadimi və görkəmli şəxsiyyət olaraq tarixə damğasını vurmuşdur. Ona görə də Malayziya parlamenti adından Heydər Əliyevin xatirəsini ehtiramla yad edir, qardaş Azərbaycan xalqına ən xoş arzularımı və salamlarımı çatdırıram.

Fürsətdən istifadə edərək, Azərbaycanı Qoşulmama Hərəkatının hazırkı sədri kimi fəal roluna, o cümlədən gənclər və idmanla bağlı beynəlxalq konfransların keçirilməsində aktivliyinə görə təbrik etmək istərdim. Malayziya Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinə bundan sonra da dəstək verəcəkdir.

**Zati-aliləri!**

Coğrafi baxımdan Malayziya və Azərbaycan uzaq olsalar da, qarşılıqlı əzmkarlıq sayəsində hər iki xalq bir-birinə yaxınlaşmış və birlikdə uğurla səmərəli ikitərəfli əməkdaşlığın nəticəsi olan güclü strateji tərəfdaşlığın əsasını qoymuşlar. 1993-cü il aprelin 5-də ikitərəfli əlaqələrin qurulduğunu xatırladaraq qeyd edim ki, Malayziya və Azərbaycan arasında ticarət və investisiya, bərpa olunan enerji, islam bankçılığı və maliyyəsi, təhsil, turizm və potensialın artırılması kimi müxtəlif sahələrdə sıx səmimi əlaqələr yaradılmışdır. Bu cür əməkdaşlıq son 30 il ərzində qarşılıqlı hörmət və maraqlara söykənən ümumi dəyərlər prinsipi əsasında qurulmuşdur.

Malayziya ürəkdən inanır ki, dövlətlərimiz arasında əməkdaşlıq qarşıdakı illərdə inkişaf edəcək, ölkələrimizin və xalqlarımızın qarşılıqlı faydası və firavanlığı naminə ikitərəfli münasibətlərin yeni sahələrini əhatə edəcək.

**Zati-aliləri!**

Sonda Ulu Öndər Heydər Əliyevin xatirəsini yad edərək xidmətlərini və işinə sədaqətini xatırlatmaq üçün nitqimi "Heydər Əliyev. Hikmətli sözlər" kitabından bu müdrik kəlamlarla bitirirəm: "Demokratiya hərc-mərclik deyildir, özbaşınalıq deyildir, xaos deyildir. Demokratiya yüksək mədəniyyət, yüksək nizam-intizam, vətəndaş həmrəyliyi, vətəndaşların bir-birinə hörməti, dövlətin vətəndaşlarına hörməti, sayğısı və qayğısıdır".

Təşəkkür edirəm. (*Alqışlar.*)

**Sədrlik edən.** Çox sağ olun, hörmətli həmkar.

İndi isə Türkiyə Böyük Millət Məclisinin Büro katibi, millət vəkili cənab Bayram Özçelikə söz verilir. Buyurun, hörmətli həmkar. (*Alqışlar.*)

## Türkiyə Böyük Millət Məclisinin Büro katibi, millət vəkili cənab Bayram Özçelikin çıxışı

**Hörmətli xanım sədr!**
**Milli Məclisin hörmətli üzvləri!**
**Dəyərli iştirakçılar!**
**Xanımlar və cənablar!**

Qardaş Azərbaycanın qurucu Prezidenti və Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibəti ilə keçirilən bu iclasda iştirak etdiyimə və xüsusi əhəmiyyət kəsb edən bu gündə Milli Məclisdə sizlər qarşısında çıxış etmək imkanına sahib olduğuma görə çox bəxtiyaram. Sizlərə hörmətli Prezidentimiz Rəcəb Tayyib Ərdoğanın, Türkiyə Böyük Millət Məclisinin sədri hörmətli Mustafa Şentopun və Türkiyədəki qardaşlarınızın salamlarını çatdırmaq istəyirəm. (*Alqışlar.*)

Mən burada özümü evimdəki kimi hiss edirəm, çünki

bizim üçün Ankara və Bakı arasında heç bir fərq yoxdur. 102 il əvvəl, 1921-ci ildə Ankarada Azərbaycanın ilk səfirliyi açılanda Qazi Mustafa Kamal Atatürk şəxsən özü Azərbaycan Bayrağını qaldıraraq demişdi: “Azərbaycanın sevinci bizim sevincimiz, Azərbaycanın kədəri bizim kədərimizdir”. O, sonra sözlərinə bunu da əlavə etmişdi: “Azərbaycan Bayrağının Türkiyə Bayrağının yanında dalğalandığını görmək bütün millətimiz üçün böyük bir bayramdır”. (*Alqışlar.*)

Bizlər də bu cümlələri 21-ci əsrdə eyni şəkildə təkrarlamağa davam edirik. Ölkələrimiz arasında güclü təmələ əsaslanan əməkdaşlıq yaxşı gündə də, pis gündə də davam etməkdədir. Ölkəmizdə baş verən zəlzələ fəlakəti zamanı hər kəsdən əvvəl köməyimizə tələsən Azərbaycan dövlətinin və Azərbaycan xalqının qardaş yardımları heç vaxt unudulmayacaqdır. Zəlzələdən sonra konteynerlər qurulmuş Kahramanmaraş elimizdə Prezidentimiz Rəcəb Tayyib Ərdoğan və Prezidentimiz İlham Əliyev 1000 evlik bir yaşayış məntəqəsinin təməlini qoymuşlar. Buna görə də bir daha təşəkkürlərimi çatdırmaq istəyirəm. (*Alqışlar.*)

**Hörmətli iştirakçılar!**

Məmməd Əmin Rəsulzadənin 1918-ci ildə “Bir kərə yüksələn bayraq bir daha enməz” deyərək qaldırdığı Azərbaycan Bayrağının 1991-ci ildə təkrar dalğalanmasında, gələcək əsrlərə miras qalan güclü bir ölkənin qurulmasında böyük dövlət adamı Heydər Əliyevin müstəsna xidmətləri var.

Azərbaycan müstəqilliyini elan edərkən Sovet İttifaqının dağılmasından sonra müstəqil olan digər türk dövlətləri ilə müqayisədə çox çətinliklərlə qarşı-qarşıya idi. Bir tərəfdən, davam edən müharibə, digər tərəfdən, başqa çətinliklər qardaş Azərbaycandakı vəziyyəti daha da ağır-

laşdırırdı. Belə bir şəraitdə bütün məsuliyyəti üzərinə götürən Ümummilli Lider Heydər Əliyev ölkəsini bu atəşlərin içərisindən məharətlə xilas etməyi bacardı. Azərbaycanda bütün sahələrdə sabit inkişaf yolunun təməlini qoyan Ümummilli Lider Heydər Əliyev hər kəsi özünə heyran etməyi bacarıb. Bizlər də onun nailiyyətlərini və can Azərbaycanın uğurlarını Türkiyədə həvəslə və həyəcanla izləmişik.

Bu gündən baxanda əminliklə deyə bilərik ki, Heydər Əliyev olmasaydı, 1990-cı illər həm Azərbaycan, həm də regionun digər ölkələri üçün daha çətin olardı. Heydər Əliyev olmasaydı, Azərbaycan bugünkü kimi güclü dövlət olmazdı.

Heydər Əliyev yalnız Azərbaycan üçün deyil, Türkiyə üçün də çox önəmli şəxsiyyətdir. O, bu gün Türkiyədəki qardaşlarınızın dilindən düşməyən, Türkiyə–Azərbaycan deyilən kimi dərhal ağla gələn “iki dövlət, bir millət” ifadəsini səsləndirərək eyni millətin iki qolu olduğumuzu sanki möhürləmişdir. (*Alqışlar.*) Heydər Əliyev təkcə Azərbaycanda deyil, Türkiyədə də heç vaxt unudulmayacaq bir insan olmuşdur. Bu gün Türkiyənin fərqli şəhərlərində Heydər Əliyevin adını daşıyan onlarca küçə, məktəb və parklar ona olan hörmət və ehtiramın bariz göstəricisidir. (*Alqışlar.*)

Ümummilli Lider Heydər Əliyev və sabiq prezidentlərimizdən olan Süleyman Dəmirəl arasında qardaşlıq və qarşılıqlı sevgiyə əsaslanan münasibətlər hər kəsə məlumdur. Bu qardaşlığın bu gün möhtərəm Prezidentimiz Rəcəb Tayyib Ərdoğan və möhtərəm Prezidentimiz İlham Əliyev arasında artaraq davam etməsini görmək bizim üçün böyük şərəfdir.

**Hörmətli iştirakçılar!**

Ümummilli Lider bura çox yaxınlıqda olan məzarında Azərbaycanın 21-ci əsrdəki inkişafını, işğal altında olan torpaqların düşmən əsarətindən xilas olmasını ruhu şad şəkildə izləyir. Bizlər o böyük dövlət adamının anadan olmasının 100-cü ildönümünü qeyd edərkən ondan aldığımız ilhamla sağlam bir gələcək üçün qətiyyətlə və inamla çalışmaqda qərarlıyıq. Bunun üçün sarsılmaz təməllər mövcuddur.

Bu gün burada, Abşeron yarımadasında gözəl Bakının bu yüksək təpəsində yerləşən Milli Məclisdə sizlərlə birlikdə olduğum üçün çox xoşbəxtəm. Türkiyə həm dövləti, həm də xalqı ilə həmişə Azərbaycan ilə çiyin-çiyinə olacaqdır. Türkiyənin siyasi və mənəvi dəstəyi ilə İkinci Qarabağ savaşı Zəfərlə nəticələnmiş, sonra prezidentlərimiz tərəfindən imzalanmış və uca parlamentlərimiz tərəfindən təsdiq olunmuş Şuşa Bəyannaməsi ilə bizim əlaqələrimiz strateji səviyyədən müttəfiqlik səviyyəsinə yüksəlmişdir. Bu, bizim dəyişməyən dövlət siyasətimiz və milli vəzifəmizdir.

Sizlərə olan hörmətimi və sevgimi bir daha ifadə edərək, “iki dövlət, bir millət” şüarı ilə “Yaşasın Türkiyə–Azərbaycan qardaşlığı!” - deyir, ölkələrimizin azadlığı uğrunda bu torpaqlarda həyatını itirən şəhidlərimizə Allahdan rəhmət diləyirəm.

Millət vəkili olduğum Burdur elindən birinci Məclisin millət vəkili, “İstiqlal marşı”mızın şairi Mehmet Akif Ərsoyun türk dövlətlərində yaşayan türk toplumlarına dövlətlərimizin inkişafı məramı ilə xitabən söylədiyi bu sözlərlə çıxışımı bitirmək istəyirəm.

Atiyi qaranlıq görərək əzmi buraxmaq,
Alçaq bir ölüm varsa, əminim, budur ancaq.

Dünyada inanmam, hani görsəm də gözümlə,
İmanı olan kimsə gəbərməz bu ölümlə.
Ey dipdiri meyit, iki əl bir baş üçündür!
Davransana, əllər də sənin, baş da sənindir!
Allaha əmanət olun.
(*Alqışlar.*)

**Sədrlik edən.** Çox təşəkkür edirəm, hörmətli həmkar.

İndi isə çıxış edir Türkmənistan Parlamentinin Beynəlxalq və parlamentlərarası əlaqələr komitəsinin sədri Beqmurat Muhamedov. Buyurun, hörmətli həmkar. (*Alqışlar.*)

## Türkmənistan Parlamentinin Beynəlxalq və parlamentlərarası əlaqələr komitəsinin sədri cənab Beqmurat Muhamedovun çıxışı

**Hörmətli xanım sədr Sahibə Qafarova!**
**Hörmətli iştirakçılar!**

Türkmənistanın nümayəndə heyəti ilk növbədə sizi Azərbaycan Respublikası Milli Məclisinin Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş xüsusi iclasının açılışı münasibəti ilə təbrik edir.

Bir çox çıxış edənlərin qeyd etdiyi kimi, Heydər Əliyev Azərbaycanın milli tarixində tarixi sima olmuşdur. O, millətinin dinc, firavan yaşaması üçün böyük tarixi işlər görmüşdür. Onun irsinə əsaslanaraq, Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə öz şanlı tarixində yeni parlaq səhifələr yazır.

**Hörmətli həmkarlar!**

Bu gün Türkmənistanın möhtərəm Prezidenti Sərdar Berdiməhəmmədovun və Azərbaycan Respublikasının möhtərəm Prezidenti İlham Əliyevin səyləri ilə ölkələ-

rimiz arasında hərtərəfli əlaqələr sürətlə inkişaf edir.

Əməkdaşlığımızın əsas istiqamətlərindən biri nəqliyyat sektorudur. Türkmənistan və Azərbaycan Əfqanıstan, Gürcüstan və Türkiyə ilə birlikdə Asiya və Avropanı birləşdirən Lazurit nəqliyyat dəhlizinin səmərəli işləməsi üzərində işləyir. Türkmənistan və Azərbaycan həm də Xəzər dənizi–Qara dəniz nəqliyyat sisteminin yaradılmasının təşəbbüskarları sırasındadır.

Onu da qeyd etməliyəm ki, Türkmənistan–Azərbaycan əlaqələrinin daimi inkişafında türkmən xalqının ümummilli lideri, Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri hörmətli Qurbanqulu Berdiməhəmmədov mühüm işlər görmüşdür.

Bu baxımdan Xəzər dənizində "Dostluq" karbohidrogen yatağının birgə kəşfiyyatı və işlənməsi haqqında Türkmənistan və Azərbaycan hökumətləri arasında Anlaşma Memorandumunun imzalanmasının böyük əhəmiyyətini vurğulamaq istərdim. Bu sənəd ölkələrimiz arasında Xəzər regionunda uzunmüddətli əməkdaşlığın inkişafına əlavə təkan vermişdir.

Ölkələrimiz arasında əlaqələr üçtərəfli formatda da inkişaf edir. Bu baxımdan Türkmənistanda dövlət başçılarının "Türkmənistan–Azərbaycan–Türkiyə" formatında ilk tarixi zirvə toplantısı mühüm əhəmiyyət kəsb edir.

**Hörmətli həmkarlar!**

Dostluq qruplarımızın əməkdaşlığı və yüksək səviyyəli ikitərəfli səfərlər Türkmənistan və Azərbaycan arasında parlament diplomatiyasının inkişafında mühüm rol oynayır. Mən səmimi qəlbdən inanıram ki, ölkələrimiz arasında parlamentlərarası əlaqələr gələcəkdə daha da möhkəmlənəcəkdir.

Onu da vurğulamaq istərdim ki, Türkmənistan bu ya-

xınlarda yaradılmış Qoşulmama Hərəkatının Parlament Şəbəkəsini yüksək qiymətləndirir. Şübhəsiz ki, bu qurumun yaranması Azərbaycanın səmərəli rəhbərliyinin nəticəsi olmuşdur.

**Hörmətli xanım Qafarova!**

Xüsusi vurğulamaq istərdim ki, Türkmənistan Parlamenti Türkmənistanın neytrallıq və sülhsevərlik siyasətinə əsaslanan parlamentlərarası əməkdaşlığımızı daha da inkişaf etdirməyə hazırdır.

Yüksək təşkilatçılıq və qonaqpərvərliyə görə Azərbaycan Respublikasının Milli Məclisinə təşəkkür edirəm.

Fürsətdən istifadə edərək hamınıza cansağlığı, firavanlıq və uğurlar arzulayıram!

Təşəkkür edirəm. (*Alqışlar.*)

**Sədrlik edən.** Çox təşəkkür edirəm, hörmətli həmkar.

İndi isə Venesuela Parlamentinin İnzibati və xidmətlər daimi komissiyasının sədri cənab Pedro Karrenoya söz verilir. Buyurun, hörmətli həmkar. (*Alqışlar.*)

## Venesuela Parlamentinin İnzibati və xidmətlər daimi komissiyasının sədri cənab Pedro Karrenonun çıxışı

**Milli Məclisin sədri xanım Sahibə Qafarova!**

Azadlıqsevər atamız Simon Bolivarın və sevimli komandirimiz Huqo Çavesin beşiyi olan Venesuelanın cəsur və mübariz xalqı adından sizə göndərilən səmimi salamlarımızı qəbul etməyinizi xahiş edirik. Cənab Nikolas Maduro Morosun başçılıq etdiyi inqilabi hökumətimiz və deputat həmkarım Xorxe Rodriges Qomesin rəhbərlik etdiyi Venesuela Milli Assambleyası adından Azərbaycan xalqını və Azərbaycan Respublikasının Prezidenti Zati-

aliləri İlham Əliyevi Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibəti ilə təbrik edir və bu əlamətdar tarixin qeyd olunması münasibəti ilə səmimi və məhəbbət dolu təbriklərimizi çatdırıram. İcazənizlə, Venesuela Milli Assambleyasının göndərdiyi rəsmi məktubu sizə oxuyum.

***"Azərbaycan Respublikası Milli Məclisinin sədri zati-aliləri xanım Sahibə Qafarovaya***

Mayın 10-da xalqınızın lideri, dahi şəxsiyyət Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibəti ilə Azərbaycan xalqını təbrik etmək üçün Sizə müraciət etmək mənim üçün şərəfdir. Bu bayram onun doğum gününün yad edilməsi ilə yanaşı, ölkənizin müstəqilliyinə uğurla rəhbərlik edərək qoyub getdiyi irsin göstəricisidir.

Heydər Əliyevin çiçəklənən və daim inkişaf edən Azərbaycanın qurulmasında əvəzsiz xidmətləri xüsusi qeyd edilməlidir. Onun uzaqgörən liderliyi, şübhəsiz ki, yeni nəsillər üçün ilham mənbəyidir və ləyaqətli xalqının görkəmli liderləri tərəfindən əzmkarlıqla və qətiyyətlə inkişaf etdiriləcəkdir.

Belə bir möhtəşəm bayramın həyəcanını bölüşmək bütün insanların ləyaqətlə yaşaya biləcəyi daha ədalətli və humanist bir dünyanın qurulması üçün çalışmağın zəruriliyi haqqında birlikdə düşünmək üçün uyğun bir fürsətdir.

Venesuela Bolivar Respublikası, onun prezidenti Nikolas Maduro, xalqımız və bu parlament çoxqütblü, multietnik və multikultural dünya ideyasını bölüşürük, bu mənada birgə işimiz bizim fundamental vəzifəmizdir. Parlament dostluq qrupu vasitəsi ilə Venesuela Milli Assambleyası və Azərbaycan Respublikasının Milli Məclisi arasında münasibətləri məhsuldar şəkildə inkişaf etdirə bilərik.

Öz adımdan və Venesuela Bolivar Respublikasının Milli Assambleyası adından xalqınıza heyranlığımızı və hörmətimizi qəbul edin. Bu mənada sizə ən yüksək hörmət və ehtiramımı çatdırmaqdan məmnunam.

***Hörmətlə, Dr. Xorxe Rodriges Qomes,***
***Venesuela Milli Assambleyasının sədri”***

Bu qədər. Xanım sədr və deputat həmkarlarım, biz bu günü sizinlə bölüşməkdən məmnunuq. Bu gün hamımızın azad yaşaya biləcəyimiz daha ədalətli və daha humanist bir dünya qurmaq üçün əl-ələ tutur və qeyd edirik ki, bunun üçün dostluq qrupları strukturunun formalaşdırılması həyati əhəmiyyət kəsb edir.

Mən bu rəsmi məktubu Milli Məclisin katibliyinə şəxsən təqdim edəcəyəm. Çox sağ olun, bir daha təbrik edirəm. (*Alqışlar.*)

**Sədrlik edən.** Çox sağ olun, hörmətli həmkar.

İndi isə çıxış edir Ərəb Parlamentinin sədri cənab Adel bin Abdul Rahman Əl Asumi. Buyurun, cənab sədr. (*Alqışlar.*)

## Ərəb Parlamentinin sədri cənab Adel bin Abdul Rahman Əl Asuminin çıxışı

**Azərbaycan Respublikası Milli Məclisinin sədri zatialiləri xanım Sahibə Qafarova!**

**Azərbaycan Respublikası Milli Məclisinin möhtərəm üzvləri!**

**Hörmətli həmkarlar, parlament sədrləri və parlament nümayəndə heyətlərinin rəhbərləri!**

**Hörmətli iştirakçılar!**

**Xanımlar və cənablar!**

Assalamu aleykum və rahmatullahi və barakatu.

İlk növbədə, Azərbaycan Respublikası Milli Məclisinin bu tarixi xüsusi iclasında iştirak etməkdən böyük məmnunluq duyduğumu bildirmək, səmimi qəbula və qonaqpərvərliyə, həmçinin yaxşı təşkilatçılığa və bu iclasın çağırılmasına sərf olunmuş əhəmiyyətli səylərə görə Azərbaycan Respublikasına səmimi təşəkkür və minnətdarlığımı çatdırmaq istəyirəm.

Əcdadlarımızın və ölkələrimizin qurucularının xatirəsinin yad edilməsi hər zaman bizə bugünkü reallığımızın formalaşdırılması istiqamətində yol göstərən dərslər və öyüdlər verir. Eyni zamanda, onların yolu ilə getməyimiz və onların daşıdığı və uğrunda böyük səylər göstərdiyi nəcib missiyanı başa çatdırmağımız istiqamətində mayak rolunu oynayır.

Bu baxımdan Ərəb Parlamenti zati-aliləri Azərbaycan Respublikası Milli Məclisinin xanım sədrinin dəvətini həvəslə qəbul edib və müstəqil Azərbaycan dövlətinin qurucusu Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyini qeyd etdiyimiz bu mühüm tədbirdə yüksək səviyyəli parlament nümayəndə heyəti ilə iştirak edir.

Biz bu gün müasir Azərbaycan Respublikası dövlətinin əsasını qoyan, onu bölünmə və parçalanmadan qurtarıb birliyə və sabitliyə aparan, inkişaf, tərəqqi və çiçəklənmə yolunun əsas elementlərinin təməlini qoyan liderin doğumunun yubiley gününü qeyd edirik.

Məhz onun böyük səyləri nəticəsində Azərbaycan beynəlxalq arenada görkəmli mövqe tuta, bütün dünyanın etimadını və hörmətini qazana bilmiş, regional səviyyədə aparıcı ölkəyə və etibarlı tərəfdaşa çevrilmişdir.

Bu mühüm tədbirdə biz lider Heydər Əliyevin öz ölkəsinin ərəb dövlətləri ilə əlaqələrini möhkəmləndirmək üçün göstərdiyi böyük səyləri fəxrlə xatırlamalıyıq, məhz

həmin səylər Azərbaycan Respublikası ilə ərəb dövlətlərinin bütün səviyyələrdə güclü əlaqələrinin təməl daşını qoymuş və o, Azərbaycanın islami kimliyinin bərpasında oynadığı böyük rolla yanaşı, həmin əlaqələri özünün başlıca prioritetləri sırasına qoymuşdur. Təsadüfi deyil ki, İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanın müstəqillik əldə etdikdən sonra üzv olduğu ilk beynəlxalq təşkilatdır.

Azərbaycanın müasir intibahının banisi, onun çağdaş tarixinin yaradıcısı olan öndər Heydər Əliyevin tarixi irsi bundan sonra da qardaş Azərbaycan xalqının milli sərvəti, qürur və şöhrət mənbəyi olaraq qalacaqdır.

**Hörmətli iştirakçılar!**

Bu mühüm tədbirdə iştirak etmək fürsətindən istifadə edərək, Ərəb Parlamenti adından vurğulamaq istərdim ki, Azərbaycan Respublikası ilə ərəb dövlətlərinin sıx münasibətləri ərəb və Azərbaycan xalqları arasında münasibətlərin möhkəmlənməsi üçün güc mənbəyidir. Biz Ərəb Parlamentində ərəb və İslam dünyaları arasında həmrəyliyi gücləndirməkdə çox maraqlıyıq, xüsusən ona görə ki, indiki reallığımızı xalqlarımız üçün daha yaxşı gələcəyə doğru dəyişməkdə təsirli olmağımıza imkan verən potensiala və hakimiyyət elementlərinə sahibik.

Sonda bir daha vurğulayıram ki, böyük liderlərin təsiri tarixdə daim qalacaq və onların doğumunun və vəfatının ildönümündə xalqları onları yad edəcəklər. Beləliklə, Ümummilli Lider Heydər Əliyevin adı Azərbaycan xalqının tarixində və yaddaşında əbədi yaşayacaqdır. Heydər Əliyevin ölkəsinin ərəb dövlətləri ilə əlaqələrinin möhkəmləndirilməsi və istər ölkə daxilində, istərsə də xaricində İslam həmrəyliyinin təşviqi istiqamətində göstərdiyi mühüm səylər bundan sonra da onun irsinin və çoxsaylı böyük nailiyyətlərinin parlaq nümunəsi olaraq qalacaqdır.

Diqqətinizə görə təşəkkür edirəm.

Assalamu aleykum və rahmatullahi və barakatu. (*Alqışlar.*)

**Sədrlik edən.** Çox sağ olun, cənab sədr.

İndi isə Türk Dövlətləri Parlament Assambleyasının Baş katibi cənab Mehmet Süreyya Erə söz verilir. Buyurun, cənab Baş katib. (*Alqışlar.*)

## Türk Dövlətləri Parlament Assambleyasının Baş katibi cənab Mehmet Süreyya Erin çıxışı

**Möhtərəm sədr!**
**Hörmətli parlament rəhbərləri!**
**Hörmətli beynəlxalq təşkilat rəhbərləri!**
**Xanımlar və cənablar!**

İlk olaraq Türk Dövlətləri Parlament Assambleyasının Baş katibi kimi belə bir mötəbər iclasa dəvətə görə hörmətli sədr xanım Sahibə Qafarova başda olmaqla Azərbaycan Respublikası Milli Məclisinə dərin minnətdarlığımı bildirirəm.

Türk olaraq Böyük Öndər Heydər Əliyevin Azərbaycanda və onun hüdudlarından kənarda böyük təntənə ilə qeyd edilən 100 illik yubileyinə həsr edilən bugünkü tarixi toplantıda iştirak etmək qürurverici hissdir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin nəinki Azərbaycan dövləti, xalqı üçün misilsiz xidmətləri, eyni zamanda, bütün türk dünyasının birliyi, həmrəyliyi naminə gördüyü işlər, irəli sürdüyü təşəbbüslər türk dünyasının beynəlxalq nüfuzunun və təsirinin güclənməsinə dərin töhfə vermişdir.

Heydər Əliyev tarixin müxtəlif mərhələlərində bir-bi-

rindən ayrı düşmüş türk dünyasının birləşdirilməsi naminə yorulmaz səylər göstərmişdir. Böyük Öndərin məqsədyönlü fəaliyyətinin uğurlu nəticələri bu istiqamətdə davamlı addımların atılmasına təkan vermişdir. Heydər Əliyev türk dünyasının birliyinə, sadəcə, etnik köklərin eyniliyinə əsaslanan mədəni, etnoqrafik birlik kimi yanaşmır, bu birliyin gələcəyini xüsusi diqqət mərkəzində saxlayır və daim türk xalqlarının yaxınlığının vacib olduğunu vurğulayırdı. Heydər Əliyev siyasi kursunun mühüm istiqamətlərindən biri olan Azərbaycanın türk dövlətləri ilə əməkdaşlığının inkişafı Azərbaycan xarici siyasətində müstəsna yer tutmaqdadır. Tarixə nəzər saldıqda qeyd etmək zəruridir ki, bu gün institusional çərçivədə hərtərəfli inkişaf edən türk əməkdaşlığının hazırkı səviyyəsinin kökündə türk birliyi ideyasının müəlliflərindən olan Heydər Əliyev kimi dahi şəxsiyyətlərin yorulmaz fəaliyyəti və zəhməti dayanır.

Heydər Əliyevin uğurlu siyasəti və diplomatiyası sayəsində Azərbaycanın qardaş dövlətlərlə dərinləşən və genişlənən əlaqələri hazırkı ölkə rəhbərliklərinin iradəsi və əzmi ilə yeni mərhələyə qədəm qoyaraq həm ikitərəfli, həm də çoxtərəfli müstəvilərdə daha da inkişaf etməkdədir. Bu çərçivədə vurğulamaq istərdim ki, dövlətlərarası əlaqələrin inkişafında parlamentlər səviyyəsində aparılan dialoq, yaradılan əməkdaşlıq da əhəmiyyətli rol oynayır. Bu gün əminliklə deyə bilərik ki, türk dövlətləri arasında əlaqələrin inkişafında, daha da dərinləşməsində parlament diplomatiyası öz sözünü deyir.

2008-ci il noyabrın 21-də Türkiyənin İstanbul şəhərinin Dolmabağça sarayında Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə parlament rəhbərlərinin imzaladığı sazişə əsasən hazırkı adı ilə Türk Dövlətləri Parlament Assamb-

leyası – TÜRKPA təsis edilmişdir. Türk əməkdaşlığının parlament ölçüsü kimi TÜRKPA yarandığı gündən türk dövlətləri arasında əlaqələrin daha da möhkəmləndirilməsi istiqamətində səmərəli fəaliyyət göstərməkdədir. Türk dünyasında əməkdaşlığın bütün sahələrində böyük potensial mövcuddur. Hər bir üzv dövlətimiz malik olduğu imkanlardan yararlanaraq bu əməkdaşlığa dəstək verməyə səy göstərir. Müasir dünyada parlament diplomatiyasının əhəmiyyəti, dövrün çağırışlarının cavablandırılmasında parlamentlərin xüsusi rolu türk dünyasında parlamentlərarası əməkdaşlığın daha da inkişafını və dərinləşməsini şərtləndirir. Bu baxımdan böyük məmnunluqla qeyd etmək istərdim ki, cari ildə yaradılmasının 15 illiyini qeyd edən TÜRKPA parlamentlərin səmərəli dialoq və əməkdaşlıq platformasına çevrilmişdir.

Hörmətli iştirakçılar, Heydər Əliyevin türk dünyasının birliyində rolu və misilsiz xidmətləri bir çıxışa sığmayacaq qədər böyükdür. Türk dünyasının dahi oğlu Heydər Əliyevə sevgi və rəğbət onun xatirəsinin böyük ehtiramla anılmasında özünün aydın ifadəsini tapır.

Türk dövlətlərində Böyük Öndərin adını daşıyan küçələrin, parkların açılışı, abidəsinin ucaldılması və digər mühüm addımlar türk dünyasının birliyində, həmçinin Azərbaycanla türk dövlətləri arasında əməkdaşlığın inkişafında Heydər Əliyevin əməyinə verilən dəyəri bir daha təsdiqləyir.

Çıxışımın sonunda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi, vurğulamaq istəyirəm ki, "Heydər Əliyev bütün zamanlarda, bütün dövrlərdə Azərbaycan xalqına ləyaqətlə xidmət etmişdir". (*Alqışlar.*)

Azərbaycanın müstəqilliyinin əbədi, dönməz olmasında, iqtisadi potensialının möhkəmlənməsində, bölgədə və

dünyada nüfuzunun artmasında Heydər Əliyevin müdrik siyasəti müstəsna rol oynamışdır. Hazırda bu siyasət uğurla davam etdirilir. Əminəm ki, Heydər Əliyevin əziz xatirəsi və qurduğu müstəqil, müasir və güclü Azərbaycan əbədi yaşayacaqdır. Bir daha Azərbaycan Respublikası Milli Məclisinə dəvəti və səmimi qonaqpərvərliyi üçün dərin minnətdarlığımı bildirirəm. Diqqətiniz üçün təşəkkür edirəm. (*Alqışlar.*)

**Sədrlik edən.** Çox sağ olun, cənab Baş katib.

İndi çıxış edir Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Baş katibi cənab Asəf Hacıyev. Buyurun, cənab Baş katib. (*Alqışlar.*)

## Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Baş katibi cənab Asəf Hacıyevin çıxışı

**Milli Məclisin sədri hörmətli Sahibə xanım!**
**Milli Məclisin hörmətli sədr müavinləri!**
**Xarici ölkələrin hörmətli parlament sədrləri!**
**Hörmətli millət vəkilləri!**
**Xanımlar və cənablar!**

İlk öncə Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyası adından hamınızı salamlayıram və Milli Məclisin rəhbərliyinə bu mötəbər iclasa məni dəvət etdikləri üçün öz təşəkkürümü bildirirəm.

**Hörmətli dostlar!**

XX əsr bəşəriyyətin tarixində onunla yadda qalacaq ki, bu əsrdə müxtəlif xalqlar, müxtəlif dövlətlər çox tanınmış insanları dünyanın siyasi xəzinəsinə vermişlər. Məsələn, Amerikanı böyük depressiyadan qurtaran Amerika Birləşmiş Ştatlarının Prezidenti Franklin Ruzvelt, Böyük

Britaniyanın Baş naziri, Nobel mükafatı laureatı Uinston Çörçil, Almaniyanın inkişafında böyük xidməti olmuş Konrad Adenauer, Pakistanın qurucusu və atası Məhəmməd Əli Cinnah və sözsüz ki, Heydər Əliyev. Bu siyahıya nəzər salsaq görərik ki, burada olan şəxslərin hamısı böyük xalqların, böyük dövlətlərin nümayəndələri olub. Bir şəxs istisna olmaqla, o da Heydər Əliyevdir.

Azərbaycan kiçik bir dövlətdir. Azərbaycanın paytaxtdan başqa böyük şəhərləri yox, böyük məsafələri yox. Amma hesab edirəm ki, hər bir azərbaycanlı üçün ona qürur gətirən bizim dərin mənəvi və mədəni dəyərlərimizdir. 1995-ci ildə Kopenhagendə dünya liderlərinin sammitində o vaxtkı Birləşmiş Millətlər Təşkilatının Baş katibi Butros Butros Qali Heydər Əliyevi hava limanında qarşılayarkən onu bağrına basıb belə sözlər demişdi: "mən Azərbaycanın mənəvi və mədəni dəyərlərinə çox böyük hörmətlə yanaşıram. Bu dəyərlərin ən parlaq daşıyıcısı məhz Heydər Əliyevdir". Hesab edirəm ki, artıq bu sözlər hər bir azərbaycanlı üçün böyük qürur hissi gətirir. Baxın, belə bir mötəbər təşkilatın lideri Heydər Əliyev haqqında belə sözlər deyir.

Mən hamınıza dünyada məşhur olan Franklin Ruzveltin bir kəlamını misal gətirmək istəyirəm. O deyirdi: "həmrəylik, budur həyatımızın mübtədası. Onunla biz qorxudan başqa hər şeyə qalib gələ bilərik". Mən başa düşürəm ki, tərcüməçilər çətinlik çəkir. Rusca bu belə səslənir: "Солидарность, вот ключевое слово".

1995-ci ildə Heydər Əliyev Kopenhagendə sammitdə olanda Azərbaycanda çevriliş hazırlanırdı. Dünya liderləri ona deyirdilər ki, Azərbaycana getmə, bu, həyatın üçün çox təhlükəlidir. Amma Heydər Əliyev Azərbaycana gəldi, Azərbaycan xalqının köməyinə gəldi və hər şeyi aradan

qaldırdı. Ona görə əgər Franklin Ruzvelt amerikalıların yaddaşında milləti depressiyadan qurtaran və xalqı qorxu ilə bağlı xəbərdarlıq edən şəxs kimi yadda qaldısa, hər bir azərbaycanlının yaddaşında Heydər Əliyev  qorxmayan və ona qalib gələn şəxs kimi yadda qalmalıdır.

Heydər Əliyev Azərbaycan üçün  çox böyük işlər gördü. Bilirsiniz, dünyada müxtəlif liderlər var, xalqları üçün böyük işlər görülərr. Əgər siz Böyük Britaniyada soruşsanız, sizin ən böyük lideriniz kimdir, sözsüz ki, cavab Uinston Çörçil olur. Deyəndə ki, nə üçün siz böyük bir şəxsə “Big Ben”in önündə sadə bir heykəl qoydunuz, cavab verərdilər ki, Uinston Çörçilin heykələ ehtiyacı yox idi. Heykəlin ona ehtiyacı var idi. Mən hesab edirəm ki, Heydər Əliyevə qoyulan ən böyük heykəlin memarı məhz özü oldu. O da müstəqil Azərbaycan dövlətidir.

Heydər Əliyev Azərbaycan üçün böyük işlər gördü və hesab edirəm ki, Azərbaycan xalqına bəxş etdiyi bu gün onun davamçısı İlham Əliyev oldu.

2014-cü ildə Moskvada Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun 70 illiyi qeyd olunurdu. Orada qeyd olundu ki, bu tanınmış ali məktəbi bu günə qədər 100 mindən çox gənc  bitiribdir. Amma onların içində, sadəcə, bir şəxs dünyada ən yüksək olan Prezident kürsüsünə yüksəlib. O da Azərbaycan xalqının nümayəndəsi məhz İlham Əliyevdir.

Heydər Əliyev bu dünyadan köçdü və qəlbində, yəqin ki, həyata keçirmədiyi bir arzusu qaldı. O da bizim işğal olunmuş torpaqlarımızın qaytarılması. Bu missiyanı onun davamçısı İlham Əliyev həyata keçirdi. Ali Baş Komandanın rəhbərliyi altında müzəffər Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etdi və düşünürəm ki, qısa bir zamanda cənab Prezident artıq Xankəndidə Azərbaycan Bayrağını ucaldacaq.

Çıxışımın sonunda sizə bir epizodu xatırlatmaq istəyirəm. Tanınmış insanların içində elələri var ki, onlara "düha insanlar" deyirlər. Onların beyni elə qurulub ki, böyük informasiya massivlərini saxlaya bilir, lazımi anda lazımi nəticədən istifadə edib çox mürəkkəb vəziyyətlərdən çıxış yolları tapır. Alimlərin dediyinə görə XX əsrdə belə düha insanlardan biri Albert Eynşteyn olub. Albert Eynşteynin özünün dediyinə görə fizika onun beynində bir bölünməz vahid idi və hər bir nəticənin öz hüceyrəsi var idi. Mürəkkəb məsələləri həll edəndə o, lazımi hüceyrədən lazımi nəticəni götürüb məsələni həll edirdi. Bununla bağlı bir epizodu danışmaq istəyirəm.

1994-cü ildə hələ neft kontraktı imzalanmamışdı. Heydər Əliyevin dünyanın aparıcı neft şirkətlərinin birinin prezidenti ilə görüşü oldu. O görüşdə Heydər Əliyev öz köməkçisi, şöbə müdiri və xarici işlər naziri ilə iştirak edirdi. O tərəfdən isə həmin böyük şirkətin prezidenti, bir də onun köməkçisi. Əvvəldən məlum idi ki, söhbətlər bir nəticə verməyəcək. Çünki o tərəf Azərbaycanın şərtlərini qəbul etmək istəmirdi. Amma o da məlum idi ki, bunlarla dost qalmaq lazımdır. Sözsüz, danışıqlar nəticə vermədi və o şirkətin prezidenti ayağa qalxdı ki, otağı tərk etsin. Bu vaxt Heydər Əliyev ondan soruşdu: "Sizin yanınızda oturan xanım kimdir?" O dedi ki, bu mənim köməkçim və tərcüməçimdir. Heydər Əliyev dedi: "Çox gözəl. Bu da mənim köməkçimdir. Gəlin, köməkçilərimizi dəyişək. Sizin köməkçiniz qalsın burada, Siz də mənim köməkçimi aparın". Təbii ki, soyuq ölkədən olan bir insan bunu o qədər dərindən başa düşməmiş əsəbiləşmişdi. Demişdi, necə ola bilər ki, biz köməkçiləri dəyişək. Bu, mümkün olan şey deyil. Biz Avropada yaşayırıq. Heydər Əliyev çox ciddi olaraq davam etdi ki, "Siz tam haqlısınız. Sizin

köməkçiniz xanımdır və yaraşıqlı xanımdır. Mənim köməkçim isə deyil. Ona görə mən sizə köməkçimi verirəm, bir də şöbə müdirini". Bunu deyəndə şirkətin prezidenti tam əsəbiləşdi və artıq otağı tərk etmək istəyəndə Heydər Əliyev ayağa qalxdı, xarici işlər nazirinin üzünə baxıb dedi: "Bu gün, deyəsən, səni də qurban verəcəyik. Çünki iş bunu tələb edir". Şirkətin prezidenti, nəhayət, bunu başa düşdükdən sonra Heydər Əliyevə yaxınlaşdı, onu bağrına basdı və dedi: "Mən bura gələndə bilirdim ki, böyük bir dövlət xadimi ilə görüşəcəyəm. Amma mən qarşımda çox incə insanı görürəm. İstərdim ki, biz dost olaq". Bu, nə idi? Bu, yumor idi? Xeyr, bax, o Eynşteynin dediyi kimi, mürəkkəb vəziyyətdə onun beyni çox gözəl bir həll tapdı və qısa bir zamanda yad adamı dost etdi.

Əziz dostlar, vaxtınızı çox almaq istəmirəm. Mən əminəm ki, on illər keçəcək, bəlkə də belə bir salonda deyil, bundan da böyük, möhtəşəm salonda Azərbaycan xalqı hər il may ayında Heydər Əliyevin növbəti yubileyini qeyd edəcək. Düşünürəm ki, yeni nəsillər də bunu qeyd edəcək. Çünki bu, Azərbaycan xalqının ilk fəxri idi. Mən deyərdim, bir nümunəsi və bir incisi idi. Mən hamınıza can sağlığı, uğurlar arzulayıram. Diqqətiniz üçün təşəkkür edirəm. (*Alqışlar.*)

**Sədrlik edən.** Sağ olun, cənab Baş katib.

Hörmətli həmkarlar, son çıxışı Qırğızıstan parlamentinin birinci sədri cənab Medetxan Şerimkulov edəcək. Cənab Şerimkulov, buyurun. (*Alqışlar.*)

## Qırğızıstan parlamentinin birinci sədri cənab Medetxan Şerimkulovun çıxışı

**Hörmətli xanım sədr!**

**Hörmətli Milli Məclis!**

Həpinizə mənim salamlarım, sayqılarım, həpinizə sağlıq. *(Alqışlar.)*

Bugünkü tədbirin hörmətli iştirakçıları, qonaqlar arasında az insan var ki, Heydər Əliyevi mənim kimi şəxsən tanıyıb. Mən onu 1978-ci ildən etibarən tanıyıram. Heydər Əliyev yeni Azərbaycan dövlətinin banisidir. Məhz o, Sovet İttifaqında bütün vəzifələrdən uzaqlaşdırıldıqdan sonra Azərbaycan, onun vətəni onu tələb etdi. O, Naxçıvana qayıtdı və hələ 1918-ci ildə qaldırılan bayrağı yenidən ucaltdı və beləliklə, Azərbaycan onu göstərdi ki, yeni Azərbaycan Sovet İttifaqının tör-töküntüsündə, dağıntısında yaranmır, Azərbaycan 1918-ci ildə yaradılmış öncəki dövlətçiliyini bərpa edir. *(Alqışlar.)*

Bu, sabiq SSRİ dövlətləri arasında nadir haldır ki, Azərbaycanın uzun və zəngin dövlətçilik ənənəsi olub. Məhz Heydər Əliyev 1920-ci ildə yerə düşmüş bu üçrəngli Azərbaycan Bayrağını qaldırmışdı. İndi sizin bayrağınız, rəmziniz kimi Birləşmiş Millətlər Təşkilatının Nyu-Yorkdakı binası qarşısında məhz bu bayraq dalğalanır. Bu, böyük, möhtəşəm bir tarixdir.

Heydər Əliyev xalqı tərəfindən məhz o dövrdə hakimiyyətə dəvət edildi ki, Azərbaycan təkcə Sovet İttifaqının süqutu səbəbindən deyil, ilk növbədə Dağlıq Qarabağ münaqişəsindən qaynaqlanan təhlükələr, problemlər ucbatından çox ağır vəziyyətdə düşmüş, ciddi böhranla üzləşmişdi. Xanım spiker danışdı. 1994-cü ildə Qarabağda silahlı münaqişə dayandırıldığı dövrdə mən bu danışıq-

larda birbaşa iştirak etmişdim. Müstəqil Dövlətlər Birliyinin Parlamentlərarası Assambleyası mənim rəhbərliyim ilə sülhməramlı bir qrup yaratdı. Bir qrup parlamentari ilə birlikdə biz 1993-cü ildə Bakıya gəldik. Mən Heydər Əliyev ilə görüşdüm. Biz o vaxt həmkar idik. Mən o vaxt Qırğızıstan parlamentinin sədri idim. Bu, çox çətin bir dövr idi. Azərbaycan od-alov içində idi, bir milyon qaçqın, ərazinin 20 faizi işğal altında və məhz bu dövrdə Heydər Əliyev 1993-cü il oktyabrın 3-də keçiriləcək Prezident seçkilərinə hazırlaşırdı. Bu böyük işin nəticəsində 1994-cü il mayın 5-də Bişkekdə Bişkek protokolu imzalandı və bunun əsasında Qarabağda müharibə dayandırıldı. Ondan əvvəl BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi qəbul olunmuşdu. Onların heç biri icra olunmamışdı. Qarabağ bölgəsində müharibənin 26 il ərzində səngiməsi Azərbaycana Heydər Əliyevin və İlham Əliyevin başçılığı altında müəyyən imkanlar verdi ki, ölkənin iqtisadi qüdrətini artırsın, müasir ordu yaratsın və Azərbaycanın ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı, müqəddəsliyi təmin olunsun. Yalnız ölkənin iqtisadi qüdrəti deyil, həm də hərbi potensialı hesabına. *(Alqışlar.)*

Dünya belədir, sən özünü müdafiə edə bilirsənsə, öz dövlətçiliyini qoruya bilirsənsə, öz ölkəni qoruya bilirsənsə, səninlə həm dostlar, həm də düşmənlər hesablaşır. Bu, fəlsəfi bir fikirdir və hesab edirəm ki, dünyanın bütün ölkələrinə aiddir.

Heydər Əliyev iki dəfə Azərbaycanın rəhbəri olaraq, iki dəfə Azərbaycanın Prezidenti seçilərək müasir Azərbaycan yaratdı və siz, doğrudan da, bununla fəxr edə bilərsiniz. Burada bir çox sabiq SSRİ respublikalarının nümayəndələri var. Təəssüflər olsun, heç bir dövlətin heç bir rəhbəri belə bir şöhrətə layiq olmayıb ki, nəinki sağlı-

ğında, nəinki hakimiyyətdə olduğu dövrdə, ölümündən 20 il sonra belə şöhrətə, belə ehtirama layiq olsun. *(Alqışlar.)*

Bu gün də, mənə elə gəlir ki, Heydər Əliyevin avtoriteti və adı o, Prezident olduğu dövrdəkindən çox-çox daha yüksəkdir. Ona görə ki, fəaliyyətdə olan prezidenti həmişə tənqid edirlər, amma biz indi onun böyük xatirəsi qarşısında baş əyirik. *(Alqışlar.)* Doğrudan da, o, dahi bir şəxsiyyət, dahi insan idi və bu belədir. Siz azərbaycanlılar bizim qardaşlarımızsınız, biz əsl qardaşıq, sizin tam haqqınız var ki, belə bir dahi insanla fəxr edəsiniz. Biz də fəxr edirik, biz də Qırğızıstanda bu il o qədər tədbir keçirdik. Özümüz həsəd aparırıq ki, biz belə bir dahi şəxsiyyətin xatirəsini anmaq üçün bu cür tədbirləri keçirə bilirik.

Hörmətli xüsusi iclas iştirakçıları, heyf ki, mənim vaxtım azdır. Amma mən çıxışımı bu sözlərlə bitirmək istəyirəm. Heydər Əliyevin ruhu kainatınənginliyindən sizə baxır və sizə bərəkət gətirir. Onun ruhu heç vaxt Azərbaycanı tərk etməyəcək və daim sizinlə olacaq. *(Alqışlar.)*

Mən azərbaycanlılarla fəxr edirəm, ona görə ki, siz onu unutmamısınız, onun xatirəsini uca tutursunuz və onun nəsihətlərini yerinə yetirirsiniz. Bunlar yaxşı nəsihətlərdir. Bu nəsihətlər, bu millətin atası, bu dövlətin banisi olan insanın nəsihətləridir.

Nəhayət, Heydər Əliyev kimdir? Heydər Əliyev böyük Azərbaycan xalqının dahi oğludur. Yaşasın onun xatirəsi, onun nailiyyətləri, yaşasın Azərbaycan dövləti və Azərbaycan xalqı! Sağ olun. *(Alqışlar.)*

**Sədrlik edən.** Çox təşəkkür edirik, çox sağ olun.

Hörmətli xanımlar və cənablar, bu bizim bugünkü xüsusi iclasımızda son çıxış idi və iclası bağlamazdan əvvəl mən bir neçə fikrimi sizinlə bölüşmək istəyərdim. Bildiyiniz kimi, böyük siyasi və dövlət xadimi Heydər Əliyev

bütün xalqlara və ölkələrə böyük ehtiramla yanaşırdı və Azərbaycanın dostlarının sayının çox olmasına çalışırdı. Çünki bilirdi ki, dövlət öz dostları və tərəfdaşları ilə güclüdür.

Bu gün burada bizimlə birlikdə olan dostlarımıza mən bir daha minnətdarlığımı bildirirəm. Onlara üz tutub deyirəm: Azərbaycan xalqının Ümummilli Liderinin 100 illik yubileyini sizinlə birlikdə qeyd etmək çox xoşdur.

Ulu Öndər Heydər Əliyev Azərbaycan naminə yorulmaz fəaliyyəti ilə hələ sağlığında xalqımızın dərin hörmət və məhəbbətini qazanaraq onun qəlbində özünə möhtəşəm abidə ucaltmışdır.

Onun ideyaları bugünkü və gələcək nəsillərin əməllərində yaşayır və daim yaşayacaqdır. Nə qədər ki Azərbaycan var, Heydər Əliyev də var olacaqdır. (*Alqışlar.*)

**Hörmətli həmkarlar!**

**Hörmətli xanımlar və cənablar!**

İclasımız başa çatdı. Mən hamıya təşəkkür edirəm.

Sağ olun.

# ALTINCI ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# XII SESSİYASI İCLASININ

# PROTOKOLU № 131

*Milli Məclisin iclas salonu.*
*30 may 2023-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 103 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 98 |
| Yetərsay | 83 |

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. "Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərlərinin seçilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin Qərarında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Milli Məclisinin qərarının layihəsi.

2. "Türk İnvestisiya Fondunun yaradılması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

3. "Minatəmizləmə sahəsində xidmətlərə görə" Azərbaycan Respublikasının medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının

təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

4. "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

5. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

6. "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

7. Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

8. Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

9. "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

10. "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

11. "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

12. “Sosial xidmət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

13. “Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

14. Azərbaycan Respublikasının 2002-ci il 15 mart tarixli 274-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

15. “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

16. “Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

17. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

18. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

19. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

20. “Elektroenergetika haqqında” Azərbaycan Respub-

likasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

21. "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

22. "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

23. Kosmik fəaliyyət haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

24. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

25. "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

26. "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

27. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

28. Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev, Hicran Hüseynova, Tahir Kərimli, Kamal Cəfərov, Elşad

Mirbəşir oğlu, Tural Gəncəliyev, Razi Nurullayev, Musa Qasımlı, Əli Məsimli, Fazil Mustafa, Fəzail İbrahimli

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.04 dəq.) |
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**1. "Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərlərinin seçilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin Qərarında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Milli Məclisinin qərarının layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Səməd Seyidov

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.39 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**2. "Türk İnvestisiya Fondunun yaradılması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili, Zahid Oruc, Səməd Seyidov, Əli Məsimli, Aydın Mirzəzadə

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.58 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**3. "Minatəmizləmə sahəsində xidmətlərə görə" Azərbaycan Respublikasının medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nizami Səfərov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.59 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**4. "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.00 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**5. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.01 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**6. "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 12.02 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

**7. Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Hicran Hüseynova

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 12.04 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

**8. Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nurlan Həsənov

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 12.05 dəq.) |
| Lehinə | 96 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**9. “Sosial müavinətlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.05 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**10. “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.05 dəq.) |
|---|---|
| Lehinə | 95 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**11. "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.06 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**12. "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.06 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

**13. "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Elşən Musayev

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.10 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

**14. Azərbaycan Respublikasının 2002-ci il 15 mart tarixli 274-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.10 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

**15. "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.10 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

**16. "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nurlan Həsənov, Tahir Mirkişili

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.11 dəq.) |
| Lehinə | 91 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**17. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nurlan Həsənov, Tahir Mirkişili

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.14 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**18. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.14 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

**19. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.14 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

**20. "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Sadiq Qurbanov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.15 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

**21. "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.15 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**22. "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.16 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**23. Kosmik fəaliyyət haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili, Razi Nurullayev, Etibar Əliyev, Aydın Mirzəzadə

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.32 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**24. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Anar Məmmədov, Razi Nurullayev, Qüdrət Həsənquliyev, Sədaqət Vəliyeva, Rüfət Quliyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.50 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**25. "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.51 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**26. "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Ziyafət Əsgərov, Siyavuş Novruzov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.00 dəq.) |
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**27. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.01 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**28. Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nurlan Həsənov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.02 dəq.) |
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*30 may 2023-cü il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik edir*

**Sədrlik edən.** Xoş gördük, hörmətli həmkarlar, hörmətli media nümayəndələri. Hörmətli həmkarlar, xahiş edirəm, qeydiyyatdan keçək. Buyurun.

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 98 |
| Yetərsay | 83 |

Çox sağ olun. İclasa başlaya bilərik, yetərsay var.

Hörmətli həmkarlar! Hamınıza məlum olduğu kimi, mayın 28-də qardaş Türkiyədə keçirilən prezident seçkilərinin ikinci turunda türk dünyasının böyük siyasi və dövlət xadimi Rəcəb Tayyib Ərdoğan inamlı qələbə qazanmışdır. Əsl demokratiya şəraitində əldə edilmiş bu qələbə bütün Azərbaycan xalqını qəlbən sevindirmişdir. Biz əminik ki, hörmətli Prezident Ərdoğanın rəhbərliyi ilə qardaş Türkiyənin dinamik inkişafı qarşıdakı dövrdə yeni

vüsət alacaq. Biz Türkiyə–Azərbaycan dostluğunun və qardaşlığının yeni uğurlu nəticələrinə şahidlik edəcəyik. (*Alqışlar.*)

Hörmətli həmkarlar! Bildiyiniz kimi, Milli Məclis sədrinin rəhbərliyi ilə parlament nümayəndə heyəti mayın 24-dən 26-dək Serbiya Respublikasında ilk rəsmi səfərdə olmuşdur. Mayın 25-də nümayəndə heyəti paytaxt Belqraddakı Taşmaydan parkında Ümummilli Liderimiz Heydər Əliyevin abidəsini ziyarət etmiş və onun əziz xatirəsini yad etmişdir.

Səfər çərçivəsində Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç, Serbiyanın Baş naziri Ana Brnabiç, Serbiya Milli Assambleyasının sədri Vladimir Orliç ilə görüşlər keçirilmişdir. Görüşlərdə Azərbaycanla Serbiya arasında dostluq və əməkdaşlıq münasibətlərinin uğurla inkişaf etməsindən məmnunluq ifadə olunmuşdur. Qeyd edilmişdir ki, ölkələrimiz suverenlik və ərazi bütövlüyü məsələlərində daim həmrəylik nümayiş etdirirlər. Qarşılıqlı etimada və anlaşmaya əsaslanan yüksək səviyyəli siyasi dialoq iqtisadi əlaqələrin, xüsusən energetika və ekologiya, sərmayə qoyuluşu sahələrində əlaqələrin güclənməsinə də təkan verir.

Dövlətlərarası münasibətlərin inkişafında parlamentlərin iştirakı ilə bağlı məsələlər nəzərdən keçirilmişdir.

44 günlük Vətən müharibəsi başa çatdıqdan sonra regionda mövcud olan vəziyyət, işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işləri, məcburi köçkünlərimizin doğma torpaqlarına qayıtmasını nəzərdə tutan "Böyük Qayıdış" proqramının yerinə yetirilməsi, Azərbaycanın bölgədə uzunmüddətli sülh və sabitliyin təmin olunmasına yönələn səyləri barədə həmsöhbətlərimizə məlumat verilmişdir.

Serbiya Milli Assambleyasının sədri ilə görüşdə Azərbaycan və Serbiya parlamentləri arasında əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanmışdır.

Parlament nümayəndə heyətimiz Azərbaycanın Serbiyadakı Səfirliyi tərəfindən keçirilən və 28 May – Müstəqillik Gününə həsr olunmuş tədbirdə də iştirak etmişdir.

Hörmətli həmkarlar! Hesab edirəm, nümayəndə heyətimizin Serbiya Respublikasına rəsmi səfəri uğurlu keçdi və bununla əlaqədar mən nümayəndə heyətinin hər bir üzvünə dərin minnətdarlığımı bildirirəm.

İndi isə, hörmətli həmkarlar, xahiş edirəm, gündəliyin qəbul olunmasına münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.04 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, gündəlik qəbul edildi. Hörmətli həmkarlar, bizim 30 dəqiqəmiz var. 10 nəfər çıxış edə bilər. Gündəmdə və ya gündəlikdə olan məsələlərlə bağlı kimsə çıxış etmək istəyirsə, buyursun, yazılsın. Buyurun. 10 nəfər. Sonuncu Fazil Mustafanın çıxışı olacaq. Fazil müəllim artıq buradadır. Xoş gəlmisiniz. Musa Quliyev. Buyurun, Musa müəllim.

**M.Quliyev.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri! Xanım sədr, mən də Sizin təbriklərinizə qoşuluram. Qardaş Türkiyəni böyük demokratiya yolunda əldə etdiyi uğuru münasibəti ilə təbrik edirəm.

Cənab Rəcəb Tayyib Ərdoğan başda olmaqla AK Partidən olan millət vəkili dostlarımıza da uğurlar arzulayıram.

Hörmətli xanım sədr, getdikcə daha çox aktuallıq kəsb edən sosial bir problemi millət vəkillərinin və hökumətin diqqətinə çatdırmaq istəyirəm. Bir neçə il bundan qabaq Əmək Məcəlləsində edilən dəyişikliyə görə, dövlət büdcəsindən maliyyələşən təşkilatlarda işləyənlərin son yaş həddi 65 yaş müəyyən edilmişdir. Yalnız cüzi istisnalarla ildə bir dəfə uzadılmaqla işçi 70 yaşa çatanadək işləyə bilər. Son zamanlar isə xüsusi ilə təhsil, səhiyyə və TƏBİB-ə aid təşkilatlarda yaş məhdudiyyətinin tətbiqi kəskin, sərt və kütləvi xarakter almışdır. Sanki bu insanlar uzun illər həmin peşənin mütəxəssisi olmamışlar, heç bir bilik və bacarığa malik deyillər kimi davranaraq onları elə ad günündəcə işdən azad edirlər. Təşkilatda olan alternativ vakant iş yerləri də onlara təklif olunmur. Bu isə təhsil və tibb işçiləri arasında ciddi narazılıq və sosial gərginlik yaradır. Bizə edilən müraciətlərin sayı və xarakteri də müvafiq yumşalmanın vacibliyini diktə edir. Nəzərə alsaq ki, bu peşə sahiblərinin pensiyası da təxminən minimum pensiya həddindədir və başqa iş tapmaq imkanı da praktik olaraq mümkün deyil, eyni zamanda, onların sonrakı dövrdə də işləyib pensiyalarını artırmaq imkanları da əldə olunmur. Buna görə də hesab edirik ki, yaş həddi insanın çalışma imkanına əngəl olmamalıdır. Əgər bilik və bacarığı, sağlamlığı imkan verirsə, müvafiq sertifikasiya və attestasiyadan keçibsə, formal yaş məhdudiyyətinə görə insanları əmək fəaliyyətindən kənarda qoymaq doğru deyildir. Bu, vətəndaşın Konstitusiya ilə təmin olunan əmək hüququnun pozulması deməkdir.

Təklif edirəm ki, Əmək Məcəlləsində dəyişiklik edək və dövlət büdcəsindən maliyyələşən təşkilatlarda çalışma-

nın son həddi 65 yaşdan 70 yaşa qaldırılsın. Əgər Məclis bu təklifi dəstəkləyərsə, hökumət də etiraz etmədiyi halda, qanun layihəsini hazırlayıb payız sessiyasında müzakirənizə təqdim edə bilərik. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hicran Hüseynova, buyurun.

**H.Hüseynova.** Hörmətli Sahibə xanım, hörmətli həmkarlar, hörmətli media nümayəndələri. Sahibə xanım, Sizin sözlərinizə qoşularaq mən də, – Türkiyədə prezident seçkilərinin çox yüksək səviyyədə keçirilməsini və nəticəsini gözləyirdik, – hamımızı, əsasən də, əlbəttə ki, bizim türk qardaşlarımızı təbrik edirəm.

Cənab Prezident, Ali Baş Komandan İlham Əliyevin Laçında çox mühüm çıxışlarını, vacib mesajlarını dəstəkləyirik.

Hörmətli Sahibə xanım, mən bir neçə məsələyə toxunmaq istərdim. Ölkədə insan hüquq və azadlıqlarının müdafiəsi, xüsusi ilə də qadın və uşaqların hüquqlarının qorunması sahəsində çox mühüm işlər görülür. Bunu həm qanunvericiliyə, həm də siyasətin həyata keçirilməsinə aid etmək olar. Lakin bir neçə məsələ var. Son zamanlarda biz erkən yaşda qızların nikaha məcbur edilməsi, həmçinin qadınların ailə-məişət zəminində zorakılığa məruz qalması və qətlə yetirilməsi hallarına tez-tez rast gəlirik.

Hörmətli xanım sədr, sizin dəstəyinizlə Milli Məclisdə bu məsələlərlə bağlı bir neçə dəfə ictimai dinləmələr keçirmişik, qanunvericilik təşəbbüsləri ilə çıxış etmişik. Lakin bu gün aktual olan məsələ budur ki, qəbul olunmuş qanunlara və qanunlara edilmiş əlavə və dəyişikliklərin tətbiqinə az rast gəlirik. Bu baxımdan mən təklif edirəm ki, qanunların icra mexanizmində yaranmış çətinliklərlə, eyni zamanda, qanunvericiliyin gender üzrə ekspertizası ilə bağlı müvafiq dövlət qurumları və vətəndaş cəmiyyət-

ləri ilə birgə müzakirələr keçirilsin.

Digər bir mühüm məsələ isə Birinci Qarabağ müharibəsinin qadın veteranlarının mənzillə təmin edilməsidir. Onlar ərazi bütövlüyümüzün müdafiəsi uğrunda mübarizə aparıblar, sağlamlıqlarını itiriblər, illərdir, ev növbəsinə dayanıblar, lakin hələ də mənzil sahibi deyillər. Mən əlaqədar orqanlardan xahiş edirəm ki, müharibə veteranı qadınların bu probleminə həssas yanaşsınlar. Sağ olun.

**Sədrlik edən.** Hicran xanım, sağ olun. Sizin çıxışınızın birinci hissəsinə dair məndə məlumat var idi ki, Siz bu dinləməni uşaqları müdafiə günündə keçirmək istəyirsiniz. Mən düşünürəm ki, bəlkə Siz həmin gün ayrı bir mövzuda dinləmə keçirəsiniz. Çünki bu dediyiniz erkən nikah və sair məsələlər hər yerdə baş alan bir hal deyil. Sonra bunlar hamısı hansısa reportlara, məruzələrə düşür və Azərbaycanın da orada görünüşü tam olaraq düzgün deyil. Erkən nikah problemi var. Siz bunu hamıdan yaxşı bilirsiniz. Çünki neçə illərdir, həmin dövlət komitəsinin rəhbəri olmusunuz. Ancaq düşünürəm, həmin tarixdə olmasın. Mənə elə gəlir ki, həmin tarixdə Azərbaycan hökumətinin, Azərbaycan dövlətinin uşaqlara qayğısı haqqında, ayrı bir mövzu haqqında danışmaq olar. Bu mövzu ilə bağlı isə, düşünürəm ki, burada həm sizin komitənizin üzvləri ilə, həm də Bahar xanım Muradova ilə danışmaq olar ki, hansı mövzunun düzgün rakursunu qoymaq lazımdır. Sağ olun. Tahir Kərimli, buyurun.

**T.Kərimli.** Təşəkkür edirəm. Hörmətli sədr, hörmətli həmkarlar. Mən 28 May – Müstəqillik Günü münasibəti ilə xalqımızı təbrik edirəm və Türkiyədə cənab Ərdoğanın qalib gəlməsini dövlətimiz baxımından faydalı hesab edirəm.

Eyni zamanda, hörmətli xanım sədr, Sizin səfərləriniz, beynəlxalq görüşləriniz təkcə bizim parlament diplomati-

yasını gücləndirmir, eyni zamanda, dövlətimizin də nüfuzunu çox artırır. Onu demək istərdim ki, cənab Prezidentin böyük səylərinə Siz böyük töhfə verirsiniz. Ona görə də Sizə təşəkkür edirəm.

Musa müəllimə təşəkkür edirəm ki, məsələ qaldırdı. Doğrudan da, tibb işçilərinin, səhiyyə işçilərinin və müəllimlərin vaxtsız, pensiya yaşı çatan kimi, onların ən yaxşı potensialı olan vaxtında işdən çıxarılması doğru deyil. Bu barədə çox ciddi düşünmək lazımdır. Eyni zamanda, buna başqa rakursdan yanaşıram.

Bizim dövlətçilik sahəsində çoxlu müsbət addımlarımız var. Amma bəziləri özünü doğrultmur. O cümlədən də pensiya yaşının artırılması Azərbaycanda heç kim tərəfindən özünü doğrultmur, ombudsman, deputatlar, ekspertlər – hamısı buna öz narazılığını bildirirlər. Onu bildirim ki, Türkiyədə, Rusiyada, bütün MDB məkanında pensiya yaşı bizdən dəfələrlə aşağıdır. Deməli, 57–63 arasıdır. Nə üçün bizdə yuxarıdır? Nə üçün Azərbaycan həmişə xalqın ziyanına olan şeylərdə birincilik qazanır? Niyə biz 65 yaşa qaldırdıq? Elə insanlar var ki, ağır borular, daş, kərpic yükü daşıya bilmir. Bu adamlar, fəhlələr 65 yaşına kimi necə işləsinlər? Ona görə də mən təklif edirəm ki, kişilərin yaşı 62, qadınların yaşı 59 olsun. Çox fikirləşmişəm. Bu, çox optimal bir məsələdir. Hesab edirəm ki, üç uşağı olan qadınlar 55, beş uşağı olanlar isə 50 yaşından pensiyaya çıxarılsın. Bunun üstündə möhkəm durmaq lazımdır. Musa müəllim dedi ki, qanunu hazırlamaq istəyir. Xahiş edirəm, bu istiqamətdə hazırlasın.

Sonra 25 il iş stajı hədsiz böyük rəqəmdir. Hesab edirəm ki, bunun da izahı var. Vaxt olmadığına görə demirəm, 15 ilə endirilsin. Bizdə hesablanıb ki, 12 il pensiyadan sonra insanlar pensiya ala biləcəklər. Halbuki bizdə

65-in üstünə 12 gələndə 77 edir. Azərbaycanda orta yaş bu qədər deyil, aşağıdır. Ona görə də bütün bu məsələlər onu aktuallaşdırır ki, biz pensiya yaşını hökmən aşağı salmalıyıq. Ancaq seçim qoymalıyıq. Kimsə pensiya yaşı çatdıqda ya çıxsın pensiyaya, ya da işini davam etdirsin. Əgər bu, büdcəmizə yükdürsə... Büdcəmizə də heç bir güc deyil. Cənab Prezident təzə dedi ki, bizim I rübdə 1,5 milyard manat gəlirimiz var. Bu, ildə təxminən 6 milyard pul deməkdir. Deməli, büdcəmizə güc deyil. Qocalma məsələsi də doğru deyil. Bizdə cavan əhali artıb, təbii artım artıb, digər ölkələrdən çox yaxşıdır.

**Sədrlik edən.** Kamal Cəfərov, buyurun.

**K.Cəfərov.** Çox sağ olun, hörmətli xanım sədr. Əziz həmkarlar, 28 may seçkilərində müdrik türk xalqı öz siyasi müqəddəratını təyin etdi. Qardaşlarımız təkcə Türkiyənin deyil, həm də türk dünyasının inkişafına səs verdi. 28 may seçkiləri nəticəsində PKK, digər terror təşkilatları məğlub oldu, Məhmətçik və Bayraqdar qalib gəldi. Zəlzələyə sevinib ondan siyasi mənfəət güdənlər məğlub oldu, zəlzələdən əziyyət çəkənlər qalib gəldi. Qeyri-əxlaqi dəyərlər məğlub oldu, ailə dəyərləri qalib gəldi. Türkiyəni etnik və dini kontekstdə bölməyə çalışanlar, bölücülük və illət məğlub oldu, türk milləti qazandı. Mənfəət uğrunda birləşən ittifaq məğlub oldu, ali dəyərlər uğrunda savaşan Cümhur ittifaqı qalib gəldi. Kılıçdaroğlu məğlub oldu, Türkiyə qazandı. Türkiyəyə qarşı cəbhə alan hər kəs məğlub oldu, Rəis qazandı, iştirak etdiyi bütün seçkilərdə qalib oldu. Nəticədə türk dünyası qazandı və həmişə də qazanacaq.

Əlbəttə, yaxşı gündə əsl dost, əsl qardaş ən az onun qədər sevinəndir. Azərbaycan xalqı da, dövləti də seçkiləri yaxından izləyirdi. Biz türk millətinin qələbəsinə inanırdıq. Təsadüfi deyil ki, seçkilərin birinci turunda da, ikinci

turunda da həmkarına ilk zəng edən, təbrik edən Prezident İlham Əliyev oldu.

“Bir millət, iki dövlət” anlayışını, sözün əsl mənasında, sübut edən, Türkiyə və Azərbaycan arasındakı münasibətləri bir yumruq zirvəsinə çatdırmağı bacaran Azərbaycan Prezidenti İlham Əliyev də bütün dünyaya əsl qardaş, etibarlı dost necə olmalıdır, onu bir daha sübut etdi.

Türkiyə Cümhuriyyətinin 13-cü Prezidenti sayın Rəcəb Tayyib Ərdoğanı yenidən Prezident seçilməsi münasibəti ilə təbrik edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Elşad Mirbəşir oğlu, buyurun.

**E.Mirbəşir oğlu.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. 2 gün öncə qardaş Türkiyədə çox mühüm tarixi hadisə baş verdi. Demokratik seçkilərdə cənab Ərdoğan növbəti müddətə Türkiyə Respublikasının Prezidenti seçildi. Bu, təbii ki, bir neçə meyar üzrə qiymətləndirilməsi vacib olan məsələdir.

Birincisi, bu, Türkiyə xalqının qazanmış olduğu böyük qələbədir. Məhz cənab Ərdoğanın rəhbərliyi dövründə Türkiyə öz milli maraqlarına uyğun tam müstəqil siyasət yürütməyə başladı. Türkiyənin istehlak bazarları xarici asılılıqdan, demək olar ki, tam azad oldu. Təbii ki, bununla da ölkəyə kənar siyasi təsirlər də məhdudlaşmış oldu. Hazırda dünyanın bütün bazarlarında Türkiyədə istehsal olunan məhsullara rast gəlmək olar. Bu da beynəlxalq münasibətlər sistemində həm də Türkiyənin yerini və mövqeyini əhəmiyyətli dərəcədə möhkəmləndirir.

Ayrıca olaraq bu, dövlətini Qərb imperializminə qarşı qorumaq istəyən xalqların böyük qələbəsi idi. Çünki Türkiyə son qalmış qalalardan idi ki, orada da dövlət çevrilişi yolu ilə hakimiyyətə Qərbin maraqlarına loyal münasibət bəsləyəcək qüvvələrin gətirilməsi istiqamətində addımlar

atılmaqda idi. Hesab edirəm ki, bu seçkilər Türkiyənin alınmaz qala olduğunu bir daha nümayiş etdirdi. Bu baxımdan dövlətini qorumaq istəyən xalqları da mən təbrik etmək istəyirəm.

Bildiyiniz kimi, cənab Ərdoğanın dövründə Türkiyə öz mövqeləri ilə çoxqütblü dünya sistemini dəstəklədiyini nümayiş etdirdi. Bir reallıq da ondan ibarətdir ki, müasir qlobal təhlükəsizliyin təmin olunmasının qarantı rolunda məhz çoxqütblü dünya sistemi çıxış etməkdədir. Bu baxımdan mən həm də ədalətli çoxqütblü dünya sistemini dəstəkləyən subyektləri təbrik etmək istərdim. Ayrıca olaraq mən Azərbaycan xalqını təbrik etmək istəyirəm. Çünki məhz cənab Ərdoğanın rəhbərliyi dövründə Azərbaycanla Türkiyənin münasibətləri öz inkişafının ən yüksək nöqtəsinə çatmış oldu. Cənab Prezident dəfələrlə vurğulayıbdır ki, Azərbaycana qarşı çıxmaq istəyənlər Azərbaycan–Türkiyə birliyini nəzərə almalıdırlar. Təbii ki, bundan sonrakı mərhələdə Azərbaycan–Türkiyə münasibətləri daha dinamik inkişaf edəcək və Azərbaycan–Türkiyə birliyi təkcə regional səviyyədə deyil, qlobal səviyyədə təsirli bir güc faktoruna çevriləcək. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Tural Gəncəliyev, buyurun.

**T.Gəncəliyev.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. 2 gün öncə qeyd etdiyimiz Müstəqillik günü ilə bağlı mən də həmkarlarımızı ürəkdən təbrik edirəm. Belə bir tarixi gündə, simvolik bir gündə cənab Prezidentin iştirakı ilə biz Laçına Böyük Qayıdışın artıq başladığının şahidi olduq. 30 ildən çox öz dədə-baba torpaqlarından didərgin düşmüş keçmiş məcburi köçkünlər artıq öz torpaqlarına qayıdırlar. Böyük Qayıdış prosesi başlamışdır.

Cənab Prezident Laçın şəhərindən çox ciddi mesajlar

verdi. Bu, həm orada öz mövcudluqlarını hələ də davam elətdirən aqressiv separatçı ünsürlərə qarşı, həm də Azərbaycanın ərazi bütövlüyünə, təhlükəsizliyinə təhdid törədən qüvvələrə, dairələrə qarşı çox önəmli mesajlar idi. Ümumiyyətlə, dəfələrlə qeyd etmişik ki, Azərbaycanın ərazi bütövlüyü toxunulmazdır və buna görə də Azərbaycanın ərazilərində mövcud olan separatçı ünsürlər və onların girovluğunda qalan insanlar qərar verməlidirlər. Azərbaycan Respublikasının vətəndaşlığını qəbul etməlidirlər, əks halda Azərbaycanı tərk etməlidirlər.

Bu kontekstdə mən xüsusi ilə qeyd etmək istəyərdim, bəzi avropalı siyasətçilərin həmin o separatçı ünsürlərə dəstəyi hələ də davam edir, Azərbaycanın Laçın–Xankəndi yolunda quraşdırdığı sərhəd-buraxılış mexanizminə qarşı bəzi fikirlər səslənməkdədir. Mən, sadəcə, xatırlatmaq istəyərdim ki, bütün Avropa, dünya ictimaiyyəti qəbul eləyir ki, təhlükəsizlik, birinci, sərhədlərdən başlayır. Əgər biz öz sərhədlərimizi qoruyuruqsa, təhlükəsizliyimizi oradan təmin eləyiriksə, bu da beynəlxalq hüquqla hamının qəbul etdiyi bir aksiomdur.

Avropa İttifaqının öz sərhədləri ilə bağlı bir-iki cümlə demək istəyirəm. 2005-ci ildə “Frontex” deyilən bir Agentlik yaratmışdılar və Avropa İttifaqının sərhədlərini qorumaqdan ötrü çox ciddi bir proses gedirdi. 2015-ci ildə bu “Frontex” Agentliyi tam fəaliyyət göstərən bir sərhəd xidmətinə çevrildi. Hər il Avropa İttifaqının sərhədlərini qoruyan sərhəd xidməti agentliyi – keçmiş “Frontex” ildən-ilə öz büdcəsini artırır, heyətini çoxaldır. Bu, təbii bir haldır ki, əgər bütün dünya ölkələri, regional təşkilatlar, artıq güclü inteqrasiya olunmuş təşkilatlar öz sərhədlərini belə qoruyurlarsa, bu, Azərbaycanın da təbii hüququdur, legitim hüququdur. Ona görə də bəzən Azərbaycana qarşı

haqsız fikirlər söyləyən həmin bu siyasətçilər ilk öncə özlərini təhlil etməli, öz regionlarının, öz ölkələrinin siyasətlərinə baxmalıdırlar.

Sonda Türkiyədə keçirilmiş şəffaf və demokratik seçkilər münasibəti ilə hamını təbrik edirəm. Mən də ATƏT Parlament Assambleyasının üzvü kimi həmin seçkilərdə iştirak etdim. Seçkilər dünya standartlarına cavab verən bir səviyyədə keçirildi. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Razi Nurullayev, buyurun.

**R.Nurullayev**. Hörmətli xanım sədr, hörmətli deputat həmkarlar. Təklif edirəm ki, şəhid ata və anaları üçün fərqləndirici döş nişanı təsis edilsin. Şəhid ata və analarından, ağsaqqal və ağbirçəklərimizdən aldığım onlarca təklifdən sonra bu məsələni səsləndirmək qərarına gəldim. Bildiyiniz kimi, şəhid analarını boyunlarından asdıqları şəhid övladlarının rəsmi ilə tanımaq olur. Şəhid atalarını isə tanımaq olmur. Müxtəlif məclislərdə oluruq və irad bildirilir ki, siz niyə gedib şəhid atası ilə görüşmədiniz. Ölkəmizdə minlərcə şəhid ata və anası var və təbii ki, hamısını yadda saxlamaq olmur. Bəzən növbələr olur, şəhid ata və anasına yer verilmir və tələb olunur ki, vəsiqəni göstər. Bunlar xətrə dəyən məsələlərdir. Əgər şəhid ata və anasının yaxasında fərqləndirici bir döş nişanı olsa, çox gözəl olardı. Hər kəs onları tanıyıb hörmətlə yanaşar, dil-ağız edər və təbii ki, bu da onlara mənəvi olaraq yaxşı təsir edər, yas və toy məclislərində onlara xüsusi hörmət və başda da yer göstərilər. Bu nəinki şəhid ata və analarına, həm də ümumi olaraq bütün vətəndaşlarımıza dövlət adına xoş təsir bağışlayar.

İkinci. Təklif edirəm ki, müharibə iştirakçıları, veteranlar üçün də fərqləndirici üst geyim təsis edilsin. Bunu hətta Müdafiə Nazirliyi də təsis edə bilər deyə, düşü-

nürəm. Bu paltarlar hərbi dükanlarda da qoyula bilər. Lazım olduqda bizim şanlı müharibə iştirakçılarımız və veteranlarımız onu əldə edə bilər. Türkiyədə bu təcrübə var. Müharibə veteranları, iştirakçıları üçün üst yuxarı geyim və hərbi papaq şəklində baş örtüyü var, üzərində isə qazi yazılıb. Mən bu təklifi, əslində, elə müharibə iştirakçılarından və veteranlarından almışam. Bu təklifi niyə verirəm? Cəmiyyətdə belə bir müzakirə var ki, müharibə iştirakçıları tərxis olunandan sonra hərbi paltarı daşımamalıdır və bildiyiniz kimi, onların xeyli hissəsi, hətta hələ Birinci Qarabağ müharibəsindən bəri o paltarı əynindən çıxarmayıb. Bu onların özləri üçün də ağırlıq yaradır və sərbəst yaşamalarına mane olur. Təklif edirəm ki, bu məsələləri aidiyyəti dövlət orqanları ilə müzakirə edək və əminəm ki, məsələyə müsbət yanaşıla bilər. Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Sağ olun. Musa Qasımlı, buyurun.

**M.Qasımlı.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. İki məsələyə münasibətimi bildirmək istəyirəm. Birincisi, cənab Prezidentimiz İlham Əliyevin mayın 28-də Müstəqillik Günündə Laçın şəhərində bir sıra infrastruktur layihələrin əsasını qoyması, evlərin açarlarını laçınlı bacı-qardaşlarımıza təqdim etməsi və onlarla görüşdəki çıxışı böyük tarixi əhəmiyyət daşıyır. Laçınlı bacı-qardaşlarımızın dədə-baba yurdlarına dönməsi dövlətimizin qarşıya qoyduğu hədəflərə planlı şəkildə çatdırılıb və aydın strategiyasının olduğunu göstərir. Bu, cənab Prezidentimizin ölkəmizin inkişafı ilə bağlı dəqiq planlaşdırma və proqnozlaşdırılmasının olduğunu təsdiq edir. İndiyədək dediyi bütün sözləri yerinə yetirən dövlət başçımızın çıxışı Ermənistana, dünya erməniliyinə və onun havadarlarına qəti xəbərdarlıqdır və inanıram ki, bu il ölkə rəhbərimiz mil-

lətimizə yeni müjdələr verəcək.

İkincisi. Dünyanın 20 böyük dövlətindən biri olan qardaş Türkiyədə keçirilən prezident seçkilərinin ikinci turunda türk milləti təkcə dövlət başçısını seçmədi, eyni zamanda, dünyaya demokratiya dərsi verdi. Türk dövlətləri ilə əməkdaşlığın və dövlətləri olmayan türk topluluqları ilə əlaqələrin, yürüdülən müstəqil xarici siyasətin davam etdirilməsinə səs verdi. Qalibi bütün türk milləti, türk dünyası və Türkiyənin dostları olan seçkilərin nəticələri göstərdi ki, türk dünyasının, onun aparıcı dövlətlərindən biri olan Azərbaycanın maraqlarını arxa plana keçirən kimsə, heç bir siyasi partiya hakimiyyət başına gələ bilməz, gəlsə də, idarə edib qala bilməz. Qardaş türk millətinə və dövlətinə uğurlar arzulayıram. İnanıram ki, ölkələrimiz arasında əməkdaşlıq bundan sonra daha da möhkəmlənəcək, dərinləşəcək və faydalar verəcək. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Əli Məsimli, buyurun.

**Ə.Məsimli**. Çox sağ olun, hörmətli sədr. 28 may tarixi Azərbaycan üçün çox əlamətdar bir gündür. Həmin gündə iki mühüm hadisəni xüsusi qeyd etmək istəyərdim. Birinci, mayın 28-də qardaş ölkədə Prezident Rəcəb Tayyib Ərdoğanın yenidən prezident seçilməsi, hesab edirəm ki, türk dünyası üçün çox əlamətdar bir hadisədir və bu, Azərbaycanla Türkiyə arasında strateji müttəfiqliyin daha da genişlənməsində, dərinləşməsində, yeni çalarlar almasında mühüm rol oynayacaq. İkinci, mayın 28-də Azərbaycan Prezidenti İlham Əliyevin Laçın şəhərinə səfəri, orada məskunlaşanlara evlərinin açarlarını şəxsən özü verməsi, həmin şənliklərdə onlarla birlikdə iştirak eləməsi, hesab edirəm ki, 28 May –Müstəqillik Gününə Azərbaycan Prezidentinin çox unikal bir hədiyyəsidir.

Üçüncü məqamı qeyd eləmək istəyərdim ki, yaz sessiyasına daxil olan qanunvericilik sənədlərinin içərisində çox mühüm bir sənəd – Rəqabət məcəlləsi də var. Yaz sessiyası başa çatır və hesab edirəm ki, bu sənədin vacibliyini nəzərə alaraq bunun tezliklə Milli Məclisə daxil olması və qəbul edilməsi istiqamətində real addımların atılması çox vacibdir. Çünki indiki reallıqlar göstərir ki, Rəqabət məcəlləsinin tezliklə qəbul edilməsi ilə Azərbaycanda azad rəqabət mühitinin formalaşmasının təkmil hüquqi bazasının yaradılması rəqabəti və azad sahibkarlığı təşviq etməklə, həm iqtisadi inkişaf templərini, həm məhsul və xidmətlərin keyfiyyətini xeyli artırmaq, həm də istehlakçıların hüquqlarının müdafiəsini xeyli gücləndirmək, süni qiymət artımının qarşısını xeyli dərəcədə almaq olar. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Sonuncu çıxış. Fazil Mustafa. Fazil müəllim, buyurun.

**F.Mustafa**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. İlk öncə 2023-cü il martın 28-də şəxsimə qarşı törədilmiş terror aktına dərhal diqqətlə və həssaslıqla yanaşan ölkə Prezidenti cənab İlham Əliyevə, Birinci vitse-prezidentimiz hörmətli Mehriban xanıma təşəkkürümü çatdırmaq istəyirəm. Hörmətli Sahibə xanım, Siz başda olmaqla bütün millət vəkillərinə göstərdiyi diqqət və həssaslığa görə yenə də öz minnətdarlığımı bildirirəm. Bu cür hadisələr bu gün nə bizim dövləti sarsıtmaq, nə də dövlət üçün çalışan insanları qorxutmaq gücündədir. Ona görə də Azərbaycan cəmiyyətinin, xüsusi ilə də hüquq mühafizə orqanlarımızın, Dövlət Təhlükəsizliyi Xidmətinin fədakar əməkdaşlarının göstərdiyi fəaliyyət nəticəsində bu ünsürlərin zərərsizləşdirilməsi göstərir ki, Azərbaycan dövlətinə qarşı bu dildə danışmaq heç kimə

müyəssər olmayacaqdır.

Mən iki gün öncə baş vermiş çox böyük bir hadisəni, tarixi hadisəni xatırlatmaq istəyirəm. Bu, Böyük Qayıdışla bağlı dövlət siyasətinin həyata keçirilməsidir. Bu, çox böyük tarixi hadisədir. Bu hadisə həm də göstərir ki, ölkə Prezidenti hansı hədəfləri qoyubsa, Azərbaycan dövləti o hədəfləri addım-addım gerçəkləşdirməkdədir. Orada etdiyi çıxışında cənab İlham Əliyev Azərbaycanın vazkeçilməz güzəştsiz prinsiplərini xatırlatdı. Yəni hər hansı bir statusdan, hansısa oyuncaq dövlət quruculuğundan söhbət getmir. O, hansısa dövlət institutlarının və müəssisələrinin yaradılmasına qarşı Azərbaycanın sərt mövqeyini ifadə elədi. Məncə, bu prinsiplər hamı üçün əsas olaraq qəbul edilməlidir. Ancaq fikirləşirəm ki, biz, ayrı-ayrı dövlət qurumları orada yaşayan ermənilərin Azərbaycana inteqrasiyası üçün müəyyən mexanizmləri təklif eləməliyik. Bu mexanizmləri onlar qəbul etməyə bilərlər, müzakirə etməyə bilərlər. Bu bizə ideoloji və diplomatik həmlə üçün olduqca vacibdir. Biz onların bələdiyyədən tutmuş siyasi, sosial hüquqlarına, pensiya təminatına qədər bir çox məsələləri əhatə edən paket təqdim eləməliyik. Bunu bütün danışıqlarda Azərbaycan özünün bir avantajı kimi istifadə eləməlidir və hər hansı bir şəkildə erməni təbliğatının bu məsələdə Azərbaycana qarşı üstünlük qazanmasına imkan verməməlidir. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Bəli, buyurun. Fəzail İbrahimli. Fəzail müəllim, buyurun.

**F.İbrahimli**. Təşəkkür edirəm, Sahibə xanım. Hörmətli millət vəkilləri, bütün fikirlərə qoşuluram. Ancaq bir məqamın üzərində xüsusi durmaq istərdim. Azərbaycan parlamentinin Ulu Öndərin 100 illiyi ilə əlaqədar keçirdiyi tədbirlə bağlı bir sıra məqamlar var. Məlumdur ki, Azər-

baycan Respublikasının Prezidenti 2023-cü ili "Heydər Əliyev İli" elan edib. Bu sərəncamdan irəli gələn vəzifənin həyata keçirilməsi Milli Məclisin bir plenar iclasında da həll oluna bilərdi. Ancaq Ulu Öndərin ruhuna, onun tutumuna, onun dünya səviyyəli bir lider olduğunu ifadə edən belə bir beynəlxalq konfransın keçirilməsi, hesab edirəm, Milli Məclisin Azərbaycan tarixində atdığı yaddaqalan gələcək tədqiqatlar üçün obyekt ola bilən imzalardan biridir. Hər birimiz o tədbirin iştirakçısı olduq. Diqqət çəkən məqam nədən ibarət oldu? Bu tədbirdə ərazisi, hüdudları qeyri-müəyyən olan müxtəlif dövlətlərin, 37 ölkənin nümayəndə heyətləri iştirak etdi. Tədbirdə iştirak edən hər kəsin nəsə bir söz demək naminə deyil, bəzən reqlamenti də keçərək ürəkdən gələn sözlərini ifadə etməsi, səmimi fikirlərini bölüşməsi Ulu Öndərin Azərbaycanın böyük lideri olduğunu bir daha nümayiş etdirdi. Bu çox sevindirici faktdır. Hesab edirəm ki, Ulu Öndərin ruhu şad oldu. Azərbaycan Milli Məclisi onun ruhu qarşısında ciddi bir addım atdı, bu, Azərbaycanın istər daxili, istərsə də xarici siyasətdə atdığı növbəti addımlardan birinə çevrildi. Ona görə bu tədbir diqqətəlayiq bir tədbirdir və bu öz əksini dövri mətbuatda və digər yerlərdə tapacaq.

28 mayla bağlı diqqətçəkən məqam nədir? Cənab Prezidentin Laçına getməsi, orada işğal olunmuş torpaqlarda o xalqla söhbəti və dünyaya verdiyi mesaj diqqəti cəlb eləyir. Cümhuriyyət liderlərinin də ruhu şaddır ki, artıq onun ideyaları Azərbaycanın nəinki ərazilərində, hətta işğala məruz qalmış ərazilərində də öz əksini tapır. Cənab Prezidentin mesajında diqqətçəkən cəhət ondan ibarət idi ki, "ey dünyanın Azərbaycan xalqına qarşı yönəlmiş düşüncə sahibləri, siz danışın, biz də əməlimizlə bütün addımları ataq".

Üçüncü bir məsələ Ərdoğanın Türkiyə Prezidenti seçilməsi məsələsi idi. Bu, bir fərdin prezident seçilməsi deyil, bu, türk dünyasında demokratik bir prosesin reallaşması deyil, bu, sadəcə olaraq, növbəti bir prezident seçkisindən kənar digər cəhətləri özündə əks etdirir. Bir anlığa gözünüzün qabağına gətirin ki, əks tərəfin verdiyi mesaj, Azərbaycanın bu sistemdən kənarda qalması, Azərbaycana qarşı münasibət açıq seçkiqabağı kampaniyada öz əksini tapmışdır. Ərdoğanın seçilməsi Azərbaycanın güvənc və güman yeri olan Türkiyə dövlətinin və Azərbaycan dövlətinin taleyində ciddi rol oynayan bir seçim oldu. Türk dünyası üçün bir seçim oldu. Türk Dövlətləri Birliyi üçün bir seçim oldu. Ona görə də hər bir Azərbaycan insanı öz ölkəsində keçirilən prezident seçkilərini nə qədər böyük sevinclə qarşıladısa, bu məsələni də böyük sevinclə qarşıladı. Bütün millətimizi təbrik edirəm, bütün türk dünyasını təbrik edirəm. Təşəkkür edirəm, Sahibə xanım.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, biz gündəliyin məsələlərinə keçirik. Qeyd edim ki, bu gün biz 28 məsələni müzakirə edəcəyik. Gündəliyin 1-ci məsələsi Milli Məclisin qərar layihəsidir. Milli Məclisin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərliyində dəyişiklik edilməsi nəzərdə tutulur. Məsələyə dair məlumat vermək üçün mən Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri hörmətli Səməd Seyidova söz verirəm. Səməd müəllim, buyurun.

**S.Seyidov,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri.*

Çox sağ olun, hörmətli Sahibə xanım. Hörmətli həmkarlar. Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərlərinin dəyişdirilməsi bizim prosedur qaydalara əsaslanır. Beynəl-

xalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində biz buna baxmışıq, müsbət rəy bildirmişik. Bizim parlamentimizin beynəlxalq əlaqələri genişlənir, dostluq qruplarının fəaliyyəti aktivləşir və biz Sizin rəhbərliyiniz altında bu gün yüzdən çox dostluq qrupuna faktiki yaşıl işıq yandırmışıq, bütün ölkələrlə münasibətləri təmin edirik. O cümlədən də bu, həmin o əlaqələrin inkişaf etdirilməsi naminə verilmiş bir qərardır.

Bu qərarda Azərbaycan – Lüksemburq parlamentlərarası işçi qrupunun rəhbəri İsmayılov Şahin Əmir oğlu, Azərbaycan – Tayland parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri hörmətli Quliyev Rüfət Atakişi oğlu və Azərbaycan–Ukrayna parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri bizim komitəmizin çox hörmətli üzvü hörmətli Bayramov Kamran Fərhad oğlu təklif olunur. Biz komitəmizdə buna müsbət rəy bildirmişik və xahiş edirəm, həmkarlarımız da buna müsbət rəy bildirsinlər. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Səməd müəllim. Hörmətli həmkarlar, əgər başqa fikir yoxdursa, xahiş edirəm, məsələyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.39 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, Milli Məclisin qərarı qəbul edildi.

Hörmətli həmkarlar, 2-ci məsələyə keçirik. Bu məsələ

də “Türk İnvestisiya Fondunun yaradılması haqqında” Sazişin təsdiq edilməsi barədə qanun layihəsidir. Qeyd edim ki, qanun layihəsi beynəlxalq sənədin təsdiqi ilə bağlı olduğuna görə müvafiq Konstitusiya qanununun tələbinə əsasən bir oxunuşda baxılıb qəbul ediləcək. Məsələyə dair məlumat vermək üçün mən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri  hörmətli Tahir Mirkişiliyə söz verirəm. Tahir müəllim, buyurun.

**T.Mirkişili,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarlar, Türkiyədə baş verən tarixi və taleyüklü seçkilərdən sonra Azərbaycan Milli Məclisinə belə bir sazişin daxil olması əlamətdar hadisədir. Məhz Türk İnvestisiya Fondunun yaradılması həmçinin seçkilər ərəfəsində Azərbaycan səlahiyyətlilərinin dediyi kimi, türk dünyasının qarşısında duran mühüm məqsədlərə çatmaqda Türkiyədə baş verən seçkilərin də çox böyük rol oynayacağının bir daha sübutudur. Bildiyiniz kimi, 2009-cu il  oktyabrın 3-də Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə və Özbəkistan respublikaları arasında imzalanmış Naxçıvan Sazişinə əsasən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası yaranmışdır. 2021-ci il  noyabrın 12-də Dövlət Başçıları Şurasının qərarına əsasən bu təşkilat Türk Dövlətləri Təşkilatı adlandırılmışdır. Təşkilatın yaradılmasında əsas məqsədlərdən biri də üzv ölkələr arasında iqtisadi əməkdaşlığı inkişaf etdirmək, iqtisadi inteqrasiyanı daha da gücləndirmək olmuşdur. Bu məqsədlə keçən dövr ərzində nəqliyyat, gömrük, vergi sahəsində bir çox qanunlara dəyişiklik edilmiş və bunlar Milli Məclis tərəfindən ratifikasiya olunmuşdur.

İqtisadi inteqrasiyanı inkişaf etdirən mühüm alətlərdən biri də məhz maliyyə aləti, yəni birgə fondların yaradıl-

masıdır. “Türk İnvestisiya Fondunun yaradılması haqqında” Saziş bu mühüm alətin  yaradılması haqqındadır ki, saziş 2023-cü il  martın 16-da Ankarada imzalanmışdır. Fondların yaradılmasında əsas məqsəd regiondaxili ticarəti genişləndirmək və iqtisadi fəaliyyəti dəstəkləmək vasitəsi ilə üzv dövlətlərin iqtisadi inkişafına töhfə verməkdir. Fondun funksiyaları və səlahiyyətləri sazişin 3-cü maddəsində geniş təsvir edilmişdir. Fondun nizamnamə kapitalı 500 milyon dollardır. Onun  350 milyon dolları ödənilmiş, 150 milyon dolları isə çağırıla bilən paylara aiddir. Nizamnamə kapitalı 5 üzv arasında bərabər bölünüb. Hər bir üzv 75 milyon dollar ödənilmiş, 25 milyon dollar isə çağırıla bilən paya sahib olacaqdır. Hər bir üzv dövlət ilkin ödəniş kimi 5 milyon dolları 90 gün ərzində, qalan 70 milyon dolları isə 3 il ərzində ödəməlidir.

Fondun təşkilati və idarəetmə strukturu sazişdə aydın göstərilmişdir. Hər bir üzv ölkə fondun Rəhbərlər Şurasında nazir müavinləri səviyyəsində təmsil olunacaqdır. Fond və onun  aktivləri bütün müsadirə tədbirlərindən, həbs qoyulmaqdan immunitetə malikdir. Fondun aktivləri, gəlirləri bütün birbaşa və dolayı vergilərdən, o cümlədən gömrük rüsumlarından tam azaddırlar. Fond və onun hər hansı bir benefisiarı tərəfindən, bütün valyuta və pul əməliyyatlarına heç bir üzv tərəfindən heç bir məhdudiyyət qoyula bilməz. Amma bununla yanaşı, bu azadolmalar fond tərəfindən investisiya qoyulmuş məsələlərə aid edilmir.

Hörmətli həmkarlar, 2022-ci ildə Azərbaycanla türk dövlətləri arasında ticarət dövriyyəsi əvvəlki illə müqayisədə 70 faiz artaraq 5 milyard 23 milyon dollardan 7 milyard 170 milyon dollara qədər yüksəlmişdir. Son illər ərzində tərəflər arasında ticarət və iqtisadi əlaqələrdə ciddi inkişaf müşahidə olunur. 1,2 trilyon nominal 4 trilyon 586

milyard dollar real ümumdaxili məhsula malik olan türk dünyası birləşir və güclənir. Mən əminəm ki, belə bir fondun yaradılması türk dünyasının güclənməsində öz tarixi bir səhifəsini açacaqdır. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin bu layihəyə rəyi müsbətdir və həmkarlarımdan da layihəyə səs verməyi xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun, Tahir müəllim. Bu qanun layihəsinə, Səməd müəllim, sizin komitənizdə baxılıb. Xahiş edirəm, Siz də rəyinizi bildirin.

**S.Seyidov.** Çox sağ olun, hörmətli sədr. Hörmətli həmkarlar! Tahir müəllim bu məsələni çox geniş və ətraflı müzakirə etdi. Doğrudan da, bu, tarixi bir qərardır. Ona görə ki, Türk İnvestisiya Fondunun yaradılması türk dövlətlərini tamamilə başqa bir mərhələyə yüksəldir. Artıq ölkələrin maliyyə imkanları birbaşa əyani şəkildə formalaşmaqdadır. Biz, onsuz da, bu istiqamətdə xeyli addımlar atmışıq və bu qərarın qəbul olunması isə bu əlaqələri artıq tamamilə başqa bir mərhələyə yüksəldir. Türk dünyası öz sözünü deməkdədir. Xüsusilə 2 gün bundan öncə Türkiyədə keçirilən seçkilər göstərir ki, türk dünyası nə qədər birləşmək potensialına malikdir və bu potensialın maliyyə əsası da bu gün bu sazişin içərisində özünü göstərib. Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi bunun tam tərəfdarıdır. Həmkarları buna səs verməyə dəvət edirik. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Çıxış etmək istəyənlər var. Zahid Oruc, buyurun.

**Z.Oruc**. Təşəkkür edirəm, hörmətli sədr. Hörmətli Məclis üzvləri, mən Tahir müəllimin fikrini davam etdirərək hesab edirəm ki, gerçəkdən də, bu sənədin Türkiyədə məhz mayın 28-də keçirilən seçkilərdən sonrakı gün parlamentin, dövlətimizin gündəliyinə çıxmasında

təkcə rəmzi deyil, elə ciddi siyasi, hüquqi bir bağ var.

Hörmətli sədr, buna keçməmiş qısa olaraq hörmətli Fəzail müəllimin fikrini davam etdirmək istəyirəm. Gerçəkdən də, Ulu Öndərin adına, şəxsiyyətinə, onun dünyəvi bir lider olduğuna uyğun olan bu parlament tədbiri Heydər Əliyev miqyasında önəmli bir iş idi, dövlətçiliyimizin, parlamentin tarixində qalacaqdır. Çünki Ulu Öndər Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıdarkən məhz parlament rəhbərliyindən keçərək dövlət rəhbərliyinə yüksəlmişdir. Ona görə də biz bunu qeyd etməliyik, vurğulamalıyıq.

İkinci. Türk dövlətləri arasında münasibətlər müxtəlif səviyyələrdən keçib. Bunu qətiyyən belə əlahiddə, fövqəladə saymaq lazım deyil, çünki regional, beynəlxalq konyunkturdan asılı olub, amma indi bu dövlətlər öz iqtisadi, maliyyə imkanlarını da birləşdirirlər. Biz artıq İkinci Qarabağ savaşından sonrakı dövrdən danışırıq və arzumuz ondan ibarətdir ki, bu dövlətlər arasında iqtisadi bağlar Marşal planı kimi sənədlərin, investisiya layihələrinin də meydana gəlməsinə səbəb olmalıdır. İkinci Dünya müharibəsindən sonra nəinki dağılmış Almaniyanın, o cümlədən dağılmış Avropanın bərpasında o plan böyük rol oynamışdır. Verilən yardımın böyüklüyünə, kiçikliyinə mənfi reaksiya verməzlər. Əlbəttə, alqışlayırıq. Amma biz çox arzulayırıq ki, türk dövlətləri nəinki məktəblərin, daha çox bu bərpa işlərində iştirak etsinlər.

Hörmətli sədr, mən çıxış üçün yazılmışdım. Çox rica edirəm, etiraz etməsəniz, 28 may seçkiləri ilə bağlı qısa olaraq 2 dəqiqə yarım həcmində fikirlərim var. Mayın 28-də Türkiyədə keçirilən seçkilər son 20 ildə siyasi və mənəvi coğrafiyasını genişləndirən bir dövlətin parlaq qələbəsi oldu. 10 illərdir, hakimiyyət zirvəsində olan liderə

verilən 27 milyondan artıq səs həm də xalqımızın mənəvi-siyasi iradəsinin ifadəsi idi. Prezident İlham Əliyevin təbrikində millətimizin Ərdoğana minnətdarlıq hissinin, Qarabağ zəfəri ilə bağlılığının bir daha vurğulanması Bakı meydanlarında minlərcə insanın coşqusunda, milyonların sevincində nümayiş olundu. İkinci tur qarşısında türk xalqını düzgün seçim etməzlərsə, iqtisadi tənəzzüllə, qaçqın seli ilə, vətəndaş qarşıdurması ilə və ya dünyadan təcrid olunmaqla qorxudanlar, terror təşkilatları ilə təhdid edənlər də məğlub oldular. Aylardır, "Ərdoğan getməlidir" manşeti ilə çıxan qlobal medianın təbliğatı iflasa uğradı. Lakin Ərdoğanın qələbəsi ilk növbədə Azərbaycan–Türkiyə birliyinin təntənəsi, islam və türk dünyasında, eləcə də Avrasiya qitəsində qurulan yeni təhlükəsizlik arxitekturasının davamlılığının zəmanəti oldu. Əgər Ermənistanla sülh müqaviləsi hələ imzalanmayıbsa, Fransa və NATO dövlətləri Cənubi Qafqaza hərbi qüvvə yeritməyə çalışırsa, Əliyevlə Ərdoğanın zəfər kursu davam etməlidir. Türkiyə müxalifətinə özünü yaxın sayan, orada hakimiyyət dəyişərsə, bizə də fürsət açılar deyən radikal dini siyasi qüvvələrə də böyük zərbə dəydi.

Qardaş ölkədəki seçkilərə cəmiyyətimizin yüksək diqqəti 2025-ci ildə Azərbaycanda keçiriləcək prezident və parlament seçkilərinə hazırlıq mesajı kimi də dəyərləndirilə bilər. Prezident İlham Əliyev 2018-ci il seçkilərinin ardınca Ulu Öndərin 100 illiyində yeni hakimiyyət quruculuğunu əzmlə davam elətdirir. Mərkəzi və yerli idarəetmə orqanlarında inqilabi dəyişikliklər, yeni partiyalar sistemi, neftə alternativ "yaşıl enerji" iqtisadiyyatı, yeni siyasi elitanın formalaşdırılması Vətən müharibəsindən sonra daha da güclənib. Türkiyədə 90 faizə yaxın seçicinin gələcək taleyini özü müəyyən etməsi ölkəmizdə daha

aktiv seçki mühitinə təkan verir. Partiyalardan kənarda qalan, qeyri-siyasi topluma aid edilən və kənar təsirlərə həssas təbəqənin siyasi proseslərə fəal cəlbini tələb edir. Xüsusilə də “Azərbaycan 100 ilə” adlı yeni konsepsiyanın, o cümlədən İkinci Qarabağ müharibəsində qələbəmizin tək lideri İlham Əliyevin gələcək seçkilərdə haqlı legitim qələbəsinin yol xəritəsinin hazırlanması bir nömrəli məsələdir.

Konstitusion islahatların zərurəti, eləcə də Xankəndidə məskunlaşan ermənilərlə birgəyaşayış və inteqrasiya siyasi hüquq və azadlıqlara həssas yanaşmanı şərtləndirir. Siyasi partiyaların ideoloji kimliklərinin müəyyənləşməsi, dini və milliyyətçi yönlü, separatizmə qarşı birləşdirici ideologiyanın hazırlanması da vacibdir.

Yekunda Azərbaycanda növbəti seçkilər müstəqillik tariximizdə ilk dəfə ərazi bütövlüyümüzün təminatı olan azad torpaqlarda keçiriləcəkdir. Ona görə də Zəfərimizi geridönməz etmək, Böyük Qayıdışın bütün hədəflərinə çatmaq, möhkəm ailə və dini dəyərlər, eləcə də milli təhlükəsizliyi qorumaq üçün Türkiyədəki seçkilərdə qələbəni 2025-ci ildə də ölkəmizdə davam etdirməliyik. Təşəkkür edirəm. Bu Sazişə səs verəcəyik. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Əli Məsimli. Əli müəllim, buyurun.

**Ə.Məsimli.** Çox sağ olun, hörmətli sədr. Türk İnvestisiya Fondunun yaradılması çox böyük hadisə olduğuna görə bir neçə məqama toxunmaq istəyərdim. Türk dövlətləri tarixən həm sərvət, həm də digər resurslar baxımından dünyanın ən zəngin dövlətləri olub. Təkcə onu demək kifayətdir ki, Mendeleyev cədvəlində əks olunan sərvətlərin böyük əksəriyyəti türk dövlətlərinin ərazisində var. Müstəqillik illərində artıq həmin sərvətlərdən iqtisadiyyatın genişləndirilməsi, möhkəmlənməsi, əhalinin güzəra-

nının yaxşılaşdırılması istiqamətində xeyli iş görülüb. Amma görüləsi işlər də çoxdur, potensial çoxdur. Yenə də bir rəqəmlə xüsusi qeyd etmək istəyərdim ki, dünya ərazisinin 3 faizindən çoxuna malik, dünya əhalisinin 2 faizindən çoxunun yaşadığı türk dövlətlərinin dünya ÜDM-dəki payı 1,3 faiz ətrafındadır. Bu rəqəm bizə fikirləşmək, həmin potensialdan daha səmərəli istifadə etmək üçün çox vacib olan məqamları açıqlayır. İki məqamı deyim. Birinci, dünyada gedən kataklizmlər, yaranan yeni situasiya və heç də az olmayan bir məsələ: 44 günlük müharibənin Azərbaycan tərəfindən şanlı qələbə ilə qurtarmasının yaratdığı yeni situasiya türk dövlətlərinin yaxınlaşması, birləşməsi, strateji tərəfdaşlıq səviyyəsində münasibətlərin inkişafında önəmli rol oynayıb. Bu, həm Şuşa Bəyannaməsində, ayrı-ayrı türk dövlətləri ilə strateji tərəfdaşlıq barədə sənədlər bu gün isə artıq onun maliyyə məsələsində çox fundamental bir problemi həll edib, həm də İnvestisiya Fondunun yaradılmasında öz əksini tapır.

Hesab edirəm ki, İnvestisiya Fondunun fəaliyyətinin genişləndirilməsi və dərinləşdirilməsi bir sıra istiqamətlərdə türk dövlətləri arasında əlaqələrinin genişləndirilməsində, regionda iqtisadi münasibətlərin daha təkmil bir formaya gətirilib çıxarılmasında, burada göstərildiyi kimi, regiondaxili ticarətin inkişafında, orta sahibkarlığa dair layihələrin həyata keçirilməsində və beynəlxalq və milli maliyyə institutları ilə əlaqələrin genişləndirilməsində, logistika zəncirinin inkişaf etdirilməsində və bu istiqamətdə, mən deyərdim ki, əlavə dividendlərin əldə edilməsində, sənaye istehsalı, müasir tələblərə cavab verən istehsalların yaradılmasında mühüm rol oynayacaq. Eyni zamanda, fondun təsisçiləri orta yolun üzərində olduqlarına görə və Qərb ölkələri, Amerika, Avropa bu yolu dəs-

təklədiklərinə görə, hesab edirəm ki, belə bir fondun yaradılmasından əmələ gələn əlavə impuls türk dövlətlərinin əlavə dəstəklənməsində də mühüm rol oynayacaq.

Bir məqamı da xüsusi qeyd etmək istəyərdim. Hazırda reallıqlar şəraitində türk dünyasına daxil olan ölkələr 190-a yaxın ölkə arasında dünya klassifikasiyasında ümumdaxili məhsula görə ən yaxşı yerdə, yəni Türkiyə 22-ci, ən axırıncı yerdə Qırğızıstan 148-cidir. Biz hesab edirik, hesablamalar aparırıq. 2022-ci ilin son göstəricilərinə əsasən qeyd etmək olar ki, türk dövlətlərinin iqtisadi böyüməsi, artım templərinin nəticələri 4 faizlə 6 faizin arasındadır. Hörmətli sədr, 5 faizi götürsək və iki onilliyin ərzində hesablamaları bir qədər də dəqiqləşdirsək, indiki dövrdəki rəqəmdən çıxış edəcəyəm, indiki göstəricilərə görə, toplam türk dövlətlərinin dünya ümumdaxili məhsuldakı payına görə biz təxminən 16-cı yerdəyik. Amma biz bu proseslərdə qeyd etdiyim həmin 5 faizin üstündə artıma nail olsaq, 2030-cu ildə artıq bir neçə pillə irəliləyərək, qeyd etdiyim kimi, 5 faizdən artıq artımın əsasında biz növbəti onilliklərdə tədricən həmin 193 ölkənin içərisində birinci onluğa daxil olub, – tam əminliklə potensial var, – həmin potensialdan səmərəli istifadə edərək birinci onluqdan pillə-pillə irəliyə doğru hərəkət edə bilərik. Mən bu yolda türk dövlətlərinə uğurlar arzulayıram və əminəm ki, yaxın onilliklərdə belə də olacaq. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Aydın Mirzəzadə, buyurun.

**A.Mirzəzadə**. Təşəkkür edirəm, xanım sədr. İlk növbədə mən də Türkiyə xalqını seçkini uğurla keçirdiyinə və dünyaya bir demokratiya nümunəsi göstərdiyinə görə təbrik edirəm. Türkiyədəki seçkilərin nəticələri tək Türkiyə və region üçün deyil, həm də dünya üçün əhəmiyyətlidir.

Türkiyə sıradan bir ölkə deyil. Bu gün onun mövqeyi, onun atdığı addımlar dünyada sabitliyin qorunmasında, sülhün bərqərar olmasında böyük rol oynayır. Eyni zamanda, türk dünyasının böyük oğlu hörmətli Rəcəb Tayyib Ərdoğanın yenidən Türkiyənin prezidenti seçilməsi türk xalqının ona olan etimadını, onun siyasi kursunu dəstəklədiyini göstərdi. Rəcəb Tayyib Ərdoğan Azərbaycan xalqının böyük oğludur, Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsində onun böyük xidmətləri var. İşğaldan azad edildikdən sonra torpaqlarımıza səfər edən ilk xarici ölkə rəhbəri olub. Füzuli və Zəngilan aeroportlarının açılışında iştirak edib. Biz onun qələbəsini ədalətli, düzgün və layiq olduğu kimi qeyd edirik.

Eyni zamanda, fürsətdən istifadə edərək Yeni Azərbaycan Partiyasının müttəfiqi, yaxın dostu olan Ədalət və İnkişaf Partiyasını və onun müttəfiqi Milli Hərəkat Partiyasını Türkiyə parlamentində çoxluq qazanması münasibəti ilə təbrik edirəm. Bu partiyalar türk cəmiyyətinin aparıcı siyasi partiyalarıdır. Həmişə Azərbaycanın haqq işini müdafiə edənlər olublar. Azərbaycan siyasi dairələri ilə Yeni Azərbaycan Partiyasının sıx əlaqələri var. Eyni zamanda, parlamentimizlə sıx əlaqələr var.

Hörmətli xanım sədr, mən təşəkkür edirəm ki, Siz parlament adından Türkiyə prezidentinin seçilməsi münasibəti ilə təbrik göndərdiniz. Türkiyədəki seçkilərin hər birimizin diqqətində olduğunu və onun uğurunun bizim uğurumuz olduğunu demək istəyirik.

Konkret olaraq məsələ ilə bağlı. Belə bir fondun yaradılmasını mən tarixi bir hadisə adlandırardım. Çünki türk dövlətləri indiyə qədər olan siyasi əlaqələrini yeni bir mərhələyə, iqtisadi əlaqələrinin gücləndirilməsinə keçirirlər. Kifayət qədər böyük bir nizamnamə kapitalı, yarım

milyard dollar nizamnamə kapitalı olan bir fondun yaradılması türk dövlətləri arasında iqtisadi inteqrasiyanın güclənməsinə və qarşılıqlı surətdə bir türk dünyası iqtisadi modelinin yaranmasına gətirib çıxaracaq.

Diqqəti cəlb edən bir neçə məqam var. Birincisi, ümumi daxili məhsulun həcmindən asılı olmayaraq üzv dövlətlər eyni paya malikdirlər. Bu, hər bir dövlətin müstəqilliyinə, hər bir dövlətin özünəməxsusluğuna hörmətdən irəli gələn məsələdir.

Diqqəti cəlb edən ikinci məsələ. Orada xırda və orta biznesin inkişafına xüsusi diqqət ediləcəyini göstərir. Bu o deməkdir ki, fond maksimalizmdən uzaq, konkret şəraitə və konkret təklifə görə hərəkət edəcək bir fond olacaq. Həm dövlət, həm iri kapital, həm də xırda sahibkarlıq üçün açıq olan bir təşkilat ola biləcək. Türk İnvestisiya Fondu bütün dövlətlər üçün açıqdır. Hesab edirəm, çox uzaq gün olmayacaq ki, biz Türk Dövlətləri Təşkilatına üzv olmayan dövlətlərin də bu fonda üzv olması barəsində müraciətlərini eşidəcəyik. Qanun layihəsinə səs verəcəyəm.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.58 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin növbəti 20 məsələsi üçüncü oxunuşda olan qanun layihələridir. Biz indi gündəliyin 3-cü məsələsinə keçirik. Bu məsələ "Minatəmizləmə sahəsində xidmətlərə görə" Azərbaycan Respublikasının medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qanun layihəsinə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü hörmətli Nizami Səfərova söz verirəm. Nizami müəllim, buyurun.

**N.Səfərov**, *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Hörmətli xanım sədr, hörmətli Milli Məclisin deputatları, müzakirəyə təqdim edilən qanun layihəsi iki oxunuşda qəbul edilmişdir. Qanunun mətnində hər hansı bir dəyişiklik edilməmişdir. Üçüncü oxunuşda qəbul olunmasına səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.59 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

İndi isə növbəti məsələyə keçirik. 4-cü məsələ "İctimai iştirakçılıq haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Məsələyə dair məlumat vermək üçün mən Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri hörmətli Əli Hüseynliyə söz verirəm. Əli müəllim, buyurun.

**Ə.Hüseynli**, *Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Bu məsələyə ikinci oxunuşda baxılarkən hörmətli deputat həmkarlarımızın bir neçə fikiri olmuşdur, fikir mübadiləsi aparılmışdır. Onlarla işçi qaydasında müzakirələrimizi davam etdirmişik. Eyni zamanda, yazılı formada da bir təklif daxil olmuşdur. Amma qanunvericilik təşəbbüsü subyekti tərəfindən nəzərə alınmamışdır. Ona görə, hörmətli xanım sədr, qanun layihəsinin üçüncü oxunuşda olduğu kimi səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.00 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti 5-ci məsələ "Dövlət qulluğu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Məsələyə dair məlumat vermək üçün, Əli müəllim, mən yenə də

Sizdən xahiş edirəm. Buyurun, məlumat verin.

**Ə.Hüseynli.** Çox sağ olun, hörmətli sədr. Hörmətli deputat həmkarlar, məlumat verdiyimiz kimi, bu layihə Naxçıvan Muxtar Respublikasında cənab Prezidentin səlahiyyətli nümayəndəlik institutu, onların vəzifə təsnifatları ilə bağlı idi. Üçüncü oxunuşda təkliflər daxil olmamışdır. Üçüncü oxunuşda səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Hörmətli həmkarlar, səsə qoyuram. Buyurun, qanun layihəsinə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.01 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

Növbəti məsələ 6-cı məsələdir. "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qanun layihəsinə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin üzvü hörmətli Kamal Cəfərova söz verirəm. Kamal müəllim, buyurun.

**K.Cəfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Hörmətli xanım sədr, hər hansı təklif olmadığından səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.02 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin növbəti 6 məsələsi möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub, mahiyyətcə də bir-birinə bağlıdır. 7-ci məsələ Ailə Məcəlləsində, 8-ci məsələ Mülki Məcəllədə, 9-cu məsələ "Sosial müavinətlər haqqında" Qanunda, 10-cu məsələ "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Qanunda, 11-ci məsələ "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Qanunda, 12-ci məsələ isə "Sosial xidmət haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihələridir. Qeyd edim ki, qanun layihələrinə 3 komitə baxmışdır. Birinci komitə Hicran xanım, sizin komitənizdir, Ailə, qadın və uşaq məsələləri komitəsidir. Mən Sizdən xahiş edəcəyəm, 7-ci, 10-cu məsələlərə dair məlumat verəsiniz. Eyni zamanda, sizdə 8-ci, 9-cu, 11-ci və 12-ci məsələlərə də baxılıb. Onlar haqqında da komitənin rəyini bildirəsiniz. Buyurun.

**H.Hüseynova,** *Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri.*

Sağ olun, xanım sədr. Mən də demək istəyirəm ki, bütün bu məsələlərə komitədə baxılıb. Əlavə nə isə bir rəy, təklif daxil olmamışdır. Ona görə də xahiş edirik, səsə qoyulsun. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Hicran xanım. Hörmətli

həmkarlar, 8-ci və 11-ci məsələlərə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Bu məsələlərə dair məlumat vermək üçün mən komitənin üzvü hörmətli Nurlan Həsənova söz verirəm. Nurlan müəllim, buyurun.

**N.Həsənov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Hörmətli Sahibə xanım, komitənin rəyi müsbətdir. İlk iki oxunuş zamanı hər hansı bir təklif daxil olmamışdır. Olduğu kimi səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. 9-cu, 12-ci məsələlərə, Musa müəllim, sizin komitənizdə baxılıb. Xahiş edirəm, bununla bağlı məlumat verin.

**M.Quliyev,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Çox sağ olun, hörmətli Sahibə xanım. Hər iki qanun layihəsinə təklif olunan dəyişikliklər himayədar ailə institutunun yaradılması ilə əlaqədardır. Qanun layihəsi ilə bağlı hər iki oxunuşda müzakirə zamanı əlavə təkliflər daxil olmamışdır. Mətndə heç bir dəyişiklik yoxdur. Üçüncü oxunuşda dəstəkləməyi parlamentdən xahiş edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, mən indi qanun layihələrini bir-bir səsə qoyacağam. Xahiş edirəm, 7-ci məsələyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.04 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

8-ci məsələni – Mülki Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.05 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

İndi isə xahiş edirəm, 9-cu məsələyə – "Sosial müavinətlər haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.05 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Xahiş edirəm, 10-cu məsələyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.05 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

İndi isə 11-ci məsələni – “Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.06 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Nəhayət, xahiş edirəm, 12-ci məsələyə, yəni “Sosial xidmət haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.06 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, nəzərə çatdırım ki, gündəliyin növbəti 4 məsələsi möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub və mahiyyətcə bir-birinə bağlıdır. Beləliklə, 13-cü məsələ "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" Qanunda, 14-cü məsələ "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamə"də, 15-ci məsələ "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanunda, 16-cı məsələ isə "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihələridir. Odur ki, hörmətli həmkarlar, mən təklif edirəm, biz qanun layihələrinin təqdimatlarını dinləyək, sonra isə növbəti prosedurlara da keçək.

13-cü və 14-cü məsələlərə Regional məsələlər komitəsində baxılmışdır. Bu qanun layihələrinə dair məlumat vermək üçün mən Regional məsələlər komitəsinin sədr müavini hörmətli Elşən Musayevə söz verirəm. Elşən müəllim, buyurun.

**E.Musayev,** *Milli Məclisin Regional məsələlər komitəsi sədrinin müavini.*

Təşəkkür edirəm, xanım sədr. Hörmətli həmkarlar, 13-cü və 14-cü məsələlərlə bağlı komitəyə heç bir təklif daxil olmamışdır. Üçüncü oxunuşda səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Elşən müəllim. 15-ci məsələyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Tahir müəllim, mən sözü sizə verirəm. Buyurun, məlumat verin.

**T.Mirkişili.** Hörmətli xanım sədr, Sizin də qeyd etdiyiniz kimi, qanun layihələri üçüncü oxunuşdadır. “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Qanunda dəyişikliklə bağlı qanun layihəsinə də həmkarlarım tərəfindən birinci və ikinci oxunuşlarda hər hansı bir dəyişiklik təklif olunmadığından olduğu kimi səsə qoymağınızı xahiş edirəm. Komitənin rəyi müsbətdir. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. 16-cı məsələyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən, Nurlan müəllim, Sizə söz verirəm. Buyurun.

**N.Həsənov.** Təşəkkür edirəm, hörmətli Sahibə xanım. Qanun layihəsi ilə bağlı iki oxunuş zamanı geniş müzakirələr aparılmışdır və deputat həmkarlarımızın sualları cavablandırılmağa çalışılmışdır.

İkinci oxunuşda qeyd etdiyim kimi, layihədə 10-1-ci maddədə nəzərdə tutulan müddətlə bağlı qanunvericilik təşəbbüsü subyekti ilə müzakirələr aparılırdı. Məlumat üçün bildirim ki, bu müddət dəyişdirildi. Beləliklə, 2023-cü il iyul ayının 1-dək inşa edilmiş, etibarlılıq və təhlükəsizlik tələblərinin uyğunluğuna dair rəyi olan tikinti obyektlərinin istismarına icazə verilməsi nəzərdə tutulur. Deputat həmkarlarımdan qanun layihəsini yenidən dəstəkləmələrini xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Nurlan müəllim. Tahir müəllim, sizin komitənizdə də baxılıb. Xahiş edirəm, komitənin rəyini bildirin.

**T.Mirkişili.** Hörmətli xanım sədr, həmkarım Nurlan müəllim bu dəyişiklikləri elan etdi. Dəyişikliklərlə bağlı bizim komitənin də rəyi müsbətdir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, heç kim yazılmayıb. Mən indi qanun layihələrini bir-bir səsə

qoyacağam. Xahiş edirəm, 13-cü məsələyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.10 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

14-cü məsələni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.10 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Xahiş edirəm, 15-ci məsələyə – "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.10 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |

| | |
|---|---|
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

16-cı məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.11 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu qanun layihəsi də üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələlərə keçirik. Qeyd edim ki, gündəliyin növbəti 6 məsələsi də cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub. Bu qanun layihələri də mahiyyətcə bir-birinə bağlıdır. 17-ci məsələ Şəhərsalma və Tikinti Məcəlləsində, 18-ci məsələ İnzibati Xətalar Məcəlləsində, 19-cu məsələ Cinayət Məcəlləsində, 20-ci məsələ "Elektroenergetika haqqında" Qanunda, 21-ci məsələ "Qaz təchizatı haqqında" Qanunda, 22-ci məsələ isə "Su təchizatı və tullantı suları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihələridir. Təklif edirəm, biz əvvəlcə qanun layihələrinin təqdimatlarını dinləyək. 17-ci, 18-ci və 19-cu məsələlərə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Bu layihələrə dair məlumat vermək üçün, Nurlan müəllim, yenə

də Sizə söz verirəm. Buyurun, münasibət bildirin.

**N.Həsənov.** Təşəkkür edirəm, hörmətli Sahibə xanım. 17-ci məsələ ilə bağlı qanun layihəsinin qüvvəyə minmə tarixində bir dəyişiklik edilmişdir və qanunun qüvvəyə minmə tarixi 2023-cü ilin oktyabr ayından 2024-cü il yanvarın 1-nə dəyişdirilmişdir. Digər qanun layihələri ilə bağlı hər hansı bir təklif, dəyişiklik yoxdur. Olduğu kimi səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun. Tahir müəllim, 17-ci məsələyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Xahiş edirəm, məlumat verin.

**T.Mirkişili.** Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli Nurlan müəllim tarixlərin dəyişilməsi ilə bağlı təqdimat etdi. Biz də hesab edirik ki, tarixlərin dəyişməsi qanun layihəsinin icrasına hər hansı bir mənfi təsir göstərməyəcək. Komitənin rəyi müsbətdir. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, 20-ci, 21-ci və 22-ci məsələlərə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində baxılmışdır. Məlumat vermək üçün bu qanun layihələri ilə bağlı mən komitənin sədri hörmətli Sadiq Qurbanova söz verirəm. Buyurun, Sadiq müəllim.

**S.Qurbanov,** *Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri.*

Çox sağ olun, dəyərli Sahibə xanım. Üçüncü oxunuşda, sadəcə olaraq, 2023-cü il “iyunun 1-dən” sözləri “oktyabrın 1-dən” sözləri ilə əvəz olunub. Deputat həmkarlarımdan xahiş edirəm, olduğu kimi dəstəkləsinlər.

**Sədrlik edən.** Çox sağ olun, Sadiq müəllim. Hörmətli həmkarlar, indi isə mən qanun layihələrini bir-bir səsə qoyacağam. Xahiş edirəm, 17-ci məsələyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.14 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

18-ci məsələdə olan İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.14 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

19-cu məsələ Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Xahiş edirəm, bu qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.14 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

20-ci məsələni – "Elektroenergetika haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.15 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

İndi isə 21-ci məsələyə keçirik. "Qaz təchizatı haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə, xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.15 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Nəhayət, 22-ci məsələnin səsverməsinə keçirik. Bu, "Su təchizatı və tullantı suları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.16 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim 6 məsələmiz qalır. Bu məsələlərin hamısı birinci oxunuşda olan qanun layihələridir. İndidən xahiş edirəm ki, çıxışlar zamanı birinci oxunuşun tələblərini nəzərə alasınız.

Gündəliyin 23-cü məsələsinə keçirik. Bu məsələ Kosmik fəaliyyət haqqında qanun layihəsidir. Qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün, Tahir müəllim, mən Sizə söz verirəm. Buyurun.

**T.Mirkişili.** Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarlar, Azərbaycanda bir çox digər sahələrdə olduğu kimi, kosmik sahənin əsasları da Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Məhz onun böyük səyi nəticəsində 1973-cü ilin 7-13 oktyabr tarixlərində Bakıda Beynəlxalq Astronavtika Federasiyasının 14-cü konqresi keçirilmişdir. Konqresdə 40-dan çox ölkənin 1500-dən çox nümayəndəsi iştirak etmişlər. Bu hadisədən cəmi 1 il sonra – 1974-cü ildə Azərbaycan Elmlər Akademiyasının

nəzdində Kosmik cihazqayırma konstruktor bürosu yaradılmış, Azərbaycanda kosmik tədqiqatların aparılmasına başlanılmışdır. Daha sonra respublikanın bir çox şəhərlərində, o cümlədən Sumqayıt və Gəncə şəhərlərində bu cür müəssisələr yaradılmışdır. Qeyd edim ki, 50 ildən sonra məhz bu il yenidən Bakıda oktyabr ayında Beynəlxalq Astronavtika Federasiyasının konqresi keçiriləcəkdir.

2009-cu ildə Prezident cənab İlham Əliyevin təsdiq etdiyi "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı" ilə Azərbaycanda müasir kosmik layihələrin həyata keçirilməsinə start verilmişdir. Azərbaycan tarixinin önəmli layihələrindən biri olan "Azerspace-1" peyki 2013-cü ildə orbitə çıxarılması ilə ölkəmiz azsaylı dövlətlərin təmsil olunduğu kosmik qrupa üzv olmuşdur. Bu da öz növbəsində xarici dövlətlərin peyklərindən asılılığı aradan qaldırmış, "Azerspace-1" ölkəmizin informasiya təhlükəsizliyində vacib komponentə çevrilmişdir.

2015-ci ildən etibarən kosmosa çıxarılan "Azersky" peykindən ölkənin müdafiə və təhlükəsizliyi üçün davamlı istifadə edilmiş, həmçinin işğal olunmuş ərazilərimizdə törədilmiş yanğınların mütəmadi olaraq monitorinqi və dəymiş ziyanın qiymətləndirilməsi aparılmışdır. Bundan başqa, Kəlbəcər və Zəngilan rayonlarının ərazilərində yerləşən filiz yataqlarının kosmik monitorinqi həyata keçirilmiş, hasilat sahələrinə nəzarət edilmişdir.

2020-ci ildə Vətən müharibəsi zamanı Azərbaycanın peykləri öz mühüm xidmətlərini göstərmiş və bu xidmətlər dövlət başçısı tərəfindən yüksək qiymətləndirilmişdir.

Hörmətli həmkarlar, Azərbaycanın 3 peyki layihəsinə təxminən 700 milyon manata yaxın investisiya yatırılmışdır. Bu investisiyaların 85 faizi beynəlxalq banklardan

cəlb edilən kreditlərin hesabına formalaşmışdır. Bu gün Azərbaycan peyklərinin gəlirlərinin 90 faizi xarici bazarlardan formalaşır. 2013-cü ildən bu günə qədər Azərbaycan peyklərdən 515 milyon manat gəlir əldə etmişdir. Bunun da 90 faizi, qeyd etdiyim kimi, xarici bazarlardan formalaşmışlar. Qeyd edim ki, peyklərin fəaliyyət müddətləri ərzində növbəti ildə ölkəmizə 1,5 milyard manata yaxın gəlir gəlməsi planlaşdırılır. Hazırda Azərbaycanın fəaliyyətdə olan 2 peyki var. Onların birinin istismar müddəti 2030-cu ildə, digərinin müddəti isə 2038-ci ildə başa çatacaqdır. Hazırda Azərbaycan peykləri 42 ölkədən 182 müştəriyə xidmət göstərir. Bu gün bizim bütün peyklərimiz müstəsna olaraq yerli mütəxəssislər tərəfindən idarə olunur. Hazırda kosmosda 8 minə yaxın peyk var. Onlar naviqasiya, hava proqnozları, təbiət hadisələri kimi mühüm sahələrdə cəmiyyətə xidmət edir. Bu gün kosmosu öyrənmədən iqtisadiyyatı inkişaf etdirmək qeyri-mümkündür.

Qeyd etdiyim kimi, kosmik fəaliyyət publik hüquqi şəxs olan Azərbaycan Respublikasının Kosmik Agentliyi (“Azərkosmos”) tərəfindən həyata keçirilir. “Azərkosmos”un kosmik fəaliyyətinin nizamlanması üçün korporativ idarəetmə mexanizmləri kifayət etdiyi halda kosmik sahədə qeyri-dövlət subyektlərinin fəaliyyətinə hüquqi zəmin yaradılması üçün sahəvi münasibətləri tənzimləyən yeni qanunun qəbul olunmasına zərurət yaranmışdır.

Sizə təqdim olunmuş qanun layihəsi Azərbaycan Respublikasında kosmik fəaliyyətin hüquqi, iqtisadi və təşkilati əsaslarını, kosmik sahədə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə dair ümumi tələbləri müəyyən edir və yerətrafı orbitlərdə, o cümlədən ay və digər səma cisimləri və onların orbitləri də daxil olmaqla kosmik fəzada milli fəaliyyətə aid edilən münasibətləri tənzimləyir.

Qanun layihəsi ilə kosmik fəaliyyət sahəsində və kosmik sənaye sahəsində dövlət və kosmik fəaliyyət subyektləri arasında münasibətlərin tənzimlənməsi nəzərdə tutulur. Layihə hazırlanarkən Avstriya, Britaniya, Rusiya, İsveç və Almaniyanın kosmik fəaliyyət sahələrini tənzimləyən qanunvericilik aktları öyrənilmişdir.

Təqdim edilən qanun layihəsi 6 fəsil və 23 maddədən ibarətdir. Qanun layihəsində kosmik fəaliyyətin həyata keçirilməsi prinsipləri aydın göstərilmişdir. Bunlardan birincisi, kosmik fəzadan sülh naminə istifadə edilməsi, ikincisi, milli maraqların qorunması, üçüncüsü, kosmik resurslardan səmərəli istifadə olunması, dördüncüsü, milli fəaliyyətə dövlət tərəfindən nəzarət edilməsi, nəhayət, beşincisi, kosmik fəaliyyətin və kosmik sənayenin təhlükəsizliyi, kosmik tullantıların ətraf mühitə təsirinin azaldılmasıdır.

Layihəyə görə, kosmik fəaliyyət deyəndə yerətrafı orbitlər, habelə ay və digər səma cisimləri və onların orbitləri də daxil olmaqla kosmik fəzanın texniki, iqtisadi, müdafiə, təhlükəsizlik, informasiya, elmi, ekoloji və digər məqsədlər üçün kosmik obyekt tərəfindən tətbiqi və istifadəsi nəzərdə tutulmuşdur.

Qanun layihəsi kosmik fəaliyyətin subyektlərinə tətbiq edilir. Eyni zamanda, Azərbaycanın hava məkanı daxilində kosmik obyektlərə Azərbaycan Respublikasının müvafiq qanunları şamil edilir. Azərbaycana mənsub olan kosmik obyektin digər dövlətlərin hava məkanına uçuşları müvafiq olaraq ay və digər səma cisimləri də daxil olmaqla kosmik fəzanın tətbiqi və istifadəsi üzrə dövlətin fəaliyyət prinsipləri haqqında beynəlxalq müqavilə və ölkəmizin tərəfdar çıxdığı digər beynəlxalq müqavilə ilə tənzimlənəcəkdir.

Kosmik fəaliyyətin subyektləri kosmik operatorlardır.

Onlar fiziki və hüquqi şəxslər, dövlət orqanları və özəl qurumlar ola bilərlər. Fiziki və hüquqi şəxslər, dövlət orqanları kosmik fəaliyyəti kosmik operatorlar vasitəsi ilə həyata keçirirlər.

Layihəyə görə, peyk xidmətləri telekommunikasiya, naviqasiya, meteoroloji tədqiqat, Yer müşahidə və digər təyinatlı peyklər vasitəsi ilə təqdim edilən xidmət növüdür. Kosmik sənaye dedikdə peyk xidmətlərinin təşkili, təqdim edilməsi, kosmik obyektlərin və onların tərkib hissələrinin layihələndirilməsi, istehsalı nəzərdə tutulur. Qeyd edim ki, 2030-cu ilə qədər Azərbaycanda peyklərin milli istehsal mərkəzinin yaradılması planlaşdırılır.

Kosmik fəaliyyət və kosmik sənaye sahələrində investisiya qoyuluşu və dövlət-özəl tərəfdaşlığı müvafiq olaraq digər qanunlarla tənzimlənəcəkdir. Qanun layihəsinin qəbul edilməsindən sonra dövlət qurumları ilə yanaşı, kosmik sahədə özəl sahibkarlığın da fəaliyyət göstərməsinin qanuni əsasları qoyulacaqdır.

Kosmik fəaliyyətin tənzimlənməsinin aşağıdakı üç istiqaməti qanunda öz əksini tapmışdır:

1. Kosmik fəaliyyət üzrə nəzərdə tutulan malların, işlərin, xidmətlərin, onlarla əlaqəli proseslərin və istehsal metodlarının sertifikatlaşdırılması;
2. Bütün kosmik obyektlərin dövlət qeydiyyatı sisteminin yaradılması;
3. Orbital mövqelərin əldə edilməsi və qorunması.

Qanun dərc edildiyi gündən 60 gün sonra qüvvəyə minir və qanunun tələblərinin pozulmasında təqsirli olan şəxslər qanunda nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyacaqlar.

Yekun olaraq kosmik fəaliyyət sahəsini tənzimləyən qanun layihəsinin qəbul edilməsi ilə kosmik obyektlərin

ölkə daxilində və beynəlxalq səviyyədə reyestrinin aparılması, kosmik texnikanın sertifikatlaşdırılması, kosmik obyektin etibarlı idarə edilməsinə nəzarət, kosmik fəaliyyətə xidmət edən aerospektiv idarəçiliyi, ətraf mühitin qorunması və kosmik fəaliyyətin təhlükəsizlik kimi tələblərinin hüquqi əsası formalaşdırılacaqdır.

Hörmətli Sahibə xanım, qanun layihəsi İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində geniş müzakirə olunmuşdur. Düşünürəm ki, komitə üzvlərinin rəyini nəzərə alaraq digər həmkarlarımdan da qanun layihələrini birinci oxunuşda dəstəkləmələrini xahiş edirəm. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Hörmətli həmkarlar, yazılanlar var. Təklif var ki, 5 dəqiqəyə keçək. Etiraz etmirsiniz ki?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Razi Nurullayev. Buyurun. Birinci oxunuşdur, Razi müəllim.

**R.Nurullayev.** Hörmətli xanım sədr, hörmətli deputatlar. İlk öncə Kosmik fəaliyyət haqqında qanun layihəsini yüksək qiymətləndirirəm. Sevinirəm ki, Azərbaycan da kosmik sənayeyə malik ölkələr sırasındadır. Kosmik sənayenin gələcək üçün önəmini və bu qanun layihəsinin əhəmiyyətini nəzərə alaraq bir neçə təklif vermək istəyirəm.

Birinci, orta məktəb şagirdləri və tələbələr arasında bu sahəyə marağın artırılması üçün növbə ilə məktəblərin seçilmiş şagird və tələbələrinin "Azərkosmos"un yerləşdiyi sahəyə ziyarətinin təşkil olunmasını istərdim. Yaxşı olardı ki, "Azərkosmos"un internet səhifəsində şagirdlər və tələbələr üçün öyrədici resurslar da olsun. Onlar virtual olaraq peykimizlə səyahət etsinlər, onu yönləndirsinlər, təmir etsinlər və sair. Bu, kosmik sahəyə marağın güclənməsin-

də və potensialımızın artırılmasında ciddi rol oynaya bilər.

İkinci təklif. Biz deputatlar üçün də bu sahə çox maraqlıdır. İstərdik ki, "Azərkosmos"a biz deputatların da səfəri olsun. Təbii ki, biz zəng edib bəlkə də gedə bilərik, bilmirəm, qadağa var, yoxsa yox. Amma qadağa yoxdursa da, deputatların da "Azərkosmos"un işi, fəaliyyəti ilə tanış olması elə onlar üçün də faydalı olardı.

"Azərkosmos"un fəaliyyətini yaxından izləyirəm və bütün uğurlarına sevinirəm. Şadam ki, bu sahədə uğurlarımız artmaqdadır. İşinizdə böyük uğurlar və nəticələr arzulayıram, əziz dostlar.

**Sədrlik edən.** Sağ olun, Razi müəllim. Etibar Əliyev, buyurun.

**E.Əliyev.** Çox təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli deputatlar, mənim kosmosdan danışmağım deputat həmkarlarıma təəccüblü gəlməsin. Azərbaycanda Kosmik Tədqiqatlar Elm-İstehsalat Birliyi adlanan böyük bir elm müəssisəsi var idi. Təyinatımızı ora verdilər və 5 il orada işlədik. General Kərim Kərimovun oxuduğu mühazirə hələ də yadımdan çıxmayıb. O zaman da kosmik tədqiqatlara böyük üstünlük verilirdi. İndi vəziyyət necədir? Texnoloji uçurum nə deyir?

Bəzi məqamlara toxunmaq istəyirəm. Bizim artıq göydə 700 milyona yaxın manatımız var. Azərbaycan 3 peykin hazırlanması üçün 700 milyon manat investisiya yatırıb. Kosmik fəaliyyətin qanunvericilik bazası vacibdir və bunun fəaliyyəti genişləndirilməlidir. Qazaxıstanda bu qanun 2012-ci ildə qəbul olunub. Burada, şübhəsiz ki, Baykonurun da təsiri var. Türkiyə və İsrail təcrübəsindən bəhrələnməliyik. Qanunun müzakirəsindən əvvəl əhəmiyyətli əməkdaşlıq müqaviləsi də imzalanıb.

Hazırda Azərbaycanın 3, Türkiyənin kosmosda müx-

təlif təyinatlı 10 peyki  fəaliyyətdədir. Qardaş Türkiyənin ilk milli müşahidə peyki olan "İMC" Türkiyə və türk dünyası üçün çox böyük uğurdur. Türkiyənin peyki artıq kosmosdadır. Türkiyə ilk dəfə olaraq  öz milli resursları hesabına peyk hazırlayıb. Uzun müddət, təxminən 7 il olardı ki, Türkiyənin TÜBİTAK UZAY kosmik tədqiqatlar qurumu Müdafiə Sənayesi Nazirliyinin rəhbərliyi altında bu layihə üzərində çalışırdı.

Bir vacib məqamı da qeyd edim. Maraqlıdır ki, Türkiyənin Orta Doğu Texniki Universitetinin də bu layihədə yaxından iştirakı danılmazdır. Bu, həm də  universitetin gücüdür. "İMC" peykinin hazırlanması üzrə bütün işlər türk mütəxəssisləri və mühəndisləri tərəfindən gerçəkləşdirilir. Yalnız orbitə qaldırılması xarici resurslar hesabına olur. "İMC" müdafiə, kəşfiyyat və müşahidə  yönümlü bir peykdir. Peyk sınaqdan keçirildikdən sonra Türkiyənin hərbi hava qüvvələrinin komandanlığına təhvil veriləcək. Peykin ömrünün 5 il olacağı nəzərdə tutulub.

Prezident cənab İlham Əliyevin tədqiqat universiteti ideyası tez bir zamanda gerçəkləşməlidir. Orta Doğu Texniki Universiteti ilə kosmik tədqiqatlar sahəsində elmi əlaqələr genişlənməlidir. Bu məsələdə zaman faktorunu mütləq nəzərə almaq lazımdır. Bu gün Azərbaycan Respublikasının Kosmik Agentliyinin ("Azərkosmos"un) gördüyü işləri qənaətbəxş hesab etmək olar. Artıq "Azərkosmos" ilə "SpaceX"  şirkəti arasında  əməkdaşlıq müqaviləsi də imzalanıb. Bu ilin oktyabrında Bakıda keçiriləcək Beynəlxalq Astronavtika Konqresinə İlon Maskın da qatılacağı gözlənilir. Gözləmək olar ki, peykimizin orbitə qaldırılması ilə bağlı "SpaceX" ilə anlaşmalar elə konqres çərçivəsində imzalanacaq. Müqaviləyə əsasən "Azərkosmos" və "SpaceX" şirkəti arasında şirkətin "Starlink"

peyk internet xidmətinin Azərbaycanda satışı üzrə razılıq əldə olunub. Xeyli müddət olardı ki, Azərbaycan ərazisi də "Starlink" obyektlərinin əhatə dairəsinə daxil olmuşdur. "Starlink" internet xidməti yetərincə baha olduğundan, güman ki, bu xidmət daha çox korporativ sektor, işğaldan azad olunan ərazilər və ənənəvi internet bağlantılarının əlçatan olmadığı ərazilər üçün cəlbedici olacaq. Xatırladım ki, müharibə şəraitində olan Ukrayna bu peyk operatorunun imkanlarından yetərincə bəhrələnmişdir.

Mütəxəssislər hesab edirlər ki, istənilən halda alternativ bir internet xidməti olaraq "Starlink"in ölkəmizə gəlişi yetərincə faydalıdır. Düşünmək olar ki, bu əməkdaşlıq çərçivəsində yeni istehsal olunacaq peyklərin "SpaceX" vasitəsi ilə orbitə qaldırılması nəzərdə tutulub. Daha öncə "Azərkosmos"un rəhbərliyi belə bir əməkdaşlıq üzərində çalışdığını bildirmişdir. Fikrimcə, əlçatanlığı, qiymətlərin sərfəli olması və daha müasir həllər baxımından "SpaceX" şirkəti ilə əməkdaşlıq əhəmiyyətlidir və doğru seçimdir.

Düşünürəm ki, qanun layihəsinin qəbul olunması olduqca vacibdir. Qeyd etdiyim məsələlərin həlli, xüsusilə internet zolağı barədə fikirlərim tez bir zamanda həyata keçirilərsə, biz bu sahədə regionun, demək olar ki, lider dövlətinə çevrilə bilərik. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Aydın Mirzəzadə, buyurun.

**A.Mirzəzadə.** Təşəkkür edirəm, xanım sədr. Kosmik fəaliyyət 4-cü sənaye inqilabının əsas istiqamətlərindən biridir. Təqdirəlayiqdir ki, Azərbaycan artıq bu perspektivli və dünyanın diqqətində olan sahə üzrə ilk addımlarını atmağa başlayıb. Hörmətli həmkarım Tahir Mirkişilinin verdiyi məlumatdan da görünür ki, Azərbaycanın adı ilə buraxılan peyklər artıq Azərbaycanın xeyrinə işləməyə və iqtisadi cəhətdən səmərəli bir layihə olmağa başlayıbdır.

Qanun layihəsinin qəbul edilməsinə səs verəcəyəm. Konkret bir təklifim var. Təklifim kosmik fəaliyyət üzrə mütəxəssislərin hazırlanması ilə bağlıdır. Azərbaycanda bununla bağlı ayrıca fakültələr, ixtisaslar yoxdur. Təklif edərdim ki, universitetlərimizin birində kosmik tədqiqatlar fakültəsi açılsın. Sadəcə olaraq, fiziklərin, informasiya texnologiyası və yaxud da beynəlxalq hüquq mütəxəssislərinin "Azərkosmos"a işə qəbul edilməsini mən tam hesab etmirəm. Hesab edirəm ki, mütləq bu sahə üzrə çox güclü mütəxəssislər hazırlığına başlanmalıdır. Ola bilsin ki, bu, çox bahalı bir layihədir. Yəni Azərbaycan kimi kiçik bir ölkə belə konkret mütəxəssisin hazırlanması layihəsini yerinə yetirə bilməsin. Dövlət hesabına belə olarsa, xarici aparıcı universitetlərdə bu sahə üzrə azərbaycanlı mütəxəssislərin hazırlanmasını təklif edirəm. Qanun layihəsinə səs verəcəyəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.32 dəq.) |
| --- | --- |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin növbəti 2 məsələsi cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub, mahiyyətcə bir-birinə yaxındır. 24-cü məsələ Vergi Mə-

cəlləsində, 25-ci məsələ isə "Gömrük tarifi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihələridir. Odur ki, təklif edirəm, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü hörmətli Anar Məmmədov hər iki layihəyə dair ümumi bir məlumat versin. Anar müəllim, buyurun.

**A.Məmmədov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü.*

Təşəkkür edirəm. Çox hörmətli xanım sədr, hörmətli həmkarlar. Bu gün müzakirəyə çıxarılan qanun layihələrinin iki istiqaməti var və hər ikisi önəmli xarakter daşıyır. Birinci istiqamət. Vergi Məcəlləsinə təklif olunan dəyişikliyə əsasən ölkə ərazisində istehsal olunan minik avtomobillərinin satışı 2023-cü il may ayının 1-dən 10 il müddətinə əlavə dəyər vergisindən azad ediləcək. Bildiyimiz kimi, Neftçala, Naxçıvan və Gəncədə yerli avtomobil zavodları var. Mayın 1-də isə Hacıqabul Sənaye Məhəlləsində Azərbaycanla Özbəkistanın birgə avtomobil istehsalının boya, qaynaq və yığım məhəlləsinin lokallaşdırılması zavodunun təməli qoyulub. Dəyişiklik bu sənayedə qiymətlərin formalaşmasına və yeni iş yerlərinin açılmasına müsbət təsirini göstərəcək.

Dəyişikliklərdə olan ikinci istiqamət olduqca vacib və aktualdır. Bildiyiniz kimi, şanlı qələbə nəticəsində işğaldan azad edilmiş torpaqlarda minatəmizləmə işləri çox sürətlə davam etdirilir. Məlumat üçün qeyd edim ki, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda azad edilmiş ərazilərdə 280 min hektarın 2026-cı ilə qədər minalardan təmizlənməsi öz əksini tapıb. Bu gün səsverməyə çıxarılan düzəlişlər bu işlərin sürətləndirilməsi üçün çox vacibdir. Müzakirəyə çıxarılan qanun layihələrində işğaldan azad

edilmiş ərazilərin bütün növ texnikalarının, avadanlıqlarının, texniki vasitələrinin və qurğularının, onların ehtiyat hissələrinin, fərdi zirehli qoruyucu geyimlərinin, alətlərin, partlayıcı və pirotexniki vasitələrinin istehsalı və satışının 2023-cü il mart ayının 1-dən 5 il müddətinə vergidən və gömrük rüsumlarından azad olunması təklif olunur.

Onu da qeyd edim ki, biz artıq 2021-ci ildə işğaldan azad edilmiş ərazilərin minalardan və müharibənin digər partlayıcı qalıqlarından təmizlənməsi çərçivəsində istifadə olunan bütün növ avadanlıqların idxalının 5 il müddətinə vergidən və gömrük rüsumlarından azad edilməsinə dair bir sıra qanunlara səs vermişik.

Beləliklə, dəyişikliklər ölkə ərazisində minik avtomobillərinin istehsalının, habelə işğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsi üçün texnikaların, avadanlıqların, texniki vasitələrin və qurğuların, onların ehtiyat hissələrinin, fərdi zirehli qoruyucu geyimlərin, alətlərin, partlayıcı və pirotexniki vasitələrin istehsalının dəstəklənməsi üçün nəzərdə tutulur.

Qanun layihəsi İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində geniş müzakirə olunmuşdur. Layihəyə müsbət rəy verilmişdir və Milli Məclisin plenar iclasına tövsiyə olunmuşdur. Hörmətli millət vəkilləri, bu düzəlişlərin vacibliyini nəzərə alaraq hər iki layihəni dəstəkləməyinizi xahiş edirəm. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Anar müəllim. Çıxış etmək istəyənlər var. Razi Nurullayev, buyurun.

**R.Nurullayev.** Hörmətli xanım sədr, hörmətli deputatlar. Vergi Məcəlləsinə təklif olunan dəyişikliyi alqışlayıram. Ümid edirəm ki, dəyişiklik ölkədə avtomobil istehsalına töhfə vermiş olacaq. Açığını deyək ki, avtomobillərə tətbiq olunan gömrük yükü də çox ağırdır. Vətəndaş

gedib Gürcüstandan ucuz avtomobil alıb gətirir və aldığından daha çox rüsum ödəyir. Deyək ki, avtomobili 10 min dollara alıb, 10 min dollar və ya ondan da çox Azərbaycan ekvivalentində pul ödəməli olur. Bu tarifi doğru hesab etmirəm. Razıyam ki, ölkəmizdə daha çox keyfiyyətli avtomobil istehsal olunsun. Amma bir çox məsələlər kağız üzərində qalır. Gəlin, görək, istehsal, tikinti, idxal və ixrac hamı üçün bərabər şərait yaradır? Xeyr, yaradılmır. Müxtəlif instansiyalarda vətəndaşların başına min oyun gətirilir. Qanunlarımız superdir. Biz çox gözəl qanunlar qəbul edirik. Amma bizdən asılı olmayan səbəblərdən qanunlar buradan çıxandan sonra aidiyyəti qurumlar tərəfindən öz kefinə uyğun yerinə yetirilir. Bu, yolverilməzdir və əməlli-başlı hiddət doğurur.

Sənaye zonaları, sənaye məhəllələrinin bəzilərində rahat şərait yaradılıb ki, sahibkarlıq etmək istəyən şəxs yaxşı qəbul edilsin və ona köməklik göstərilsin. Qalanlarını da, sadəcə, dinləyib yola salırlar. O da gərək kimsə xahiş etsin ki, filankəsi qəbul edin, onun biznes planları var, investisiya qoymaq istəyir. Dinləyib yola salırlar. Sonra heç telefonu da qaldırmırlar. İndi nə edək, hər kəsi əlindən tutub qapı-qapı, idarə-idarə gəzdirək?

İnvestisiya təşviqi sənədinin verilməsi niyə az qala cəhənnəm əzabına çevrilir? İnvestisiya fəaliyyətinin genişləndirilməsi üçün cənab Prezidentin 2016-cı il 18 yanvar, 2016-cı il 20 aprel, 2022-ci il 20 dekabr tarixli fərmanlarından irəli gələn müddəalar var. İnvestisiya təşviqi mexanizmi yaradılıb və onları oxuyan xarici vətəndaş həsəd aparar ki, kaş bizdə də belə qanunlar olaydı. Cənab Prezident tərəfindən bütün addımlar ən gözəl və mütərəqqi şəkildə atılır. Gəlin, görək, problem haradadır. Açıq danışaq və çəkinmədən bunları deyək. İqtisadiyyat Nazirli-

yinin məsul şəxsləri cavab versinlər ki, investisiya təşviqi sənədlərinin verilməsi hansı meyar üzrə həyata keçirilir? Bəli, sadaladığımız sənədlərdə meyar və şərtlər yazılıb. Bəs niyə əməl olunmur? Sənaye zonaları və məhəllələrin bəzi məqamları nəzərə alaraq bir-ikisindən başqa digərləri niyə şəffaf deyil? Niyə sərmayə qoymaq istəyənləri qəbul etmirlər?

Dövlətin Sabirabad Sənaye Məhəlləsi anbar kimi istifadə olunur. Bəs dövlətin külli miqdarda qoyduğu vəsait hara getdi? Göylərə sovruldu? İndi bir iş adamı sərmayə qoymaq istəsə, onu elə incidirlər ki, o, ölkədən getmək istəyir, ya da sivil qaydada işləmək istəmir, dədə-baba qaydasına gedir. Axı, belə olmaz. Son zamanlar xeyli qurumlarda əməlli-başlı süründürməçilik, insanları bezdirmə, canına-boğazına yığma, başından etmə görürəm. Bu həm də Qarabağa gedib çıxır. Qarabağa sərmayə qoymaq istəyən vətəndaşlar bir-iki dövlət qurumu tərəfindən niyə dağa-daşa salınır? Niyə sözdə hər şey şəffaf, əməldə isə hər şey qaradan da qaradır? Cənab Prezident bütün imkanları yaradıb və lazım olan əksər addımlar da atıb. Bir neçə dövlət qurumu var ki, onlar neqativ əməlləri ilə cənab Prezidentin qəbul etdiyi mütərəqqi addımlara qarşı sanki çıxmış olurlar.

Xanım sədr, istərdim ki, bir çox əlaqədar qurumların məsul şəxsləri ilə parlamentdə görüş keçirilsin. Biz onlara konkret suallar ünvanlaya bilək. Əgər onlar açıq və mətbuatın iştirakı ilə olan görüşlərdən qorxurlarsa, lap qapalı olsun, amma suallarımıza mütləq şəkildə cavab tapmalıyıq. Xanım sədr, mən hətta bu məsələlərdə israr edirəm ki, əgər mümkündürsə, belə bir görüş keçirilsin. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Görüşlə bağlı, burada dediklərinizin arxasında faktlar varsa, o faktları təqdim edin, biz baxaq, ondan sonra. Qüdrət Həsənquliyev. Qüdrət müəllim, buyurun.

**Q.Həsənquliyev.** Təşəkkür edirəm. Hörmətli sədr, həmkarlarım və media nümayəndələri. Qanun layihəsini təqdim eləyən Anar müəllimə diqqətlə qulaq asdım. O, bu dəyişikliyi onunla əsaslandırdı ki, yeni iş yerləri açılacaq. Əlbəttə, bura əlavə də etmək olar ki, bu, məsələn, Azərbaycanda avtomobil sənayesini inkişaf etdirmək məqsədi ilə edilir və sair. Amma əvvəla, onu ayırmaq lazımdır ki, Azərbaycanda avtomobil istehsal olunmur. Avtomobillər xarici ölkələrdən gətirilir, burada yığılır. Yəni buna avtomobil istehsalı demək üçün ən azından ehtiyat hissələrinin, heç olmasa, 30 faizi bu ölkədə istehsal olunmalıdır. Yoxsa avtomobilin salonu, mühərriki, təkərləri gətirilir. Burada qapılar bağlanır. Bu da avtomobil istehsalı oldu. Ona görə ki, o hissələr burada yığılanda sahibkara ucuz başa gəlir. Açıq söyləyirəm, böyük pullar qazanılır.

Bu qanunun əsaslandırılması, əslində, belə olmalıdır ki, bu qanun proteksionizm xarakteri daşıyır və həmin sahə ilə kimlər məşğul olursa, onlara əlavə pul qazandırmaq məqsədi güdülür. Hörmətli həmkarlar, Azərbaycanda, onsuz da, idxal ildən-ilə artır, bunu hər biriniz bilirsiniz. Tutaq ki, soyuducu istehsalı, yaxud başqa kondisioner istehsalı olsun. Məgər avtomobil istehsalından az əhəmiyyətlidir? Yaxud ümumiyyətlə, digər hər hansı bir sənaye məhsulu Azərbaycanda istehsal olunsun, bu az əhəmiyyətlidir. Ona görə də bu sahə üçün ayrılıqda götürülmüş bu cür güzəştin nəzərdə tutulmasını doğru hesab eləmirəm. Əlbəttə, müdafiə sənayesində hansısa malların istehsalına görə belə güzəştlər nəzərdə tutularsa, bu, başadü-

şülən olar. Amma bir daha söyləyirəm, əslində, mən çox istəyərdim ki, biz Azərbaycanda avtomobilləri yığmayaq, həqiqətən də, avtomobil istehsal edək. Ona görə vaxtı ilə mən də təklif eləmişdim ki, Naxçıvan Muxtar Respublikasını minik avtomobilləri istehsal edən bir mərkəzə, Gəncəni də yük avtomobilləri və kənd təsərrüfatında istifadə olunan avtomobilləri, traktor və mexanizmləri istehsal eləyən bir mərkəzə çevirmək olar. Amma bunun üçün dünyanın inkişaf etmiş ölkələri ilə müqavilələr bağlamaq lazımdır.

Biz İranla Neftçalada bir müəssisə açdıq. O vaxt da mən söylədim ki, axı, İranda bu sahə inkişaf etməyib, onun istehsal elədiyi avtomobillərin keyfiyyəti olduqca aşağıdır. Bizim dövlət müəssisələrində bəzən məcbur eləyirlər ki, gedin, oradan avtomobillər alın. Onlar da alır, gətirir və qısa müddətdən sonra həmin avtomobillər sıradan çıxır. Beləliklə də, biz dövlət vəsaitini səmərəsiz istifadə eləmiş oluruq. Bəlkə də daha doğru olardı, bizim İqtisadiyyat komitəsi bu barədə bir araşdırma aparsın və bizə ikinci oxunuşda məlumat versin ki, ümumiyyətlə, Azərbaycanda sənaye məhsulları istehsal eləyən, yeni yaradılan, yəni qanun qüvvəyə minəndən sonra yaradılan bütün müəssisələr, o cümlədən, kənd təsərrüfatı məhsullarının emalı ilə məşğul olan müəssisələr, misal üçün, 5 il müddətinə vergilərdən azad olunsunlar. Bu, investisiya cəlbinə töhfə vermiş olar və insanlar da vəsaitlərini xaricə çıxarmazlar, bura qoyarlar, xarici investorlar Azərbaycana gələrlər. Ona görə mən hesab edirəm ki, avtomobili gətirib, ehtiyat hissələrini burada yığan adamlara belə güzəştlərin nəzərdə tutulması yolverilməzdir. Həm də o mənada yolverilməzdir ki, dediyim kimi, bunlar böyük pullar qazanırlar və hazırda bizim də vəsaitə ehtiyacımız

var. Qarabağ bərpa olunur, Azərbaycanda bir çox problemlərin həlli üçün dövlətin vəsaitə ehtiyacı var. Ona görə mən bunu doğru hesab eləmirəm. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Sədaqət Vəliyeva, buyurun.

**S.Vəliyeva**. Sahibə xanım, söz verdiyiniz üçün çox təşəkkür edirəm. Mən Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini dəstəkləyirəm, səs verəcəyəm. Sadəcə, bəzi fikirlərimi bölüşmək istəyərdim. Belə ki, yeni sahibkarlıq fəaliyyətinə başlayan subyektlər üçün vergi tutumlarından faizlərinə müəyyən güzəştlər edilsə, çox yaxşı olar. Əlbəttə ki, bu, yeni sahibkarlıq fəaliyyətinə başlayan subyektlərə tam dəstək verər və motivasiya olardı.

İkinci bir təklifim. Aprel döyüşlərində iştirak edən şəxslərə də vergi güzəştləri olsa, çox yaxşı olar. Bildiyimiz kimi, Vətən müharibəsi iştirakçılarına vergi güzəştləri olunur, amma aprel döyüşçülərinə olunmur. Bəzi sosial şəbəkə istifadəçiləri sosial şəbəkələrdə istər canlı açıqlama, istərsə də reklam yolu ilə yüksək məbləğdə gəlir əldə edirlər. Amma heç bir vergi ödəmirlər. Söhbət aylıq yüzminlərcə manatdan gedir. Düşünürəm ki, həmin şəxslərdən gəlir vergisi və ya ödənişlər tutulmalıdır. Misal olaraq qeyd etmək istərdim ki, əgər fəhlənin müəyyən əmək haqqından müxtəlif ödənişlər tutulursa, fəhlədən rahat şəkildə qat-qat artıq pul qazanan şəxslərin gəlirindən niyə heç bir ödəniş tutulmamalıdır? Bu, eyni zamanda, dövlət büdcəsinə əlavə gəlirlər daxil edəcəkdir.

Vaxtında və tam ödəyən vergi ödəyicilərinə müəyyən əlavə vergi güzəştləri tətbiq edilsə, çox yaxşı olar. Belə olduğu halda digər vergi ödəyiciləri vaxtında və tam ödəməkdə maraqlı olardılar.

Bildiyimiz kimi, vergi ödəyiciləri dövlət büdcəsinin əsas gəlir mənbəyidir. Bu səbəbdən də bu sahədə maksimum dərəcədə şəffaflıq təmin olunmalıdır. Bunun üçün vergi sahəsində nəzarət mexanizmi yaradılması çox yaxşı olardı. Nəzarət mexanizmi vergi sahəsində şəffaflığı və qanunun aliliyini təmin edərdi. Dövlətimiz tərəfindən sahibkarlara bir sıra vergi güzəştləri tətbiq edilir. Buna baxmayaraq, bir sıra vətəndaşlar bu haqda məlumatlı deyillər. Dövlət tərəfindən tətbiq edilən vergi güzəştləri haqqında KİV-lərdə, sosial şəbəkələrdə məlumatlar olsa, videoçarxlar paylansa, çox yaxşı olardı. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Rüfət Quliyev. Buyurun, Rüfət müəllim.

**R.Quliyev**. Təşəkkür edirəm, xanım sədr. Hörmətli millət vəkilləri, hörmətli jurnalistlərimiz. Razi bəy çox emosional formada çıxış elədi. Başa düşürəm, onun fikirləri ilə qismən razıyam. Biz, həqiqətən, çox gözəl qanunlar qəbul edirik. Onların həyata keçirilməsi ilə əlaqədar bəzi yerlərdə bəzi məmurlar, ola bilər, problemlər yaradırlar. İndi hər məmur işini bir o qədər yaxşı bilmir və imam övladı deyil. Razi bəy mənim dostumdur, həmkarımdır, amma həmişə demişəm, konkret faktlar olanda konkret formada bunu demək lazımdır.

Gömrüklə, vergi ilə əlaqədar yaxşılığa tərəf kifayət qədər böyük trend var. Mən də hər gün praktiki sahibkarlarla görüşürəm. Mənim öz verilişlərim var, orada sahibkarlar gəlirlər, iştirak edirlər. Mən onlardan dəfələrlə soruşuram ki, gömrüklə, vergi ilə əlaqədar problemlər var? Deyirlər, müsbətdir, çox məsələlər həll olunub. Bəli, bəzi məsələlər var, vaxt lazımdır. Bunu biz nəzərə almalıyıq. Konkret hansısa dövlət qurumu, hansısa bir məmur

varsa, işini, – Siyavuş müəllimin yaxşı bir sözü var, – əməlisaleh qura bilmirsə, onda başqa məsələ. Mən də razıyam ki, dəvət olunsun.

Mən keçən səfər komitə iclasında da çıxış elədim və birmənalı qəbul olunmadı. Bu sözlər "Tik Tok"a da düşdü. "Vergini köpük-köpük yığırıq". Burada maraqlı bir məqam var, bu da su ilə əlaqədardır. Mən keçən səfər də dedim. Axı, bizim büdcədən gedən pullar vergidən yığılan pullardır, gömrükdən yığılan pullardır. Ona görə mən bir də təklif edirəm, biz təzə yaranan su idarəsinə kömək eləyək ki, hər yerdə sayğaclar qoyulsun və hər kəs pulunu ödəsin.

Sonda, xanım sədr, mən bir az haşiyə çıxıb, Sizdən icazə alıb daxili işlər nazirinə öz minnətdarlığımı bildirmək istəyirəm. Haradasa iki həftə öncə mən çıxış elədim. Deməli, mən bu gün rəsmi formada xəbər aldım ki, bizim kənddə – Sütəmurdovda bir radar əvəzinə üç radar qoyulub. Kənd insanları, öz adımdan, seçicilər adından daxili işlər nazirinə öz təşəkkürümü bildirirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, mən indi...

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Anar müəllim, sözünüz var. Buyurun.

**A.Məmmədov**. Təşəkkür edirəm, çox hörmətli sədr. Həmkarımız Qüdrət müəllimin sualına cavab vermək istərdim ki, bu qanun layihəsi qüvvəyə minərsə, bu, ilk növbədə 1200-dən artıq işçi qüvvəsinin işə cəlb olunması deməkdir. İkinci növbədə isə Azərbaycanda yığılan avtomobillərin əlavə dəyər vergisindən azad olunması avtomobillərin daha da ucuz qiymətə əldə olunmasına gətirib çıxaracaq. Üçüncüsü isə, onillik müddət nəzərdə tutulur. Bu qanun layihəsi daimi deyil. Çox sağ olun, təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, mən indi qanun layihələrini bir-bir səsə qoyacağam. Xahiş edirəm,

24-cü məsələyə – Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsinə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.50 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

25-ci məsələni səsə qoyuram. Buyurun. “Gömrük tarifi haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir.

| **Səsvermənin nəticələri** | (saat 12.51 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu qanun layihəsi də birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin növbəti iki məsələsi cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub və bu qanun layihələri də məzmun və mahiyyətcə bir-birinə yaxındır. Gündəliyin 26-cı məsələsi “Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında” Qanunda, 27-ci məsələ isə “Hərbi vəzifə və hərbi xidmət haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihələridir. Qanun layi-

hələrinə dair məlumat vermək üçün mən Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri hörmətli Ziyafət Əsgərova söz verirəm. Ziyafət müəllim, buyurun.

**Z.Əsgərov,** *Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarlar, əvvəla, qeyd edim ki, hər iki qanun layihəsi möhtərəm cənab Prezident tərəfindən qanunvericilik təşəbbüsü qaydasında təqdim olunub. Mən yadınıza salmaq istəyirəm ki, bir müddət bundan əvvəl hər iki qanun layihəsinə başqa məzmunda dəyişikliklər edilmişdir. Qanun layihəsinin həm məzmunu ilə bağlı, həm redaktə xarakterli, həm də texniki xarakterli dəyişikliklərdən danışmaq olar. Amma mən burada məzmunu ilə bağlı danışmaq istəyirəm. Birinci növbədə qanun layihəsində hərbi qulluqçuların, eyni zamanda, kəşfiyyat və əks-kəşfiyyat subyektlərinin qeydiyyatının və ehtiyata buraxılmış şəxslərin dəqiq uçotunun aparılması məsələsidir. Yəni İkinci Qarabağ müharibəsi göstərdi ki, biz artıq hərbi qanunvericilik aktlarında mütləq müəyyən dəqiqləşdirmələr aparmalıyıq. Layihədə də bu qəbildən olan dəyişikliklərdir. Bu qanun layihələrinin mahiyyəti, fəlsəfəsi, məqsədi Azərbaycanın hərbi müdafiə qabiliyyətinin və onun təhlükəsizlik sisteminin möhkəmləndirilməsi üçün hüquqi bazanın daha da möhkəmləndirilməsidir. Siz bilirsiniz, cənab Prezident bunu Laçında çıxışında da qeyd etdi. Bu gün mən məlumat aldım, internetdə oxudum. Deməli, Ermənistanın parlament sədri yenə də Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış edir və bizim xarici işlər naziri onlara çox tutarlı cavab verdi. Yəni mən istisna etmirəm ki, bizim gələcəkdə digər hərbi qanunvericilik aktlarına, o cümlədən Hərbi Doktrinamıza... Artıq 10 ildən çoxdur ki, Hərbi Doktrina-

mız qəbul olunub. Sonra Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası cənab Prezidentin sərəncamı ilə təsdiq olunub. Eyni zamanda, “Milli təhlükəsizlik haqqında” Qanuna da əlavələr və dəyişikliklər ediləcək.

Bütün bunlar onun üçün edilir ki, ordumuz möhkəmləndirilirsə, sözsüz ki, onun fəaliyyətini tənzimləyən hərbi qanunvericilik aktları daha da təkmilləşdirilməlidir. Nə qədər ki Ermənistanda siyasətdən başı çıxmayan və siyasətə calaq edilmiş, eyni zamanda, montaj edilmiş insanlar Ermənistanı idarə edir, biz mütləq bu hərbi qanunvericilik aktlarının da bazasını möhkəmləndirməliyik. Ona görə də hesab edirəm, bu qanun layihələri olduqca vacibdir. Bunlar həm kəşfiyyat orqanlarında, həm də əks-kəşfiyyat orqanlarında xidmət edən insanların uçotunun, ehtiyata buraxılmış, xidmət edənlərin qeydiyyatının dəqiqləşdirilməsi və “Hərbi vəzifə və hərbi xidmət haqqında” Qanuna müvafiq olaraq bir-birini tamamlayan qanun layihələridir. Orada da dəqiqləşdirilmələrin aparılması mütləq vacibdir, zəruridir və hesab edirəm ki, günümüzün tələblərinə cavab verir. Ona görə də bu qanun layihələrinə müsbət münasibət bildirməyinizi xahiş edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Siyavuş Novruzov. Buyurun, Siyavuş müəllim.

**S.Novruzov**. Təşəkkür edirəm, hörmətli xanım sədr. İlk öncə, xanım sədr, Ümummilli Liderin 100 illiyi ilə əlaqədar Azərbaycan Respublikası parlamentinin çox yüksək şəkildə keçirdiyi tədbirlərlə əlaqədar Sizə, parlamentin bütün əməkdaşlarına öz təşəkkürümüzü, minnətdarlığımızı bildiririk ki, bu tədbirlər yüksək şəkildə təşkil olunmuşdur. Təşkilatçılıq, qonaqların buradakı çıxışları, onlarla keçirilən görüşlərdə Azərbaycan maraqlarının təmsili... Dəvət olunanlar burada yalnız iştirak etmədilər, eyni za-

manda, çox xoş xatirələrlə Azərbaycandan ayrıldılar. Biz hamımız bunun şahidiyik. Ona görə Sizə, bütün kollektivə təşəkkürümüzü bildiririk, minnətdarıq.

Təqdim olunan qanun layihəsi ilə bağlı hörmətli Ziyafət müəllim qeyd etdi. Mən də bu qanun layihəsinin tərəfdarıyam. Doğrudan da, çox vacib qanun layihələridir. Azərbaycanın hərbi qüdrətinin gücləndirilməsi, eyni zamanda, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin daha da genişlənməsi və daha da güclü olması vacib olan amillərdən biridir. Bu gün dünyada baş verən hadisələr tələb edir ki, bu cür addımların atılmasına zərurət var. Mən bir neçə məsələ ilə bağlı təkliflərimi irəli sürəcəyəm. Birincisi, bu təkliflər ondan ibarətdir ki, hərbi çağırış və hərbi mükəlləfiyyətlə əlaqədar biz bəlkə də qanunlarımıza baxmalıyıq. Bilirsiniz, İkinci Vətən müharibəsi də göstərdi ki, çağırışla yanaşı, İkinci Vətən müharibəsində o qələbənin əldə olunmasında ən aktiv, – düzdür, mən heç kəsin haqqına girmək istəmirəm, – ən çox bizim müqavilə ilə fəaliyyət göstərən əsgərlərimiz oldu. Bu da təbiidir ki, onların kifayət qədər təcrübəsi var, kifayət qədər xidmət göstərirlər.

Bilirsiniz, artıq dünyada bütün hərbi standartlar NATO standartlarına uyğunlaşır. Hərbi çağırış əsasında forma artıq ikinci mərhələyə keçir. Düzdür, bizdə müəyyən faiz var, müqavilə əsasında qulluq göstərirlər. Lakin bu müqavilə əsasında olan qulluğu daha da artırmalıyıq. Bunun səbəbləri də var və o səbəblər çox genişdir. Səbəblərdən biri ondan ibarətdir ki, texnikanın öyrənilməsi prosesi var. Çox bahalı texnikalar var. Məsələn, hələ keçmiş Rusiyadan və başqa ölkələrdən olan texnikanın birinin öyrənilməsinə 6 ay müddət tələb olunurdusa, indi NATO standartlarında olan silahların öyrənilməsinə 9-12 ay sərf olunur. Bizdə də hərbi xidmətin müddəti 12 ay, yaxud da

il yarımdır. Bu müddət ərzində əgər bir şəxs öyrənirsə, bunu yekunlaşdıranda artıq o, qulluğunu başa çatdırmış olur. Ona görə də bu insanların müqavilə əsasında xidmət göstərməsi daha təqdirəlayiqdir ki, həm raket texnikasıdır, həm elə quru qoşunlarına daxil olan silahlardır, artilleriya qurğularıdır... Bu gün Türkiyədə və dünyanın başqa-başqa yerlərində istehsal olunur. Bu gün biz Ukrayna–Rusiya müharibəsinə baxanda görürük ki, Ukraynadan olanları NATO standartlarına uyğunlaşdırmaq üçün 9 aydan az öyrətmirlər. Hesab edirəm ki, biz artıq bu mərhələyə başlamalıyıq və bu mərhələni gözləməməliyik.

Hərbi çağırışın əsasları ilə yanaşı, yəni həqiqi hərbi xidmətə çağırmaqla yanaşı, hərbi xidmətdə müqavilə ilə xidmət göstərənlərin dərəcəsini artırmalıyıq. Cənab Prezidentin tapşırığı ilə hərbi xidməti sahənin tamamilə mülki vətəndaşlara verilməsi ilə nə qədər problem, əsgərlərin problemləri aradan qalxdı. Hesab edirəm, bu, müqavilə əsasında da olmalıdır.

İkinci bir məsələ. Doğrudan da, bizim kəşfiyyat orqanlarımız, bizim təhlükəsizlik qurumlarımız çox aktiv şəkildə fəaliyyət göstərir. Azərbaycanda həm Vətən müharibəsi dövründə, ondan sonrakı proseslər dövründə, elə son hadisələr dövründə, demək olar ki, bütün Azərbaycan ərazisində təxribat törətmək istəyənlərin qarşısı alınır. Elə bir nümunə bizim həmkarımız Fazil müəllimin bu gün burada iştirakıdır. Özü də qeyd etdi ki, terroru törədən şəxslər dərhal tapıldı və məsuliyyətə cəlb olundu. Bu işlər gedir. Lakin müəyyən bir sahə var ki, biz ciddi şəkildə bu sahəyə də yanaşmalıyıq. O sahə ondan ibarətdir ki, keçmişdə olmuşdu, indi də...

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, saat 1-dir.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Fasiləsiz. Bizim bir məsələmiz qalır. İndi isə mən qanun layihələrini bir-bir səsə qoyacağam. 26-cı məsələni – "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.00 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

27-ci məsələni səsə qoyuram. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.01 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz gündəliyin sonuncu, 28-ci məsələsinə keçirik. Məsələ Mülki Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Qanun layihəsinə

Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb və məsələyə dair məlumat vermək üçün, Nurlan müəllim, mən Sizə söz verirəm.

**N.Həsənov**. Təşəkkür edirəm, hörmətli Sahibə xanım. Mülki Məcəllənin 41-ci maddəsinin tələbinə əsasən hərbi əməliyyatların keçirilməsi ilə əlaqədar itkin düşmüş şəxs hərbi əməliyyatların başa çatdığı gündən ən az 2 il müddət keçdikdən sonra ölmüş hesab edilə bilər. Təqdim olunan bu layihə ilə iki illik müddət məhdudiyyəti aradan qaldırılır. Beləliklə, şəxs hərbi əməliyyatların keçirilməsi ilə əlaqədar onun həlak olmasını güman etməyə əsas olduqda hərbi əməliyyatlar başa çatdığı gündən ən az 6 ay keçdikdən sonra məhkəmə qarşısında ölmüş elan edilə bilər. Deputat həmkarlarımdan layihəyə dəstək vermələrini xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Nurlan müəllim. Çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.02 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, iclasımız başa çatdı, növbəti iclasımız sabah olacaq. Sağ olun.

# ALTINCI ÇAĞIRIŞ AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN XII SESSİYASI İCLASININ

# PROTOKOLU № 132

*Milli Məclisin iclas salonu.*
*31 may 2023-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 103 deputatı iştirak etmişdir.**

| **Qeydiyyat** | (saat 11.02 dəq.) |
|---|---|
| İştirak edir | 91 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Samir Şərifov**, Azərbaycan Respublikasının maliyyə naziri.

**Şahin Bağırov**, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri.

**Yusif Yusifov**, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi sədrinin müavini.

**Vüqar Gülməmmədov**, Azərbaycan Respublikası Hesablama Palatasının sədri.

**Elşən Rəhimli**, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti Baş İdarəsi rəisinin müavini.

**Azər Əmiraslanov**, Azərbaycan Respublikası Nazirlər Kabinetinin İqtisadiyyat şöbəsinin müdiri.

**Fikrət Şirinov**, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin şöbə müdiri.

**Fazil Fərəcov**, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin şöbə müdiri.

**Tamerlan Yusif-zadə**, Azərbaycan Respublikası Hesablama Palatası Aparatının rəhbəri.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin icrası haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).
2. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).
3. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).
4. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).
5. "Elm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).
6. "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

7. Azərbaycan Respublikasının Əmək Məcəlləsində, “Məktəbəqədər təhsil haqqında” və “Ümumi təhsil haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

8. “Sanitariya-epidemioloji salamatlıq haqqında", “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında”, “Yanğın təhlükəsizliyi haqqında”, “Milli arxiv fondu haqqında”, “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” və “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

9. Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, “Torpaq islahatı haqqında”, “Energetika haqqında”, “Torpaq icarəsi haqqında”, “Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında”, “Torpaq bazarı haqqında”, “Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında”, “Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamənin təsdiq edilməsi barədə” və “Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

10. “Əhalinin sağlamlığının qorunması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

11. “Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

12. “Özəl tibb fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

13. “Yerin təki haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

14. “Məhkəmə-Hüquq Şurası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**1. Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin icrası haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili, Vüqar Gülməmmədov, Qüdrət Həsənquliyev, Fazil Mustafa, Hicran Hüseynova, Razi Nurullayev, Aqiyə Naxçıvanlı, Qənirə Paşayeva, Bəhruz Məhərrəmov, Elman Nəsirov, Aydın Hüseynov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.25 dəq.) |
| Lehinə | 78 |
| Əleyhinə | 2 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 81 |

Nəticə: Yetərsay yoxdur

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.26 dəq.) |
| Lehinə | 85 |
| Əleyhinə | 2 |

| | |
|---|---|
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |

Nəticə: Qəbul edildi

**2. “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Məsimli

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.29 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–6-cı maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** 7–12-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Təklif:** 13–18-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.31 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**Təklif:** 19–24-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.31 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 89 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.31 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**3. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan**

**Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bəhruz Məhərrəmov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.32 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci və 2-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** 3-cü və 4-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.34 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

**4. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bəxtiyar Əliyev, Sabir Rüstəmxanlı, Qüdrət Həsənquliyev, Vüqar Bayramov, Siyavuş Novruzov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.48 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 1-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.01 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 2-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.02 dəq.) |
| Lehinə | 92 |
| Əleyhinə | 1 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.02 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**5. "Elm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, İsa Həbibbəyli, Sabir Rüstəmxanlı

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.49 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–4-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs verмədi | 2 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** 5–8-ci maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**6. "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.49 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 1-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.04 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 2-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.04 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.05 dəq.) |
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

**7. Azərbaycan Respublikasının Əmək Məcəlləsində, “Məktəbəqədər təhsil haqqında” və “Ümumi təhsil haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev, Bəxtiyar Əliyev

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.49 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.05 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.05 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**Təklif:** 3-cü maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.06 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.06 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

**8. "Sanitariya-epidemioloji salamatlıq haqqında", "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Yanğın təhlükəsizliyi haqqında", "Milli arxiv fondu haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Rəşad Mahmudov, Musa Quliyev, Ziyafət Əsgərov, Qənirə Paşayeva, Hicran Hüseynova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.50 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 1–3-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.07 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 4–7-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.07 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.07 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

**9. Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, "Torpaq islahatı haqqında", "Energetika haqqında", "Torpaq icarəsi haqqında", "Dövlət**

**torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında", "Torpaq bazarı haqqında", "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında", "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamənin təsdiq edilməsi barədə" və "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Rzayev, Nurlan Həsənov, Tahir Mirkişili, Sadiq Qurbanov, Səbinə Xasayeva

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.15 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**10. "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əhliman Əmiraslanov, Tahir Kərimli

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.19 dəq.) |
| Lehinə | 94 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

**11. "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Adil Əliyev

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.21 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

**12. "Özəl tibb fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əhliman Əmiraslanov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.22 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

**13. “Yerin təki haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Sadiq Qurbanov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.23 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**14. “Məhkəmə-Hüquq Şurası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nizami Səfərov, Fazil Mustafa, Qüdrət Həsənquliyev, Etibar Əliyev, Kamran Bayramov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.45 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*31 may 2023-cü il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri*
***Sahibə Qafarova** sədrlik edir*

**Sədrlik edən.** Xoş gördük, hörmətli deputatlar, hörmətli qonaqlar, hörmətli media nümayəndələri. Hörmətli həmkarlar, xahiş edirəm, qeydiyyatdan keçək. Buyurun.

| **Qeydiyyat** | (saat 11.02 dəq.) |
|---|---|
| İştirak edir | 91 |
| Yetərsay | 83 |

Çox sağ olun, yetərsay var. İclasa başlaya bilərik.

Xahiş edirəm, gündəliyə də münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.02 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, gündəlik qəbul edildi.

Hörmətli həmkarlar, bu gün biz 14 məsələ müzakirə edəcəyik. Gündəlik sizdə var, bilirsiniz. Gündəliyin 1-ci məsələsi Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin icrası haqqında qanun layihəsidir. Nəzərinizə çatdırım ki, qanun layihəsi birinci oxunuşda müzakirəyə təqdim edilir. Ona görə də mən birinci oxunuşdan qabaq hamıya deyirəm ki, birinci oxunuşun tələblərini, xahiş edirəm, nəzərə alasınız. Məsələyə dair məlumat vermək üçün mən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri hörmətli Tahir Mirkişiliyə söz verirəm. Tahir müəllim, buyurun.

**T.Mirkişili,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli hökumət üzvləri və media nümayəndələri. Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin icrası haqqında qanun layihəsi və Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin icrasına dair illik hesabat "Büdcə sistemi haqqında" Qanun ilə müəyyən edilmiş müddətdə və formada Milli Məclisə təqdim edilmişdir. Həm layihə, həm də hesabat tələb olunan məlumatları əhatə edərək qanunla müəyyən olunmuş qaydada tərtib olunmuşdur.

Qanun layihəsi və hesabat tərəfimizdən Hesablama Palatasına rəy üçün təqdim edilmiş və bu rəy palata tərəfindən Milli Məclis üzvlərinə təqdim edilmişdir. Əlavə olaraq qeyd etmək istəyirəm ki, Maliyyə Nazirliyi tərəfindən Hesablama Palatasının rəyinə yazılmış şərhlər də komitə üzvlərinə təqdim edilmişdir.

2022-ci ilin dövlət büdcəsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müəyyən etdiyi strateji

inkişaf prioritetləri, sosial-iqtisadi siyasət və təhlükəsizlik çağırışları istiqamətləri üzrə uzlaşdırılaraq qlobal iqtisadiyyatda gedən proseslərin, regionda baş verən hadisələrin, müdafiə və təhlükəsizlik çağırışlarının və işğaldan azad edilmiş ərazilərdə quruculuq işlərinin icmal və dövlət büdcələrinin əsas parametrlərinə ehtimal olunan təsirləri nəzərə alınmaqla icra edilmişdir.

Təqdim olunmuş sənədlər Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin 24 may 2023-cü il tarixli iclasında ətraflı müzakirə edilmişdir. İclasda Maliyyə və İqtisadiyyat nazirlikləri, Hesablama Palatası, Dövlət Gömrük Komitəsi və Dövlət Vergi Xidmətinin nümayəndələrinin iştirakı ilə dövlət büdcəsinin icrasının əsas parametrləri, 2022-ci ilin makroiqtisadi göstəriciləri ətraflı müzakirə edilmişdir.

Hörmətli həmkarlar, 2022-ci il, hər şeydən əvvəl, Azərbaycan Respublikasının dövlətçilik və müstəqillik tarixinə möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə işğal altında olan ərazilərin azad edilməsi və işğalçı Ermənistan üzərində qazanılan möhtəşəm hərbi, siyasi, iqtisadi qələbədən sonra işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinin geniş vüsət aldığı il kimi düşmüşdür. Məhz bu ildə ilk dəfə Zəngilan rayonunun Ağalı kəndinə sakinlərin köçürülməsinə, yəni  Böyük Qayıdışa start verilmiş, Zəngilan Beynəlxalq Hava Limanı açılmış, Laçın şəhəri nəzarətimizə keçmiş, Laçın koridorunun marşrutu dəyişdirilmiş, Qarabağ və Şərqi Zəngəzurda yol, enerji, su və digər layihələrin həyata keçirilməsi davam etdirilmişdir. Qeyd edim ki, bu işlərin aparılması üçün hesabat ilində dövlət büdcəsindən 4,3 milyard manat vəsait xərclənmişdir.

2021-ci il ərzində davam edən qlobal iqtisadi artım

2022-ci ildə yavaşlama meyilləri ilə müşayiət olunmuşdur. Beynəlxalq təşkilatların son hesabatlarına əsasən qlobal artım 2022-ci ildə orta hesabla 3,2 faiz ətrafında qərarlaşmışdır ki, bu da 2021-ci ildə qeydə alınmış göstəricidən 2,7 faiz bənd azdır. Qlobal artımla müqayisədə Azərbaycanda 2022-ci ildə iqtisadiyyatın real artımı gözlənilən 3,5 faiz proqnoza qarşı 4,6 faiz olmuş, ümumi daxili məhsulun həcmi isə ilk dəfə ən yüksək həddə – 133,8 milyard manata çatmışdır. Qeyri-neft-qaz sektorunda artım isə gözlənilən 7,1 faizlik artıma rəğmən, 9,3 faiz olmuş, 69,8 milyard manat təşkil etmişdir. Qeyd etmək istərdim ki, 2021-ci ilin faktiki göstəriciləri ilə müqayisədə artan 40,6 milyard manatlıq ümumi daxili məhsulun 69,5 faizi neft sektorunun, 30,5 faizi isə qeyri-neft-qaz sektorunun payında formalaşmışdır.

Hesabat ilində enerji məhsulları bazarında qeyri-müəyyənliyin yüksəlməsi xammal qiymətlərinin əhəmiyyətli artımına səbəb olmuşdur. Belə ki, "Azeri Light" markalı neftin bir barelinin orta illik qiyməti 103,6 dollar olmuşdur, bu da 2022-ci ilin dövlət büdcəsinin yenidən baxılması zamanı əsas götürülmüş göstəricidən, yəni 85 dollardan 21,8 faiz çox olmuşdur.

Aparılan təhlillər göstərir ki, iqtisadi göstəricilərdə yaranan fərqlər gözləntilərin ehtiyatlı yanaşma ilə hesablanması ilə əlaqəlidir və onlar fakt və gözləntinin müqayisəsindən formalaşmışdır. Belə ki, dövlət büdcəsinin qeyri-neft gəlirləri üzrə fakt və proqnoz göstəriciləri arasındakı fərq təxminən 1,7 milyard manata bərabər olmuşdur. İl ərzində neft-qaz qiymətlərində əvvəlki illə müqayisədə əhəmiyyətli artımın müşahidə olunması ümumi daxili məhsulun strukturunda neft-qaz və qeyri-neft-qaz sektorunun xüsusi çəkilərinin dəyişməsi ilə nəticələnmişdir. Belə

ki, neft-qaz sektorunun ÜDM-də payı 47,8 faizə yüksəlmiş, qeyri-neft-qaz sektorunun payı isə 52,2 faizə bərabər olmuşdur. Neft-qaz sektoru nominal ifadədə ümumi daxili məhsulun artımına töhfə verə bilsə də, bu, real ifadədə mümkün olmamış və əvəzində iqtisadi artım tamamilə qeyri-neft-qaz sektorunun hesabına formalaşmışdır.

Ötən il dünyada geosiyasi gərginliyin və hərbi münaqişələrin davam etməsi qiymətlərin artımını, enerji və ərzaq təhlükəsizliyi problemlərinin aktuallaşmasını şərtləndirmişdir. Artan inflyasiya fonunda dünyanın əksər ölkələrində əhalinin sosial vəziyyəti ağırlaşmış, onların real gəlirlərinin real xərcləri qarşılamasında çətinliklər yaranmışdır. İnflyasiyanın cilovlanması və onunla bağlı gözləntilərin lövbərlənməsi məqsədi ilə həyata keçirilən daraldıcı monetar siyasət müsbət nəticələr versə də, faiz dərəcələrinin artması maliyyələşmə şərtlərinin ağırlaşmasına yol açmış, bir sıra ölkələrdə makroiqtisadi riskləri artırmışdır. Mühüm ərzaq məhsulları üzrə tələb və təklif arasında müşahidə edilən uyğunsuzluq ərzaq məhsulları bazarında qiymət artımını şərtləndirmiş, bu isə əksər ölkələrdə ikirəqəmli inflyasiyanın müşahidə olunmasına gətirib çıxarmışdır. Azərbaycanda görülən tədbirlər nəticəsində makroiqtisadi sabitliyə nail olunsa da, 2022-ci ildə orta illik inflyasiya ölkə üzrə 13,9 faiz, ərzaq inflyasiyası isə 19,5 faizə bərabər olmuşdur. Hesabat ilində əhalinin nominal gəlirlərinin 20,5 faiz artması inflyasiyanın neqativ təsirlərinin yumşaldılmasına yönəldilmişdir.

2022-ci ildə ümumi daxili məhsulun strukturunda 51,1 faizlə ən böyük xüsusi çəkiyə malik sənayedə 1,6 faiz real azalma müşahidə edilsə də, qeyri-neft-qaz sektorunun bütün sahələri üzrə artım qeydə alınmış, bəzilərində isə artım ikirəqəmli olmuşdur. Ən yüksək artım turizmdə 58,2 faiz

və nəqliyyatda 23,2 faiz qeydə alınmış, cəmi artıma ən böyük töhfəni isə nəqliyyat, tikinti və turizm sahələri vermişdir. Belə ki, artımın əsas hissəsi, təxminən 56 faizi bu sahələrdən formalaşmışdır. Hesabat ilində qeyri-neft-qaz ixracı 15,4 faiz artaraq 2,9 milyard dollara çatmışdır.

Hesabat ilində əsas kapitala yönəldilən vəsaitin məbləği əvvəlki illə müqayisədə 5,5 faiz artaraq 18,3 milyard manat təşkil etmişdir. Əsas kapitala yönəldilmiş investisiyaların 80,6 faizi daxili mənbələr hesabına formalaşmış, investisiyaların 29,5 faizi neft, 70,5 faizi isə qeyri-neft sektoruna yönəldilmişdir.

2022-ci ilin məlumatlarına əsaslanaraq demək olar ki, büdcə qaydasının əsas göstəriciləri hədəflənən yuxarı hədləri aşmamışdır. İcmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbət göstəricisi 22,4 faiz və yaxud hədəf göstəricidən 5,1 faiz bənd az, dövlət borcunun ümumi daxili məhsula nisbəti isə 11,6 faiz və yaxud hədəf göstəricidən 8,4 faiz bənd az olmuşdur.

2022-ci il üzrə qeyri-neft ümumi daxili məhsulun nominal həcminin təqdim olunan proqnozlara nəzərən xeyli yuxarı olması, icmal büdcənin qeyri-neft gəlirlərinin isə proqnoz göstərici ilə müqayisədə əhəmiyyətli artımla icra edilməsi icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbət göstəricisinin hədəf göstəricidən az olmasına səbəb olan əsas amillərdən olmuşdur. Ümumi daxili məhsulun artımı və il ərzində xarici dövlət borcunun həcminin azaldılması dövlət borcunun ümumi daxili məhsula nisbət göstəricisinin də hədəf daxilində olmasını təmin etmişdir.

Hesabat ilində ölkənin dövlət borcu 490,7 milyon manat artaraq 15 milyard 566,6 milyon manat təşkil etmişdir. Dövlət borcunun 73,1 faizini təşkil edən xarici dövlət

borcu birbaşa 700,2 milyon dollar azalaraq 6 milyard 692,2 milyon dollar təşkil etmişdir. Daxili dövlət borcunun səviyyəsi isə 1 milyard 681,1 milyon manat artaraq 4 milyard 182,2 milyon manat təşkil etmişdir.

Göründüyü kimi, 2022-ci il ərzində həm daxili, həm də beynəlxalq iqtisadi-siyasi konyuktur Azərbaycan üçün, əsasən, əlverişli olmuş, icmal büdcənin səmərəli icrası üçün lazımi şərait formalaşdırmışdır.

İndi isə gəlirlər haqqında. Dövlət büdcəsinin əsas parametrlərinə keçsək, 2022-ci ildə dövlət büdcəsinin gəlirləri 29 milyard 197,8 milyon manat proqnoza qarşı 30 milyard 679,6 milyon manat təşkil etmişdir. Gəlirlər proqnozla müqayisədə 1 milyard 481,8 milyon manat çox olmuşdur.

Dövlət büdcəsi gəlirlərinin tərkibində qeyri-neft sektoru üzrə daxilolmalar 15 milyard 350 milyon manat təşkil etmişdir ki, bu da proqnozdan 1 milyard 689,7 milyon manat və ya 12,4 faiz çox olmuşdur. Qeyri-neft sektoru üzrə büdcə gəlirlərinin artması onun dövlət büdcəsinin ümumi gəlirlərində xüsusi çəkisini nəzərdə tutulmuş 47 faizdən 50 faizə qədər artırmışdır.

Hesabat ilində dövlət büdcəsinin neft sektoru üzrə daxilolmaları 15 milyard 329,6 milyon manat olmuşdur ki, bu da proqnozdan 145,2 milyon manat az olmuşdur. Neft sektoru üzrə büdcə gəlirlərinin dövlət büdcəsinin ümumi gəlirlərində xüsusi çəkisi nəzərdə tutulmuş 53 faizdən 50 faizə qədər azalmışdır.

2022-ci ildə vergi orqanları xətti ilə dövlət büdcəsinə daxilolmalar 15 milyard 543 milyon manat olmuşdur ki, bu da proqnozdan 3 milyard 803,2 milyon manat çoxdur. Qeyd etmək istərdim ki, proqnozdan artıq daxil olan bu 3,8 milyard manatın 3,4 milyard manatı neft sektorundan vergi daxilolmalarının artması hesabına baş vermişdir.

Neftin qiymətinin təsdiq edilmiş göstəricidən 21,9 faiz, təbii qazın qiymətinin isə 2 dəfə çox olması bu sahələrdən vergi daxilolmalarını artırmışdır. Eyni zamanda, iqtisadiyyatın sektorları üzrə inflyasiya hesabına dövriyyələrin artması da vergi daxilolmalarının artımına səbəb olmuşdur.

Dövlət büdcəsinə daxil olan vergilərin 52,3 faizi, yəni 8 milyard 136 milyon manatı qeyri-neft sektorunun, 47,7 faizi isə neft sektorunun payına düşür. Eyni zamanda, vurğulamaq istərdim ki, 2022-ci ildə vergi orqanları xətti ilə 495,9 milyon manat artıq ödənilmiş vergi də geri qaytarılmışdır.

Dövlət Gömrük Komitəsinin xətti ilə dövlət büdcəsinə daxilolmalar isə 5 milyard 654,6 milyon olmuşdur ki, bu da proqnozdan 1 milyard 49,6 milyon manat çox olmuşdur. Artıma səbəb, əsasən, idxalın həcminin 24,2 faiz artması ilə izah olunur.

Büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar isə 834 milyon manat proqnoza qarşı 804 milyon manat, yəni 29,9 milyon manat az təşkil etmişdir.

Dövlət Neft Fondundan dövlət büdcəsinə transferin məbləği 11 milyard 517,5 milyon manat proqnoza qarşı 3 milyard 594,5 milyon manat azaldılaraq, yəni 7 milyard 923 milyon manat həcmində icra edilmişdir. Qeyd edim ki, bu göstərici son 5 ilin ən aşağı göstəricisidir, büdcə gəlirlərinin artması nəticəsində nail olunmuşdur.

Səhmlərində dövlətin payı olan müəssisələrdən alınan dividentlərin həcmi 130,7 milyon manat təşkil etmişdir. Eyni zamanda, qeyd etmək istərdim ki, dövlət maliyyə nəzarəti tədbirləri nəticəsində, ümumilikdə, 2022-ci ildə 60 milyon manatdan çox vəsait dövlət büdcəsinə bərpa olunmuşdur.

Xərclər haqqında. 2022-ci il dövlət büdcəsində təsdiq

olunmuş 32 milyard 303,8 milyon xərcin 99,3 faizi icra olunmuşdur. Qeyd edim ki, bu icra faizi son on ilin ən yüksək icra faizidir. Strukturuna görə, xərclərin 55,3 faizi cari xərclər, 39,1 faizi əsaslı xərclər, 5,6 faizi isə dövlət borcuna və öhdəliklərinə xidmətlə bağlı xərclər təşkil etmişdir.

Sosialyönümlü xərclər 2022-ci ilin dövlət büdcəsinin icrasında xərclərin 36,1 faizi və ya 11 milyard 576,9 milyon manat həcmində olmuşdur. Ümumiyyətlə, son 5 ildə sosialyönümlü xərclərin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 4,4 faiz artaraq və ya mütləq ifadədə 4 milyard 380,4 milyon manat və ya 1,6 dəfə artmışdır.

Sosialyönümlü xərclərə aid olan əməyin ödənişi xərclərinə 7 milyard 465,7 milyon manat, sosial ödənişlər üzrə xərclərə 3 milyard 550,7 milyon manat, ərzaq məhsullarının alınması və təminatı üzrə xərclərə 466,5 milyon manat, dərman, sarğı ləvazimatlarının və materiallarının alınması xərclərinə 94,1 milyon manat vəsait xərclənmişdir.

2022-ci ildə 3 pilot sektorda "Təhsil", "Kənd təsərrüfatı" və "Ətraf mühitin mühafizəsi" ortamüddətli xərclər çərçivəsinin tətbiqi və nəticə əsaslı büdcə mexanizminə keçid istiqamətində tədbirlər çərçivəsində təhsil bölməsinə orta müddət üçün 31 strateji hədəfin icrası məqsədi ilə 17 proqramın, 25 subproqramın və 111 tədbirin həyata keçirilməsi üçün 3 milyard 696,5 milyon manat vəsait yönəldilmişdir.

Kənd təsərrüfatı bölməsinə orta müddət üçün 12 strateji hədəfin icrası məqsədi ilə 5 proqramın, 15 subproqramın və 29 tədbirin həyata keçirilməsi üçün 920,1 milyon manat vəsait yönəldilmişdir.

Ətraf mühitin mühafizəsi bölməsinə isə orta müddət üçün 6 strateji hədəfin icrası məqsədi ilə 4 proqramın, 10 sub-

proqramın və 31 tədbirin həyata keçirilməsi üçün 281,6 milyon manat vəsait keçirilmişdir. Ümumiyyətlə, nəticə əsaslı büdcənin tətbiqi məqsədi ilə yönəldilən vəsaitlər dövlət büdcəsi xərclərinin 15,3 faizini təşkil etmişdir.

2022-ci ildə dövlət büdcəsindən səhiyyə xərclərinə ayrılmış 1 milyard 428,5 milyon manat vəsaitin 1 milyard 417,9 milyon manatı və ya 99,3 faizi icra olunmuşdur. Hesabat ilində səhiyyə xərcləri ümumi daxili məhsulun 1,1 faizini, dövlət büdcəsi xərclərinin isə 4,4 faizini təşkil etmişdir.

İcra edilmiş səhiyyə xərclərinin 79,2 faizi və ya 1 milyard 122,6 milyon manatı İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin payına düşmüşdür.

Dövlət büdcəsindən təhsil üçün ayrılmış 3 milyard 732,6 milyon manatın 99 faizi icra olunmuşdur. Hesabat ilində təhsil xərcləri ümumi daxili məhsulun 2,8 faizini, dövlət büdcəsi xərclərinin isə 11,5 faizini təşkil etmişdir. İcra edilmiş bu xərclər hesabına dövlət sifarişi üzrə bakalavriat səviyyəsi üzrə 85 min 348 nəfərin, magistratura səviyyəsi üzrə 7 min 512 nəfərin, rezidentura səviyyəsi üzrə 1468 nəfərin, doktorantura səviyyəsi üzrə 658 nəfərin təhsil və təqaüd xərcləri dövlət büdcəsi tərəfindən ödənmişdir. Eyni zamanda, məcburi köçkün statuslu 12 min 799 nəfərin, şəhid və əlil olmuş şəxslərin uşaqları olan 1863 nəfərin, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş 745 nəfərin təhsil və bütün təqaüd xərcləri dövlət büdcəsindən ödənmişdir. 2022-ci ildə elm üçün ayrılmış xərclər 167,8 milyon manat həcmində icra olunmuşdur.

Hesabat ilində Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin balanslaşdırılması məqsədi ilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsinə 1 milyard 132 milyon manat vəsait yönəldilmişdir.

Ölkənin müdafiə potensialının gücləndirilməsi və silahlı qüvvələrin maddi-texniki təminatının daha da yaxşılaşdırılması məqsədi ilə 2022-ci ildə müdafiə və milli təhlükəsizlik sahəsinə dövlət büdcəsi xərclərinin 17,5 faizi həcmində və ya 5 milyard 622,5 milyon manat vəsait yönəldilmişdir.

Hesabat ilində ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə 540 milyon manat, meliorasiya tədbirlərinin maliyyə təminatı üçün 413,9 milyon manat vəsaitin dövlət büdcəsindən icrası təmin olunmuşdur.

2022-ci ildə 42 publik şəxsə dövlət sifarişi əsasında bir sıra iş və xidmətlərin həyata keçirilməsi üçün dövlət büdcəsindən 319,6 milyon manat vəsait ödənilmişdir.

İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün 2022-ci ilin dövlət büdcəsindən cəmi 4 milyard 311 milyon manat vəsait ayrılmışdır. Həmin vəsaitin 4 milyard 70,9 milyon manatı infrastruktur təyinatlı layihələrin tikintisinə, yenidən qurulmasına, 99,9 milyon manatı ərazilərin minalardan təmizlənməsinə, 60,9 milyon manatı müdafiə və hüquq mühafizə təyinatlı obyektlərin tikintisinə və təmirinə, 54,5 milyon manatı sosial təyinatlı obyektlərin – təhsil, səhiyyə, mədəniyyət və bu kimi sosial obyektlərin tikintisinə,  24,8 milyon manatı isə digər tədbirlərə xərclənmişdir.

Hesabat ilində 76 diplomatik nümayəndəlik və konsulluqların saxlanılması və onların fəaliyyəti ilə bağlı digər xərclər üçün 122 milyon manat vəsaitin icrası təmin olunmuşdur. 2022-ci ilin dövlət büdcəsi xərclərinin 47,8 faizi dövlət proqramlarının və məqsədli tədbirlərin təminatına yönəldilmişdir.

Hesabat ilində "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın icrası üçün büd-

cədən 2 milyard 418,7 milyon manat vəsait yönəldilmişdir.

2022-ci ildə dövlət büdcəsinin yerli gəlirləri 1 milyard 30,2 milyon manat proqnoza qarşı 1 milyard 113,9 milyon manat, xərcləri isə 1 milyard 70,1 milyon manat proqnoza qarşı 1 milyard 13,5 milyon manat və ya 94,7 faiz olmuşdur.

2022-ci il üçün iqtisadi təsnifat üzrə təsdiq olunmuş dövlət büdcəsi xərcləri arasında aparılmış dəyişikliklər və əvvəlcədən proqnozlaşdırılması mümkün olmayan bəzi zəruri xərclərin maliyyə təminatı üçün bəzi xərclərin icrası zamanı istifadə olunmamış vəsait hesabına dövlət büdcəsinin ehtiyat fonduna əlavə 1 milyard 349 milyon manat vəsait yönəldilmiş və dövlət büdcəsinin ehtiyat fondundan, ümumilikdə, 1 milyard 457,9 milyon manat məbləğində vəsait istifadə olunmuşdur. Bu, dövlət büdcəsinin gəlirlər üzrə proqnoz göstəricisinin 4,99 faizini təşkil etmişdir.

2022-ci il dövlət büdcəsi kəsirinin yuxarı həddi 3 milyard 106 milyon manat məbləğində təsdiq olunsa da, faktiki kəsir 1 milyard 385 milyon manat təşkil etmişdir. Büdcə kəsiri 2022-ci ilin faktiki ÜDM-in 1 faizini təşkil etməklə proqnozlaşdırılmış həddən 2,8 faiz bənd az olmuşdur.

Kəsirin maliyyələşdirilməsi imzalanmış layihələr üzrə xaricdən cəlb edilən kreditlər 259 milyon manat, daxili və xarici borclanma 976 milyon manat, dövlət əmlakının özəlləşdirilməsindən daxil olan vəsait 115 milyon manat və vahid xəzinə hesabının qalığı 33 milyon manat hesabına həyata keçirilmişdir.

2022-ci il icmal büdcənin gəlirləri 36 milyard 760,9 milyon manat proqnoza qarşı 6 milyard 336,7 milyon manat və ya 17,2 faiz çox icra olunmuşdur. İcmal büdcənin xərc-

ləri isə 35 milyard 640,9 milyon manat proqnoza qarşı 98,4 faiz az icra edilmişdir.

Hörmətli həmkarlar, 2022-ci il üçün dövlət büdcəsi layihəsi qəbul edilərkən həmin il üçün büdcə-vergi siyasətinin hədəfləri müəyyən olunmuşdu. Gəlirlər üzrə hədəflər, əsasən, iqtisadiyyatın neft sektorundan asılılığın azaldılması, qeyri-neft gəlirlərinin artırılması, qeyri-neft ixracının artırılması, kölgə iqtisadiyyatının səviyyəsinin azaldılması, nağdsız hesablaşmaların artırılması, dövlət əmlakının özəlləşməsinin genişləndirilməsi hesabına büdcə daxilolmalarının artırılmasını əhatə edirdi.

Xərclər üzrə hədəflər isə, əsasən, sosialyönümlü xərclərin, səhiyyə xərclərinin maliyyələşməsi, işğaldan azad olunan ərazilərdə bərpa-quruculuq işlərinin aparılması, ərzaq təhlükəsizliyinin təmin edilməsi, əhalinin mənzil şəraitinin yaxşılaşması, müdafiə və təhlükəsizlik tədbirlərinin görülməsi üçün lazımi maliyyə təminatının təmin edilməsini əhatə edirdi. Aparılan müzakirələr və təhlillər 2022-ci ilin dövlət büdcəsinin icrasının bu hədəflərə əsasən nail olduğunu deməyə imkan verir.

Eyni zamanda, qeyd etmək istərdim ki, təqdim olunan hər bir hesabat həm də gələcək fəaliyyətin təkmilləşməsi baxımından da vacib əhəmiyyət daşıyır. Layihənin, hesabatın və Hesablama Palatasının rəyinin komitədə geniş müzakirəsi zamanı dövlət büdcəsinin icrası prosesində gələcəkdə bir çox təkmilləşmənin aparılması zərurətini ortaya çıxarmışdır. Qanunvericilik aktlarında və dövlət orqanlarının maliyyə davranışlarında aparılması zəruri olan təkmilləşmələr iqtisadi siyasətin hədəflərinə daha səmərəli şəkildə çatmasına imkan yarada bilər. Son illərin təhlili göstərir ki, bu istiqamətdə xeyli işlər də görülməkdədir.

Hesab edirik ki, büdcə gəlir və xərclərinin daha dəqiq

planlaşdırılması və daha səmərəli icrası üçün mövcud qanunvericilik bazasının təkmilləşməsinə və ya yeni, daha çevik maliyyə alətlərinin yaradılmasına, maliyyə intizamının daha da gücləndirilməsinə, büdcə təşkilatlarının planlaşdırma və hesabatlılıq davranışlarının təkmilləşdirilməsinə və bu məqsədlə xətalara imkan verməyən texniki həllərin tətbiqinə ehtiyac vardır. Xüsusilə də büdcə xərclərinin icrasının səmərəlilik və nəticəlilik əsasında qiymətləndirilməsi, gəlirlərin isə potensiala daha yaxın planlaşdırılması üçün yeni yanaşmalara ehtiyac vardır. Artıq getdikcə tez-tez böhran hallarının baş verməsi, gözlənilməz çağırışların yaranması dövlət büdcəsinə yanaşmada çeviklik və elastiklik tələb etsə də, maliyyə intizamının möhkəmlənməsi zərurəti klassik yanaşmalardan innovativ yanaşmalara, nəticəyönümlü davranışa keçidi sürətləndirməyi bizdən tələb edir.

Hörmətli xanım sədr, hörmətli həmkarlar! Yekun olaraq İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi hesab edir ki, 2022-ci il üçün dövlət büdcəsinin icrası möhtərəm Prezident cənab İlham Əliyev tərəfindən müəyyən edilən əsas dövlət və sosial vəzifələrin həyata keçirilməsi, o cümlədən işğaldan azad edilmiş ərazilərdə bərpa və quruculuq işlərinin icrası, əhalinin sosial müdafiəsinin daha da yaxşılaşdırılması, ölkədə makroiqtisadi sabitliyin qorunması, iqtisadi subyektlərin dəstəklənməsi, müdafiə və təhlükəsizlik tədbirlərinin görülməsi üçün lazımi maliyyə təminatı yaratmış və öz müsbət rolunu oynamışdır. Qanun layihəsinə komitənin rəyi müsbətdir.

Bütün bunları nəzərə alaraq Azərbaycan Respublikasının Prezidenti tərəfindən təqdim olunmuş 2022-ci il dövlət büdcəsinin icrası layihəsini dəstəkləməyinizi xahiş edirəm. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, Hesablama Palatasının qanun layihəsi haqqında rəyi var və həmin rəy sizə paylanıb. İndi isə bu barədə məlumat vermək üçün mən Hesablama Palatasının sədri hörmətli Vüqar Gülməmmədova söz verirəm. Vüqar müəllim, buyurun.

**V.Gülməmmədov,** *Azərbaycan Respublikası Hesablama Palatasının sədri.*

Hörmətli Sahibə xanım, hörmətli millət vəkilləri, hörmətli mərkəzi icra hakimiyyəti orqanlarının rəhbər və məsul əməkdaşları, hörmətli iclas iştirakçıları! 2022-ci il dövlət büdcəsinin icrasına dair Milli Məclisə daxil olmuş illik hesabata və qanun layihəsinə Hesablama Palatası tərəfindən rəy hazırlanaraq müvafiq qaydada təqdim edilmişdir. Birinci oxunuş olduğu üçün təqdim etdiyimiz rəy barədə makro yanaşmaları diqqətinizə çatdırmaq istərdim. Bildirmək istəyirəm ki, hesabat ilində tərəfimizdən dövlət büdcəsinin gəlir və xərcləri aidiyyəti qurumların məlumatları əsasında üzləşdirilmişdir. Dövlət büdcəsinin gəlirlərinin icrasını təmin edən qurumların təqdim etdiyi hesabatlara əsasən 2022-ci ildə 29,3 milyard manat təhlillə əhatə edilmişdir ki, bu da dövlət büdcəsinin ümumi gəlirlərinin 95,4 faizinə bərabər olmuşdur. Dövlət Vergi Xidməti və Dövlət Gömrük Komitəsi xətti ilə təmin edilən gəlirlər, Dövlət Neft Fondundan transferlər, səhmlərdə dövlətin payı olan müəssisələrdən alınan dividentlər, dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar üzrə qurumlardan alınmış hesabatların qanun layihəsində və illik hesabatda əks etdirilmiş göstəricilərə uyğunluq təşkil etdiyi qənaətinə gəlinmişdir. Eyni zamanda, rəyin tərtib edilməsi zamanı xərcləri icra edən 134 qurum üzrə 24,9 milyard manatı əhatə edən və vəsaitlərin icrasını təsdiq edən sənədlər nəzərdən keçirilmişdir ki, bu da icra edilmiş

dövlət büdcə xərclərinin 77,6 faizini təşkil edir. Qeyd edək ki, təhlilin əhatə dairəsi əvvəlki ilə nəzərən 6 milyard manat və ya 8,3 faiz bənd artmışdır. Qurumlar tərəfindən büdcə vəsaitlərinin icrası ilə bağlı təqdim olunan hesabatların müvafiq icra hakimiyyəti orqanının hesabatları ilə müqayisəsi nəticəsində əhəmiyyətli sayıla biləcək məsələlər müəyyən edilməmişdir.

Təqdim edilən sənədlərin və qanun layihəsinin büdcə sistemi haqqında Azərbaycan Respublikasının qanunauyğunluğu rəydə araşdırılmışdır. Araşdırma 3 aspekti əhatə etmişdir. Birinci, il ərzində dövlət büdcəsinin icrası ilə bağlı təqdim olunan məlumatların "Büdcə sistemi haqqında" Qanunun 18-ci və 20-ci maddələrinə, ikinci, qanun layihəsinin "Büdcə sistemi haqqında" Qanunun 20.6-cı maddəsinə, üçüncü, illik hesabatın "Büdcə sistemi haqqında" Qanunun 20.3-cü maddəsinə uyğunluğu. Hesablama Palatası belə qənaətə gəlir ki, Azərbaycan Respublikası Milli Məclisinə təqdim edilmiş Azərbaycan Respublikasının 2022-ci ilin dövlət büdcəsinin icrası haqqında Azərbaycan Respublikasının qanun layihəsi və Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin icrasına dair illik hesabat qanunvericiliyin müvafiq tələblərinə uyğun hazırlanmış və təqdim olunmuşdur.

Hörmətli millət vəkilləri, 2022-ci il büdcəsinin icrası ilə bağlı, əsasən, aşağıdakı qeyd və təklifləri təqdim etmək istərdim. Dövlət büdcəsi cəmiyyət qarşısında duran sosial-iqtisadi problemlərin həlli baxımından dövlətin bir il ərzində gördüyü işlərin maliyyə ifadəsində nəticəsidir. Bu gün biz problemlərin həlli zamanı dövlət büdcəsindən istifadəni və mümkün nəticələri müzakirə etməyə və qiymətləndirməyə çalışacağıq. Dövlət maliyyəsinin idarə edilməsi, ilk növbədə, dövlətin fondlarından faydalanan

hər bir subyektin məsuliyyətinin yüksəldilməsinə hədəflənməlidir. Ali audit orqanı olaraq Hesablama Palatası parlamentlə birlikdə bu təşkilatların xərclədiyi vəsaitlər üzərində büdcə nəzarətini həyata keçirir. Nəzarətin səmərəli olması isə ilk növbədə büdcə sənədləşməsinin keyfiyyətli olmasından asılıdır. 2022-ci il dövlət büdcəsinin icrası ilə bağlı təqdim olunan sənədlərin siyahısı əvvəlki illərlə müqayisədə nisbətən artırılmış, izahat və məlumatların keyfiyyətinin yüksəldilməsi istiqamətində mühüm addımlar atılmışdır. Məlumatlılığın artırılması fonunda mövcud qanunvericilik, qabaqcıl təcrübə, həmçinin qarşıdakı dövr üçün bəyan edilən hədəflər nəzərə alınmaqla Hesablama Palatası büdcə zərfində bir sıra məsələlər üzrə dəyişikliklərin zəruri olduğu qənaətindədir. Belə ki, büdcə vergi siyasətinin icrasının nəticələrinin konkret tədbirlər və kəmiyyət hədəfləri şəklində, vergi güzəştlərinin səmərəliliyinin müqayisəli qiymətləndirilməsi, dayanıqlı inkişaf məqsədlərinə yönəldilən vəsaitlər və uzlaşma barədə məlumatların büdcə sənədləşməsinə daxil edilməsi, bir tərəfdən fiskal siyasətin icrasının nəticəliliyinin ölçülməsinə, digər tərəfdən beynəlxalq qiymətləndirmələrdə mövqeyimizə müsbət təsir edər.

Ötən il icra edilən ölkənin əsas maliyyə sənədi xarakterinə görə, əvvəlki sənədlərdən yeni məsuliyyət normalarının icrası baxımından fərqlənir. Bu, ilk növbədə cənab Prezidentin tapşırığı ilə işğaldan azad edilən torpaqların yenidən qurulması, həmçinin 2022-ci ildə ölkənin sosial-iqtisadi inkişaf strategiyasının ilk ilinin icrasının maliyyə qaynağının dövlət büdcəsi ilə bağlı olması ilə əlaqədardır. Bu, xarakter və hədəflər baxımından yeni sənəd hesab olunur. İlk dəfədir ki, strateji sənədin maliyyətutumluluğu açıq şəklidə müəyyən edilmişdir.

Hesabat ilində fiskal çərçivənin lövbəri olan büdcə qaydasına da əməl edilmişdir. Belə ki, 2022-ci ilin sonuna büdcə qaydasının birinci göstəricisi icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbəti, eləcə də digər göstərici – dövlət borcunun ümumi daxili məhsulla nisbəti gözlənilən hədəf çərçivəsindədir. Qeyd etməliyəm ki, neftin qiymətinin yüksək olması nəticəsində xərclənmiş dövlət büdcəsinin neft gəlirləri, əvvəlki ilə nisbətən 13,2 faiz artaraq 15,3 milyard manata çatsa da, cəmi gəlirlərdə payı 1,3 faiz bənd azalmışdır.

Hörmətli millət vəkilləri, həm komitə, həm də plenar iclasda dövlət büdcəsinin gəlir və xərclərinin icra vəziyyəti barədə ətraflı məlumat verilmişdir. Fiskal sahəyə dair bəzi məqamlar üzərində xüsusi dayanmaq istərdim. İlk olaraq gəlirlərin təhlili barədə. Təbii resurslarla zəngin ölkələrdə dövlət büdcəsinin makrodiaqnostikası üçün vacib nisbətlərdən hesab edilən, cari xərc, qeyri-neft gəlir-ləri barədə. 2022-ci ildə qeyri-neft-qaz iqtisadiyyatının və qeyri-neft gəlirlərinin əhəmiyyətli artımı fonunda cari xərclərin qeyri-neft-qaz sektoru hesabına təminolunma göstəricisi üzrə müsbət meyillər izlənmişdir. Bu, eyni zamanda, cari xərclərin il ərzində 2,5 milyard manat həcmində azalması hesabına da təsir etmişdir. Aparılan təhlillər əsasında 2022-ci ildə cari xərclərin qeyri-neft-qaz gəlirləri ilə təminolunma səviyyəsinin əvvəlki illə müqayisədə 9 faiz bənd artdığını göstərir. Belə ki, qeyri-neft gəlirləri 15,4 milyard manat olmaqla cari xərclərin 86,5 faizini təşkil edir. Qeyd olunan artım dinamikası qeyri-neft-qaz gəlirlərinin müdafiə olunan xərc nisbəti də qeydə alınmışdır. Müdafiə olunan xərclərin təminolunma səviyyəsi əvvəlki illə müqayisədə 12,1 faiz artaraq 119,8 faiz təşkil etmişdir.

Fiskal sahəni tənzimləyən qanunvericiliyin tələbləri əsas götürülməklə hesabat ilində eyni gəlirin iki dəfə tanınması ilə bağlı büdcənin gəlir parametri artırılmışdır. Belə ki, əvvəlki illərdə gəlir kimi tanınmış təqribən 500 milyon manat hesabat ilinin büdcəsində yenidən gəlir kimi əks etdirilmişdir. Dövlət maliyyəsi ilə bağlı qabaqcıl təcrübədə aidiyyəti məbləğlərin gəlir kimi tanınmasına yol verilmir. Belə ki, dövlət maliyyə statistikası təlimatına əsasən gəlir kimi yalnız xalis dəyər artımı nəzərə alınmalı, başqa sözlə, bu, aktivlərdə artım və ya öhdəliklərdə azalma ilə nəticələnməlidir. Hesab edirik ki, "Büdcə sistemi haqqında" Qanunun 5.4-cü maddəsində və digər hüquqi aktların müvafiq tənzimləmələrində dəyişiklik aparılmalıdır.

2022-ci ilin dövlət büdcəsində səhmləri dövlətin payı olan müəssisələrdən alınan dividentlər üzrə daxilolmalar 106,5 milyon manat proqnozlaşdırılmış, icra isə 130,7 milyon manat təşkil etmişdir. Proqnozun artıq icra edilməsinə baxmayaraq, bəzi müəssisələr tərəfindən dövrün sonuna xalis mənfəətin əldə edilməsi fonunda bu mədaxil mənbəyi üzrə daxilolma nəzərdə tutulmamış və icra da edilməmişdir. Ümumiyyətlə, bu mənbə üzrə mövcud potensialın daha səmərəli istifadəsi və proqnozlaşdırılmış dividentlərin ödənilməsində mümkün risklərin minimuma endirilməsi məqsədi ilə səhmlərdə dövlətin payı olan müəssisələrin idarəetmə orqanları ilə birlikdə təhlillərin aparılmasını məqsədəuyğun hesab edirik. Eyni zamanda, ödənilən və ödənilməli olan dividentlərin əldə olunan mənfəətə mütənasibliyini təmin etmək üçün reqlamentləşdirilmiş divident siyasətinə də ehtiyac olduğunu bildirməliyəm.

Xərclər barədə. 2022-ci ildə dövlət büdcəsində icra edilmiş xərclər əvvəlki ilə nisbətən artmışdır. İl ərzində

qanunvericiliyə istinad etməklə xərclər üzrə aparılmış dəyişikliklər ötən illə müqayisədə artmış, bu dəyişikliklər büdcənin icrasına da təsir göstərmişdir. 2022-ci ildə dövlət büdcəsinin kassa icrasının əhatəsinə daxil olan vəsaitlərin bir hissəsi bu anlayışın mahiyyəti ilə bəzi hallarda tam eynilik təşkil etmir. Belə ki, kassa icrası ünvanlı istifadəni ehtiva edir ki, bəzi hallarda dövlət xəzinədarlığı vasitəsi ilə icra edilmiş, lakin istifadə olunmamış, bank hesablarında qalmış, ünvana çatmamış vəsaitin icra hesabatında əks etdirilməsi ilə bağlı müəyyən suallar yaranır. Ümumiyyətlə, apardığımız araşdırmalar, kassa icra və dövlət büdcəsinin icrası anlayışlarının bəzi hallarda fərqli şərh edildiyini də göstərir.

2022-ci ildə, ümumilikdə, ölkədə 12 min 102 sayda satınalma tətbiq edilməklə 6,8 milyard manat məbləğində satınalma müqavilələri, “Dövlət satınalmaları haqqında” Qanunla müəyyən edilmiş metodlar tətbiq edilməklə bağlanmışdır. Bu da 2021-ci ilin analoji göstəricisi ilə müqayisədə təqribən 767,5 milyon manat çoxdur. 2022-ci ildə satınalmalar arasında say baxımından bir mənbədən satınalma metodu, məbləğ baxımından açıq tender üstünlük təşkil etmişdir. Nəzarət tədbirləri göstərir ki, bəzi xərclərin satınalma keçirilmədən icra edilməsi, xərc əməliyyatlarının xəzinə müşayiəti ilə aparılmaması və bir mənbədən satınalma metodunun tətbiqi ilə bağlı qeydiyyat uçotunun tam olmaması satınalmaların dövlət büdcə xərclərində xüsusi çəkisinə təsir etmişdir. Hesablamalar göstərir ki, dördüncü rübdə keçirilən satınalmalar ilin birinci yarısı həcmindədir. Qeyd olunan hallar dövlət satınalmalarının planlaşmasında və metodlarının təkmilləşməsində müvafiq dəyişikliklərin aparılması zərurətini bir daha göstərir.

Debitor borclar, onların yaranma səbəbləri, uçotu və riskləri komitə iclasında ətraflı müzakirə edildi. Lakin biz kreditor borclar barədə də ilk dəfə olaraq danışmaq istərdik. Fiskal diaqnostika alətlərinin tələblərində xərclər üzrə kreditor borcların uçotunun aparılması, həmin borcların məbləğinin müəyyən həddən aşağı olması və onların monitorinqinin vacibliyi vurğulanıb. Nəzarət tədbirləri göstərir ki, bir sıra qurumlar üzrə kreditor borclarının olmasına baxmayaraq, onlar tərəfindən həmin borclar büdcə və maliyyə hesabatlarında tam əks etdirilməmişdir. Cari ildə Hesablama Palatası tərəfindən mövcud vəziyyəti düzgün qiymətləndirmək üçün illik konsolidə edilmiş maliyyə hesabatları üzərindən kreditor borcların araşdırılması planlaşdırılır.

2022-ci il dövlət əsaslı vəsait qoyuluşlu xərclər 3,3 milyard manat nəzərdə tutulmuş, 99,8 faiz səviyyəsində icra edilmişdir. Dövlət əsaslı vəsait qoyuluşu üçün nəzərdə tutulan vəsaitin bölgüsünə daxil edilmiş 507 layihənin 332-si keçid, 175-i isə yeni layihələr olmuşdur. Bu layihələrin, yəni 332 keçid layihəsinin icrasına 2,7 milyard manat, 175 yeni layihəyə isə 572 milyon manat vəsait yönəldilmişdir. 2022-ci ildə başa çatdırılması nəzərdə tutulan, lakin istifadəyə verilməyən 10 layihəyə 39,7 milyon manat vəsait xərclənmişdir.

Nəzarət tədbirlərinin nəticələri, dövlət büdcəsinin vəsaitləri və ya dövlət müəssisələrinin vəsaiti hesabına əsaslı vəsait qoyuluşu məzmunlu, yəni kapitallaşdırılan xərclərin icrası çərçivəsində texniki iqtisadi əsaslandırma sənədlərinin hazırlanmasında problemlərin mövcudluğunu göstərir. Hesab edirik ki, investisiya xərclərinə intizamlı yanaşma məqsədi ilə tikinti sferasına da yeni mədəniyyətin gətirilməsi vacibdir.

Hesabat ilində 95 istiqamətdə, ümumilikdə, 1,4 milyard manat subsidiya icra edilmişdir ki, bu da icra edilmiş dövlət büdcə xərclərinin 4,4 faizini təşkil edir. Aparılan təhlillər əvvəlki illərdə olduğu kimi, hesabat ilində də dövlət büdcəsindən subsidiya adı altında ayrılan vəsaitin bu anlayışın fəlsəfəsinə tam uyğun olmadığını, bəzi hallarda birbaşa, yaxud dolayı yolla investisiya fəaliyyəti ilə əlaqədar xərc istiqamətlərinə, kreditlərin ödənilməsinə yönəldiyini göstərir. Bu barədə parlament iclaslarında ətraflı müzakirələr aparılmışdır. İnanırıq ki, subsidiyaların verilməsi ilə əlaqədar müvafiq qaydalar qəbul ediləcəkdir. Xatırladım ki, icra orqanlarının da bu məsələyə münasibəti müsbət olmuşdur. Dövlət büdcəsinin icrası barədə illik hesabatda dövlət proqramları və məqsədli tədbirlər üzrə xərclərin əhatə dairəsi əvvəlki illərə nisbətən artırılmışdır. Lakin hələ də proqramlığa dair vahid yanaşmanın formalaşmaması, proqramlığa dair qeyri-maliyyə məlumatlarının yetərli olmaması xərc-nəticə əlaqəsinin ölçülməsinə imkan vermir.

Yeni büdcə modeli ortamüddətli xərclər çərcivəsi. Ortamüddətli xərclər çərçivəsi barədə fikirlərimizi də bölüşmək istərdim. Ortamüddətli xərclər çərçivəsi büdcə innovasiyası olmaqla yanaşı, tətbiqi üçün ciddi şəkildə zaman tələb olunur. Vahid büdcə təsnifatına proqram təsnifatının daxil edilməsi, monitorinq hesabatlarının hazırlanması, bu islahatların genişləndirilməsinə dair bəyan edilən hədəfləri burada müsbət məqamlar kimi qeyd edə bilərik. Araşdırmalar bu sahədə hələ də həllini tapmayan bəzi məsələlərin olduğunu göstərir. Qanunvericilikdəki boşluqların aradan qaldırılması və əlavələrin edilməsi, sahə nazirlikləri üzrə strateji idarəetmənin gücləndirilməsi, yeni modeldə ənənəvi büdcəyə xas olan ehtiyatların

minimallaşdırılması, indikatorların sayının optimallaşdırılması, hesabatlılığın təkmilləşməsi kimi çağırışların diqqətdə saxlanılması bu istiqamətdə çatışmazlıqların aradan qaldırılmasına töhfə verə bilər.

Hörmətli millət vəkilləri! Hesablama Palatası rəydə dövlət büdcəsinin gəlirləri, xərcləri və dövlət büdcəsinin kəsiri ilə bağlı qeyd olunmuş məqamlar da nəzərə alınmaqla qanun layihəsinə və dövlət büdcəsinin icrasına dair illik hesabata baxılmasını tövsiyə edir. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Vüqar müəllim. Hörməti həmkarlar, qanun layihəsinin müzakirəsinə başlayırıq. Xahiş edirəm, kim çıxış etmək istəyirsə, yazılsın. Yazılanlara siyahı üzrə söz verəcəyəm. Təklif var, 5 dəqiqə olsun. Narazılığınız yoxdur?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** 5 dəqiqə olacaq. Qüdrət Həsənquliyev. Buyurun, Qüdrət müəllim.

**Q.Həsənquliyev.** Təşəkkür edirəm. Hörmətli sədr, həmkarlar, qonaqlar, media nümayəndələri! Biz Tahir Mirkişilinin və Vüqar Gülməmmədovun çıxışlarını dinlədik. Həmin çıxışlarda qeyd olunan nöqsanlar, çatışmazlıqlar qanun layihəsi və Hesablama Palatasının ona dair rəyi ilə tanış olanda, tanış olmasan belə, gündəlik rastlaşdıqlarımız, daxil olan informasiyalar təsdiq edir ki, ölkəmizdə maliyyə intizamının gücləndirilməsinə ciddi ehtiyac var. Büdcə vəsaitlərinin xərclənməsində qanunvericiliyə ciddi əməl olunmaması, şəffaflığın yetərincə olmadığı göz önündədir. Konstitusiyanın 95-ci maddəsinin 5-ci bəndinə görə, Milli Məclis dövlət büdcəsini təsdiq edir, onun icrasına nəzarəti həyata keçirir. Biz Hesablama Palatasını yaratmaqla, Hesablama Palatası və Nazirlər

Kabinetinin hesabatlarını dinləyib qənaətbəxş hesab etməklə öz işimizi bitmiş, nəzarət funksiyamızı yerinə yetirmiş olduğumuzu düşünürük. Milli Məclis Hesablama Palatasının rəyində, deputatların çıxışlarında göstərilən nöqsanların aradan qaldırılmasına və növbəti büdcə ilinə qədər Milli Məclisə məlumat verilməsinə dair qərarlar qəbul etməlidir. Müvafiq komitə bu tipli qərar layihələri hazırlamalıdır. Milli Məclisin nəzarət funksiyasının ölkəmiz üçün daha faydalı olması naminə Milli Məclisdə daha çox konkret şəxslərə vəzifə verilməsi məqsədi ilə yaradılmış bir çox komitələr birləşdirilməli, əvəzində büdcə və büdcəyə nəzarət komitəsi yaradılmalıdır. Milli Məclis həmin komitə vasitəsi ilə peşəkar səviyyədə birbaşa bu işlə məşğul olmalı, büdcəni icra etməyən vəzifəli şəxslərdən ciddi hesabatlar tələb olunmalı, onlar məsuliyyətə cəlb edilməli, şəffaflığın artırılması üçün qanunvericiliyə dəyişikliklər edilməsi məqsədi ilə ciddi təkliflər hazırlanmalıdır. Biz özümüz də qanunverici orqan kimi qanun yaradıcılığı ilə məşğul olmalı, yalnız hökumətdən qanun layihələri gözləməməliyik.

Bir fakta diqqətinizi cəlb etmək istəyirəm. 2022-ci il üçün sosial müdafiə və sosial təminat üzrə təsdiqlənmiş büdcə 3 milyard 642,6 milyon manat olub. Büdcəyə yenidən baxılması nəticəsində 860 milyon manat da artırılıb ki, ehtiyacı olan insanların sosial müdafiəsi daha yaxşı təşkil olunsun. Buna görə hökumətə təşəkkür etmək olar. Amma büdcə ilkin proqnozdan 178,2 milyon manat az, 3 milyard 464,4 milyon manat səviyyəsində icra olunub. 860 milyon manatın isə bir qəpiyinə də toxunulmayıb. Yəqin investisiya kimi yatırılacaq. Ac insanlar birtəhər dözə bilər, əsas investisiyadır. Axı, biz burada qanunlara dəyişikliyi təsdiq edib, onlara belə bir səlahiyyət verdik.

Bir tərəfdən büdcədən ayrılmış və istifadə olunmayan pullar, digər tərəfdən sosial problemlər ucbatından intihar edən, kömək istəyən müharibə veteranlarının, müharibədə əlil olmuş şəxslərin, şəhid ailələrinin, yoxsul insanların, digər kateqoriyadan olan əlillərin pensiyaları kəsilmiş, ünvanlı sosial yardımdan məhrum edilmiş insanların dövlət orqanları qarşısında ah-nalələrini də görürük. Sosial müdafiəyə ayrılmış pullar xərclənmədiyi halda, ehtiyata gedən zabitlər 5-6 il ev növbəsində gözləyirlər.

Hesablama Palatasının rəyindən görünür ki, bir sıra qurumlar, ümumiyyətlə, hesabatlarını "Büdcə sistemi haqqında" Qanuna zidd olaraq Hesablama Palatasına təqdim etmir. Onların siyahısı rəydə öz əksini tapıb. Bu nə özbaşınalıqdır? Niyə onlar barəsində ölçü götürülmür?

Bundan başqa, bölüşdürülməmiş xərclərin büdcə xərclərinin 12,8 faizini təşkil etməsi də ciddi narahatlıq doğurur. Qabaqcıl təcrübədə bu, 3-6 faiz təşkil edirdi. Subsidiyalar əvəzsiz olaraq müəyyən xərclərin qarşısının alınması üçün ödənilir. Amma 2022-ci ildə "AZAL"a verilən 63,1 milyon manatlıq subsidiyanın 26,4 milyon manatı şirkətin hesabında saxlanılır. Bu, dövlət vəsaiti ilə dost tutmaqdır, proteksionizmdir, yoxsa nədir? Xidmət haqqının çox yüksək olduğu monopolist şirkətə niyə subsidiya verilməlidir ki, o da bu vəsaitləri hesabında saxlasın? Dövlət satınalmaları və sifarişləri zamanı tenderlərin şəffaf keçirilməməsi ictimaiyyətin haqlı narazılığına səbəb olur və bu bizi narahat etməlidir.

Vaxt azdır. Sonda hökumət üzvlərinin burada olmasından istifadə edib bir məsələyə də münasibət bildirmək istəyirəm. Hökumət üzvlərinin Bakı metrosundakı sıxlıqdan, insanlarımızın necə əziyyət çəkməsindən, yəqin ki, xəbəri var. Prezident 2011-ci ildə metronun inkişafına dair

dövlət proqramı qəbul edib. 2011-ci ildən keçən müddət ərzində cəmi iki yeni stansiya istifadəyə verilib. Halbuki metronun konseptual inkişaf sxeminə görə, xətlərin sayının 5-ə, stansiyaların sayının isə 26-dan 70-ə çatdırılması nəzərdə tutulur. 12 il ərzində 2016–2021-ci illərdə cəmi iki stansiya istifadəyə verilməklə biz neçə ilə qarşıya qoyulan məqsədə çata bilərik? İctimai nəqliyyat bərbad vəziyyətdədir. Çox təəssüf ki, vaxtım başa çatdı. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Fazil Mustafa. Buyurun.

**F.Mustafa.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli qonaqlar, millət vəkilləri! Hesab edirəm ki, bu büdcəmizin təqdimatı hər il olduğundan daha fərqli bir dövrə təsadüf edir. Ona görə ki, ən azı bu büdcədə işğaldan azad olunmuş ərazilərə ayrılan 4,3 milyard manat vəsait müşayiət olunur. Bu vəsait hələ situasiyanın dəyişməsinə görə, arta da bilər, müxtəlif dövrlərdə bura əlavə vəsaitlərin də yönəlməsi mümkündür. Bu da lazımdır, çünki işğaldan azad olunmuş ərazilər bizim üçün ən vacib məsələlərdən biridir. Böyük Qayıdış proqramının həyata keçirilməsi də önəmlidir. Bununla yanaşı, həmişə qeyd etdiyimiz kimi, Bakı şəhərində məskunlaşmış və rayonları boşaltmış insanların həmin rayonlara qayıdışı istiqamətində hər hansı bir dövlət proqramını həyata keçirməyi nəzərdə tutmuruq. Elə fikirləşirik, onları, sadəcə, pasport qeydiyyatından çıxartmaqla bəlkə də məsələni həll etmiş oluruq. Amma yerli infrastrukturu təkmilləşdirməklə bunu etmək onların geri dönməsinin, sadəcə, məcburi deyil, stimullaşdırıcı yolu tapmağı hələ də müəyyən edə bilməmişik.

Bu gün işsizliklə bağlı problemin həll olunmaması hələ də bir həyəcan siqnalı qarşımıza qoymaqdadır. Çünki diq-

qət edirsinizsə, büdcədən 233,5 milyon manat işsizliyin aradan qaldırılması üçün, yeni iş yerlərinin açılması üçün sərf edilir. Amma bunun hamısı mənasız xərclərdir. Belə ki, işsizliyi ancaq sahibkarlığı inkişaf etdirməklə qaldırmaq olar. Sahibkara güzəştli kreditlə, aşağı faizli kreditlə pul verə bilmirsənsə, sahibkarlıq inkişaf etməyəcəkdir. Ona görə də bunun üzərində düşünülməlidir. Yoxsa hansı isə dövlət qurumunun əli ilə iş yerlərinin açılması məsələsi o qədər də səmərə vermir. Hətta 2021-ci ildən fərqli olaraq bu vəsait 91 milyon manat artırılıbdır.

Digər tərəfdən bizim təhsil infrastrukturu ilə bağlı məsələdə xeyli nöqsanlarımız var. Təsəvvür edin ki, ümumtəhsil peşə müəssisələrində həyəcan düyməsi ilə bağlı xidmət xərclərinə 3,3 milyon manat vəsait ayrılır. Bundan vacib olan xərclər var. Məktəblərdə yer məsələsi problemdir. 6 günlük dərs cədvəli nəzərdə tutulubdur. Əgər müqayisə etsəniz, həbsxanadan alınan informasiya göstərir ki, 1000 yataq yeri olan sahədə 2000-dən artıq məhbus saxlanılır. Orada da şərait yoxdur. Eyni, paradoksaldır ki, məktəblərdə də 1000 yerlik məktəbdə 2500 şagird təhsil alır. Xeyli belə məktəb var. Layihə tərtib olunub, qəbul olunub, amma yeni korpusun tikilməsi 3-4 ildir, ləngidilir. Lakin məktəbdə bu prosesin ləngiməsi ölkədə müəyyən dərəcədə savadsızlığın inkişafına təsir göstərir.

Psixi pozuntu vəziyyətində olmuş şəxslərə tibbi və sosial yardım göstərilməsi. Narkoloji xəstəliklərə və onun doğurduğu mənfi tibbi sosial nəticələrə ayrılan vəsait 23,9 milyon manatdır. 2022-ci ildən 4,5 milyon manat çox ayrılıb. Məncə, burada narkomaniyaya qarşı mübarizəni ayrıca bir proqramda çox ciddi vəsait ayırmaqla həyata keçirmək lazımdır. İxtisaslaşmış qeyri-hökumət təşkilat-

larının yaranmasını stimullaşdırmaq lazımdır. Ora yüksək səviyyədə vəsait ayrılmalıdır ki, ölkədə bu sahədə fəlakətli, dözülməz vəziyyət yaranıb. Hətta müalicə müəssisəsi yaradılmayıbdır. Həbsxanaya salınan məhbusların böyük əksəriyyəti məhz bu narkotik cinayətlərlə əlaqədar məhkum olunublar və onların orada əlavə problemlər yaratdığı heç kimə sirr deyil. Ona görə də bu məsələ üzərində çox ciddi çalışmalar həyata keçirilməlidir.

Sahibkarlıq subyektləri ilə bağlı ayrılan vəsaitlərin böyük əksəriyyəti çətinliklə əldə olunur. Yəni sahibkarlığın inkişafı fondunun işi sadələşdirilməlidir. Sahibkarlar rahatlıqla vəsait əldə edə bilməlidirlər ki, ayrı-ayrı sahələri inkişaf elətdirsinlər. Biz gördük ki, artıq suvarmadan tutmuş digər kənd təsərrüfatı sahələrinə qədər dövlətin investisiya qoyduğu, vəsait qoyduğu əksər müəssisələr bağlanıb. Burada mütləq təşəbbüskarlıq qaldırmaq lazımdır. Bir də büdcədə yerli özünüidarənin heç bir payı yoxdur. Bələdiyyələrə 10 milyon ayrılır, amma yerli özünüidarəetməni canlandırsaq, bu da dövlət büdcəsinə əlavə vəsaitin daxil olmasına, yükün azalmasına gətirib çıxara bilər.

Problemlər qalır, amma bu problemlərin həlli istiqamətində hələ ki, konkret irəliləmə hiss olunmur. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hicran Hüseynova.

**H.Hüseynova**. Çox sağ olun, xanım sədr. Hörmətli hökumət nümayəndələri, həmkarlar, hörmətli media nümayəndələri. Həmişə olduğu kimi, Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin icrası haqqında Azərbaycan Respublikası qanununun layihəsi və Hesablama Palatasının büdcə icrasına dair illik hesabata rəyi çox yüksək səviyyədə hazırlanmışdır. Belə ki, hesabatda 2022-ci ildə ölkədə formalaşmış makroiqtisadi mühit, dövlət büd-

cəsində nəzərdə tutulmuş gəlir və xərclərin, habelə dövlət proqramlarının işğaldan azad edilmiş ərazilərimizin yenidən qurulması və bərpası üçün ayrılmış vəsaitlərin icrası haqqında və ya digər mühüm məlumatlar öz əksini tapmışdır. Hesabatdan da göründüyü kimi, geosiyasi konfliktlər, tətbiq olunan sanksiyalar fonunda Azərbaycanda iqtisadi artım olmuşdur. Dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə ardıcıl olaraq iqtisadi və sosial islahatlar həyata keçirilir. Aztəminatlı və həssas təbəqədən olan insanların sosial müdafiəsinin güclənməsi üçün nəzərdə tutulan layihələr davam etdirilir.

Mən fürsətdən istifadə edib Azərbaycan Respublikasının 2022-ci ildə dövlət büdcəsinin icrası haqqında qanun layihəsi və Azərbaycan Respublikasının 2022-ci ilin dövlət büdcəsinin icrasına dair illik hesabatı hazırlayan hökumətə və müvafiq dövlət qurumlarına təşəkkür edirəm. Hesabatda həmçinin bir çox istiqamətlər üzrə ayrılmış vəsaitlər haqqında geniş məlumatlar verilmişdir və məişət zorakılığına, insan alverinə, erkən nikaha məruz qalmış şəxslər, sağlamlıq imkanları məhdud olan uşaqlar və onların ailə üzvləri ilə sosial-psixoloji və psixopedaqoji işin təşkili və bu qəbildən olan digər tədbirlərin maliyyə təminatı üçün 2022-ci ilin dövlət büdcəsindən müvafiq dövlət qurumuna 2,1 milyon manat vəsait ayrılmışdır və bu da 2021-ci illə müqayisədə 45,9 faiz çoxdur. Əlbəttə ki, dövlət belə həssas və vacib sahəyə çox böyük diqqət göstərir və bu iş həmişə davamlıdır. Bütövlükdə, mən də qanun layihəsini, hesabatı və Hesablama Palatasının rəyini əhatəli hazırlanmış sənəd hesab edirəm və ona səs verəcəyəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Razi Nurullayev. Buyurun.

**R.Nurullayev**. Hörmətli xanım sədr, hörmətli deputat-

lar, hörmətli hökumət üzvləri! Mən də büdcənin sahibkarlıq bəndi haqqında danışacağam. Hörmətli xanım sədr, bilməyinizi istəyirəm ki, ölkəmiz üçün etdiyinizdən dolayı bir ziyalı xanım kimi mənim Sizə böyük hörmətim var. Baş nazirimizə də böyük hörmətim var. Sizlər – müavinlərimiz də yüksək əxlaqi dəyərlərə, insani keyfiyyətlərə malik ziyalı deputat və məmurlardır. Prezident Administrasiyasında rəhbərlik və cənab Prezidentin ətrafında olanlar Azərbaycanın inkişafı üçün çalışan gözəl ziyalı məmurlardır. Bizim gözəl nazirlərimiz, digər rəhbər vəzifədə işləyən yüksək əxlaqi və məmur keyfiyyətinə malik vəzifəli şəxslərimiz də var. Hörmətli xanım sədr, bütün bunların fonunda görülən işlərə, aparılan siyasətə ləkə salanlar, tutduğu vəzifəyə öz ata-baba obyekti kimi yanaşanlar da var. Xüsusən ölkəyə sərmayə qoymaq istəyənlərin başını tumarlamaq əvəzinə qapaz vuranlar var. Məmurun, vəzifəli şəxsin bir nömrəli vəzifəsi iş adamına şərait yaratmaqdır ki, o da yaradılmır. Bəzən məni qınayırlar ki, niyə “ölkədə azad biznes mühiti yoxdur” deyirsən? Kağız üzərində hər şey yaxşıdır, amma bir iş adamı məmura gəlib çatanda onun cəhənnəm əzabları başlayır. Heç Sovet dönəmində bu qədər get-gəl olmurdu.

Mən hörmətli nazirimiz Mikayıl müəllimin də nəzərinə bəzi məsələləri çatdırmaq istəyirdim. Amma təəssüf ki, danışa bilmədim. Mikayıl müəllimə hörmətim var, həmişə bu hörməti saxlamağa çalışmışam və saxlayacağam. Hörmətli Mikayıl müəllimin bir sıra sahələrdə yaratdığı şəffaflığı və idarəetməni alqışlayıram, amma bu gün vergi güzəştləri lazım deyil, hamısı ləğv olunsun. Vergi güzəştləri deyil, əlverişli biznes mühiti yaratmaq lazımdır. Vergi güzəştləri ayrı-ayrı bizneslərə xidmət edir, biznes mühitini yaxşılaşdırmır. Biznes mühitində dəyər yaratmağa çalış-

dıq. Deyim ki, artıq bəzi şəxslər o dəyərlərdən uzaq düşüb. Bəzi insanlar, hətta qurumlar və onların başında, yanında dayananlar inkişafa deyil, geri dartır və adını da islahat qoyurlar. Hər kəsin gözü önündə birinə bütün şəraitin yaradılması, ondan 10 metr kənarda olana cəhənnəm əzabının yaşadılması məgər islahatdırmı?

Prezident İlham Əliyevin sahibkarlığın inkişafı ilə bağlı verdiyi sərəncamları birbaşa icra edənlər düzgün icra etsə idi, ölkə gül-çiçək olardı. MDB məkanında, bütün regionda sahibkarlığın inkişafı üçün Prezident İlham Əliyev qədər addımlar atan, fərman və sərəncam verən, konkret məqamlar üzrə sərt addımlar atan ikinci bir lider yoxdur. Bəs problem nədir? Ali rəhbərin siyasi iradəsi ortadadır. Çıxışımın əvvəlində sizlərin xidmətlərini də sadaladım. Bəs problem haradadır? Çox gözəl bilirəm. Amma gərək mənim də zəmanətim ola ki, məsələləri bir-bir çılpaqlığı ilə sadalayam. Olmasa, belə uyğun məqam olan zaman bunları etmək istəyirəm. Dəqiq görə bilmirəm, bəlkə də elə burada da oturan qonaqlar arasında o gül-çiçəyin yerinə tikan əkənlər var. Özü də qorxmadan, çəkinmədən, laqeydcəsinə. Yəqin qanunların bizlər və onlar üçün fərqli məzmunu var. Biz onları rənglər kimi fərqli görürük. İndi bilmirəm, mənim xəstəliyimin adı daltonizmdir, yoxsa onların... Dünən bu tribunadan sərt tənqidlər səsləndirdim. Hörmətli deputat həmkarım Rüfət Quliyev irad bildirdi ki, konkret ad çək. Bunu ona görə etmirəm ki, həssas dövrdən keçirik və biz ilk öncə siyasi birliyi də düşünməliyik. Hazırkı həssas dönəmi, Qarabağı, separatçıların ram edilməsini və köçkünlərimizin yurdlarına qayıtmasını da düşünməliyik.

Cənab Prezident İlham Əliyevə həmişəkindən də 10 dəfə artıq dəstək olmalıyıq. Görün, regionda hansı proseslər baş verir və onları həm də ustalıqla kim idarə edir? İlham Əliyev.

İndi keçək Qarabağa. Necə olur ki, ayrı-ayrı şəxslərə yaşıl işıq yandırılır, o birilərinə yox. Hətta sərmayə yatırmaq istəyən sinif yoldaşıma qanuni yollarla kömək üçün dəridən qabıqdan çıxdım, yenə də xeyri olmadı. Bu məsələ barəsində ayrıca, adlarla bərabər açıqlamam olacaq. İndi vaxt yoxdur. Xüsusən Dövlət Şəhərsalma və Arxitektura Komitəsi və Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi barədə. Mənim düşüncəm belədir. Əziz hökumət üzvləri və deputatlar, əgər bir şəxs ölkəyə ya xaricdən, ya da sandığından çıxarıb 1000 AZN pul yatırım etmək istəyirsə, ona əlavə də 1000 AZN vermək lazımdır ki, işini böyütsün. Kim 1 milyon qoymaq istəyirsə, onun yaxasından medal da asmaq lazımdır. Kim 5-10 milyon yatırım qoymaq istəyirsə, onları isə dövlət himayəsinə alıb gündə 10 dəfə başını tumarlamaq lazımdır. Çünki iş yerini iş adamı yaradır. Elə ölkələr var ki, sərmayə qoymaq istəyənə xərclərini ödəmək üçün kart verir, pulsuz sürücü və maşın təmin edir, onların maraqlandıqları sahələr üzrə qarşılarına hazır paket sənədlər qoyulur. Heç bəlkə də o şəxs o kartlardan istifadə etməyi özünə sığışdırmayacaq, avtomobilindən də istifadə etməyəcək, amma o, 5 manat yatırım etmək istəyirdisə, 10 manat edəcək. Dəyər yaratmaq budur və ümid edirəm ki, bu dəyər də ölkəmizdə yaradılacaq. Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Sağ olun. Razi müəllim, dünən tək Rüfət müəllim deyil, ondan qabaq mən də dedim ki, danışdıqlarınızın arxasında faktlar varsa, xahiş edirəm, həmin o faktları təqdim edin. Tək burada səsləndirməklə deyil. Aqiyə Naxçıvanlı. Aqiyə xanım, buyurun.

**A.Naxçıvanlı**. Çox sağ olun. Hörmətli Sahibə xanım, hörmətli hökumət nümayəndələri və həmkarlarım! Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin icrası

haqqında Azərbaycan Respublikasının qanun layihəsi və Azərbaycan Respublikası 2022-ci il dövlət büdcəsinin icrasına dair illik hesabatı, eyni zamanda, hər iki sənədə dair Hesablama Palatasının rəyi ilə tanış olduqca, bütövlükdə, 2022-ci ili ölkənin sosial-iqtisadi inkişafı baxımından uğurlu il hesab etmək olar. Büdcənin icrası ilə bağlı hesabatda aztəminatlı və həssas təbəqədən olan insanların sosial müdafiəsinin gücləndirilməsi üçün nəzərdə tutulan layihələr davam etdirilir. Xüsusi ilə insanların yaşayış səviyyəsinin yaxşılaşdırılması, maaşların, pensiyaların iqtisadi artım tempinə uyğun olaraq, mütəmadi artırılması, yeni sosial infrastrukturun yaradılması bir daha sübut edir ki, sosial siyasət dövlətimizin prioritet istiqamətlərindəndir.

Eyni zamanda, büdcədə işğaldan azad edilmiş ərazilərin yenidən qurulması və bərpası, müdafiə və təhlükəsizlik üçün ayrılmış vəsaitlərin icrası göz qarşısındadır. Vətən müharibəsindən qısa müddət keçməsinə baxmayaraq, Qarabağda və Şərqi Zəngəzurda bir sıra mühüm layihələr həyata keçirilməkdədir. Cənab Prezident İlham Əliyev bu yaxınlarda Zəngilan rayonunda səfərdə olarkən də qeyd etmişdir ki, "Biz dövlət büdcəsinə əlavələr etməliyik, çünki iqtisadi göstəricilər daha yaxşıdır. Gəlirlərimiz nəzərdə tutulandan daha çoxdur. Ona görə biz bu əlavə gəlirləri və iqtisadi imkanlarımızı səfərbər etməliyik ki, vaxt itirmədən azad edilmiş torpaqlarda daha böyük həcmdə iş görək".

Dövlət büdcəsinin icrası ilə bağlı Milli Məclisə daxil olan qanun layihələrinə dair Hesablama Palatasının verdiyi rəydə həm icra, həm də layihə sənədləri ciddi təhlil edilib, mümkün risklər sadalanıb, problemlər göstərilib və onların aradan qaldırılması məqsədi ilə tövsiyələr verilibdir. Təqdim olunan hesabatda biz müsbət tendensiya

görürük. Sənəddə xərclərin statistik icmalı və təhlilləri verilir, o cümlədən diaqramlarla daha əsaslı və şəffaf şəkildə təqdim olunur.

Bununla yanaşı, təklif edirəm ki, Hesablama Palatası dövlət büdcəsinin kəsirləri, dövlət büdcəsindən mənimsənilən vəsaitlərin bərpa edilməsini təmin etsin, o cümlədən büdcə oğurluğu ilə bağlı cinayət əməlləri törətmiş hüquqi və fiziki şəxslər barəsində ciddi tədbirlər də görsün.

Eyni zamanda, bildirmək istəyirəm ki, ölkə Prezidenti cənab İlham Əliyevin həssaslıqla yanaşdığı və qayğı göstərdiyi şəhid ailələri və müharibə iştirakçılarının sosial problemlərinin həllinə zamanla dəstək olmalıyıq. Düşünürəm ki, bu gün şəhid ailələrinin bir neçə il müddətində kommunal xərclərdən azad edilməsi onların sosial yaşayışını əhəmiyyətli dərəcədə yaxşılaşdıra bilər. Bu baxımdan hökumətin qeyd olunan məsələyə nəzər yetirəcəyini güman edirəm.

Seçildiyim 117 saylı Oğuz-Qəbələ seçki dairəsi ərazisində yerləşən bir neçə məktəb var ki, çox acınacaqlı vəziyyətdədir. Kərimli kəndində 456 nəfər şagirdin təhsil aldığı Kərimli kənd tam orta məktəbi, demək olar ki, qəzalı vəziyyətdədir. Payız və qış mövsümlərində yağıntı zamanı binaların zirzəmisi su ilə dolur, bu, şagirdlərin təhlükəsizliyi üçün ciddi təhlükə yarada bilər. Məktəbdə qış mövsümündə normal istilik olmadığından, demək olar ki, orada dərs prosesi olmur. Binanın yararsız vəziyyətdə olduğu nəzərə alınaraq, Kərimli kəndində 600 şagird yerlik yeni məktəb binasının tikintisinə köməklik göstərilməsini sizdən xahiş edirəm.

Həmkarım Fazil müəllim geniş danışdı. Ümumiyyətlə, rayonlarda gənclər qalmır, hamısı qaçır. Çünki iş yerləri yoxdur. Rayonlarda işsizlik problemi birdəfəlik aradan qaldırılmalıdır.

Bütövlükdə, mən də bu layihələrə səs verəcəyəm. Həmkarlarımı da ona səs verməyə dəvət edirəm. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Sağ olun. Qənirə Paşayeva. Buyurun.

**Q.Paşayeva.** Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli hökumət üzvləri. 2022-ci il dövlət büdcəsinin icrası haqqında qanun layihəsini dəstəkləyəcəyik, səs verəcəyik. Çünki cənab Prezidentin rəhbərliyi altında ölkəmizdə aparılan işləri hamımız yaxından izləyirik. Özəlliklə hamımızın istəyi, arzusu olan işğaldan azad olunmuş torpaqlarımızın, ərazilərimizin, bölgələrimizin bərpa prosesi istiqamətində surətlə aparılan işlər hamımızı çox məmnun edir. Təbii ki, dəstəkləyirik, bu istiqamətdə fəaliyyətdə də uğurlar arzulayırıq.

Cənab Prezidentimiz Cümhuriyyətimizin 105-ci ildönümündə Laçın rayonunda uzun illər gözəl Laçınımıza qayıda bilməyən insanlarımızla görüşdü. Orada görülən işlər, verilən mesajlar... Təbii ki, harada doğulub, harada yaşamasından asılı olmayaraq, hər bir insanımızın çox böyük sevinc hissi ilə qarşılaşdığı bir hadisə idi. İnanırıq ki, bu layihələr, bu işlər bundan sonra da sürətlə davam edəcək.

Hökumət üzvlərinin diqqətinə, sadəcə, bəzi məsələləri çatdırım. 2022-ci ildə bu məsələlərin daha çox diqqətdə olduğuna inanıram. Amma çox istərdik ki, açıqlamalarda bu mövzulara daha çox aydınlıq gətirəydilər. Çünki cəmiyyətdə bu məsələ ilə bağlı suallara çox böyük aydınlıq gətirilməsinə ehtiyac var.

Birincisi, şəhid ailələrimizin və qazilərimizin işlə təminatı məsələsidir. Ümumiyyətlə, yaxşı olar ki, hər il, məsələn, 2022-ci il ərzində nə qədər şəhid ailəsi və qazi hansı bölgələrdə işlə təmin olundu, nə qədəri təmin oluna bilmədi və niyə təmin oluna bilmədi? Bunun səbəbləri nədir?

Bunun aradan qaldırılması üçün nə işlər görüldü? Hansısa bir peşə ilə bağlı məsələlər, onların öyrədilməsi və sair. Bunların açıqlanmasına mütləq ehtiyac var. Çünki biz qəbullarda, müraciətlərdə görürük ki, şəhid ailələrimizin, qazilərimizin işlə təminatı məsələsində hələ də ciddi problemlər qalır. Bu məsələ cənab Prezidentin, hörmətli Mehriban xanımın xüsusi diqqətindədir, xüsusi nəzarətindədir. Ona görə də bu məsələ ilə bağlı daha çox addımların atılmasına ehtiyac var.

İkinci məsələ əlillik statusu, qazilik statusu almayan, amma müharibədə iştirak edənlərlə bağlıdır. Çünki əlillik statusunun alınması sağlamlığın itirilməsi dərəcəsinə bağlıdır. Amma elə iştirakçılarımız var ki, onların da səhhətində ciddi problemlər var və onlar mütəmadi həkim müalicəsi alırlar və dərmanlara ehtiyacı var. Amma dərmanla təmin oluna bilmirlər. Biz bu məsələni qaldırmışdıq, xahiş etmişdik ki, baxılsın. Gərək biz bu insanlara, müharibə iştirakçılarına dərman təminatında kömək edək.

Digər bir məsələ. Bəzi məsələlərdə bu ailələrə fərdi yanaşılmalıdır. Bizim şəhid olmuş ilk hərbi həkim şəhidimiz var: polkovnik-leytenant Rasim Abdullayev. Onun ailəsi müraciət edib. Çox az müddəti qalmışdı ki, dövlətdən hərbiçi kimi, yəni imtiyazdan yararlanıb ev alacaqdı. Şəhid olduğuna görə bu imtiyazdan yararlana bilməyib. Şəhid ailəsi kimi onlar bu imtiyazdan yararlanmalıdırlar, amma bu da mümkün olmayıb. Deyirlər, Kəlbəcərdə ev tikiləndə sizə ev verəcəyik. Onun övladı evlənməlidir, qeydiyyatı buradadır. Axı, o, ikitərəfli imtiyazından istifadə etməli idi. Kəlbəcərdə mənzil, onsuz da, onun haqqıdır, çünki onların mənzili olub, kəlbəcərlidirlər. Amma bir hərbçi, bir şəhid ailəsi bu imtiyazından istifadə etməlidir. Bu məsələni, heç olmasa, birləşdirib baxmaq la-

zımdır. Ümumiyyətlə, bu ailələrlə bağlı müraciətlərə individual yanaşmalara ehtiyac var.

Bu gün 31 may – Ümumdünya tütünlə mübarizə günüdür. Biz Milli Məclisdə bununla bağlı çox gözəl qanun qəbul etmişik. Amma çox təəssüf ki, ictimai yerlərdə tütün məhsullarının çəkilməsinin məhdudlaşdırılması, məktəbə yaxın ərazilərdə bu məhsulların satışının qadağan edilməsi, reklamla, məhdudiyyətlərlə, ümumiyyətlə, bu qanunun icrası ilə bağlı heç bir ciddi addım yoxdur. Mən çox istərdim ki, bu barədə danışılsın. 2022-ci ildə nə işlər görülüb? Çox xahiş edirəm, bu mövzu diqqətdə olsun. Bu bizim genefondumuzdur, balalarımızın gələcəyidir. Ona görə xahiş edirəm, bu məsələlərə diqqət olunsun.

**Sədrlik edən.** Sağ olun. Bəhruz Məhərrəmov. Buyurun.

**B.Məhərrəmov.** Çox sağ olun. Hörmətli sədr, əziz həmkarlar, hörmətli hökumət üzvləri. 2022-ci ilin dövlət büdcəsinin icrası haqqında danışarkən ilk növbədə qeyd edilməlidir ki, ötən il Azərbaycan üçün mühüm dövr olub. Biz detallarla bağlı bu il martın 17-də parlamentdə çox geniş müzakirə aparmışıq.

Möhtərəm cənab Prezidentin həyata keçirdiyi çoxşaxəli tədbirlər, kadr-struktur islahatlarından fiskal sistemdə şəffaflaşdırmaya, məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsinə qədər – bütün tədbirlər son nəticədə 2023-cü il kimi mürəkkəb bir dövrü Azərbaycan üçün uğurlu bir zamana çevirib.

Sirr deyil ki, 2023-cü il qlobal gözləntiləri doğrultmadı. Xüsusi ilə Rusiya–Ukrayna münaqişəsinin davamı, Qərb-Şərq bloku arasında ziddiyyətlərin dərinləşməsi faktiki olaraq pandemiyanın yaratdığı problemləri qlobal qütbləşmənin problemləri ilə əvəzlədi. Lakin cənab İlham Əliyev hələ 2022-ci ilin yanvarında ifadə etdiyi kimi, Azərbay-

canın bütün ssenarilərə hazır olduğunu göstərdi.

Bu ilin aprel ayında dövlət başçısı Salyan səfəri zamanı ifadə etdiyi kimi, 2023-cü ilin ilk üç ayında əldə edilən nailiyyətlər imkan verdi ki, biz büdcəyə əlavələr edək. Biz bunu nəyin hesabına etmişik? Düzgün siyasi kurs, şəffaflıq və idarəetmənin təkmilləşməsi. Biz pandemiyadan, müharibədən çıxmış dövlətik. Adətən bu cür dövlətlər, ard-arda çətinliklərə məruz qalan ölkələr xarici yardımlar hesabına ayaqda dayanır. Amma cənab İlham Əliyev heç bir xarici borclanma olmadan, nəinki bu qədər çətinliklərdən sonra iqtisadiyyatı ayaqda saxlamağa bacardı, üstəlik, bu gün biz Livan ölçüdə bir ərazini vandalizmin nəticələrindən təmizləyib yenidən qurmaqda olan bir dövlətik. Bununla yanaşı, ciddi nailiyyətlər əldə edib büdcəyə bir daha baxırıq.

Bilirsiniz, bu reallığın fərqinə varmaq lazımdır. Reallıq konseptual qiymətləndirilməlidir. Elə öz regionumuza baxaq, müqayisə edək. Budur, real göstərici yoxsa, sosial-iqtisadi durumun, yaxud büdcənin icrasının göstəricisi sosial media, xüsusi ilə "azad media" pərdəsi altında buxovlanmış muzdlu medianın təbliğatı ola bilməz. Mən indi həmin media qurumlarının adlarını bu ali tribunadan səsləndirmək istəmirəm. Onlar üçün bu, böyük şərəf olar. Sadəcə, sual qoyuram: pulunu "USAID"-dən, "NED"-dən alan media müstəqil ola bilərmi? Hər kəs bilir ki, onlardan gələn sifarişin məzmunu və məqsədi nədir və bunlar hara xidmət edir. Həmin media qurumlarının səhifəsini açın, görün, dövlətin həyata keçirdiyi siyasətin bir dənə müsbət tərəfi işıqlanırmı. Əgər sən azad mediasansa, tənqid etdiyin kimi, reallıqları da göstərməlisən.

İkinci Dünya müharibəsindən sonra SSRİ kimi böyük dövlətdə 20 il nə bir şəhid, nə də bir yaralı heç bir imti-

yazdan faydalana bilmədi. Amma Azərbaycan müharibə başa çatar-çatmaz şəhid ailəsini də, veteranını da sosial qayğı ilə əhatələyib və bu gün də bu proses davam edir. Bu qədər şəhid ailəsinə ev verilməsi, bu qədər veteranın xaricdə müalicə alıb vətənə qayıtması xəbər deyil, gözə görünmür. Amma məqsədli şəkildə öyrədilmiş bir nəfərin problemi ölkənin gündəmi olur. Yaxud bu həftə cənab İlham Əliyev özü də Müstəqillik Günündə bizim üçün prinsipial məsələ olan Laçına qayıdışı təmin etdi. Bu, dövlətçiliyə, suverenliyə, müstəqilliyə, Cümhuriyyət ənənəsinə sahib çıxmağın ən ali göstəricisidir. Amma cümhuriyyətçiliyi hər il Novxanıda Rəsulzadənin abidəsi önündə şou göstərməkdən ibarət olan radikal ünsürlər, yaxud onların bu media qanadı bununla bağlı bir dənə müsbət məqamı qeyd etdilərmi? Yaxud məhkəmə-hüquq sistemində aparılan islahatlar, atılan radikal addımlar xəbər deyil, amma barəsində konkret əməlinə görə ittiham hökmü qüvvəyə minmiş məhkumun aclıq şousu gündəmdədir. Bu da Azərbaycanın mənzərəsi olur və aidiyyəti beynəlxalq təşkilatlar da qəsdən hesabatlarında məhz bu satılmış media ünsürlərinə istinad edirlər.

Bu qədər qlobal çətinliklərin arasında biz dünya oyunçusuna çevrilmişik. Baydenin məktubunda qeyd edilir ki, regionda inkişafın təməlində Azərbaycanla tərəfdaşlıq dayanır. Putin Azərbaycanı qlobal oyunçu adlandırır. İsrail Prezidenti dünən Bakıdan rəsmən bəyan etdi ki, Azərbaycan məsələlərin həll olunduğu mərkəzdir. Macarıstanın Baş nazirinin, Serbiya Prezidentinin cənab İlham Əliyev haqqında işlətdikləri ifadələr bir tarixdir. Amma görün, bu ünsürlər nə deyir, nə yazır.

Təbii ki, bizim üçün belə adamların, belə medianın nə özünün, nə də sözünün, xüsusi ilə də elə büdcə fəaliyyəti

ilə bağlı heç bir önəmi və əhəmiyyəti yoxdur. İndi parlamentdə müzakirəmizə baxın, hədəflərimizə diqqət edin. Biz quruculuğa, bərpaya, ordunun güclənməsinə, Qarabağın, Şərqi Zəngəzurun dirçəlməsinə əlavə vəsait ayırırıq. Nəyin hesabına? Həyata keçirilən düzgün tədbirlərin, dövlətin sükanının doğru əldə olunmasının hesabına, cənab İlham Əliyevin bərqərar etdiyi sabitliyin, bu ölkənin təhlükəsiz adaya çevrilməsinin hesabına. Ona görə də mən bu layihəyə, təbii ki, müsbət münasibətimi ifadə edəcəyəm. Hökumət üzvlərinə isə uğurlar arzulayıram. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Elman Nəsirov. Buyurun, Elman müəllim.

**E.Nəsirov.** Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli hökumət üzvləri. Biz bu gün Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin icrası haqqında qanun layihəsini birinci oxunuşda müzakirə edirik. Bu qanunla yaxından tanış olduqdan sonra qənaətimiz ondan ibarətdir ki, prinsip etibarı ilə 2022-ci ildə dövlət büdcəsinin icrası uğurla öz məntiqi sonluğuna çatıb. Olduqca sevindirici haldır ki, bizim müstəqillik dövrümüzün ən böyük ümumi daxili məhsulu əldə edilib. Söhbət 133,8 milyard manatdan gedir. Əvvəlki illə müqayisədə isə bu, 4,6 faiz çox ümumi daxili məhsul deməkdir.

Sevindirici haldır ki, 2022-ci ildə strateji valyuta ehtiyatlarımız kifayət qədər artıb, 58,5 milyard dollara gəlib çatıb. Xarici borcumuz isə 7 milyard dollara yaxındır ki, bu da ümumi daxili məhsulun 8,5 faizini təşkil edir. Bunlar çox sevindirici faktlardır. Eyni zamanda, onu da qeyd edək ki, biz bu nailiyyətləri mürəkkəb dünyamızda, qəliz geosiyasi reallıqların baş verdiyi bir mənzərə çərçivəsində əldə etmişik. Nəzərə alaq ki, 2022-ci ildə başlanmış böhran prosesi bu gün də davam edir. Söhbət

dünya miqyasında böhrandan gedir. Bu üç qlobal böhranın, yəni təhlükəsizlik böhranı, xüsusi ilə Rusiya–Ukrayna müharibəsi fonunda, ərzaq böhranı – bu məsələ həmin müharibənin birbaşa nəticəsi olaraq daha da güclənmiş bir böhrandır. Söhbət buğda dəhlizi kimi məsələlərin ortaya çıxması və onun həlli istiqamətində atılan addımlardan gedir. Nəhayət, ən qəliz, ən mürəkkəb böhranlardan biri enerji böhranı ilə bağlıdır ki, dünya, xüsusi ilə Avropa onun hansı təhdidlər yaratdığının fərqindədir.

Sadalanan reallıqlar fonunda Azərbaycan bu gün, sözün əsl mənasında, bir sabitlik adasıdır. Ən unikalı odur ki, ölkəmizdə ictimai-siyasi sabitlik qorunub saxlanmış, mən deyərdim, göz bəbəyi kimi qorunub saxlanmışdır. Bunun da əsasında dayanan həlledici amil xalq-hakimiyyət birliyidir, xalqın öz Prezidenti ətrafındakı monolit birliyidir. Bu da Prezidentin də öz xalqının milli mənafeyindən çıxış edərək müstəqil siyasət həyata keçirməsi ilə bağlıdır. Cənab Prezidentin sözləridir: “Ən rahatı odur ki, böyük bir dövlətin və güc mərkəzinin qanadları arasına sığınasan. Bu, ilk baxışdan çox rahatdır. Amma bunun başqa fəsadları var. Deməli, diktə altında fəaliyyət göstərəcəksən, arzuolunmaz ssenarilərin iştirakçısı olacaqsan”. Amma Azərbaycan qəliz, mürəkkəb, şərəfli bir yolu seçib. Bu da müstəqil siyasətlə bağlıdır ki, həmin siyasəti xalqımız birmənalı şəkildə dəstəkləyir. 2022-ci ildə strateji hədəfimiz olan azad olunmuş torpaqlarımızın bərpası və yenidən qurulması prosesində çox ciddi addımlar atılıb. Ölkə Prezidentinin birbaşa rəhbərliyi altında Ağalı kəndinə, Talış kəndinə, indi də Laçın şəhərinə tarixi qayıdışımız reallaşmaqdadır. Bunlar olduqca mühüm hadisələrdir.

Hörmətli xanım sədr, bizim hörmətli hökumət üzvlərinin burada olmasından istifadə edib, bir məsələni də

qabartmaq istəyirəm. Əlillik məsələləri ilə, əlilliyin qiymətləndirilməsi ilə bağlı məsələlər ətrafında çoxlu müzakirələr gedir. Biz də çoxlu məktublar alırıq. Seçicilərimizlə görüşlərdə bu məsələ ən çox qaldırılan məsələlər sırasındadır. Şəxsən mən özüm əmək və əhalinin sosial müdafiəsi naziri ilə bu istiqamətdə danışmışam. Nazirliyin mövqeyi belədir ki, biz məmurlarıq, biz həkim deyilik. Bizə müxtəlif tibb müəssisələrindən, onların rəhbərliklərindən əlilliyin qiymətləndirilməsi ilə bağlı müvafiq sənədlər daxil olur. Biz Nazirlər Kabinetinin müvafiq siyahısı əsasında müəyyən edirik ki, bu şəxsə əlillik düşür, yoxsa düşmür. Sonra da əlillik məsələsində imtina ortaya çıxanda bizdən inciyirlər, bizə qarşı mənfi rəy formalaşır. Amma bir daha vurğuladı ki, biz həkim deyilik, müvafiq tibb müəssisələrinin rəhbərliyi əlilliyin qiymətləndirilməsi ilə bağlı sənədləri düzgün doldurmur, yarımçıq doldurur və nəticədə də belə problemlər üzə çıxır. Çox istərdim ki, bu məsələlərin araşdırılması və müvafiq ölçünün götürülməsi istiqamətində bizim hökumət nümayəndələri addımlar atsınlar. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Aydın Hüseynov. Buyurun, Aydın müəllim.

**A.Hüseynov.** Hörmətli xanım sədr, hörmətli hökumət üzvləri, hörmətli millət vəkilləri, media nümayəndələri. Bu gün müzakirə etdiyimiz qanun layihəsinə mən də öz münasibətimi bildirəcəyəm. Ona görə fikirlərimi sizinlə bölüşürəm. Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatların nəticəsi olaraq 2022-ci ildə önəmli nailiyyətlərə imza atılmış, ölkə üzrə 133,8 milyard manat ÜDM əldə edilmişdir. Səmərəli islahatlar və biznes mühitinin təkmilləşməsi vergi, gömrük yığımlarının əhəmiyyətli artımını təmin etmişdir. 2022-ci

ilin dövlət büdcəsinin gəlirləri 29 milyard 197 milyon manat proqnoza qarşı 30 milyard 679 milyon manat icra olunmuşdur. Bu da proqnozdan 1 milyard 481 milyon manat artıq deməkdir. Büdcənin xərcləri isə 32 milyard 664 milyon manat həcmində icra edilmişdir.

2022-ci ildə Qarabağda və Şərqi Zəngəzurda irimiqyaslı quruculuq işləri genişlənmiş, Böyük Qayıdışın təmin edilməsi, Ermənistanla dövlət sərhədində yeni sərhəd infrastrukturlarının və Zəngəzur dəhlizinin yaradılması istiqamətində işlərin miqyasının artırılması, ölkəmizin müdafiə qabiliyyətinin daha da gücləndirilməsi diqqətdə saxlanmışdır. Ölkə rəhbərliyinin müəyyən etdiyi hədəflərə əsasən dövlət büdcəsinin xərclərinin sosialyönümlülüyü təmin edilmiş, əhalinin sosial müdafiəsinin güclənməsi, sosial ödənişlərin, əmək haqlarının artırılması istiqamətində ardıcıl addımlar atılmışdır, əmək pensiyalarının, sosial müavinətlərin, təqaüdlərin və digər sosial ödənişlərin məbləğlərinin artırılması təmin edilmişdir.

2022-ci ildə dövlət büdcəsi layihəsində müvafiq maliyyə təminatı yaradılmış, burada önəmli sahə kəsb edən səhiyyə xərcləri nəzərə alınmışdır. Eyni zamanda, bayaq qeyd etdiyim sosial tədbirlər nəticəsində 700 mindən çox şəxsin əmək haqları artırılmışdır.

Bütövlükdə, mən 2022-ci ilin dövlət büdcəsini çox müsbət qiymətləndirirəm. Biz komitə sədri hörmətli Tahir müəllimin çıxışında bu barədə çox ətraflı məlumatlandıq. Eyni zamanda, Hesablama Palatasının sədri hörmətli Vüqar müəllim Gülməmmədov da öz fikirlərini səsləndirdi. Biz hər iki çıxışı dinlədik və ümumi yekunumuz bir daha bundan ibarətdir ki, 2022-ci ilin dövlət büdcəsi qənaətbəxş, inkişafı təmin edən bir büdcədir. Burada zəhməti olan bütün qurumlara öz minnətdarlığımı bildirirəm.

Eyni zamanda, bizə məlumdur ki, növbəti ilin, yəni 2024-cü ilin dövlət büdcəsinin proqnozları indidən müəyyənləşir. Xüsusi ilə İqtisadiyyat Nazirliyi iyun və iyul aylarında 6 ayın nəticələrini təhlil edir və sonrakı dövrlər üçün investisiya proqramı layihələri hazırlayıb təqdim edir. Mən hesab edirəm ki, İqtisadiyyat Nazirliyinin də bu sahədəki fəaliyyəti müsbətdir. Çünki əldə olunan nailiyyətlər onu göstərir, vergidə və gömrükdəki bizim iqtisadi göstəricilərimizin bariz nümunəsidir, dediyim fikirlərin təsdiqidir.

Fikrimi nəyə yönəltmək istərdim? Qaradağ rayonu ərazi baxımından Bakının 51 faizini təşkil edir, ancaq orada əhalinin, rayon sakinlərinin sayı isə Bakı şəhər əhalisinin 5 faizindən də aşağını təşkil edir. Bu gün Qaradağ rayonunda təkcə regionun deyil, sözün əsl mənasında, dünya iqtisadiyyatında öz yeri, əhəmiyyəti olan böyük müəssisələr yerləşir. Ələt Azad İqtisadi Zonası, Yeni Bakı Ticarət Limanı, Dərin Özüllər Zavodu, Norm Sement Zavodu, regionun ən böyük ticarət mərkəzləri və sair. Onlarca belə faktları sadalaya bilərik. Bunları sadalamaqda məqsədim nədən ibarətdir? Yəni artıq Qaradağ rayonunun 10 il bundan əvvəlki statusu dəyişib. Biz orada infrastrukturları yeniləsək, orada yeni investisiya layihələri qoysaq, bu qoyulan vəsaitlər, əslində, növbəti illərdə özünü doğruldacaq. Ona görə də mən bu gün fürsətdən istifadə edərək, investisiya layihələrindən Qaradağ rayonu üçün, xüsusi ilə su-kanalizasiya sisteminin yenilənməsi, yaşıllıq zolaqlarının yaradılması, qəsəbədaxili yolların bərpa olunmasına vəsaitin ayrılmasını xahiş edirəm. Bütövlükdə, büdcəmizə səs verirəm.

**Sədrlik edən.** Təklif var ki, səsə qoyaq. Xahiş edirəm, Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin

icrası haqqında qanun layihəsinə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.25 dəq.) |
|---|---|
| Lehinə | 78 |
| Əleyhinə | 2 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 81 |
| Nəticə: Yetərsay yoxdur | |

Hörmətli həmkarlar, yetərsay yoxdur. Xahiş edirəm, diqqətli olun. Bir dəfə də səsə qoyuruq.

| **Səsvermənin nəticələri** | (saat 12.26 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 2 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

İclasımızda iştirak etdiklərinə görə mən hörmətli qonaqlarımıza, hökumət üzvlərinə təşəkkür edirəm. Sağ olun.

Hörmətli həmkarlar, gündəliyin növbəti 7 məsələsi ikinci oxunuşda olan qanun layihələridir. Gündəliyin 2-ci məsələsi "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Məsələyə dair məlumat vermək üçün mən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini hörmətli Əli Məsimliyə söz verirəm. Əli müəllim, buyurun.

**Ə.Məsimli,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini.*

Çox sağ olun, hörmətli sədr. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Qanunda nəzərdə tutulan dəyişikliklərin məqsədi, mahiyyəti və əsas üstünlükləri barəsində birinci oxunuş zamanı kifayət qədər məlumat vermişdik. Eyni zamanda, müzakirə zamanı deputat həmkarlarımız Vahid müəllim Əhmədov və Elnur müəllim Allahverdiyev öz çıxışlarında, əsasən, dəstək xarakterli məsələlərə toxunmuşdular. Keçən müddət ərzində bizim komitəyə bu layihə barəsində hər hansı təklif və irad daxil olmayıb.

Hörmətli sədr, keçən çıxışımda bildirmişdim ki, məsələ komitədə müzakirə olunan zaman İqtisadiyyat Nazirliyinin nümayəndəsi qaldırılan məsələlərin bir hissəsinə birbaşa cavab verdi. Amma digər hissəsini də yazılı surətdə çatdırmağa söz verdi. Təşəkkür edirəm ki, həmin söz yerinə yetirilib və çatdırılıb. Bu, hökumət strukturları ilə Milli Məclis arasında yaxşı bir dialoqdur.

Haşiyə çıxmaq istəyirəm ki, bu dəfə büdcə müzakirəsi zamanı da Hesablama Palatasının qaldırdığı məsələlərə Maliyyə Nazirliyi çox mükəmməl surətdə yazılı bir sənəd təqdim edib. Bu prosesin genişlənməsini vacib hesab edib, onu da qeyd etmək istəyirəm ki, qaldırılan konseptual xarakterli məqamların konkret təkliflərlə tamamlanması istiqamətində çoxsaylı təkliflərimiz var idi. Həmin təkliflərə İqtisadiyyat Nazirliyinin münasibəti, mən deyərdim ki, müsbətdir. Ona görə də qanunvericilik təşəbbüsü subyekti ilə bu istiqamətdə danışıqlar gedir. Hələlik, mən tam fikir qeyd etmirəm. Həmin danışıqların nəticələri üçüncü oxunuşa qədər tamamlansa, üçüncü oxunuş zamanı hansı

təkliflərimizin bu layihədə qəbul olunması barədə, hörmətli sədr, Sizə əlavə məlumat verəcəyik. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, bildiyiniz kimi, ikinci oxunuşda biz qanun layihəsini əvvəlcə əsas kimi qəbul etməliyik. Ona görə də xahiş edirəm, bu qanun layihəsinin əsas kimi qəbul edilməsinə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.29 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirəyə yazılan yoxdur. Biz qanun layihəsinə maddələr üzrə və sonra bütövlükdə münasibət bildirməliyik. Səsə qoyacağam. Qanun layihəsində 24 maddə var və mən onları altı-altı səsə qoyacağam. Xahiş edirəm, indi ilk 6 maddəyə səs verəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddələr qəbul edildi.

İndi isə mən növbəti 6 maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İndi isə xahiş edirəm, 13-cü maddədən 18-ci maddə də daxil olmaqla növbəti 6 maddəyə səs verin.

| **Səsvermənin nəticələri** | (saat 12.31 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bunlar da qəbul edildi.

19-cu maddədən 24-cü maddə də daxil olmaqla son maddələrə səs verin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.31 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə, hörmətli həmkarlar, mən qanun layihəsini ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.31 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz gündəliyin 3-cü məsələsinə keçirik. Bu məsələ Mülki Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Məsələyə dair məlumat vermək üçün mən Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü hörmətli Bəhruz Məhərrəmova söz verirəm. Bəhruz müəllim, buyurun.

**B.Məhərrəmov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Xanım sədr, birinci oxunuşdan sonra heç bir təklif və rəy daxil olmadığı üçün olduğu kimi səsə qoyulmasını xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, qanun layihəsinin əsas kimi qəbul edilməsinə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.32 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun,  əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən yoxdur, mən qanun layihəsini maddələr üzrə səsə qoyacağam. Qanun layihəsi 4 maddədən ibarətdir. Mən onları iki-iki səsə qoyacağam. Xahiş edirəm, 1-ci və 2-ci maddələrə münasibət bildirin, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İndi isə 3-cü və 4-cü maddələrə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə, hörmətli həmkarlar, mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.34 dəq.) |
| --- | --- |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin növbəti 5 məsələsi möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub, mahiyyətcə bir-birinə bağlıdırlar. Gündəliyin 4-cü məsələsi "Təhsil haqqında", 5-ci məsələsi "Elm haqqında", 6-cı məsələsi "Peşə təhsili haqqında" qanunlarda, 7-ci məsələsi Əmək Məcəlləsində, "Məktəbəqədər təhsil haqqında" və "Ümumi təhsil haqqında" qanunlarda, 8-ci məsələsi isə "Sanitariya-epidemioloji salamatlıq haqqında" Qanunda və digər 5 qanunda dəyişiklik edilməsi barədə qanun layihələridir. Odur ki, mən təklif edirəm, qanun layihələrinin təqdimatları ayrılıqda edilsin, müzakirəsi birgə aparılsın. Səsvermə isə həmişə olduğu kimi, ayrı-ayrı olacaq.

4-cü, 5-ci və 6-cı məsələlərə Elm və təhsil komitəsində baxılmışdır. Bu 3 qanun layihəsinə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Bəxtiyar müəllimə söz verirəm. Buyurun, Bəxtiyar müəllim.

**B.Əliyev,** *Milli Məclisin Elm və təhsil komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Qanun layihəsi ikinci oxunuşda Milli Məclisin Elm və təhsil komitəsində geniş müzakirə edilmişdir. Komitənin rəyi müsbətdir. Bu müzakirələr zamanı birinci oxunuşda Milli Məclisin plenar iclasında çıxış etmiş deputat

həmkarlarımızın qaldırdığı məsələlərə də münasibət bildirilib. Həmin deputat həmkarlarımıza, Milli Məclisin sədr müavini Fəzail İbrahimliyə, Fəzail Ağamalıya, Məlahət İbrahimqızıya, Səbinə Xasayevaya və İltizam Yusifova qanun layihələrinə dəstək verdiklərinə görə komitə adından öz təşəkkürümü çatdırıram.

Bütövlükdə, sadalanan qanun layihələrinə və bu gün baxacağımız qanunlara 55 dəyişiklik edilibdir. Onların hamısı çox mütərəqqi dəyişikliklərdir. Mən deputat həmkarlarımızı narahat edən üç məsələ üzərində dayanmaq istərdim. Birinci məsələ sertifikatlaşdırma ilə bağlı olan məsələdir və bununla bağlı ötən il Milli Məclisdə çox geniş dinləmələr keçirilmişdir. Elm və Təhsil Nazirliyinin bu sahə ilə məşğul olan əməkdaşları, deputat həmkarlarımız, Milli Məclisdə təmsil olunmuş bütün partiya sədrləri iştirak edirdilər. Onların hər biri öz fikirlərini səsləndirdilər. Bu dinləmədə səsləndirilmiş fikirlərin bəziləri müzakirə etdiyimiz qanun layihəsində öz əksini tapıbdır. Onlardan da biri 60 yaşından 65 yaşına qədər olan təhsilverənlərin ümumtəhsil məktəblərində sertifikasiyadan könüllü keçməsi ilə bağlı məsələdir. Əgər onlar sertifikasiyadan keçmək istəyərlərsə, bu zaman onların topladığı bala uyğun olaraq, əmək haqları artırılır. Əgər onlar sertifikatlaşdırmadan keçmək istəmirlərsə, növbəti 5 il fəaliyyətlərini davam etdirə bilərlər və artımlar olarsa, artımla, olmazsa, həmin əmək haqqını alacaqlar.

Burada deputat həmkarlarımızı da narahat edən və tez-tez Milli Məclisə müraciət edilən bir məsələ var. 65 yaşına çatmış müəllimlərin öz arzusuna uyğun olaraq, əgər əmək qabiliyyəti və təhsildə göstəriciləri varsa, ümumtəhsil məktəblərində çalışma müddətinin uzadılması.

2011-ci ildə Azərbaycan Respublikasının Əmək

Məcəlləsində 10-1.1-ci maddə əlavə edilibdir. Həmin maddənin 1-ci bəndində çalışmağın son yaş həddi 65 göstərilibdir. Amma eyni zamanda, 10-1.2-ci maddədə qeyd edilir ki, 65 yaşına çatmış şəxslərin hər il 5 ildən çox olmayaraq işləmə müddəti həmin dövlət qurumunun, indiki halda təhsil qurumunun rəhbərliyi tərəfindən uzadıla bilər. 10-1.3-cü maddədə isə elm, mədəniyyət və təhsil sahələrinin inkişafında müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş xidmətləri olmuş şəxslərin, yəni növbəti 5 ildən əlavə olaraq, 70 yaşdan yuxarı işləmə müddətinin meyarlarının müəyyən edilməsi qanunla nəzərdə tutulur. Nazirlər Kabinetinin 2011-ci il 31 oktyabr tarixli qərarı ilə o meyarlar müəyyən edilmişdir.

Burada qarışıqlıq yaradan məsələ ondan ibarətdir ki, cənab Prezident qanunun qüvvəyə minməsi ilə bağlı fərman imzalayarkən bu meyarları müəyyən etmək qanunla yalnız Nazirlər Kabinetinə verilmişdir. Nazirlər Kabineti bunun yalnız 70 yaşdan yuxarı olan hallara şamil edilməsini nəzərdə tutub. Amma bu gün bizim ümumtəhsil məktəblərində bu meyarlardan çıxış edərək digər meyarlar müəyyən edilib ki, onlar da 65 yaşı tamam olanların işləmə müddətini 1 il-1 il uzatmaq üçün də tətbiq edilir. Bu da təbiidir. Çünki təhsil sahəsindən söhbət gedirsə, qanunda ümumtəhsil məktəblərində bu cür işçilərin ümumi sayı 15 faizdən artıq ola bilməz. Bu gün bizim ümumtəhsil məktəblərində təqribən 125 min müəllim çalışır. Onların da 15 faizi 18 mindən çox təşkil edir. Amma statistikaya görə, bu gün bizim ümumtəhsil məktəblərində yaşı 60-dan yuxarı olan müəllimlərimizin sayı təqribən 6-7 min arasında fərqlənir. 65 yaşdan yuxarı olanların da işləmə müddətlərini artırmaq üçün, əsasən, burada imkan var ki, o müəllimlərin əmək qabiliyyəti nəzərə alınsın.

Bu gün xüsusi ilə kənd məktəblərində müəllim çatışmazlığı çox ciddi şəkildə müşahidə olunur və eyni zamanda, həmin bölgələrdə bir müəllimə düşən şagirdlərin sayı olduqca azdır. Bu, təxminən 8-9 şagirddir. Amma bütövlükdə, respublika üzrə bir müəllimə düşən şagirdin sayı 8,5-dən 15 şagirdə qədər artırılıb ki, bu da çox yaxşı irəliləyişdir, göstəricidir. Hesab edirəm, bu məsələ ilə bağlı müəyyən dəqiqləşdirmələr aparılmalıdır ki, bizim ictimaiyyətdə də çaşqınlıq yaranmasın.

İkinci bir məsələ. Qanun layihəsində təklif edilir ki, ixtisas təcrübəsi ilə bağlı qaydalar müəyyən edilsin. Çox təəssüf ki, "Təhsil haqqında" Qanunda ixtisas təcrübəsi anlayışı və ixtisas təcrübəsi ilə bağlı hər hansı ümumi bir müddəa yoxdur. Belə qaydaların müəyyən edilməsinin qanunun hansı müddəasına əsaslanacağı bizdə bir qədər sual doğurur. Təklif edərdik ki, bu, bir qədər dəqiqləşdirilsin. Yəqin "Təhsil haqqında" Qanunda, heç olmasa, ixtisas təcrübəsi anlayışı gətirilməlidir, yaxud da hər hansı bir müddəa, ümumi müddəa müəyyən edilməlidir. Əslində, belə qaydalar var və o qaydalar qüvvədədir. "Ali (orta ixtisas) təhsil müəssisələri tələbələrinin ixtisas üzrə təcrübəsinin keçirilməsi haqqında Əsasnamə" Nazirlər Kabineti tərəfindən təsdiq edilib, qüvvədədir. Amma ali təhsil müəssisələri haqqında əsasnamə qüvvədən düşdüyünə görə artıq bu əsasnamə də ona uyğun hazırlanmışdır. Yeni qaydalara ehtiyac var. Amma "Təhsil haqqında" Qanunda hesab edirik ki, müəyyən dəqiqləşmələr aparılaraq digər dəyişikliklər də edilməlidir.

Üçüncü bir məsələ. Burada bizim deputat həmkarımız Səbinə xanım Xasayeva bu ixtisaslara qəbul zamanı müəllimlərin sayının azaldılması ilə bağlı məsələ qaldırmışdır. Bununla bağlı qanunda birbaşa göstəriş var. 2009-cu ildə

qəbul edilmiş “Təhsil haqqında” Qanunun 29.0.38-ci maddəsində pedaqoji kadrlara olan real tələbatı müəyyənləşdirmək və onların iş yerləri ilə təmin olunmasını tənzimləmək təhsil sahəsində dövlətin əsas vəzifələrindən biri kimi müəyyən edilmişdir. Bununla da bağlı qeyd etmək istərdim ki, artıq müəllim ixtisası üzrə yenidən hazırlama və əlavə təhsillə bağlı qəbul sifarişləri ləğv edilmişdir. Yalnız ümumi əsaslarla bakalavriat səviyyəsində müəllimlik peşələrinə dövlət sifarişi və yaxud ödənişli əsaslarla qəbul var. Bununla da bu məsələ tənzimlənir. Ancaq müəllimlərin işə qəbulu üzrə imtahanların və müsahibələrin nəticələri göstərir ki, müəllim işləmək istəyənlərin sayı çoxdur, amma vakant yerlər nisbətən azdır. Burada bir problem də ondan ibarətdir ki, biz hər il eyni vəziyyətlə rastlaşırıq. Şəhər yerlərində vakansiyalar azdır, işləmək istəyənlərin sayı çoxdur. Amma bölgələrdə, kənd yerlərində işləmək istəyənlərin sayı azdır. Yəni müəllim nisbəti ilə götürsək, vakansiyalarla müəllimlərin nisbəti arasında o qədər böyük fərq olmasa da, şəhərdə işləmək istəyənlərin sayı çox olduğuna görə onlar işləyərək, hər dəfə müsabiqədə şəhərlərdə açılan vakansiyalarda çalışmağı arzu edirlər. Buna görə də böyük fərq yaranır. Hesab edirik ki, yaxın beş ildə bu fərq aradan qaldırılacaqdır və artıq müəllimlərin işə qəbulu, diaqnostik qiymətləndirmə və sertifikatlaşdırma bu problemlərin həllinə xeyli kömək edir. Yaxın beş ildə isə, demək olar ki, bu məsələlər, əsasən, öz həllini tapacaqdır.

Bütövlükdə, qanunda təklif edilən dəyişikliklərin hər birinə, qeyd etdiyim kimi, komitənin rəyi müsbətdir. Çıxış etmiş və qanun layihəsini dəstəkləmiş deputatlara bir daha təşəkkür edirəm və bu qanun layihələrini dəstəkləməyi sizdən xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Bəxtiyar müəllim. 7-ci məsələyə Əmək və sosial siyasət komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Musa Quliyevə söz verirəm. Musa müəllim, buyurun.

**M.Quliyev,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli millət vəkilləri, 7-ci məsələdə nəzərdə tutulan əlavə və dəyişikliklər də hörmətli Bəxtiyar müəllimin bundan əvvəlki müzakirəyə təqdim etdiyi və geniş izahat verdiyi məsələlərlə həmahəngdir və təhsil sahəsində çalışan işçilərin sertifikasiyası ilə bağlıdır. Layihəyə birinci oxunuşdan sonra əlavə və dəyişiklik və heç bir rəy daxil olmamışdır, mətn olduğu kimi qalır. Komitənin rəyi müsbətdir və xahiş edirik, ikinci oxunuşda da dəstəkləyəsiniz. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Musa müəllim. Bəxtiyar müəllim, bu qanun layihəsinə sizin komitədə də baxılıb. Komitənin rəyini bildirin.

**B.Əliyev.** Təşəkkür edirəm, xanım sədr. Komitənin rəyi müsbətdir.

**Sədrlik edən.** Çox sağ olun. 8-ci məsələyə dair məlumat vermək üçün mən Səhiyyə komitəsi sədrinin müavini hörmətli Rəşad Mahmudova söz verirəm. Rəşad müəllim, buyurun.

**R.Mahmudov,** *Milli Məclisin Səhiyyə komitəsi sədrinin müavini.*

Çox təşəkkür edirəm, hörmətli xanım sədr. Sözügedən qanun layihəsi də bir az əvvəl çox hörmətli komitə sədrimiz Bəxtiyar müəllimin izahatına uyğun şəkildə, uyğunlaşdırma xarakteri daşımaqdadır. Birinci oxunuşdan sonra komitəmizə hər hansı bir təklif və ya irad bildirilməmişdir. Ona görə də millət vəkillərinin ikinci oxunuşda

bu qanun layihəsini dəstəkləmələrini xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun, Rəşad müəllim. Hörmətli həmkarlar, qanun layihəsinə Milli Məclisin daha dörd komitəsində də baxılıb. Deməli, Musa müəllim sizin komitənizdə. Xahiş edirəm, komitənin rəyini bildirin.

**M.Quliyev.** Təşəkkür edirəm. Komitənin rəyi müsbətdir. Sağ olun.

**Sədrlik edən.** Ziyafət müəllim, sizin komitənizdə baxılıb, xahiş edirəm, rəy bildirin.

**Z.Əsgərov,** *Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Komitənin rəyi müsbətdir və səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Mədəniyyət komitəsində də baxılıb. Qənirə xanım, buyurun.

**Q.Paşayeva,** *Milli Məclisin Mədəniyyət komitəsinin sədri.*

Müsbətdir, səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Hicran xanım, sizin komitənizdə də baxılıb. Xahiş edirəm, rəyinizi bildirin.

**H.Hüseynova,** *Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri.*

Bizim də komitəmizdə baxılıb, rəy müsbətdir. Xahiş edirik, səsə qoyulsun. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, mən qanun layihələrini əvvəlcə əsas kimi bir-bir səsə qoyacam. Xahiş edirəm, 4-cü məsələyə əsas kimi münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.48 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qəbul edildi.

5-ci məsələni əsas kimi səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.49 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu məsələ də əsas kimi qəbul edildi.

İndi isə 6-cı məsələdə olan qanun layihəsini əsas kimi səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.49 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.

7-ci məsələni əsas kimi səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.49 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

Nəhayət, mən 8-ci məsələni əsas kimi səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.50 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, 8-ci məsələ də əsas kimi qəbul edildi.

İndi isə müzakirəyə başlayırıq. Hörmətli həmkarlar, mənim sizdən yenə bir xahişim olacaq. İkinci oxunuşdur, xahiş edirəm, birinci oxunuşun tələblərinə görə deyil, konseptual yanaşma ilə deyil, ikinci oxunuşun tələblərinə görə çıxış edin. Əgər mətndə nə isə dəyişdirmək istəyirsinizsə, təklifiniz varsa və sair. Xahiş edirəm, ikinci oxunuşun tələblərinə görə. Buyurun.

Sabir müəllim, Sizin sualınız var. Buyurun. Sabir Rüstəmxanlı.

**S.Rüstəmxanlı**. Hörmətli sədr, mən Bəxtiyar bəyə təşəkkür eləmək istəyirəm. Çox ətraflı məlumat verdi. Amma onun çıxışında da qanunlardakı bəzi boşluqlar aydın hiss olunur. Mən də bununla bağlı bir sual vermək istəyirəm. Biz müəllimlərə bu 5 il, yəni 65 yaşdan sonra hər il ehtiyacı nəzərə alıb, 1 il müddətin artırılmasının nə cür

fəsadlar törətdiyini bilirik. Təəssüf ki, bizdə bəzi qanunlar dövlətin və millətin maraqlarından daha çox, o qanunu qəbul elətdirən təşkilatların maraqlarına uyğun olur. Bu 1 il-1 il artırmalar subyektiv amilləri ortaya çıxarır. Olmaz ki, bu qanunları biz konkret yazaq? 65 yaşdır, qurtardı və ya 70 yaşdır, qurtardı. Hər il müəllimin ixtiyarı bir idarə müdirinin, ya da regional təhsil idarəsinin öhdəsinə qalır. O da subyektiv olaraq öz qohumunu, tanışını irəli çəkir. Bəzən əsl yaxşı müəllimlər kənarda qalır. Biz bunu dəfələrlə görmüşük. Ona görə də müəllimi alçaldan o proseslərdən xilas eləmək lazımdır. Müəllim ya işləyir, ya da işləmir. İdarələr qabağında sürünmür, müəllimin hörmətini aşağı salmır.

**Sədrlik edən.** Sağ olun. Növbəti sual, ya da təklif. Qüdrət müəllim, buyurun.

**Q.Həsənquliyev**. Çox təşəkkür edirəm, hörmətli sədr. Əslində, Sabir bəy məni məcbur elədi ki, bu məsələ barədə qısa bir fikir bildirim. Bizim "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun 64-cü maddəsində qeyd edilir ki, diskresion səlahiyyətlər, yəni öz mülahizələrinə görə qanunun tətbiqini nəzərdə tutan normalar qanunvericiliyə daxil edilə bilməz. Yəni orada 64.4-cü maddə də var və qeyd olunur ki, "orqan öz səlahiyyətləri daxilində", "zərurət olduqda", "orqan edə bilər". Bir qayda olaraq, bu kimi ifadələr qanunvericilikdən, ümumiyyətlə, çıxarılmalıdır. Çünki sui-istifadə hallarına yol verilir. Ona görə də gələcəkdə bunu nəzərə almağımızı... Hesab eləyirəm ki, diqqətinizə çatdırdım. Çox təşəkkür edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Vüqar Bayramov. Buyurun.

**V.Bayramov**. Çox təşəkkür edirəm. Hörmətli xanım, hörmətli millət vəkilləri. Mən ikinci oxunuşun tələblərinə

uyğun olaraq, bir sıra məqamları təklif etmək istərdim. Əvvəla, 4-cü məsələ ilə bağlı, 29.0.2-ci maddədə yalnız strategiyaların deyil, eyni zamanda, proqramların da əlavə olunmasını təklif edərdim. Çünki nəzərə alsaq ki, təhsil sferasında təhsillə bağlı proqramların işlənməsi və tətbiqi olduqca vacibdir. Ona görə də bunun 29.0.2-ci maddədə əks olunması məqsədəuyğun olardı.

29.0.31-ci maddədə elmi tədqiqatla yanaşı, araşdırma və təhlilin əlavə olunmasını təklif edərdim. Çünki elmi tədqiqat, bütövlükdə, tədqiqatdan ayrı bir istiqamətdir. Xüsusən də orta və ya orta ixtisas məktəblərində araşdırma və ya təhlilə daha çox üstünlük verilir. Bu baxımdan bunun da sözügedən maddədə öz əksini tapması məqsədəuyğun olardı.

29.0.37-ci və 29.0.37-1-ci maddələrdə yeni ixtisasların açılması ilə yanaşı, ixtisasların ləğv edilməsinin də daxil edilməsi məqsədəuyğun olardı. Çünki texnoloji yeniliklərlə bağlı bəzi ixtisaslar sıradan çıxıb. Ona görə həmin maddələrdə yalnız yeni ixtisasların açılması deyil, həm də onların və bir sıra ixtisasların ləğv edilməsi nəzərdə tutulmalıdır. O baxımdan mən təklif edərdim ki, həmin maddələrdə də dəyişiklik olunsun və bu hissənin nəzərə alınması həyata keçirilsin.

7-ci məsələ ilə bağlı. 20-1.2.4-cü maddədə sertifikatlaşdırma ilə bağlı diferensial meyarların nəzərə alınmasını təklif edərdim. Çünki həmin maddəyə əsasən müəllimlər ən azı 3 dəfə sertifikatlaşdırmadan keçməlidir və bəzi hallarda sertifikatlaşdırmadan keçən zaman müəllimlərin balları kifayət qədər yüksək olur. Praktik olaraq bu maddə ilə həmin tələb bütün müəllimlərə tətbiq olur. Nəzərə alsaq ki, inkişaf etmiş ölkələrdə diferensial olaraq yüksək bal yığmış müəllimlər və ya təhsil işçiləri az sayda

sertifikatlaşdırmada iştirak edirlər, o baxımdan bizdə də oxşar praktikaların nəzərə alınması və qanunvericilikdə tətbiq olunması məqsədəuyğun olardı. Sadəcə, ikinci oxunuşun tələblərinə uyğun olaraq, bu təklifləri də təqdim etmək istədim. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Vüqar müəllim. Siyavuş Novruzov. Buyurun, Siyavuş müəllim.

**S.Novruzov**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli deputatlar. Peyğəmbərimiz Məhəmməd Mustafanın gözəl bir kəlamı var: "Elm müsəlmanın itmiş malıdır, harada olsa, tapıb götürməlidir". Bəli, elmin, təhsilin, peşənin axtarışı vacib olan amillərdəndir və hər bir insan da bunun arxasınca bütün ölkələrə gedir və axtarır.

Konkret olaraq ikinci oxunuşun tələbləri ilə əlaqədar, təhsillə bağlı olan məsələlərdə birinci olaraq, qeyd etmək istərdim ki, ən əsas bütün diqqət mərkəzində olan müəllimlərin sertifikatlaşdırılmasıdır. Burada bir çox amillər ortaya çıxır, insanlar bununla bağlı ciddi şəkildə müraciətlər irəli sürürlər. Birinci, müəllimlərin sertifikatlaşdırılması irəli sürülür. Burada hörmətli Bəxtiyar müəllim də qeyd elədi. Ancaq bunlarla bağlı hər hansı bir ədəbiyyat, yaxud hər hansı bir test yoxdur. Müəllim bilmir, nəyə hazırlaşsın, haradan hazırlaşsın, nədən başlasın, nədə qurtarsın. Abituriyentlər üçün jurnal buraxırlar, "Abituriyent" jurnalı. Abituriyent bilir ki, təxminən buna oxşar suallar olacaq, bu cür rəqəmlər olacaq, bunu işarələyəcək.

Neçə ildir, müəllimlərin sertifikatlaşdırılması gedir, lakin onlar üçün indiyə qədər hər hansı bir material hazırlanmayıb. Deyirlər, 57 tədris mərkəzimiz var ki, orada müəllimlər hansısa formada hazırlıq keçə bilərlər. İndi Azərbaycanda müəllimlərin sayına və mərkəzlərin sayına baxın. Görün, orada il ərzində o qədər müəllimin hazır-

laşması, yaxud da kurs artırılması gəlib başa çata bilərmi? Bilməz.

Üçüncü məsələ. Müəllim savaddan əlavə, həm də pedaqoqdur. Uşaqların tərbiyəsi ilə məşğul olur. Ola bilər, çox savadlı bir insandır, amma əxlaqı, tərbiyəsi yerində deyil. Bunu hansı testlə göstərəcəyik, necə yoxlayacağıq? Kim deyəcək ki, onu uşaqların, şagirdlərin arasına, məktəbəqədər müəssisəyə və ya yuxarı siniflərə buraxmaq olar? 50-sinin şahidi olmuşuq və görürük ki, bu da düzgün deyil.

Başqa bir məsələ sertifikatlaşdırma ilə əlaqədardır. 5 il müddətinə olanları biz 3 il müddətinə salırıq. Mən istəyirəm ki, bu, götürülsün. Əgər kimsə istəyirsə, getsin, imtahan versin. Əmək haqqının artmasını istəmirsə, imtahan verməsin. 5 il gözləsin, 5 ildən sonra məcburi qaydada imtahan verəcək. Amma o müddət ki, 3 il müddətinədir, indi biz 5-dən 3-ə salırıq? 3 il müddətinə o, sertifikasiyaya cəlb olunmayacaq, onda həmin müəllimlə digər dərs deyən müəllimin əmək haqqında böyük fərq yaranır. Ona görə də, hesab edirəm ki, bu məsələ diqqət mərkəzində olmalıdır.

Elm haqqında sahədə ciddi işlər aparılmalıdır. Xüsusi ilə türkologiya və Cənubi Azərbaycan məsələsinə elmdə ciddi yer ayrılmalıdır. Keçmişdə Cənubi Azərbaycan ədəbiyyatı var idi, institut fəaliyyət göstərirdi. Sovet hökumətinin vaxtında "Türkologiya" jurnalı buraxılırdı. Bu gün o da yoxdur. Biz türk dünyası yaradırıq. Türk dünyasının investisiyası haqqında qərar qəbul elədik. Axı, bunun bir ədəbiyyatı, tarixi, birgə materiallar olmalıdır. Hesab edirəm ki, elm bununla bağlı öz işini görməlidir.

Bütün vətəndaşlarımızı narahat edən peşə sahəsidir. Bütün nazirliklər akademiya açır. Bir dənə nazirlik bir dənə peşə məktəbi açmır. Yaxşı, o sahədə çalışan insanlara xidmət göstərən... Mən bir-bir tədqiqat apardım.

Bizim böyük şəhərlərimizdə – Mingəçevirdə, o boyda sənaye şəhərində 2 peşə məktəbi, Gəncədə 4 peşə məktəbi var. O peşə-texniki vacib olan sahədir. Əgər bizim ciddi şəkildə peşə-texniki məktəblərimiz olsa, gənclərimizin çoxu heç institutlara üz tutmayacaq. Çünki çoxları bu sahədə çalışmaq istəyir, öyrənmək istəyir. Sumqayıt böyük sənaye şəhəridir. Bu gün orada peşə-texniki məktəblərə ehtiyac var. Odur ki, peşə-texniki sahədə məsələ ciddi şəkildə qoyulmalıdır və hər struktura, hər şirkətə, hər təşkilata bir tapşırıq verilməlidir ki, ciddi bir peşə-texniki məktəb açılsın. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Siyavuş müəllim, etiraf edin ki, bütün çıxışınız elə birinci oxunuşa uyğun çıxışdır. Sadəcə, elə bir dənə təklif elədiniz ki, 3-5 il dəyişdirilsin. Xahiş edirəm, mən heç kimin sözünü kəsmək istəmirəm, hamıya çox böyük hörmətim var, ancaq biz gərək reqlamenti də gözləyək. Hörmətli həmkarlar, fasilə zamanıdır. Fasiləsiz?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Onda xahiş edirəm, ikinci oxunuşun qaydalarına uyğun çıxış edin. Vüqar müəllim çıxış elədi. Konkret, lakonik, hamısını da dedi. Səsə qoymağa etiraz edən var? Yoxdur.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bəli, bəlkə onu işçi qaydada eləyəsiniz?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Mən səsə qoyuram. Paketdə qanun layihələri çoxdur, görürsünüz. Maddələr üzrə və sonra bütövlükdə. 4-cü məsələ ilə bağlı, yəni "Təhsil haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi iki maddədən ibarətdir. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.01 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Mən 2-ci maddəni səsə qoyuram. Buyurun.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** İsa müəllim, səsverməni qurtaraq, mən Sizə söz verəcəyəm. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.02 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, 2-ci maddə də qəbul edildi.

İndi isə "Təhsil haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini ikinci oxunuşda səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.02 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

5-ci məsələnin səsverməsinə keçirik. "Elm haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. 8 maddədən ibarətdir. Mən onları dörd-dörd səsə qoyacağam. Xahiş edirəm, birinci 4 maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Qalan 4 maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Bunlar da qəbul edildi, çox sağ olun.

İndi xahiş edirəm, qanun layihəsinə bütövlükdə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 1 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

İndi isə 6-cı məsələnin səsverməsinə keçirik. Bu qanun layihəsi də "Peşə təhsili haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qanun layihəsi 2 maddədən ibarətdir. 1-ci maddəyə səs verək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.04 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə 2-ci maddəni səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 13.04 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.05 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

İndi isə 7-ci məsələnin səsverməsinə keçirik. Bu qanun layihəsində 3 maddə var. Mən onları bir-bir səsə qoyacağam. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.05 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.05 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

3-cü maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.06 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.06 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

İndi isə 8-ci məsələyə keçirik. Bu qanun layihəsində 7 maddə var. Mən onların üçünü bir, dördünü bir səsə qoyacağam. Xahiş edirəm, indi 1-ci, 2-ci və 3-cü maddələrə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.07 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddələr qəbul edildi.

4-cü, 5-ci, 6-cı və 7-ci maddələri səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.07 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.07 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

İsa müəllim, mən Sizə söz vermişdim. Siz nə isə bir məlumat vermək istəyirdiniz. Buyurun.

**İ.Həbibbəyli.** Əvvəla, mən də bu gün təqdim olunan büdcə zərfinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkəmizdə apardığı bütün islahatların həyata keçməsinə tam təminat verdiyini ayrıca qeyd etmək istəyirəm. Minnətdarlıq hissi ilə bildirmək istəyirəm ki, büdcə zərfində indiki şəraitdə elmin və təhsilin də inkişafı üçün mühüm müddəalar öz əksini tapmışdır.

Burada bu gün deputat həmkarım və çox böyük hörmət bəslədiyim Siyavuş müəllimin bəzi qeydlərinə aydınlıq gətirmək istəyirəm. Məlumat vermək istəyirəm ki, "Türkologiya" jurnalı Sovet hakimiyyəti illərindən Azərbaycanda çap olunub və bu "Türkologiya" jurnalının Azərbaycanda çap olunması Ulu Öndər Heydər Əliyevin Akademiya sistemində Azərbaycanın dilçilik və türkologiyanın əsas mərkəzlərindən birinə çevirmək istiqamətində atdığı böyük addımlardan biridir. İstəyirəm, Milli Məclisə və Azərbaycan cəmiyyətinə məlumat verəm ki, "Türkologiya" jurnalı fəaliyyətini heç vaxt dayandırmamışdır, əksinə, son illərdə onun çap olunan illik sayları artırılmışdır. Yaxşı bir xəbəri də demək istəyirəm ki, "Türkologiya" jurnalı beynəlxalq ictimaiyyətin diqqətini cəlb edib, "Index Copernicus" bazasına daxil edilmişdir. Bu gün də bu bazanın nüfuzlu jurnallarından biri kimi bütün türk dünyasında yayılması təmin edilir.

Bundan başqa, Akademiyada əlavə olaraq türkologiyanın inkişafını təmin etmək üçün "Türkoloji araşdırma" jurnalı da çap olunur. Bundan başqa, "Şərqşünaslıq araşdırmaları" jurnalı da çap olunur ki, bütün bunlar hamısı türkologiya elminin və dilçilik elminin inkişafına xidmət edir. Nəsimi adına Dilçilik İnstitutunda Azərbaycan dilinin ayrı-ayrı şöbələrinə dair bölmələrin olması ilə yanaşı, 6-7 şöbə fəaliyyət göstərir, ayrıca Türkologiya şöbəsi də

vardır ki, elmlər doktoru, professor İsmayıl Kazımov həmin şöbəyə uğurla rəhbərlik edir. Onların hər il bir neçə məqaləsi çap olunur.

Cənubi Azərbaycanla bağlı demək istəyirəm ki, Akademiyanın Ədəbiyyat İnstitutunda, Şərqşünaslıq İnstitutunda və Tarix İnstitutunda – 3 institutda Cənubi Azərbaycan ədəbiyyatı şöbələri fəaliyyət göstərir. Bu institutlarda bir yerdə 30 nəfərə yaxın elmi işçi çalışır. Onların içərində elmlər doktorları, elmlər namizədləri və gənc ədəbi qüvvələr də vardır.

2022-ci ildə Azərbaycan ədəbiyyatı tarixinin 10 cildliyini çap edirik ki, onun 2022-ci ildə çıxan 1029 səhifəlik IX cildi Cənubi Azərbaycan ədəbiyyatına həsr olunmuşdur. Tam bir cilddir və bu, ilk dəfədir, ölkə mətbuatına baxsanız, məlum olar ki, sosial media ilə biryerdə son 1 il ərzində dünyada gedən ictimai siyasi proseslərlə yanaşı, həmin o 3 şöbədə çalışan alimlərimizin ölkə mətbuatında yüzlərcə məqaləsi çap olunmuşdur.

Onu da demək istəyirəm ki, bir neçə ay bundan qabaq hər 3 şöbənin fəaliyyətini gücləndirmək məsələsi Rəyasət Heyətində müzakirə olunub. Hər 3 şöbəyə yeni gənc kadrlar cəlb olunub. Bu sahəni daha da inkişaf etdirməkdə, Siyavuş müəllim bildirib, əlbəttə ki, mən onunla həmrəyəm, biz də o istiqamətdə iş aparırıq. Amma mövcud potensial da kifayət qədərdir.

**Sədrlik edən.** Ətraflı məlumata görə çox sağ olun. Siyavuş müəllim, Siz həmin komitənin işinə tez-tez bir bələd olun. Bəxtiyar müəllim, bütün bu məlumatı əldə etmək üçün tez-tez dəvət edin. Siyavuş müəllim, Siz nəyə yazılmısınız?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Xeyr, xahiş edirəm, artıq qurtardıq. Sabir

müəllim, Siz indi hansı məsələ ilə bağlı çıxış etmək istəyirsiniz? Necə?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yaxşı, buyurun.

**S.Rüstəmxanlı**. Təşəkkür edirəm. Mən hörmətli İsa bəyin məlumatına bir şey əlavə edim ki, Dilçilik İnstitutunun buraxdığı türk dilli jurnalların birinin təsisçisi mənəm. Orada bir neçə cür jurnal çıxır. Yəni Akademiyada bu işlər görülür. Amma Siyavuş dostumuzun bir məsələyə diqqətini yönəltmək istəyirəm ki, elm sahəsində bu işlər görülür, amma təhsildə hörmətli Prezidentin Güney Azərbaycanı ilə bağlı o ideyalarının, fikirlərinin həyata keçirilməsi üçün kadrlar yetişdirmək məsələsinə baxılmalıdır. Güney Azərbaycandan 1 nəfər uşaq da burada dövlət təqaüdü ilə oxudulmur. Ona xüsusi diqqət vermək lazımdır. Dövlət Miqrasiya Xidməti Güneydən gələnlərin hamısını qısa müddətdə geri göndərir. Onlar gəlməlidir, münasibətlər qurulmalıdır. Məncə, o sahədə dövlət siyasəti ciddi şəkildə yürüdülməlidir və məsələyə diqqət artırılmalıdır. Akademiyada nəzəri işlər görülür, praktiki işləri görmək lazımdır. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, biz gündəliyin məsələlərinə keçirik. 9-cu məsələ. Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, "Torpaq islahatı haqqında" və digər 7 qanunda dəyişiklik edilməsi barədə  qanun layihəsi üçüncü oxunuşa təqdim edilir. Qanun layihəsinə Aqrar siyasət komitəsində baxılıb və mən hörmətli Tahir müəllimdən xahiş edəcəyəm, məlumat versin. Tahir müəllim, buyurun.

**T.Rzayev,** *Milli Məclisin Aqrar siyasət komitəsinin sədri.*

Çox sağ olun, hörmətli sədr. Hörmətli sədr, qanunlarda edilmiş dəyişikliklərlə bağlı müzakirələr zamanı elə bir əlavə təklif və rəy bildirilməmişdir. Ona görə də səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Hörmətli həmkarlar, qanun layihəsinə bir neçə komitədə də baxılmışdır. Birinci komitə Hüquq siyasəti və dövlət quruculuğu komitəsidir və mən komitənin üzvü hörmətli Nurlan Həsənova söz verirəm. Nurlan müəllim, bu sizin komitənizin məsələsidir, Siz təqdim edin. Buyurun.

**N.Həsənov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Hörmətli Sahibə xanım, komitənin rəyi müsbətdir.

**Sədrlik edən.** Çox sağ olun. Tahir müəllim, sizin komitədə də baxılıb. Buyurun, Siz də rəy bildirin.

**T.Mirkişili**. Hörmətli xanım sədr, bizim komitənin də rəyi müsbətdir. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin rəyini bildirmək üçün mən, Sadiq müəllim, Sizə söz verirəm. Buyurun, Sadiq Qurbanov.

**S.Qurbanov,** *Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri.*

Dəyərli Sahibə xanım, bizim də komitənin rəyi müsbətdir.

**Sədrlik edən.** Regional məsələlər komitəsinin rəyini bilmək üçün mən komitənin üzvü Səbinə xanıma söz verirəm. Səbinə Xasayeva, buyurun.

**S.Xasayeva,** *Milli Məclisin Regional məsələlər komitəsinin üzvü.*

Hörmətli xanım sədr, bizim də komitəmizin rəyi müsbətdir, səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, qanun layihəsi barədə kimsə çıxış etmək istəmir və mən qanun layihəsini səsə qoyuram. Buyurun. Bu, üçüncü oxunuşdur.

| **Səsvermənin nəticələri** | (saat 13.15 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin növbəti 4 məsələsi uyğunlaşdırma xarakteri daşıyır. Ona görə də “Normativ hüquqi aktlar haqqında” Konstitusiya Qanununun tələbinə əsasən bir oxunuşda qəbul ediləcək. Gündəliyin 10-cu məsələsinə keçirik və bu məsələ “Əhalinin sağlamlığının qorunması haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir və məsələyə dair məlumat vermək üçün mən Səhiyyə komitəsinin sədri hörmətli Əhliman müəllim Əmiraslanova söz verirəm. Əhliman müəllim, buyurun.

**Ə.Əmiraslanov,** *Milli Məclisin Səhiyyə komitəsinin sədri.*

Hörmətli Sahibə xanım, hörmətli millət vəkilləri, “Əhalinin sağlamlığının qorunması haqqında” Azərbaycan Respublikası Qanununun 12-ci maddəsinin səkkizinci hissəsində “orqanları” sözünün “orqanının müəyyən etdiyi qurum” sözləri ilə əvəz edilməsi təklif edilir. Qanunda təklif olunan dəyişiklik dəqiqləşmə xarakteri daşıyır. Qanun layihəsini dəstəkləməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əhliman müəllim. Yazılan var. Tahir Kərimli. Buyurun, Tahir müəllim.

**T.Kərimli.** Təşəkkür edirəm, hörmətli sədr. Hörmətli həmkarlar, sanitariya-epidemioloji sağlamlıq haqqında danışmaq istəyirdim, amma ikinci oxunuşun tələbinə görə vaz keçdim. Amma indi icazənizlə, xırda məlumatlar verim. Biz görürdük ki, sovet dövründə sanitariya-epidemioloji dezinfeksiya işləri aparılırdı, evlərə gəlirdilər, içini, çölünü, bağları, hər yanı dezinfeksiya edirdilər. İndi nəinki rayonlarda, rayon mərkəzlərində, Bakı şəhərinin özündə də, şəxsən bizim yaşadığımız ərazidə də ağcaqanad əlindən dayanmaq olmur. Nə gecə, nə də gündüz var. Hətta əvvəllər bəzi rayonlarda ancaq günəş batandan sonra çıxardılar, indi o qədər çoxalıblar ki, gündüz vaxtı da camaata zülm edirlər. Bu, əhalinin sağlamlığına ciddi ziyandır, yenidən malyariya yarana bilər. Bunun kökü sovet dövründə kəsilib. Sanitariya-epidemioloji xidmətə diqqət etmək lazımdır.

İkinci bir məsələ. Mənim yaşadığım Ağsu, İsmayıllı şəhərində uşaqlar küçə itlərinin əlindən məktəblərə, bağçalara gedə bilmirlər. Böyüklər hərəkət edə bilmirlər. Hər yan küçə itləri ilə doludur. Yüksək cərimələr tətbiq edirlər, insanların əsəblərini də pozublar. Bəzən dişləyir, quduzluq, xəstəlik əmələ gəlir. Bu da sağlamlıq məsələsidir. Mən xahiş edirəm ki, bu məsələyə də diqqət edək. Nə bilim, Koreyaya, Çinə sataq. Hərəkət etmək mümkün deyil. Belə şey olmaz.

Üçüncü, xırda bir məsələni də demək istərdim. Əvvəllər də demişdim. Zirədə ilan zavodu var idi. Hətta mənim Ağsudan olan həmkarım oranın direktoru idi, Kərimov. Hər il orada əczaçılıq üçün zəhər yığılırdı, milyonlarca dollara xaricə satılırdı. Ora ləğv olundu, çöllərə

buraxdılar. İndi ilanlar məktəblərin zirzəmilərinə daxil olur, təhlükə törədir, bəzən sürü ilə zəhərli ilanlar baş alıb gedir, insanları qorxudur, dağda, aranda... Mən hesab edirəm, bunlar əhalinin sağlamlığı ilə bağlı məsələlərdir və sanitariya məsələləridir. Mən xahiş edirəm ki, sovet dövründəki kimi bu məsələlərə diqqət yetirilsin. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, biz qanun layihəsini səsə qoyacağıq. Xahiş edirəm, qanun layihəsinin qəbul olunmasına münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.19 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi qəbul edildi.

İndi isə 11-ci məsələyə keçirik. "Bədən tərbiyəsi və idman haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qanun layihəsinə Gənclər və idman komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən Milli Məclis sədrinin müavini, komitənin sədri hörmətli Adil Əliyevə söz verirəm. Adil müəllim, buyurun.

**A.Əliyev,** *Milli Məclis sədrinin müavini, Gənclər və idman komitəsinin sədri.*

Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputat həmkarlarım, hörmətli media mənsubları, hamınızı salamlayıram. Müzakirəyə çıxarılan "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi ilə bağlı Azərbaycan Res-

publikası qanununun layihəsinə əsasən həmin qanunun "Bədən tərbiyəsi və idman təşviqi və təbliği" adlı 13-cü maddəsinin birinci bəndində "açıqlanmasını" sözü "təşviqini" sözü ilə əvəz olunur. Bu dəyişikliyi etməklə üslubiyyat baxımından qanunun mətnində terminoloji ardıcıllıq, eləcə də 13.1-ci maddənin adı ilə məzmunu arasında uyğunluq təmin olunur. Mahiyyət etibarı ilə "təşviq" sözü qanunun məqsədini daha dolğun və səmərəli surətdə ifadə edir. Çünki qanunun hazırkı mətnində idman və bədən tərbiyəsinin sosial əhəmiyyətinin və insanların sağlamlığındakı rolunun açıqlanmasından söhbət gedir. Çünki təklif edilən layihədə idman və bədən tərbiyəsinin sosial əhəmiyyət və insanların sağlamlığındakı rolu nəinki açıqlanır, onun təşviqi ön plana çəkilir. Xahiş edirəm, bu dəyişikliyə səs verəsiniz. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Adil müəllim. Çıxış etmək istəyən yoxdur. Qanun layihəsi, sadəcə, uyğunlaşdırma xarakteri daşıyır. İndi isə mən qanun layihəsini səsə qoyuram. Xahiş edirəm, münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.21 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi qəbul edildi.

Hörmətli həmkarlar, 12-ci məsələyə keçirik. Bu məsələ də "Özəl tibb fəaliyyəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Əhliman müəllim, sizin

komitədə baxılıb, xahiş edirəm, məlumat verin.

**Ə.Əmiraslanov**. Hörmətli Sahibə xanım, hörmətli həmkarlar! "Özəl tibb fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 13-cü maddəsinin dördüncü hissəsinə "müəssisələr" sözündən sonra "özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslər" sözlərinin əlavə olunması təklif edilir. Qanun layihəsi "Nağdsız hesablaşmalar haqqında" Qanunun icrası ilə bağlı hazırlanmışdır və uyğunlaşdırma xarakteri daşıyır. Bu qanun layihəsini də dəstəkləməyinizi xahiş edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əhliman müəllim. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.22 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi qəbul edildi.

İndi isə 13-cü məsələyə keçirik. "Yerin təki haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində baxılıb. Sadiq müəllim, buyurun, məlumat verin.

**S.Qurbanov.** Dəyərli Sahibə xanım, hörmətli həmkarlar! Bu qanun layihəsi də uyğunlaşdırma xarakterlidir. Mülki Məcəllənin tələbinə uyğun olaraq, adıçəkilən qanunda "hərrac" anlayışının dəqiqləşdirilməsi həyata keçirilir. Xahiş edirəm, səs verəsiniz.

**Sədrlik edən.** Çox sağ olun, Sadiq müəllim. Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.23 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi qəbul edildi.

Sonuncu məsələyə keçirik, hörmətli həmkarlar. 14-cü məsələ "Məhkəmə-Hüquq Şurası haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Onu da qeyd edim ki, qanun layihəsi birinci oxunuşda müzakirəyə təqdim edilir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin üzvü hörmətli Nizami Səfərova söz verirəm. Nizami müəllim, buyurun.

**N.Səfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Hörmətli xanım sədr, hörmətli deputatlar! Azərbaycan Respublikasının Prezidenti qanunvericilik təşəbbüsü qaydasında "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini Milli Məclisin müzakirəsinə təqdim etmişdir. Layihəni konseptual cəhətdən qiymətləndirərək mübaliğəsiz onun fundamental təşkilati-hüquqi əhəmiyyətini vurğulamaq lazımdır. Bu hüquqi sənəd Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi altında məhkəmə-hüquq sistemində aparılan islahatların mühüm mərhələsi və

həyata keçirilən sistemli və irimiqyaslı tədbirlərin məntiqi nəticəsidir.

Hörmətli deputatlar, layihənin təqdimatı ilk növbədə onun hazırlanmasını şərtləndirən amillərin açıqlanmasını tələb edir. Məlum olduğu kimi, Azərbaycan Respublikası Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanı, bütövlükdə, məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üçün ən ciddi yol xəritəsi rolunu oynamışdır. Fərmanda qeyd olunduğu kimi, ölkəmizin davamlı tərəqqisinin təmin edilməsi üçün bütün sahələrdə həyata keçirilən islahatlar məhkəmə-hüquq sisteminin inkişafında yeni mərhələnin başlanmasını və bu sahədə islahatların dərinləşməsini zəruri edir. Xüsusi olaraq, qeyd etmək lazımdır ki, müzakirəyə təqdim edilən qanun layihəsi Azərbaycan Respublikası Konstitusiyasının 7-ci maddəsinin 3-cü hissəsində təsbit olunan hakimiyyətin bölünməsi prinsipinin ardıcıl formada həyata keçirilməsi istiqamətində vacib əhəmiyyətə malikdir. Çünki artıq Məhkəmə-Hüquq Şurasında sədrliyi məhkəmə hakimiyyətinin təmsilçisi olan hakim həyata keçirəcək.

Digər mühüm məqam ondan ibarətdir ki, Azərbaycan Respublikası sivil Avropa dövlətləri ailəsinin üzvü kimi, beynəlxalq standartlara uyğun olaraq, öz məhkəmə sistemində islahatlar aparır və bu zaman beynəlxalq qurumların tövsiyəsinə diqqətlə yanaşır. Xatırlatmaq istərdim ki, bu cür tövsiyələrdən biri Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupu "GRECO"nun 4-cü dəyərləndirmə raundu çərçivəsində Azərbaycan Respublikası üzrə dəyərləndirmə məruzəsinin 5-ci bəndində öz əksini tapmışdır və onu olduğu kimi nəzərinizə çatdırmaq istərdim. Məhkəmə-Hüquq Şurasının rolu məhkəmə hakimiyyətinin

tərkibində gücləndirilsin və bu, xüsusi ilə onun üzvlərinin yarısından az olmayan hissəsinin birbaşa seçilmiş və ya həmkarları tərəfindən təyin edilən hakimlərdən ibarət olması və Məhkəmə-Hüquq Şurası sədrinin hakim olan üzvlərindən seçilməsi yolu ilə təmin edilsin. Həmçinin Avropa Şurası Nazirlər Komitəsinin "Hakimlər haqqında: müstəqillik, səmərəlilik və məsuliyyət adlanan" 2010-cu il 17 noyabr tarixli Tövsiyəsinin 27-ci bəndini nəzərdə tutur ki, məhkəmə şuraları tərkibinin azı yarısını hakimlər təşkil etməlidir və onlar hakimlərin birlikləri tərəfindən seçilməlidirlər.

Hörmətli deputatlar, layihəyə əsasən qanunda bir sıra yeniliklər nəzərdə tutulub. İlk növbədə Məhkəmə-Hüquq Şurasının təşkil olunması qaydası dəyişir və şuranın tərkibinə Milli Elmlər Akademiyası tərəfindən təyin edilən hüquqşünas və hakimlərin konfransı tərəfindən seçilən hüquq ictimaiyyətinin nümayəndəsi daxil edilir. Həmçinin Məhkəmə-Hüquq Şurasının tərkibinə təyin və ya daxil edilən şəxslər hüquqşünas ixtisası üzrə 5 il deyil, 10 ildən artıq iş stajına malik olmalıdırlar.

Qanun layihəsinə əsasən kassasiya, apellyasiya və birinci instansiya hakimlərinin təmsil olunduğu hakimlərin konfransı təsis edilir və həmin konfrans Məhkəmə-Hüquq Şurasının müvafiq üzvlərini açıq səsvermə yolu ilə seçir. Hakimlərin seçki komitəsinin tərkibində dəyişiklik edilərək bura Milli Məclis Aparatının nümayəndəsi və apellyasiya instansiyasının dörd hakimi daxil edilir. Ən mühüm dəyişiklik 26-cı maddədə nəzərdə tutulur və Məhkəmə-Hüquq Şurasının sədri onun hakim üzvləri sırasından seçilir. Hörmətli deputatlar, qanun layihəsinin birinci oxunuşda qəbul edilməsinə səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun, Nizami müəllim. Yazılanlar var. Mən sözü Fazil müəllimə verirəm. Fazil Mustafa. Buyurun.

**F.Mustafa**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Bəzən Milli Məclisdə dəfələrlə səsləndirilən fikirlər o vaxt mötəbərlik qazanır ki, bunu Avropa Şurası da hansısa sənədində qeyd eləyir. İllərdir, burada da bu səslənirdi ki, Məhkəmə-Hüquq Şurası hakimlərin üstünlüyü ilə formalaşmalıdır. Sevindiricidir ki, nəhayət, belə bir qanun layihəsi bizə təqdim olundu. Bu, olduqca müsbət, vacib, zəruri bir dəyişiklikdir və bu dəyişikliyin edilməsi həm də Məhkəmə-Hüquq Şurasının yaranma təyinatına uyğun onun hədəflərinə çatmağın birinci, bəlkə də ən vacib mərhələsini təmin eləyəcəkdir. Necə ki, birinci maddədə göstərilir ki, Məhkəmə-Hüquq Şurasının əsas məqsədi hakimlərin və məhkəmə sisteminin müstəqilliyinin təmin edilməsi istiqamətində fəaliyyətdir. Yəni bunu təmin etmək üçün də mütləq onun müvafiq icra orqanından, başqa qurumlardan asılılığını azaltmaq, daha çox peşəkar fəaliyyəti üzərində bunun seçim yolunun müəyyən olunması vacibdir. Bunu dəfələrlə burada deputat həmkarımız Qüdrət bəy də və başqa millət vəkilləri, həmkarlarımız da vurğulamışdılar. Mən hesab edirəm ki, müsbət bir dəyişiklikdir.

Burada bir sıra məsələlər artıq məhkəmə hakimlərinin bilavasitə özlərinin iştirakı ilə bir sıra daha konkret istiqamətlərdə problemlərin həlli mümkün olacaqdır. Vəkillər Kollegiyasının nümayəndəsinin qalması müsbət haldır. Milli Elmlər Akademiyasından bir nümayəndənin salınması da müsbət bir haldır. Burada bir hüquq ictimaiyyətinin hakimlərin konfransı tərəfindən seçilən nümayəndəsi məsələsinin bir qədər açılışı verilsə, mənim fikrimcə, daha

yaxşı olar. Çünki bir az mücərrəd anlayışdır. Qanunda bu mücərrəd anlayışlardan qaçmaq daha doğru olar. Bəlkə ixtisaslaşmış hüquq sahəsində qeyri-hökumət təşkilatları istiqamətini qabartmaq daha doğru olar. Məsələn, Azərbaycanda bizim hörmətli Əli müəllimin rəhbərlik elədiyi Azərbaycan Hüquqşünaslar Konfederasiyası var. Bəlkə bura konfederasiya istiqamətində bir nümayəndənin salınması daha doğru ola bilər. Yaxud da bu sahədə olan hüquq profilli başqa qeyri-hökumət təşkilatlarının keçirdiyi konfrans, yaxud bir yığıncaq şəklində bunun seçilməsi məqsədəuyğun ola bilər. Hər halda bu varianta da baxıla bilər. Bir az daha aydınlaşma olsun deyə, bu məsələnin gündəmə gətirilməsini vacib sayıram.

Bütövlükdə, Məhkəmə-Hüquq Şurası Azərbaycanda normal fəaliyyət göstərib. Ən azı bu istiqamətdə nöqsanların ortadan qaldırılmasında rolu olubdur. Mən Məhkəmə-Hüquq Şurasına rəhbərlik eləmiş hörmətli ədliyyə naziri Fikrət Məmmədova da fəaliyyətinə görə təşəkkür edirəm. Amma prinsip olaraq bunun dəyişməsinin vaxtı çatmışdır. Məncə, bu dəyişmə həm də xaricdə məhkəmənin müstəqilliyi ilə bağlı bizim səsləndirdiyimiz fikirlərin, sadəcə, bir ritorika, sadəcə, bir pafos olduğunu ortadan qaldırır. Artıq gerçək mənada bu istiqamətdə hakimlərin qərar verdiyi bir qurum olduğu barədə rəy yaratmış olur. Ona görə də, məncə, biz bundan sonra da bu istiqamətdə təkmilləşməyə getməliyik. Bu, sonuncu variant deyil, daha irəlidə praktik fəaliyyətdə də bunu görərik.

Burada Milli Məclis Aparatının təmsilçisinin də hakimlərin seçki komissiyasında olması müsbət haldır. Milli Məclisin, ümumiyyətlə, bu proseslərdə hansısa formada təmsil olunması ancaq işin faydasınadır. Çünki seçkili orqandır və bu orqanın, Aparatın da idarəetmədə iştirak

etməkdə yer alması, məncə, müsbət haldır. Mən bir məsələyə də diqqət yetirmək istəyirəm. Milli Məclisin ora təyin elədiyi şəxsin vaxtaşırı Milli Məclisə Məhkəmə-Hüquq Şurasında fəaliyyəti ilə bağlı məlumatlandırma istiqamətində çıxış etməsi də bir ənənəyə çevrilməlidir. Bu da vacibdir. Çünki biz orada olan tendensiyaları izləməliyik və onunla bağlı hər hansı qanun, qərar olanda da o istiqamətdə daha bilgili, daha məlumatlı şəkildə müdaxilə etmək imkanımız olacaqdır. Mən bu qanun layihəsini dəstəkləyirəm, səs verəcəyəm və deputat həmkarlarımı da səs verməyə çağırıram. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Fazil müəllim. Qüdrət Həsənquliyev. Qüdrət müəllim. buyurun.

**Q.Həsənquliyev**. Təşəkkür edirəm. Hörmətli sədr, hörmətli həmkarlar. Doğrudan da, bu dəyişiklik çox mütərəqqidir. Hesab edirəm ki, hakimlərin müstəqilliyinə öz töhfəsini verəcək, yəni hakimiyyətin bir qanadının nümayəndəsinin hakimiyyətin digər qanadının, xüsusən də hakimlərin özünüidarə orqanlarının başında dayanması, doğrudan da, suallar doğururdu. Bu problem, mən çox şadam ki, aradan qaldırılır.

Hörmətli sədr, mən artıq qeyd etdim ki, Məhkəmə-Hüquq Şurası, əslində, hakimlərin və məhkəmələrin özünüidarə orqanıdır. Ona görə əvvəlki fikrimdə yenə də qalıram ki, Məhkəmə-Hüquq Şurasının üzvləri yalnız hakimlərdən ibarət tərkibdə formalaşmalıdır. Qanunda nəzərdə tutulan digər şəxslər var: Milli Məclisin nümayəndəsi, Vəkillər Kollegiyası və sair müvafiq icra hakimiyyəti orqanının nümayəndəsi. Bunların hamısı məşvərətçi səs hüquqlu statusla şuranın üzvü ola bilərlər. Vaxtı ilə də bizim Ali Məhkəmənin Plenumuna daxili işlər naziri də, ədliyyə naziri də, başqa vəzifəli şəxslər də dəvət olunurdular,

orada çıxışlar edirdilər, fikirlərini bildirirdilər. Amma plenum özü müstəqil qərar qəbul edirdi. İndi də düşünürəm ki, o praktikadan istifadə olunmalıdır. Məşvərətçi səs hüquqlu üzvlük məsələsi də artıq var. Bilirsiniz ki, Mərkəzi seçki Komissiyasından tutmuş, digər seçki komissiyalarında bu statuslu şəxslər var. O cümlədən də hakimlərin seçki komitəsinin də üzvləri yalnız hakimlərdən ibarət formalaşmalıdır. Mən hətta komitə iclasına təklif etdim ki, Məhkəmə-Hüquq Şurasının üzvlərinin sayı da indiki vəziyyətdə 15-dən 11-ə endirilsin. Əlbəttə, orada fərqli fikirlər söylənildi ki, Avropada, çox ölkələrdə bu say 15 nəfərdir.

Hörmətli sədr, Avropada hakimlərin sayı hər 100 min nəfərə görə bizdə olanlardan 3 dəfə artıqdır. Ona görə də onlarda o say çoxala bilər. Mən hesab edirəm ki, 11 nəfər yetərlidir. Hakimlərin seçki komitəsi də 3 nəfərdən ibarət təşkil oluna bilər. Ora, qeyd etdiyim kimi, digər dövlət qurumlarının nümayəndələri də ya məşvərətçi səs hüquqlu üzvlə, ya da müşahidəçi kimi dəvət oluna bilər. O cümlədən də hesab edirəm ki, Məhkəmə-Hüquq Şurasının iclaslarına müzakirə olunan məsələlərlə bağlı həmin sahə üzrə mütəxəssis-ekspert alimin dəvət olunması daha faydalı olar, nəinki tutaq ki, Elmlər Akademiyasından bir nəfər təyin olunur.

Hüququn sahələri o qədər müxtəlifdir, o qədər yarım sahələr, o qədər institutlar var ki, yəni bir sahəni bilən digər sahəni bilməyə də bilər. Ona görə də sahələr üzrə ekspert alimin dəvət olunması daha məqsədəuyğundur. Misal üçün, ekologiya üzrə bir alim ora təyin olunursa, o, çox da faydalı olmaz, nəinki dediyim kimi, müzakirə olunan məsələ ilə bağlı müxtəlif sahəli alimlərin olması. Yaxud hüquq ictimaiyyəti o qədər genişdir ki, orada hüquq

ictimaiyyətinə pensiyada olan alimlər də, universitetlərin müəllimləri də, aspirantlar da, hüquq mühafizə orqanlarının əməkdaşları da daxildir. Ümumiyyətlə, hüquqşünasların hamısı hüquq ictimaiyyətinin nümayəndəsi sayılır. Yəni orada bunların arasından bir nəfər nümayəndə necə seçiləcək?

Düşünürəm ki, dəyişikliklər çox mütərəqqidir. Hər bir halda mən buna səs verəcəyəm. Amma mənim təkliflərim üzərində düşünülsə, düşünürəm ki, bu, daha məqsədəuyğun olar. Bir də hakimlərin konfransının təşkili forması da, hesab edirəm ki, uğurlu deyil. Məsələn, Ali Məhkəmə özünün iclasında, – söhbət 37 hakimdən gedir, – onlar Ali Məhkəməyə öz nümayəndələrini seçə bilər. Apellyasiya məhkəmələri ya ümumi yığıncaqda, ya da onların seçdikləri şəxslər konfransda öz nümayəndələrini seçə bilər, birinci instansiya məhkəmələri də öz üzvlərini seçə bilər. Ümumiyyətlə, hesab edirəm ki, Konstitusiya Məhkəməsinin nümayəndəsi və digərləri də Məhkəmə-Hüquq Şurasının iclasında məşvərətçi səs hüquqlu statusla iştirak edə bilərlər.

Sonda söyləmək istəyirəm ki, "Normativ hüququ aktlar haqqında" Konstitusiya Qanununda qeyd olunub ki, qanunun adı qanunun mahiyyətinə uyğun gəlməlidir. Məhkəmə-Hüquq Şurası. Hüquq burada nəyi özündə ehtiva edir? Bu ya Məhkəmə Şurası, ya da Hakimlərin Özünüidarəetmə Şurası olmalıdır. Yəni burada hüquq Məhkəmə-Hüquq Şurası...

**Sədrlik edən.** Sağ olun. Etibar Əliyev. Buyurun.

**E.Əliyev.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Əlbəttə ki, mənim söyləyəcəyim fikirlər subyektiv xarakter daşıyır. Əslində, Məhkəmə-Hüquq Şurasının hər iclasında ən azı 5-10 hakim cəzalandırılır. Hətta həbs olunanlar da

olur. Hakimlər necə bu şurada çoxluq təşkil edə bilərlər? Hakim öz həmkarlarını necə cəzalandıra bilər? Bu, maraqların toqquşmasıdır. Mən ötən iclasların birində dedim ki, hakimlərin diplomları araşdırılsın. Çoxlarının xoşuna gəlmədi. Hətta birinci instansiya məhkəməsində üç hakim üzv kimi nəzərdə tutulur. Hörmətli deputat həmkarlarımız da, bu hakimlərin əksəriyyəti 5 il deyil, 3 il təcrübəsi ola-ola hakim təyin olunmuşdular.  Hətta göstərilir ki, sədrliyi də hakim edəcək. Əslində, bu qurum müstəqil olmalıdır. 10 nəfərin 5 nəfərə nisbəti yaranır. Mən üzvlərin sayının azalmasının tərəfdarıyam. Düşünürəm ki, Ali Məhkəmə və Konstitusiya Məhkəməsinin hərəsindən 2 nəfər hakim kifayət edər. Burada təcrübəli vəkillərin sayını artırmaq lazımdır. Mən Fazil bəyin fikri ilə tam razıyam. QHT sektorunda xeyli sayda təcrübəli və nüfuzlu vəkillər var. Onlar bu qurumun nüfuzunu yüksəldə bilərlər. Həmçinin Mediasiya İnstitutundan olan şəxsləri də Məhkəmə-Hüquq Şurasının tərkibinə daxil etmək olar. Biz "Mediasiya haqqında" Qanun qəbul etdik. Biz həmişə qanunların icrasından narazılıq bildirirdik. İnstitutun vəziyyəti necədir? Niyə bu institut ayaq tutmur? Düşünürəm ki, bu institutdan da tanınmış hüquqşünasların Məhkəmə-Hüquq Şurasının tərkibinə daxil edilməsi bu qurumun nüfuzunu yüksəldə bilər.

Mən Qüdrət bəylə razıyam. Bəli, konfrans məsələsi də xeyli mücərrəddir və izahı da verilməlidir. Xüsusi ilə Elmlər Akademiyası tərəfindən təyin edilən hüquqşünasın olması müsbət haldır. Hüquq ictimaiyyətinin hakimləri konfrans tərəfindən seçilən nümayəndəsi – bu da qeyri-müəyyən bir məsələdir. Hüquq ictimaiyyəti deyəndə biz nəyi nəzərdə tuturuq? Bura hansı qurumlar daxildir? Bəlkə hüquqşünaslar bunun da izahını versinlər?

Mən hesab edirəm ki, Məhkəmə-Hüquq Şurası öz nü-

fuzunu qaldırmalıdır. Məhkəmə-Hüquq Şurası daha çox müstəqil olmağa doğru getməlidir. Məhkəmə-Hüquq Şurasının iclaslarına baxın. Yalnız və yalınız hakimlərin cəzalandırılması, hakimlərin işlərində yol verdiyi nöqsanlara görə onlara töhmətin verilməsi ilə nəticələnən iclaslardır. Düşünürəm ki, üçüncü oxunuşda bizim bəzi təkliflərimiz nəzərə alınacaq. Təşəkkür edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Kamran Bayramov. Buyurun.

**K.Bayramov.** Çox sağ olun. Hörmətli xanım sədr, sözün düzü, çıxış etmək fikrim yox idi. Amma mən də müzakirəmizə təqdim olunmuş "Məhkəmə-Hüquq Şurası haqqında" Qanunda edilən dəyişiklikləri dəstəkləyirəm. Kifayət qədər mütərəqqi dəyişikliklərdir. Şuranın tərkibinin daha demokratik qaydada formalaşmasına, eyni zamanda, keyfiyyət tərkibinin yaxşılaşdırılmasına və nəticə etibarı ilə, ümumiyyətlə, tərkibinin təkmilləşdirilməsinə xidmət edən dəyişikliklərdir.

Mən hörmətli həmkarım Qüdrət müəllimin qeydləri ilə bağlı münasibət bildirmək istərdim. Əslində, mən düşünürəm ki, Məhkəmə-Hüquq Şurasında hakim korpusunda məhkəmə hakimiyyəti qolunun nümayəndələrindən başqa digər hakimiyyət qollarının nümayəndələrinin iştirakı olduqca vacib bir məsələdir. Biz onun cavabını elə hörmətli həmkarım Etibar müəllimin çıxışında gördük ki, hakimlər niyə hakimləri cəzalandırır. Burada müəyyən paritet olmalıdır. Mən bir çox dövlətlərdə, xüsusi ilə də Avropa dövlətlərində təcrübəyə baxmışam. Vaxtı ilə Ədliyyə Nazirliyində çalışmışam və bu məsələ ilə bağlı təhlillər aparmışdıq. Əslində, bir çox dövlətlərdə, xüsusi ilə də Avropa dövlətlərində, adları fərqli olsa da, Ali Magistratlar Şurası var, Polşada ÜmumPolşa Məhkəmə Şurası var. Yəni onların formalaşdırılma mexanizmi eynidir.

Yəni hakimiyyətin bütün qollarının nümayəndələri həmin şuranın işində iştirak edir, tərkibini formalaşdırır. Mən düşünürəm ki, bu baxımdan bu, normal bir haldır və artıq özünü təsdiq edib. Biz bilirik ki, Məhkəmə-Hüquq Şurası yaradıldığı andan bu günə qədər kifayət qədər böyük işlər görüb, hakimlərin seçilməsi, fəaliyyətinin qiymətləndirilməsi, inzibati məsuliyyətə cəlb olunması və ümumiyyətlə, ədalət mühakiməsinin səmərəsinin artırılması istiqamətində çox böyük işlər görüb. Bunu hər kəs etiraf etməlidir.

Eyni zamanda, bir məsələyə də toxunmaq istərdim. Qüdrət müəllim hakimlərin seçki komitəsində bizim təmsil etdiyimiz qurumun – Milli Məclis Aparatının nümayəndəsinin iştirakı ilə bağlı qeyd etdi. Mən düşünürəm ki, bu, lazımi və gözəl bir təklifdir. Çünki biz onu nəzərə almalıyıq ki, hakimlər bu gün qanunları tətbiq edən vəzifəli şəxslərdir və onların seçilməsi prosesində həmin qanunları yaradan və qəbul edən qurumun aparatının nümayəndəsinin iştirakı olduqca vacibdir. Mən misallar da gətirmək istəyirəm. Mən bilirəm ki, bizim Milli Məclis Aparatında çox istedadlı, təcrübəli insanlar var. Aparatda işləmiş şöbə müdiri Lətif Hüseynov bu gün Avropa Məhkəməsinin hakimi vəzifəsində çalışır. Şöbə müdirinin müavini işləmiş Səyyad Kərimov bu gün Ali Məhkəmənin hakimi vəzifəsində çalışır. Mən düşünürəm ki, bu baxımdan Milli Məclis Aparatının nümayəndəsinin hakimlərinin seçki prosesində və komitəsində iştirakı lazımi bir təklifdir və bunu alqışlayıram. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, indi isə mən sizdən xahiş edəcəyəm, qanun layihəsinə birinci oxunuşda münasibət bildirin. Buyurun, səsə qoyuram.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.45 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bu gün yaz sessiyasının sonuncu iclasıdır. Konstitusiyanın 88-ci maddəsinin II hissəsinə uyğun olaraq, 83 deputat növbədənkənar sessiyanın çağırılması üçün mənə müraciət edib. Mən bu barədə sərəncam imzalamışam və iyun ayında bizim növbədənkənar sessiyamız olacaq.

İndi mən sizə yaz sessiyasının yekunları barədə qısa məlumat vermək istəyirəm. İlk öncə onu söyləyim ki, Milli Məclisin yaz sessiyasında 14 iclas keçirilmiş, 91 qanun qəbul edilmişdir. Başqa sözlə, 1 yeni qanun qəbul olunmuş, 72 qanunda dəyişiklik edilmiş, 18 beynəlxalq müqavilə təsdiq olunmuşdur.

Milli Məclis Konstitusiya ilə nəzərdə tutulan qanunvericilik səlahiyyətlərini tam həcmdə yerinə yetirmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən quruculuq işlərinin və islahatların qanunvericilik bazası daha da möhkəmləndirilmiş və təkmilləşdirilmişdir.

Hörmətli həmkarlar, yaz sessiyasının ən önəmli hadisəsi xalqımızın Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin 100 illik yubileyi münasibəti ilə, bildiyiniz kimi, Milli Məclisin mayın

16-da keçirilən xüsusi iclası olmuşdur. Xarici ölkələrin 27 parlament sədrinin və sədr müavininin, 57 parlament üzvünün, 4 beynəlxalq parlament təşkilatının, eləcə də xarici dövlətlərin diplomatik korpusunun təmsilçilərinin iclasda iştirak etməsi, ümumiyyətlə, xarici ölkələrin 228 nümayəndəsinin Bakıya gəlməsi Ulu Öndərin Azərbaycan xalqı və dövləti qarşısında xidmətlərinin, dünya siyasət sənətinə verdiyi töhfələrin beynəlxalq miqyasda nə qədər yüksək qiymətləndirildiyini bir daha nümayiş etdirmişdir.

Hörmətli həmkarlar, yaz sessiyasında görülmüş işlər haqqında danışarkən qeyd etməliyəm ki, hakimiyyətin müxtəlif qolları arasında səmərəli əməkdaşlıq Milli Məclisin qarşısında dayanan vəzifələrin uğurla yerinə yetirilməsinə kömək göstərmişdir. Bununla əlaqədar mən parlamentlə hökumət arasında konstruktiv iş birliyini xüsusi vurğulamaq istəyirəm. Hökumətin müxtəlif strukturlarının, o cümlədən nazirliklərin və dövlət komitələrinin nümayəndələri mütəmadi olaraq Milli Məclisin və komitələrin iclaslarına dəvət olunmuş, qanun layihələrinin müzakirəsi zamanı onların rəyləri dinlənilmiş, eyni zamanda, deputatların bir sıra mülahizə və təklifləri də icra orqanları tərəfindən nəzərə alınmışdır.

Böyük ictimai əhəmiyyət daşıyan məsələlərin müzakirəsi və qanun layihələrinin keyfiyyətinin daha da yüksəldilməsi məqsədi ilə lazım gəldikdə ictimai dinləmələr keçirilməsi praktikasından istifadə edilmişdir. Belə ki, Milli Məclisin Gənclər və idman komitəsi “Heydər Əliyev – müasir Azərbaycan gənclər siyasətinin banisi” mövzusunda, İnsan hüquqları komitəsi “Dağları aşarkən: Qərbi Azərbaycana dinc və hüquqi qayıdış” mövzusunda, Mədəniyyət komitəsi Mədəniyyət Nazirliyi və Əqli Mülkiyyət Agentliyi ilə birlikdə Qeyri-maddi mədəni irsin qorunması haqqında

qanun layihəsi ilə əlaqədar, habelə Elm və təhsil komitəsi Elm və Təhsil Nazirliyi ilə birlikdə Ali təhsil haqqında qanun layihəsi ilə bağlı ictimai dinləmələr keçirmişlər.

Qanunvericilik sahəsində görülən işlərlə yanaşı, Milli Məclis bəzi xarici dövlətlər tərəfindən Azərbaycanın suverenliyinə qarşı yönələn hərəkətlərə etiraz əlaməti olaraq bəyanatlar da qəbul etmişdir. Parlamentin səlahiyyət dairəsinə daxil olan təyinat məsələləri həll edilmişdir. Ümumən, Milli Məclisin 14 qərarı qəbul olunmuşdur.

Hörmətli həmkarlar, yaz sessiyasında Milli Məclisin nəzarət funksiyasının yerinə yetirilməsi istiqamətində müvafiq tədbirlər görülmüşdür. Belə ki, Nazirlər Kabinetinin, Hesablama Palatasının, İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun, İnsan hüquqları üzrə müvəkkilin və bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən müvafiq qurumun hesabat, məruzə və məlumatları dinlənilmişdir.

Hörmətli həmkarlar, yaz sessiyası ərzində parlamentin beynəlxalq əlaqələrinin inkişafı sahəsində mühüm tədbirlər həyata keçirilmişdir. Onu da qeyd edim ki, bu sessiyada, yəni keçən 4 ayda Milli Məclisin 85 deputatı 33 ölkəyə 213 səfər həyata keçirmişdir. Üzv olduğumuz beynəlxalq təşkilatların toplantılarında iştirak və çıxış etmişlər. Millət vəkillərimiz Türkiyədə keçirilən prezident və parlament seçkilərini, habelə Qazaxıstanda və Bolqarıstanda keçirilən parlament seçkilərini müşahidə etmişlər. 41 ölkənin və 7 beynəlxalq təşkilatın 67 nümayəndə heyəti, ümumiyyətlə, 343 nəfər xarici qonaq Milli Məclisdə olmuşdur.

Hörmətli həmkarlar, Milli Məclis sədrinin 5 ölkəyə rəsmi və 6 ölkəyə işgüzar səfərləri olmuşdur. Milli Məclisdə mən 17 ölkənin parlament sədrləri və sədr müavinləri, 5 beynəlxalq parlament təşkilatının rəhbərləri, 1 ölkənin icra

hakimiyyəti orqanının nümayəndəsi, 5 dövlətin Azərbaycandakı səfirləri ilə görüşlər keçirmişəm. Aparılan danışıqlarda ikitərəfli və çoxtərəfli parlamentlərarası əlaqələr və digər məsələlər müzakirə edilmişdir.

Hörmətli həmkarlar, qeyd edim ki, 3 ölkənin qanunvericilik orqanları ilə Milli Məclis arasında əməkdaşlıq haqqında saziş və anlaşma memorandumları imzalanmışdır. Onu da qeyd edim ki, bu gün Azərbaycan Respublikası Milli Məclisinin sədri Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi ilə Türkdilli Dövlətlərin Parlament Assambleyası, Ərəb Parlamenti, ASEAN Parlamentlərarası Assambleyası arasında Əməkdaşlıq haqqında Anlaşma memorandumları da imzalamışdır.

Türk Dövlətlərinin Parlament Assambleyasında Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinə müşahidəçi statusu verilmiş, TÜRKPA isə Parlament Şəbəkəsində müşahidəçi statusu almaq üçün müraciət etmişdir.

Hörmətli həmkarlar, mayın 22-də Azərbaycan parlamenti böyük bir beynəlxalq tədbirə ev sahibliyi etmişdir. Milli Məclisin və ATƏT-in Parlament Assambleyasının birgə təşkilatçılığı ilə "Yaşıl iqtisadiyyat, nəqliyyat əlaqələndirilməsi və dayanıqlı inkişaf vasitəsi ilə təhlükəsizlik və sabitliyin təşviqində milli parlamentlərin rolu" mövzusunda konfrans keçirilmişdir. Toplantıda ATƏT-in üzvü olan 27 ölkənin və 4 beynəlxalq təşkilatın nümayəndələri də iştirak etmişlər.

Beləliklə, hörmətli həmkarlar, Milli Məclis yaz sessiyasını uğurla başa çatdırır. Bununla əlaqədar mən sizə səmərəli iş üçün təşəkkür edirəm.

Milli Məclisin yaz sessiyasını bağlı elan edirəm.

*(Azərbaycan Respublikasının Dövlət Himni səslənir.)*

# EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

***2 may 2023-cü il***

**Əliabbas Salahzadə.** Müzakirəmizə çıxardığımız “Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profikaltikası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında layihədə nəzərdə tutulan dəyişiklik mütərəqqi xarakter daşıyır və yetkinlik yaşına çatmayanların hüquqlarının səmərəli  və effektli qorunmasını təmin etmək məqsədi güdür. Ümumiyyətlə, cəmiyyətimizdə informasiya axınının güclənməsi, eləcə də digər kənar təsirlər yetkinlik yaşına çatmayanlarla aparılan işin səmərəliliyinin artırılmasını vacib edir. Hesab edirəm ki, biz təkcə cinayət törətmiş yeniyetmələrin cəzaçəkmə müəssisələrinə köçürülməsi ilə məşğul olmamalıyıq. Bütün cəmiyyətimizin əsas hədəfi tərbiyə prosesini daha təsiredici formaya gətirməkdir.

Bu gün yeniyetmələrimizin tərbiyə prosesinə v
ən böyük zərbələrdən birincisi, hesab edirəm ki,
maların sayının çoxalmasıdır. Boşanmalar və ailədaxili münaqişələr artıq ciddi bir problemə çevrilmişdir və bütün səylərimizi boşanmalara gətirib çıxaran halların aradan qaldırılmasına yönəltməliyik. Burada maarifləndirici fəaliyyət üstün mövqe tutmalıdır. Təklif edərdim ki, yeniyetmələrlə münasibətdə xüsusi bir cəza proqramı hazırlansın.

* * *

Bu gün ölkəmizdə valideyn himayəsindən məhrum olmuş və xüsusi internat məktəblərində və uşaq evlərində

tərbiyə alan uşaqların ailələrə verilməsi prosesi genişlənməkdədir. Təbiidir ki, bu proses həm hüquqi, həm də mənəvi-psixoloji baxımdan olduqca mürəkkəbdir. Bu gün dövlətimizin himayəsində olan uşaqların yeni ailələrə verilməsi prosesində əminliklə etimad məsələsi aktualdır. Eyni zamanda, xüsusi vurğulamaq istəyirəm ki, bir sıra hallarda xarici ölkə vətəndaşları dövlət himayəsində olan uşaqların onların ailələrinə verilməsi xahişi ilə çıxış edirlər. Doğrudur, ölkəmizdə bu prosedur olduqca çətindir. Lakin hesab edirəm ki, bu təcrübədən istifadə olunmasın. Uşaqlar ya öz vətəndaşlarımıza himayəyə verilsin, ya da ki, dövlətin himayəsində saxlanılaraq onlara müvafiq şərait yaradılsın. Təklif edilən dəyişiklik isə bu məsələ ilə bağlı hüquqi səmərəliliyi artırmağa xidmət etdiyindən onu dəstəkləyirəm.

**Könül Nurullayeva.** Ölkəmizdə formalaşmış ailə modeli əsrlər boyu öz dəyərləri ilə ən nümunəvi sosial institutlardan biri olub. Nəzərə almalıyıq ki, hər bir insanın, hətta hər bir xalqın özünü təsdiq etməsində və inkişafında ailənin rolu böyükdür. Bu institutun möhkəm və davamlı olması həmin cəmiyyətin və dövlətin güclü olması, inkişafı deməkdir.

Azərbaycanda bu istiqamətdə dövlət siyasətinin əsas prinsipləri Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyən olunub. Hazırda bu siyasət sistemli şəkildə və uğurla aparılır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən qəbul edilmiş “Uşaqların valideyn himayəsindən məhrum olmasının qarşısının alınması və hüquqlarının müdafiəsinin gücləndirilməsi ilə bağlı bəzi məsələlər haqqında” 2022-ci il tarixli Fərman da buna bariz nümunədir. Fərmanın icrası məqsədi ilə hazırlanmış Ailə Məcəlləsində dəyişikliklər layihəsi fərmanda qeyd

olunan himayədar ailə institutunun inkişaf etdirilməsi və təşviqi, habelə valideyn himayəsindən məhrum olmuş uşaqların müəssisələrə yerləşdirilməsi, həmin müəssisələri tərk etməsi ilə bağlı qərarların qəbul edilməsi, uşaqların müəssisələrdən ailələrinə qaytarılması, eləcə də onların müəssisələrə düşməsinin qarşısının alınmasına dair tədbirlər görülməsi və müəssisələrdə olan uşaqlarla əlaqədar fərdi inkişaf planlarının hazırlanması məsələləri ilə bağlı normativ hüquqi bazanın təkmilləşdirilməsi tapşırıqlarından irəli gəlir. Bununla əlaqədar olaraq, Ailə Məcəlləsində təklif olunan dəyşikliklər himayədar ailə institutunun tətbiqi, habelə valideyn himayəsindən məhrum olmuş uşaqların müəssisəyə yerləşdirmə prosesinin təkmilləşdirilməsi, onların müəssisələrə düşməsinin qarşısının alınması, bioloji ailələrinə qaytarılması məsələlərinin hüquqi tənzimlənməsini özündə ehtiva edir.

Qeyd etmək lazımdır ki, "Himayədar ailə" institutu beynəlxalq təcrübədə uşağa qayğı sisteminin ən geniş yayılmış növlərindən biridir. Bu model uşaqların dövlət müəssisələrində yaşamasının alternativ variantı kimi çıxış edərək onların ailə mühitində yaşamalarına şərait yaradır. Layihədə himayədar ailənin yaranması ilə əlaqədar keçirilən proseslər, himayədar ailəyə qoyulan tələblər, onların üzərinə qoyulan öhdəliklər, uşağın himayədar ailəyə verildikdən sonra ayda bir dəfədən az olmayaraq planlı və plandankənar monitorinqin aparılması, himayədar ailəyə verilən zaman müəyyən yaşa çatmış uşaqların razılığının alınmasının qeyd olunması himayədar ailə institutunun uğurlu tətbiqinə, nəticədə ənənəvi uşaq müəssisələrindən fərqli olaraq həmin uşaqların inkişafına və cəmiyyətə inteqrasiya imkanlarına malik olmasına daha müsbət təsir göstərəcək.

Bundan başqa, layihədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) valideyn himayəsindən məhrum olan uşaqları sosial xidmət müəssisələrinə yerləşdirməzdən öncə ilkin qiymətləndirilmənin aparılması və bu qiymətləndirilmədən asılı olaraq qərarın qəbul edilməsi, zərurət olduqda fərdi inkişaf və ailə inkişaf planının hazırlanmasının, uşağın yerləşdirilməsi zamanı onun fikirlərinin, maraqlarının, etnik mənşəyinin, müəyyən dinə və mədəniyyətə mənsubiyyətinin, ana dilinin, təhsili və tərbiyəsi üçün daha əlverişli imkanların, yerləşdirilmənin uşaq üçün təhlükəsizliyinin nəzərə alınması qeyd olunmuşdur ki, bu da uşaqların ailə mühitində qalmasına daha çox üstünlük verilməsindən və uşaqların inkişafına göstərilən qayğıdan irəli gəlir.

Beləliklə, təklif olunan dəyişikliklərin qəbulu valideyn himayəsindən məhrum olmuş uşaqların müəssisələşməsinin qarşısının alınmasına, bununla da həmin uşaqların ailə mühitində tərbiyəalma imkanlarının genişləndirilməsinə xidmət edəcək.

**Malik Həsənov.** Bu günlər böyük tarixi hadisələrin iştirakçısıyıq. Bütün bunlar 2020-ci ildə Vətən müharibəsində qazanılmış böyük Zəfərin nəticəsində əldə olunmuşdur. Zəfərdən sonrakı dövrdə baş verən hadisələr təkcə ölkəmiz üçün deyil, ümumilikdə, bütün türk dünyası üçün tarixi əhəmiyyəti ilə seçildi. Təbiidir ki, bu yeni tariximizin bütün şanlı səhifələrinin başlıca müəllifi möhtərəm Prezidentimiz cənab İlham Əliyevdir.

Aprel ayının 29-da hər birimiz üçün olduqca qürurverici hadisələrin şahidi olduq. Bütün dünya Türkiyə–Azərbaycan qardaşlığının bir daha şahidi oldu və bu qardaşlıq və müttəfiqlik artıq dönməz xarakter almışdır. İstanbulda keçirilən sayca altıncı TEKNOFEST festivalı iki qardaş

ölkənin dövlət başçılarının səmimi münasibətlərini bir daha ortaya qoymaqla yanaşı, qardaş ölkəmizin texniki inkişaf baxımından böyük uğurlara nail olmasını növbəti dəfə bütün dünyaya göstərdi. Həmin festivalda hava məkanına sahiblənən türk pilotsuz uçuş aparatları və təyyarələri, dənizdə Anadolu gəmisi, quruda Altay tankı və nəhayət, yollarda "Togg" elektromobili nümayiş etdirildi. Bütün bunlar Türkiyə sənayesinin böyük uğurlarıdır.

Eyni zamanda, həmin gün Kahramanmaraşda Azərbaycan şəhərciyinin inşasına başlanması vətənimizin hüdudlarının təkcə respublika ərazisində deyil, türklərin yaşadığı bütün coğrafi ərazi olmasının göstəricisidir. Həmin gün "Bir millət, iki dövlət" şüarına möhtərəm Prezidentimiz bir əlavə də etdi. İndi artıq bu şüar belə səslənir: "Bir millət, iki dövlət, tək yumruq". Bu yumruq türk birliyinin simvolu, eyni zamanda, düşmənlərimizin başına enmiş, onları məhv etmiş yumruqdur, gələcəkdə də bizə düşmən olan qüvvələrin üzərinə enməyə daim hazır vəziyyətdədir.

Qarşıdan Türkiyə Cümhuriyyətində prezident seçkiləri gəlir. Əminəm ki, Türkiyədən olan qardaşlarımız öz qəlblərinin səsinə uyğun qərarlarını verəcək və növbəti dəfə Rəcəb Tayyib Ərdoğanı dəstəkləyəcəklər. Çünki son 20 il ərzində Türkiyə Cümhuriyyətinin bütün sahələr üzrə sıçrayışlı inkişafı göz qabağındadır. Əminəm ki, may seçkilərindən sonra birgə əməkdaşlığımızın yeni mərhələsinə qədəm qoyacağıq və bu mərhələdə artıq iki qardaş ölkə deyil, altı qardaş ölkə kimi çıxış edəcəyik.

**Sahib Alıyev.** Mən bir neçə məsələ haqda fikirlərimi bildirmək istəyirəm. İlk toxunacağım məsələ İrəvanda 16 hay terrorçusunun – "nemesis"çi deyilənlərin adlarının əbədiləşdirilməsinə edilən cəhddir. Həmin terrorçuların sırasında Fətəli xan Xoyski və Behbud xan Cavanşiri qətlə

yetirən iki yaramaz – Aram Yerkanyanla Misak Torlokyan da var. Aydındır ki, terrorçuların müqəddəsləşdirilməsi xəstə cəmiyyətlərə xas hərəkətdir. Bəs digərlərinə nə olub? Bizim öz torpağımızda nəzarət-buraxılış məntqəsi açmağımızı regionda sülhə və tərəflər arasında güvənə zərbə kimi dəyərləndirənlər terrorun təbliğinə yönələn, Azərbaycanla Türkiyə əleyhinə düşmənçiliyi körükləyən bu addımı niyə görməzdən gəlirlər? Çünki terrorçuları yaxşı və pislərə bölən, o 16 yaramazı birincilər cərgəsinə qoyan, onlara rahat yaşamaları üçün sığınacaq verib hər cür şərait yaradan məhz həmin dövlətlərdir. O dövlətlər ki 100 il öncə necə idilərsə, yenə də burada eyni siyasəti yeritməklə bulanıq suda balıq tutmağa çalışırlar. Onlar çox gözəl anlayırlar ki, Azərbaycanın İkinci Qarabağ savaşında qazandığı Zəfər BMT-nin uzun illər kağız üzərində qalan 4 qətnaməsinin yerinə yetirilməsini təmin etdiyi kimi, Laçın yolunun başlanığıcında nəzarət-buraxılış məntəqəsi qurulması da Üçtərəfli bəyanatda əksini tapan, ancaq əməl olunmayan bəzi maddələrin reallaşdırılmasına, məsələn, Ermənistan ordusunun proksi funksiyası yerinə yetirən tör-töküntülərinin Qarabağdan çıxarılmasına yol açır. Azərbaycan ərazisinə qanunsuz yüklər, o sıradan minaların daşınmasının qarşısı alınır.

Son bir həftədə 4 soydaşımız minaya düşərək həlak oldu. Laçında nəzarət-buraxılış məntəqəsi qurulmasının əleyhinə çıxanların məqsədləri nədir? Onlar mina terrorunun davam etdirilməsinimi istəyirlər?

Əgər qərbdəkilərin niyyəti, doğurdan da, sevimli haylarını rəqib gözündə gördüklərinin boyunduruğundan qurtarmaqdırsa, aprelin 23-də atdığı addıma görə, əksinə, Azərbaycana təşəkkür etməli deyillərmi? Çünki hətta paytaxtlarının hava limanında belə ora gələnləri başqa

ölkənin sərhədçiləri qarşılayan Ermənistana Azərbaycan növbəti dəfə öz suverenliyini necə təmin etməyin yolunu göstərmədimi? Göstərmədimi ki, bunun üçün siyasi iradə, qətiyyət, bəli, bir də ləyaqət lazımdır.

Bunlar olduqda bir deyil, bir neçə dövlət torpaqların üzərində suverenliyinin tam təmininə qarşı çıxdıqları halda belə, istədiyini edirsən. Artıq gördüyümüz kimi, Qarabağa gedib-gələnləri bizim sərhədçilərimiz yoxlayıb buraxırlar. Xalqımla, dövlətimlə, Prezidentimlə qürur duyuram.

**Sevil Mikayılova.** Aprelin 23-də Azərbaycanın Ermənistanla şərti dövlət sərhədində, Həkəri çayı üzərində nəzarət-buraxılış məntəqəsi fəaliyyətə başladıqdan sonra bir sıra ölkələr yenə də özlərinə məxsus qərəzli movqe sərgilədilər. Azərbaycan tərəfinin suveren hüquqları çərçivəsində atdığı bu addım sülhü istəməyən qüvvələri təşvişə salıb. Görünür, Azərbaycan–Ermənistan normallaşması onların Cənubi Qafqaz planlarını alt-üst edir.

Avropa Parlamentinin Cənubi Qafqaz ölkələri ilə əlaqələr üzrə nümayəndə heyətinin rəhbəri Marina Kalyurand da həmişəki ermənipərəst mövqeyinə sadiq qalaraq erməni parlament nümayəndə heyəti ilə görüşdə riyakarcasına Azərbaycanı sülhə xələl gətirən hərəkətlərdə ittiham edib, cəfəng iddialarını davam etdirərək heç bir əsas olmadan Laçın yolunun bağlı olduğunu deyib. Bu barədə Ermənistan nümayəndə heyətinin rəhbəri görüşdən sonra erməni mətbuatına bildirib.

Marina Kalyurandın ermənipərəst mövqeyi və Azərbaycana münasibətdə qərəzli olması çoxdan bəllidir. Məsələn, anti-Azərbaycan qətnaməsinin qəbulu üçün səylərini heç zaman əsirgəməyib. Onun təxribatçı bəyanatları isə hər zaman Ermənistana təktərəfli dəstək ifadə edir, sülh prosesini pozmaq məqsədi daşıyır. Hər halda Avropa

Parlamentinin üç Cənubi Qafqaz ölkəsi ilə əməkdaşlıq komitəsinə həmsədrlik edən avropalı deputat bu vaxta qədər yalnız anti-Azərbaycan fəaliyyəti ilə tanınıb. Əməkdaşlıq deyil, pozuculuq yolunu seçib, Avropa Parlamentinin Azərbaycan münasibətlərini korlamaq üçün əlindən gələni edib. Lakin Azərbaycan Qarabağ ermənilərinin cəmiyyətimizə inteqrasiyasında israrlıdır. Kalyurandın nəzərinə çatdırmaq istəyirik ki, bu prosesi sabotaj etmək üçün ortaya atılan bütün uydurmalar fiaskoya məhkumdur.

Laçın yolunda təhlükəsizlik və sərhəd keçidində nəzarət təmin olunub, qayda-qanun çərçivəsində sərhədi keçməkdə heç bir problem yoxdur. Bu nəzarət sisteminin olmaması təhlükəsizliyə ən böyük təhdid idi. Separatçıların Azərbaycan ərazilərindəki artan təxribatları nəzarətsizlikdən baş verirdi. Yaradılan nəzarət-buraxılış məntəqəsində avtomobillərin keçidi üçün normal rejim təmin edilib. Vətəndaşların sərhədi keçməsi mütəşəkkil və nizam-intizamla, qarşılıqlı nəzakət şəraitində həyata keçirilir. Görünür, hadisələrin bu istiqamətdə inkişafı Kalyurand kimilər üçün yeni və gözlənilməz olub.

Bir sözlə, Qarabağ ermənilərinin "etnik təmizlənməsi" və Laçın yolunun guya "blokadaya alınması" ilə bağlı yalan açıqlamalar, növbəti təbliğat hiyləsindən başqa bir şey deyil. Laçın yolu açıqdır və oradan mülki ermənilərin keçidi üçün lazımi şərait var.

**Səbinə Xasayeva**. Dost və qardaş Türkiyə ilə münasibətlərimiz günbəgün daha da möhkəmlənir. Cənab Prezidentimiz İlham Əliyevin və qardaş Türkiyə Cümhuriyyətinin Prezidenti cənab Rəcəb Tayyip Ərdoğanın tez-tez qarşılıqlı rəsmi və işgüzar səfərləri bunun bir daha sübutudur. Qarşılıqlı etimada əsaslanan səmimi münasibətlər bu gün hər iki ölkə rəhbərliyi tərəfindən həyata ke-

çirilən düzgün, məqsədyönlü siyasətin məntiqi nəticəsidir.

Bir neçə gün öncə, aprel ayının 29-da cənab Prezidentimiz İlham Əliyevin İstanbulda keçirilən TEKNOFEST aerokosmik və texnologiya festivalında iştirakı tarixin yaddaqalan səhifələrindən birinə çevrildi. Bu gün münasibətlərinin zirvəsini yaşayan Türkiyə–Azərbaycan münasibətləri dünya üçün ölkələrin bir-birinin uğruna sevinərək və dəstək verərək inkişaf yolunda ola bilməsinin bir nümunəsidir. Günümüzün reallıqlarını, dünyada baş verən mürəkkəb geosiyasi prosesləri nəzərə alsaq, tariximizin və münasibətlərimizin nə qədər qürurverici mərhələdə olduğunu bir daha dərindən dərk edirik.

Qardaş ölkənin, xüsusən son illərdə həyata keçirdiyi siyasət onun istər regionda, istərsə də dünyada rolunu və nüfuzunu müntəzəm olaraq gücləndirir. Türkiyənin siyasi və iqtisadi qüdrəti onun müttəfiqlərinin gücü deməkdir. Bu siyasi gücü biz Vətən müharibəsinin ilk günündən son gününədək hər anında hiss etdik. Azərbaycan da öz növbəsində qardaş ölkənin yaxşı günlərində də, çətin günlərində də hər zaman yanındadır. “TEKNOFEST” çərçivəsində Azərbaycan dövlətinin faciəli zəlzələnin baş verdiyi Kahramanmaraşda inşa edəcəyi min ev, məktəb və digər infrastruktur obyektlərindən ibarət yaşayış kompleksinin təməlinin qoyulması bu fikrin bir daha təsdiqidir.

Bu gün Türkiyə–Azərbaycan münasibətlərinin yüksək inkişaf xəttindən danışarkən dövlət başçıları səviyyəsində güclü siyasi iradənin göstərilməsi ilə yanaşı, cəmiyyətin hər bir fərdinin buna böyük maraq nümayiş etdirdiyini də vurğulamaq lazımdır. Xüsusi ilə bir neçə gün öncə İrəvanda keçirilmiş ağır atletika üzrə Avropa çempionatında türk idmançılarının qələbələrini Azərbaycana həsr etməsi, cənab Prezidentimiz İlham Əliyev və birinci xanım

Mehriban Əliyevanın onları qəbul etməsi, idmançıların "Tərəqqi" medalı ilə təltif edilmələri hər birimizə qürur yaşatdı və bu qardaşlığın sarsılmaz olduğunu nümayiş etdirdi.

Bu gün Azərbaycan və Türkiyə arasında münasibətlərin ən yüksək səviyyədə olması, sadəcə, ölkələrimiz üçün deyil, eyni zamanda, regionumuz üçün sülh, sabitlik və daha xoşbəxt gələcək vəd edir.

**Sədaqət Vəliyeva.** Milli Məclisin bugünkü gündəliyində yer alan mühüm məsələlərdən biri də "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının qanun layihəsidir. Qeyd etmək istərdim ki, ictimai iştirakçılıq cəmiyyətlə dövlət orqanları arasında körpü rolunu oynamaqla, cəmiyyəti narahat edən problemlərin aşkarlanmasında, həmin problemlərin həll olunmasında və ümumilikdə, dövlət orqanlarının qanunauyğun fəaliyyət göstərməsində xüsusi rol oynayır. Eyni zamanda, müasir dövrümüzdə ictimai proseslər sürətlə cərəyan edir ki, bütün bunlar ictimai iştirakçılığın rolunu və əhəmiyyətini xeyli dərəcədə artırır. İctimai iştirakçılığın və ictimai nəzarətin təkmilləşdirilməsi və inkişaf etdirilməsi Azərbaycan dövlətinin və dövlətimizin başçısı cənab İlham Əliyevin diqqət mərkəzindədir. Son dövrlər ölkəmizdə bu istiqamətdə bir çox addımlar atılmış, tədbirlər həyata keçirilmiş, qanunlar qəbul edilmiş və mövcud qanunvericilik bazası təkmilləşdirilmişdir. Mövcud qanun layihəsinin bugünkü gündəliyimizdə yer alması da bütün deyilənlərin növbəti bariz sübutudur. Cənab Prezidentimiz İlham Əliyev də dəfələrlə öz çıxışlarında ictimai iştirakçılığın və ictimai nəzarətin əhəmiyyətini, vacibliyini xüsusi olaraq qeyd etmişdir.

Yaranmış fürsətdən istifadə edərək, "İctimai iştirakçılıq

haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi ilə bağlı öz təkliflərimi irəli sürmək istərdim:

1. Qeyd etdiyim kimi, ölkəmizdə ictimai iştirakçılıqla bağlı bir sıra tədbirlər həyata keçirilsə də, təəssüf ki, cəmiyyətimizdə bu vacib məsələ ilə bağlı məlumatsızlıq mövcuddur. Yaxşı olardı ki, ictimai iştirakçılığın mahiyyəti, əhəmiyyəti ilə bağlı maarifləndirici, təbliğat xarakterli tədbirlər də həyata keçirilsin, video-məlumat çarxları hazırlansın və həmin video-çarxlar KİV-də, sosial şəbəkələrdə mütəmadi olaraq yayımlansın.

2. İctimai iştirakçılıqla bağlı təlimlər, seminarlar keçirilsin. Təəssüflə qeyd etmək istərdim ki, bəzən ictimai iştirakçılıqda iştirak edən şüra üzvləri öz səlahiyyətlərini tam olaraq bilmirlər. Təlim və seminarların keçirilməsi ictimai iştirakçılıqda iştirak edən şəxslərin səlahiyyətlərini tam olaraq bilmələrinə və öz fəaliyyətlərini daha düzgün aparmalarına təkan verəcək. Eyni zamanda, bu sahədə peşəkar, savadlı kadrların yetişdirilməsinə də gətirib çıxaracaq.

3. İctimai iştirakçılığı həyata keçirən komitələrin, şuraların fəaliyyəti daha da təkmilləşdirilsin və buna ciddi ehtiyac vardır. Çünki bir çox hallarda bu komitələrin fəaliyyəti formal xarakter daşıyır.

4. İctimai iştirakçılığı həyata keçirən orqanlar öz fəaliyyətləri, apardıqları ictimai rəy və sorğularla, ümumilikdə, gördükləri işlər, verdikləri təkliflərlə bağlı hesabat versinlər. Həmin hesabatlar KİV-də, televiziya kanallarında və sosial şəbəkələrdə yayımlansın.

***12 may 2023-cü il***

**Elnur Allahverdiyev.** Biz həm hökumətin hesabatı zamanı, həm də bundan əvvəlki iclaslarda vurğulayırıq ki, sahibkarlıq subyektlərində yoxlamaların keçirilməməsi müsbət praktiki nəticə verir. Yoxlamalarsız, avans ödənişləri tələb edilmədən də vergi yığımları artıqlaması ilə icra olunur. Bu, bir tərəfdən, sahibkarın hökumətə etimadı, digər tərəfdən isə, vergi mədəniyyətinin formalaşması deməkdir. Bilirsiniz ki, biz sahibkarlarla müxtəlif formatlarda təmasda oluruq və qanun layihələrinin müzakirəsi zamanı hökumətin tutduğu liberallaşma xəttinə uyğun olaraq, onların fəaliyyəti üçün münbit şəraitin yaradılması, daha üstün imkanların verilməsi, qanunvericiliklə yumşalmalar və imtiyazları təşviq edən çıxışlar edirik.

Bu ilin əvvəlində cənab Prezident tərəfindən yoxlamaların keçirilməməsi müddətinin daha 1 il uzadılması milli sahibkarlığın möhkəmlənməsinə ciddi təkan verəcək. Mən istəyirəm, bu konteksdə layihədəki bir sıra tədqirəlayiq hallar barədə danışım. Bunlardan ən əsası, hesab edirəm ki, yoxlama zamanı qanunun sahibkarın fəaliyyətini bütövlükdə dayandırmamasına imkan verməsidir. Yoxlama müəssisənin bir sahəsi üzrə aparıla bilər, ancaq bu o demək deyil ki, həmin müəssisənin işi bütövlükdə dayanmalıdır. Fikrimcə, bu, çox mühüm tədbirdir. Birincisi, sahibkarlıq fəaliyyətinin davamlılığını təmin edir, ikincisi isə, yoxlama zamanı şirkətin geriləmə və yaxud istənilən digər çətinliklər yaşamasının qarşısını alır.

Qanunda əvvəl də var idi, layihədə də yoxlama aparan orqanın illik hesabatının şəffaflıq prinsipi əsasında aparılması bir daha təsbit olunur. Yoxlayıcı orqanın apardığı yoxlamaların sayı, növü, xüsusiyyəti, müddəti, nəticələri və yaxud sahibkarların yol verdikləri pozuntuların səbəbləri, onların şikayətləri əsasında ləğv edilmiş qərarların

sayı və sair məqamlarını qeyd edə bilərik.

Hesab edirəm ki, yoxlamanın nəticəsi olaraq, yəni aparılan yoxlamadan sonra tapılan pozuntuların aradan qaldırılması barədə məlumatlar olarsa, daha uyğun olar. Yəni yoxlama keçirildi, nöqsanlar aşkarlandı, ancaq bundan sonra sahibkarlıq subyekti hansı müddət ərzində tapılmış pozuntuları aradan qaldırdı, qaldırılma səviyyəsi necədir? Başqa sözlə, bu cür məlumatları özündə əks etdirən hesabatların olması səmərəlilik baxımından daha məqsədəuyğun sayıla bilər. Təbii ki, nəticələr ictimai maraq baxımından yoxlayıcı orqanın informasiya resurslarında da işıqlandırıla bilər.

Sevindirici haldır ki, layihədə yoxlama zamanı nümunələrin dəyərinin ödənilməsi ilə bağlı təklif əks olunur. Yəni yoxlama zamanı götürülən məhsul nümunələrinin saxlanılması, daşınması, qaytarıldıqdan sonra satışı, yaxud utilizasiyası və sair xərcləri yoxlayıcı orqan tərəfindən ödənilir. Mən bu yeniliklə ilk dəfədir ki, rastlaşıram və onu olduqca mütərəqqi hesab edirəm. Məhz bu baxımdan, bu hal yoxlayıcı orqanın məsuliyyətini artırır, digər tərəfdən isə məhsul zədələnərsə, satış imkanları məhdudlaşarsa, xərclər ödənilir və sahibkara zərər vurulmur.

Bütövlükdə, hesab edirəm ki, qanunda nəzərdə tutulmuş dəyişikliklər və yeniliklər həm sahibkarlığın inkişafı, möhkəmlənməsi, həm də iqtisadiyyatımızın güclənməsi üçün müsbət haldır. Ümumiyyətlə, iqtisadiyyatın inkişafı üçün azad bazar şəraiti, liberal qanunlar, şəffaf yoxlama, inzibati yükün qarşısının alınması kimi tədbirlər mütləqdir. Bu baxımdan qanun layihəsinə səs verəcəm və hesab edirəm ki, biz bundan sonra da sahibkarlıq fəaliyyətinə aid olan digər qanunvericilik aktlarında da daha zəruri, bazar trendlərinə cavab verən, müasir çağırışlar və

tələblərdən irəli gələn yeniliklərin axtarışında, mütərəqqi təkliflərə açıq olmalıyıq və həmin təkliflərin qanunlarda dəyişikliklər yolu ilə qüvvəyə minməsinə şərait yaratmalıyıq. Bununla biz sahibkarlığın və bütövlükdə, iqtisadiyyatımızın inkişafına öz töhfəmizi vermiş olarıq.

**Jalə Əhmədova.** Son zamanlar məktəblilərin və yeniyetmələrin intihar xəbərləri ilə çox rastlaşırıq. Ailədaxili təzyiq, münaqişə, valideynlərin diqqətsizliyi, laqeydliyi, psixoloji problemlər və sair müxtəlif səbəblərdən baş verən bu cür intiharlarda valideynlərin məsuliyyətini xüsusi qeyd etmək istərdim. Belə ki, övladlarını lap kiçik yaşlarından diqqət, qayğı və ən əsası da sevgi ilə əhatə etməli olan valideynlərin bəziləri nədənsə valideynlik vəzifələrini, uşağa görə məsuliyyət daşıdıqlarını unudurlar. Uşaqlarına zaman ayırıb sevgi, diqqət, qayğı göstərmək əvəzinə biganəlik, hətta deyərdim ki, aqressivlik nümayiş etdirir, yaxud valideyn sevgisini uşağa pal-paltar, oyuncaq və sair almaqla qarşılamağa üstünlük verirlər. Nəticədə uşaq özünə qapanır. Valideynlər isə övladlarının psixoloji durumunu ya başa düşmür, ya da anlamaq istəmirlər. Sonra isə artıq çox gec olur. Uşaq valideynlərini cəzalandırmaq üçün intihara əl atır.

Hesab edirəm ki, uşaqların uşaq evlərinə düşməsinin, küçələrdə yaşamasının, intiharlarının əsas səbəbi valideyn məsuliyyətsizliyidir. Valideyn öz məsuliyyətini dərk etsəydi, bu kimi hallar baş verməzdi. Valideyn məsuliyyətsizliyi səbəbindən baş verən intiharların qarşısının alınması üçün övladı intihar edən valideynlər birbaşa məsuliyyətə cəlb edilməlidir.

**Malik Həsənov.** Bu gün bizə təqdim olunan 2022-ci il üzrə Azərbaycan Respublikasında İnsan alveri ilə mübarizəyə dair məlumat geniş şəkildə təqdim edilmişdir. Eyni

zamanda, məruzəçi tərəfindən təqdim edilən məlumatlar bizə imkan verir ki, insan alverinə qarşı mübarizə sahəsində ötən il ərzində ölkəmizdə görülmüş işlər barədə əhatəli informasiya alaq. Hamımıza məlumdur ki, insan alveri problemi yalnız bu və ya digər ölkə üçün spesifik deyil, qlobal bir problemdir. İnsan alveri dedikdə burada təkcə cinsi baxımdan insanların istismar olunması deyil, həm də insanların məcburi əməyə cəlb olunması və digər hallar da nəzərdə tutulur.

Bütün cinayət xarakterli hallarda olduğu kimi, insan alverinə qarşı mübarizədə də əsas yerlərdən birini maarifləndirmə və profilaktika tədbirləri tutur. Məlumatdan da göründüyü kimi, il ərzində bu istiqamətdə kifayət qədər işlər görülmüşdür və aidiyyəti orqanlara 14 min ədəd maarifləndirici vəsait göndərilmiş, 36 orta ixtisas təhsili müəssisələrində maarifləndirici seminarlar təşkil edilmiş, 29 rayonda hüquq mühafizə orqanlarının əməkdaşları başda olmaqla, müxtəlif sosial qrupdan olan şəxslərlə maarifləndirici tədbirlər həyata keçirilmişdir. Maarifləndirmə tədbirləri sırasında uşaq hüquqlarının müdafiəsi məsələlərinə ciddi diqqətin yetirilməsi təqdirəlayiqdir. Bu baxımdan il ərzində 2000-ə yaxın şagirdin "Uşaqların əmək hüququ" mövzusunda təlimlərə cəlb edilməsi təqdirəlayiqdir.

Ümumilikdə, məlumat geniş olmaqla "Məcburi əməyin qarşısının alınması" sahəsində tədbirlər, "Cinayət təqibi və qurbanlarla iş" sahələrində görülmüş işlər haqqında məlumatları əhatə edir. Düşünürəm ki, qarşıda duran başlıca vəzifə insan alverini doğuran səbəblərin qarşısının alınması ilə bağlıdır. Hesab edirəm ki, insan alverinə qarşı mübarizə təkcə cinayət təqibi və inzibati metodlarla deyil, paralel olaraq onu doğuran səbəblərin aradan qaldırılması ilə aparılmalıdır. Təbiidir ki, burada birinci dərəcəli

məsələ vətəndaşların sosial rifah halının yaxşılaşdırılması olmalıdır. Bu, xüsusi ilə qadınlara və əmək hüququ olmayan uşaqlara münasibətdə aktualdır. İşsizlik problemi, əsasən, insan alverinin genişlənməsinə rəvac verən problemlərdən biridir. Ona görə də yeni iş yerlərinin yaradılması məsələsinə münasibətdə yeni yanaşmaların ortaya qoyulması məqsədəuyğun olardı. Əmək hüququ olmayan uşaqların məcburi əməyə cəlb edilməsi məsələsi kifayət qədər ağır yüklü problemdir. Eyni zamanda, məsələnin ən ağır tərəfi ondan ibarətdir ki, yoxsul şəraitdə yaşayan ailələrdən çıxan bu uşaqların, hətta məcburi əməyə cəlb olunması zamanı zəhmətləri onların gördükləri işə mütənasib deyil, qat-qat aşağı dəyərləndirilərək əməkhaqqı ödənilir, bir çox hallarda isə heç ödənilmir. Təklif edərdim ki, bu istiqamətdə daxili işlər orqanları, Elm və Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi birgə nəzarət-maarifləndirmə işini genişləndirsinlər, əmək hüququ olmayan uşaqların məktəblərə davamiyyəti məsələsinə ciddi nəzarət olunsun. Məcburi əməyə cəlb olunmuş uşaqların ailələrinə münasibətdə sosial müdafiə tədbirləri tətbiq edilsin, yəni bu və ya digər əmək hüququ olmayan şəxsin qeyri-qanuni əməyə cəlb olunması halları aşkarlanarsa, onda onların ailələrinin maddi vəziyyəti araşdırılsın və həmin ailələrə dövlət dəstəyi göstərilsin ki, uşaqlar məcburi əməklə deyil, dərslə məşğul olsunlar.

Son illərdə ölkəmizdə həm məişət zorakılığına, həm də insan alverinə məruz qalmış şəxslərin reabilitasiyası üçün çoxsaylı sığınacaqlar yaradılmışdır. Hesab edirəm ki, bu sığınacaqların sayı artırılmalı və fəaliyyəti genişləndirilməlidir. Yaxşı olardı ki, bu istiqamətdə qurulan maarifləndirmə fəaliyyətinə təlimçi-ekspert qismində məhz insan alverinə məruz qalmış şəxslər cəlb olunsunlar. Çünki onlar

bu cür halların necə, hansı səbəbdən baş verməsini və onun fəsadlarını yaxşı bilirlər.

***30 may 2023-cü il***

**Bəhruz Məhərrəmov.** Siyasət vədlərlə başlanır və əgər vədlər yerinə yetirilirsə, bu, artıq böyük siyasət olur. Prezident İlham Əliyevin Laçın səfəri və Laçına Böyük Qayıdışa start verməsi onun ləyaqətli siyasət yürüdən böyük siyasətçi, sözün əsl mənasında, qlobal miqyaslı qüdrətli lider olduğunu növbəti dəfə nümayiş etdirdi. Laçın bizim üçün prinsipial məsələ idi, çünki işğalının kökündə milli xəyanət durmuşdu. Prezident İlham Əliyev Ermənistan və havadarlarını Laçını bir güllə atmadan azad etməyə məcbur etməklə ilk növbədə tarixi ədaləti bərpa etdi. Laçına Böyük Qayıdışın başlanması isə artıq mənəvi məsələ idi. Ulu Öndər son gününə qədər Laçına qayıdacağımıza sidq ürəklə inanırdı. Cənab Prezident özü də 11 il əvvəl laçınlılara azad və abad Laçın vəd vermişdi və vədini reallaşdırmaqla bu illər ərzində onun fəaliyyətinin təməlində məhz milli maraqlar dayandığını bir daha sübut etdi.

Laçın səfərində ən mühüm məqamlardan biri Qayıdışın 28 may tarixində baş tutması oldu. Hər vəchlə cümhuriyyət irsinə iddialı olan, amma müstəqilliyin ilk ili tamam olmamış Laçını satan, indi isə cümhuriyyətçiliyi hər il Novxanıda Rəsulzadənin abidəsi önündə şou göstərməkdən ibarət olan radikal ünsürlərdən fərqli olaraq Azərbaycan hakimiyyəti mayın 28-də Laçında müstəqillik təntənəsi, cümhuriyyət şöləni yaşatdı.

Azərbaycan Prezidentinin Müstəqillik Günündə “28

may", "Xosrov bəy Sultanov", "Zəfər" və "Heydər Əliyev" küçələrinin açılışını etdiyi lövhələri bu torpaqların mənəvi demarkasiyası oldu, əzəli və əbədi sahibinin kim olduğunu göstərdi. Bəli, cənab İlham Əliyev mayın 28-də Laçın ləkəsini tariximizdən birdəfəlik sildi, amma Laçın üzərindən hakimiyyəti zəbt etmiş adamların alnında Laçın ləkəsi həmişə qalacaq.

Heç şübhəsiz ki, bu həftənin ən mühüm hadisələrindən digəri cənab Rəcəb Tayyib Ərdoğanın prezident seçkilərinin ikinci turundakı şanlı qələbəsi oldu. Bu seçkilər Türkiyə üçün ikinci Çanaqqala savaşı idi və yenə də milli iradə qalib gəldi. Müdrik türk xalqı yenidən "Ərdoğan" deməklə parçalanmanın, potensial vətəndaş müharibəsinin qarşısını aldı, Türkiyəni marionet dövlətə çevrilməkdən qurtardı.

Sirr deyil ki, güclü Türkiyə güclü Azərbaycan deməkdir. Amma bu mürəkkəb siyasi situasiyada cənab İlham Əliyev həm də göstərdi ki, güclü Azərbaycan da güclü Türkiyə deməkdir. Təsadüfi deyil ki, cənab Ərdoğanın rəqibləri onun özü ilə barəbər, həm də Türkiyəni güclü edən Azərbaycanı hədəfə almışdılar, amma o adamlar da, onların Çinə çəkəcəkləri yol da getdi, cənab Prezident demişkən, o məşhur "statusun" yanına...

Bu gün qalib bizik. Bizim gücümüz, bizim birliyimiz, cənab Prezidentin dediyi kimi, "Bir millət, iki dövlət və bir yumruq" olmağımız isə bölgəmizdə sülhün, təhlükəsizliyin yeganə qarantıdır.

**Sahib Alıyev.** Müstəqilliyimizin 105-ci ildönümü günü baş verənlər Azərbaycanın, Prezidentimizin yeritdiyi siyasətin təkcə regionda deyil, dünyada da güc balansına necə təsir etdiyini görmək baxımından çox önəmli idi ki, o haqda danışmaq istəyirəm. Mən bu sözləri deyəndə ilk

növbədə Türkiyədə keçirilən seçkidə cənab Ərdoğanla partiyasının qələbə çalmasını nəzərdə tuturam. Heç kimə sirr deyil ki, Qərbdəki bəlli çevrələrin son 20 ildə ölkəsinin təkcə Böyük 20-lər içərisində yerini möhkəmlətməmiş, həm də "dünya beşdən böyükdür" demiş və bunu əməldə göstərməyi bacarmış bir liderin özlərinə əl verənlə əvəzlənməsinə çalışırdılar.

Başda Prezidentimiz olmaqla Azərbaycana bağlı soydaşlarımızın, o sıradan bu salonda əyləşənlərin mövqe və arzusu isə bütün çılpaqlığıyla ortada idi. Biz istəyən oldu. Ona görə biz istəyən oldu ki, Çanaqqalada ən ağır şərtlər çərçivəsində zəfər çalmağı bacaranların xələfləri ancaq öz millətinin maraqlarından çıxış edən, heç bir gücə boyun əyməyən bir lideri qoyub Qərbdəkilərin nə üçün dəstək verdiyini yaxşı bildiklərinin arxasınca getməyəcəkdilər. Burada nəzərə alınmayan bir reallıq da vardır ki, o da Türkiyədə sayı bir neçə milyonu keçən azərbaycanlılardır. O azərbaycanlılar ki cənab Ərdoğanın əleyhinə səs verənlərin bəlli bir hissəsinə tapşırığın İkinci Qarabağ savaşında öz terrorçularını işğalçı Ermənistana dəstək üçün göndərənlərdən gəldiyindən yaxşı xəbərdardırlar.

Beləliklə, cənab Ərdoğanın qələbəsinin, Prezidentimizin təbirincə desək, Azərbaycanla Türkiyənin formalaşdırdıqları güc mərkəzini daha da möhkəmlədəcəyi heç kimdə şübhə doğurmur. O da şübhə doğurmur ki, bu, türk dünyasının daha sıx inteqrasiyasına və bizim regiondakı proseslərə də təsirsiz ötüşməyəcək.

Müzəffər Ali Baş Komandanımızın Laçındakı xəbərdarlığından da göründüyü kimi, biz öz torpaqlarımız üzərində suverenliyimizi tam təmin etmənin sonuncu mərhələsindəyik. Qarabağdakı separatçı ünsürlər Azərbaycan dövlətinə boyun əyməli, uydurma vəzifələrini tərk etməli,

saxta parlamentlərini buraxmalıdırlar. Qan tökmək istəmədiyimizdən düşünmək üçün Xankəndidəkilərə vaxt verilib, amma onun da bitməsinə, fikrimcə, sadəcə, sayılı həftələr qalır.

Azərbaycan Müdafiə Nazirliyinin bugünkü açıqlamasından da göründüyü kimi, yenidən şərti sərhəddə və Qarabağda vəziyyəti gərginləşdirməyə cəhd edən Ermənistan rəhbərliyi cənab İlham Əliyevin ədalətli delimitasiya, Laçından görünən kəndlər haqda dediklərini unutmamalıdırlar. Onu da unutmamalıdırlar ki, 105 illiyini qeyd etdiyimiz Azərbaycan Demokratik Cümhuriyyətinin ərazisi 86,6 min deyil, 113,4 min kvadrat kilometr idi.

**Tamam Cəfərova.** Mayın 28-də Azərbaycan öz müstəqilliyinin 105-ci ildönümünü qeyd etdi. 28 may xalqımız üçün daha bir hadisə ilə yadda qaldı. Cənab Rəcəb Tayyib Ərdoğan növbəti 5 il üçün yenidən Türkiyə Respublikasının prezidenti seçildi. Bu, 85 milyonluq Türkiyə xalqının qələbəsi idi və cənab Ərdoğanın dediyi kimi, bütün Türkiyə qazandı. Birmənalıdır ki, Rəcəb Tayyib Ərdoğanın prezident seçilməsi ilə qazanan yalnız Türkiyə olmadı, bu qələbə ilə qazanan həm də Azərbaycan və türk dünyası oldu.

Təkcə regionda deyil, bütün dünyada mühüm siyasi və iqtisadi aktora çevrilən Türkiyədə seçkilərin nəticələri qlobal müstəvidə də ciddi siyasi hadisədir. Gərgin siyasi rəqabətə və dünyanın bir sıra güc mərkəzlərinin bütün əngəllərinə baxmayaraq, Rəcəb Tayyib Ərdoğanın yenidən prezident seçiləcəyi proqnozlaşdırılan idi. Son iyirmi il ərzində qardaş Türkiyə Respublikası Rəcəb Tayyib Ərdoğanın sayəsində böyük və şərəfli inkişaf yolu keçərək beynəlxalq aləmdə proseslərə həlledici təsir göstərən güc mərkəzinə çevrilmiş, söz sahibi olmuş, siyasi, iqtisadi, sənaye, hərbi, yeni texnologiyalar və digər sahələrdə

mühüm nailiyyətlər əldə etmişdir. Türkiyə Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə böyük uğurlar əldə edərək beynəlxalq münasibətlər sistemində ciddi mövqeyə sahib olmuşdur. Şübhəsiz ki, əldə edilmiş bu və digər ciddi uğurlar Türkiyə vətəndaşlarının seçkidə Ərdoğanı dəstəkləməsinə təsir edən əsas amillər oldu.

Bütün bunlardan sonra qənaətə gəlmək olar ki, növbəti beş il ərzində Türkiyə öz inkişafının daha böyük səviyyəsini yaşayacaq, dünyada mövqeləri daha da möhkəmlənəcək, hərbi-sənaye kompleksi və mülki sənayesi daha da inkişaf edəcək, əhalisinin sosial rifahı daha da güclənəcək. Türk xalqı öz lideri ətrafında qlobal niyyətlərin, layihələrin, məqsədlərin reallaşması istiqamətində bir yumruq kimi birləşib çox böyük nəticələrə imza atacaq.

Türkiyədə keçirilən prezident seçkilərini xalqımız da böyük diqqət və maraqla izləyirdi. Tarixən qırılmaz tellərlə bir-birinə bağlı olan xalqlarımızın iradəsindən qaynaqlanan Azərbaycan–Türkiyə əlaqələrinin bu gün dünyada bənzəri yoxdur. Sarsılmaz dostluq və qardaşlığımız, qarşılıqlı faydalı əməkdaşlığımız, birgə gerçəkləşdirdiyimiz irimiqyaslı layihələr strateji müttəfiqliyimizi səciyyələndirən mühüm amillər olmaqla yanaşı, eyni zamanda, regional əməkdaşlığın, təhlükəsizliyin və sabitliyin onurğa sütununu təşkil edir. Xalqlarımızın zamanın sınaqlarından şərəflə çıxmış dostluğu və qardaşlığı, Azərbaycan–Türkiyə birliyi və müttəfiqliyi "Bir millət, iki dövlət və bir yumruq" fəlsəfələrinin ruhuna uyğun olaraq, bundan sonra da birgə səylərimizlə yüksələn xətt üzrə davam edəcək və daha da möhkəmlənəcəkdir.

İki qardaş ölkə arasındakı bu münasibətlər tarixin bir çox ağır və məsuliyyətli sınaqlarından üzüağ çıxıb. Ərdoğanın liderlik etdiyi Türkiyənin 44 günlük Vətən mühari-

bəsində Azərbaycana böyük siyasi və mənəvi dəstəyi bu gün də xalqımız tərəfindən böyük ehtiramla qarşılanır. Azərbaycan Prezidenti İlham Əliyevlə Ərdoğanın yüksək səviyyəli dostluq münasibətləri iki qardaş ölkə arasındakı əlaqələrə böyük töhfələr verir.

Rəcəb Tayyib Ərdoğanı ilk təbrik edən siyasi liderin Azərbaycan Prezidenti İlham Əliyevin olması və Ərdoğanın bunu xalqa müraciətində böyük fərəhlə açıqlaması ölkələrimiz arasındakı münasibətlərin hansı səviyyədə olmasının parlaq bir nümunəsidir. Hələ seçkinin yekun nəticələri açıqlanmadan dövlətimizin başçısı qardaş ölkənin Prezidentini təbrik etməklə yanaşı, Azərbaycana dəvət edib. Ərdoğanın Prezident seçildikdən sonra ilk xarici səfərini Azərbaycana etməsi artıq bir dövlət ənənəsi halına gəlib. Hesab edirəm ki, Ərdoğanın növbəti dəfə Prezident seçilməsi ilə başlayan "Türkiyə əsri"ndə Azərbaycan–Türkiyə münasibətləri də keyfiyyətcə yeni və daha da məsuliyyətli bir mərhələyə qədəm qoyacaq. Bu dostluq və qardaşlıq əlaqələri əbədi olaraq hər iki ölkənin inkişafına böyük töhfə verəcək.

## ***31 may 2023-cü il***

**Azay Quliyev.** Bu gün Avropa İttifaqının vasitəçiliyi ilə Kişinyovda Avropa Siyasi Birliyi Sammiti çərçivəsində Azərbaycanın Prezidenti cənab İlham Əliyevlə Ermənistanın Baş naziri Paşinyan arasında görüş keçiriləcək. Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel Almaniya kansleri Şoltsun və Fransa prezidenti Makronun da qatılacağı bu görüşü böyük görüş adlandırıb.

Keçən ilin oktyabrında Praqada keçirilən görüşdən

fərqli olaraq bugünkü görüşdə Azərbaycanın mövqeyi iki vacib amil baxımından daha güclüdür. Birinci, Ermənistan ölkəmizin ərazi bütövlüyünü ümumi sözlərlə deyil, dünya tərəfindən qəbul olunan hüdudda, yəni Qarabağ da daxil olmaqla 86,6 min kvadrat kilometr çərçivəsində tanıdığını rəsmən bəyan edibdir. İkinci amil aprelin 23-də Laçında sərhəd-keçid məntəqəsi quraşdırmaqla Azərbaycan ərzi bütövlüyünü de-fakto bərpa edibdir. Cənab Prezidentin mayın 28-də Laçında söylədiyi kimi, artıq Ermənistan bizim ərazi bütövlüyümüzü tanıdıqdan sonra faktiki olaraq sülh müqaviləsi üçün hər hansı bir ciddi maneə qalmayıb. Ermənistan tərəfi Azərbaycanın irəli sürdüyü ədalətli və beynəlxalq hüquqa əsaslanan şərtlər çərçivəsində həm sərhədlərin delimitasiyasını aparmalı, həm Naxçıvana kommunikasiyaları açmalı, həm də sülh müqaviləsini imzalamalıdır. Ümid edirik ki, bu gün Ermənistan Azərbaycanın bu xoş niyyətini düzgün qiymətləndirəcək və sülh sazişinin imzalanması üçün süni problemlər yaratmayacaqdır.

Cənab Prezident Kişinyov görüşündən üç gün öncə Qarabağ ermənilərinin sonrakı taleyinə də aydınlıq gətirdi və reinteqrasiyası üçün tələb olunan şərtləri bir daha açıqladı:

1) Qarabağdakı etnik ermənilər Azərbaycan qanunlarına tabe olmalı və ölkə vətəndaşlığını qəbul etməli;

2) Xankəndidə yaratdıqları saxta qurumlardan, yəni "parlament" və "prezident" adlandırdıqları oyuncaq təsisatlardan imtina etməli;

3) Qarabağdakı qanunsuz silahlı birləşmələr qeyd-şərtsiz tərksilah olunmalı və ölkəmizi tərk etməli;

4) Qarabağ ermənilərinin reinteqrasiya məsələlərini müzakirə etmək üçün iki dəfə Bakıya gəlmək dəvətindən imtina etməsi onların Azərbaycanın birgəyaşayış çağırışı-

na əhəmiyyət verməməsindən xəbər verir və onlar bilməlidirlər ki, üçüncü dəfə belə bir dəvət olmayacaq.

Qarabağdakı erməni separatçıları və onların havadarları bu xəbərdarlıqdan ciddi nəticə çıxarsalar, bu onların faydasına olar. Çünki tarix dəfələrlə sübut edib ki, Azərbaycan Prezidenti nəyi deyibsə, onu da mütləq həyata keçirib.

Şarl Mişelin bu reallığı doğru qiymətləndirərək dünən verdiyi açıqlamada istifadə etdiyi "maksimalist mövqelərdən çəkinmək lazımdır" çağırışı, hesab edirəm, ermənilərə ünvanlanmış mesajdır və ümid edirik ki, bugünkü görüşdə vasitəçilər Azərbaycanın irəli sürdüyü haqlı tələblərin yerinə yetirilməsinə töhfə verməyə çalışacaqlar.

**Əliabbas Salahzadə.** 2022-ci il üzrə dövlət büdcəsinin icra vəziyyətinə dair təqdim edilmiş hesabat imkan verir ki, ötən dövr ərzində hökumət tərəfindən büdcənin icrası istiqamətində atılmış mühüm addımları izləyə və dəyərləndirə bilək. Dövr ərzində nəzərdə tutulmuş əksər layihələr uğurla həyata keçirilmişdir. Məhz bu uğurlu siyasətin nəticəsidir ki, iqtisadiyyatımızda davamlı inkişaf dinamikası əldə edilmiş, nəticədə cari ilin ötən 6 aylıq dövrü ərzində dövlət büdcəsinin gəlirləri proqnozlara qarşı əhəmiyyətli dərəcədə artmış, ölkə iqtisadiyyatının sosial-iqtisadi inkişafına dair ötən ilin payızında verilmiş proqnozun yenilənməsi və ümumi daxili məhsulun əvvəlki proqnozla müqayisədə 5,6 milyard manat artırılması bu ilin dövlət büdcəsində əlavə maliyyə resurslarının yaranmasına  səbəb olmuşdur.

Ötən il ölkəmizdə ümumi daxili məhsul nominal ifadədə 133,8 milyard manata çatmışdır. Bu, 2022-ci ilin göstəricilərinə nəzərən 40,6 milyard manat çoxdur. Xüsusi ilə qeyd etmək lazımdır ki, İqtisadiyyat Nazirliyi tərəfindən 2022-ci ilin büdcəsinə yenidən baxılan zaman ÜDM

proqnozu 115,4 milyard manat səviyyəsində olmuşdur. Göründüyü kimi, 15 milyard manatdan çox proqnozdan artıq gəlir əldə edilmişdir. Ümumilikdə, sənədlə tanış olan zaman ölkə iqtisadiyyatının bütün sahə üzrə sıçrayışlı tərəqqi əldə etdiyini söyləyə bilərik.

Bildiyimiz kimi, 2022-ci ildə bütün sahələr üzrə müəyyənləşdirilmiş gəlir və xərclər əvvəlki illərlə müqayisədə kifayət qədər artmışdır. Müdafiə və təhlükəsizlik xərclərinin ümumi məbləği 4,8 milyard manatdan çox olmuşdur. Bu da ordumuzun qüdrətinin daha da artırılması baxımından olduqca önəmlidir. Gələcək illər ərzində də ordumuzun bölgənin ən güclü orduları sırasında yer almasına imkan verəcəkdir.

Son 2 il yarım ərzində işğaldan azad olunmuş torpaqlarımızda bərpa-quruculuq işlərinə 6 milyard manata yaxın vəsait xərclənmişdir. May ayının 27 və 28-də müzəffər Ali Baş Komandan möhtərəm cənab Prezidentimizin Laçın və Kəlbəcər rayonlarına səfəri zamanı, xüsusi ilə də Laçın şəhərinə öz evlərinə dönmüş soydaşlarımıza yeni mənzillərin açarlarının təqdimetmə mərasimi olduqca həssas, kövrək notlarla xatirimizdə qaldı. Vətən müharibəsində Zəfərimizin dünya hərb tarixinə düşdüyü kimi, görülmüş işlər və görülməsi nəzərdə tutulan meqa layihələr də dünyada örnəyi olmayan qayıdış və quruculuq layihələri kimi dünya tarixinə düşəcəkdir. Bura görülən bütün bu işlərin yalnız öz büdcəmiz hesabına həyata keçirilməsini də əlavə etsək, onda bu, iqtisadi gücümüzün real təcəssümü olmaqla yanaşı, dünyada analoqu olmayan bir hadisədir. Çünki dünyada az dövlət kənar maliyyə köməklikləri olmadan bu işlərin öhdəsindən gələ bilər. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azər-

baycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın təsdiqindən sonra bu proses sürətlənmişdir.

2022-ci ildə 3,6 milyard manatdan çox olmaqla büdcə xərcləri içərisində ikinci yeri təhsil sahəsi tutmuşdur ki, bu da dövlətimizin təhsilin inkişafına dəstəyinin göstəricisidir. Ötən ilki büdcədə sosial müdafiə xərclərinin artırılması dövlətimizin sosialyönümlü büdcə siyasətinin davamı olmaqla bu ildə bu tendensiya davam etdirilir ki, bu, vətəndaşlarımızın sosial rifah halının yaxşılaşdırılmasına xidmət edir. Ötən ilki büdcədə elmin inkişafı üzrə 1,6 milyard manat vəsait xərclənmişdir. Qələbəmizin həm də intellektual müharibə apara bilmək imkanlarımızın təmin edilməsi nəticəsində qazanıldığını nəzərə alaraq, elmə ayrılan bu vəsaitin gələcəkdə əhəmiyyətli dərəcədə artırılmasını zəruri hesab edirəm.

Artıq dünən “Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə qanun layihəsi cənab Prezident tərəfindən parlamentə göndərilmişdir və bu artım 3 milyard manat civarında nəzərdə tutulmuşdur. Bu da bizim qarşımıza qoyduğumuz strateji vəzifələri yerinə yetirmək imkanlarımızı artıracaqdır.

**Fatma Yıldırım.** Məlumdur ki, Prezidentimiz cənab İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü, prinsipial, milli maraqlara əsaslanan siyasət nəticəsində Azərbaycan güclü, dinamik inkişaf edən, yüksək beynəlxalq nüfuza malik ölkəyə çevrilib. Eyni zamanda, dövlətimizin başçısının rəhbərliyi ilə aparılan dərin islahatlar ötən il ərzində də ölkəmizin hərtərəfli, davamlı inkişafında böyük rol oynayıb. Dövlət tərəfindən göstərilən güclü siyasi iradə, islahatların əhatəsinin genişləndirilməsi milli iqtisadiyyatımı-

zın inkişafını yüksək səviyyədə təmin edir.

Biz bilirik ki, hazırda dünyada mürəkkəb proseslər baş verir və bunun nəticəsində bir sıra ölkələrdə ərzaq təhlükəsizliyi, iqtisadi böhran ciddi problem olaraq qalmaqdadır. Amma Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın yaratdığı yeni reallıqlar və yeni imkanlar sayəsində ölkəmizin iqtisadiyyatında dayanıqlı və davamlı artıma nail olunur. Hökumət üzvlərinin çıxışlarında bu barədə ətraflı məlumat verildi. Qeyri-neft sektorunda göstəricilərin dinamik olaraq artması xüsusi ilə məmnunluq doğurur.

Ümumiyyətlə, əldə etdiyimiz uğurlar dövlət büdcəsinin göstəricilərində də özünü ifadə edir. Verilən məlumatlardan da göründüyü kimi, ötən ilin dövlət büdcəsi uğurla icra edilib. 2022-ci ilin büdcəsində əsas amillərdən biri əhalinin sosial müdafiəsi üçün sosial xərclərin icrasıdır. Bu, bir daha təsdiqləyir ki, dövlət siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır.

Eyni zamanda, 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfər ölkəmizin inkişafında yeni mərhələ açıb. Hazırda dövlətimiz tərəfindən işğaldan azad edilmiş ərazilərimizdə möhtəşəm quruculuq işləri həyata keçirilir. Ötən ilin dövlət büdcəsində bu məqsədlə kifayət qədər vəsait ayrılmış və Qarabağla Şərqi Zəngəzurun bərpasına sərf olunub. Görülən bu işlər Böyük Qayıdışı daha da sürətləndirir. Ötən il büdcədən ayrılmış vəsaitlər hesabına həmin bölgələrdə yeni-yeni infrastruktur, sosial obyektlərin təməli atılıb. Cənab Prezident İlham Əliyev və Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyeva bu quruculuq işlərini xüsusi diqqət mərkəzində saxlayırlar.

Digər bir məqam isə ötən ilin büdcəsində hərbi və müdafiə sənayesi üçün ayrılmış xərclərdir. Dağlıq Qarabağ

münaqişəsi başa çatsa da, regionda bəzi dairələr tərəfindən təhdidlər hələ də qalmaqda, bölgədə sülh gündəliyinə qarşı Ermənistan qeyri-konstruktiv mövqeyini davam etdirməkdədir. Belə bir şəraitdə ölkəmizin müdafiə qabiliyyətinin artırılmasını diqqətdə saxlaması tamamilə doğru və məntiqlidir. Ümumilikdə, hesab edirəm ki, ölkəmizdə həyata keçirilən uğurlu maliyyə siyasəti dövlət büdcəsi xərclərinin maliyyə təminatına əsaslı imkanlar yaradır.

Bildiyiniz kimi, möhtərəm cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin regionlarının sosial-iqtisadi inkişafı istiqamətində mühüm tədbirlər həyata keçirilməkdədir. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının uğurlu icrası nəticəsində bölgələrimizin siması əhəmiyyətli dərəcədə dəyişib. Bu inkişaf Bərdə rayonunda da özünü göstərir. Bununla belə, rayonda bir sıra problemlər də var ki, onların həlli zəruridir. İlk olaraq mən təmsil etdiyim 93 saylı Bərdə şəhər seçki dairəsi üzrə təhsil infrastrukturu ilə bağlı vəziyyətə diqqəti cəlb etmək istəyirəm. Biz bilirik ki, ölkəmizdə təhsilin maddi-texniki bazasının gücləndirilməsi hökumətin siyasətinin əsas prioritet istiqamətlərindən biridir. Rayonda bu sahədə müəyyən işlər aparılıb, amma əsaslı təmirə ehtiyacı olan məktəblərin sayı da az deyil. Belə ki, rayon üzrə 14 məktəb qəzalı vəziyyətdədir. Onlardan Saatlı, Qarağacı və Yeni Daşkənd kənd orta məktəblərinin durumu isə daha acınacaqlıdır.

Eyni zamanda, elektrik enerjisi infrastrukturu, kabelləşmə məsələləri ilə bağlı, deyə bilərəm ki, 1 şəhər, 46 kənddən ibarət olan 93 saylı Bərdə şəhər seçki dairəsi üzrə Bərdə şəhəri və 6 kənd kabelləşib. 39 kənddə isə kabelləşməyə ehtiyac var. Həmçinin Bərdə şəhərində kabelləşmə gedən zaman 65 transformator yenilənib, 100-ə yaxın

transformatorun isə yenilənməyə ehtiyacı var. Yəni bu dairədə 80 faiz kabelləşməyə ehtiyac var. Məsələ ondandır ki, mən bu problemləri dəfələrlə parlamentdə səsləndirmişəm, eləcə də rəsmi olaraq müvafiq qurumlara müraciət etmişəm. Lakin 3 il ərzində sadaladığım məsələlər üzrə heç bir iş görülməyib. Sizlərdən problemlərin həllinin diqqət mərkəzində saxlanılmasını, bu məsələlərin həlli üçün dövlət büdcəsindən vəsait ayrılmasını xahiş edirəm.

**Könül Nurullayeva.** Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin icrası haqqında təqdim edilən hesabat xarakterli layihəni uğurlu hesab etmək olar. Ona görə ki, hesabat 2022-ci ildə dövlət maliyyəsinin idarə olunmasının təkmilləşdirilməsi, ölkəmizdə formalaşmış makroiqtisadi mühiti, 2022-ci il dövlət büdcəsində nəzərdə tutulmuş gəlir və xərclərin, habelə dövlət proqramlarının, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün ayrılmış vəsaitlərin icra göstəriciləri, il ərzində dövlət borclanmasına dair vəziyyəti, ehtiyat və məqsədli büdcə fondlarının vəsaitindən istifadə haqqında və digər zəruri məlumatları əhatəli şəkildə özündə əks etdirir.

Bununla yanaşı, ötən ilin fevralından başlayan Rusiya–Ukrayna müharibəsi geosiyası və geoiqtisadi müstəsna qlobal gərginliyin yaranmasının səbəbi olaraq pandemiya məhdudiyyətlərinin yumşalması fonunda yaşanan inflyasiya təzyiqləri qlobal əmtəə qiymətlərinin kəskin yüksəlişini şərtləndirmişdir. Nəticədə, dünya bazarında enerji daşıyıcılarının proqnozlarda nəzərdə tutulduğundan daha yüksək həddə çatması ölkədə ÜDM-in həcminin nəzərdə tutulduğundan çox olmasına, iqtisadi fəallığı artıra biləcək infrastruktur layihələrinə əlavə investisiyaların yönəldilməsinə, qeyri-neft sektorunda iqtisadi artımı təmin

etməsinə öz töhfəsini vermişdir.

2022-ci ildə ölkəmizin uzunmüddətli sosial-iqtisadi inkişafının prioritet istiqamətləri, o cümlədən işğaldan azad olunmuş ərazilərin yenidən qurulması, bərpası və Böyük Qayıdışın təşkili istiqamətində işlərin sürətlə davam etdirilməsi, dövlətin milli təhlükəsizliyinin və müdafiə qabiliyyətinin gücləndirilməsi, təhsil, səhiyyə, mədəniyyət, idman və fiziki infrastruktur layihələrinin reallaşdırılması, əhalinin aztəminatlı təbəqələrinin sosial müdafiəsi, kənd təsərrüfatının stimullaşdırılması, beynəlxalq təşkilatlara üzvlük haqlarının ödənilməsi və digər zəruri dövlət vəzifələrindən irəli gələn tədbirlərin icrası üçün tələb olunan məbləğdə maliyyə təminatı yaradılmışdır.

Məcmu olaraq sosialyönümlü xərclər 2022-ci il dövlət büdcəsi xərclərinin 36,1 faizini və ya 11576,9 milyon manatını təşkil etmişdir ki, bu da 2021-ci illə müqayisədə 1280,3 milyon manat va ya 12,4 faiz çoxdur.

Təhsil bölməsinin 2022–2025-ci illər üçün tərtib edilmiş strateji planında ölkəmizdə müstəqil və yaradıcı düşünən vətəndaşın formalaşdırılması, yüksək ixtisaslı kadrların hazırlanması kimi məqsədlər qarşıya qoyulmuş və bu məqsədlərə çatmaq üçün “məktəbəqədər yaşlı uşaqların məktəbəqədər təhsil müəssisələrində təhsilalma imkanlarının təmin edilməsi”, “ümumi təhsil proqramı üzrə təhsilalanların həyata və ali təhsilə hazırlanması”, “peşə təhsili və təlimi sahəsində fasiləsiz öyrənmənin təmin olunması, peşə təhsilinin əhatə dairəsinin və keyfiyyətinin artırılması”, “orta ixtisas təhsili sahəsində fasiləsiz öyrənmənin təmin olunması” və sair kimi 31 strateji hədəf müəyyən olunmuşdur. 2022-ci ilin dövlət büdcəsindən sözügedən 31 strateji hədəfin icrası məqsədi ilə 17 proqramın, 25 subproqramın və 111 tədbirin həyata keçirilməsi üçün

3696,5 milyon manat məbləğində vəsait yönəldilmişdir.

2022-ci il dövlət büdcəsindən funksional təsnifata uyğun olaraq, elm, təhsil, səhiyyə, sosial müdafiə və sosial təminat, mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət xərclərinə proqnoza nisbətən 0,8 faiz az vəsait istifadə olunmuşdur.

Elmin inkişafı, elm va texnikanın nailiyyətlərinin praktikada tətbiqi, fundamental, tətbiqi va axtarış-innovasiya xarakterli elmi tədqiqat proqramlarının və layihələrinin qrant şəklində ünvanlı maliyyələşdirilməsini həyata keçirən Azarbaycan Respublikası Prezidentinin yanında Elmin İnkişafı Fondunun maliyyələşdirilməsi üçün 2022-ci ilin dövlət büdcəsində nəzərdə tutulmuş 4,2 milyon manat məbləğində vəsaitə qarşı icra 2,2 milyon manat, yəni 51,6 faiz təşkil etmişdir. Fond üzrə vəsaitin az, yəni 48,4 faiz icra olunmasının əsas səbəbi hesabat ilində fondun Himayədarlar Şurasının icra müddətinin başa çatması ilə əlaqədar yeni müsabiqələrin elan olunmaması, eləcə də 2022-ci ildə fondun hüquqi statusunun dəyişdirilməsi ilə bağlı olmuşdur.

Eyni zamanda, əhalinin aztəminatlı təbəqəsinin ali təhsilə əlçatanlığını daha da artırmaq və ali təhsilin əhatə dairəsini genişləndirmək məqsədi ilə tələbə kreditinin verilməsi üçün 2021-ci ildə 80 milyon manat, 2022-ci ildə 22 milyon manat, cəmi ötən 2 il ərzində dövlət büdcəsindən Təhsil Tələbə Kredit Fonduna ayrılmış 102 milyon manat vəsait hesabına hazırda cəmi 12600 nəfərə, o cümlədən 4700 nəfərə (37 faiz) sosial, 7900 nəfərə (63 faiz) standart təhsil tələbə krediti verilmişdir.

Hesabat ilində əmək pensiyalarının, sosial müavinətlərin və təqaüdlərin məbləğlərinin artırılması ilə bağlı bir

sıra mühüm qərarlar qəbul olunmuşdur. Dövlət maliyyəsinin idarə edilməsi, büdcə sənədləşməsinin keyfiyyətinin yüksəldilməsi, büdcə hesabatlılığı illik hesabatda dəqiq və dolğun şəkildə nəzərə alınmışdır.

**Malik Həsənov.** 2022-ci il üzrə dövlət büdcəsinin icra vəziyyətinə dair hesabatla tanış olan zaman aydın olur ki, ötən dövr ərzində hökumət tərəfindən büdcənin icrası istiqamətində mühüm addımlar atılmış, nəzərdə tutulmuş əksər layihələr həyata keçirilmişdir.

Hesabatdan da göründüyü kimi, ötən il ölkəmizdə ümumi daxili məhsul nominal ifadədə 133,8 milyard manata çatmışdır. Bu, 2022-ci ilin göstəricilərinə nəzərən 40,6 milyard manat çoxdur. Xüsusi ilə qeyd etmək lazımdır ki, İqtisadiyyat Nazirliyi tərəfindən 2022-ci ilin büdcəsinə yenidən baxılan zaman ÜDM proqnozu 115,4 milyard manat səviyyəsində olmuşdur. Göründüyü kimi, 15 milyard manatdan çox proqnozdan artıq gəlir əldə edilmişdir. Ümumilikdə, sənədlə tanış olan zaman ölkə iqtisadiyyatının bütün sahələr üzrə sıçrayışlı tərəqqi əldə etdiyini söyləyə bilərik.

Bildiyimiz kimi, 2022-ci ildə bütün sahələr üzrə müəyyənləşdirilmiş gəlir və xərclər əvvəlki illərlə müqayisədə kifayət qədər artmışdır. Bu mənada müdafiə və təhlükəsizlik xərclərinin ümumi məbləği 4,8 milyard manatdan çox olmuşdur ki, bu da təbiidir və hesab edirəm, ordumuzun qüdrətinin artırılması və təhlükəsizliyimizin təmini baxımından olduqca əhəmiyyətlidir.

Son 2 il ərzində işğaldan azad olunmuş torpaqlarımızda bərpa-quruculuq işlərinə 5 milyarda yaxın vəsait xərclənmişdir. Bu il ayrılmış vəsaiti də bunun üzərinə gəlsək, 7 milyarda yaxın vəsait yatırılacaqdır. May ayının 28-də Zəfərimizin müəllifi möhtərəm cənab Prezidentimizin

Laçına səfəri zamanı bura köçürülmüş insanlara mənzillərin açarlarının təqdimetmə mərasimi olduqca qürurlu və kövrək bir tədbir idi. Aparılan quruculuq işləri ilə tanışlıq zamanı bir daha aydın olur ki, cənab Prezidentimizin əsas məqsədi vətəndaşlarımızın öz doğma yurd-yuvalarına tez bir zamanda qayıdışını təmin etmək və salınmış hər yeni şəhər və kəndin infrastruktur baxımından dünyaya örnək olmasıdır. Görülən bütün bu işlərin yalnız öz büdcəmiz hesabına həyata keçirilməsi iqtisadi gücümüzün real təcəssümüdür.

Büdcə xərcləri içərisində ikinci yeri təhsil sahəsi tutmuşdur. Hesab edirəm ki, bu məbləğ kifayət qədər tutumlu olsa da, burada diqqəti cəlb edən bir məqam var. Bu da həmin yatırımın 80 faizinin əməkhaqqı fonduna yönəldilməsidir. Bununla belə, son illərdə müəllimlərin əmək haqlarının hiss olunacaq dərəcədə artırılmasına baxmayaraq, hələ də müəllimlərin əməkhaqqısı ölkə üzrə orta aylıq əməkhaqqı səviyyəsindən aşağıdır. Gələcək illərdə müəllimlərin əməkhaqqısının ölkə üzrə orta aylıq əməkhaqqı səviyyəsinə çatdırılması zəruridir. Eyni zamanda, bu gün bir çox rayonlarımızda, xüsusən kənd yerlərində fəaliyyət göstərən məktəblərin və uşaq bağçalarının təmirinə və inşasına ciddi ehtiyac vardır. Bu mənada təmsil etdiyim Cəlilabad rayonunda da ciddi problemlər vardır. Fürsətdən istifadə edərək, hökumət üzvlərindən bu problemin müəyyən qədər həllinə kömək göstərilməsini xahiş edərdim.

Toxunmaq istədiyim digər məsələ elm sahəsinə ayrılan vəsaitlə bağlıdır. Büdcədə bu bənd üzrə 1,6 milyard manat vəsait xərclənmişdir. Lakin nəzərə alsaq ki, elmə xərclənmiş hər 1 manat vəsait gələcəkdə 1-ə 100 nisbətində gəlir əldə etməyə imkan verir, gələcəkdə bu vəsaitin bir

qədər artırılması məqsədəuyğun olardı.

Yəqin ki, gələn ay biz 2023-cü ilin büdcəsinə dürüstləşmə ilə əlaqədar olaraq yenidən baxacağıq. Buna ötən 6 ay ərzində əldə etdiyimiz proqnozdankənar gəlirlərin mövcudluğu imkan yaradır. Ötən gün bununla bağlı "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə qanun layihəsi cənab Prezident tərəfindən Milli Məclisə göndərilmişdir. Hökumət üzvlərindən xahiş edərdim ki, dürüstləşmə zamanı regionların, xüsusən də aqrar sahənin üstünlük təşkil etdiyi rayonların problemlərinin həllinə həssas yanaşsınlar.

**Sadiq Qurbanov.** Çıxışımda üç məsələyə dair fikir bildirmək istəyirəm.

1. Müstəqillik dövründə ilk dəfədir ki, icmal büdcədə 8 milyard manatlıq profisit yaranmışdır. İcmal büdcə gəlirlərinin xərclərini əhəmiyyətli şəkildə üstələməsi nəticəsində icmal büdcədə profisit yaranmışdır. Profisitin yaranması neft-qaz sektoru üzrə daxilolmaların həcminin kəskin artımı ilə bağlı olmuşdur. Artımın əsas payı dövlət büdcəsi üzrə 1,5 milyard manat, Dövlət Neft Fondu üzrə 1 milyard manatdan çox təşkil etmişdir.

Dövlət Gömrük Komitəsinin məlumatlarına görə, təkcə təbii qazın ixracı üzrə daxilolmaların həcmi son ildə 2,7 dəfə artmışdır. Halbuki son 1 ildə təbii qaz ixracının həcmi azalmışdır. Bu azalma fonunda kəskin qiymət artımı dövlət sektoru üzrə daxilolmaların artımına səbəb olmuşdur. Eyni zamanda, Dövlət Gömrük Komitəsinin məlumatlarına görə, xam neft və xam neft məhsullarının ixracı üzrə daxilolmaların həcmi 1,5 dəfə artmışdır.

Dövlət Gömrük Komitəsinin icmalına görə, 2 illik icra rəqəmlərini müqayisə etdikdə məlum olur ki, neft-qaz

sektoru üzrə ixracdan daxilolmaların həcmi ötən il əvvəlki illə müqayisədə 1,8 dəfə artmışdır.

Bir faktı qeyd etmək lazımdır ki, hələ 3 il öncə icmal büdcədə 7,5 milyard manatlıq profisit, 2020-ci ildə isə 4,7 milyard manatlıq kəsir müşahidə edilirdi. Bu, neft-qaz sektorunun dövlət maliyyəsi üçün nə dərəcədə həssas parametr olduğunu göstərir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 17 yanvar tarixli 15 nömrəli Qərarı ilə "Hüquqi nəticə yaradan hərəkətləri dövlətin adından həyata keçirən, Azərbaycan Respublikası Prezidentinin yaratdığı publik hüquqi şəxsin (statusu Azərbaycan Respublikasının qanunu ilə müəyyən edilən, habelə dövlət orqanlarının strukturuna daxil olmayan tabeliyindəki publik hüquqi şəxslər istisna olmaqla) işlər görülməsindən və xidmət göstərilməsindən əldə etdiyi vəsaitin (o cümlədən tutulan xidmət haqlarının) həmin publik hüquqi şəxsin sərəncamında qalan hissəsindən istifadə Qaydası" təsdiq edilmişdir.

Qaydaya əsasən publik hüquqi şəxs əldə etdiyi vəsaitdən qanunda nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri ödədikdən sonra sərəncamında qalan vəsaiti ilk növbədə işçilərin əməkhaqqı fondunun maliyyələşdirilməsinə, bundan sonra qalan vəsaiti onların sosial müdafiəsinin gücləndirilməsinə istifadə edir.

Analoji yanaşmanın dövlət büdcəsindən subsidiya alan dövlət müəssisələrinin özlərinin əldə etdikləri gəlirlərinin xərclənməsində də tətbiq edilməsi məqsədəmüvafiqdir. Bu yanaşma real sektorda fəaliyyət göstərən dövlət müəssisələrinin xərclərinin sağlamlaşdırılmasına və dövlət büdcəsindən subsidiyaların yalnız cari xərclərə (qeyri-əmək haqqı məzmunlu) yönəldilməsi kimi mövcud məhdudiyyətə əməl edilməsinə böyük töhfə verər.

Milli iqtisadiyyatda mövcud olan bank infrastrukturu vasitəsi ilə daxili mənbələr hesabına rezidentlərin biznes fəaliyyətinin kreditlə yanaşı, digər alternativ maliyyələşdirilmə məhsullarının *(tərəfdaşlıq, şəriklilik, payçılıq və sair)* formalaşdırılması istiqamətində tədbirlərin görülməsi, ilkin mərhələdə hüquqi əsasların yaradılması və pilot layihələrin reallaşdırılması *(Türkiyə, Malayziya, İndoneziya, BƏƏ, Qətər, Səudiyyə Ərəbistanı, Bəhreyn və sair ölkələrin timsalında özünü doğruldan təcrübələr öyrənilməklə)* fikrimizcə, artıq zamanın tələbinə çevrilmişdir.

Belə ki, "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 33.1-ci maddəsinə əsasən icazə verilmiş fəaliyyət növləri *(qanunun 32-ci maddəsində göstərilən)* istisna olmaqla, heç bir bank topdansatış və ya pərakəndə ticarət, istehsal, nəqliyyat, kənd təsərrüfatı, yataqların işlənilməsi, tikinti və sığorta fəaliyyəti ilə məşğul olan və ya sığorta təşkilatları istisna olmaqla tərəfdaş, şərik və ya payçı kimi bunlar da iştirak edə bilməz.

Bu imperativ tələblər çərçivəsində isə real sektorun geniş coğrafi şəbəkəyə malik bank infrastrukturu vasitəsi ilə maliyyələşdirilməsi yalnız kredit resursları ilə mümkün olur ki, bu da biznes subyektlərinin maliyyə resurslarına zəruri *(əlverişli)* şərtlərlə əlçatanlığında seçim imkanlarını məhdudlaşdırır, reallaşdırılması uğur *(mənfəət)* gətirməyən biznes planlara verilən kreditlərlə biznes subyektləri qeyd-şərtsiz faiz ödənişləri yükünə məruz qalır, *yəni biznesi uğura istiqamətləndirmək üçün optimal şans yaranmır,* banklar isə "maliyyələşdirdikləri biznes təşəbbüslərin *(planların)* uğur qazanıb-qazanmamasından, *o cümlədən iflas olmasından* asılı olmayaraq gəlir *(mənfəət)* əldə etmək" təfəkkürü ilə işləyirlər.

Real sektorun banklar vasitəsi ilə mövcud maliyyələş-

dirilmə modeli, *yəni yalnız kreditlər vasitəsi ilə* əvvəlki illərdə olduğu kimi 2022-ci ildə də kredit qoyuluşlarının ümumi həcmində istehlak kreditlərinin payının artmasını, biznes kreditlərinin payının isə azalmasını şərtləndirməkdə davam etmişdir. Belə ki, 2022-ci il ərzində istehlak kreditlərinin aid edildiyi ev təsərrüfatlarına kredit qoyuluşunun xüsusi çəkisi 5 faiz bəndi artaraq 55,9 faizə yüksəlmiş, biznes kreditlərin xüsusi çəkisi isə eyni faiz bəndi səviyyəsində azalaraq 44,1 faizə enmiş, eyni tendensiyanın 2023-cü ilin ilk aylarında da müşahidə olunmaqla davam edəcəyi gözlənilləndir.

**Səttar Möhbalıyev.** Bu gün müzakirə etdiyimiz məsələlər: Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin icrası haqqında Azərbaycan Respublikası qanununun layihəsi və Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin icrasına dair illik hesabat ölkəmizdə aparılan sosial-iqtisadi islahatların müasir dövrün çağırışlarına tam uyğun olması barədə fikir söyləməyə əsas verir.

Hesablama Palatasının verdiyi rəydə müzakirə etdiyimiz sənədlərin qanunvericiliyin tələbləri nəzərə alınmaqla, hazırlanması təsbit olunmuş və Milli Məclisin müzakirəsinə çıxarılması tövsiyə edilmişdir. Hesablama Palatası tərəfindən əvvəlki ildə verilmiş tövsiyələrin icrası təhlil olunmuş, növbəti illərdə dövlət büdcəsinin icrasının təmin olunması istiqamətində dəyərli təkliflər verilmişdir.

Müzakirəmizə təqdim olunan sənədlərdən görmək olur ki, dünyada baş verən siyasi və iqtisadi təlatümlərə, hərbi münaqişələrə, təbii sarsıntılara rəğmən, Azərbaycan iqtisadiyyatı öz dayanıqlığını qoruyub saxlamış, Avropanın enerji və logistik təhlükəsizliyini təmin edən ölkəyə, regionun lider dövlətinə çevrilmişdir. İşğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı quruculuq işləri

ölkəmizi investisiya qoyuluşları üçün cəlbedici və etibarlı məkana çevirmişdir və dünyanın nüfuzlu şirkətlərinin Azərbaycanda fəaliyyət göstərməyə artan marağı bunun sübutudur.

Azərbaycan hökuməti dünyanın əksər ölkələrində baş vermiş iqtisadi tənəzzül meyillərini təhlil edərək düzgün nəticələr çıxarması və adekvat önləyici tədbirlər işləyib hazırlaması sayəsində məhz 2022-ci ildə ümumi daxili məhsul istehsalı 133,8 milyard manata çataraq, proqnozlaşdırılan göstəricidən 18,4 faiz bənd çox olmuşdur. Ötən il də əvvəlki illərin müsbət meyli – ÜDM-də qeyri-neft sektorunun payının çoxalması trendi qorunub saxlanmış, bu göstərici ümumi artım tempindən təqribən 2 dəfə çox, 9,1 faiz olmuşdur. Burada nəzərə almalıyıq ki, neft sektorunun ÜDM-də olan payına postpandemiya dövründə dünya bazarlarında neft-qaz məhsullarına tələbatın çoxalması və buna müvafiq olaraq neftin 2022-ci ilin dövlət büdcəsində proqnozlaşdırılmış qiymətinə yenidən baxılaraq 1 barelə görə 50 ABŞ dollarından 85 ABŞ dolları məbləğində qəbul olunmuşdur. Reallıqda isə "Azeri Light" markalı neftin qiyməti ötən ilin iyununda pik həddinə çataraq 125,4 ABŞ dolları olmuşdur. Bu amilləri nəzərə almasaq, ötən il Azərbaycanda ÜDM-in artımına, ümumilikdə, qeyri-neft-qaz sektoru hesabına nail olunmuşdur. Bu isə iqtisadi siyasətimizin əsas hədəflərindən birinə çatmasıdır.

Qeyri-neft-qaz sektoruna aid olan bütün sahələrdə artım müşahidə edilmiş, bu artımın əsas təkanvericisi isə nəqliyyat, tikinti, turizm xidmət sahələri olmuşdur. Məhz bu sahələrin inkişafı ölkəmizin dünyada daha yaxşı tanınması və ona marağın artması, beynəlxalq əlaqələrimizin genişlənməsi, xarici sərmayəçilərin cəlb olunması üçün

zəmin yaradır. Bu sahələrin əmək tutumlu olması isə yeni iş yerlərinin yaradılması, bir çox sosial-iqtisadi problemlərin həlli deməkdir.

İşğal altında olmuş ərazilərimizdə quruculuq işlərinin yüksək templərlə aparılması əsas kapitala yönəldilən vəsaitlərin əvvəlki illə müqayisədə 5,5 faiz artımında öz təzahürünü tapır. Ən önəmlisi isə bu vəsaitlərin 80,6 faizinin məhz daxili mənbələrdən formalaşması, investisiyaların 5,4 milyard manatının, yaxud 70,5 faizinin qeyri-neft-qaz sektoruna yönəldilməsi, əvvəlki illə müqayisədə 13,6 faiz artım əldə edilməsidir. Təbii ki, həmin ərazilərin, əsasən, dövlət vəsaitləri hesabına bərpası investisiyalarda dövlətin payının yüksək olmasını labüdləşdirir və ötən il bu rəqəm 64,2 faiz olmuşdur. Əminəm ki, hökumət tərəfindən investisiya siyasətində müasir dövrün çağırışlarına uyğun addımların atılması daxili maliyyə resurslarından daha səmərəli istifadə olunmasına və yerli biznesin bu işlərə daha çox cəlb olunmasına, pul-kredit siyasətinin səmərəliliyinin yüksəlməsinə, xarici təhdidlərin təsirindən qorunmağa imkan yaradır.

Təbii ki, Azərbaycan iqtisadiyyatı dünya iqtisadiyyatının tərkib hissəsi olmaqla orada baş verən mənfi meyillərdən, bütövlükdə, tədric oluna bilməz. Belə ki, dünya ticarətində baş verən hadisələr, xüsusi ilə də ərzaq təhlükəsizliyi probleminin aktuallaşması nəticəsində inflyasiya templəri proqnozlaşdırılandan 1,4 faiz bənd çox olmuşdur. Bütün səylərə baxmayaraq, istehlak səbətinə daxil olan malların orta illik qiyməti 19,5 faiz bahalaşmışdır. Bahalaşma xüsusi ilə kənd təsərrüfatı məhsulları seqmentində nəzərəçarpacaq olmuşdur. Buna görə də yaxın dövrlərdə əsas növ kənd təsərrüfatı məhsullarının yetişdirilməsinin artırılması, fermerlər üçün daha güclü motivasiya üsullarının

hazırlanması məsələsinə diqqətinizi cəlb etmək istərdim.

Təqdim olunan hesabatdan göründüyü kimi, 2022-ci ildə dövlət büdcəsinin gəlirləri təsdiq olunmuş proqnozla müqayisədə 5,1 faiz çox, yəni 30,7 milyard manat, xərcləri isə 0,7 faiz az, yəni 32,1 milyard manat olmuşdur. Bu rəqəmləri ölkəmizdə vergi inzibatçılığı, gömrük işi sahəsində aparılan islahatların, dövlət büdcəsinin vəsaitlərindən istifadə olunması üzərində nəzarətin gücləndirilməsi, dövlət satınalmalarında şəffaflığın artırılması kimi qiymətləndirirəm.

Önəmli haldır ki, büdcə gəlirlərinin 50,7 faizi Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti, 18,4 faizi isə Dövlət Neft Fondu tərəfindən təmin edilmişdir. Diqqətəlayiqdir ki, Dövlət Neft Fondundan dövlət büdcəsinə transferin məbləğinin azaldılması tendensiyası ötən il də qorunub saxlanmışdır və 25,8 faizə enmişdir. Xatırladım ki, cəmi 5 il öncə dövlət büdcəsinin gəlirlərinin 36,4 faizi bu fonddan transferlər hesabına formalaşırdı. Müasir dövrün reallıqlarını nəzərə almaqla, hesab edirəm ki, bu göstərici qeyri-neft-qaz sektorunda aparılan islahatların uğurunu kifayət dərəcədə xarakterizə edir.

Ölkədə vergi inzibatçılığının gücləndirilməsi sayəsində dövlət büdcəsinə vergi orqanları xətti ilə daxilolmalar təsdiq olunmuş proqnozla müqayisədə 32,4 faiz artıqlaması ilə 15,5 milyard manat məbləğində, əlavə dəyər vergisi üzrə proqnoz isə 11,7 faiz, 309,1 milyon manat artıqlaması ilə icra olunmuşdur. Bu məbləğin 7,4 milyard manatı, yəni 52,3 faizi qeyri-neft sektorundan toplanmışdır. Qeyri-neft sektorunda mənfəət vergisinin 2,6 milyard manat artaraq proqnoza nisbətən 8,8 faiz, əvvəlki illə müqayisədə isə 44,5 faiz təşkil etməsi çox mühüm göstərici hesab edilməlidir.

Ölkəmizin xarici ticarət dövriyyəsinin artırılmasında, beynəlxalq əlaqələrinin genişlənməsində gömrük orqanlarının fəaliyyəti xüsusi qeyd olunmalıdır. Gömrük sahəsində aparılan islahatlar, idxal olunan malların xaricdən gətirilərək əhalinin tələbatının daha dolğun ödənilməsinə, yerli istehsalçıların xarici bazarlara çıxışının asanlaşdırılmasına, ticarət proseslərinin liberallaşdırılmasına xidmət edir. Bu islahatlar və bir sıra başqa amillər hesabat dövründə gömrük rüsumları üzrə proqnozun 120 milyon manat, yaxud 9,2 faiz, 2021-ci illə müqayisədə isə 17,8 faiz artırmağa imkan vermişdir.

Dövlət büdcəsinin icrasının parlamentdə müzakirə olunmasının əsas məqsədlərindən biri də toplanılan vəsaitlərin təyinatına uyğun, nə dərəcədə səmərəli istifadə olunmasını müəyyənləşdirməkdir. Öncə qeyd etmək istərdim ki, əvvəlki dövrlərdəki kimi, 2022-ci ilin büdcəsinin də sosial və investisiya yönümü qorunub saxlanmışdır. Yəni dövlət büdcəsinin vəsaitləri kompleks proqramlar, pilot layihələr əsasında, əhalinin getdikcə artan maddi və sosial ehtiyaclarının ödənilməsi, vətənimizin təhlükəsizliyinin təmin olunması meyarları əsasında xərclənmişdir.

Ötən il dünyada yaranan yeni reallıqlar nəzərə alınaraq, xərclərin ilkin təsdiq olunmuş məbləği 8,1 faiz, yaxud 2,4 milyard manat artırılmışdır və 32,3 milyarda çatmışdır. Bu göstərici 2021-ci illə müqayisədə 4,6 milyard manat, yaxud 16,9 faiz, cəmi 5 il bundan öncəki dövrlə müqayisədə isə 9,3 milyard manat, yaxud 41,1 faiz çoxdur.

Strukturuna görə, 2022-ci ilin dövlət büdcəsi xərclərinin 55,3 faizi cari xərclərə, 39,1 faizi əsaslı xərclərə, 5,6 faizi dövlət borcuna xidmətlə bağlı xərclərə yönəldilmişdir. Burada diqqətinizi bir məqama, dövlət borcuna xərclərin 2021-ci illə müqayisədə 18,5 faiz azalmasına cəlb

etmək istərdim. Bu göstəricini ölkəmizdə maliyyə-bank sektorunun fəaliyyətinin, borcların idarə olunmasının səmərəliliyinin artması ilə əlaqələndirmək olar.

Dövlət büdcəsinin strukturunda 36,1 faiz sosialyönümlü xərclərin payına düşür. 2021-ci illə müqayisədə bu istiqamətdə xərclərin 12,4 faiz artması əhalinin, xüsusi ilə də onun aztəminatlı təbəqəsinin sosial problemlərinin həllinin, təhsilin, səhiyyənin, mədəniyyətin inkişafı, ətraf mühitin qorunması üçün vəsaitlər ayrılmasının ölkəmizdə həmişə prioritet olduğunu göstərir. Dünya iqtisadiyyatında baş verən çətinliklər fonunda son 5 il ərzində icra olunmuş sosialyönümlü xərclərin 1,6 dəfə artması bunun sübutudur.

Vətənimizin bərpa olunmuş ərazi bütövlüyünün qorunması müdafiə potensialımızın gücləndirilməsini, xarici və daxili təhdidlərə qarşı layiqli cavab verə biləcək ordumuzun və güc strukturlarımızın olmasını tələb edir. Bu məqsədlə dövlət büdcəsindən lazımi vəsaitlər ayrılır və 44 günlük Vətən müharibəsində qazandığımız qələbə bu vəsaitlərdən səmərəli istifadə edildiyini göstərir. 2022-ci ildə bu məqsədlərə ayrılan vəsait büdcə xərclərinin 17,5 faizi qədərdir. 2021-ci illə müqayisədə isə ayrılan vəsaitlərin məbləği 354,7 milyon manat, yaxud 15,1 faiz çox olmuşdur.

Bütün qeyd olunanlar, həyata keçirilən tədbirlər son nəticədə dövlət büdcəsinin kəsirinin ÜDM-in cəmi 1 faiz olması proqnozlaşdırılan həddən 2,8 faiz az olması ilə nəticələnmişdir. Bu, göstərir ki, müasir Azərbaycan özünü pul vəsaitləri ilə tam təmin edən ölkəyə, dünya iqtisadiyyatının investisiyalar sektorunda mühüm oyunçulardan birinə çevrilmişdir.

Hesab edirəm ki, Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin icrası haqqında Azərbaycan Respublikasının qanun layihəsi və Azərbaycan Respublikasının

2022-ci il dövlət büdcəsinin icrasına dair illik hesabat müvafiq qanunvericiliyin tələblərinə, müasir dövrün reallıqlarına uyğun hazırlanmışdır və Milli Məclis tərəfindən qəbul edilə bilər.

## MÜNDƏRİCAT


2 may 2023-cü il .................................................................. 3
12 may 2023-cü il................................................................ 95
16 may 2023-cü il................................................................ 221
30 may 2023-cü il................................................................ 330
31 may 2023-cü il................................................................ 417
Edilməmiş çıxışların mətnləri.............................................. 528

Altıncı çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI
# VƏ
# STENOQRAMLARI

On ikinci sessiya
Yaz

51-ci cild

2 – 31 may 2023-cü il

Buraxılışına məsul
***H. Babayev***

Azərbaycan Respublikasi Milli Məclisinin mətbəəsi.
Bakı, Azad Mirzəyev küçəsi, 235.
Format 60x84 1/16. Çap vərəqi  35,6. Sifariş 13. Tiraj 150.